Azərbaycan Universiteti

GƏNC TƏDQİQATÇILARIN III RESPUBLİKA ELMİ-PRAKTİK KONFRANSININ MATERIALLARI

13 mart 2020-ci il

Bakı | AZƏRBAYCAN

TƏŞKİLAT KOMİTƏSİ

SƏDR

Səadət Əliyeva

Rektor, Azərbaycan Universiteti

Üzvlər

Yusif Qasımov

Nüşabə Quliyeva

Lətifə Ağamalıyeva

Asif Paşayev

Səfər Məmmədov

Ülviyyə Rəhimova

Qabil Əliyev

Nəriman Böyükkişi

Samirə Məmmədova

Tünzalə Verdiyeva

Katib

Afiq Nadirov

MÜNDƏRİCAT

Abasova Leyla…… 12
"BAKI FƏHLƏSİ" KOOPERATİV NƏŞRİYYATININ YARANMASI TARİXİNDƏN

Abbasova Kəmalə..... 14
XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN İNKLÜZİV TƏHSİLİNDƏ VALİDEYN VƏ MÜƏLLİMLƏRİN ƏVƏZOLUNMAZ ROLU

Abbasova Qəşəng 16
ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI- SOSİAL YARDIMIN HƏYATA KEÇİRİLMƏSİNİN YENİ MƏRHƏLƏSİ KİMİ

Abbasova Sədaqət 18
NİTQDƏ SUPRASEQMENT VAHİDLƏRİN ROLU

Abbaszadə Günel..... 20
DEVİANT DAVRANIŞIN HƏYATIN MÜXTƏLİF SAHƏLƏRİNƏ TƏSİRİ

Abdullayeva Nigar..... 22
H. MELVİLLİN "TAYPİ, POLİNEZİYA HƏYATINA BİR BAXIŞ" ƏSƏRİNDƏ SOSİAL PROBLEMATİKA

Abdullayeva Sevda..... 26
NADİR ŞAH ƏFŞARIN HİNİDSTAN SƏFƏRİNƏ DAİR

Abdullayeva Yeganə 28
POSTMODERNİST ROMANDA MULTİKULTURAL DƏYƏRLƏRİN İNİKASI

Ağaməmmədova Şəbnəm..... 30
DİLÇİLİKDƏ DİSKURS ANLAYIŞI

Ağayeva Xəyalə..... 31
FRANSA-QAFQAZ KOMİTƏSİNİN (1919) FƏALİYYƏTİNƏ DAİR

Akman Məltəm..... 33
AMERİKA VƏ DÜNYA ƏDƏBİYYATINDA ROMANTİZM CƏRƏYANININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Alızadə Nilufər..... 36
GƏNC AİLƏLƏRİN SOSİAL PROBLEMLƏRİNİN TƏHLİLİ

Allahverdiyeva Natavan 38
LÖVHƏNİN MƏXSUSİ TEZLİYİNİN ONUN OBLASTINDAN ASILI BİR XASSƏSİ HAQQINDA

Babayeva Aysel 40
XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN İNKİŞAFINDA ERKƏN MÜDAXİLƏNİN ROLU

Babayeva Rəhimə 42
İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ QRAMMATİKANIN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ÜSULLAR

Baxşaliyeva Ağca 43
MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASININ DAĞISTAN RESPUBLİKASI ARASINDA SİYASİ-MƏDƏNİ ƏLAQƏLƏR

Bayramova Növrəstə 45
IX SİNİF RİYAZİYYAT VƏ İNFORMATİKA FƏNLƏRİ ÜZRƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ İMKANLARI

Behbudov Elmәddin..... 48
“AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI”NA ÖTƏRİ BAXIŞ

Cabbarlı Aynur 50
İNGİLİS DİLİNİN AVSTRALİYA VARİANTININ YARANMASI ŞƏRTLƏRİ

Çələbiyeva Leyli..... 52
DAUN SİNDROMLU UŞAQLARA ERKƏN MÜDAXİLƏ, TERAPİYA VƏ TƏHSİL PROQRAMLARI

Damirchalova Arzu..... 54
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN FRAZELOJİ SİSTEMİNİN TİPOLOJİ MÜQAYİSƏSİ

Dünyamalıyev Fərid..... 56
AZƏRBAYCANDA GƏNCLƏRİN TƏHSİL PROBLEMLƏRİ VƏ ONLARIN CƏMİYYƏTDƏ ROLU

Əhmədov Kənan..... 58
ÇAĞDAŞ ANALİTİK VƏ QİTƏ FƏLSƏFƏSİ ƏNƏNƏLƏRİNDƏ İCTİMAİ-SİYASİ TƏFƏKKÜR

Əhmədova Aytən..... 61
AZƏRBAYCAN DİLİNİN QƏRB QRUPUNA DAXİL OLAN DİALEKTLƏR

Əhmədova Elnurə 63
OĞUZ TÜRKLƏRİNİN NAĞIL LEKSİKASININ SEMANTİK TƏDQİQİ

Əhmədova Tamella..... 65
BİOMETRİK İNFORMASİYA TEXNOLOGİYALARI

Əhmədova Türkan..... 67
GÖRKƏMLİ İDEOLOQ ƏHMƏD BƏY AĞAOĞLUNUN ŞƏRƏFLİ HƏYAT TARİXÇƏSİ

Ələkbərli Suğra..... 69
2000-ci İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANIN PSİXOLOJİ KİMLİYİNİN AÇILMASI

Алекперова Нигяр..... 71
ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ РЫНКА МЕДИЦИНСКИХ УСЛУГ

Əlixanova Gülnarə..... 75
“MƏN” OBRAZI VƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN ÜNSİYYƏT TƏCRÜBƏSİ

Əliyev Fərid..... 77
1918-ci İL MART SOYQIRIMI

Aliyev Yagub..... 79
STURM-LIOUVILLE PROBLEMS WITH EIGENVALUE DEPENDENT BOUNDARY CONDITIONS

Əliyeva Aynurə..... 80
PAULİ OPERATORUNUN MƏXSUSİ ƏDƏDLƏRİNİN FUNKSİYASI ÜÇÜN MİNİMALLAŞDIRMA MƏSƏLƏSİ

Əliyeva Fizzə..... 81
GƏNCLƏRİN SOSİAL MÜDAFİƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Əliyeva Könül..... 84
İRƏVAN QUBERNİYASININ MÜSƏLMAN-TÜRK QAÇQINLARINA AXC-nin YARDIMLARI

Алиева Кенуль..... 86
ИНТЕГРИРОВАННЫЕ УРОКИ НА МАТЕРИАЛЕ МАТЕМАТИКИ

Алиева Тамара..... 88
ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЦИОНАЛЬНОГО МАКРОЭКОНОМИЧЕСКОГО ФИНАНСОВОГО МЕНЕДЖМЕНТА В РАЗВИТИИ НЕФТЯНОГО КЛАСТЕРА В АЗЕРБАЙДЖАНЕ

Əliyeva Təranə..... 90
MÜASİR DÖVRDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN İNTELLEKTUAL MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

Əliyeva Ülviyyə..... 92
FUNKSİONAL TƏNLİKLƏRİN HƏLLİ METODİKASI HAQQINDA

Əliyeva Zərifə 95
TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA MENECMENTİNİN HƏYATA KEÇİRİLMƏSİ

Əlizadə Cavid..... 97
CƏZA ÇƏKMƏKDƏN AZAD EDİLMİŞ ŞƏXSLƏRİN PROBLEMLƏRİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

Əlizadə Kübrə..... 99
FONEM ANLAYIŞININ İLKİN İZAHINA DAİR

Əlizadə Murad..... 100
AZƏRBAYCANDA DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASI VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASI

Ализаде Самед..... 103
ОБЗОР ЕВРОПЕЙСКОГО РЫНКА ЛИЗИНГОВЫХ УСЛУГ И РОЛЬ СРЕДНЕГО И МАЛОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В ЕГО РАЗВИТИИ

Amirova Arzu 105
THE MAIN DIRECTIONS OF IMPROVING THE INVESTMENT ACTIVITY IN AZERBAIJAN

Əsədova Xanım, Əhmədova Elvira..... 108
TARİXDƏ İZ BURAXMIŞ AZƏRBAYCAN QADINLARI

Əziz Sevinc..... 110
CEYN OSTİN YARADICILIĞINDA ROMANTİZMİN ƏLAMƏTLƏRİNƏ DAİR

Hacıyeva Fidan..... 112
İNTELLEKTUAL NƏSR – POSTMODERNİZMİN UĞURLU REALLAŞMASI "FORMASI" KİMİ

Haqverdiyeva Zümrüd, Kərəmova Natəvan 114
KOLLOKVİUM STRESİNİN HƏYƏCAN GÖSTƏRİCİLƏRİNİN YÜKSƏLMƏSİNDƏ ROLUNUN TƏDQİQİ

Həmidova Nübar..... 116
RİSK QRUPUNA AİD OLAN UŞAQLARIN DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏ SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

Həsənli Bahar..... 117
UŞAQ ZORAKILIĞININ SOSİAL VƏ HÜQUQİ ASPEKTLƏRİ

Гасанов Эльнур..... 119
ОБ ИЗУЧЕНИИ ИСТОРИКО-РЕЛИГИОЗНЫХ ПАМЯТНИКОВ ГЯНДЖИ КАК ХРАНИТЕЛЕЙ ТОЛЕРАНТНЫХ ЦЕННОСТЕЙ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА

Həsənova Günay..... 122
MÜASİR AİLƏ PROBLEMLƏRİNİN CƏMİYYƏTƏ TƏSİRİ

Həsənova Lamiyyə 123
İNTİBAHIN İNGİLİS FRAZEOLOJİ SİSTEMİNƏ TƏSİRİ

Həsənova Turanə 126
KONTRKULTURA İDEYALARININ C. KERUAK YARADICILIĞINA TƏSİRİ HAQQINDA

Həsənova Türkay 129
POSTMODERNİZM CƏRƏYANI MODERNİZMİN BÖHRANINA HUMANİTAR FİKRİN REAKSİYASI KİMİ

Həsənova Xalidə..... 131
VI SİNİF RİYAZİYYAT VƏ İNFORMATİKANIN TƏDRİSİNDƏ FƏNLƏRARASI ƏLAQƏNİN REALLAŞDIRILMASINDA İKT-dən İSTİFADƏNİN METODİKASI

Həşimova Albina..... 133
XİDMƏT SFERASINA İQTİSADİ BAXIŞ

Heydərova Lamiə 136
KONSEPT DÜNYA HAQQINDA İNFORMASİYA VAHİDİ KİMİ

Heydərova Məftun 137
TƏLİM PROSESİNDƏ KOMPÜTERDƏN İSTİFADƏ PROBLEMLƏRİ

Hovuslu Xalidə 140
TƏKRARLARIN SİYASİ DİSKURSDA RİTORİK FUNKSİYALARI
(ABŞ prezidenti D.Trumpın çıxışları əsasında)

Hüseynli Gilə 141
MAYA ANCELOU POEZİYASINDAKI QADIN PROBLEMİ AFRO-AMERİKAN (İRQÇİLİK) KONTEKSTİNDƏ

Hüseynli Səriyyə 143
İBTİDAİ SİNİFLƏRDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN PEDAQOJİ ŞƏRTLƏRİ VƏ PRİNSİPLƏRİ

Hüseynova Günel 145
XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ OYUNLARIN ROLU

Hüseynova Nazilə 147
CƏNUB BÖLGƏSİNDƏ MÜASİR DÖVRDƏ AĞAC OYMA SƏNƏTİNİN BƏDİİ ÜSUSİYYƏTLƏRİ

Hüseynova Nuranə 149
ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİ TARİXİNDƏN

Hüseynova Südabə 151
TERROR ANLAYIŞI VƏ ONUN FORMALARI

Hüseynzadə Aysel..... 154
MÜASİR DÖVRDƏ BANK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN İSTİQAMƏTLƏRİ

Hüseynzadə Emin 156
ƏMƏK RESURSLARININ SƏMƏRƏLİLİYİ ANLAYIŞI VƏ ONUN ELMİ MAHİYYƏTİ

İsgəndərova Sudabə..... 157
MÜƏLLİM REFLEKTİV TƏCRÜBƏÇİ VƏ TƏTBİQİ TƏDQİQATÇI KİMİ

Искендерова Афет..... 159
ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНОГО МЕТОДА НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

İsmayılbəyli Çimnaz 161
ALTSHEYMER XƏSTƏLİYİ OLAN ŞƏXSLƏR VƏ ONLARI ƏHATƏ EDƏN YAXINLARININ HƏYAT KEYFİYYƏTİNİN ARTIRILMASINDA SOSİAL İŞÇİNİN ROLU

İsmayılova Aygün..... 163
YUQOSLAVİYA BÖHRANINA TARİXİ YANAŞMALAR

Karaevi Leila 165
LEKSİK-QRAMMATİK ZAMAN GÖSTƏRİCİLƏRİNİN MƏTNYARADICI FAKTOR OLARAQ FUNKSİYASI

Kazımova Günay..... 168
İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ TƏLİMİNDƏ TƏKRAR VƏ MÜMARİSƏLƏRİN ROLU

Kazımzadə Leyla..... 169
VAŞİNQTON İRVİNQ YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

Mədətova Gülnaz 172
ƏMƏKDAR RƏSSAM FƏRMAN QULAMOVUN NATÜRMORTLARINDA BƏDİİ İFADƏ VASİTƏLƏRİ

Mehdiyeva Sevinc 175
BİOLOGİYA DƏRSLƏRİNDƏ FƏNDAXİLİ İNTEQRASİYANIN YARADILMASI

Mehdiyeva Ülviyyə 177
ƏLİLLİYİ OLAN QADINLARIN CƏMİYYƏTDƏN SOSİAL TƏCRİD EDİLMƏSİ

Mehdizadə Nəzmiyyə 179
MÜASIR İNGİLİS DİLİNDƏ İŞLƏNƏN FRAZEOLOGİZMLƏRƏ FƏRQLİ YANAŞMA

Məmişova Ceyran 182
MƏHƏMMƏD FÜZULİNİN QƏZƏLƏRİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN TƏHLİLİ

Məmmədəliyeva Leyla 185
MÜSTƏQİLLİK İLLƏRİNDƏ YAZIÇI PUBLİSİSTİKASINDA DİL MƏSƏLƏLƏRİ

Məmmədov Emin 188
XAÇMAZ RAYONUNUNUN TURİZM POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏŞKİLİNİN TƏHLİLİ

Məmmədov Kənan 189
AZƏRBAYCANIN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ SOSİAL-SİYASİ VƏZİYYƏTİ

Məmmədov Namiq 192
TÜRKİYƏDƏ 2015-ci İL PARLAMENT SEÇKİLƏRİNDƏ MÜXALİFƏT PARTİYALARI

Məmmədova Bənövşə 196
ELİTAR DİL KİMLİYİNİN VERBALLAŞMA MEXANİZMLƏRİNƏ DAİR

Məmmədova Günel 198
BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN YARADICI TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Məmmədova Nərmin 199
MƏSUDİ DÖVRANIN POEMALARINDAKI FOLKLOR ÖRNƏKLƏRİ

Məmmədova Nigar 201
ONLAYN ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ “TƏKRAR ÖDƏNİŞ” SƏHVİNİN QARŞISININ ALINMASININ BİR ÜSULU HAQQINDA

Məmmədova Roza 202
XIX ƏSRİN 20-30- cu İLLƏRİNDƏ MÜSƏLMAN TƏBƏQƏSİNİN SOSİAL-SİYASİ STATUSU HAQQINDA

Məmmədova Səcdə 203
MƏİŞƏT ZORAKILIĞI CƏMİYYƏT VƏ DÖVLƏTİN ORTAQ PROBLEMİ KİMİ

Məmmədova Səkinə..... 205
FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTURUNUN DƏYİŞMƏSİLƏ MÜŞAHİDƏ OLUNAN ƏVƏZLƏNMƏLƏR

Mənəfova Reyhan 207
CƏLİL MƏMMƏDQULUZADƏNİN “ANAMIN KİTABI” ƏSƏRİNDƏ AZƏRBAYCANÇILIQ İDEYASI

Mikayılova Nurəngiz 210
AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR VƏ İNKİŞAF MODELİ

Mirzəyeva Aygül..... 212
QAQAUZ YAZI DİLİNİN FORMALAŞMA TARİXİNƏ DAİR

Muradlı Aygün..... 214
TALASSEMİYA XƏSTƏLİYİNİN SƏBƏBLƏRİ VƏ ƏLAMƏTLƏRİ

Muradova Xəyalə 216
SOSİAL PSİXOLOGİYADA SAĞLAMLIQ VƏ ŞƏXSİYYƏT MƏSƏLƏLƏRİ

Musayeva Aygün..... 218
UŞAQ QORXULARI VƏ ONLARIN UŞAQLARA PSİXOLOJİ TƏSİRİ

Mustafayeva Nərmin 220
İNGİLİS DİLİNDƏ MİLLİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏR İFADƏ EDƏN FRAZEOLOGİZMLƏR

Mustafayeva Nigar 222
ƏLİLLƏRİN CƏMIYYƏTƏ İNTEQRASİYASI: ONLARIN HÜQUQU – BİZİM MƏSULİYYƏTİMİZ

Nadirov Afiq 224
TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTILARI (1993-2003-cü illər)

Nəsibova Saidə 227
İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ELMİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

Nəsibzadə İlahə 229
POST-NEFT MƏRHƏLƏSİNDƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAF MEXANİZMLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Nəzərova Nərmin 231
AZƏRBAYCAN XALQININ MİLLİ OYANIŞINDA ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN XİDMƏTLƏRİ

Nurəddinli Bəhruz 234
EPİK NÖVÜN TƏDRİSİNDƏ NAĞIL JANRINA MÜRACİƏT

Orucova Afaq 236
AZƏRBAYCAN DİLİNDƏ EKZOTİK SÖZLƏR

Orucova Aytac 238
İNGİLİS DİLİNDƏ SLENQ VƏ DİLDƏ YARATDIĞI RƏNGARƏNGLİK

Orucova Sevinc 240
YENİYETMƏLƏRİN ÖZÜNÜ AKTUALLAŞDIRMASINA MANEƏ OLAN BƏZİ AMİLLƏRƏ DAİR

Гасымлы Кенуль 242
МОЛОДЕЖНАЯ ПОЛИТИКА В КОНТЕКСТЕ ВОЛОНТЕРСТВА И ГЕНДЕР

Qədirova Məlahət 244
MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN–BELARUS ƏDƏBİ ƏLAQƏLƏRİ

Qənbərova Mehriban 246
YENİYETMƏLİK DÖVRÜNDƏ MEYDANA ÇIXAN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏR

Quliyeva Səadət 248
ALMAN DİLİ DƏRSLƏRİNDƏ OYUNLARIN TƏTBİQİ

Quliyeva Səyyarə 250
DİSKURS VƏ MÜASİR DİLÇİLİKDƏ MƏTN

Qurbanova Sevinc 252
I ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ SƏFƏVİ-AVROPA DÖVLƏTLƏRİ ARASINDA MÜNASİBƏTLƏR

Rəhimli Aynurə..... 254
"ZADƏGANLIQ" KONSEPTİNİN SOSİAL İYERARXİYA ŞƏRTLƏNDİRMƏSİNƏ DAİR

Rüstəmli Ülvi 256
ƏLİLLİK ANLAYIŞI VƏ FİZİKİ ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN CƏMİYYƏTDƏ QARŞILAŞDIĞI BƏZİ ÇƏTİNLİKLƏR

Rüstəmov Qismət 257
CEFRİ YEVGENİDESİN "BAKİRƏ MÜNTƏHİRLƏR" ROMANINDA İDENTİKLİK AXTARIŞLARI

Rzayeva Lalə 259
DANIŞMA BACARIĞININ İNKİŞAFINDA İKT-dən İSTİFADƏ

Rzayeva Samirə..... 262
MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ "EMOSİYA" KONSEPTİNİN REALLAŞMASININ "BƏDƏN DİLİ" MEXANİZMLƏRİ İLƏ ƏLAQƏLİLİYİNƏ DAİR

Rzazadə Gülnar 264
MƏTN VƏ ONUN FORMALAŞMASI PRİNSİPLƏRİ

Şabanova Aysel 266
İNGİLİS DİLİNDƏ İŞLƏNƏN REKLAM SLOQANLARININ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Sadıqova Şəhanə 268
YENİYETMƏLƏRDƏ DEVİANT DAVRANIŞ PROBLEMİ

Salmanzadə Toğrul 271
MULTİKULTURALİZMİN VƏ SİVİLİZASİYALARARASI DİALOQUN TƏŞVİQİNDƏ AZƏRBAYCANIN YERİ VƏ ROLU

Шамилов Фейруз 274
ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКОГО РОСТА ДЛЯ ПЕРСПЕКТИВНОГО НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ

Səfərli Nübar 276
ORTA ƏSRLƏR DÖVRÜNDƏ NAXÇIVANDA YETİŞMİŞ ELM, SƏNƏT VƏ MAARİF XADİMLƏRİ

Səfərov Sehran 277
AZƏRBAYCAN DİPLOMATLARININ PARİS SÜLH KONFRANSINA GEDƏN YOLDAKI MÜBARİZƏSİNDƏ BÖYÜK BRİTANİYANIN ROLU

Səfərova Şüküranə 280
AZƏRBAYCANDA UĞURSUZ AİLƏLƏRDƏ BÖYÜYƏN UŞAQLARIN PSİXOLOJİ VƏZİYYƏTİ

Şəfiyeva Aynur 281
MÜASİR FRANSIZ DİLİNDƏ FİTONİM TƏRKİBLİ ATALAR SÖZLƏRİ

Şəmilova Şahnaz 283
XX ƏSR AVROPADA YENİ ƏDƏBİ CƏRƏYANLARININ FRANSIZ POEZİYASINA TƏSİRİ

Şərifova Əsməd 285
MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA DİQQƏTİN İNKİŞAF ETDİRİLMƏSİ

Şərifova Validə 286
AZƏRBAYCAN DÖVLƏTİNİN GƏNCLƏR SİYASƏTİNDƏ GƏNCLƏRİN PEŞƏ-İXTİSAS YÖNÜMÜNÜN İSTİQAMƏTLƏRİ

Şeydayeva Aysel 288
MÜASİR TƏHSİ SİSTEMİNDƏ DİL HADİSƏLƏRİNİN MÜŞAHİDƏSİNİN ƏHƏMİYYƏTİ

Seyidova Səbinə 289
M.TAĞIYEV FRAZEOLOGİYANIN TƏDQİQİNDƏ YENİ NƏZƏRİYYƏNİN YARADICISI KİMİ

Süleymanov Süleyman 291
UŞAQLARIN UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏ SƏBƏBLƏRİ: AZƏRBAYCAN VƏ DÜNYA TƏCRÜBƏSİ

Tağıyeva Tərlan 292
YENİ MÜHİTƏ ADAPTASİYASINDA MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL STATUSUNUN ROLU

Tajdehibonab Mehparə 295
XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ PRAVOSLAV VƏ KATOLİK KİLSƏLƏRİ ARASINDA MÜNASİBƏTLƏR

Uluxanlı Nəzrin 298
NARKOMANİYA VƏ QİÇS-Ə YOLUXMUŞ GƏNCLƏRLƏ MÜASİR PSİXOSOSİAL İŞ

Vəliyeva Mehriban..... 299
MİQRASİYANIN NƏZƏRİ ƏSASLARI VƏ TARİXİ İNKİŞAFI HAQQINDA

Vəliyeva Şüküfə 302
ZAMANIN FÖVQÜNDƏ DURAN ALİM-AKADEMİK HƏMİD ARASLI

Verdiyeva Tünzalə 304
ƏLİLLİYİ OLAN İNSANLARA SOSİAL XİDMƏT

Verdizadə Qabil 306
AİLƏ BÜTÖVLÜYÜNÜN UŞAQLARIN TƏHSİLİNƏ TƏSİRİ

Xanlarova Aynurə 308
FRAZEOLOJİ VAHİDLƏRƏ SEMANTİK YANAŞMA

Xəlilova Əsli 309
ƏLİL GƏNCLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASI SAHƏSİNDƏ MODERN XİDMƏTLƏR

Xəlilzadə Milanə..... 311
XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ SİYASİ REPRESSİYALARI

Zeynalova Zeynəb..... 313
ERKƏN NİKAHIN HÜQUQİ ASPEKTLƏRİ

“BAKI FƏHLƏSİ” KOOPERATİV NƏŞRİYYATININ YARANMASI TARİXİNDƏN

Abasova Leyla
Bakı Dövlət Universiteti
sg.leyla@gmail.com

Azərbaycanda yeni qurulmuş Sovet hakimiyyətinin məqsəd və vəzifəsinin geniş əhali kütləsi arasında təbliğ edilməsinə böyük ehtiyac var idi. Bu ehtiyacın təmin edilməsi məqsədi ilə Azərbaycanda yeni, iri ixtisaslaşdırılmış sahəsi nəşriyyatın yaradılması zərurəti meydana gəldi. Belə bir şərait ölkədə ictimai-siyasi kitabların nəşrini həyata keçirən müstəqil nəşriyyatın yaradılmasını qarşıya qoyurdu. Beləliklə də, Azərbaycan Kommunist (b) P MK-nın 1922-ci il 15 may tarixli qərarı ilə Bakı Partiya Komitəsi yanında “Bakı fəhləsi” kooperativ nəşriyyatı yaradılır və bu qərarla nəşriyyat eyni zamanda RSFSR Dövlət Nəşriyyatının Azərbaycanda nümayəndəliyi hesab edilir [1]. Nəşriyyat bina və avadanlıqla təchiz edildikdən sonra 1922-ci ilin avqust ayından fəaliyyətə başladı (“Bakı fəhləsi” kooperativ nəşriyyatı Malıgen küçəsi 18-də yerləşirdi). Nəşriyyatın 1923-cü il hesabatında göstərilirdi ki, onun cəmi 44 işçisi olmuşdur. Bunlardan 12 nəfəri kitab mağazasaında 5 nəfəri nəşriyyat şöbəsində, 2 nəfəri mühasibatda, 25 nəfəri isə mətbəədə çalışırdı [2]. Nəşriyaytda Azərbaycan və rus bölmələrifəaliyyət göstərirdi:. Azərbaycan bölməsi 1923-cü ilin yanvarından fəaliyyətə başlamışdır. Bölmə: a) tərcüməçilər qrupu; b) redaksiya heyəti (redaksiya heyətinə: R.Axundov, H.Zeynallı, S.M.Əfəndiyev və b. daxil idi); c) korrektorlar qrupu; ç) ümumi və texniki nəzarət qrupundan ibarət idi.Nəşriyyat Azərbaycan və rus dillərində çap etdiyi kitabları ölkənin müxtəlif yerlərində geniş yaymaq üçün Ermənistan, Gürcüstan, Qırğızıstan respublikaları,Moskva, Sankt-Peterburq, Xarkov, Krım, Orenburq, Kazan və b. şəhərlərlə əlaqə yaratmışdır. Habelə, Azərbaycanın qəza mərkəzlərində səyyar köşklər təşkil etmişdir. Belə səyyar köşklərdən biri Lənkəranda 1923-cü ildə açılmışdır. Nəşriyyat yeni Əlifba Komitəsi ilə bağladığı müqaviləyə əsasən 1923-cü ildən yeni əlifba ilə kitablar çapdan buraxmağa başladı. “Bakı fəhləsi” kooperativ nəşriyyatının əsas vəzifəsi ictimai-siyasi ədəbiyyatın nəşri və yayılmasından ibarət idi. Nəşriyyat partiya məktəblərinin və partiya kitabxanalarının ehtiyaclarını nəzərə alaraq, əsasən marksizim-leninizm nəzəriyyəsinə, partiya tarixinə, siyasi-iqtisadi, fəlsəfə və s. sahələrə dair kitabların və müxtəlif mövzular üzrə, sahələr üzrə siyasi-kütləvi kitabın nəşrini həyata keçirirdi.

1923-cü ilin aprel ayının 4-də (protokol № 4) “Bakı fəhləsi” kooperativ nəşriyyatının hesabatında göstərilirdi ki, (T.Lifşis) Azərbaycan dilində ədəbiyyatın nəşri üzrə nəşriyyat planını 80% yerinə yetirmişdi. Həmin iclasda nəşriyyatın Azərbaycan dilində iki ay müddətində çap ediləcək kitablar üçün Azərbaycan Xalq Komissarları Sovetinin 15 min manatın ayrılması da xahiş edilirdi [3]. Ümumiyyətlə, “Bakı fəhləsi” kooperativ nəşriyyatı keçmiş SSRİ-nin 71 nəşriyyatı ilə əlaqəsi var idi: Rusiya Dövlət Nəşriyyatının Petroqrad şöbəsi; Petroqraddakı “Mısıl” nəşriyyatı; “Moskva fəhləsi” kooperativ nəşriyyatı; Moskvada Dövlət Nəşriyyatının Ticarət sektoru; “Gənc Qvardiya” nəşriyyatı; Moskvada “Kniqa” nəşriyyatı; Petroqradda “Priboy nəşriyyatı; “Elmi-kimya texniki” nəşriyyatı; Xarkovda “Gənc fəhlə” nəşriyyatı; Xarkovda Ukrayna Dövlət nəşriyyatı; Moskvada “Akademiya” nəşriyyatı və s.[4]. “Bakı fəhləsi” kooperativ nəşriyyatının fəaliyyəti ildən-ilə genişlənirdi. Əgər, nəşriyyat 1923-cü ildə cəmi 38 adda ictimai-siyasi ədəbiyyatın müxtəlif sahələri üzrə kitab çap edirdisə, 1924-cü ildə 54 adda, 1925-ci ildə isə 114 adda kitab nəşr etdi. Bu kitabların tirajı orta hesabla 5000-dən 8000 nüsxəyə qədər yüksəlmişdi. “Bakı fəhləsi” kooperativ

nəşriyyatının Azərbaycan və rus dillərində çap etdiyi müxtəlif növlərdə və tiplərdə ədəbiyyat, ölkə zəhmətkeşlərinin ideya-siyasi biliyinin artmasında, təsərrüfat, iqtisadi, mədəni quruculuq vəzifələrinin yerinə yetirilməsində böyük əhəmiyyəti olmuşdur. Artıq, 1926-cı ildə "Bakı fəhləsi" kooperativ nəşriyyatı öz maddi-texniki bazasını xeyli gücləndirmiş, xaricdən 4 özü yığan çap maşını, 5 linotip maşın (3-ü ərəb əlifbası 2-si yeni əlifba ilə) və başqa mətbəə avadanlığı almışdır. Nəşriyyat bu dövrdə ictimai-siyasi ədəbiyyatla bərabər, müəyyən qədər kənd təsərrüfatı, elmi-texniki ədəbiyyat, habelə elmi-kütləvi kitabları da çapdan buraxırdı.

1926-cı il noyabr ayının 29-da Azərbaycan SSR-də kitabçılıq işinin öyrənilməsi və təşkili üzrə komissiyanın iclası keçirilmişdir. Bu iclasda R.Axundov, T.Hüseynov, Eminbəyli, M.Quliyev, L.Lifşis, Ə.Triniç, Fuks, Pepinov, M.Şahbazov iştirak edirdi. Bu problem haqqında, yəni Azərbaycan SSR-ə kitabçılıq işinin öyrənilməsi və təşkili haqqında R.Axundov geniş məruzə ilə çıxış etmişdir [5]. Bu komissiyanın bir neçə dəfə iclası keçirilmiş və nəticədə hazırlanmış məlumat Azərbaycan Kommunist (b) P MK-ya təqdim olunmuşdu. Komissiyanın hazırladığı məlumat əsasında Azərbaycan Kommunist (b) P MK-nın "Mətbuat" şöbəsinin 1926-cı il 2 noyabr tarixli iclasında respublikada kitab nəşrinin vəziyyəti və gələcək inkişafı üçün perspektiv vəzifələr müzakirə edildi və konkret qərarlar qəbul olundu. Qərarda göstərilirdi ki, bərpa dövrünün sonunda bədii, uşaq, xüsusilə, ictimai-siyasi kitabların nəşri sahəsində müəyyən nailiyyətlər qazanılmış, orijinal əsərlərin sayı artmış, əsərlərin dili və tərtibatı xeyli dərəcədə yaxşılaşmışdır. Lakin ideyaca zəif, məzmunca aşağı səviyyədəki əsərlər də çap olunmuşdur. "Azərnəşr"və "Bakı fəhləsi" kooperativ nəşriyyartı bəzən bir-birinin işini tamamlayırdılar.

Azərbaycan SSR Xalq Komissarları Soveti 1927-ci il yanvarın 19-da "Nəşriyyatların birləşdirilməsi haqqında" rəsmi qərar qəbul etdi. Bu qərar əsasında Azərbaycan Kommunist (b) PMK-nın yanındakı "Bakı fəhləsi" kooperativ nəşriyyatı ilə Azərnəşr birləşdirilərək Xalq Maarif Komissarlığı yanında vahid Azərbaycan Dövlət Nəşriyyatı təşkil olunur. Beləliklə, 1927-ci il yanvarın 1-dən "Bakı fəhləsi" kooperativ nəşriyyatı ilə"Azərnəşr"inbirləşdirilməsi həyata keçirilir.

Açar sözlər: nəşriyyat, "Bakı fəhləsi" kooperativ nəşriyyatı, Azərbaycan, əsər, kitab, çap, ictimai-siyasi.

Ədəbiyyat

1. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -Siy. 74. –iş 127, s. 125.
2. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -siy 235. –iş 94, v. 262.
3. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -Siy. 74. –iş 131, s. 43.
4. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -siy 235. –iş 280, v. 68.
5. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -siy 235. –iş 282, v. 22-23.
6. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -siy 235. –iş 282, v. 22-23.
7. Azərbaycan Respublikasi Siyasi Partiyalar və İctimai Hərəkatların Mərkəzi Dövlət Arxivi (MDA) F. 1, -siy 235. –iş 282, v. 171.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN İNKLÜZİV TƏHSİLİNDƏ VALİDEYN VƏ MÜƏLLİMLƏRİN ƏVƏZOLUNMAZ ROLU

Abbasova Kəmalə
Azərbaycan Universiteti
elmi.hisse.08@mail.ru

Hər bir tipik uşaq kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətimizdə rolu böyükdür. Elə məhz onların inkişafında, cəmiyyətə inteqrasiyasında, öz yaşıdları ilə sosiallaşmasında, ünsiyyətə girməsində cəmiyyətimizin və ətraf mühitimizin də onların həyatında rolu və təsiri olduqca zəruridir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında ilk öncə valideynlərin rolu əvəzolunmazdır. Çünki, uşağının fərqli olmasını qəbul edən və etməyən valideynlər vardır. Qəbul etməyən valideynləri bir sıra fikirlər narahat edir və onlar normal bir hal hesab olunan kədərlənmə mərhələlərini yaşayırlar:

1. Şok və inkar hissi. Heç gözləmədiyi bir vəziyyətlə qarşılaşır və bu vəziyyəti heç cür qəbul edə bilmir, daha doğrusu etmək istəmir.
2. Ağrı və günahkarlıq duyğusu. Bunun səbəbini yoldaşında və özündə görür.
3. Narahatlıq hissi. "Uşağımın aqibəti məndən sonra necə olacaq?" sualı onları daim narahat edir.
4. Əsəb və depressiv hallar. Onları "niyə mən?" sualı daim düşündürür, əsəbilik və depressiv hallara yol açır.
5. Ailədə digər fərdlər arasında qoyulan fərq. Tipik bacı-qardaş arasında fərq qoyma halları bariz şəkildə hiss olunur.

Belə reaksiyalardan irəli gələrək uşaq özünəqapanmış bir ruh halında olur, uşağın inkişafında, onun cəmiyyətə adaptasiya olmasında, təhsilə cəlb olunmasında, öz bilik və bacarıqlarının fərqinə varmasında böyük çətinliklər yaradır. Xüsusi qayğıya ehtiyacı olan uşağın dünyaya gəlişi ailədaxili və ya yaxınları arasındakı münasibətlərdə, iş həyatlarında böyük dəyişikliklər yaradır. Xüsusi qayğıya ehtiyacı olan uşağın vəziyyəti yalnız onun özünə təsir göstərmir, bu vəziyyət ailədaxili münasibətlərdə həyat yoldaşları arasında münaqişənin yaranmasına səbəb olur. Burada kənardan gələn təsirlərin də rolu böyükdür. Təbii ki, bu vəziyyət ailədən ailəyə dəyişir, valideynlərin şəxsi xüsusiyyətlərindən, onların bir-birinə və ətrafdakıların onlara təsirindən və dəstək verməsindən asılı olur. Uşağın inkişafı üçün vacib mənbə ailə daxilindədir, onların gündəlik yaşam tərzlərindədir. Ona görə də hər bir valideyn fərqli uşağa sahib olarkən bütün çətinlikləri gözə alaraq, uşağının fərqliliyini nə qədər tez qəbul etsə bir o qədər uşaq inkişafa meylli olar, özünü güvəndə hiss edər, özünəinamı formalaşar, cəmiyyətə daha tez adaptasiya olar və bu vəziyyət hamını nisbətən xoşbəxt edər.

Uşaq hər hansı çətinlik və ya inkişaf geriliyi ilə doğularsa valideynlərin uşaqlarının effektiv inkişafına necə kömək etmələrini bilməsi vacibdir, hansı ki bu, uşağın həyatında xüsusi rol oynayır. Bəzi valideynlər uşaqlarda hər hansı bir problemlə üzləşərkən "uşaqdır böyüsün, biraz sonra keçər" deyə düşünürlər. Bu çox yanlış düşüncədir. Əgər valideyn uşaqda hər hansı bir problem müşahidə edirsə dərhal həkimə və yaxud hər hansı bir mütəxəssisə müraciət etməlidir. Gözləyərək vaxt itirməməlidir! Bu baxımdan, valideynlər daha diqqətli olmalı, daim uşaqlarını nəzarətdə saxlamalıdırlar. Hətta, yaşadığı ərazidə hansı xidmətlərin, İcma əsaslı Reabilitasiya mərkəzlərinin

olması haqqında araşdırma aparmalıdırlar. Uşaqlarının problemləri haqqında ətraflı məlumat toplamalı və buna nəzərən, bir sıra maarifləndirmə və təbliğat işlərinin aparılmasında yaxından iştirak etməlidirlər. Ən əsası da, uşaqlarla bir şəxsiyyət kimi davranmalı, onların ləyaqətini alçaldan rəftardan uzaq durmalıdırlar. Uşaqlarına sevgisini verməkdə belə diqqətli olmalıdırlar. Çünki, həddindən artıq verilən sevgi uşaqda tipik bacı-qardaşından fərqli olmasına dair düşüncəyə, zəif sevgi isə uşağın valideyninin onu sevməməsi fikrinə gətirib çıxarda bilər.

Bütün uşaqlar öyrənmə bacarıqları ilə doğulur. Biz tennisi tennis oynayaraq, futbolu futbol oynayaraq, oxumağı oxuyaraq öyrənirik. Xüsusi qayğıya ehtiyacı olan, əqli və fiziki geriliyi olan uşaqların da öyrənmək, bilik və bacarıqlarını inkişaf etdirmək və təhsil almaq hüququ vardır. Bəs onlar bu hüquqdan yararlana bilirlərmi və necə təhsil alırlar? Rəsmi statistikaya görə, Azərbaycanda 72 minə yaxın sağlamlıq imkanları məhdud olan uşaq var və hər il təxminən 8 min uşaq əlil kimi qeydə alınır. Bunlardan yalnız 12 minə yaxını təhsilə cəlb olunur və qalanlar isə kənarda qalır. Əvvəllər Seqreqasiya üsullu təhsil sistemi var idi ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlar digər uşaqlardan ayrılaraq, ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunurdular. Bu da uşaqlarda cəmiyyətə inteqrasiyasında və adaptasiyasında bir sıra çətinliklərə, insanlarla ünsiyyət qurma problemlərinə, dünya görüşünün zəif inkişafına, özünəqapanmış bir ruh halına gətirib çıxarırdı. Həmin problemlərin aradan qalxması yolunda valideynlər arasında da maarifləndirmə işi aparılmalıdır. Onlarla uşaqların inkişafına aid maarifləndirici seminar, konsultasiya və görüşlər təşkil olunmalıdır. Çünki valideynlərin bəzisi öz əqli və fiziki qüsurlu uşaqlarını təhsilə cəlb etmirlər. Ona görə ki bəzi valideynlər uşaqlarının bu vəziyyətindən utanır və uşaqlarının heç bir irəliləyiş əldə etmiyəcəklərini düşünürlər. Bunun nəticəsində xüsusi qayğıya ehtiyacı olan uşaq təhsil ala bilməyərək cəmiyyətdən kənarda qalır, gələcəkdə ailənin üzərinə yük olur, özünü valideynlərindən asılı və cəmiyyətə yarasız insan kimi hiss edir.

Bunu nəzərə alaraq, 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı təşəbbüslər qeyd olunmuş, sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş və bunun həyata keçirilməsinin zəruriliyi göstərilmişdir.[1]

Dövlət Proqramının məqsədi xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil hüququnu təmin edərək xüsusi dəstək xidmətləri göstərilməklə inkişaf etmələrinə və öz yaşıdları ilə bərabər səviyyədə təhsil almalarına şərait yaradılmasından, sosiallaşmasından, ünsiyyətə girməsindən, cəmiyyətdə kollektivə inteqrasiya olunmasından ibarətdir. Bununla da, xüsusi qayğıya ehtiyacı olan uşaqlarla birlikdə onların yaşıdları da vicdan sahibi olmaq, başqalarına təmənnasız kömək etmək, onların qayğısına qalaraq onları cəmiyyətdə ayırmamaq kimi mühüm dəyərləri hələ uşaqkən öyrənməyə başlayırlar. Bu mühitin əlverişli keçməsi müəllimlərin səriştəsindən, metodik səviyyəsindən, empatiya bacarığından və vicdanından asılıdır.

"Üç məktəbdən qovulmuş bir şagirdi yeni məktəbə gətirirlər. Birinci dərsə girən müəllim onu görüb ürəyində deyir: "Belə uşaqlar hardan gəlir axı?" İkinci dərsə gələn müəllim yeni şagirdi görüb hirslə: "Elə bir sən çatışmırdın...", - dedi. Üçüncü müəllim isə sevinclə: "Ooo, yeni şagirdimiz var!", - deyib ona yaxınlaşdı. Əlini sıxdı, gözünün içinə baxdı, gülümsünüb dedi: "Salam, elə mən səni gözləyirdim.!" (Şalva Amonaşvili) [3].

Göründüyü kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların həyatında valideynlər qədər müəllimlərin də özünəməxsus rolu vardır.

Bu yeni təhsil sistemi ilə cəmiyyətimizə yeni işıq, yeni bir baxış gəldi, vicdan anlayışı, mərhəmət duyğusu formalaşaraq ayrı-seçkilik və bərabərsizlik kimi hallar tədricən ortadan qalxmağa başladı.

Bir çox ailələr deyirlər ki, xüsusi qayğıya ehtiyacı olan və inkişaf geriliyi olan uşaqlar gözlədiklərindən daha çox irəliləyiş əldə ediblər. Onların hamısı xüsusi qayğıya ehtiyacı olan uşaqlarına tipik uşaqlarla eyni imkanlara malik olmalarını, onlar üçün təhlükəsiz bir mühitdə, heç kimdən asılı olmayaraq müstəqil şəkildə yaşamalarını, geniş ətrafa və dostlara sahib olmalarını, bir sözlə xoşbəxt bir gələcək arzulayırlar.

“Hər bir uşaq özəldir! Hər bir uşaq bir möcüzə olduğunu və dünya yaranandan bəri və dünyanın sonuna qədər onun kimi başqa bir uşaq olmayacağını bilməlidir..!” Pablo Kasalz [2].

Açar sözlər: Xüsusi qayğıya ehtiyacı olan uşaqlar, valideynlər, müəllimlər, Seqreqasiya, Dövlət proqramı, İnkluziv təhsil.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı.
2. BMT-nin “Uşaq hüquqları haqqında” adlı Konvensiya, 1989.
3. İnklüziv siniflərdə təlimin təşkili. Bakı, 2018.
4. “Valideynlər öz uşaqları haqqında nəyi bilməlidir?” adlı metodik vəsait, Bakı, 2019.

ÖZÜNÜMƏŞĞULLUQ PROQRAMI- SOSİAL YARDIMIN HƏYATA KEÇİRİLMƏSİNİN YENİ MƏRHƏLƏSİ KİMİ

Abbasova Qəşəng
Bakı Dövlət Universiteti
gashang.abbasova@gmail.com

Müasir dövrdə idarəetmə mexanizmindən asılı olmayaraq dünyanın bütün ölkələrində əhalinin sosial-iqtisadi rifah halının yüksəldilməsi məqsədilə sosial siyasət planı tətbiq edilir. Sosial siyasət- dövlətin daxili siyasətinin tərkib hissəsidir, onun sosial proqramlarında və praktikasında təcəssüm edir, cəmiyyətdə əhalinin əsas qruplarının maraqlarına uyğun münasibətləri nizama salır [3]. Başqa sözlə, sosial siyasət dedikdə, əhalinin həyat fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş tədbirlər sistemi nəzərdə tutulur. Bu sistem vətəndaşların maraq və mənafelərinə uyğun olmaqla müxtəlif istiqamətlərdə formalaşır. Dövlətin sosial siyasəti bilavasitə əhalinin sosial müdafiəsinin hərtərəfli təmin edilməsi ilə əlaqəli şəkildə həyata keçirilir. Sosial müdafiəyə ən çox ehtiyacı olan təbəqələrə- əlilliyi olan şəxsləri, pensiyaçıları, işsizləri, çoxuşaqlı və aztəminatlı ailələri, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqları, həmçinin digər həssas qrupları aid edə bilərik. Sosial müdafiə sistemi çərçivəsində əhalinin bu təbəqələri maddi, mənəvi, psixoloji, hüquqi və digər formalarda yardımlarla təmin olunurlar.

Əhalinin sosial müdafiəsi sistemi bunları əhatə edir: sosial təminat, sosial sığorta və sosial dəstək (yardım) [7]. Özündən asılı olmayan səbəblərdən öz ehtiyaclarını təmin edə bilməyən aztəminatlı vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi məqsədi daşıyan bir çox maddi yardım proqramları tətbiq edilir. Müvafiq qanunvericiliyə əsaslanan belə yardım formaları içərisində aztəminatlı ailələr üçün ünvanlı dövlət sosial yardımı, əmək qabiliyyətinin itirilməsi, işsizlik və

digər səbəblərdən təyin olunan sosial müavinətləri, birdəfəlik maddi yardımları qeyd etmək məqsədəuyğundur.

Dövlət tərəfindən tətbiq edilən sosial yardım formaları aztəminatlı ailələri qənaətbəxş həyat şəraiti ilə təmin etsə də, yoxsulluğun aradan qaldırılmasında yetərli vasitə deyil. Sözügedən yardım formaları belə ailələrə müvəqqəti dəstək səciyyəsi daşıyır. Bu baxımdan sosial yardım formaları ilə paralel olaraq, digər tədbirlərin də həyata keçirilməsi labüddür. Hazırda yoxsulluq və işsizlik problemi ilə mübarizədə ən effektiv təsir vasitələrindən biri özünüməşğulluğun dəstəklənməsi hesab olunur[2].

Hər bir ölkənin özünəməxsus məşğulluq siyasəti mövcuddur. Buna baxmayaraq, bütün ölkələrin sosial siyasəti üçün ümumi cəhət vətəndaşların özü üçün iş qurmaq, bacarıqlarını nümayiş etdirmək şəraitinin təmin edilməsidir.

Məşğulluq haqqında Azərbaycan Respublikasının qanununun 1.1.15 maddəsinə görə özünüməşğulluq- şəxsin müstəqil surətdə və ya dövlətin dəstəyi ilə özünü işlə təmin etməsi prosesidir [2]. Bu prosesin təkmilləşdirilməsi son dövrlərdə daha geniş vüsət almışdır. Azərbaycan Respublikası Prezidenti tərəfindən 7 aprel 2016-cı il tarixində "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" sərəncam imzalanmışdır [5]. Sərəncama əsasən ilk dəfə olaraq ölkəmizdə dövlət səviyyəsində özünüməşğulluq proqramı həyata keçirilməyə başladı.

Özünüməşğulluq proqramı çərçivəsində dövlət büdcəsindən aztəminatlı ailələrə öz biznes layihələrini həyata keçirmək məqsədilə maliyyə dəstəyi ayrılır. Bu təşəbbüs nəticəsində vətəndaşların aktiv əməyə cəlb olunmasına şərait yaradılmış, həmçinin ölkə ərazisində kiçik və orta biznes sahibkarlığının inkişafına töhfə verilmişdir. Özünüməşğulluq layihəsi çərçivəsində məşğulluq mərkəzlərində işsiz kimi qeydiyyatda olan şəxslər əvvəlcə bir ay müddətində təlimlərə cəlb olunurlar [1]. Bu təlimlərdə onlar öz biznes-planlarını hazırlamaq, kiçik biznesin qurulması və təkmilləşdirilməsi ilə bağlı bilik və bacarıqlara yiyələnirlər. Təlimlərin sonunda iştirakçıların hazırlıq səviyyələrinə və irəli sürdükləri biznes-planlara uyğun qiymətləndirmələr aparılır. Qiymətləndirmə nəticəsində uğurlu hesab edilən layihələrin reallaşdırılması üçün həmin şəxslər müvafiq avadanlıqlarla, materiallarla təmin olunur. Biznes layihələrini həyata keçirmək üçün şəxslərə nağd pul yox, zəruri resurslar verilir. Sonrakı mərhələdə vaxtaşırı monitorinq vasitəsilə avadanlıqların istifadəsinə nəzarət edilir. Əgər həmin şəxslər vəsaitləri məqsədəuyğun istifadə etməsələr, onlardan geri alınır. Bu layihənin həyata keçirilməsi bir tərəfdən vətəndaşların kiçik-ailə bizneslərini qurmasına təkan verdi, digər tərəfdən isə yeni iş yerlərinin açılmasına şərait yaratdı.

Özünüməşğulluq proqramının tətbiq olunmasında məqsəd aztəminatlı ailələrin dövlət büdcəsindən asılılığının aradan qaldırılması, ünvanlı dövlət sosial yardımının əhatə dairəsinin məhdudlaşdırılması, əhalinin gəlirlərinin mütəmadiliyinin təmin edilməsi, sahibkarlığın inkişafı kimi hədəflərə nail olmaqdır.

Açar sözlər: sosial siyasət, sosial yardım, özünüməşğulluq, özünütəminat.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyihttp://sosial.gov.az
2. CESD, "Azərbaycanda özünüməşğulluq siyasətinin mövcud vəziyyəti və inkişaf perspektivləri", Bakı, 2018.
3. E.Ə.Qəhrəmanov, Y.P.Əhmədov "Sosial işin əsasları", Bakı, 2014.

4. Əliyev M.N. “Yoxsulluğa qarşı mübarizənin hüquqi problemləri”. Dərsvəsaiti. Bakı, “Səda”, 2006.
5. MəşğulluqHaqqındaAzərbaycanRespublikasınınQanunu / www.eqanun.az
6. Prezident.az, “Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı”, 07.04.2016
7. http://www.president.az/articles/18718
8. Rəcəbli.H. “Azərbaycan Respublikasının sosial müdafiə sistemi”. Ali məktəblər üçün dərs vəsaiti. Bakı,“MBM”, 2012
9. В. Дмитриев. Наша надежда-социальное страхование. М.: 2005.

NİTQDƏ SUPRASEQMENT VAHİDLƏRİN ROLU

Abbasova Sədaqət
Azərbaycan Dillər Universiteti
firestil7777@gmail.com

Bəşəriyyət üçün ən vacib ünsiyyət vasitəsi olan dil onu təşkil edən, formalaşdıran fonetik komponentlərsiz mövcud deyildir. Dilin fonetik quruluşu anlayışına dildəki fonemlər, onların birləşmələri,variativlik, fonem əvəzlənmələri,vurğunun təbiəti, həmçinin dilin intonasiyası,heca strukturunu formalaşdıran elementlər, sözün fonetik qabığında baş verən fonetik hadisələr daxildir. Buradan belə bir nəticəyə gəlirik ki, ümumi götürdükdə dil seqment və supraseqment vahidlərdən ibarətdir. Supraseqment vahidlər haqqında nümunələr gətirərək, müşahidələr apararaq, supraseqmentlərin dildəki mövqeyini aydın şəkildə göstərmək olar.

Nitqdə supraseqment birdən daha çox səs seqmentinin fonoloji xüsusiyyətinə aid edilir. Onu eyni zamanda qeyri-seqment da adlandırırlar. Aşağıdakı nümunələrdə və müşahidələrdə müzakirə olunduğu kimi, supraseqmental məlumatlar bir çox fərqli dil təzahürlərinə aid edilir. Buna misal olaraq səsin ucalığını, davamlılığını və yüksəkliyini göstərmək olar. Supraseqmentlər çox zaman nitqin “musiqi” aspektləri kimi qəbul olunur. Supraseqment ifadəsi (saitlər və samitlər “üzərində”olan funksiyalara istinad edən) 1940-cı illərdə Amerikalı strukturalistlər tərəfindən istifadə olunmuşdur.

Supraseqmentlərin effektini nümunələr və müşahidələr etməklə təsvir etmək asandır. Pişiklə, itlə və ya uşaqla danışan zaman müəyyən supraseqmentlərdən istifadə edə bilərsiniz. Çox vaxt bunu edən zaman, insanlar digər səs keyfiyyətini, daha yüksək səs tonunu seçirlər, dodaqlarını önə doğru dik çıxarırlar və dili ağızda yuxarıya doğru qaldıraraq, “daha yumşaq” səs çıxarırlar. Supraseqmentlər xüsusilə dədanışanların (və ya danışdıqları adamın) dediklərinə olan münasibətləri və ya mövqelərini, bütün məna növlərini qeyd etmək üçün və bir fikrin digəri ilə əlaqəsini qeyd edən zaman (məs.davamı və ya əlaqəsinin olmaması) vacibdir. “Supraseqmentlərin həm formaları, həm də funksiyaları sait və samit səslərdən daha az başa düşülür və çox zaman kateqoriyalar təşkil etmirlər” [1].

Nitqin tələffüzündə qəbul olunan xüsusi cəhətlər yüksək səviyyəli seqment xüsusiyyətləridir. Ümumi supraseqmental xüsusiyyətlər hecada və ya davamlı nitq ardıcıllığı üçün sözdə olan vurğu, ton və davamlılıqdır. Bəzən hətta ahəngdarlıq və burun səsi dəbu kateqoriyaya aid edilir. Supraseqmental və ya prozodik xüsusiyyətlərdən çox zaman nitqi daha mənalı və effektiv

etmək üçün nitq kontekstində istifadə olunur. Seqmental xüsusiyyətlər üzrə yaranan supraseqmental xüsusiyyətlər olmadan, davamlı nitq də həmçinin müəyyən məna ifadə edir, lakin çox zaman ifadə olunan mesajın effektivliyini itirir [3]. Supraseqment elementləri arasında müxtəliflikl ər isə daha çox intonasiya və vurğuda özünü büruzə verir. Müqayisə etdikdə görürük ki, daha çox hiss olunan supraseqment intonasiyadır. Belə ki, intonasiya nümunəsi təyinatı üzrə bütün tələffüzə və ya tələffüzün əhəmiyyətli hisəsinə yayılır. Daha az hiss olunanı vurğudur, lakin vurğu yalnız bütün hecanın xüsusiyyəti deyil. Eyni zamanda hecanın vurğu səviyyəsi yalnız onun daha çox vəya daha az vurğu dərəcəsinə malik olan qonşu hecalar ilə müqayisə olunması ilə müəyyənləşdirilə bilər.

Amerika strukturalistləri eyni zamanda birləşmələrin təzahürünü supraseqment kimi qəbul edirlər. Məhz birləşmələrdə olan fərqlərə görədir ki, night rate söz birləşməsi nitrate kimivə ya why choose söz birləşməsi white shoes kimi səslənmir və məhz buna görədir ki, pen- knife və lamp- post sözlərinin ortasındakı samit səslər olduğu kimi qalırlar. Bu elementlər seqmentlərin eyni ardıcıllığını əhatə etdikləri üçün, birləşmə fərqləri seqmentlərin ardıcıllığı daxilində fərqli birləşmə yerləri ilə təsvir olunmalıdır.

İngilis dilində leksiki vurğu sözləri bir-birindən ayırmağa xidmət edir. Misal üçün trusty və trustee sözlərini müqayisə edin. Təəccüblü hal deyil ki, İngilis dili daşıyıcıları leksiki keçid zamanı vurğu nümunələrinə diqqətlə yanaşırlar.Söz sərhədlərinin yerini müəyyənləşdirmək üçün də supraseqment məlumatlardan istifadə oluna bilər. İngilis və ya Alman dili kimi dillərdə təkhecalı sözlər çoxhecalı sözlərdən davamlılığına görə çox fərqlidir. Misal üçün ham sözündə (həm) hamster sözündəkindən daha çox davamlılığa malikdir. Salverda, Dahan, və Makkvinin (2003) tətqiqatları göstərir ki, bu davamlılıq biliklərindən dinləyicilər fəal istifadə edirlər [2].

Buradan belə bir nəticəyə gəlirik ki, yuxarıda sadaladığımız halların əksəriyyətində, supraseqmentin fonetik gerçəkləşməsi faktikiolaraq birdən daha artıq seqmenti əhatə edir, lakin əsas məqam ondan ibarətdir ki,bu halların hər birində, supraseqmentin təsviri birdən daha artıq seqmentə istinad etməlidir.Supraseqment məlumatlar davamlılıq, yüksəklik və amplitud (ucalıq) fərqləri ilə nitqdə seçilir. Bu kimi məlumatlar dinləyiciyə sözdə olan siqnalları ayırmağa kömək edir və hətta leksiki axtarışlara birbaşa təsir göstərə bilər.

Açar sözlər: supraseqment vahidlər, seqmental xüsusiyyətlər, intonasiya.

Ədəbiyyat

1. Riçard Oqden, ingilis Fonetikasına Giriş. Edinburq Universiteti Mətbuat, 2009.
2. Fernandez E.M., Smit Kairns H., Psixolinqvistikanın əsaları. Uiley- Blackuell, 2011.
3. Kulşreştha M. et al., “Speaker Profiling.” Məhkəmə çıxışçısının tanınması: Hüquq mühafizə və terrorla mübarizə, Ami Nyustein və Hemant A. Patil. Springer, 2012.

DEVİANT DAVRANIŞIN HƏYATIN MÜXTƏLİF SAHƏLƏRİNƏ TƏSİRİ

Abbaszadə Günel
Azərbaycan Universieti
gul.abbasova.98@mail.ru

"Deviant" davranış (latınca-"Deviation"-"kənara çıxma") elmi ədəbiyyatlarda XX əsrin 60-cı illərindən sonra istifadə edilməyə başlanılmış, XX əsrin sonlarında isə "Deviantologiya" adlı müstəqil elm sahəsi kimi meydana gəlmişdir. Müasir elmi pedaqoji və psixoloji ədəbiyyatlarda (M.İ.Rojkov, M.A.Kovalçuk, V.Q.Bajenov, M.İ.Buyanov, V.Klayn, A.İ.Zaxarov və b.) uşaq və yeniyetmələrin rəftar və davranışında müşahidə edilən normadankənar çıxan, qüsurlu davranışın bütün formalarını "deviant davranış" adlandırırlar.

Müxtəlif elmlər öz aspektinə görə "Deviant" davranışa müxtəlif mövqelərdən yanaşırlar. Sosial elmlər "deviant" davranışa insanın sosial mühitdə,ona yaxın olan sosial əhətədə, kollektivdə fiziki və sosial mövcudluğuna real formada təhlükə kimi baxır, mədəni dəyərlərin, habelə insanın var olduğu cəmiyyətdə həmin norma və dəyərlərin mənimsənilməsinə və yaradılmasına, özünüinkişaf və özünüreallaşdırma prosesinin pozulmasının nəticəsi kimi hesab edirlər. Müasir Azərbaycan cəmiyyətində narkomaniyanın, korrupsiya, intihar, alkoqolizm, şiddətə meyillilik, oğurluq və qarət hallarının, habelə mənəviyyata zidd hərəkətlərin artmasının səbəblərini qeyd olunan amillərdə axtarmaq lazımdır. Tibbi-bioloji yanaşmada "Deviant" davranış cəmiyyətdə qəbul edilmiş şəxsiyyətlərarası qarşılıqlı əlaqə formalarını - əməlləri, hərəkətləri, mühakimələri, ünsiyyəti, psixi sağlamlıq səviyyəsində, habelə, sinir-psixi patologiya səviyyəsində normadan kənaraçıxma kimi qiymətləndirilir. Kənara çıxan davranışlar müəyyən səbəblərlə bağlıdır. Əvvəla, yeni sosial sistem boş yerə yaranmır, əvvəlki dağıdılmış sistemin bir sıra elementlərindən törəyib formalaşır. Söhbət insanlardan və məhsuldar qüvvələrin ünsürlərindən gedir. İkincisi, yeni sosial sistemin inkişafı, adətən qeyri-bərabər şəkildə inkişaf edir. Bu, həmin sistemin ünsürlərinin qarşılıqlı nisbətində müəyyən disproporsiyalar doğurur və onlardan bəzilərində müəyyən defektlərin qalmasına səbəb olur. Üçüncüsü, inkişaf edən sistemin mövcudluğu şəraitinə (istər daxili, istərsə də xarici şəraitinə) natamam adaptasiyası özünü göstərə bilər. Başqa sözləifadə etsək, sosial,texniki və mədəni inkişaf yeni meydana gələn ictimai-iqtisadi və mədəni tələbatların ödənilməsinə adekvat cavab verməyə bilər. Dördüncüsü, təsadüfi şəkildə baş verən hadisələr də deviant davranışın yaranmasına yol açır. Bütün bunlar sinxron halda müxtəlif neqativ hadisələrin konkret mənbəyi olur. Kənara çıxan davranış həmçinin iqtisadi münasibətlərlə əlaqələnir. Aydındır ki, belə davranış həmin münasibətlərin vəziyyətindən birbaşa asılı olmur. Qarşılıqlı əlaqə daha qəliz və çoxcəhətlidir.

"Deviant" davranış anlayışına rəy bildrən rus psixoloqu İ.S.Kon qeyd edirdi: "Deviant davranış cəmiyyət tərəfindən qəbul edilmiş və ya sosial mühit tərəfindən nəzərdə tutulan sosio-psixi, hüquq, mədəniyyət və ya əxlaq kimi normalardan kənara çıxmanı özündə vəhdə halında birləşdirən hərəkətlər sistemidir. İ.S.Kon deviant davranışı iki əsas kateqoriyaya ayırır: birincisi, psixi sağlamlıq normalarını, ikincisi, hər hansı mədəni və sosial normaları, və əsasən də hüquq normalarının pozulması ilə göstərilən antisosial davranış formalarını aid etmişdir. "Narkotik maddələrin isifadə edilməsi,sərxoşluq, aqressivlik, cinayəkarlıq və hüquqa zidd davranışlar vahid blok yaradır. Gəncin deviant davranışın bir formasına maraq göstərməsi onun digərlərinə də etinasız qalmayacağına ehtimal yaradır" [1].

Rus psixoloqu V.V.Korolyov apardığı tədqiqaların nəticəsi olaraq belə qeyd edirdi: "Cinayətlərin 33,1 %-i baş beyinində pozğunluq olan, 20,1 %-i xəstə oliqofrenlər , 4,1 %-i xarakter aksentuasiyasında patologiyası olan, yalnız 2,6 %-i ümumi nevrozlu yeniyetmə və gənc xəstələr tərəfindən törədilir" [2].

SSRİ məkanında kənara çıxma hallarının əsas mənbəyi iqtisadiyyatın aşağı səviyyəli olması idi. Bu hal, insanların həyat rifahını alçaldırdı, böyük itkilərin verilməsinə səbəb olurdu. İnsanları ədalətin pozulması narahat edirdi. XX əsrin 90-cı illərinin ortalarında Rusiyada aparılan sosioloji tədqiqatlar təsdiq edir ki, (tədqiqat1996-cı ilin may-iyun aylarında Ümumrusiya İctimai Rəyi Öyrənmə Mərkəzi tərəfindən aparılmışdır) rəyi alınan vətəndaşların yalnız 19%-i«insanlar öz əməyinə görə mükafatlandırılır» fikriya tamamilə ya da qismən razılaşır; 8 %i «ağıl və peşəkarlıq qiymətləndirilir» fikrinə tərəfdar çıxmışdır, nəhayət 4 %i «insanlar ehtiyac duyduqları şeyləri ala bilərlər» fikri ilə razılaşırlar [3].

XX əsrin son on illiyində aparılan sosioloji tədqiqatların nəticəsi: Alkoqolizm, cinayətkarlıq və narkomaniya deviant davranış qrupları içərisində xüsusi diqqət tələb edən problemlərdəndir. Sərxoşluq, alkoqolizm cəmiyyətimiz üçün bəladır; o, ictimai həyata əsaslı surətdə nüfuz edərək sosial mühitimizə maddi və mənəvi zərbə endirir. Tədqiqatçılar alkoqolizmlə bağlı aşağıdakı nüanslara xüsusi diqqət yetirirlər: - sərxoşluq, alkoqolizm müxtəlif sosial qruplara xasdır. Müəyyən ölkələrdə (Belorusiya, Rusiya, Ukrayna, və sairə) bu bəla hər iki cinsi (qadın və kişi) əhatə edir. Respublikamızda bu kimi hallar daha çox kişilərin həyat tərzi üçün səciyyəvi xarakter daşıyır. – alkoqolizm gənclər içərisində daha geniş yayılmışdır; bu, əmək nizam-intizamının pozulmasına, istehsal və istehlakın əlaqəli formalizasiyasının geckməsinə, ailələrin dağılmasına, qeyri-normal uşaqların doğulmasına, orta ömrün azalmasına səbəb olur. Son illərdə yeniyetmələr içərisində alkoqolizm və narkomanlığa cəlb edilmənin müəyyən əlamətləri müşahidə edilir. Dövri mətbuat, televiziya, radio və kütləvi informasiya vasitələri müəyyən materialları aydın formada nümayiş etdirir. Alkoqolizmə qarşı mübarizə xüsusi əhəmiyyət tələb edən məsələlərdən biri olaraq günümüz üçün ən aktual problemlərdən biridir. Alkoqolizm və narkomanlıq elə bir bəladır ki, sosial cəmiyyətin bütün kateqriyalarını əhatə edərək yaş sərhəddi tanımır. Bu problemin aradan qaldırılmasının yolları nədir? Mütəxəssislərin rəyinə əsasən, ilk öncə insanın ilk sosiallaşdığı mühot olan ailədən, yaşlılardan başlamaq lazımdır. Sonrasında isə yaş dövrlərindən asılı olaraq yeniyetmə və gənclərin adaptasiya olduğuqruplara diqqət yetirmək vacibdir. F. Şereqinin qeyd edir: Alkoqollu içki alüdəçilərinin statistikasına nəzər salsaq görərik ki, onların 1/3-i 10 yaşında, 2/3-i isə 15 yaşında istifadəçiyə çevrilmişdir. Bu fakt sübut edir ki, alkoqolizm və sərxoşluq gənclər hər hansı xüsusi submədəniyyətin ünsürü deyildir. Aparılmış son sosial tədqiqatlar göstərir ki, təxminən gənclərin 40%-i qəti şəkildə qeyri-alkoqollu ənənələrə tərəfdar çıxır; yaşlılar içərisində isə bu hal 15%-i təşkil edir [4]. Azərbaycan Respublikası Prezidentinin "Xroniki alkoqoliklərin və narkomanların məcburi müalicəsinin təşkili haqqında" 1997-ci il 27 yanvar tarixli 547 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti "Xroniki alkoqoliklərin və narkonmanların ixtisaslaşdırılmış tibb müəssisələrində saxlanması rejimi, normativləri və müalicəsi haqqında Əsasnamə"sini qərara alır [5].

Beləliklə, deviant davranış bütövlükdə cəmiyyəti əhatə etdiyi kimi sosial mühitdə münasibətlər formalaşmasına təsir edərək, sağlam inkişaf dinamikasının qarşısını alır. Deviantlığın aradan qaldırılmasına dair tədbir planlarının həyata keçirilməsi zəruri haldır.

Açar sözlər: Deviantlıq, alkoqolizm, cinayətkarlıq, sərxoşluq.

Ədəbiyyat

1. http://www.e-qanun.az/framework/4165
2. F.Q. Vahidov, T. B. AğayevSosiologiya s.31.
3. Кон И.С. Психология ранней юности. М., «Просвещение»,1989, 255 стр.
4. Воспитание трудного ребенка. Дети с девиантными поведениями./Под ред. М.И.Рожкова М: «Владос», 2003,239 стр.
5. Тощенко Ж. Г. Социология. Общий курс. М., 2001, с. 248.

H. MELVİLLİN "TAYPİ, POLİNEZİYA HƏYATINA BİR BAXIŞ" ƏSƏRİNDƏ SOSİAL PROBLEMATİKA

Abdullayeva Nigar
Azərbaycan Universiteti
nigar.abdullayeva@student.au.edu.az

1846-cı ildə Londonda və Nyu-Yorkda eyni zamanda Melvillin Markiz adalarında macəra dolu həyatına həsr olunmuş "Taypi, Polineziya həyatına bir baxış" əsəri işıq üzü gördü. Əsər böyük uğur qazanmışdı. Tənqidçilərin və oxucuların əksəriyyəti kitabı vəcdlə qarşıladı. Düzdür, bəzilərinə elə gəlirdi ki, kitabda təsvir olunan hadisələr ağlabatan deyillər. Onlar heç cür təsəvvür edə bilmirdilər ki, kitabda böyük sənətkarlıqla təsvir olunmuş macəralar və təbiət təsvirləri balina ovlayan gəmidən qaçmış cavan və həyat təcrübəsi olmayan bir nəfərin qələmindən çıxmış olsun.. Həqiqətən də Melvill o vaxta qədər amerikan ədəbiyyatında mövcud olmayan bir kitab ortaya qoymağa nail olmuşdu. Əsərin materialı, problematikası, qayəsi və ideya-fəlsəfi yönü gözlənilmədən aktuallıq kəsb etməyə başladı.

"Taypi" sadə bir dəniçinin balinavuran gəmidən qaçaraq Polineziyada yaşayan adamyeyən tayfaya əsir düşməsi və burada bir neçə ay yaşayaraq gördükləri, öyrəndikləri barədə hekayətidir.

Romanın artıq birinci fəsli müəllifin böyük istedada malik olmasına dəlalət edir. Bu fəsildə Melvill aborigenlərin xristian missionerinin arvadının başına gələnləri, yerlilərin çariçəsinin fransız dənizçilərinin başına gətirdiklərini maraqlı ştrixlərlə oxuculara təqdim edir. Müəllif oxucuları gərginlikdə və intizarda saxlamağı bacarır. Görəsən Melvillin özü prototipi olduğu əsərin baş qəhrəmanı öz dostu ilə gəmidən qaça biləcəkmi? Görəsən onlar əngəlləri uğurla dəf edib aborigenlərin məskunlaşdıqları vadiyə düşə biləcəklərmi? Qaçqınlar taypilərin arasına gəlib çıxdıqdan sonra oxucu yeni-yeni əndişələrlə üzləşməli olur. Qaçqınlar artıq gəmidə adamyeyən taypi tayfası haqqında eşitmişdilər. Görəsən üzləşdikləri aborigenlər taypi deyillər? Birdən onları da bayram vaxtı insan əti yeməyə məcbur edərlər. Dostu Topi yoxa çıxandan sonra Melvill həm özü üçün, həm də ondan ötrü narahat olur. Taypilər ondan yedikləri ağ adamın başını səylə gizlədirlər. Bu, Melvillin ürəyində yeni şübhələr oyadır: bəlkə onlar onun dostu Topini həzm-rabedən keçirmişlər.

Lakin oxucunun intizarı heç də həmişə qəhrəmanların taleyinin doğurduğu əndişə ilə bağlı deyil. Belə ki, kitabda yazıçı ilk baxışdan guya təsadüfən bir cümlə işlədir: "Mən şübhə etmirəm ki, biz onların ölkəsinin dərinliklərinə nüfuz etmiş ilk ağlarıq" [1, s.228]. Lakin sonra məlum olur ki, bunlar gəlişigözəl sözlər deyillər: müəllif taypilərin arasında cəmisi bir neçə həftə qalmasına baxmayaraq onların bayramlarını, nigah mərasimlərini çox gözəl təsvir edir, O, detallardan

məharətlə istifadə edir, taypilərin həyat tərzini canlandırır; oxucu sanki özü onların bayramlarının bilavasitə iştirakçısına çevrilir.

Bu əsərdə Melvill öz deyim və ifadə tərzi etibarilə sevimli yazıçısı Daniyel Defoya çox yaxındır: Defonun Robinzon Kruzosu kimi Melvillin də "mən"i sadəcə olaraq təhkiyəçi yox, eyni zamanda təşəbbüskar, tədbirli, işgüzar gəncdir. O həyatı bütün varlığı ilə sevir, hər şeylə maraqlanır, kifayət qədər hiyləgərdir. Onun yoldaşı Tobi isə tez özündən çıxır, pessimistdir, özünə qapanır. Əsərdə yalnız bu iki obraz deyil, taypiləri təmsil edən tayfa başçısı Mehevi, qoca Təbib, bir sıra digər obrazlar öz həyatilikləri ilə diqqəti cəlb edirlər.

Əsər işıq üzü gördükdən sonra onun əleydarları və tərəfdarları, müəllifin dostları və düşmənləri meydana çıxdı. Elə bu dövrdə "Gənc Amerika" ədəbi-siyasi qrupu Melvillə dəstək oldu və onun ədəbi yaradıcılığına böyük və önəmli təsir göstərdilər. Belə ki, Melvill onların təsiri nəticəsində demokratik ədəbiyyatın yaranması istiqamətində fəaliyyət göstərməyə başladı. "Taypi" əsərini səyahət və sərgüzəşt mövzusunda sonradan yazılan və işıq üzü görən əsərlərin kökü və əsas başlanğıcı kimi qiymətləndirilə bilər. Əsər avtobioqrafik xarakter daşıyır və buna görə də tənqidçilər ilk zamanlar əsərə şübhə ilə yanaşırdılar. Bu səbəbdən onlar müəllifin mövcudluğuna şübhə etdilər və əsərdə yazılanlara sübut kimi sənəd tələb etdilər. Bəziləri isə Herman Melvill adlı yazıçının olmasını inkar etdilər və əsər başdan-ayağa mistifikasiya adlandırdılar. Bütün bu söz-söhbətlər yalnız «Buffalo Commercial Advertiser» qəzetində Riçard Tobays Qrin tərəfindən çap olunan məktubdan sonra sona çatdı. Məktubda deyilirdi: «Я истинный и подлинный Тоби, все еще живой, и я счастлив подтвердить совершенную точность книги…» - "Mən əsərdəki Tobiyəm, hələ də sağam və kitabın düzlüyünü təsdiq etməkdən böyük məmnunluq duyuram..." [13, s.424]. Bunu da qeyd etmək yerinə düşərdi ki, Melvillə yönələn tənqidlərin əksəriyyəti dinlə əlaqəli olan qəzet və jurnallardan gəlirdi. Bu hər şeydən əvvəl onunla əlaqədar idi ki, bu mətbu orqanların nümayəndələri "Taypi"də müəllifin dini görüşlərə qarşı kəskin mövqe tutmasını sezirdilər. Bütün bunlara baxmayaraq Melvill "Taypi" əsəri ilə ədəbi mühitdə özünü göstərdi.

Melvill əsərdə şahidi olduqlarını nəql etdikcə həmçinin arada bir digər matroslardan və yerlilərdən eşitdiyi əhvalatları və ya maraqlı hadisələri də yada salır. Macəra ilə başlayan əsər daha sonra mərkəzi xəttə doğru yönəlməyə başlayır və taypilərin yaşayış tərzi, psixologiyası, adətləri, xarakterləri, xarici görünüşləri, adanın iqlimi və təbiətindən bəhs edir. Bunları göstərdikcə Melvill taypilərin sadəliyini, səmimiliyini, qonaqpərvərliyini, döyüşçülərin qəhrəmanlıq əzmini və qızların zərifliyini təsvir etməkdən yorulmur. İlk görünüşdən əsərdə təsvir olunan hər şey ideal görünə bilər və oxucu Melvilli romantik yazıçı kimi qəbul edib onun yazdıqlarını gerəkliyə romantik münasibətin inikası hesab edə bilər. Lakin ideallıq qəhrəmanın uğursuzluqlarının başlaması ilə başa çatır. Belə ki, əsərdə də göstərildiyi kimi baş qəhrəman ayağından yaralanır və artıq dostu Tobi kimi tez-tez yeriyə bilmir. Sonra yağışdan islanıb soyuqlayır və xəstələnir. Lakin bunlar yalnız fiziki ağrılardır, mənəvi iztirablar daha dəhşətlidir. Şübhə, qorxu, ümidsizlik, məyusluq hər addımda daha da artmağa başlayır. Sonra dostu Tobinin yoxa çıxması və adamyeyənlərin ona göstərdikləri qonaqpərvərlik artıq onda şübhə oyatmağa başlayır. Melvill artıq gələcəkdən qorxmağa başlayır, çünki gələcəyi bilmədiyi üçün ona hər şey məchul görünür. Hələ əsərin ilk səhifəsində göstərir ki, "taypi" sözünün mənası Markiz adalarının dilindən tərcümədə "insan ətini sevən" mənasındadır. Taypilərin hannibalizmindən, burada çoxərliliyin qəbul olunmasından, vəhşilərin mənəvi saflığından və qeyri-mədəni olmasından danışdıqca özünə təsəlli ola biləcək situasiyalar axtarmağa başlayır. Buna baxmayaraq müəllif boynuna alır ki, orada yaşadığı müddət əzində hər an yerlilər tərəfindən yeyilə biləcəyindən daim qorxmuşdur.

Əsərdə Melvill tərəfindən göstərilən adada olan ideal həyat simvol olaraq Amerikadakı həyatla qarşılaşdırılır və müqayisə olunur. Bunu müəllifin "Taypi"də öz bədii əksini tapmış pessimist əhval-ruhiyyəsində görə bilərik:

"Oh! For refreshing glimpse of one blade of grass – for a snuff at the fragrance of a handful of the loamy earth! Is there nothing fresh around us? Istherenogreenthingtobeseen?" [18, s.35] - "Göz oxşayan bir ot görərdim! Təmiz torpağın tərini duyardım! Yəni ətrafımızda təzə heç nə yoxdurmu?! Yəni ətrafda yaşıl rəngdə heç nə yoxdurmu?!". Yazıçı burada "yaşıl ot" simvolunu işlətməklə özünün fikrini ifadə etməyə çalışmışdır. Bu yaşıl rəng həyat simvoludur, gələcəklə bağlı ölməz ümiddir. İndi isə bu ümid puç olub gedir.

Bir müddət sonar müəllif yenidən yaşam və sağ qalma simvolu qismində yenidən altında yaşıl rəng müraciət edir. Amma yaşıllıq çoxdur və elə etmək lazımdır ki, onda boğulmayasan. Daha sonra gəmi Markiz adalarına yaxınlaşır. Bura meyvələrlə və içməli duru su ilə zəngindir, lakin dənizçilər buradakı hər şeydən ehtiyat edirlər:

"The Marquesas! What strange visions of outlandish things does the very name spirit up! Naked houris – cannibal banquets…; savage woodlands guarded by horrible idols – heathenish rites and human sacrifices" [18, s.36] - "Markiz adaları! Bu ad insanda qəribə əhval-ruhiyyə yaradır! Çılpaq hurilər-hannibal məclisləri…; dəhşətli bütlərin mühafizə etdikləri vəhşi meşələr-bütpərəst adətlər və insan qurbanları".

Əsərdə dünyanın və bəşəriyyətin sonu haqqında dini təsəvvürlərə əsaslanan esxatoloji mövzular sırasında biz burada aclıq, ölüm, daşqın, sel, qanlı savaş, xaos motivlərinə təsadüf edə bilərik. Əsərdə göstərilir ki, adamyeyənlər nə qədər ağ dərili insan üçün dəhşətlidirsə, ağ dərili insanlar da onlar üçün elə bir o qədər təhlükə təşkil edirlər. Ağ dərili insanın adaya gəlməyi yerlilər üçün yaxşı heç nə gətirmədi, onların təsəvvürünə görə avropalılar yalnız bədbəxtliyə səbəb olurlar. Bu misallar göstərir ki, əslində "Taypi" əsərində öz əksini tapmış hər bir detal, hər bir təsvir elementi birbaşa simvolik xarakter daşıyır və mahiyyəti etibarilə mövcud burjua sivilizasiyası ilə qarşılaşdırılır. Əsərdə yazıçı tərəfindən verilən hər bir ədəbi təsvirin özünməxsus anlamı vardır. Taypilərin həyatının əsərin mövzusunu təşkil etməsinə baxmayaraq burada əsas obyekt, ideya-məzmunu ümumilikdə "sivilizasiyalı" Amerika və onun burjua cəmiyyəti ilə bağlıdır. Həmin burjua sivilizasiyasının o dövrdə gələcəyi yox idi və Melvill bunu açıq-aydın görürdü.

"Taypi" əsərindəki "ideallıq" anlayışı iki kontekstdə götürülür: təbii və ictimai. Təbii kontekstdə taypilər öz təbii fiziki görkəmlərini saxlamışlar. Hətta Melvill əsərdə göstərmişdir ki, Nyu Yorklu modabazlar öz geyimlərində və fiziki görkəmlərində süniliyə yol verdiklərinə rəğmən taypilər öz təbiilikləri ilə seçilirlər.

İctimai kontekstdə isə taypilərdə mülkiyyət məfhumu yoxdur və onlar pulun nə olduğunu bilmirlər. Bununla da onlar sivilizasiyanın çirkinliklərindən uzaqdırlar. Onlar özləri əkib-becərir, məhsullarını özləri yığır, özləri öz komalarını tikirlər. Taypilər zəngindirlər. lakin onların zənginliyi hər kəsə məxsus olub, amma eyni zamanda heç kimin olmayan təbiətin zənginliyidir. Bu vəhşi insanlar sivilizasiyanın iyrənc qanunlarına bulaşmamışlar. Düzdür, onlar adamyeyəndirlər, burada çoxərlilik və bütpərəstlik var. Amma burjua sivilizasiyanın daxilində baş verən hadisələrlə və qanunlarla müqayisədə bütün bu keyfiyyətlər elə də böyük əhəmiyyət kəsb etmir. Melvillin bu yöndə mövqeyi diqqəti cəlb edir. İnsanların tabe olduğu, azadlıqlarını əlindən alan sivilizasiya qanunları, pulun hökmranlığı, cəmiyyətin çürüməsi ilə nəticələnən cinayətkarlıq, dini təqiblər, cəmiyyətin insana zərərli təsiri, insane mənəviyyatının yox olma təhlükəsini dəf etməyin yolu kimi müəllif taypilərin həyatının ideallaşdırılmasına gətirib çıxarır. Lakin bütün bunlar vəhşi insanların hannibalizmi, çoxərlilik və bütpərəstliyin tərəfdarı olmaq anlamına gəlməz, taypilər həqiqətən

barbardırlar. Lakin vəhşilərin bütün mənfi xüsusiyyətlərinin burjua sivilizasiyasında analoquna rast gəlmək mümkündür. Belə ki, vəhşilərin hannibalizmi parallel olaraq burjua cəmiyyətinin ixtira etdiyi və insanların özünə qarşı olan maşınlarla, taypilər arasında olan savaşlarla cəmiyyətdəki aclıq və dağıntılar arasında böyük yaxınlıq duyulur.

Sivilizasiyalı insanla vəhşi taypi arasında fərq vardır. İstənilən halda hər ikisi bir-birinə qarşıdır, bir-birinə ziddir. Vəhşi insan xoşbəxtdir, lakin sivilizasiyalı insan isə mahiyyət etibarilə xoşbəxt ola bilməz. Beləliklə də, şüurları hələ də sivilizasiyanın qanunları ilə təhrif olunmamış azad və xoşbəxt vəhşilərin həyatı romantik utopiyanın klassik nümunəsidir. Burada adamyeyənlərin müsbət cəhətləri fonunda daha artıq sivilizasiyanın çatışmazlıqları təsvir olunur. Melvill üçün sivilizasiyadan kənar yaşamaq yüksək mənəviyyatın və azadlığın ilkin şərtidir. "Taypi" əsəri yazıçının artıq yaradıcılıq yolunun başlanğıcında burjua sivilizasiyasının qanunlarının amerikan variantının fəlsəfi-bədii dərkinə cəhd etməsindən və ömrünün sonuna kimi bu yoldan dönmədiyindən xəbər verir.

Beləliklə, Melvillin yaradıcılığı rəngarəngdir, lakin onun əsərləri öz bədii-estetik keyfiyyətləri baxımından eyni dəyər malik deyildir. Sənətkarın əsərləri arasında "Taypi" və "Mobi Dik" romanları hər zaman xüsusilə qeyd olunur. Tədqiqatçılar bu əsərlərdə yazıçının istedadının daxili inkişafı, onun bir sənətkar kimi təkamülü ilə yanaşı amerikan romantizminin də aparıcı mərhələlərini üzə çıxarırdılar. Məlum olduğu kimi, romantik şüur həmişə qeyri-adi, fantastik, arzu olunan və qeyri-adi hadisələrin təsvirinə meyl göstərir. Buna görə də romantik əsərlərdə uzaq ölkələrə, qeyri-sivil xalqların həyatına,davranış tərzlərinə, adət-ənənələrinə, onların ictimai mühitinə maraq böyük olur. Romantik yazıçılar da belə hesab edirdilər ki, məhz bu xalqlar öz mənəvi bütovlüyünü, adət-ənənələrini, sosial münasibətlərini, təbiətlə vəhdətdə olan harmoniyanı qoruyub saxlaya bilmişlər. Bu ideyanı maarifçilərdən götürən romantik sənətkarlar sonradan bu ideyaya xüsusi estetik, fəlsəfi çalarlar qatmış, onlara yeni vəzifələr vermiş, dövr və mühitlə olan əlaqələrinin fonunda onları sərf-nəzər etmişlər. Buna görə də romantik qəhrəmanlar qəribə insanlar olmuşlar, yeni-yeni ölkələrlə tanış olmaq arzusu ilə alışıb-yanmışlar, səyahət edərək qarşılaşdıqları bütün hadisələri və yenilikləri təfəkkür süzgəcindən keçirmişlər. Buna görə də romantik poemaların, romanların və hekayələrin əksəriyyətində səyahət mövzusu aparıcı yeri tutmuşdur. Romantik ədəbi janrlar içərisində səyahətə həsr olunmuş əsərlər xüsusi yer tuturdular. Çünki sənətkarların fikrincə, yalnız səyahət mövzusu sənəd dəqiqliyi və həqiqiliyi əsasında gerçəkliyi təsvir etməyə imkan verir.

Açar sözlər: roman, Amerika, dəniz, obraz, səyahət.

Ədəbiyyat

1. Quliyev Q., Əliyeva Ü. XVIII – XIX əsrlərdə Amerika ədəbiyyatı: Tarixi oçerklər, Dərslik, Bakı, 2016 , 395 s.
2. Мелвилл Г. Собрание сочинений: В 3 т. Т. 2: Тайпи; Израиль Поттер. Ленинград: Художественная литература, 1987, 560 с.
3. Melville H. Typee: apeepatPolynesianlife. Ed. With an Introduction and Notes by George Woodcock. Penguin Books, 1986, 230 p.

NADİR ŞAH ƏFŞARIN HİNİDSTAN SƏFƏRİNƏ DAİR

Abdullayeva Sevda
Azərbaycan Dövlət Aqrar Universiteti
sevda.abdullayeva.1986@mail.ru

Şərqin sonuncu fatehi Nadir şah qısa bir zaman çərçivəsində Nadir Əfşar dövlətinin varlığını möhkəmləndirdi. Osmanlı və Rusiya ilə münasibətləri öz xeyrinə qaydasına qoydu. Əfqanları təqib edərək əzdi, hətta onların sığındıqları yer kimi Orta əsrlərin ən zəngin və qüdrətli dövləti olan Hindistana yürüş etdi. . Hindistan şahı Məhəmmədə göndərdiyi məktubda belə qeyd edirdi: "Bir ayağımla hərəkət etsəm, Hindistanı, iki ayağımla hərəkət etsəm, bütün dünyanı fəth edərəm". Nadir şah Əfşar Məhəmməd şah Nadirin təklifinə əhəmiyyət vermədikdə, Nadir Hindistana doğru hərəkətə başladı. Hindistan sərhədinin 74 km-də Mank adlı yerdə əfqan qaçqınlarını darmadağın etdi. Nadirin göndərdiyi elçinin Məhəmməd şah qayıtmasına izin vermədi. Nadir bundan qəzəblənib, 1738-ci ilin yazında Qəznə və Kabula (həmin vaxt bu ərazi Hindistanın tərkibində idi.) hərəkətə keçdi. Nadir hind imperatorluğunu tutmaqla əfqanlara bir dəfəlik qulaqburması vermək və öz ordusunu, İranın iqtisadiyyatını qüvvətləndirməklə, gələcəkdə özbəklərdən və əfqanlardan qüdrətli qoşun toplayıb Osmanlı dövlətinə hücum etmək niyətində idi [1]. 1738-ci ilin 14 iyununda Nadirin qoşunları Qəznəyə çatdı. Oradan Kabula keçdi. Kabul xanı Nəsir xan Dehlidən kömək istədi. Lakin onlardan heç bir kömək gəlmədi. Tezliklə Kabul təslim oldu və Nadirin qoşunu Hindistanın paytaxtı Dehliyə doğru hücuma başladı. Onu da vurğulayıram ki, Nadir şah Məhəmməd şaha bir neçə dəfə müraciət etsə də, Məhəmməd şah ona cavab verməmişdi. Nadir də bu soyuqqanlılıqdan sonra Məhəmməd şahın üzərinə hücum etmək qərarına gəlimişdi. Tezliklə Pisəvər, Lahor əyalətləri Nadir tərəfin dən zəbt olunur. Nadirin ordusu çətin dağ aşırımlarından, çaylardan keçərək, Yəminabadın, Abadı, Kəşmiri, Xornalı və Hindistanın başqa şəhərlərini ələ keçirtdi. Nadir şahın qoşunları Hindistanın qərb hissəsini fəth edib, Dehliyə yaxınlaşdılar. Məhəmməd şahın qoşunları Nadirin qoşunları ilə Dehlinin yaxınlığında, Karnal deyilən ərazidə qarşılaşdılar. Mənbələrə görə, hind qoşunlarının sayı 350 min nəfər, Nadir şahın qoşunlarının sayı isə 160 min nəfər idi. Hind qoşunlarının əhatə etdiyi ərazi 50 hektarlıq bir sahə idi. Bu üstünlüklərə baxmayaraq, tezliklə Nadirin ordusu özündən qat-qat güclü olan hind ordusunu darmadağın etdi. Tarixçi Hanvey yazır: «Nadir hindlilərin xortumuna qılınc bağlayıb, düşmən üzərinə göndərdikləri filləri qorxutmaq üçün dəvəçilərinə tapşırıq verdi ki, kuzələri qatran və yandırıcı maddələrlə doldurub, hazırlasınlar. Müharibə başlayan kimi kuzələri yandırıb, dəvələrlə meydana tullasınlar. Hindlilərin filləri və qoşunları bundan qorxub, geri çəkildilər [2]. Nadirin apardığı böyük taktiki manevrlər nəticəsində hind ordusunun başçısı Səadət xan əsir alındı. Özlərini məğlub - edilməz hesab edən hind qılınclıları Nadirin yeni taktikası qarşısında heç bir iş görə bilmədilər. Komandirini itirmiş ordu minlərlə yaralı qoyub, qaçmağa başladı. Çoxlu top alındı. Tarixçilərin dediyinə görə, otuz min ölən vardı, iyirmi min əsir alındı. Dəvələrin üstündə olan kuzələrdə neftə, qətrana od vurub, hərbi fillərin üzərinə hücuma keçdilər. Dəvələr hamısı birdən fillərə tərəf qaçdılar. Fillər isə bundan dəhşətə gəlib öz ordularının üzərinə buruldular. Dovranın başçılıq etdiyi hind ordusu darmadağın edildi. Bundan sonra Məhəmməd şah atəşkəs haqqında müzakirəyə başladı. Tərəflər arasında saziş imzalandı. Saziş müqabilində Hindistan Nadir şaha beş milyon rupi cərimə verməli, hind ordusu top və hərbi sursatını İran ordusuna təhvil verməliydi. Hindistan şahı martın 31-də ordusu ilə birgə Nadirə təslim oldu. Məhəmməd şah da türk-soylu sülalədən olan bir şahənşah idi. Ona görə Nadir şah onun şahlığını əlindən almadı. Kornal müqaviləsindən sonra Nadirin qoşunları

Dehliyə daxil oldular. Kornal müqaviləsinə əsasən Məhəmməd şah sələflərindən qalan 350 illik xəzinəni Nadirə bağışladı. Şah Cahanın sarayında Nadirə xüsusi yer ayrıldı. Nadir şahın adına məscidlərdə xütbələr oxundu və bütün şəhərlərdə yeni sikkə kəsildi. Həmin sikkələrin üzərində «Dünya şahlarının şahı olan şahənşah Nadir şah» yazılmışdır [3]. Nadirə «Tovus» adlı taxt hədiyyə edildi. Bu taxtın bəzədilməsində bir milyon cəvahirat işlənmişdir. Nadirə bu günə qədər tayı-bərabəri olmayan «Kuhi Nur» daşı, «Dəryayi Nur», «Almaz Arlof» kimi məşhur almaz və brilyant daş-qaşlar hədiyyə edilmişdir [6]. Hal-hazırda həmin daşlar London, Tehran və Moskva muzeylərində saxlanılır. Həmçinin Hindistanın bütün xəzinəsi Nadir şaha təhvil verildi. Bunlardan əlavə, 60 min kitab əlyazması İrana gətirildi [5]. Nadir şah Hindistan qələbəsindən sonra əhalini vergilərdən üç il azad etdi. İran – Hind müqaviləsi hazırlandı. Müqavilənin qısa mətni belə idi: «Əsrimizdə Mars ulduzu kimi şücaətli, cəsarətli, zamanın qəhrəmanı, dövrün sultanlarının sultanı, iki dünyanın şahənşahı, Allahın kölgəsi, müsəlmanların pənahı, İsgəndər əzəmətli məqamı ərşə çatan, ədalətli Sultan Səma təbiətli, şah Əlahəzrət Nadir şah Əfşarın vəzirləri bəzi məsələlər üçün Hindistan diyarına elçilər göndərmişdilər [4]. Amma bizim vəzirlər həmin səfərlər vaxtında lazımi cavab vermədilər və Həzrəti Müəzzəmin məktublarının cavablarını yazmadılar. Bu səbəbdən iki dövlətin arasında ixtilaf yarandı. Onların qabiliyyətli qoşunları Hindistana hərəkət etdi. Xüsusilə Kornalda toqquşmalar baş verdi. Allah istədikdən sonra şərqdən doğan qalibiyyət günəşi Nadir şahın üzərinə düşdü. Çünki Əli-Həzrət Cəmşid qüdrətli lütfü onun mərhəmət mənbəyidir. Onun mərdanəliyi görüşə səbəb oldu, onunla birgə Dehliyə gəldik. Burada Hindistanın xəzinə və cəvahiratını onlara hədiyyə etdik. Öz böyüklüyü, hörməti, nəcabəti, məhəbbəti ilə Gürganə ailəsinin Tərxan soyunun böyüklüyünü ələ alaraq Hindistanın taxt-tacını bizim özümüzə qaytardı. Atadan oğula, qardaşdan qardaşa edilməyən belə bir mərhəmət müqabilində 150 kurur (75 milyon) hərbi xərc və qərb tərəfində olan bütün ərazilər İran dövlətinin ixtiyarına verildi. Qərb hissəsində yerləşən bütün mahallar İranın qüdrətli şahının torpağı sayılır. Bundan sonra İran məmurları o torpaqlara azad daxil olub, o yerlərin mahal tayfalarına və ailəsinə hökmranlıq edə bilərlər. Səlmar bağı. II Məhərrəm 1152-ci il (23 aprel 1739-cu il)» [6]. Ceyms Freyzer yazır: «Nadir şahın hücumundan Hindistana ümumən 50 kurur tümən cəvahirat, nağd mal-dövlət və əkin zərəri dəydi». Həmçinin Nadir Hindistandan gələndə özü ilə çoxlu memar, alim, görkəmli şəxsləri, ustaları və xeyli sayda kitabı İrana gətirdi. Nadir 24 dekabr 1740-cı ildə Mərvə doğru irəlilədi. 4 yanvar 1741-ci ildə Mərvdən Əbivərdə, oradan da Dəstəgirə – anadan olduğu yerə qayıtdı [6]. Qara mərmərdən özünə qəbir daşı hazırlatdı. Bu qəbir üçün Maxaradan Kelata çoxlu mərmər gətirildi. Kelatda xəzinəsi üçün bir qala tikdirildi. Nadir İmam Rzanın məqbərəsinə çox böyük hörmət və ehtiram göstərirdi. Bu məqbərəyə xeyli qiymətli hədiyyələr, qızıl çıraqlar, ipək xalılar bağışladı. Mənbələrdən o da məlumdur ki, Nadir şah Məhəmməd şah ilə müqavilə bağlayıb: Hindistanın qərb hissəsini (yəni indiki Pakistan və müsəlmanlar yaşayan), həmçinin Pişəvəri, Kabulu, Qəsni, Əfqanıstanı və s. Əfşar dövlətinin tərkibinə qatdı [5]. Məhəmməd şahın türksoylu olmağına rəğmən onun şahlığını geri qaytardı və oğlu Nəsrulla Mirzəni Məhəmməd şahın qızı ilə evləndirdi. Nadir şah iki aya qədər Hindistanda qalıb orada bütün işləri qaydaya qoydu. Daha sonra Nadirabada qayıdıb Herata doğru hərəkətə başladı. Nəvəsi Şahrux Mirzəni Herat hakimi elan etdi və Heratda Hindistandan gətirdiyi qəniməti nümayiş etdirdi.

Açar sözlər: dövlət, torpaq, hücum, bərpa, səfər, yadelli.

Ədəbiyyat

1. Azərbaycan tarixi. I c. Bakı, 1961, səh. 339-340.
2. Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). Bakı, 1994;
3. Azərbaycan tarixi (uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı, 1996; Azərbaycan tarixi; 7 cilddə, III c., Bakı, 1999.
4. ASE. c. VII. Bakı, «Azərnəşr»
5. Tahirzadə Ə. Nadir şah Əfşar. Bakı, 2002.
6. Qüddusi M.H. Nadir şah. Tərcümə və ön sözün müəllifi M.Ə.Müsəddiq. Bakı, 1999.
7. Hüseynov Ə.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə.Tarix elmləri üzrə fəlsəfə doktoru dərəcəsi almaq üçün təqdim olunan dissertasiya. Bakı, 2009
8. Бакиханов А.К. Глюстан-и Ирам. Баку, 1991.

POSTMODERNİST ROMANDA MULTİKULTURAL DƏYƏRLƏRİN İNİKASI

Abdullayeva Yeganə
Azərbaycan Dillər Universiteti
y.abdullayeva68@gmail.com

Müasir Böyük Britaniya romanı Zadi Smitin (Zadie Smith) (1975) adıyla bağlıdır. Yazıçıbu ölkədə yaşayan, iki mədəniyyətin daşıyıcısı olan bir çox "gəlmə"yazıçılar kimi multikultural ədəbiyyatın yaranmasında iştirak edir.S.Prosserin də qeyd etdiyi kimi Z.Smitin yaradıcılığı "M.Emis komikliyini, İ.Makyuen ciddiliyini, C.Barns kinayəsini, adi ingilisin qayğılarını birləşdirir... Smit onların layihələrini götürüb, davam edib, onu daha da yeniləşdirib və daha irəli gedib. Mən onu Britaniya haqqında yazan möhtəşəm britaniyalı yazar kimi görürəm. Onun şəxsində real şəkildə aşırı inanclı, etnik cəhətdən rəngarəng, çoxmədəniyyətli britaniyalı təcəssüm olunur" [5].

Z.Smitin Böyük Britaniya ədəbiyyatında məşhur olan "Ağ dişlər" (White Teeth) (2000) romanı müxtəlif mədəniyyətlərin qovşağında yerləşən, üç nəsil qarışığına məruz qalan ingilis ailəsindən bəhs edir. Böyük Britaniya ədəbi tənqidində bu əsər barışmaz cəbhələrdə duran iki müxtəlif mədəniyyətlər kimi deyil, əksinə özündə multikultural dəyərləri daşıyan yeni hibrid mədəniyyətin daşıyıcıları, yeni tip insan obrazlarının bənzərsizliyi ilə təhlilə çəkilir [1; 2]. Romanı təhlil edən D.Hed yazır: "Smit romanında elə bir yol, elə bir vasitə tapır ki, inkişaf edən və gerçək olan multikultural Britaniyada çoxmədəniyyətliliyin varlığını vurğulaya bilsin" [2, s.87]. Birgə mövcudluğu, çox mədəniyyətliliyi və tolerantlığı yayan, digərinin mədəni dəyərlərinə həssaslıqla yanaşan toplumun təsviri əsərin ana xəttini təşkil edir. Lakin əsərin bu özəlliyi ilə bərabər iki mədəniyyətin daşıyıcıları arasında baş verən məişət problemləri yazıçı tərəfindən gülüş hədəfinə çevrilir, müəllif ironiyasına tuş gəlir.

Z. Smit yaradıcılığını öyrənən ingilis tədqiqatçısı Con Mullan yazırdı ki, "Ağ dişlər" sözsüz ki, etnik identiklik və müstəmləkəçiliyin son nəticəsi haqqındadır. Məhz müstəmləkə siyasəti əsərin bütün qəhrəmanlarını Londona gətirib çıxarmış və onlar müstəmləkə sonrası yaranan identikliyi qəbul edir" [3].Tənqidçinin bu fikri "Ağ dişlər" romanın problematikasını müəyyən edən vacib məqamlardan biridir. Yazıçı insanlar arasında mövcud olan dini, irqi, mədəni müxtəlifliyin onların yaşam tərzinə təsirindən və biri-birinə olan münasibətindən söz açır, lakin bunu dramatik

situasiyalarda deyil, yumor və ironiya ilə təsvir edir. Bu ironiya çox vaxt ailə tarixçəsinin nəqlində, milli hisslərin "şişirdilməsində" və personajların şəxsi münasibətlərində özünü büruzə verir. Başqa tərəfdən roman "kiçik insan"ın böyük ümidləri haqqında hekayədir. Ailə-məişət problemləri fonunda "kiçik insan"ın faciəsi gülüş doğurur, böyük mətləblərin yanında cılız görünür. Həyatını bitirmək istəyən personajlardan birinin özünə sui-qəsdi faciə deyil, komik situasiya yaradır. Məlum olur ki, o, özünü öldürməkdən çox imitasiya edir, ailəsini qorxutmaqla evində "hegemonluğunu" qoruyub saxlayır. Britaniyalı olmaq arzusu şərqli kişinin patriarxal qaydaları evində davam etmək arzusu ilə tərs mütənasibdir və o, bu üzdən "oynamaq" məcburiyyətində qalır.

Yazıçı əsərində imperiyanın süqutundan sonrakı mərhələdə yaşayan mühacirlərin cəmiyyətdə müəyyən yer tutması,əldə etdikləri azadlığın "dadını" çıxarması kimi istəklərindən söz açır. Multikulturalizmin ideologiyasına görə qlokalizasiya mərhələsində yaşayan insan çoxmədəniyyətlilik və tolerantlıq, birgəmövcudluq şəraitində yaşaya bilər (H.Baba). Z.Smitin təsvir etdiyi roman dünyası da qlobal və lokal sivilizasiyaların qlokal mərhələyə qədəm qoyduğu zaman kəsiyindən bəhs edir.Romanda "ağ dişlər"in simvolucəmiyyət stereotipi kimi çıxış edir və uğurun rəmzini ifadə edir. "Ağ dişlər" seçilmişlərə işarə, onlardan biri olmaq, onlar kimi rifah içində yaşamaq mənasını bildirir. Simvolun rəmzi mənası bütün roman qəhrəmanlarına sirayət edir.

Əsərin baş qəhrəmanlarından biri pakistanlı Səməd İqbal ailəsində müsəlman adət-ənənələrini qoruyub saxlamağa can atır, amma bununla belə həyat yoldaşı və iki oğlu ilə qorumalı olduğu əlaqəsini itirir. Səməd İqbalın nəyin bahasına olursa-olsun adət-ənənələri qoruyub saxlamaq arzusu onun davranışlarında istehza doğurur, oğlanları ilə bağlı qarabasmalar yaradır. O, övladlarını müsəlman kimi böyütmək istəyir, lakin reallıq onun istəklərinə qarşı çıxır və nəticədə Səməd İqbal komik situasiyalara düşür. C.Mullanın da qeyd etdiyi kimi "Zadi Smitin mədəniyyətləri və irqləri "qarışdırma"sı cəhdi personajların ənənəni öz istəyinə uyğun barışdırmasıyla nəticələnir. Valideynlər gecələr yatmır, öz yuxularında tanınmaz gentiplərini, gizli fenotipləri görürlər" [3].

Z.Smit mühacir və etnik ailələrin problemlərini təsvir etməklə dünyada gedən yeni proseslərin, millətlərarası münasibətlərdə dəyişən reallıqları canlandırmağa çalışır. Yazıçının özünün də iki müxtəlif mədəniyyətin daşıyıcısı olması faktı, qaldırdığı problemə yaxından bələd olması fikrini irəli sürməyə əsas verir. Multikultural cəmiyyətdə yaşayan müəllif bu həyatın bütün çətinliklərini və gözlə görünməyən tərəflərini yaşamışdır. Z.Smit yumor hissilə mühacir həyatının gerçək üzünü qələmə almaqla cəmiyyətin məngənəsində "çapalayan", donuq adət-ənənənin girdabından çıxa bilməyən insan talelərindən söz açır. Öz kimliyi və mədəni dəyərləri uğrunda mübarizə aparmağa can atan, lakin "özgə" cəmiyyətdəqəbul edilməyən bəşər övladının ağrılarından yazır. Bu üzdən roman insan həyatını dəyişməyə qadir olan seçim və onun gətirdiyi yeniliklər barədədir. Etnik problemlər və milli kimlik, "özgə" mədəniyyət və "özünün" mənəvi-ruhani dəyərləriylə bağlı məsələləri qaldıran "Ağ dişlər" romanı müasir Britaniya ədəbiyyatında son dövrdə yazılmış ən gözəl əsər hesab edilir. Bu vacib məqamı qeyd edən C.Sel yazır: "Z.Smiti multikultural, postmodern cəmiyyətlərin həyati mövzuları kimi multikultural identikliyin təsvirində öyrənmək lazımdır" [4; s.28].

Yazıçının maraqlı təhkiyə strategiyası M.Baxtinin xalq ruhu hesab etdiyi karnaval gülüşü şəklində müxtəlif mədəniyyətlərin qarışığından yaranan yeni Britaniya cəmiyyətinin təsvirində öz əksini tapır.Müəllifin yumorla təsvir etdiyi həyat səhnələri mürəkkəb insan situasiyalarını "yumşaldır", oxucuya tolerantlıq və birgəmövcudluq hisslərini yansıyır.

"Özgə" mədəniyyətlərin "yerli" mədəniyyətlərlə qarşılıqlı münasibəti müəllif tərəfindən qaçılmaz ideya kimi təsvir edilir və bu da öz növbəsində postmodernistlərin alternativ tarix

yaratmaq ideyasıyla bağlı olub,donuq stereotipləri dağıdan, yeni dünya modeli yaradan nəslin təhkiyəsi kimi də qəbul edilməlidir.

Açar sözlər: Z.Smit, "Ağ dişlər", postmodernist roman,multikultural dəyərlər.

Ədəbiyyat

1. Edemariam A. Learning curve// The Guardian. 3 Sep., 2005.
2. Head D. "Zadie Smith's White Teeth : Multiculturalism for the Millennium." Contemporary British Fiction. Cambridge:Polity Press. 2003, 107p.
3. Mullan J. After post-colonialism// The Guardian. 12 Oct., 2002.
4. Sell J. P.A. "Chance and Gesture in Zadie Smith's White Teeth and The Auto- graph Man: A Model for Multicultural Identity?"// The Journal of Commonwealth Literature. 2006, №41, 27-44p.
5. Thomas S. 'Zadie Smith's False Teeth: The Marketing of Multiculturalism' Literary London: Interdisciplinary Studies in the Representation of London. Vol 4, Num.1, 2006.

DİLÇİLİKDƏ DİSKURS ANLAYIŞI

Ağaməmmədova Şəbnəm
Azərbaycan Universiteti
agamemmedova90@inbox.ru

İnsan fəaliyyətinin ən vacib elementlərindən, ən dəyərli məhsullarından biri nitqdir. Məhz nitq diskurs təhlili və söhbət (termin bəzən konversasion kimi də işlədilir) təhlili adlandırılan yeni elmi istiqamətlərin obyekti olmuşdur.

Müasir dövr dilçiliyində "diskurs" anlayışından geniş istifadə olunur. "Diskurs – filoloji ədəbiyyatda geniş yayılmış termin (frans. discours, lat. dis-curere – ora-bura, müxtəlif tərəflərə qaçmaq) fransız dilində ənənəvi olaraq "mühakimə", "fikir yürütmə" mənalarında işlədilib. Bu terminin əsasını Amerikan dilçisi Z. Harris qoysa da onu bütün Avropaya yayan A.Van.Deyk olmuşdur.

50-ci illərdə E.Benvenist deyim nəzəriyyəsini hazırlayaraq diskursu nitqin xarakteristikası kimi müəyyənləşdirir: "Birincinin müəyyən şəkildə ikinciyə təsir etmək cəhdi" [3]. Yaxud İ. Derrida diskursu "Yazan və oxuyanların təcrübəsində canlı dərk olunmuş mətn təsəvvürü" adlandırır [2]. Z. Harrisə görə "Diskurs verbal kommunikasiyada mətn, qrammatik formaların bir-birinin dalınca sıralanmış frazaların ardıcıllığıdır" [9]. T.A.van Deykə görə isə "Diskurs kommunikativ hadisədir" [8]. Dilçilik elmində bu sahədə yeni dövrün yaradıcıları kimi İ. A. Boduen de Kurtenenin, F. De. Sössürün adlarını çəkmək olar.

Diskursun müasir elmi-nəzəri ədəbiyyatda, təsir etdiyi müəyyən peşə üzrə geniş və dar olmaqla aşağıdakı növləri fərqləndirilir:siyasi diskurs, pedaqoji diskurs, ədəbi bədii diskurs, elmi diskurs, publisistik diskurs, hərbi diskurs və s. Əlbəttə bu tam siyahı deyil. Hər bir məsələ ilə bağlı diskursu fərqləndirmək mümkündür və onlardan hər birinin öz xüsusiyyətləri vardır.

T.van Deyk diskursu həm geniş, həm də dar mənada izah edərək göstərir ki, geniş formada diskurs dedikdə müəyyən tarix, yer və başqa ünsiyyət prosesində danışan və dinləyən arasında qarşılıqlı ünsiyyətin nəticəsidir. Bu ünsiyyət hadisəsi şifahi, yazılı, verbal və qeyri verbal formalı ola bilər. Misal olaraq gündəlik danışığı, kitabların, jurnalların, internetdəki məlumatların

oxunmasını göstərmək olar. Dar mənada diskurs isə yalnız ünsiyyətdə olan proseslərin verbal hissəsidir. Bu mənada onu mətn ilə eyniləşdirirlər.

Müasir dövrdə diskursu mətndən fərqləndirən cəhətlərə də fikir verilir. Dilçilikdə belə bir yanaşma da vardır ki, diskurs linqvo-sosial sahəni əhatə edir, mətn isə sirf linqvistik sahəyə aiddir. Bu fikri daha da aydın ifadə etsək, deyə bilərik ki, mətn ünsiyyət hadisəsi haqqında sözlü təsəvvürdür, diskurs isə həyat gücü ilə yüklənmiş danışıqdır, yəni fəal ünsiyyətdə işlənən dildir. "Diskurs danışanın mənimsədiyi dildir" [4].

Yuxarıda yazılanları nəzərə alsaq, deyə bilərik ki, mətnlə diskurs arasında sərhəd qoymaq çətindir. Hər ikisi dilin qaydalarına tabedirlər, lakin diskursla mətni qarşılaşdırarkən diskurs proses, mətn isə prosesin nəticəsi kimi demək olar. Çünki diskurs real danışıqda fəaliyyətdə olandır, mətn isə tamamlanmış formadır. Mətn bir neçə diskursdan ibarət ola bilər. Bununlada bu nəticəyə gəlmək olur ki, mətn diskursdan böyükdur.

Sonda bütün bu yazılanlara əsasən qeyd etmək olar ki, hər bir nəzəriyyənin təhlilində öz problemləri olduğu kimi diskurs, onun Azərbaycan dilindəki yeri, özümüzküləşdirilməsi ilə bağlı bir çox problemlər yaransa da, biz diskursu dilimizə bir mənalı şəkildə verə bilmərik. Onu öz sözlərimizlə, sinonimlərindən istifadə edərək dilimizdə daha başa düşülən şəkildə istifadə edə bilərik. Çünki diskurs məlumatın yayılmasında, gündəlik fəaliyyət planlarımızda, keçmişi təhlil edib gələcəyə istiqamət götürməkdə çox böyuk rol oynayır.

Açar sözlər: diskurs, dilçilik, mətn.

Ədəbiyyat

1. A.Məmmədov, M.Məmmədov "Diskurs təhlilinin koqnitiv perspektivləri". Bakı 2010.
2. İ. Derrida, "Structure, Sign, and Play" (1966), as printed/translated by Macksey & Donato (1970).
3. E.Benvenist "Общая лингвистика". Издательство: Едиториал УРСС/ Москва 2002.
4. F.Y.Veysəlli "Diskursun təhlilinə giriş". Bakı 2010.
5. F.Y.Veysəlli "Struktur dilçiliyin əsasları". Bakı 2008.
6. G. Brown. G Yule "Discours Analysis" Cambirdge University, Press 2008.
7. R. Manafoğlu, N.Tağısoy, R.Kamal "İzahlı Tərcuməşunaslıq Terminləri luğəti". Bakı, 2010.
8. T.A.Van Deyk "Handbook of discourse Analysis". Academic, Press 2010.
9. Z.S. Harris "Discourse Analysis ". Language, 1952.

FRANSA-QAFQAZ KOMİTƏSİNİN (1919) FƏALİYYƏTİNƏ DAİR

Ağayeva Xəyalə
AMEA-nın A.Bakıxanov adına Tarix İnstitutu
khayalayahyayeva@yahoo.fr

Rusiya İmperiyasının dağılmasından sonra onun yerində yaranmış müstəqil dövlətlər, I Dünya müharibəsindənsonrakı vəziyyəti nizamlamağı və eləcə də mübahisəli məsələləri həll etməyi qarşısına məqsəd qoyan Versal Sülh konfransına böyük ümidlər bəsləyirdilər. Şərq aləminin ilk demokratik respublikası hesab edilən Azərbaycan Xalq Cümhuriyyəti hökuməti də öz suverenliyini dünya ictimaiyyətinə tanıtmaq üçün, parlament tərəfindən tərkibinə Əlimərdan bəy Topçubaşov

(sədr), Əhməd bəy Ağayev, Məmmədhəsən Hacınski, Əkbər ağa Şeyxülislamov, Mir Yaqub Mehdiyev və Məmməd Məhərrəmovun daxil edildiyi heyət formalaşdırdı. Sülh nümayəndə heyəti Bakıdan Batuma, ordan İstanbula (burada viza gözləmək məqsədilə dörd ay gözləməli oldular), İstanbuldan isə Parisə yola düşdülər.

Paris konfransında yaranmış mürəkkəb şəraitə və qeyri-müəyyən vəziyyətə baxmayaraq Azərbaycan nümayəndələri AXC-nin müstəqilliyinin tanıdılması yolunda ciddi fəallıq göstərmişdilər. Nümayəndə heyəti tərəfindən çoxsaylı ciddi diplomatik danışıqlar və təbliğatlar aparılmışdı. Qərb cəmiyyətinin Cənubi Qafqaz bölgəsini, o cümlədən Azərbaycanı daha yaxından tanıması üçün bir sıra ciddi addımlar atılmışdı. Bu istiqamətdə görülən tədbirlərdən biri də Parisdə Fransa-Qafqaz Komitəsinin yaradılması idi.

"Aique Navale Français" cəmiyyətinin nəzdində yaradılmış bu komitə, Azərbaycanın və Gürcüstanın Fransa tərəfindən tanınması üçün fəaliyyət göstərmiş qeyri-hökumət qurumu idi[5]. Qeyd edək ki, yuxarıda adının çəkdiyimiz cəmiyyət Cənubi Qafqaz ölkələri ilə iqtisadi əlaqələr yaratmağa maraqlı idi.

1919-cu ilin avqustun 9-da Paris Prefekturasında qeydiyyatdan keçən komitənin nizamnaməsinin birinci bəndində yazılırdı: "Komitə Fransanın Azərbaycan və Gürcüstan Respublikaları ilə iqtisadi əlaqələrinin inkişafına yardım göstərilməsi üçün yaradılmışdı" [1, s.1]. Bu dövrün əsas tədqiqatçılarından hesab edilən professor Cəmil Həsənli komitənin fəaliyyətindən bəhs edərkən qeyd edir ki, komitənin sədri Fransa parlamentinin üzvü, keçmiş ticarət naziri de Monzye Qafqaz respublikaları ilə, xüsusilə də, Azərbaycan Respublikası ilə əlaqələrə böyük əhəmiyyət verirdi. Onun fikrincə, müsəlman ölkəsi olan Azərbaycan İslam dünyası ilə əlaqələrin qurulmasında mühüm rol oynaya bilərdi [4, s.273].

Komitənin prezidenti vəzifəsinə fransız diplomatı və şərqşünas alimi Edmon İppi, vitse-prezidentləri isə M. Mehdiyev (Azərbaycandan) və M. Sumbatov (Gürcüstandan) təyin edilmişdi.

Fransa işğüzar dairələrinin ümumiyyətlə Qafqaza marqaları olsa da, bu Fransa hökumətinin rəsmi və qəti mövqeyi demək deyildi. Təsadüfi deyil ki, 1919-cu ilin avqustun 27-də Azərbaycan və gürcü nümayəndələri ilə keçirilən iclasda, Rusiyadan ayrılmış millətlərin müdafiə edilməsi məqsədilə de Monzyedən Fransa parlamentində bu iki respublika haqqında məruzə söylənilməsi xahiş edildi. Məruzənin mətni də qabaqcadan hazırlanmışdı [2, s.26]. Lakin de Monzyenin Azərbaycan və Gürcüstan Respublikalarına münasibəti ilə bağlı Fransa Xarici İşlər Nazirliyinəgöndərdiyi deputat sorğusundan sonra hökumətin qəti qərarı bəlli oldu: Klemenso kabineti "vahid və bölünməz Rusiya" ideyasına sadiq olaraq qalır.

Bütün bunlarla yanaşı, Azərbaycan nümayəndə heyəti təbliğat imkanalarının genişləndirilməsinə töhfə verəcəyinə ümid edərək komitənin fəaliyyətinin davam etdirilməsinə çalışırdılar. Ə.Topçubaşovun Azərbaycan Respublikası Nazirlər Şurası sədrinə yazdığı 6-10 noyabr 1919-cu il tarixli məktubunda oktyabrın 4-də komitənin növbəti iclasının keçirildiyini və konfranslar və işgüzar görüşlər keçirmək, mətbuat vasitəsilə təbliğat aparmaq baxımdan Komitənin bir sıra planlarının olduğunu qeyd etmişdi [3, s.34]. Məlumat üçün qeyd edək ki, komitə, məqsədinin iqtisadi əlaqələr qurulması olmasına baxmayaraq,Azərbaycan nümayəndələri və gürcülərə qərb cəmiyyətində daha yaxşı tanınmaq üçün teatr, vokal, musiqi və rəqs bölmələri də daxil olmaqla milli Azərbaycan gecəsi keçirməyi təklif etmişdi. Lakin, hər yaranmış imkandan istifadə etməyə cəhd edən Nümayəndə heyətimizin bu istəyi də baş tutmadı.

Fransa-Qafqaz komitəsinin yaranma məqsədi müstəqilliyni dünya səviyyəsində tanıtdırmaq istəyən AXC üçün çox cəlbedici olsa da, fəaliyyət nəticəsi heç də ürəkaçan olmadı. Sülh konfransının birinci kateqoriyasına daxil olan dövlətlər içərisində məhz Fransa Azərbaycanın,

ümumiyyətlə yeni yaranmış respublikaların müstəqilliyini həm faktiki, həm də hüquqi cəhətədən tanınmasının əleyhinə olduğunu birmənalı olaraq bəyan etmişdi. Lakin, Fransa cəmiyyətində yeni yaranmış Azərbaycan Cümhuriyyətinin tanıdılması istiqamətində əldə etdiyi nailiyyətlər baxımından Komitənin fəaliyyəti müsbət qiymətləndirilməlidir.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, Paris Sülh konfransı, nümayəndə heyəti, Fransa-Qafqaz Komitəsi.

Ədəbiyyat

1. Comite France-Caucase. Bulletin d'Information d L'Azerbaidjan. Paris, 1919, 18 Novembre, №4.
2. Ə.Topçubaşovdan Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə, 22-25 sentyabr 1919, Məktub N 9, Paris məktubları.
3. Ə.Topçubaşovdan Azərbaycan Respublikası Nazirlər Şurasının sədrinə, 6-10 noyabr 1919, Məktub N 10, Paris məktubları.
4. Həsənli C. Azərbaycan Demokratik Respublikasının xarici siyasəti (1918-1920), Bakı, 2011
5. Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, vol.638, folio 93, folio 95.

AMERİKA VƏ DÜNYA ƏDƏBİYYATINDA ROMANTİZM CƏRƏYANININ İNKİŞAF MƏRHƏLƏLƏRİ

Məltəm Akman
Azərbaycan Universiteti
akmann.meltem@gmail.com

Romantizm Avropa və Amerika ədəbiyyatlarında XVIII əsrin sonu XIX əsrin əvvəllərində mövcud olmuş ədəbi bədii istiqamətdir. “Romantizm” anlayışı uzun tarixə malikdir. Orta əsrlərdə “romance” latın dilinin əsasında yaranmışdır, “enromancier”, “romanz” milli dildə kitab yazmaq deməkdir. Milli dillərdə yaradılmış bu cür kitablar “romanz”, “roman” yaxud “romance” adlandırılırdılar [1]. XVII əsrdə ingilis dilində “romance” sözü nə isə fantastik,qəribə, şişirdilmiş, xəyali anlayışları ifadə edirdi. İnqilabi düşüncələri, müharibə dövründə vətəndaşlıq borcunun ön plana çəkilməsini, milliyətçiliyin qabardılması, maarifləndirmək uğrunda aparılan mübarizələri əks ettirən, dövrün tələblərini ələ alaraq yaradılmış Klassizm, Realizm, İntibah və Maarifçilikdən fərqli olaraq Romantizm daha çox yeni yaranan fikirlərə, insanların daxili vəziyyətinə və keçirdiyi hisslərə köklənmiş cərəyan idi. Fransız dilində “romanesque” mənfi çalarlarla və “romantik” müsbət “zərif”, “sentimental”, “gəmgin” mənada işlənməyə başlandı [2].

Romantizm cərəyanının əsasını insanı daxili aləmi və hissləri təşkil etdiyi üçün onun xristianlıq dini ilə sıx bağlılığı var idi. Dini konsepsiya kimi xristianlıq bütün diqqətini insanın daxili aləminə yönəldir bu isə insanın iç aləminin misli görünməmiş gərginlik kəsb etməsinə səbəb olur. Belə bir daxili mənəvi-ruhi gərginlik fərdə aid durumda dərk olunmayanı dərk etmək, fövqəlşüur səviyyəsinə qalxmaq imkanı yaradır ki, bu da romantik incəsənətin yaranmasının ilkin şərtidir. Romantizmdə insanın daxili aləminin durumunun oynadığı rolu üzə çıxardaraq Hegel yazırdı: “Mütləq daxili aləm romantikliyin əsl məzmunudur, öz müstəqilliyini və azadlığını dərk

etmiş subyektivlik ona uyğun gələn formadır.” Alman filosofunun bu sözləri göstərir ki, “romantizm” termini “daxililəşməklə” daha geniş mənəvi-fəlsəfi məna kəsb etmişdir [3].

Romantiklər öz zəmanələrinin gerçəkliyini irrasional, idrakın qanunlarına tabe olmayan, açılması qeyri-mümkün olan sirlərlə dolu bir aləm kimi təsəvvür edirdilər. Bu aləmin bircə cəhəti son dərəcə aydın şəkildə nəzərə çarpırdı : dünya insana, onun şəxsi azadlığına düşmən idi və bütün vasitələrlə şəxsiyyəti məhv etməyə can atırdı.

Məyusluq və ümidsizlik ona görə misli görünməmiş dərinliyə və vüsətə malik idi ki, inqilabın qələbəsi nəticəsində təşəkkül tapmış cəmiyyətə insnlar böyük ümidlər bəsləyirdilər, cəmiyyət isə bu ümidləri nəinki doğrultmadı, əksinə, əvvəlki çatışmazlıqlarına yenilərini əlavə etti. Sosial münaqişələr əbədi ümumbəşəri antinomiyalar kimi dərk olunurdular. Dünya sanki xaosa qərq olunmuşdu, onun hardan gəlib haraya getməsi tapmacaya çevrilmişdi.

Romantizmin ilk dəfə XVIII əsrin ortalarında Qərbi Avropa yazıçılarının, şairlərinin və filosoflarının əsərlərində ərsəyə gəlmişdir və insanların işlərinə, sevgilərinə, təbiətə baxış bucaqlarını dəyişərək tədricən bütün dünyaya yayılmışdır. Əgər romantizimin tarix boyunca inkişafının kiçik sxemini qursaq ilk olaraq Jean-Jacques Rousseauenun yaradıcılığını nəzərdən keçirməliyik. İsveçli ədib Jean-Jacques Rousseau uşaqların tərbiyə edilməsi və yetişdirilməsi mövzusunda “Emile” və ya “On Education (təhsil haqqında)” əsərini yazır. Onun yaratdığı Emile obrazı 5 yaşındaki bir uşaqdır, yazıçı Emile vasitəsilə əgər düzgün yetişdirilsə uşaqların dünyasının çox zəngin olduğunu və uşaqlarında çox ağıllı olduqlarını oxucuya çatdırmaq istəyir. Onun düşüncəsinə görə hərşey yaradılışdan çox düzgün və gözəldir ancaq sonradan səhv istiqamətləndirmələrlə, istismarlarla hərşey sonradan dəyişir və öz gözəlliyini itirir. Onun bu fikirləri artıq romantizimin əsas çatdırmaq istədiyi düşüncələrin bünövrəsini qoyurdu.

Romantizm cərəyanı özünü İngilitərədə də göstərirdi. 17 yaşlı şair Thomas Chatterton şeirləri kütlə tərəfindən uğurlu qəbul edilmədiyi üçün dərman içərək intihar etti. Qəddar vulgar cəmiyyət tərəfindən qəbul edilməyən, əsərlərində yaxşılıq, humanizm və gözəllik aşılamağa çalışan şairin intihara sövq edilməsi və ümumən bu fikir sonradan Romantizm cərəyanı üçün çox önəmli rol oynamağa başladı.Chartetton ideyaları ilə sonradan Byron, Van Gogh, Jim Morris və s. romantiklər tərəfindən davam ettirilən bu cərəyanın qurucularından biri kimi hesab edilir.

Romantizm cərəyanı Almaniyada 1771ci ildə Oscar Uildenin yazmış olduğu “Gənc Verterin iztirabları” əsərində özünü büruzə verir. Əsər məzmun olaraq cavan şair Verter ilə evli, gözəl qadın Charlottenin sevgisinin üzərində qurulmuşdur. Verter cəmiyyət tərəfindən burjua cəmiyyətinə qəbul edilmək üçün tələblərdən olan təhsilin və yaxşı sənətinin olması üçün təzyiqə məruz qalsa da o öz qəlbinin səsinə qulaq asmağı seçir və incəsənəti hərşeydən ali hesab edir. Bütün təzyiqlərə tab gətirə bilməyən Verter sonunda intihar edir. Onun ettiyi normal olaraq cəmiyyətdə zidd fikirlər doğursa da, Verterin çəkdiyi iztirablar və ideyaları kütlədə özünə qarşı simpatiya doğurur və oxucunun rəğbətinin qazanır. Bir çox insanın sevgi barədə düşüncələrini və baxış bucağını dəyişən bu möhtəşəm əsər Napeleon tərəfindən dövrün Avropa ədəbiyyatının şahəsəri adına layiq görülür.

Amerikan ədəbiyyatı tarixində isə romantizm dövrü demək olar ki, yarıməsrlik bir tarix zaman kəsimini əhatə edir: bu dövrün başlanğıcı XIX əsrin ikinci onilliyində, sonu isə 60-cı illər Vətəndaş müharibəsinə təsadüf edir. XIX əsrin 20-30-cu illərində Amerika Birləşmiş Ştatlarının iqtisadi və sosial strukturunda baş vermiş köklü dəyişikliklər ədəbi-bədii fikirdə romantizmin ideologiyasının meydana gəlməsi faktı ilə yanaşı onun bir sıra spesifik cəhətlərinin də meydana gəlməsini izah edir. [4]. Bu baxımdan Amerikan romantizminə xas olan özünəməxsus dualizmi – cavan vətən üçün qürur hissinin inqilabın demokratik ideallarının öz mahiyyətini itirməsi ilə bağlı məyusluq hissi ilə birləşməsini qeyd etmək lazımdır.

Amerika Birləşmiş Ştatlarında romantizm ideologiyasının sonraki inkişafı dövründə bu elementlərin ilkin tarazlığı son dərəcə qısa müddətdə pozuldu : cavan vətən üçün keçirilən qürur hissi azalır məyusluq isə gettikcə artırdı. Bu proses fəlsəfədə "özünəyardım" termini ilə ifadə olunan sosial-etik sistemdən Emersonun "özünəinam" nəzəriyyəsinə, sosiologiyada Ceffersonun demokratik idealından utopik sosializm ideyalarına, poeziyada Brayantın "Tenatopsis" əsərindən Uitmenin "Otun yarpaqları" əsərinə, nəsrdə İrvinqin "Rip Van Vikl" hekayələr toplusundan Melvilinin "Mobi Dik" romanına keçid kimi özünü büruzə verir. ABŞ-da romantik ideologiyanın təkamülü məhz bu istiqamətdə olmuşdur.

Amerika ədbiyyatı tarixində romantizm dövrü üç əsas mərhələyə bölünür. Romantizmin təşəkkülünün erkən dövrü XIX əsrin 20-30-cu illərinə təsadüf edir. Bu, "nativizm"- romantik prinsiplər əsasında milli gerçəkliyin, təbiətin, tarixin romantik özününküləşdirilməsi, amerikan burjua sivilizasiyasının, onun yanılmalarının, nöqsanlarının bədii vasitələrlə tədqiq olunması dövrüdür [5].

Amerika romantizminin yetkin mərhələsi XIX əsrin 30-50-ci illərinin ortalarına düşür. Bu mərhələ 30-cu illərin iqtisadi sarsıntıları, radikal-demokratik hərəkatların qüdrətli yüksəlişi, 40-cı illərin ağır daxili və siyasi münaqişələri ilə xarakterize olunur. Bu mərhələdə romantiklər sosial yamanlığın heç də xarici qaynaqlardan nəql olunmadığı nəticəsinə gəldilər. E.Po, N.Hotorn, H.Melvill kimi amerikan şair və nasirlərinin yaradıcılıqlarında özünü büruzə verən faciəvi motivlər bununla bağlıdır.

Amerika romantizminin son dövrü XIX əsrin 50-ci və vətəndaş müharibəsinin başlanmasına qədərki müddəti əhatə edir. Bu, ABŞda romantik şüurun və estetikanın böhrana uğraması dövrüdür. Bu böhran nəticəsində amerikan yazıçıları və mütəfəkkirlərində tədricən belə bir qənaət hasil olunur ki, romantik şüur artıq ictimai həyatın ortaya qoyduğu problemləri həll etmək, onun ziddiyyətlərindən çıxış yollarını müəyəyn etmək iqtidarında deyil. Bir çox romantik sənətkarlar , o cümlədən V.İrvinq, N.Hotorn, H.Melvill, H.Lonqfello bu dövrdə dərin ruhi böhrana məruz qalmış, onların əksəriyyəti ümumiyyətlə yaradıcılıq prosesindən imtina etmişlər.

Amerikan romantizmi Avropa romantizminə nisbətən maarifçiliyin ideologiyası və estetikası ilə sıx bağlı olmuşdur, bütün bunlar romantizm dövründə yazılan əsərlərdə özünü büruzə verir və onun varisi qismində çıxış edirdi.

Açar sözlər: romantizm, avropa ədəbiyyatı, amerika ədəbiyyatı, duyğular.

Ədəbiyyat

1. Qormaz Quliyev "Ədəbi cərəyanlar və istiqamətlər".
2. Qormaz Quliyev, Ülviyyə Əliyeva "Amerika ədəbiyyatı: tarixi oçerklər".
3. https://courses.lumenlearning.com/boundless-ushistory/chapter/the-emergence-of-american-literature/
4. https://www.shmoop.com/study-guides/literary-movements/american-romanticism

GƏNC AİLƏLƏRİN SOSİAL PROBLEMLƏRİNİN TƏHLİLİ

Alızadə Nilufər
Azərbaycan Universiteti
nilufer_eliyeva1@mail.ru

"Ailə – kiçik bir dövlətdir". Bu fikir hər zaman öz aktuallığını qoruyub saxlayır. Ümumi qaydalar baxımından ailələr bir-birinə bənzəyir. Gənc ailələrdə isə fərqliliklər daha çox nəzərə çarpır. Belə ki, gənc ailələrin yaşlı nəslin olduğu ailələrə nəzərən problemləri daha çox olur. İki müxtəlif mühitdə tərbiyə almış hər bir gənc ailə mühitinə adaptasiya ola bilmir. Bu çətinlik də sosial baxımdan problem yaradır. Əvvəllər ailənin dağılmasına, boşanmağa faciə kimi yanaşanlar bu gün çox rahatlıqla ailəsini dağıdır, bir-birindən ayrılırlar. Səbəbi çox sadədir. Xırda problemlər qlobal bəla kimiböyüdülür. Boşanmalardan böyük zərbə alan, travma görən isə valideynlərindən birini sağ ikən itirən övladlar olur. Övladsız ailələrdə isə ən böyük faciə baş verir ki, bu da ailənin məhz nəsil artırmaqdan ötrü qurulduğunun düşünülməsidir. Bu problemin həlli üçün isə gənc ailəyə psixoloji, tibbi və sosial baxımdan yardım göstərilməlidir.

MDB ölkələrində gənc ailənin ən böyük problemi dörd cürdür. Bunlar aşağıdakılardır:

1.Gənc ailələr üçün kifayət qədər maliyyə və maddi təminat səviyyəsinin olmaması;

2.Gənc ailələrin sosial problemlərinin ailə həyatını təşkil etməsi;

3.Həyat yoldaşlarının sosiallaşma dövrü (təhsil, iş yeri);

4.Gənc ailənin psixoloji uyğunlaşması. Beləliklə, gənc ailələrin 88%-i psixoloji konsultasiyalara ehtiyac duyur.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, Azərbaycan Respublikasında 2019-cu ildə 15-29 yaşlı gənc ailələrin sayı 21345-dir. bu gənc ailələrdən 14857-si isə sosial problemlər səbəbilə boşananlardır.

Son illər müasir gənc ailələr, onların problemləri və nailiyyətləri haqqında müxtəlif fikirlər, mülahizələr səslənir ki, onların da hər biri özünəməxsus arqumentlərə əsaslanır. Azərbaycanda gənc ailələrin problemləri əsasən sosial yönümlü problemlərdir ki, bu da dünyanın bir sıra ölkələrində mövcuddur. Məsələ ondadır ki, gənc ailələrin əsas problemi məşğulluğun təmin olunmasıdır. İşsizlik problemi iqtisadi problemi də doğurmuş olur.

Gənc ailələrdə müşahidə olunan problemlərdən biri də mənəvi xarakterlidir. Bu kateqoriyaya əsasən gənclərin mənəvi tərbiyəsi problemi, narkomaniya, QİÇSkimi sosial bəlaların meydana çıxartdığı problemlərdir. Bu problemlər sonsuzluq, ailədə özbaşınalıq və s. kimi məsələlərin daha da kəskinləşməsinə gətirib çıxarır.

Gənc ailələri narahat edən problemlərdən biri də evsizlikdir. Bu isə ən aktual problem olaraq bir çox sosial göstəricilərə də təsir edir. Xüsusilə nikaha daxil olmanın orta yaşına və doğum faktoruna bu problemin təsiri kifayət qədər böyükdür.

Təəssüf ki, indiki vaxtda gənclərin problemləri ilə bağlı aparılan bəzi təhlillər formal xarakter daşıyır. Yaxud da aparılan araşdırmalar lazımi şəkildə həyata keçirilmir. Təbii ki, bizim ölkədə indiki vaxtda xalqımızın gələcəyi olan yeni nəslin nə düşündüyü, dəyərlər yönümü, iqtisadi vəziyyəti, aldığı informasiya, davranışı və s. təhlil olunur [3].

Gənc ailələrin problemləri sistemli şəkildə araşdırılmalıdır. Yəni gənclik bir sistem kimi götürülməlidir. Zənnimcə, gənc ailənin problemlərinin yaranmasına başlıca səbəb qayınana-gəlin problemi, rezusfaktor, dünyagörüşün üst-üstə düşməməsi, kənar müdaxilə, oğlanın ailə həyatına hazır olmaması, övladın olmaması, qısqanclıq, inamsızlıq, maddi vəziyyətin ağırlığı və s. Təcrübə

göstərir ki, ailənin dağılmasına qızın yeni düşdüyü mühitin onu qəbul etməməsi də səbəb olur. Ana ilə həyat yoldaşı arasında yaranan xoşagəlməz münasibətlərin öhdəsindən gələ bilməyən və məsələnin məcrasına düşməsində qəti mövqe göstərməyi bacarmayan oğul sonda kənara çəkilərək ailənin dağılmasına şərait yaradır.

Ailələrin dağılmasını şərtləndirən amillərdən biri də rezus faktordur. Ananın qanının rezusu mənfi, övladının qanında isə atasında olduğu kimi, rezus müsbət olduqda ananın qanında övladın qanına qarşı antitellər yaranır. Birinci hamiləlik, adətən uğurlu olsa da, sonrakılarda müxtəlif formada problemlər meydana çıxa bilir. Buradan da ailədə bir çox narazılıqlar – həkimə çox pul xərcləmək, ailənin digər övlada sahib olmaması baxımından söz-söhbətlər yaranır ki, bu da boşanmayla nəticələnir.

Sosial, iqtisadi və psixoloji çətinliklərlə üzləşən, dözülməz ailə zorakılığına məruz qalan qadınlar ailəsini formal formada davam etdirirlər. Reallıqda belə ailələr də boşanma statistikasına daxil edilməlidir. Çünki onlar mövcud ola-ola dağılan ailələrdir.

Dövlət ailə siyasətinin həyata keçirilməsi istiqamətində gənc ailə institutunun təbliği, milli-mənəvi dəyərlərin gənc nəsilə aşılanması, eləcə də qadınların cəmiyyətdə fəallığının və iştirakçılığının artırılması məqsədilə maarifləndirmə tədbirləri həyata keçirir. Belə ki, Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi tərəfindən 2017-ci ildən başlayaraq "Ailə Akademiyası" adlı layihə həyata keçirilir. Bundan başqa Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 16 fevral 1999-cu il 27s nömrəli sərəncamı ilə "Gənc ailə" Proqramı təsdiq edilmişdir. Proqramın əsas məqsədi yeni qurulan hər bir gənc ailənin nikahdan əvvəl və nikahdan sonrakı problemlərinin kompleks təhlili əsasında elə təkliflər sistemi hazırlamaqdır ki, həyata keçiriləcək tədbirlər eyni zamanda həm hər bir ailənin xoşbəxtliyinə, həm də ölkənin tərəqqisinə ciddi kömək edə bilsin[1].

Son olaraq onu da qeyd etmək lazımdır ki, gənc ailələrdə özünü göstərən sosial problemlərin həlli istiqamətində istər dövlət, istərsə də ailə üzvləri birgə səy göstərdikdə boşanmaların da sayı azalmış olur. Gənc ailələrin möhkəm təməl üzərində qurulmasına böyük ehtiyac vardır. Çünki bu ailələrdə gələcək nəsil yetişir. Gələcək nəslin isə psixoloji baxımdan sağlam böyüməsi ön planda olmalıdır.

Açar sözlər: sosial problemlər, ailə, zorakılıq, dövlət.

Ədəbiyyat

1. "Gənc ailə" Proqramı. Bakı şəhəri, 16 fevral 1999-cu il № 27s.
2. GəncəliS.Nəsillər, ailələr, talelər. Bakı: Azərbaycan, 2006, 220 s.
3. Qasımov A. Gənclik və ailə. Bakı: Maarif, 1990, 67 s.
4. Qəhrəmanov E.Ə., Əhmədov Y.P. Sosial işin əsasları. Bakı: B-Print, 2014, 487 s.

LÖVHƏNİN MƏXSUSİ TEZLİYİNİN ONUN OBLASTINDAN ASILI BİR XASSƏSİ HAQQINDA

Allahverdiyeva Natavan
Sumqayıt Dövlət Universiteti
natavan.sdu@gmail.com

Məlumdur ki, lövhələr müxtəlif mexaniki konstruksiyaların tərkibinə daxil olan elementlərdir və bu konstruksiyalar sənayedə, texnikada, ən müxtəlif sahələri əhatə edən tikinti sektorunda geniş tətbiq olunurlar. Bu zaman konstruksiyaların dugər elementləri kimi lövhələrin də müxtəlif xasslərinin öyrənilməsi böyük praktiki əhəmiyyət kəsb edir. Bu məsələlərin tədqiqinə həsd olunmuş işlərdə adətən müxtəlif tipli (sərbəst, bərkidilmiş və sıxılmış) lövhələrin fiziki xassələri araşdırılır. Lakin bir çox hallarda bu fiziki xarakteristikalar təkcə lövhənin hazırlandığı materialdan, mühitdən və s. deyil, həm də onun həndəsi göstəricilərindən asılı olur. Bu mənada onun forması, oblastının həndəsi quruluşu mühüm əhəmiyyət kəsb edir. Bir çox hallarda lövhənin həndəsi göstəricilərini idarə etmək mümkün olduğundan, bu göstəricilər vasitəsilə onların praktikada tələb olunan bu və ya digər fiziki xarakteristikalarının optimallaşdırılmasına nail olmaq olar. Belə xarakteristikalar kimi kütlə, həcm, kritik güc və ya məxsusi tezlik götürülə bilər.

Bir sıra texniki məsələlərin həllində lövhənin məxsusi tezliyi vacib rol oynadığından, bu göstəricinin onun formasından asılı kəmiyyət kimi tədqiqi aktual məsələdir. Əgər lövhənin oblastını dəyişən kimi götürüb, onun məxsusi tezliyinə bu dəyişəndən asılı funksional kimi baxsaq, onda bu funksionalın qabarıqlığı onun ekstremal xassələri haqqında xeyli əlavə informasiya verə bilər. Bundan əlavə məlumdur ki, [1] əgər minimallaşdırılan funksional qabarıq və ya kvaziqabarıqdırsa, onda onda bu funksional üçün tapılmış zəruri şərti ödəyən həll (bizim halımızda oblast) həm də optimal olcaqdır. Bu isə optimal həllərin ədədi üsullarla axtarılması zamanı ciddi üstünlüklər verir [2].

Bunu nəzərə alaraq bu yarımfəsildə sıxılmış lövhənin məxsusi tezliyinin onun oblastından qabarıq asılılığı araşdırılır.

Tutaq ki, lövhənin sahəsi D oblastı, onun sərhədi isə $S_D \in C^2$-dir. Məlumdur ki, [1] lövhənin eninə rəqslərinni xarakterizə edən $w(x_1, x_2, t)$ funksiyası (əslində lövhənin məxsusi rəqsi) aşağıdakı dördüncü tərtib xüsusi differensial tənliyi ödəyir

$$\omega_{x_1x_1x_1x_1} + 2\omega_{x_1x_1x_2x_2} + \omega_{x_2x_2x_2x_2} + \omega_{tt} = 0. \qquad (1)$$

Əgər bu prosesi qərarlaşmış hesab etsək, onda bu tənliyin həllini (lövhənin məxsusi rəqsini) belə axtarmaq olar

$$w(x_1, x_2, t) = u(x_1, x_2)\cos \mu t,$$

harada ki, μ lövhənin məxsusi tezliyidir.

Bunu (1) tənliyində yerinə qoysaq, alarıq

$$\Delta^2 u = \lambda u. (2)$$

Burada

$$\Delta^2 = \Delta\Delta,\ \lambda = \mu^2.$$

Biz sıxılmış lövhəni tədqiq etdiyimizdən aşağıkakı sərhəd şərtləri qoyulmalıdır

$$u = 0, \quad \frac{\partial u}{\partial n} = 0, \ x \in S_D. \tag{3}$$

Qabarıq məhdud $D \subset R^n$ oblastlar çoxluğunu M ilə işarə edək. Tutaq ki,

$$K = \left\{ D \in M, \ S_D \in C^2 \right\}.$$

İndi fərz edək ki, lövhənin D oblastı K çoxluğundadəyişir. Onda, biz onun məxsusi tezliyinəoblastdan asılı funksional kimi baxa bilərik. Yəni belə işarə edə bilərik $\lambda_j = \lambda_j(D)$.

İşdə aşağıdakı teoremlər isbat ediir.

Teorem. Tutaq ki, $f(t)$ funksiyası $[t_0, t_1]$ parçasında iki dəfə kəsilməz differensiallanır və $f'(t)$ bu parçada işarəsini saxlayır. Onda elə $k_0 \geq 0$ ədədi var ki, hər bir $k \geq k_0$ üçün $F(t) = e^{k f(t)}$ funksionalı qabarıqdıq.

Sıxılmış lövhənin D oblastının dayaq funksiyasını

$$P_D(x) = \max_{l \in D} (l, x), \ x \in R^n \tag{4}$$

kimi işarə edək.

İndi fərz edək ki, lövhənin oblastı müəyyən t parametrindən asılıdır. Bu halda onun bütün fiziki xarakteristikaları, o cümlədən məxsusi tezliyi də bu parametrdən asılı olacaqdır. Odur ki, yaza bilərik

$$D = D(t), \quad \lambda(t) = \lambda(D(t)), \ t \in [t_0, t_1].$$

Beləliklə biz lövhənin məxsusi tezliyinə t parametrindən (əslində son nəticədə onun oblastınadan) asılı funksional kimi baxa bilərik. Tutaq ki, $D(t)$ oblastının $P_{D(t)}(x)$ dayaq funksiyası t parametrinə nəzərən differensiallanandır. Onda aşağıdakı fakt doğrudur.

Teorem. Tutaq ki, sıxılmış lövhənin oblastının dayaq funksiyası hər bir $t \in [t_0, t_1]$ nöqtəsi üçün $P'_{D(t)}(x) > 0$ (və ya $P'_{D(t)}(x) < 0$) şərtini ödəyir. Onda $\lambda_j(t)$ funksionalı kvaziqabarıqdır.

Misal. Teormin hökmünü əyani yoxlamaq üçün aşağıdakı misala baxaq. Tutaq ki, sıxılmış lövhənin oblastı t parametrindən aşağıdakı qaydada asılıdır

$$D(t) = D_0 + t \cdot D, \ t > 0, \ D_0, D \in K.$$

Burada $D_0, D \in K$. Məlumdur ki, bu halda $D(t)$ oblastının dayaq funksiyası belə hesablanır

$$P_{D(t)}(x) = P_{D_0}(x) + t \cdot P_D(x).$$

Buradan alırıq ki,

$$P'_{D(t)}(x) = P_D(x).$$

Oblastın dayaq funksiyasının tərifinə əsasən deyə bilərik ki, əgər 0 nöqtəsi sıxılmış lövhənin oblastına daxil olsa, yəni $0 \in \operatorname{int} D$ şərti ödənilsə, onda $P_D(x) \geq 0$ şərti ödəniləcəkdir. Bu isə o deməkdir ki, Yuxarıdakı teoremə əsasən sıxılmış lövhənin məxsusi tezliyi $\lambda(t)$ kvaziqabarıq funksiya olacaqdır.

Açar sözlər: sıxılmış lövhə, məxsusi tezlik, qabarıq asılılıq.

Ədəbiyyat

1. Гулд С. Вариационные методы в задачах о собственных значениях. Москва: Мир, 1970, 320 с.
2. Allahverdiyeva N. On an optimization problem for the eigenvalues. Advanced Mathematical Models & Applications, Vol.1, No.1, 2016, pp.50-55.

XÜSUSİ QAYĞIYA EHTİYACI OLAN UŞAQLARIN İNKİŞAFINDA ERKƏN MÜDAXİLƏNİN ROLU

Babayeva Aysel
Azərbaycan Universiteti
theaisel05@gmail.com

Xüsusi qayğıya ehtiyacı olan uşaqlar, adından da göründüyü kimi, xüsusi diqqət və qayğı tələb edən uşaqlardır. Onlar öyrənmə və digər fəaliyyət çətinliyi ilə doğulan əqli geriliyi və fiziki əlilliyi olan uşaqlardır.

Əlilliyi olan şəxs; doğuşdan və ya sonradan hər hansı bir səbəblə fiziki, əqli, psixoloji və sosial qabiliyyətlərini müxtəlif dərəcədə itirmiş, ictimai həyata uyğunlaşma və gündəlik ehtiyaclarını qarşılamaqda çətinlikləri olan, qorunma, baxım, reabilitasiya və dəstək xidmətlərinə ehtiyac duyan şəxslərdir.

Valideynlər hər zaman sağlam, ideal bir uşağın xəyalını qurarlar. Sağlamlıq imkanları məhdud bir uşağın doğulması ailələrdə şok effekti yarada bilər. Bu uşaqların ailələri kədər, nifrət, inkar etmə kimi sayısız duyğular yaşaya bilərlər. Ancaq valideynlər uşaqlarının xüsusi qayğıya ehtiyacı olduğunu nə qədər tez qəbul etsələr, bu onların övladlarının inkişafına bir o qədər müsbət təsir edəcək. Əlilliyi olan uşağa erkən diaqnoz qoyulması, ona erkən müdaxilə olunması uşağın daha sürətli inkişaf etməsinə kömək edəcək. Bəs erkən müdaxilə nədir və niyə lazımdır?

Erkən müdaxilə dedikdə, uşağın inkişafdan geri qalmasının və ya inkişafdan geri qalmaq riskinin mümkün qədər tez aşkarlanması, uşağa və onun ailəsinə erkən olaraq ixtisaslaşmış, psixoloji-tibbi-pedoqoji, sosial və s. yardımın göstərilməsi nəzərdə tutulur.

Erkən adekvat yardım uşağın psixoloji-fiziki inkişafındakı pozğunluqları kompensasiya edir və bununla da ikincili pozğunluqları aradan qaldırır.

Müasir elmi tədqiqatlar göstərir ki, bütün uşaqlar kimi, xüsusi qayğıya ehtiyacı olan uşaqların da həyatının ilk 6 ili, xüsusilə də birinci 3 ili “kritik dövrlərin”, yəni sinir sisteminin və beynin düzgün inkişafı üçün xüsusi stimullar və ya hissi qıcıqlar tələb olunan dövrlərin zənginliyi ilə fərqlənir və uşağın inkişafı cəhətdən olduqca vacibli bir dövrdür. Əgər stimulyasiya baş vermirsə, bacarıqların inkişafı baş vermir və ya əhəmiyyətli dərəcədə ləngimiş olur. Bu illərdə ailə ilk və əsas təməl rolunu oynayır və bu səbəblə valideynlər uşaqlarının inkişafını dəstəkləmək üçün lazım olan qayğı və sevgini göstərmək məcburiyyətindədirlər [3] .

Hər hansı bir səbəblə yaşıdlarından geridə qalan uşaqların vəziyyətləri anlaşıldıqdan sonra onların ümumi inkişafının yaşıdlarıyla paralel getməsini və yaşadıqları çətinliklərin alacaqları dəstəklə mümkün qədər düzəlməsini təmin etmək, erkən müdaxilə proqramının əsas hədəfidir.

Erkən müdaxilə təbii proses olmalıdır, istənilən yerdə istənilən vaxta olmalıdır. Effektiv erkən müdaxilə həm uşağın, həm ailənin həyatını tamamilə dəyişə bilər. Bununla uşağın inkişafında daha uzunmüddətli nəticələr əldə etmək imkanı yaranır. Bu imkan, yaxşı həyat yaşamaq, gələcəkdə daha çox uğur qazanmaq və daha yaxşı sağlamlıq imkanı deməkdir.

Ana və ataların uşaqlarını dəstəkləmələri, onlarla sağlıqlı ünsiyyət qura bilmələri, övladlarının özlərinə olan inam hissini artıra bilmələri baxımından dəstəyə ehtiyacları vardır. Bu səbəblə də proqramlı bir şəkildə sistematik olaraq valideynlərin maarifləndirilməsi və erkən uşaqlıq dövrünün düzgün inkişafının vacibliyinə qarşı həssaslığın artırılması böyük önəm daşıyır. İrəliləyiş əldə etmək üçün ailəni dinləmək, onların nə istədiyini öyrənmək və onları əqli geriliyi və ya əlilliyi olan uşağın valideyni kimi yox, bir insan kimi başa düşmək, empatiya qurmaq lazımdır.

Erkən müdaxilə başqa uşaqların əldə etdiklərini əlilliyi olanlarında əldə etməsi deməkdir. Əlilliyi olan uşaqlar digər sağlam uşaqlarla eyni hüquq və azadlıqlara sahibdir. Bu beynəlxalq və milli qanunlarda da öz əksini tapmışdır.

Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş və Azərbaycan Respublikasının ratifikasiya etdiyi "Əlillərin hüquqları haqqında" Konvensiyanın 7-ci maddəsinə uyğun olaraq deyilir:

1.İştirakçı dövlətlər əlil uşaqların digər uşaqlarla bərabər səviyyədə bütün insan hüquqlarını və əsas azadlıqlarını tam həyata keçirməsini təmin etmək üçün bütün zəruri tədbirləri görürlər.

2. Əlil uşaqlara münasibətdə bütün hərəkətlər zamanı ilk növbə də uşaqların ali maraqlarına diqqət ayrılır.

3.İştirakçı dövlətlər əlil uşaqların, digər uşaqlarla bərabər səviyyədə, onları maraqlandıran məsələlərlə bağlı onların yaşına və yetkinlik səviyyəsinə uyğun olan fikirlərini sərbəst ifadə etmələrini və bu hüquqların realizəsi üçün əlilliyinə və yaşına uyğun yardım almalarını təmin edirlər. [2]

Sağ qalma və inkişaf ayrılmazdır. Biz də öz növbəmizdə gələcəyimiz olan uşaqların həyatda qalmaqlarına yardımçı olduqdan sonra, onları tərk etməməli və onlardan ehtiyac duyduqları dəstəyi əsirgəməməliyik.

Açar sözlər: xüsusi qayğıya ehtiyacı olan uşaqlar, erkən müdaxilə, əlillik, qanun, valideyn dəstəyi.

Ədəbiyyat

1. Barlow J., Parsons J., Stewart-Brown S. (2005) Systematic review of the effectiveness of group based parenting programmes for infants and toddlers. Child: Care, Health and Development.
2. E.Ə. Qəhrəmanov, Y.P.Əhmədov " Sosial işin əsasları" Bakı-2014.
3. Yahya Özsoy, Mehmet Özyürek ve Süleyman Eripek, Özel eğitime muhtaç çoçuklar: Özel eğitime giriş, Karatepe yayınları. Ankara 1997.

İNGİLİS DİLİ DƏRSLƏRİNDƏ QRAMMATİKANIN TƏDRİSİNDƏ İSTİFADƏ OLUNAN ÜSULLAR

Babayeva Rəhimə
Azərbaycan Dillər Universiteti
b.rahima23@mail.ru

Xarici dillərin öyrənilməsinin bir neçə aspektləri mövcuddur. Bu aspektlərdən biri qrammatikadır. Xarici dildə danışmağı öyrənmək üçün qrammatika əhəmiyyətli yer tutur. Qrammatikanı öyrənmək və fikirləri düzgün ifadə etmək, həmçinin nitqdə və yazıda qrammatik formaları tanımaq qrammatik bacarıqların yaranması ilə baş verir. Bu günə kimi hələ də müəllimlər arasında bu kimi fikirləri eşitmək mümkündür: "Mənim tələbələrim qrammatikanı bilir, lakin danışanda səhvlər edirlər" ya da əksinə "Danışmağı bacarırlar, lakin qrammatikanı bilmirlər". Bu səbəbdən indiki zamanda qrammatikanın öyrənilməsində kommunikativ yanaşmadan istifadə çox vacibdir.

Qrammatikanı bilmək nə deməkdir? Qrammatik biliklər tələbələrin şifahi və yazılı nitq fəaliyyətlərinin inkişafına xidmət edir. Tələbələrin üslubi bacarıq və vərdişlərinin yaranmasında qrammatik biliklərin rolu müstəsnadır. Qrammatikanın tədrisinə nələr daxildir? Qrammatikanın tədrisinə qrammatik qayda, həmçinin qrammatik konstruksiya və strukturlardan istifadə etmək kimi qrammatik vərdişlər daxildir [4].

Ənənəvi olaraq, qrammatikanın tədrisi zamanı iki üsuldan – deduktiv və induktiv üsullardan istifadə olunur. Deduktiv yanaşmada müəllim əvvəlcə yeni qrammatik materialı təqdim edir, qaydaları izah edir, misallar göstərir, deyilmiş qaydanı misallar üzrə əsaslandırır, sonra isə tələbələr bir sıra çalışmalar yerinə yetirirlər. Deduktiv yanaşmanın əsas üstünlüyü odur ki, yeni qrammatik materialın izahına az vaxt sərf olunur, lakin bu yanaşma tələbələrin sərbəst fəaliyyətini məhdudlaşdırır. Bu üsul passiv və formal xarakter daşıyır.

İnduktiv yanaşma – qrammatikanın modellərə əsasən tədris olunması deməkdir. Bu yanaşmada müəllimin gətirdiyi bir sıra nümunələrdən çıxış edərək qaydanı tələbələr misallar əsasında öyrənirlər. Bu üsul tələbələrdə məntiqi təfəkkürü inkişaf etdirir, dil üzərində onların müstəqil və fəal çalışmalarına şərait yaradır. Tələbə düşünür, təhlil edərək qrammatik formaları tapır, onun mənasını müəyyən edir və ümumiləşdirir. Bu zaman qrammatik material tələbə tərəfindən şüurlu halda mənimsənilir. İnduktiv üsulun bir üstünlüyü də odur ki, bu üsul tələbəyə qrammatik materialın möhkəm aşılanmasını təmin edir. İnduktiv yanaşmanın əsas üstünlükləri kimi lüğət ehtiyatının zənginləşməsinə, sabit söz birləşmələrini, danışıq leksikasını istifadə etmək bacarığının və şifahi nitqin başa düşülməsi vərdişlərinin inkişafına şərait yaradan, tələbələrə sərbəstliyin təqdim edilməsini və canlı danışıq nitqindən qrammatik qaydaları çıxartmaq üçün imkan verilməsini qeyd etmək olar.

İngilis dilinin tədrisində apardığım uzun müşahidələrdən mən belə bir qənaətə gəlmişəm ki, ingilis dilinin tədrisi qarşısında qoyulan praktik məqsədə nail olmaq üçün qrammatik qaydaları tələbələrə şüurlu və mükəmməl mənimsətmək lazımdır. Tələbə qrammatik qaydaları şüurlu öyrənmədikdə, onu tez unudur. Qrammatik materialı şüurlu öyrətmək üçün onu misallarla izah etmək lazımdır [3]. Tələbənin verilən qaydanı başa düşüb-düşməməsini yoxlamaq üçün ondan öyrəndiyi qaydaya aid testlər, müxtəlif tapşırıqlar verib həmin materialı tələbənin nə dərəcədə

mənimsəməsini üzə çıxartmaq lazımdır. Bu zaman tələbənin təfəkkürü hərəkətdə olur, o düşünür. Tələbəni düşündürmək, onu fikir söyləməyə təhrik etmək indi metodikada əsas prinsiplərdən biri sayılır. Müasir təlim metodları tələbənin oxuduğundan nəticə çıxartmasını, oxuduğu haqqında fikir söyləməsini tələb edir. Məsələn: mən Present Continuous zamanını tələbələrə tədris edərkən belə bir üsuldan istifadə edirəm. Mən onlardan dərsdə müəyyən hərəkət etmələrini xahiş edirəm. Məsələn: tələbələrdən biri lövhədə yazır, digəri mətn oxuyur, üçüncü tələbə isə danışır və s. Sonra isə mən tələbələrdən bu sualları soruşuram:

Who is writing on the blackboard?Who is reading a text?Who is speaking?

Tələbələr bu sualları belə cavablandırırlar:

Sona is writing on the blackboard.Ali is reading a text.Seymur is speaking.

Sonda mən tələbələrə deyirəm ki, tələbələrin öz cavablarında işlətdikləri zaman forması Present Continuous zamanıdır.

Beləliklə, mən dərsdə çalışıram ki, tələbələr qrammatik qaydaları verilmiş misallar əsasında dərk edib mənimsəsinlər. Bəzi müəllimlər qrammatik qaydaya həddindən çox vaxt sərf edir və dilin başqa aspektlərini unudurlar. Məncə, ingilis dilinin tədrisində qrammatik materialın uzun-uzadı izahı tələbələrin dərsə olan marağını azaldır. Odur ki, qrammatik materialın tədrisində uzunçuluğa yol verilməməli, tələbələrin fəallığı təmin olunmalıdır.

Açar sözlər: yanaşma, deduktiv üsul, induktiv üsul.

Ədəbiyyat

1. Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyyə. Bakı,2003, 30 s.
2. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. Пособиедляучителя. М.: Просвещение, 2005, 284 с.
3. 3.Миролюбов А.А. Проблемы обучения грамматику и фонетике иностранных языков. МИОО, М., 2006, 202 с.
4. Пассов Е.И., Залесова Е.Г. Методика обучения иностранным языкам: “Формирование грамматических навыков», комплект пособий №9, Воронеж 2002, 142 с.

MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI VƏ RUSİYA FEDERASİYASININ DAĞISTAN RESPUBLİKASI ARASINDA SİYASİ-MƏDƏNİ ƏLAQƏLƏR

Baxşaliyeva Ağca
AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu
agca44@mail.ru

Tarixən mövcud olan qonşuluq və dostluq münasibətləri Azərbaycan və Dağıstan xalqları arasında hərtərəfli münasibətlərin gələcək inkişafı üçün əsas yaratmışdır. Cöğrafi yaxınlıq bu ölkələrin iqtisadi, elm, ticarət, mədəniyyət və bir çox digər sahələrdə əməkdaşlığını zəruri etmişdir [1; 3; 4]. Müasir mərhələdəAzərbaycanla Dağıstan arasında siyasi əlaqələrin möhkəmləndirilməsini labüd edən amillər içərisində respublikaların sərhədlərində əmin-əmanlığın təminedilməsidir.Bu baxımdan hər iki dövlətin müvafiq strukturlarının ən yüksək səviyyədə görüşləri, məsləhətləşmələri

stabilliyin qorunmasına xidmət edir və münasibətlərin daha yüksək mərhələsi üçün zəmin yaradır [2, s.52-53].

Hazırda Azərbaycanla Rusiya Federasiyasının tərkib hisssəsi olan (Şimali Qafqaz Federal dairəsi)Dağıstan arasında siyasi–mədəni əlaqələrin möhkəmləndirilməsi müxtəlif səviyyələrdə və məzmunda keçirilən görüşlər əsasında reallaşdırılır. 2007-ci ilin iyununda Mahaçqalada Rusiya Elmlər Akademiyasının Dağıstan elmi mərkəzində "Dağıstan və Azərbaycan xalqlarının tarixi-mədəni və iqtisadi əlaqələri: Keçmşin təcrübəsindən XXI əsrə baxış" adlı beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. 2012-ci ildə isə "Dərbənd şəhərinin tarixi: Azərbaycan və Dağıstan xalqlarının qardaşlıq və dostluq əlaqələrinin parlaq səhifələri" mövzusunda beynəlxalq elmi konfransAzərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix institutunun təşkilatçılığı ilə Bakıda təşkil edilmişdir [5].

2010-cu ildə M.Məhəmmədovun Rusiya Federasiyası Dağıstan Respublikası başçısı təyin edilməsindən sonra Azərbaycan-Dağıstan əlaqələri yeni mərhələyə qədəm qoydu. Son illərMahaçqala və Bakı qarşılıqlı mədəni əlaqələrin inkişafı üçün mütəmadi olaraq bir sıra tədbirlər həyata keçirir. Respublikaların iqtisadi əlaqələrinin inkişaflnda mühüm rol oynayacaq Rusiya-Azərbaycan iqtisadi forumu 2011-ci ildə Mahaçqalada start götürdü və Dağıstan Respublikasının başçısı R.Əbdülətipovun iştirakı ilə növbəti İqtisadi forum2014-cü ildə Qəbələdə baş tutdu.

2011-ci ilin mayında Dağıstan rəhbəri M.Məhəmmədovun Bakıya rəsmisəfəri zamanı Azərbaycanın şimal bölgələrinə baş çəkməsi, ölkəmizdə yaşayan dağlı xalqların sosial-siyasi vəziyyəti ilə yaxından tanışlığı azərbaycan-dağıstan xalqları arasında mehriban qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi istiqamətində əhəmiyyətli rol oynadı. Məhz bu səfərin nəticəsi olaraq Azərbaycan Respublikası ilə Dağıstan Respublikası arasında iqtisadi-ticarət, elmi-texniki, mədəni əməkdaşığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm müqavilələr imzalandı.

2011-ci ildə Dağıstan Respublikası Xalq Məclisinin sədri M.Məhəmmədov və Azərbaycan Respublikası Milli məclisinin sədri O.Əsədovparlamentlərarasımünasibətlərə dair bir sıra məsələləri müzakirə edərək, əməkdaşlığın genişləndirilməsi barəsində razılığa gəldilər. Rusiyanın tanınmış dövlət xadimi, 2013-2017-ci illərdə Dağıstan Respublikası prezidenti olmuş Ramazan Əbdülətipovun 2013 və 2016-cı illərdə Bakıya rəsmi səfəri respublikalararası münasibətlərin möhkəmləndirilməsində mühüm addım idi.

2016-cı ilin may ayında Azərbaycan Respublikasında Dağıstan günlərinin keçirilməsi, şübhəsiz hər iki xalqın daha da yaxınlaşması istiqamətində əlamətdar hadisə kimi qeyd olunmalıdır. Tədbirlə əlaqədar Bakıya gəmiş Ramazan Əbdülətipovun başçılıq etdiyi Dağıstan Respublikası nümayəndə heyəti dövlət səviyyəsində də bir sıra rəsmi görüşlərdə iştirak etmiş, respublikalararası maraq çərçivəsində iqtisadi-siyasi məsələlər müzakirə edilmişdir. Görüşlər zamanı Rusiya Federasiyası prezidenti V.Putinin Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında əlaqələri əhəmiyyətli hesab etməsi önə çəkilmişdir.

Dağıstan günlərini diqqətlə izləyən Dağıstan mətbuat işçiləri ölkəmizdə yaşayan dağlı xalqların bərabərhüquqlara malik olmasını razılıqla qeyd etsələr də, problemlərin də mövcudluğuna toxunmuş, Azərbaycan Respublikasının bu problemləri aradan qaldırmaq istiqamətində tədbirlər həyata keçirəcəyinə inandıqlarını əminliklə vurğulamışlar [6].

Açar sözlər: siyasi-mədəni əlaqələr, Azərbaycan-Dağıstan münasibətləri, ölkələrarası əməkdaşlıq, Mahaçqala-Bakı tədbirləri.

Ədəbiyyat

1. Гаджиева С.Ш. Дагестанские азербайджанцы. XIX — начало XX в.: Историко-этнографическое исследование. М.:«Восточна литература» РАН,1999.
2. Исхаков В. Проблемы взаимоотношений Азербайджана с приграничными регионами Российской Федерации (Дагестан). Новая Евразия: Россия и страны ближнего зарубежья». М., 2008 г., № 2, с. 50–65.
3. Ибрагимов М.Р. Азербайджанцы // Народы Дагестана / Отв. ред. С. А. Арутюнов, А. И. Османов, Г. А. Сергеева. — М.: «Наука», 2002.
4. Из истории освещения проблемы взаимоотношений народов Дагестана с народами Кавказа в исторической литературе // Гасанов М.Р. Дагестан в истории Кавказа и России. Махачкала.2004. С.78-95.
5. https://azadinform.az/az/publika/179378/derbendin-tarixi-ve-azerbaycanla-daistan-xalqlarinin-elaqelerine-hesr-edilen-beynelxalq-elmi-konfrans-kecirilib/
6. https://www.trend.az/business/economy/2532705.html

IX SİNİF RİYAZİYYAT VƏ İNFORMATİKA FƏNLƏRİ ÜZRƏ YENİ TEXNOLOGİYALARDAN İSTİFADƏ İMKANLARI

Bayramova Növrəstə
Sumqayıt Dövlət Universiteti
abdullayev_ayxan@list.ru

İşdə orta məktəbin 9-cu sinif riyaziyyat və informatika fənləri üzrə hazırki proqramı və dərsliklərin məzmunu araşdırılır [1-2]. Tövsiyə edilir ki, əlaqəli material seçimi zamanı xüsusi məntiqə riayət olunsun. Bu məntiqin tərkib hissəsi olaraq, hər şeydən əvvəl, şagirdlərdə riyazi təfəkkürün inkişafı və müxtəlif informatik biliklərin genişlənməsinə istiqamət götürülməlidir. Çünki şagirdlər bu iki fənni əlaqəli şəkildə öyrəndikdə daha artıq bilik əldə etməyə imkan tapırlar.

Fənlərarası əlaqədən istifadə edərkən, şagirdlər yorucu hesablamalardan azad olur, daha ciddi yaradıcı və maraq doğuran məsələlərlə məşğul olaraq və bunun nəticəsində daha çox yeni biliklər əldə edirlər. Bunun üçün bütün sinif şagirdlərinin fəal öyrənmə prosesinə cəlb edilməsinin daha asan yolunu göstərək.

Belə ki, informasiya texnologiyalarının tətbiqi müəllimi texniki işin ağırlığından xilas edir. İmkan verir ki, fəaliyyətin yaradıcı tərəfinə daha çox vaxt ayıra bilsin. Nəticədə faktiki materiala dair biliklərin yoxlanması üçün mürəkkəb olmayan müxtəlif nəzarətedici vasitələr müvəffəqiyyətlə tətbiq olunur. Beləliklə, tədris materialı üzrə şagirdlər arasında sürətli templə və vaxta qənaət etməklə sorğu aparmaq imkanı yaranır.

Məlumdur ki, orta məktəbin 9-cu sinfində riyaziyyat dərsliyində 6-cı tədris vahidinə uyğun materiallar informatika fənni ilə əlaqədardır [1]. Belə ki, riyaziyyatdan “statistika və ehtimal” tədris vahidinə uyğun həmin sinifdə İnformatika fənnindən Python proqramlaşdırma dilində siyahılar mövzusunun öyrədilməsi uyğun gəlir.

Bu proqramlaşdırma dili 1991-ci ildə Qvido Van Rossum tərəfindən hazırlanmışdır [3]. Onu pulsuz olaraq python.org saytından yükləmək olar vəaşağıdakı üstünlüklərə malikdir:

– Python – İnternetdən sərbəst yüklənənproqramlaşdırma dilidir.

- Pythondilinin əlifbası çox aydın və anlaşıqlıdır, öyrənilməsi çox sadədir.
- Yüksək səviyyəli proqramlaşdırma dilidir və onun köməyi ilə böyük və peşəkar proqramlar yazmaq olur.
- Avtomatik yaddaş, idarəetmə xüsusiyyətinə və çox geniş imkanlara malik bir dildir.
- Bu dildən veb və masaüstu mühitlərində geniş istifadə edilir. Yahoo, Google və s. Kimi böyük şirkətlər də bu dildən istifadə edirlər.
- Elmi hesablamar üçün çoxlu imkanları və kitabxana bazaları mövcud olduğundan böyük araşdırma mərkəzlərində də bu dildən istifadə olunur.
- Python dilində yazılmış proqramları birbaşa işlətmək mümkündür. Bir çox dillərdən fərqli olaraq, burada kompilyasiya etməyə ehtiyac yoxdur.
- Verilənlərin tiplərinə görə ən zəngin dillərdən hesab edilir və obyekt yönümlüdür.

Bu dilin əlifbasının aşağıdakı qaydaları vardır:

a. Dəyişənləri adlarında @ , # , $, ^ , % , * , + , - , / , < , >,{, } simvollardan istifadə etmək olmaz.
b. Dəyişənlərin adları ingilis dilindəki əlifbadan istifadə edilərək, açar sözlərindənfərqli sözlər olmalıdır.
c. Sözlər arasında boşluq simvolu qoymaq olmaz.Onların əvəzinə ”_” (altdan xətt) simvolundan istifadə etmək olar.Məsələn, xetti_proqram və s.
d. Dəyişənin əvvəlində rəqəmlərdən istifadə edilmir. Məsələn,**11m-**yazılışı səhvdir, **m11-** yazılışı düzdür.
e. Sətrlərin sonunda **,** və ya**;** işarələri qoyulmur.
f. Şərhləri verərkən #-simvolu (bir sətirdə olduqda) , **’’’ ’’’** bu işarələr (bir neçə sətri şəhr kimi vermək istədikdə) arası vermək olar və şəhrlərdə milli hərflərdən istifadə etmək də mümkündür.

Ən çox istifadə olunan tiplər aşağıdakılardır:

Tip	İzahı	Misal
str	Sətir tipi	'Sətir tipi', "Sətir tipi"
int	tam ədəd	76
float	həqiqi ədəd	96.2342
complex	Kompleks ədəd	6+4j
bool	Doğru və ya Yalan qiymətləri alan məntiqi tip	True, False

Riyazi ifadələrin Pythonda yazılışı:

Riyazi dildə		Pythonda	
Adı	İşarəsi	Yazılışı	Nümunə
Toplama	+	+	2+13=15
Çıxma	-	-	55-9=46
Vurma	·	*	9*9=81
Bölmə, kəsr	: $\frac{x}{y}$	/	x/y
Qüvvətə yüksəltmə	X^2, X^3	** Pow()	x**2, x**3 pow(5,2)=25
Tam hissə	7:2=3 tam 1qalıq	//	7//2=3
Qalıq hissə	32:5=6 tam 2qalıq	%	32%5=2
Kökaltı funksiya	$\sqrt{x}$	Sqrt(x)	
Mütləq qiymət	$\|x\|$	Abs(x)	
Tam ədədi bölmədə nəticənin və qalığın hesablanması		Divmod()	Divmod(25,8)=(3,1) 3-tam,1-qalıq
Yuvarlaqlaşdırma	≈	Round()	Round(100.0/6)=17.0

Proqramda işin ardıcıllığı aşağıdakı kimidir:

Əvvəlcə proqramı *Start+All Programs+Python3.4+İDLE(Python GUI)* əmrini yerinə yetirməklə proqramı başlatmaq lazımdır. Proqram örtüyünün yuxarısında proqramın adını və versiyasını görmək olar. Bu örtüyə *InterpretatorShell* pəncərəsi deyirlər. *Shell* pəncərəsində>>> - çağırış işarəsindən sonra hansı əməliyyatı yerinə yetirmək istəsək əvvəlcə onu yazırıq, sonda isə *Enter*düyməsini vurmaqla nəticəni alırıq. Biz məsələni Python örtüyündə deyil yeni fayl yaratmaqla da yaza bilərik. Bunun üçün əvvəlcə *File+New File*bölümünə daxil olub proqram kodunu yazaraq, yaddaşa vermək lazımdır.

Python proqramlaşdırma dilinin əsas üstünlüklərindən biri də onun böyük rəqəmlərlə işləməimkanıdır [3]. Məsələn, *Shell*-in özündən kalkulyator kimi istifadə edərək aşağıdakı misalı göstərə bilərik. Məsələn, 7895^{65} hesablamaq üçün *Start+All Programs+Python3.4+İDLEm (Python GUI)* açılan *Shell* pəncərəsində çağırış simvolundan sonra yazarıq.

Müasir dövrdə şagirdlərin proqramlaşdırma dillərinə olan marağı gündən-günə artır və ona görə də onları düzgün istiqamətləndirmək lazımdır. Bunun üçün Azərbaycanda kiçik yaşlarından alqoritmik təfəkkürü, məntiqi gücləndirən və proqramlaşdırma dillərini öyrədən çoxlu lahiyələr yaradılmışdır.

Açar sözlər: Fənlərarası əlaqə, riyazi təfəkkür, informatik biliklər, Python proqramlaşdırma dili.

Ədəbiyyat

1. Qəhrəmanova N., Kərimov M., Hüseynov İ. Riyaziyyat: Ümumtəhsil məktəblərinin 9-ci sinfi üçün dərslik. Bakı: Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2016, 230 s.
2. Mahmudzadə R., Sadıqov İ., İsayeva N. İnformatika: ümumtəhsil məktəblərinin 9-cu sinifləri üçün dərslik. Bakı: "Yaz nəşriyyatı", 2016, 135 s.
3. Pələngov Ə.Q. Proqramlaşdırma dilləri: Ali məktəb tələbələri uçun dərs vəsaiti. Bakı: ADPU-nun nəşri, 2011, 277 s.

“AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI”NA ÖTƏRİ BAXIŞ

Behbudov Elməddin
Bakı Dövlət Universiteti
elmeddinbehbud75@gmail.com

Müstəqillik illərində soraq-məlumat ədəbiyyatının rolu və əhəmiyyəti daha sürətlə artmağa başladı. Təbii ki, bu da öz növbəsində tərəqqi və nailiyyətlərin əldə olunması ilə sıx əlaqədardır. Elmin bütün sahələrində: texnika, istehsal, peşə-texniki hazırlıqları, texniki inqilabın coşğun sürəti, əhalinin maddi-texniki səviyyəsinin yüksəlməsi müasir dövrdə soraq-məlumata və bunları əks etdirən informasiya mənbələrinə təbliğat qat-qat artır və soraq nəşrlərinin geniş şəkildə nəşrini və yayılmasını irəli sürür. Bununla belə soraq-məluat nəşrlərinin mövzu əhatəsi də genişlənmişdir.

Tədqiqata cəlb etdiyimiz maraqlı və əhəmiyyətli nəşrlərdən biri “Azərbaycan teatr ensiklopediyası”dır. 2016-cı ildə İlham Rəhimlinin müəllifliyi ilə “Azərbaycan teatr ensiklopediyası” adlı mühüm nəşrin birinci cildi “Azərnəşr”də 428 səhifə həcmində işıq üzü gördü. Layihənin rəhbəri Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Qarayev, layihənin koordinatoru Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev, redaksiya heyəti: fil.e.dok., prof. Timurçin Əfəndiyev, sənətşünaslıq dok., prof. Fərəh Əliyeva, sənətşünaslıq dok., prof. İlham Rəhimli, sənətşünaslıq dok., prof. Məryəm Əlizadə, sənətşünaslıq dok., prof. İsrafil İsrafilov, sənətşünaslıq, dos.Aydın Talıbzadədir.

“Azərbaycan teatr ensiklopediyası” Azərbaycan Respublikası Prezidentinin 19 may 2009-cu il 277 nömrəli sərəncamına əsasən “Azərbaycan teatrı 2009-2019-cu illərdə” Dövlət Proqramına uyğun olaraq çap edilmişdir.

Ensiklopediyaya “Ön söz” Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəz Qarayev tərəfindən yazılmışdır. Əbülfəz Qarayevin oxuculara xitabən yazdığı “Ön söz”də oxuyuruq:

“Dünyanın zəngin tarixi-mədəniyyət irsinə malik olan Azərbaycan meydan teatrının iki min ildən çox yaşı var. Xoşbəxtlikdən mərasim, şənlik, kütləvi etno-mədəni, əyləncəli səhnə oyun-tamaşalarının böyük bir qismi günümüzə qədər gəlib çatıb. Kosa, Keçəl, Keçi, Keçəpapaq kimi meydan oyunçuları, başqa sözlə, meydan teatrı personajları bu gün, yəni XXI əsrdə də tamaşaçıların sevimli obrazlarıdır. Şübhə etmirəm ki, xalqımızın silinməz yaddaşına köçən bu obrazlar Azərbaycan teatrının qədim ənənələrini yüz illər boyu yaşadacaqdır.

Bəllidir ki, Azərbaycanda milli peşəkar teatr 1873-cü il mart ayının 10-da Bakıda Mirzə Fətəli Axundzadənin “Lənkəran xanın vəziri” komediyasının tamaşası ilə təşəkkül tapmışdır. Məhz bu tarixdən başlayaraq Naxçıvanda, Gəncədə, Şamaxıda, Şuşada, Şəkidə, Lənkəranda, Ağdamda, Qubada, Füzulidə, həmçinin yüz minlərlə soydaşımızın yaşadıqları Tiflisdə, İrəvanda, Təbrizdə, Aşqabadda da xalqımıza məxsus peşəkar teatrlar yaradılmışdır. Görkəmli maarifçi yazşıçılar, millətsevər ziyalılar, səhnə fədailəri teatr sənətini yaradıb, yaşadıb, inkişaf etdirərək, onu milli mədəniyyətimizin ayrılmaz tərkib hissəsinə çevirməyi bacarmışlar” [1,5].

Adlarını çəkdiyim şəhərlərdə “Müsəlman artistləri dəstəsi”, “Nicat”, “Səfa”, “İttihad”, “Güzgü”, “İbrət”, “Müdriyyət”, “Həmiyyət”, “Azərbaycan artistləri dəstəsi”, “Ayineyi ibrət” və neçə-neçə belə truppalar fəaliyyət göstərmişdir. Həmin truppalarda sözün həqiqi mənasında fədakar sənət vurğunları çalışırdılar.

1919-cu ildə indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı dövlət təsisatına keçmişdir. 1922-1930-cu illərdə Tiflis, İrəvan, Dərbənd Azərbaycan teatrlarına dövlət statusu verilmişdir. Bakı ilə yanaşı, müxtəlif bölgələrdə otuza yaxın dövlət teatrı yaradılaraq böyük coşqu ilə çalışmağa başlamışlar [1,5].

Bu gün Azərbaycanda geniş teatr şəbəkəsi var. Onların böyük əksəriyyəti dövlət teatrları olsa da, bələdiyyə və özəl teatrlar da maraqlı tamaşalar hazırlayırlar. Milli teatrlarla yanaşı Bakıda rus, Qaxda gürcü, Qusarda ləzgi teatrları da fəaliyyət göstərir. Dövlət Musiqili Teatrında və Dövlət Kukla Teatrında rus bölmələri kifayət qədər zəngin repertuara malikdirlər.

Səhnə sənətimizin təkamülündə, tərəqqisində, formalaşmasında minlərlə aktyor, aktrisa, rejissor, teatr rəssamı, bəstəkar və digər yaradıcı peşə sahibləri çalışıblar. Teatrımızda yetişən dünya şöhrətli sənətkarlar bu gün xalqımızın mənəvi sərvəti sayılırlar.

Təbii ki, xalqımızın zəngin səhnə sənəti, mənəviyyat beşiyi olan teatrlarımız haqqında mötəbər mənbədən məlumat almaq üçün Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə çap edilən 3 cildlik "Azərbaycan teatr ensiklopediyası" son dərəcə dəyərli, elmi-nəzəri yükü olan zəngin mənbələrdən biridir.

Elmi xarakterə malik, akademik meyarlar əsasında yaradılan bu "Ensiklopediya" həm də geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. İncəsənətin müxtəlif sahələrində çalışanlar üçün böyük əhəmiyyət daşıyır. Burada milli teatr sənətimizin və ümumilikdə Azərbaycan incəsənətinin şərəfli tarixi ətraflı şəkildə işıqlandırılıb. Ümumilikdə, qeyd edə bilərik ki, "Azərbaycan teatr ensiklopediyası"nın özü də milli mədəniyyətimizə layiqli töhfədir.

"Azərbaycan teatr ensiklopediyası"nın birinci cildinin 419-cu səhifəsində "Qısaldılmış sözlər", 420-ci səhifəsində "Yığcam izahlı lüğət", 423-cü səhifəsində isə "İstifadə olunmuş ədəbiyyat" siyahısı tərtibata daxil edilmişdir.

Ensiklopediyanın 427-ci səhifəsində isə "Redaktordan" adlı məqalə verilmişdir. Burada isə redaktorun bu fundamental nəşr haqqında bəzi maraqlı fikirləri yer almışdır. Burada oxuyuruq:

"İlk dəfədir ki, Azərbaycan teatr ensiklopediyası nəşr olunur. Kitabda kökləri qədim dövrlərə gedib çıxan xalq teatr tamaşalarından tutmuş müasir səhnə sənətimizə qədər elmi məlumatlar verilmişdir. "Azərbaycan teatr ensiklopediyası"nda səhnə sənətinin bütün növləri, onların səhnə sənətimizdə yeri barədə məlumat var. Görkəmli səhnə xadimləri, sənət fədailəri barədə məqalələr toplanıb" [1, s.427].

"Azərbaycan teatr ensiklopediyası" böyük zəhmətin, ciddi axtarışların, gərgin əməyin bəhrəsidir. Müqayisə üçün deyək ki, bütün sovet oxucularına ünvanlanmış, birinci cildi 1961-ci ildə işıq üzü görən "Teatr ensiklopediyası" rus dilində ilk teatr ensiklopediyası idi. Bu əsəri ərsəyə gətirmək üçün redaksiya heyəti təşkil olunmuş, nəzarət üçün nüfuzlu alimlərdən ibarət elmi şura yaradılmışdı. Məqalələri yazmaq üçün yüzlərlə müəllif cəlb edilmişdi. Bütün bunlara baxmayaraq, 5 cildlik ensiklopediya işıq üzü görəndən sonra, ona xüsusi bir əlavə də olundu. Əlavədə ensiklopediya nəşrə hazırlanarkən ölkənin teatr həyatında baş vermiş hadisələrlə yanaşı, nəzərdən qaçmış səhnə ustaları, müxtəlif mövzular barədə də, məlumatlar öz əksini tapmışdı [1, s.427].

Şübhəsiz ki, bizim ilk milli teatr ensiklopediyasında da müəyyən unudulmuş məqamlar üzə çıxacaq. Nəzərə alınsa ki, "Azərbaycan teatr ensiklopediyası" geniş oxucu kütləsi ilə yanaşı, ədəbiyyat və sənət ustalarına, bu sahədə fəaliyyət göstərən pedaqoqlara və araşdırıcılara ünvanlanıb, onda hər kəsin məsləhətlərinin, iradlarının, arzularının və tənqidi fikirlərinin ensiklopediyanın gələcək nəşrinə əvəzsiz kömək olacağı şəksizdir [1, s.427].

"Azərbaycan teatr ensiklopediyası" adlı nəşrin birinci cildində təqdim edilən məqalələr ağ-qara şəkillərlə müşayət olunur. Burada səhnədə oyanılan tamaşalarından epizodik, teatr sahəsində tanınmış simaların portret şəkilləri ilə tanış olmaq mümkündür.

Ensiklopediyanın ikinci cildi 392 səhifə, üçüncü cildi isə 416 səhifə həcmində "Azərnəşr"də çap olunmuşdur. Ensiklopediyanın hər bir cildinin tirajı 500 nüsxədən ibarətdir. Çox təssüf hissi ilə qeyd edə bilərik ki, bu cür mühüm, fundamental nəşrin tirajı çox azdır.

Ensiklopediyanın birinci cildi A-dan F-ə qədər, ikinci cildi G-dən, M-ə qədər, üçüncü cild isə N-dən, Z-ə qədər olan əlifba sırası ilə məlumatları özündə əks etdirir.

"Azərbaycan teatr ensiklopediyası"nın hər bir cildi super üzlükdə, yüksək bədii-poliqrafik tərtibatla nəşr olunmuşdur.

Sonda isə nəticə olaraq qeyd etmək istəyirəm ki, sahə ensiklopediyalarının meydana gəlməsi, çap olunması, bu sahə ilə bağlı olan bir çox təşkilatların da nailiyyəti hesab olunmalıdır. Bu bir tərəfdən ölkədə elmi potensiyanın inkişafını göstərən amildir, digər tərəfdən ölkədə kitaba marağın genişləndirilməsi, mütaliənin çoxalması, eyni zamanda poliqrafiya sahəsinin inkişafı ilə bağlı bir məsələdir.

Açar sözlər: nəşr, ensiklopediya, cild, "Azərbaycan teatr ensiklopediyası", müstəqillik illəri.

Ədəbiyyat

1. Azərbaycan Teatr Ensiklopediyası. /tərt ed. İ.Rəhimli. 3 cilddə: I, II, III cildlər, Bakı, "Azərnəşr", 2016, 428 s.

İNGİLİS DİLİNİN AVSTRALİYA VARİANTININ YARANMASI ŞƏRTLƏRİ

Cabbarlı Aynur
Azərbaycan Universiteti
aynn.ur@hotmail.com

Son zamanlar müxtəlif dillərin tarixi, coğrafi ərazilərdə yayılması, inkişaf etməsi, tarixi və formalaşması dilçilərin diqqətini cəlb etmişdir. Buna misal olaraq son illərdə Azərbaycan dilinə olan müansibəti, onun Azərbaycan dili, Türk dili və ya Azərbaycan türkcəsi olması barədə müəyyən müzakirələr aparılmışdır. Həmçinin belə tədqiqatlar alman, ingilis, ispan və.s dillərdə də aparılmışdır. İngilis dili demək olar ki bütün ölkələrdə tədris olunur. Onun beynəlxalq səviyyədə işlədilməsi bir dil kimi ən çox tələb olunan tədris fəninə çevirmişdir.

İngilis dilinin Avstraliya variantında əsərlərin əksəriyyəti oçerk və ya şərh xarakteri daşımış və yaxud sistemlikdən uzaq olan dil səviyyələrinin problemlərinə həsr olunmuşdur. Bu tədqiqatda Avstraliyada işlənən ingilis dilini, ingilis ədəbi dilinin variantı kimi qəbul edirik. Hər hansı bir dilin və ya dil variantının müəyyən səviyyədə öyrənilməsindən əvvəl həmin dilin və ya dil variantının formalaşmasında rol oynayan amillər, həm ekstralinqvistik həm də linqvstik şərait araşdırılmalıdır. Araşdırmalardan məlum oldu ki, ingilis dilinin Avstraliya variantının leksik xüsusiyyətlərin araşdırılmasına aid bir tədqiqat aparılmamışdır. İngilis dilinin Avstraliya variantının lüğət tərkibindəki sözlərin leksik inkişafı həmin variantın formalaşmasının tarixi-sosial faktorları ilə bağlı olduğuna görə həmin faktorların araşdırılması vacib məsələlərdən biridir. Başqa variantlara nisbətən (məsələn: britaniyavə amerika) avstraliya variantı ən az tədqiq olunmuşdur. Ancaq ingilis dilinin bu variantı dilçilərin diqqətini daha çox cəlb edir. Avstraliya ingiliscəsinin mikrosisteminin ayrı-ayrı

aspektlərinin xüsusiyyətləri A.Orlovun, L.İ. Apollonovanın, L.F. Yeqorovanın işlərində əks olunmuşdur. Həmçinin L.A. Rusetskayanın, B. D. Xocageldiyevanın (Avstraliya ingiliscəsində frazeoloji birləşmələrin xüsusiyyətləri), Y.İ. Novikovun (Avstraliya ingiliscəsində qeyri-standart leksika), L.D. Poçeptsovanın (avstraliyalı çiçək adları) V.M. Şirokixin (Avstraliya ingiliscəsində siyasi leksikon), S.Bakerin, W. Ramsonun və.s bu mövzu ilə bağlı işlərinin sayının artmasına baxmayaraq, problemin bir çox aspekti tam olaraq başa düşülmür [3, s.16].

Avstraliya adı latıncada "cənubdan cənuba aid olan" mənasını verən Australis sözündən törəmişdir. Roma sivilizasiyası zamanına aid cənubdakı bilinməyən bir ölkə mənası (terra australis incognita) bənzər bir yerin, orta əsrlər coğrafiyasında da alov tapıldığını göstərir, ancaq bu məlumatlar hər hansı bilinən bir qitə məlumatı ehtiva etməməkdədir. Latıncadakı Terra Australis Incognita termini Cənubdakı (Australis) Bilinməyən (Incognita) Torpaq parçası (Terra) mənasını verməkdədir. "Australia" sözünün ingilis dilində ilk istifadəsi isə 1692-ci ildə Qabriel de Foyininin yazdığı Les Aventures də Jacques Sadeur rəqs la Découverte et le Voyage de la Terre Australe adlı fransızca romanının, 1693-cü ildəki tərcüməsində görülmüşdür [1, s.141]. Daha sonralar, 1765-ci ildə, Aleksandr Dalrimpl bu sözü, Luis Vaes de Torresin 1606-cı ildə Papua Yeni Qvineyanın cənub sahillərinə etdiyi səyahətini təsvir etdiyi kitabını ingiliscəyə çevirərkən istifadə etmişdir [3, s.65].

Avstraliya ingiliscəsiİngilis dilinin əsas növüdür və Avstraliyada istifadə olunur. İngilis Konstitusiyasında heç bir rəsmi mövqeyə malik olmasa da, Avstraliya ingiliscəsi milli və faktiki rəsmi dildir, çünki əhalinin əksəriyyətinin ilk dili bu dildir. Avstraliya İngilisləri 1788-ci ildə Yeni Cənubi Uels koloniyasını qurduqdan sonra ingilislərdən fərqlənməyə başladılar. 1820-ci ildə artıq onların dili Britaniya İngiliscəsindən fərqlənirdi.Avstraliya İngiliscəsinin ən erkən variantı Yeni Cənubi Uelsdə kolonistlərin uşaqları tərəfindən danışılırdı. Yeni doğulan nəsillər sonradan millətin dili olan yeni dialekti yaratdılar [1, s.141]. Koloniyada doğulan uşaqlar ətrafında eşitdikləri danışıqdan yeni dialekt yaratdılar və bununla bərabər, həmrəylik nümayiş etdirdilər. Yeni köçkünlər gəlsə belə, bu yeni dialekt onların dialektinə qalib gələcək qədər güclü idi və onları da, öz təsirləri altına sala bilirdilər.

1788-ci ildən başlayaraq Avstraliyaya ilk ağ dərililər – İngiltərədən sürgün olunanlar gətirilməyə başlanmışdır ki, bu da İngilis dilinin Avstraliyada sürətlə yayılmasına gətirib çıxarmışdır. Sürgün olunanların sosial tərkibini cəmiyyətin aşağı təbəqəsinin nümayəndələri təşkil edirdi və onlar daha çox dialekt və jarqonlarla danışırdılar. Sürgün olunanların böyük hissəsiİrlandlar idi ki, onlarda XVIIIəsrdə baş vermiş üsyanlara qarışmış və sürgün olunmuşlar. Bundan başqa 1851ci-ildə qızıl ehtiyatlarının kəşfi ilə əlaqədar ölkəyə mühacir axını sürətlə çoxaldı. 10 il ərzində Avstraliyanın ağ dərili əhalisinin sayı 3 dəfə artmışdır [3, s.157]. Bu dövrdən başlayaraq Avstraliyanın əhalisi həm təbii artım, həm də mühacirlərin hesabına xeyli artmağa başladı. Bütün bunlar vahid ünsiyyət vasitəsinin yaranması üçün vacib olan şərtlərdən birinə-dillərin unifikasiyasına səbəb olmuşdur. Buna görə də bir çox mütəxəssislər XIX əsrin 50-ci illərini ingilis dilinin avstraliya variantının müstəqil inkişafının başlanğıcı hesab edirlər. Deyilənləri ümumiləşdirsək belə bir nəticəyə gəlmək olar ki, ingilis dilinin avstraliya variantının formalaşmasında bir sıra dil və qeyri - dil amilləri xüsusi rol oynamışdır. Dilçilik baxımından Avstraliya ingilis dili statusunu milli ingilis dilinin avstraliya variantı kimi müəyyən etmək olar. Avstraliya ingiliscəsi digər ingilis dili dialektləri kimi Britaniya ingilis dilinin tabeçiliyində ondan asılı olaraq fəaliyyət göstərmir və yalnız məişətdə işlənən şifahi nitqlə məhdudlaşmır. Bu dildən dövlət müəssisələrində, orta və ali məktəblərdə, kütləvi informasiya vasitələrində, bədii yaradıcılıqda istifadə olunur. Hətta bəzi dilçilər belə hesab edir ki, Avstraliya ingiliscəsi Britaniya

ingiliscəsi səviyyəsinə qalxmış və onun özünəməxsus ədəbi dil normaları vardır.L.Kasatkin bu barədə yazmışdır: " Böyük Britaniyada işlənən ingilis dili Avstraliya ingilis dili üçün etalon kimi qəbul edilə bilməz, söhbət iki milli etalondan, bərabər hüquqlu iki ədəbi normadan getməlidir.

Hal-hazırda millətlər arasında başqa etnik qruplara maraq yaranmaqdadır. Bununla birlikdə, yalnız bir fonetika, qrammatika və dilin lüğəti ilə əlaqə qurmaq kifayət deyil. Mədəniyyətlər arası ünsiyyət prosesi mədəniyyətlərin milli xüsusiyyətlərinə maneə ola bilər. Əslində müxtəlif dil qrupları reallığı fərqli bir şəkildə fərqləndirir. Xalqın şüuruna nüfuz etmək üçün, dilinin vahidlərini yalnız müəyyən bir cəmiyyətə uyğun anlayışlarla idarə etmək lazımdır. Bu baxımdan A.A. Leontievin sözlərinə istinad etmək olar: "Dil dünya şəklinə dair çərçivəyə bənzəyir, ancaq şəkil çərçivəyə sığmırsa, şəkli deyil, çərçivəni dəyişdirin". İngilis dilinə gəlincə, vəziyyət bir çox variantları ilə çətinləşdirilir [6, s.93]. Bu halda, hər bir variantın fonoloji, qrammatik və leksik xüsusiyyətləri ünsiyyətə maneə ola bilər. Buna görə, fikrimcə xarici dil öyrənilməsi mədəniyyətin və onun danışığının tarixinə paralel olaraq aparılmalıdır. Dil və mədəniyyətlə əlaqənin mərkəzi konsepsiyalarından biri, bu işdə çox diqqət çəkir ki, bu da bir sözün mənasının mənəvi tərkib hissəsidir. Bu sözün ekstralinqvistik məzmunudur ki, sözün bir hissəsi reallığa dönür və milli mədəniyyəti birbaşa əks etdirir. İngilis dilinin Avstraliya versiyasına müraciət təsadüfi deyil. Ədəbi dillərin dəyişməsinin öyrənilməsi bir çox tədqiqatçıların diqqət mərkəzindədir. Xüsusilə sosial və funksional dəyişikliklərlə yanaşı ədəbi dillərin ərazi dəyişikliyi də xüsusi maraq doğurur. Beləliklə çoxsaylı tədqiqatların məqsədi olaraq İngilis dilinin coğrafi dərəcədə dağılmış çeşidləri də inkişaf edir.

Açar sözlər: ingilis dili, variantlar, Avstraliya, Avstraliya ingiliscəsi.

Ədəbiyyat

1. Аракин В.Д. История английского языка. М., 1955, 141 p.
2. Арнольд И.В. Лексикология современного английского языка. М., 1955, 134 p.
3. Орлов Г.А. Современный английский язык в Австралии. Москва «Высшая школа» 1978, 172 p.
4. Bernard M. A History of Australia. Sydney, 1962, 156-161 p.
5. Morris E.E. Australian English. London, 1898, 51 p.
6. Ramson W. Australian English. Canberra, 1966, 179 p.

DAUN SİNDROMLU UŞAQLARA ERKƏN MÜDAXİLƏ, TERAPİYA VƏ TƏHSİL PROQRAMLARI

Çələbiyeva Leyli
Azərbaycan Universiteti
leyli.celebi@mail.ru

Daun sindromu (bundan sonra DS) bədən hüceyrəsindəki əlavə xromosomun yaratdığı genetik bir vəziyyətdir. DS nə xəstəlik, nə də irsi deyil. Hamiləlik dövründə təsadüfən baş verir. DS-lu hər kəsin müxtəlif dərəcədə öyrənmə əlilliyi var. Bu insanlar arasında bəzi fiziki xüsusiyyətlər çox yayılmışdır və bəzi tibbi problemlərə meylli ola bilərlər. Ancaq unutmamalı olunan şey DS-lu şəxslərin fərqli xüsusiyyətlərə sahib olmasıdır. Onların kim olduğunu, öz güclü və zəif tərəfləri və fərdi davranışları müəyyənləşdirir [1].

İnsan bədəni hüceyrələrdən ibarətdir. Hər bir hüceyrə bədənin inkişafı və saxlanması üçün zəruri maddələrin istehsal olunduğu bir fabrik kimidir. Hər bir hüceyrədə genlərin saxlanıldığı bir nüvə var. Genlər çubuq kimi quruluş adlanan xromosomlarla qruplaşdırılır [1].

Adətən, hər hüceyrənin nüvəsində 23 cüt xromosom var. Onlardan 23-ü anamızdan, 23-ü atamızdan miras qalır. 21 xromosomun əlavə bir xromosoma sahib olması ilə Daun sindromlu insanların hüceyrələrində 47 xromosom var [1]. DS doğulan hər 800 körpədən birində görülür, nisbəti yaşla artır. DS hər yaşda, irqdə, dində və iqtisadi şəraitdə olan insanlara təsir göstərir.Daun sindromlu bütün insanların öyrənmə məhdudiyyətləri var. DS-lu uşaqlar gəzməyi, danışmağı və tualet təhsili almağı öyrənirlər, lakin bu inkişafın mərhələləri həmyaşıdlarından daha gecdir. Hal-hazırda, öyrənmə əlilliyi olan uşaqlar üçün erkən müdaxilə proqramları hər sahədə uşağın inkişafına kömək edir. Bu proqramlara nitq və fiziki terapiya, həmçinin uşaqlar və ailələr üçün ev təlim proqramları daxildir [1].

20-ci əsrin ilk illərində "uzunmüddətli xəstəxanaya yerləşdirmə" adlanan, lakin öyrənmə əlilliyi olan minlərlə insanın həbsinə səbəb olan bir qanun var idi. Valideynlər övladlarının təhsil almamalarından xəcalət çəkirdilər və hər kəs "qocalar evinə buraxılıb unudulur" deyə səhv düşündülər. Son illərdə tətbiq olunan təhsil qanunları heç bir uşağı təhsilsiz kimi qiymətləndirmir və bu, hər bir uşağın təhsil alması üçün bir hüquq və vəzifədir [1].

Bir valideyn olaraq, şübhəsiz ki, uşağınızın yaşayış səviyyəsini müəyyən dərəcəyə çatdırmaq üçün lazım olan hər fürsəti təklif etmək istəyirsiniz. DS-nu tədqiq edərkən alternativ müalicələr haqqında çox məlumatla rastlaşa bilərsiniz. Bunun motor əzələlərinə və zehni inkişafa təsir etdiyini öyrənən valideynlər həyəcanlanmağa, ümid etməyə və bu müalicələrə pul xərcləməyə başlayır. Bu normal bir vəziyyət olsa da, illər ərzində bir çox müalicənin məşhur olduğunu unutmayın, lakin heç birinin elmi sübutu olmadı. Bəzilərinin hətta mənfi və zərərli olduğu sübut edilmişdir [1].

İnkişaf hamiləlikdə başlayan və addım-addım davam edən bir prosesdir. İnkişafın dörd sahəsi (böyük və incə əzələ bacarıqları, dil inkişafı, sosial inkişaf və özünütəminlik) sonrakı dərəcə üçün bir şərt olaraq görülən həlledici mərhələlərə malikdir [1].

Daun sindromu ilə əlaqəli müəyyən dəyişikliklər səbəbindən körpəniz bəzi inkişaf sahələrində ləngimələr yaşayacaqdır. Digər uşaqlar kimi hər mərhələyə çatacağına əmin olun, ancaq yalnız öz cədvəli üzərində işləyəcəkdir. Bu mərhələlərə çatma vaxtları erkən müdaxilə ilə daha sürətli və sağlam olacaqdır [1].

Erkən müdaxilə doğuşdan sonra ən qısa müddətdə başlamalıdır. Erkən müdaxilə nə qədər tez başlayırsa, daha yaxşıdır, amma başlamaq heç vaxt gec deyil [1].

Daun sindromlu uşaqlara erkən müdaxilə və təhsil proqramları, fizioterapiya, dil terapiyası, oyun qrupları və xüsusilə məktəb həyatı kimi dəstək çox vacibdir. Onlar bununla müxtəlif uğurlara imza ata bilər, tam iş birliyi təhsili ala bilər və doğuşdan erkən başlayan müvafiq təlim proqramları ilə cəmiyyət daxilində müstəqil və ya yarı müstəqil həyat qura bilərlər [1].

Daun sindromlu körpələrdə fizioterapiya mümkün qədər erkən başlamalıdır. Körpələrin əzələ gücü və hərəkət bacarıqları üçün tələb olunan məşqlər həm fizioterapevtlər, həm də ailə tərəfindən hər gün evdə edilməlidir. Fizioterapiyanın məqsədi incə və kobud hərəkət inkişaf addımlarını inkişaf etdirmək, duruş və balans nəzarətini təmin etməkdir [2].

Fiziki terapiya əzələlərin inkişafına yönəlmişdir. Məsələn, 3 və ya 4 aylıq körpənin başını idarə etmək və başını dik tutmaq və bədənin yuxarı hissəsini dik tutmaq (dəstəklənmək) qabiliyyəti var. Zəif əzələ hərəkətləri olan Daun sindromlu bir körpəyə uyğun bir fiziki müalicə tətbiq edildikdə, o da bunu edə bilər [1].

Uzun müddətli müddətdə faydalı olan fiziki terapiyanın başqa bir faydası Daun sindromlu şəxslərin meylli duruşlarını yaxşılaşdırmasıdır.Belə duruş düzəldilmirsə, ortopedik və funksional problemlərə səbəb olur [1].

Daun sindromunun uşaqlarda nitq və dil inkişafına əhəmiyyətli mənfi təsir göstərdiyini vurğuladı. Buna görə, bu uşaqların problemləri erkən dil terapiyası ilə aradan qaldırıla və ya minimuma endirilə bilər. Orta hesabla 2-3 yaşında danışmağa başlansa da, Daun sindromlu uşaqlar sağlam yaş qruplarına nisbətən daha sonra danışmağı, oturmağı, gəzməyi və tualet təhsili almağı öyrənirlər. Vacib məqam budur ki, Daun sindromlu uşaqlar müstəqil həyat bacarıqları əldə edə və həyatlarını yaxşı bir təhsil ilə davam etdirə biləcək bir səviyyəyə çata bilərlər [2].

Hər bir uşaq kimi Daun sindromlu bir uşağın həyatının ilk illəri onun gələcək inkişafının açarı hesab olunur. Erkən diaqnoz, mövzu mütəxəssisləri tərəfindən müntəzəm olaraq təqib edilməsi, vaxtında və dəqiq dəstəklənməsi və uşaqlıqdakı problemlərin aradan qaldırılması və ya minimuma endirilməsi uzunmüddətli dövrdə insanın həyat keyfiyyətini, həyat iştirakını və funksionallığını müəyyən etdiyi üçün vacibdir [2].

Daun sindromlu uşaqlar öz aralarında fərqlənə bilər, buna görə bütün inkişaf sahələri uşağın ehtiyaclarına uyğun bir proqramla dəstəklənməlidir. Xüsusi olaraq uşaqlar üçün hazırlanan təhsil proqramları mərhələnin ilk aylarından bu uşaqların inkişafını dəstəkləyən vasitələr və sistemlər təmin etməlidir. Bu işdə valideynlər də övladlarına dəstək olmaq üçün rəhbərlik etməlidirlər [2].

Açar sözlər: daun sindromu, erkən müdaxilə, fiziki və dil terapiyası, təhsil.

Ədəbiyyat

1. Hoş Geldin Bebek, Daun Sendromu Bilgi Rehberi; tərc: Hülya Bilgen, Hale Şebnem kapitanı.
2. Her yönüyle Daun Sendromu; editör:Prof. Dr. Yaprak Üstün; Ankara,1.Basım Aralık 2018.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN FRAZELOJİ SİSTEMİNİN TİPOLOJİ MÜQAYİSƏSİ

Damirchalova Arzu
Azərbaycan Universiteti
famil.madat@mail.ru

Xalqın təfəkkür tarixinin inkişaf pillələrini, onun milli mədəniyyətini, digər xalqlarla siyasi, iqtisadi, ictimai əlaqələrini dərindən öyrənməyə imkan verən frazeoloji birləşmələr çox qədim tarixə malikdir və istər sadaladığımız həmin sahələrin öyrənilməsi, istərsə də müxtəlif dillərdə frazeoloji vahidlərin yaranması, frazeologizmin formalaşması və inkişafının izlənməsi, müxtəlif xalqların təfəkkür tərzində, mədəniyyətində, məişətində olan və bu və ya digər şəkildə dildə təcəssüm edən oxşar və fərqli cəhətlərin müəyyənləşdirilməsi baxımından aktualdır.

Frazeoloji ifadələrin nitqdə daşıdığı funksiyaların müxtəlif səciyyəliliyini, tərkib zənginliyini əsas xüsusiyyət kimi qəbul edən dilçilər onları müxtəlif, lakin yaxın və həmhüdud elmlərin tədqiq obyekti hesab edirlər [7, s.5]. Əslində isə frazeoloji ifadələr heç də həmin dilçilərin söylədikləri kimi müxtəlif elm sahələrinin deyil, söz, söz birləşməsi və cümlə kimi yalnız dilçiliyin tədqiq etdiyi sahədir.

Frazeologiyanın dilçilik elminin müstəqil sahəsi kimi əsaslandırılması ilk dəfə Y.D.Polivanov tərəfidən keçən əsrin 20-ci illərində irəli sürülmüşdür. O, mənaca sözə bərabər tutulan sintaktik

birləşmələri frazeologiyaya aid etmiş və əminliklə bildirmişdir ki, dilçilik ədəbiyyatında gələcəkdə frazeologiya müstəqil bir sahə kimi öz yerini tutacaqdır [6, s.63].

Azərbaycan dilçiliyində indiyə qədər frazeologiya elminin öyrənilməsinə, frazeologiya məsələsinin bir sıra ümumi və xüsusi cəhətlərinin aydınlaşdırlmasına həsr edilmiş əsərlərin Azərbaycan dili frazeologiyasının inkişafındakı rolunu, əhəmiyyətini heç bir şəkildə azaltmamaqla demək olar ki, Azərbaycan frazeologiyası həmin tədqiqatlarda zəngin və mürəkkəb tam və ətraflı əhatə olunmamış, ümumi frazeoloji problemlər müfəssəl həllini tapmamışdır.

Azərbaycan dilinin frazeologiyası onun yaranma qanunauyğunluqları baxımından, başqa xalqların frazeologiyası ilə ümumi və fərqli cəhətlərin olub-olmaması və onların üzə çıxarılması baxımından hərtəfərli kontrastiv, müqayisəli tədqiqatlara cəlb olunmamışdır. Bir neçə əsər istisna olunmaqla bu sahədə, xüsusilə də onun qohum olmayan dillərin frazeologiyasi ilə müqayisəsi sahəsində əsaslı iş görülməmişdir. Halbuki məhz müxtəlifsistemli dillərin frazeologiyasının müqayisəli şəkildə araşdırılması onların linqvistik mahiyyətinə və təbiətinə dərindən nüfuz etməyə imkan verir.

İngilis və Azərbaycan dillərinin frazeologiyasının əhatə dairəsi haqqında fikir ayrılıqları dilçilər arasında bugün də davam etməkdədir. Onların bir qismi yalnız dar mənada frazeologizm anlayışından çıxış edərək idiomları, digər qismi həm də frazeoloji birləşmələri, üçüncü qismi isə frazeologizm anlayışını geniş mənada götürərək, frazeoloji ifadə və ibarələri, ekspressiv-emosionallıqla yüklənmiş terminoloji birləşmələri də frazeologizmin obyekti hesab edirlər.

Azərbaycan dilçiliyində frazeologiya haqqında ilk dəfə M.Hüseynzadə dərsliyində məlumat vermişdir [3].

Bir qədər sonra S.CƏfərovun, A.Qurbanovun, N.Rəhimzadənin, H.Bayramovun yazdıqları dərsliklərdə də frazeologiya haqqında müəyyən məlumatlar verilmişdir [2; 4; 5; 1]. Lakin bu əsərlərdə həmin dil vahidləri haqqında istər nəzəri, istərsə də faktik material baxımından müəyyənləşmiş, sözün əsl mənasında sabit rəy yoxdur. Bəzən eyni dil faktları müxtəlif dilçilər tərəfindən müxtəlif terminlərlə izah olunur. Məsələn, S.Cəfərov daha çox "İdiom, idiomatik ifadələr", H.Bayramov "sabit söz birləşmələri", S.Murtuzayev "frazeoloji vahidlər terminlərindən istifadə etmişlər.

İstər Azərbaycan dilçiliyində, istəsədə ingilis və digər xarici dilçilikdə frazeologizmlərin müxtəlif əlamətləriarasında daxili təsnifi verilmişdir. Daha çox yayılmış təsnifatlardan birində frazeologizmlərin beş növü göstərilmişdir [2, s.97].

İngilis dilində feli frazeoloji vahidlərin yaranmasında daha məhsuldar olan felllər aşağıdakılardır: to have, to take, to get, to make, to put, to go, to keep. Həmin fellərin işləndiyi frazeoloji vahidlərə misallar gətirək: to give somebody a dressing down, ("kiminsə dərsini vermək"), take teart of grace (özünü toplamaq"), get the upper hand of (kiminsə üzərində üstünlük qazanmaq"), have good head (" yaşı başı lmaq"), keep oneself in hand ("özünü ələ almaq).

Müxtəlif dillərin frazeoloji sisteminin tipoloji təhlili bu vahidlərin oxşar və fərqli struktur tiplərini müəyyənləşdirməyə imkan verir. Təkcə ingilis və Azərbaycan dillərində işlənən frazeoloji vahidləri struktur baxımdan qarşılaşdırmaqla bir sıra maraqlı cəhətlər ortaya çıxır. Bu dillərə məxsus frazeoloji sistemdə bir sıra oxşar cəhətlər diqqəti cəlb edir. Məsələn, bu dillərdə müqayisə olunan frazeoloji vahidlərin komponentlərinin parçalanmasını, yaxud dabütövlüyə xələl gətirməmək şərtilə onlardan birini müşahidə etmək olar. Müq. et. Likewise she watched his toils, and knew the measure of the midnight toil he burned (J.London) "Beləliklə, o, onun necə zəhmət çəkdiyini müşahidə edir və gecələr çəkdiyi ağır zəhmətin qədrini bilirdi".

İngilis və Azərbyacan dillərində nitq zamanı bir sıra feili frzeoloji vahidlərin tərkibi müxtəlif qrammatik elementlərlə dəyişə bilir. Məsələn, ingilis dilində bəzi frazeoloji ifadələrdə one, one`s, somebody`s, something kimi qeyri-müəyyən əvəzliklər, her, his yiyəlik əvəzlikləri işlənir və onlar nitq prosesində müəyyən elementlərlə əvəzlənə bilir. Məsələn, ing. Did he run away and leave Riveres in the lurch? (E.L.Voinich) cümləsində somebody əvəzliyinin yerinə Rivares xüsusi adı,she drove her son into Rocher`s arm cümləsində somebody əvəzliyinin yerinə yiyəlik halda olan Rocher`s xüsusi adı işlənmişdir.

Hər iki dildə elə frazeoloji vahidlər də müşahidə edilir ki, onların frazeoloji variantları, struktur sinonimləri yoxdur və komponentlərində heç bir əvəzlənmə mümkün olmur. Məsələn, ing. To kick the bucket "ölmək", to smell a rat "təhlükəni hiss etmək"; azərb. qara yaxmaq, üz vurmaq, əl qaldırmaq.

İngilis və Azərbaycan dillərinin fraeoloji sisteminin tipoloji müqayisəsi frazeoloji vahidlərin qrammatik təşkilində və struktur cəhətdən formalaşmasında bir sıra ciddi fərqləri aşkara çıxarmağa imkan vermişdir.

Müxtəlif dillərin frazeoloji sisteminin tipoloji təhlili belə qənaətə gəlməyə əsas verir ki, müxtəlif dillərdə bir sıra frazeoloji vahidlər müəyyən məqamlarda struktur-semantik oxşarlıq təşkil edir, müəyyən məqamlarda isə qrammatik təşkil və struktur formalaşma baxımından fərqlənir. Belə frazeoloji vahidlər sırasına məna və üslubi çalarına, komponentlərinin tərkibi və struktur-qrammatik təşkilinə görə oxşar və fərqli sabit birləşmələri aid etmək olar. Belə birləşmələrin təşkilindəki oxşarlıq onların obrazlılığının ümumdil xarakteri ilə şərtlənir.

Açar sözlər: Frazeoloji ifadələr, ingilis və Azərbaycan dillərinin müqayisəsi, frazeoloji vahidlər, ingilis dili.

Ədəbiyyat

1. Bayramov H.A. Azərbaycan dili frazeologiyasının əasaları. Bakı: Maarif, 1978, 176 s.
2. Cəfərov S. Müasir Azərbaycan dili. Leksika. Bakı: Maarif, 1970, 236 s.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1954 32 s.
4. Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili. I c. Bakı: Nurlan, 2003, 450 s.
5. Rəhimzadə N.R. Azərbaycan idiomatik ifadələr. Fil. elm. n. diss. avtoreferat. Bakı, 1967, 28 s.
6. Иванов В.В. Пингвистические взгляды Е.Д.Поливанова // Вопросы языкознания, N 3, 1957, с 63
7. Тагиев М. Т. Глагольная фразеология современного русского языка Баку: Маариф, 1966, 250 с.

AZƏRBAYCANDA GƏNCLƏRİN TƏHSİL PROBLEMLƏRİ VƏ ONLARIN CƏMİYYƏTDƏ ROLU

Dünyamalıyev Fərid
Azərbaycan Universiteti
farid.dunyamaliyev14@mail.ru

Gənclərin təhsil problemlərindən danışarkən ilk öncə bu problemlərin onlara hansı aspektdə təsiredəcəyini müəyyənləşdirmək vacibdir. Bu problemlər aşağıdakılardır:

- müasir təhsil sistemlərinin davamlı olaraq meydana gəlməsi, inkişafı və fəaliyyəti;

- qloballaşan dünyada təhsilə verilən texniki və sosial tələblər;
- təhsildə sosial bərabərsizlik problemi;
- daim yeniləşən təhsil sisteminə uyğun dərsliklər;
- savadlı müəllim kollektivinin azlığı;
- bir təhsil pilləsindən digərinə keçmək üçün tətbiq olunan imtahan metodikası;
- xaricə təhsil problemləri [1].

Bu problemlərin ayrı ayrılıqda təsir dairəsinə və bu problemlərin mövcud olmasının nəticələrinə nəzər yetirək.

Müasir təhsil sistemlərinin davamlı olaraq meydana gəlməsi, inkişafı və fəaliyyəti - bütün tarixi formasiyalarda ictimai həyatda təhsilin mühüm rolu hamı tərəfindən qəbul edilir. Gənc nəsillərin öyrədilməsi, maarifləndirilməsi, tədrisi hər zaman diqqət mərkəzində olmuşdur. Müasir təhsil sistemləri daim inkişaf edir və bütün dünya bu sistemlərdən səmərəli şəkildə istifadə edir. Bu sistemlərdən Azərbaycandada tətbiq olunmasına baxmayaraq bir sıra problemlər ortaya çıxır [2]. Yeni tətbiq olunan təhsil sistemlərinə uyğunlaşmaq və bu sistemi keyfiyyətli tətbiq etmək üçün dərindən araşdırmaq xeyli zaman alır ki, buda öz növbəsində haqlı etirazlara gətirib çıxarır. Belə problemlərin yaşanmaması üçün ilk öncə təhsil işçilərini, daha sonra isə bundan faydalanacaq kütləni maarifləndirərək bu sistemlərə hazırlamaq lazımdır [3].

Qloballaşan dünyada təhsilə verilən texniki və sosial tələblər - təhsilin sosial effektivliyi yalnız insanların əldə etdiyi biliklərdən deyil, qazanılan biliklərdən necə və harada tətbiq edə bilməsindən asılıdır [1]. Bəzən texniki və sosial cəhətdən yenilənən, inkişaf edən təhsilə qarşı köhnə nəsil mühafizəkar mövqedə durur. Gənclik isə yeni-yeni fikirlərlə çıxış edir, yenilənmənin tərafdarı olurlar. Bu fikir ayrılığı təlim və tədrisdə yeni-yeni problemlərə yol açır [4].

Təhsil sistemində sosial bərabərsizlik problemi.İcbari təhsildən sonrakı dövr gənclərin öz həyatlarının təməlini qoymağa başladığı bir dövrdür [1]. Amma, bəzən sosial bərabərsizliyə görə gənclərin bir hissəsi növbəti təhsil pillələrinə keçə bilmirlər və nəticədə özlərinin tam inkişafından geri qalırlar [3].Təhsildə mövcud sosial bərabərsizliyin aradan qaldırılması istiqamətində bir çox dövlətlər əsaslı tədbirlər görür, layihələr işləyib hazırlayırlar.Almaniyada təhsil tamamilə ödənişsizdir, Yaponiya dövlət büdcəsinin çox hissəsini təhsil üçün istifadə edir və.s. Azərbaycanda da bu cür təhsil problemlərinin mövcud olmasına baxmayaraq, gənclərə olan qayğının nəticəsində bu problemlər zaman-zaman aradan qalxır.

Daim yeniləşən təhsil sisteminə uyğun dərsliklər və savadlı müəllim kollektivinin azlığı.Əminliklə deyə bilərik ki, ölkənin gələcəyi güclü siyasətçilərdən və güclü iqtisadçılardan daha çox savadlı müəllimlərdən asılıdır [4]. Çünki siyasətçinidə, iqtisadçınıda, həmçinin bütün peşə və ixtisas sahiblərinidə yetişdirən müəllimdir. Çox təəssüf olsun ki, yeni yaranan ixtisaslar üçün savadlı və ixtisaslı kadırlar çox azlıq təşkil edir. Bu hal yeni yaranan və ölkəmiz,cəmiyyətimiz üçün xüsusi əhəmiyyətə malik olan sahələrə böyük təsir göstərir. Bu məsələyə digər aspektdən yanaşsaq görərik ki, bu problem digər problemlərin də yaranmasına səbəb olur. Məsələn, yeni yaranan sahələrə müvafiq dərsliklər işlənib hazırlanmır, tələbələrə yalnış metodlarla dərs deyirlər. Bu sahədə olan problemlərin həlli üçün bütün universitetlər rəqabətdə, lazım gəldikdə isə qarşılıqlı əməkdaşlıq şəraitində olmalıdırlar [4].

Bir təhsil pilləsindən digərinə keçmək üçün tətbiq olunan imtahan metodikası və xaricə təhsil problemləri - hər bir ölkənin öz təhsil sisteminə uyğun müəyyən təhsil tələbləri mövcuddur. Digər ölkələrlə müqayisədə Azərbaycanda təhsil tələbləri öz müxtəlifliyi ilə seçilir. Məsələn, bir təhsil pilləsindən digərinə keçmək üçün mövcud şəraiti müqayisə edək. İnkişaf etmiş ölkələrdə bu keçid

yalnız müvafiq sənədləri təqdim etməklə olur və sona qədər təhsili başa vura bilmək isə tələbənin şəxsi bilik və bacarıqlarından irəli gəlir. Ölkəmizdə isə bütün təhsil pillələrinə keçid test imtahanları ilə olur ki, buda bəzi şəxslərə çox çətinlik törədir və xarici universitetlərə üz tuturlar.İstedadlı gənclərin xarici universitetlərə olan axınının bir sıra səbəbləri vardır. Bəzi universitetlərin yeniliyə açıq olmaması, daimi olaraq standart və şablon metodikalardan istifadə olunması, bəzi hallarda bilik və bacarıqların düzgün qiymətləndirilməməsi və.s. Gənclərin xaricdə təhsil alaraq geri dönüb əldə etdiyi bilik və bacarıqları öz ölkəmizdə tətbiq etməsi də çox önəmli məsələdir. Dövlətimizin həyata keçirdiyi gənclər siyasəti göstərir ki, ölkəmiz xaricdə təhsilə kifayət qədər maraqlıdır. Hal-hazırda bir sıra dövlət və özəl universitetlər var ki, xarici universitetlərlə qarşılıqlı əmakdaşlıq edirlər. Bu da tələbələrin xarici universitetlərə çıxışına şərait yaradır [5].

Gənclərin cəmiyyətdə rolu- Müasir dövrdə gənclər cəmiyyətin əsas aparıcı qüvvəsi hesab olunurlar. Gənclərin savadlı, dürüst, sağlam düşüncəli, vətənpərvər yetişdirilməsi cəmiyyətdə olan bütün mənfi halların aradan qaldırılmasının ən vacib göstəricisidir. Cəmiyyətdə mövcud olan hər bir xırda problem gənclərə təsirsiz ötüşmür. Bütün problemlər halqavari şəkildə bir birinə bağlıdır və bəzi problemlər uzun illər sürə bilər. Məsələn, müasir bazar tələbləri ilə gənclərin mövcud ixtisası arasındakı paradokslar. Bütün problemlərin həllində hər zaman gənclərin inkişaf etmiş, yenilikçi həllyönümlü fikirləri çox böyük rol oynayır. Busəbəbdən də "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" hazırlanmışdır [5].

Açar sözlər: Xaricdə təhsil, gənclər, təhsil

Ədəbiyyat

1. Abbasova Q.Y. Elmin və təhsilin sosiologiyası. Bakı.2002,
2. Zamanov A.D, Əliyeva H.İ. Sosial işin əsasları. Bakı-2015.
3. Vahidov F.Q., Ağayev T.B. Sosialogiya. Bakı-2008.
4. https://azertag.az/xeber/Azerbaycanin_muasir_tehsil_sistemi_mueyyenlesdirilmis_hedefler_cherchivesinde_ugurla_inkisaf_edir-1023838,
5. https://president.az/articles/14132.

ÇAĞDAŞ ANALİTİK VƏ QİTƏ FƏLSƏFƏSİ ƏNƏNƏLƏRİNDƏ İCTİMAİ-SİYASİ TƏFƏKKÜR

Əhmədov Kənan
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
kananahmadov.ph@gmail.com

XX əsr dünya tarixi özündən əvvəlki əsrlər, bəlkə də, özündən sonra gələcək bütün dövrlərlə müqayisədə inqilabi dəyişikliklərinən kəskin və ən çox olması və müharibələrin qlobal zəmində dağıdıcı izlər daşıması baxımından ön sıralardadır deyə düşünsək, zənnimcə, yanılmış olmarıq. Baş vermiş, ictimai, iqtisadi və siyasi dəyişikliklər, iki böyük dünya müharibəsinin yaşanması, imperiyalarınsüqutu və yeni dövlətlərin meydana gəlməsi, təbiət elmlərinin və texnologiyaların özündən əvvəlki dövrlərdə müşahidə olunmamış sürətlə inkişafı, marksist-leninist ideologiya mənsublarının iqtidara gəlməsi, həmçinin tənəzzülə uğraması və buna müqabil, liberal siyasətlər və demokratiyaların yayılması, mədəni və kültürəl olaraq postmodernizmə keçid və nəhayət dünyanın qloballaşması prosesi ötən əsrin nəzərə çarpan fenomenlərindəndir [6]. Bütün bu proseslər onların

arxa fonundakı səbəblərlə birlikdə, digər akademik sahələr kimi, tarixi proseslərlə xüsusilə qarşılıqlı təsirdə olan fəlsəfənin də istiqamətini müəyyənləşdirmişdir.Bir-birilərinə paralel olaraq inkişaf edən və bir-birindən təsirlənən əsas tarixi fenomenlər - feodalizmi öz daxilindən zəiflədərək hakim iqtisadi sistemə çevrilən kapitalizm; özündən əvvəlki dövrlərin ənənəvi ruhundan qopuşu təmsil edən Maarifçilik Fəlsəfəsi (ing., The Enlightenment Philosophy) və bunların qarşılıqlı münasibətinin meydana gətirdiyi Müasirlik – XX əsr və həmçinin onun davamı olan XXI əsr fəlsəfəsinin formalaşmasının arxa fonundakı səbəblərdir [3].

Çağdaş Düşüncə filosofların və fəlsəfəyə qatqı edən digər elm adamlarının düşüncə və nəzəriyyələrinin əvvəlki dövr fəlsəfələrinə nisbətdə zənginliyi və özünəməxsusluğu ilə seçilir[3]. Bu dövrdə mütəfəkkirlərin və onların həm fəlsəfə, həm də digər humanitar və ictimai elmlərə verdiyi töhvələrin saysız-hesabsız olmasını, dövrün əxlaqi, ictimai və siyasi problemlərinin çoxluğu və əsas məqsədi zamanının problemlərini həll etmək olan fəlsəfənin bunlardan çıxış yolunun axtarması ilə izah etmək olar. Fəlsəfə öz dövründən bilavasitə təsirlənir və ona təsir edir. Bunun nəticəsi olaraq Çağdaş Qərb Fəlsəfəsi məsələlərə yanaşma baxımından, Maarifçiliyin açdığı cığırda irəliləyən Analitik ənənə ilə, Maarifçiliyin tənqidinin izində olan Qitə Avropası fəlsəfi ənənəsini özündə birləşdirir[5]. Öz şəmsiyyələri altında müxtəlif cərəyanlara mənsub filosofları saxlamasına baxmayaraq, bu alimləri iki ayrı düşərgədə qruplaşdırmağa əsas verən səbəb, onların düşüncələrində müştərək özül prinsipləri bölüşmələridir.

Analitik Fəlsəfə, anqlosakson və ingilisdilli ölkələrdə daha çox məşğul olunan, sxoltastik dinidünyagörüşdən imtina edərək, rasionallığa şüurlu şəkildə bağlılıqla, kainatı teleoloji bir sistem kimi yox, mexaniki sistem kimi qavrayaran Maarifçilik hərəkatının açdığı yolda fəaliyyət göstərən intellektual ənənədir [2]. Pozitivizmin təsiri iləfəlsəfənin sintetik və normativ funksiyasını inkar edərək, bu elmin ilkin və ən əsas vəzifəsininin analiz olduğunu irəli sürən analitik filosoflar, kompleks reallığın müstəqil, sadə özlərdən meydana gəldiyi iddiası ilə atomist varlıq konsepsiyasını qəbul etdilər. Bu ontoloji fərziyyələrə əsaslanan analitik mütəfəkkirlər tədqiqat obyektlərindən doğru biliklərin qazanılmasının yalnız və yalnız analiz – təfəkkürdə kompleks varlıqların sadə özlərə parçalanması - vasitəsilə açıq-aydın, əyani hala salınması ilə mümkün ola biləcəyini qətiyyətlə vurğuladılar. Onların bu əyanilik axtarışı, təbii olaraq, dilə qarşı xüsusi diqqətlə və hətta, fəlsəfəni linqvistik analizlə eyniləşdirməklə nəticələndi [3]. Bütün bunlar yuxarıda qeyd etdiyimiz kimi, fəlsəfənin sentetik funksiyasının yadırğanmasına, beləliklə, normativ etika, sosyal və siyasi nəzəriyyə kimi fəlsəfə sahələrinin analitik mütəfəkkirlər tərəfindən tərk olunmasına gətirib çıxardı. Lakin, 1959-cu illərdən başlayaraq, S.Ben və R.Petersin "İctimai prinsiplər və demokratik dövlət", hüquq filosofu H.L.A.Hartın "Hüquq konsepsiyası", B.Barinin "Siyasi Arqument" əsərlərilə, fəlsəfənin sentetik funksiyasına yenidən dönüş başlandı və XX əsrin sonlarına doğru qurucu, xüsusilə siyasi fəlsəfə Analitik ənənədə mərkəzi mövqeyə yerləşdi. Burada dönüşün kuliminasiya nöqtəsi Amerikalı filosof Con Roulzun 1971-ci ildə nəşr olunan "Bir Ədalət Nəzəriyyəsi" kitabı oldu[5]. Hal-hazırda, konstitusional hüquqdan bölüşdürücü ədalətə, vətəndaşlıqdan iqtisadi səmərəliliyə, qlobal etikadan dini tolerantlığa, kültürəl plüralizmdən demokratik konsensusa qədər geniş məsələləri əhatə edən Roulzun siyasi fəlsəfəsi, nəinki anqlo-amerikan ənənədə, həmçinin Qitə Avropası fəlsəfə ənənəsində də elmi tədqiqatların mərkəzlərindən biridir [1]. Analitik hüquqi, sosyal və siyasi fəlsəfədə, R.Dvorkin, R.Nozik, İ.Berlin kimi məşhur filosoflar, həmçinin, analitik marksizm və kommunitarianizmin görkəmli nümayəndələri bu sahəyə zəngin töhvə veriblər [4].

Çağdaş Qərb Düşüncəsinin ikinci böyük ənənəsi olan Qitə Avropası Fəlsəfəsi isə, tarix səhnəsində Maarifçilik hərəkatının gətirdiyi problemlərə qarşı bir reaksiya olaraq özünü göstərir[5].

Fransız filosof J.J.Russo ilə başlasa da, ilk dəfə Qitə Avropası ənənəsi Hegeldə Kantın tənqidi fəlsəfəsinin tənqidi olaraq sistematik formada təzahür etmişdir. Bu ənənəyə tövhə verən bütün alimlər hegelçi sistemin nüanslarını öz düşüncələrində daşımaları aspektindən post-hegelçilərdir. Marks, Nitsşe və eqzistensialistlər, Husserl, Frankfurt Məktəbi və Habermasın neo-marksizmi, qərb marksizmi, fenomenologiya, sturukturalizm, post-sturukturalizm, dekonstruksiya və postmodernizmi əhatə edən Qitə Avropasının [8] analitik ənənədən əsərlərinin üslubunun mürəkkəbliyi, bədiiliyi, insan varlığının ictimai və kültürəl kontekstdən başa düşülməsi və onun əxlaqi, siyasi və estetik dəyərlərlə birlikdə öyrənilməsi, məsələlərə tarixi aspektdən yanaşılması, humanitar və ictimai elmlərə yaxınlığı, hətta eyni araşdırma mövzularına malik olması və s. ilə fərqlənir [5]. Sözü gedən fəlsəfi ənənənin ən əsas xarakteristik xüsusiyyəti, həm Maarifçiliyin təbiət elmlərindən bilavasitə təsirlənən rasyonalizminə qarşı skeptik mövqedə olması, həm də, təfəkkürün kültürəl və tarixi sturukturu barədə dərin fərqindəliyidir.

Qitə Avropası ənənəsi daxilində K.Şmit, H.Arendet, Frankfurt Düşüncə Məktəbinin görkəmli filosof və sosyoloqları T. Adorno, M. Horkhaymer, H.Marküz, V.Benyamin, Y.Habermas, post-sturukturalizmin nümayəndəsi M.Fuko, postmodernizm fəlsəfəsi mövzusunda C.F. Lyotard sosyal və siyasi fəlsəfənin demək olar ki, bütün məsələləri üzərində fikirlər və nəzəriyyələr irəli sürərək, yeni fəlsəfi tədqiqat sahələrinin bünövrəsini qurmağa nail oldular [8]. Almanfəlsəfəsinin açdığı cığırda, Kant, Hegel və Marksda ardıcıl olaraq təkmilləşən və formalaşan ənənəni öz dövrünə uyğunlaşdıraraq və yeniləyərək davam etdirən Frankfurt Məktəbi filosofları "tənqidi nəzəriyyə" başlığı altında, Maarifçilik, pozitivizm, modernizm, "kültür sənayesi", ortodoks marksizmin tənqidi üzərinə əsərlər verərək, insanın individual və ictimai həyatının əxlaqi və siyasi problemlərinə tarixi kontekstlərilə birlikdə fokuslanmış və bunların həll olunmasına dair təkliflər irəli sürmüşdür [7].

Müdriklik elmləri olan sosial və siyasi fəlsəfənin məsələləri geniş və ümumi müstəvidə araşdırması və gəldiyi nəticələrdən yeni modellər inşa etməsi funksiyası bəşərin maddi və mənəvi həyatının təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Yuxarıda ifadə edildiyi kimi, Anqlo-sakson dünyasının xalis fəlsəfi analiz əsaslı metodunun və Qitə Avropasının bəşəri nöqteyi-nəzərinin, problemlərin hər iki konstekstdən dolğunluqla təfəkkür edilməsini reallaşdırması, Çağdaş Dövrdə postmodernizm, qloballaşma və iqtisadi imperyalizmin meydana gətirdiyi əxlaqi, ictimai və siyasi böhranların həll olunması üçün ən effektiv nəzəri həllərin, bilavasitə meydana çıxması deməkdir. Bu səbəblə, müasir dövrümüzdə ictimai-siyasi xadimlərin, dövlət adamlarının, beynəlxalq, həmçinin yerli siyasi və hüquqi təşkilatların öz fəaliyyətlərində filosofların nəzəriyyələrinə və təkliflərinə ciddi yanaşmaları zəruridir.

Açar sözlər: fəlsəfə, siyasət, düşüncə.

Ədəbiyyat

1. Audard, C. Philosophy Now, John Rawls. Slouf, "Acumen", 2007.
2. Cevizci, A. Aydınlanma Felsefesi. İstanbul, "Say Yayınları", 2017
3. Cevizci, A. Felsefe Tarihi, Thales'ten Baudrillard'a. İstanbul, "Say Yayınları", 2018
4. Farrelly, C. Introduction To Contemporary Political Theory. London, "Sage Publication", 2004.
5. Goodin, R.E., Pettit, P., Pogge, T. A Companion to Contemporary Political Philosophy, Nyu York, Hoboken, "Wiley-Blackwell", 2012.
6. Hobsbawm, E. The Age Of Extremes: The Short Twentieth Century, 1914-1991. London, "Abascus", 1995
7. Kızılçelik, S. Frankfurt Okulu. Ankara, "Anı Yayıncılık", 2018.
8. West, D. Continental Philosophy: An Introduction. Bodmin, "Mpg Books Ltd", 2010.

AZƏRBAYCAN DİLİNİN QƏRB QRUPUNA DAXİL OLAN DİALEKTLƏR

Əhmədova Aytən
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

Ədəbi dildə, mətbuatda, radio-televiziyada işlənən nitqdən başqa, müəyyən ərazilərlə bağlı danışıq təzahürləri, müxtəlif regionlarda təsadüf olunan məhəlli dil xüsusiyyətləri də mövcuddur. Həmin yerli- məhəlli sözlərə dialektlər deyilir. Dilimizin ayrı- ayrı şivələrində işlənən və ancaq onlara məxsus olan sözlərə isə dialektizmlər deyilir [2, s.71]. Dialektlər dilin lüğət tərkibinin qeyri-fəal hissəsinə daxil olan, yalnız müəyyən bölgələrdə işlənən sözlərdir. Ədəbi dil əsas etibarilə yerli şivələrin (şivə- dilin dialekt bölünməsində ən kiçik vahiddir) hesabına formalaşdığına baxmayaraq, müasir dövrdə şivələr ədəbi dilə o qədər böyük təsir edə bilmir.Şivələr ədəbi dilin, xüsusilə onun lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır. Ədəbi dilin lüğət tərkibinin müəyyən qismi daima yerli şivələr hesabına artır. Yerli şivələrdən ədəbi dilingözəlliyini daha da artıran, onu zənginləşdirən sözləri almaq zəruridir. Ədəbi dilə onun şivələrindən ancaq istər formaca, istərsə də mənaca qarşılığı olmayan sözlər daxil edilməlidir. Ədəbi dildə *bulaq* sözü olduğu halda, buraya *kəhriz* sözünü (Gəncə dialekti), *hündür* sözü olduğu halda, *qəlbi* sözünü (Qarabağ dialekti), *vaxt, zaman*, sözləri olduğu halda, *majal* (Qarabağ dialekti) sözünün dilimizə gətirilməsinin heç bir xeyri yoxdur. Ədəbi dildə dialektizm xüsusiyyəti daşıyan bu sözlər onu ağırlaşdırıb korlaya bilər.

Azərbaycan dili dialekt və şivələrinin təsnifi tarixi- coğrafi prinsip əsasında verilmişdir. Bunlar aşağıdakı kimi qruplaşır:

1. Şərq qrupu: Quba, Bakı, Şamaxı dialektləri, Muğan və Lənkəran şivələri.
2. Qərb qrupu: Qazax, Qarabağ, Gəncə dialektləri və ayrım şivəsi.
3. Şimal qrupu: Şəki dialekti və Zaqatala- Qax şivəsi.
4. Cənub qrupu: Naxçıvan, Ordubad, Təbriz dialektləri və İrəvan şivəsi.

Çağdaş ana dilimizin lüğət tərkibinə daxil olan dialekt sözlərdə qeyri- fəal şəkildə olsalar da, öz işləkliyini qoruyur. Əvvəllər yerli şivələrböyük müstəqilliyə malik idilər. Əhalinin mədəni səviyyəsinin sürətli inkişafı nəticəsində onlar öz xüsusiyyətini itirməyə başladılar. Beləliklə, Azərbaycan dilinin leksikası yarandı. Ədəbi- mədəni dil ilə yerli məhəlli xarakterli dil arasında mürəkkəb bir proses gedir.

Azərbaycan dili dialekt və şivələrinin Qərb qrupunun dialektlərinin özünəməxsus xüsusiyyətləri vardır. Qarabağ dialekt Qarabağ xanlığının ərazisində məskunlaşan bir çox tayfaların dili əsasında formalaşmışdır. Bunlardan qacar, baharlı, iyirmidördlü, otuzikili, şəmşəddinli, əfşar, və s. tayfalarının adlarını çəkmək olar. Xanlıqlar dövründə Qarabağ dialektləri inkişaf edərək koyne səviyyəsinə yüksəlmişdir.

Son zamanlar Qarabağ dialektləri dedikdə ölkəmizin on beş rayonununda yaşayan əhalinin məhəlli danışığı nəzərdə tutulur. Qarabağ dialekt və şivələribir sıra alimlərimiz, o cümlədən, T.Hacıyev, İ.Quliyev və başqaları tərəfindən tədqiq edilmişdir. Aparılan tədqiqatlara görə qərb qrupunun(Qarabağ dialektinin) xüsusiyyətlərini aşağıdakı şəkildə ümumiləşdirmək mümkündür:

1. ə-a əvəzlənməsi: ciyar, Heydar, xavar. 2. i-ı əvəzlənməsi: ışıx, ılıx, ılxı, qıymat.3. Söz ortasında və təkhecalı sözlərin sonunda b-v əvəzlənməsi hadisəsi əsasən qərb qrupu (Qarabağ dialektində)

dialekt və şivələrinə aid olub, iki sait və ya sait ilə sonor səs arasında özünü göstərir. Məsələn, avır, büvü, bava, çovan, qav, civ [4, s.82]. 4.Söz ortası və söz sonunda c-j əvəzlənməsi: aj, bajı. 5. Söz sonunda karlaşma: qonax, papax, çörəx. 6. Söz sonunda b-f əvəzlənməsi: kitaf, alıf. 7. Sağır nun (ŋ) səsinin geniş işlənməsi: maŋa,saŋa. 8. Qrammatik xüsusiyyətlər: Təsirlik halın –yı[4] şəkilçilərinin işlənməsi: baveyi, kapıyı. 9. Sifətin müqayisə dərəcəsinin –rax,-rəx şkilçisinin işlənməsi: gödərəx, köhnərəx. 10. İndiki zamanın –er, -or, -ör şəkilçisinin işlənməsi: aler, quror, görör. 11. Sual cümlələrinin sual ədatlarının iştirakı ilə düzəlməsi: Evə getdinmi? Səciyyəvi sözlər: malaza, qəlbi, tuş, ayıbalası, kora.

Ədəbi dilin inkişafı dialektin ictimai funksiyasının və linqvistik imkanlarının artması ilə bağlıdır. Siyasi-iqtisadi və ədəbi-mədəni inkişaf nəticəsində dialektin ünsiyyət funksiyası genişlənir, dialekt fövqünə çevrilir. Dövr, zaman keçdikcə, digər dialektlərin faktları da ədəbi dildə normalaşa bilir. Koyne dialektin xüsusiyyəti ilə paralel işlənir, sonra dildə işləklik hüququ qazanır. Müasir ədəbi dilimizin normaları (fonetik, leksik, qrammatik)bir neçə dialektin xüsusiyyətləri əsasında formalaşmışdır. Azərbaycan ədəbi dili XIII-XIV əsrlərdə Şirvan dialektinə, XV-XVII əsrlərdə Təbriz dialektinə, XVIII əsrdə Qarabağ dialektinə, XIX- XX əsrlərdə isə bütün dil nümayəndələrinin daxil olduğu Bakı şəhəri əhalisinin danışığına istinad edilmişdir. M.Şirəliyevə görə, müasir ədəbi dilimizin koynesi Bakı və Şamaxı dialektləridir. Böyük alım Tofiq Hacıyev qənaətinə görə, koyne başqa dialektlərdən dialektfövqü xasiyyətli faktları ümumiləşdirərək, daha da zənginləşdirir. Koyne leksik baxımdan başqa dialektlərin hesabına genişlənir, ancaq öz fonetik-tələffüz və morfoloji xüsusiyyətlərini qoruyur. Ədəbi dil bir dialektin çərçivəsində fəaliyyətə başlasa da, get-gedə dialektfövqü əlamətlərlə dolğunlaşır və dialektlikdən uzaqlaşır.

Qarabağ ərazisi erməni terrorçuları tərəfindən işğala məruz qaldıqdan sonra orda yaşayan əhali Azərbaycanın bir neçə rayonunda məskunlaşdırıldı. Onların bir qismi İmişli rayonunda yaşayır. Bu soydaşlarımızdan topladığımız dialektləri təqdim edirik:

Girdəbirin olmaq- qılçası qırılmaq (qarğış). Səni görüm elə girdəbirin olasan.Varantun- açıq eyvan. Qağam varantunda oturmuşdu.Gəməhli- su ilə kənd arasındakı boş quru torpaq sahəsi. Küllük – zibillik, zibil tökülən yer. Sınıx vərnini küllüyə atarsan.Şəpit –arxası açıq həyətdə geyinilən ayaqqabı. Qın- göy lobya. Üröyüş oxumaq- meydan oxumaq (məcazi mənada). Ma: üröyüş oxuma.Vərni- banka. Tuman- ətək. Dizdik, dizdiy, dizdix/– alt köynəyi [1,147].Çəpər-hasar. Çəpərin divində oturmuşdu.Bərdən-aana- burdan o yana. Afərimin bərdən-aana ürəyi gedib yıxıldı.Coymax–tayfa. Hansı coymaxdansan?Majal- 1.vaxt, zaman, 2. İmkan. Bajı, ma: majal vermədi danışmağa. Nünü, hünü, mığı- ağcaqanad. Qonaxlara hünüdən qorunmaq üçün müçətkən qurdular.Müçətkən- ağcaqanaddan qorunmaq üçün çunadan tikilmiş əşya. Dəstərxan açmaq-süfrəaçmaq. Həjir- nəjir-həddindən artıq. Pəyə- tövlə. Pəyənin qabağından gərmə gətir. Tirə-hissə. Gərmə-heyvan peynindən hazırlanmış yanacaq üçün istifadə olunan şey. Külfə- təndirin aşağı hissəsindəki deşik [1, 293]. Suad-axar çaydan su götürmək üçün ayrılmış sahə, ayaq qoyulan yer. Axcalı– balıq növü. Məəl- tövlənin qabağında heyvanların yatmaq üçün düzəldilmiş sahə. Düyələr məəldə yatıblar. Püş –qoyun peyni.

Topladığımız bu sözlərin böyük bir qisminə dialektoloji lüğətlərdə rast gəlmədik.

Dialekt sözləri bədii üslub üçün yararlı ifadə və təsvir vasitələrindən sayılır.Buna baxmayaraq, bədii əsərin dilinə hər cür dialekt sözünü gətirmək olmaz. Bədii ədəbiyyatda həmin sözlərdən başlıca olaraq, yerli kolorit yaratmaq, surətin nitqini fərdiləşdirmək, hadisələri real əks etdirmək üçün istifadə olunur [3, 233].Məsələn,

- Zülfüqar bavamın halı özündə döyül, deyir, tez Mahmıd özünü bizə yetirsin.
- Nolub ona, genə ürəyidimi?

- Sənin Zülfüqar bavan da axır vaxtlar, deyən, yamanca korlanıb. Heç əvvəllər doxtur-zad çağırmazdı. (Y. Səmədoğlu (Qazax dialekti)).

Dilimizin tarixini, onun keçdiyi inkişaf yolunu öyrənməkdə dialektlər ən etibarlı mənbədir.

Açar sözlər: qərb qrupu, dialektlər, xüsusiyyətləri

Ədəbiyyat

1. Azərbaycan dialektologiji lüğəti, I cild, A-L, AMEA, Türk Dil Kurumu Yayınları: 661, Ankara,1999, 374 səh.
2. Cəfərov S. Müasir Azərbaycan dili, II hissə,(Leksika), Bakı, "Şərq- Qərb", 2007. 191səh.
3. Qurbanov A. Azərbaycan ədəbi dili, Bakı, "Maarif"nəşriyyatı, 1985, 405səh.
4. Şirəliyev M. "Azərbaycan dialektologiyasının əsasları", Bakı, Şərq- Qərb, 2008, 416səh.

OĞUZ TÜRKLƏRİNİN NAĞIL LEKSİKASININ SEMANTİK TƏDQİQİ

Əhmədova Elnurə
ADPU Quba filialı
elnure_ehmedova@mail.ru

Böyük bir fikrin, həyat həqiqətlərinin ifadəsi olan nağıllar, müxtəlif təsəvvürlərin ifadəçisi kimi təqdim edilir. Bu da türk xalqlarının folklor nümunələrinin özünəməxsusluğundan irəli gələn əlamətdir. Bu əlamətlərin yaranması isə dildə müəyyən mənanın ifadəçisi, göstəricisi, semiotikanın əsas məhfumu olan işarələr vasitəsilə reallaşır.

Oğuz qrupu türk dillərinin leksik-semantik sistemin müəyyənləşdirilməsi, müqayisəli təhlili nağıllar əsasında böyük bir işarələr sisteminin ifadəçisi olan mətnlər kimi tədqiqata cəlb olunur. Azərbaycan, türk, türkmən, qaqauz xalqlarının nağıl leksikası əsasında sözün leksik sistemdəki yerini onun başqa sözlərə münasibəti ilə, yəni onun leksik sistemdəki yeri ilə müəyyən etmək, həmin sistemin strukturunu öyrəndikdən sonra müqayisəli təhlil aparılması əsas qayəyə çevrilir.

Türk xalqlarının folklorundakı nağılların dil materialının tədqiqi göstərir ki, buradakı leksik vahidlər yüksək paradiqmatik imkanlara makildir. Nağıl üslubu dedikdə, dil vasitələrindən istifadə formalarının zənginliyi, zəncirvari şəkildə bir-biri ilə bağlanan və kommunikativ-estetik və praqmatik vəzifə daşıyan sehrli, uydurulmuş, bəzən isə real tipik əlamətlərin toplusu başa düşülür. Nağıl dili söz formaların, onların xalq poeziyasının praqmatik və estetik şəkildə qurulmuş kommunikativ strukturunda müxtəlif üslubi əlamətlərlə xarakterizə olunan məlumatların toplusudur [1, s.61]

Türk dillərinin nağıl leksikası həddindən artıq zəngindir. Bu zənginlik sözlərin, ifadələrin, cümlələrin və daha çox səslənmiş birləşmələrin səviyyələrinə aid olan mənanın öyrənilməsinə həsr olunmuş sahədə əks edilmişdir.

Bütün dillərdə hər hansı bir söz müəyyən semantik xətlərlə müxtəlif sahələrlə bağlı olan vahidlərlə əlaqələnir və yada düşür.

Lüğət tərkibində individual semantik əlamətlərinə, kateqorial mənasına, qrammatik səviyyəsinə görə ilk baxışda bir-birindən seçilən sözlər çoxluğu əslində daxili-linqvistik əlaqələrlə qarşılıqlı şəkildə bağlanaraq xüsusi sistem təşkil edir; bu əlaqələr müxtəlifliyi sözlərin semantik dəyişmələrinin əsasını təşkil edir. Bu araşdırmada əsas məqsəd də polisemantik işarələrin, sinonim

cərgə və antonim qarşılaşmanı paradiqmatik əlaqədə müəyyən semantik əlamətlərinin təhlil edilməsidir.

Ənənəvi dilçilikdə sözlərin mənalarını əsas götürərək onları sinonim, omonim, çoxmənalı sözlər və antonimlər kimi təsnif edirlər. Sözün leksik-semantik variantları bunların fərqləndirilməsini tələb edir. Anomalistlərin dediyi kimi, dil o zaman ideal olur ki, orada forma ilə məna bir-birinə əsasalansın. Yəni bir forma yalnız bir məna bildirir və ya əksinə [4, s.33]. Məsələn, Azərbaycan dilinin nağıl leksikasında işlənən /iri-nəhəng-böyük/ sözləri tam olmasa da, nisbi mənada eyni məzmunludur. Türkmən dilində

Tarix boyunca həddindən çox assimilyasiyaya məruz qalmalarına baxmayaraq Qaqauzlar türk xalqlarından biridir. Balkan Yarmadasında yaşayan, xristian olan Qaqauzlar uzun müddət müsəlmanlarla birlikdə yaşadıqları üçün xalq mədəniyyəti sikretik ünsürlərlə zənginləşmişdir. Bu ünsürlərə onların nağıllarında da rast gəlmək olur [1, s.115].

Koqnitiv linqvistikanın əsas vahidi dildə leksem kimi qəbul edilən konseptdir.

Konsept yaddaşın, mental (əqli) leksikonun, konseptual sistemin və beyin dilinin, dünya mənzərəsinin, biliklər kvantının operativ vahididir. Konsept təcrübənin insan yaddaşında saxlanılan mənaya malik, dərk olunan tipikləşmiş, fraqmentlərin mental strukturudur. Konseptin yaddaşın deyil, düşüncənin (təfəkkürün) vahid olmasını söyləyən Z.D.Popova və İ.A.Sternin hesab edirlər ki onun əsas vəzifəsi düşüncə prosesini təmin etməkdir. Konsept informasiyanı saxlayan, koqnitiv elmin baza vahidi, məna planı kimi çıxış edir [3, s.341].

Bir-biri ilə bəzi oxşarlıqlara malik olan leksem və konsept, həm də fərqli cəhətlərə malikdirlər. Belə ki, konsept özündə komponentləri (konseptual əlamətləri) və semaları (semantik əlamətləri) birləşdirən qatlara, leksem isə semantik əlamətləri birləşdirən semalara mailkdir. Ona görə də, polisemantikaya malik söz müxtəlif qatlara malik konsept kimi qəbul edilir. Deməli, konsept-linqvomədəni xüsusiyyətləri özündə əks etdirən bu və ya digər formada müəyyən etnomədəniyyət daşıyıcılarını xarakterizə edən semantik formalardır [1, s.61].

Oğuz türklərinin nağıl leksikasının leksik-semantik sistemi elmi tədqiqat işinin obyekti olan nağıl mətninin əsasını isə xalq konsepti təşkil edir ki, o da koqnitiv planda çox az tədqiq olunmuşdur. Türk xalqlarının əski çağlardan bəri formalaşaraq müasir zamanımıza kimi gələn adət-ənənələri, etiqadlarını öyrənmək üçün zəngin informasiya qaynağıdır.

Türk dillərinin leksik tərkibinə daxil olan bütün sözlər iki əsas xüsusiyyət üzrə müəyyənləşir. Birinci qrupa daxil olan sözlər ümumtürk səciyyəsi daşıyır və əsas fonetik cəhətdən fərqlənir. Bu cür sözlər semantik cəhətdən də türk dillərinin hamısında eyni xüsusiyyətə malikdir.

İkinci qrupa aid olan sözlər fonetik cəhətdən fərqlənməklə, leksik-semantik xüsusiyyətlərinə görə də hər bir konkret dil üçün xüsusiləşən elementlər kimi özünü göstərir [2, s.18].

Beləliklə, ikinci qrup sözlər türk dillərinin diferensiallaşmasının mühüm cəhətlərindən birini təşkil edir.

Müxtəlif sahələrdən təşkil edilən qohum dillərin leksikası olduqca zəngindir. Daha doğrusu, müasir türk dillərinin lüğət tərkibi müxtəlif leksik laylardan təşkil olunub. Bu müxtəliflik əski çağlardan bəri yaranıb formalaşmış türk nağıl leksikasında da öz əksini tapır. Bunların müxtəlif tematik qruplara bölünərək öyrənilməsi daha məqsədəuyğundur. Ayrı-ayrı türk xalqlarının tam şəkildə tarixinin öyrənilməsində tematik qruplar üzrə müqayisəli leksikanın mühüm rolu vardır.

Oğuz qrupu türk xalqlarının leksik sistemində varlıq, zaman, məkan adlarının əmələ gətirdiyi semantik sistemlər nəzərdən keçirilir. Adı çəkilən tematik söz qruplarının bir yerdə tədqiq olunması təkcə onunla bağlı deyildir ki, varlıq, zaman, məkan kateqoriyaları obyektiv gerçəkliyin ümumi kateqoriyalarıdır. Həmin söz kateqoriyalarının linqvistik cəhətdən əhəmiyyəti budur ki,

onların əmələ gətirdiyi mikrosistemlər oxşar şəkildə təşkil olunmuşdur. Belə ki, biz türk xalqlarının nağıl leksikasında həm məkan, həm də zaman adlarının müxtəlif siniflərini - məkani obyekt adlarını, maddi obyektlərin hissələrinin adlarını, cəhət adlarını, üçölçülü məkan adlarını, zaman vahidlərinin adlarını, gün adlarını, fəsil adlarını müşahidə edirik.Həmin leksik qruplarınsa, hər birinin özünəməxsus daxili təşkilatı və semantik münasibətlər şəbəkəsi vardır. Zaman vahidlərinin adları Azərbaycan dilində aşağıdakılardır: saniyə, dəqiqə, saat, gün, həftə, fəsil, il, qərinə, əsr; Həmin terminlərin məzmununda iki cəhət diqqəti cəlb edir: birinci, onların həcm etibarilə müxtəlif zaman hissələrini bildirməsi; ikincisi, ayrı-ayrı məzmunlar arasında müntəzəm bir ardıcıllığın olması.

Şəxs və fərd bildirən sözlər adı ilə şəxs əvəzlikləri, qohumluq terminləri və yaş cins bildirən sözləri nəzərdən keçirək. Azərbaycan dilində şəxs əvəzliklərinin semantik və sözdüzəltmə baxımından bir-biri ilə bağlı olan üç növü vardır. Bunlardan birincisi əsil şəxs əvəzlikləridir ki, mən, sən, o, biz, siz, onlar (Azərbayca) мен, сен, ол, биз, сиз, олар (türkmən); бäн сäн, о, биз, сиз, оннар (qaqauz); ben, sen, o, biz, siz, onlar (türk) dillərindədir. İkincisi qayıdış, üçüncüsü isə qovuşuq əvəzliklərdir.

Müasir türk dillərinin leksikası o dillərin daşıyıcılarının tarixi keçmişi, mədəni inkişafın dövr və mərhələsi ilə əlaqədar formalaşmış və zənginlik qazanmışdır.

Leksika dillərin qohumluğunu sübut edən faktorlardandır. Təsadüfi deyil ki, türk və monqol dillərinin qohumluğu məhz qədim leksik faktlar əsasında müəyyənləşdirilmişdir. Təsadüfi leksik uyğunluqların olmadığı dəlillər leksika vasitəsi ilə təsbit olunmuşdur [2, s.13].

Açar sözlər: Semantika, oğuz nağılları, leksika, işarə, nağıl mətnləri

Ədəbiyyat

1. Əliyeva D. Onomastik vahidlərin folklorda təzahürü (oğuz qrupu türk dilləri əsasında), Bakı: “Mütərcim”, 2016, 309 səh.
2. Kazımov İ. Müasir türk dillərinin müqayisəli leksikası, II cild, Bakı, 2010, 399 səh.
3. Sadıqova S. Hüseynova N. Abdullayeva İ. Novruzova S. Qəribova Ş. İzahlı dilçilik terminləri lüğəti, Bakı:“Elm”,2018, 911səh.
4. Veysəlli F. Struktur dilçiliyin əsasları (semantika və praqmatika), Bakı: “Mütərcim”, 2009, 266 səh.

BİOMETRİK İNFORMASİYA TEXNOLOGİYALARI

Əhmədova Tamella
Bakı Biznes və Kooperasiya kolleci
axmedovatamella@gmail.com

Biometrik texnologiyalar bütün dünyada müxtəlif sahələrə fəal inteqrasiya edir. Biometrik texnologiyaların əsasını insanların bioloji xüsusiyyətlərinə görə unikal qurulması təşkil edir. Biometrik məlumatlar sisteminin 2 tipini ayırd edirlər:

– Statik biometrik məlumatlar - insan doğulandan sonra alınan nadir əlamətləri (DNT, barmaqların izləri, əlin həndəsəsi, gözün qüzehli qişasının təyini və s.)

- Dinamik biometrik məlumatlar – xarakteristikalar, zaman keçdikcə, yaşla əlaqədar və ya xarici təsir altında dəyişən bacarıqlar (İmzaların sürətli dinamikası, yeriş, mətnin yığılmasının dinamikası, səs və s.) [1].

İdentifikasiya istənilən növ biometrik məlumatların istifadəsi olan aşağıdakı mərhələlərdən ibarətdir:

1. Yazı – sistemin biometrik məlumatlarını yadda saxlayır;
2. Biometrik nümunənin ayrılması - məlumatı düzəldir, riyazi kodu dəyişir.
3. Müqayisə – saxlanmış biometrik nümunəni təqdim edilmiş identifikasiya ilə müqayisə edir;
4. Nəticənin alınması – biometrik nümunələrin təsadüfi alqoritmi haqqında nəticəni verir.

2016-cı ilin sonuna biometrik sistemlərin dünya bazarının həcmi, beynəlxalq konsaltinq şirkətinin məlumatına görə, Json & Partners səviyyəsində 14,45 mlrd. ABŞ dolları dəyərində qiymətləndirilir [2]. Dünya bazarlarında biometrik sistemlərin texnologiyalarının istifadəsinin fəal şəkildə tətbiq olunması, aşağıdakı əsas identifikasiya texnologiyalarından istifadə etməklə,biometrik məlumat-ların tanınmasını və istifadəsini daha da asanlaşdırır:

- Barmaq izlərinin identifikasiya texnologiyası (bazarın ümumi həcminin 50% -ni təşkil edir);
- Şəxsin üzünün təsvirinin identifikasiya texnologiyası (21,6%);
- Gözün qüzehli qişasının təsvirinin identifikasiya texnologiyası (10,2%);
- Səsin identifikasiya texnologiyası (4%);
- Vena damarlarının təsvirinin identifikasiya texnologiyası (3%);
- Ovucun həndəsəsi və DNT – nin identifikasiya texnologiyaları və s.(təxminən 7%) [3].

Bununla yanaşı, proqnozlara uyğun olaraq, 2022-ci ilə qədər barmaqların izləri üzrə identifikasiya texnologiyaları bazarı bütün biometrik texnologiyalar bazarının orta artım sürətlərindən daha yavaş artacaq, buna görə də bu seqment öz payını azaldacaq.

Şəxsin üzünün təsvirinə görə identifikasiya texnologiyaları aşağı orta bazarlarda aşağı artım sürətlərini göstərəcəklər, bununla belə, dünya bazarında biometrik sistemlərin bu texnologiyasının payı demək olar ki, 21% - dən 23% - ə dək artacaq [3].

Venaların (damarların), ovucun, səsin və gözün qüzehli qişasının təsviri şəkilinə görə, identifikasiya texnologiyaları yaxın 5-7 il ərzindəçox tezböyüyən seqment olacaq.Hal-hazırda dünyada biometrik texnologiyalardan istifadənin yeni formalarının axtarışı davam edir: ticarət və istifadəçi tətbiqi sferasına dövlət təhlükəsizliyinin ənənəvi sistemlərində onların istifadəsindən keçidin tendensiyası müşahidə olunur.

Beynəlxalq təsnifata uyğun olaraq, biometrik texnologiyalar bazarının tətbiq sahələri üzrə növbəti əsas seqmentlərini ayırmaq olar:

- dövlət sektoru: elektron sənədlər, biometrik məlumatları özündə saxlayan (e-passports, e-ID, elektron sürücülük vəsiqələri), milli biometrik proqramlar, həmçinin milli təhlükəsizlik sistemləri (nəqliyyatda və immiqrasiya nəzarətində istifadə olunan sistemlər istisna olmaqla);
- səyahət və miqrasiya: e-Visas, e-Gates, ABC-Kiosks və s.(bütün biometrik sistemlər, nəqliyyat infrastrukturunun obyektlərində və immiqrasiya nəzarətində istifadə edilənlər);
- maliyyə sektoru: maliyyə, banklar, ödəniş sistemləri və sığorta;
- səhiyyə: həm dövlət, həm də özəl sektor kimi;
- riteyl: alıcıların monitorinqinin sistemləri;

– korporativ istifadə: informasiya təhlükəsizliyi (girişin virtual kontrolu), girişin fiziki kontrolu, böyük təşkilatlarda iş vaxtının hesabı və başqa [4].

Dövlətlərin milli təhlükəsizliyin təminatına yönəldilmiş təşəbbüsləri dünyada biometrik texnologiyaların inkişafının başlanğıc amilidir. Praktik olaraq , bütün inkişaf etmiş ölkələrdə biometriya immiqrasiya nəzarətində fəal istifadə olunur: biometrik pasportlar (hal-hazırda dünyanın ölkələrinin əksəriyyətində istifadə olunur), vizaların rəsmiləşdirilməsi, qaçqınların identifikasiyası, sərnişinlərin identifikasiyası və s. [5].

Hazırda, dünyada biometrik texnologiyaların inkişafına diqqət yüksək səviyyədədir. Çünki, artıq biometrik texnologiyalardan istifadə etməklə, terrorizmi, cinayətkarlığı, quldurluğu dünya səviyyəsində aradan qaldırmaq olar [6].

Açar sözlər: İnformasiya təhlükəsizliyi, biometrik informasiya texnologiyası, identifikasiya.

Ədəbiyyat

1. Обзор международного рынка биометрических технологий и их применение в финансовом секторе, январь 2018 москва
2. https://ru.wikipedia.org/wiki/Биометрические_технологии
3. https://ru.wikipedia.org/wiki/Биометрия
4. https://www.researchgate.net/publication/279508922_The_Role_of_Biometric_Technology_in_Information_Security
5. Информационные технологии Биометрические профили для взаи модей ствия и обмена данными Часть1 Общая архитектура биометрической системы и биометрические профили, Москва Стандартинформ 2014
6. http://www.tadviser.ru

GÖRKƏMLİ İDEOLOQ ƏHMƏD BƏY AĞAOĞLUNUN ŞƏRƏFLİ HƏYAT TARİXÇƏSİ

Əhmədova Türkan
Azərbaycan Dövlət Aqrar Universiteti
turkan_ahm@mail.ru

Əhməd Ağaoğlu 1869-cu ildə Azərbaycanın Şuşa şəhərində, Qarabağın Qurdlareli tayfasından olan Mirzə Həsən bəyin ailəsində dünyaya gəlmişdir. Anası Tazə xanım Qarabağın Sarıcalı tayfasından idi. Babası Mirzə İbrahim dövrünün tanınmış ilahiyyatçı alimlərindən biri olmuşdur.

Əhməd bəy çox mütəhərrik, hadisələrlə zəngin ömür yaşamışdır. O ilk təhsilini mollaxanada almışdır. Şuşada rus gimnaziyasına daxil olanda erməni şagirdlər içərisində, daim təzyiqə məruz qalan türklərdən biri də o idi. Gimnaziyadakı beş nəfər türk şagirddən bu təzyiqlərə tab gətirə bilən yeganə şəxs Əhməd Ağaoğlu olmuşdur.

Nəhayət ki, 1887-ci ildə gimnaziyanı bitirib, Parisə yola düşür. Bir il sonra Paris Hüquq Məktəbinin tələbəsi olur. Maddi və mənəvi çətinliklərlə dolu təhsil həyatında əziyyətlərinin bəhrəsi olaraq, məşhur Sarbonna Universitetinin Texnologiya fakültəsini bitirir.

Paris ona uğurlar bəxş edir. Avropanın tanınan şərqşünas alimlərinin mühazirələrini dinləyir. “La Nouvelle Revue” dərgisinin sahibi Culyetta Adamsla tanışlıqdan sonra dərgidə yazmağa başlayır. Paris həyatı altı il davam edir. 1894-cü ildə atasının ölümü səbəbindən Azərbaycana qayıdır, vətəni onu “Firəng Əhməd” kimi qarşılayır [3, s.113].

Avropa təhsili alan Əhməd bəy öz ideyalarını həyata keçirmək üçün 1897-ci ildə Şuşa mühitini tərk edərək, Bakıya köçür. O, “Kaspi” qəzetində Ə.Topçubaşovla birgə redaktorluq etməyə başlayır.

Qafqazda, Azərbaycanda günü-gündən şiddətlənən erməni zülmü haqda ən uca səslə, cəsarətlə danışanlardan biri, bəlkə də birincisi kimi tarixə düşüb. Həm də təkcə söz deməklə, fikir və mövqe bildirməklə kifayətlənməyib. Yeri gələndə əməli addımlar atmağı da bacarıb – Cənubi Qafqazda erməni terrorunun geniş vüsət aldığı dövrdə daşnak mauzeristləri, erməni silahlı bandaları ilə onların anladığı dildə - güc dilində danışmağı qarşısına məqsəd qoyan “Difai” hərbi-siyasi təşkilatının qurucularından olub [6, s.6].

Qafqaz canişini 1908 il 4 mart tarixli fərmanla "Difai" Partiyasınıqadağan etdi. Əhməd bəyin rəhbəri olduğu “İrşad” qəzeti qapadıldı.O, təqib və mümkün həbslər səbəbindən 1908-ci ilin sonlarında İstanbulaköçmək məcburiyyətində qalır [1, s.186].

Vətənini tərk etdiyi günə qədər elə bir hadisə yox idi ki, Əhməd Ağaoğlu orada yer almasın. Çoxşaheli fəaliyyəti nəticəsində təqib və təzyiqlərə məruz qalmışdır. Nəicədə, vətənini tərk edərək, 1908-ci ilin yayında İstanbula üz tutmuşdur. Burada da öz fəaliyyətindən geri qalmayaraq, bir neçə qəzetin redaktoru və müəllifi, universitet professoru, Osmanlı Parlamentinin üzvü olmuşdur.

Türkiyədə özünün ciddi fəaliyyəti nəticəsində çox keçmədən Əli bəyHüseynzadə, Ziya Göyalp, Yusif Akçura, Həmdullah Sübhi və başqaları iləbirlikdə türkçülük hərəkatının əsas liderlərindən biri kimi tanınan Əhməd bəy«Xalqa doğru», «Siratül-müstəqim», «Türk yurdu» kimi mətbuat orqanlarında çıxış edir, «Tərcümani-həqiqət» qəzetinin redaktoru olur [5, s.5]

1918-ci ildə Azərbaycanın dövlət müstəqilliyi elan olunanda Əhməd Ağaoğlu öz vətəninə geri qayıtdı. O, 1918-ci ildə formalaşan Azərbaycan Parlamentinə seçilərək tarixdə eyni vaxtda iki müstəqil dövlətin parlament üzvü olan yeganə siyasətçi kimi ad qazandı. O, Ə.Topçubaşovun rəhbərliyi ilə Versal sülh konfransında iştirak etmək üçün seçilir.

Nümayəndə heyətinin sədri kimi ilk gündən hökuməti məlumatlandıran Topçubaşov yazır ki, ingilislər və fransızlar heyətin tərkibində Əhməd bəy Ağaoğlunun olmasını irad tuturlar.

İngilis işğalçı qüvvələri onu “İttihad və Tərəqqi”nin digər rəhbərləri ilə birgə “erməni soyqırımı” nın ideoloqlarından biri kimi həbs edərək, sürgünə yollaması ilə nümayəndə heyətinin üzvü olan Əhməd bəyin Versal sülh konfransında iştirak etməsi mümkün olmur.

Əhməd Ağaoğlu sürgün həyatını başa vurduqdan sonra Anadoluya gedərək Qurtuluş savaşında Qazi Mustafa Kamal paşanın silahdaşlarından biri olur. O, Türkiyəyə gəlməyi özünə namus borcu bilirdi. Onu sürgündən Atatürk xilas etdi və o, öz fəaliyyətini Türkiyədə davam etdirmək qərarına gəldi. N. Nərimanova yazdığı ismarıcda fikrini açıq-aydın ifadə etmişdir:

“Türklük bölünmə qəbul etməyən tamdır. Məqsəd ona xidmətdir. Bu xidmət harada edilirsə, müqəddəsdir, mübarəkdir”. [3, s.119]

1939 –cu ilin may ayında görkəmli mütəfəkkir, unudulmaz şəxsiyyət, tarixçiƏhməd bəy Ağaoğlunun ölümü Türkiyədə həqiqi milli matəm kimi qarşılandı. Əhməd Ağaoğlu Türkiyə və türk dünyası qarşısındakı unudulmaz xidmətləri ilə ürəklərə kök salmışdır.

Əhməd Ağaoğlunun və onun ailəsinin məzarları İstanbulda Fəriköy İslam Məzarlığında Azərbaycan Cümhuriyyətinin ədliyyə naziri Xəlil bəy Xasməhəmmədin məzarının yanında yerləşir.

Açar sözlər: milli oyanış, redaktor, parlament üzvü, mühacirət, islamçılıq, türkçülük.

Ədəbiyyat

1. Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları. (portret-oçerklər və məqalələr), Bakı, "Elm və təhsil", 2018, 248 səh.
2. Dilqəm Əhməd, Bir ildən yüz ilə(yeni fotolar və sənədlər),Bakı, TEAS Press Nəşriyyat evi, 2018, 228 səh.
3. Dilqəm Əhməd, Fərqlilər, Bakı,TEAS Press Nəşriyyat evi, 2015, 216 səh.
4. Dilqəm Əhməd, Mühacirlərin dönüşü, Bakı, TEAS Press Nəşriyyat evi, 2017, 140 səh.
5. Əhməd Ağaoğlu. İran və inqilabı. Bakı,Azərnəşr,2009, 152 səh.
6. Əhməd bəy Ağaoğlu. Xatirələr. Bakı,TEAS Press Nəşriyyat evi, 2019,216 səh.
7. Xaləddin İbrahimli. Azərbaycan mühacirəti tarixi. Bakı, TEAS Press Nəşriyyat evi, 2015, 264 səh.

2000-ci İLLƏR AZƏRBAYCAN NƏSRİNDƏ QƏHRƏMANIN PSİXOLOJİ KİMLİYİNİN AÇILMASI

Ələkbərli Suğra
Azərbaycan Dillər Universiteti
suqra.alakbarli@mail.ru

Müstəqilliyin ilk illərində yazılmış nəsr nümunələri istər mövzu-məzmun, istər qaldırılan problem, istərsə də bədii sənətkarlıq baxımından bir-birindən fərqlənsələr də, onlar ümumi bir qayə altında birləşirlər. Bu dövrün demək olar ki, bütün ədəbiyyat nümunələrindən keçən, düşdüyü vəziyyətdən çıxış yolları axtaran "düşünən qəhrəman" axtarışıdır. Bu axtarışı biz psixoloji nöqteyi-nəzərdən izləməyə çalışacağıq.

İstər şeirdə, istər dramaturgiyada, istərsə də nəsrdə qəhrəmanın düşüncələrinin ifadəsi onun psixoloji kimliyinin açılmasına dəlalət edir. Bədii ədəbiyyatda psixologizmin bu məqamına diqqət çəkən alimlər obrazların nitqinin xüsusiyyətləri, formaları, hətta cümlə quruluşları ilə onun psixoloji portretinin qurulmasına diqqət yetirirlər.

Əhməd Sami Elaydi "Müstəqillik dövrü Azərbaycan romanı" monoqrafiyasında müasir Azərbaycan nəsrinin, xüsusən romanlarımızın janr özünəməxsusluğu, dil-üslub fərdiliyi ilə bağlı maraqlı məqamlara toxunur. O qeyd edir ki, İsa Hüseynov, Əzizə Cəfərzadə, Anar, Əkrəm Əylisli, Afaq Məsud və başqa müəlliflərin əsərlərini araşdırarkən təsvir olunan hadisə və əhvalatları unudaraq dilin sehrinə düşürsən. Burada dil, bədii təsvir və ifadə vasitələri təkcə əsərin süjetini sona çatdırmaq üçün vasitə rolunda çıxış etmir, həm də obrazların psixoloji kimliyini qabarıq şəkildə ortaya çıxaran prinsipə çevrilir [1, s.71].

Demək psixologizmin ifadə olunmasında əsərin dili obrazların münasibətlərindən heç də az əhəmiyyət kəsb etməyən vacib prinsip rolunu öz üzərinə götürür. Monoloqlar, dialoqlarla yanaşı müəllifin öz sözləri də psixoloji məqamları üzə çıxarır. Nəsr əsərində müşahidə olunan psixologizm öz bədii təsdiqini monoloqlar və dialoqlarla yanaşı, həm də müəllif təhkiyəsində tapır.

Misal üçün Səfər Alışarlının "Maestro" romanındakı nümunəyə baxaq: "Sonra bu qaradinməz, hirsli, saçları pırtaşıq adama uşaq təzədən, sanki yuxudan ayılmış kimi, bir az da yad baxışla baxanda, onun nəinki bir vaxtlar ağappaq kostyumda, əlində müxtəlif rəngli işıq parçalarını

əks edən gümüşü saksofon, televiziya ekranlarında görünməsinə, ümumiyyətlə, musiqiyə, incəsənətə dəxli olduğuna şübhə eləməyə bilmirdi. Uşaq bircə onu bilirdi ki, qardaşının yolu əzablı yoldur, onun öz yolu isə bambaşqadır. O, uşaqlığa mənsub sadəlövh xoşbəxtliklə inanırdı ki, qiymət üçün yox, bilik naminə oxumaqla öz yolunu rahat gedə bilər. Ancaq bütün bunlara baxmayaraq, uşaq qardaşı üçün həyatın niyə belə ağır keçməsini başa düşə bilmirdi, axı o da az və pis oxumamışdı. Deməli, nə sirr idisə, oxumaqda deyildi" [2, s.10].

Gördüyümüz nümunədə dilin gözəlliyi və rəvanlığı ilə yanaşı, onun obrazın psixologiyasının açılmasında oynadığı əvəzsiz missiya duyulmaqdadır. Bədii əsərdə psixologizmləri müəyyən etmək üçün hər şeydən əvvəl onun təhkiyədə işlənən əsas vasitələrinə diqqət yetirmək vacibdir. Belə ki, psixologizm özünü verbal və qeyri-verbal kommunikasiyadadaha aydıngöstərir.

Ünsiyyət zamanı nitqin rolunun əhəmiyyətli olduğunun əsas göstəricisi verbal kommunikasiyadır. Ətraf mühit, keçmiş və gələcək haqqında hər cür məlumatı yazılı və şifahi nitq vasitəsilə alırıq. Psixologizm nəsrdə həmişə obrazın fikirləri, xarakteri və baş verən konflikt fonunda meydana gəlir.

Bədii əsərlərdə psixologizm iki səviyyədə təzahür edir. Bunlardan biri bədii psixologizmdir ki, o bədii obrazı psixoloji prizmadan yaratmağa və insanın daxili aləminin əsərdə aktuallaşdırılmasına xidmət edir.

İkinci məqam isə yaradılan obrazın fizioloji sferasının daha geniş planda ifadəsindən ibarətdir ki, burada təkcə daxili aləm deyil, obrazların davranışları, xarici görünüşü, vərdişləri də öz əksini tapır, bununla da obraz daha kompleks şəkildə ortaya çıxır.

Aqil Abbasın Qarabağ müharibəsinin dəhşətlərindən bəhs edən və hədsiz dərəcədə gərgin psixoloji vəziyyətlərlə zəngin olan "Dolu" romanında biz təkcə obrazın daxili aləmini deyil, həmçinin onun davranışlarını da müəllif təhkiyəsində daha əhatəli şəkildə duya, hiss edə bilirik. Bu əsər haqqında araşdırmalar apardığımız zaman ədəbi tənqidçilərin əsərə müxtəlif baxış bucaqlarından yanaşdığını gördük. Təəssüf doğuran məqamlardan biri ondan ibarət idi ki, ən gərgin mənəvi-psixoloji məqamlardan biri hesab edilən müharibə gerçəkləri və onun insan psixologiyasına adekvat təsirləri haqqında bu əsərlə bağlı elmi araşdırmaya rast gəlmədik.

Müəllif romanda müharibə şəraitində insanların hər an yaşadığı psixoloji faciəni ustalıqla açmışdır. Müharibə şəraitində insanların psixologiyası, özlərini necə aparması, hansı şəkildə yaşaması bütün detalları ilə romanda əks olunmuşdur.

Romandan bir nümunəyə diqqət yetirək: "Döyüşlərin birində əllərinə bir erməni qızı düşmüşdü. İntiqam eşqindən gözlərini qan tutmuş uşaqlar qızı zorlamaq istəmişdilər. Amma tir-tir titrəyən qızın insanın iliyinə işləyən yalvarışlı baxışları hələ insanlığını tam itirmədiyindən onun qanını dondurmuşdu. Yaralı ac qurdların əlinə düşmüş çarəsiz, ümidi Tanrıdan üzülmüş bu qızın zorlanmasına biganə qala bilməmişdi. Dəxli yox idi ki, bəlkə də günün birində bu qız onu vuracaqdı, amma indi onun qarşısında sabah onu vuracaq bir düşməni görmürdü, Tanrının ondan imdad diləyən yaratdığı bir varlığı görürdü. Bəlkə də uşaqlar bu qızı güllələsəydilər fərqinə varmazdı, amma zorlanmasını qəbul edə bilməmişdi. Və qızcığazı kolluğa basmaq istəyən uşaqları saxlamışdı:

- Dəyməyin! Araya mübahisə düşmüşdü.
- Bəs onlar bizimkiləri zorlaya bilər?!
- Biz erməni deyilik!" [3, s.4]

Təsvir olunan epizodda müharibənin hansı vəziyyəti doğurduğunu görürük, həmçinin burada gərgin psixoloji sarsıntının içində düşünən və öz düşüncəsini hisslərinə qurban verməyən bir qəhrəmanın obrazı təsvir olunmuşdur.

Məhz bu düşünən qəhrəmanlar düşdüyü gərgin vəziyyətlərdə çıxış yollarını aramaq, vəziyyətin qurbanlarına çevrilməmək üçün müqavimət göstərirlər. Məhz bu dövr nəsr əsərlərindəki qəhrəmanlar düşdükləri gərgin psixoloji vəziyyətlərə baxmayaraq, qeyri-adi xarakterləri, əvvəlki dövrün qəhrəmanları ilə müqayisədə qeyri-adekvat davranışları, düşüncələri ilə də fərqlənirlər.

Açar sözlər: Azərbaycan ədəbiyyatı, psixoloji nəsr, psixologizm, psixoloji təhlil.

Ədəbiyyat

1. Abbas A., (2008), Dolu, Bakı, Təhsil, 254 s.
2. Alışarlı S., (2003), Maestro, Bakı, 172 s.
3. Elaydi Ə.S., (2017), Müstəqillik dövrü Azərbaycan romanı, Bakı, Nurlan, 191 s.

ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ РЫНКА МЕДИЦИНСКИХ УСЛУГ

Алекперова Нигяр
Университет Азербайджан
nigarmahmudzade19@gmail.com

Очевидно, теоретическое изучение рынка медицинских услуг, как и любого продукта в экономике, основывается на исследовании спроса на них и их предложения. Начнем с изучения факторов, влияющих на спрос потребителей на этом рынке.Прежде всего отметим, улучшение и восстановление здоровья требует определенных усилий и затрат ресурсов. Если рассуждать с точки зрения *домашних хозяйств*, прежде всего, прежде всего, это - время (потраченное на визиты к врачам, на упражнения и т.д.) и деньги (потраченные на врачи, лекарства, дорогие диеты и т.д.).

С точки зрения *государства*, это – земля, на которой необходимо строить медицинские учреждение, здания для соответствующих государственных институтов.Наконец, для *фирм*, занятых в этой отрасли – это и земля, и капитал, и трудовые ресурсы, которые необходимы для производства медицинской, техники, препаратов, и в конечном счете медицинских услуг.

Следуя канонической терминологии экономикса, обслуживание здоровья в результате затрат этих ресурсов мы будем называть производством здоровья. Таким образом, с точки зрения экономической теории медицинские услуги, это – продукция, производимая медицинским учреждениями.

1) Потребители предъявляют спрос не к здравоохранению, а к здоровью. Люди хотят здоровье, а медицинское обслуживание является ресурсом для его производства.
2) Потребители не просто пассивно покупают здоровье на рынке. В отличие от других продуктов, покупаемых ими, в случае со здоровьем они фактически участвуют в производстве собственного здоровья, тратя на это свое время, умственные ресурсы, иногда часть своего помещения и собственные трудовые ресурсы.

3) Произведенное таким образом здоровье длится долго. Если сравнивать с инвестициями, можно сказать, что это – проект, длящийся больше одного периода. А если рассмотреть здоровье как продукцию, можно сказать, что это продукция длительного пользования. Потому, что здоровье не обесценивается немедленно, поэтому оно может быть рассмотрено как инвестиционный товар (так же как и образование, дом, автомобиль, холодильник и т.д.).
4) Самое главное, возможно, здоровье может быть рассмотрено и как потребительский товар, так и как капитальный товар. Люди желают здоровья как потребительский товар, потому что оно позволяет им чувствовать себя лучше. Но здоровье желательно и как средство производства (т.е. как капитальный товар), потому, что оно увеличивает число здоровых дней, позволяющих работать и получать доход.

Такой подход дает возможность более системно исследовать детерминанты спроса и предложения на медицинские услуги. Известна огромная роль труда и капитала в формировании качества медицинских услуг. Часто эти факторы и оказываются в центре внимания, так как они являются экономическими ресурсами, т.е. продаются и покупаются. Но не меньшую важность представляют неэкономические факторы, среди которых особое место занимает время и усилия людей, которые они выделяют для производства собственного здоровья и здоровья тех, кто находится в их попечении (в частности, детей и стариков).

Медицинская инфляция - общая проблема для поддержания медицинских программ, и это одна из главных причин урезания государственных программ здравоохранения. Поэтому в исследованиях по экономике здравоохранения представляется важным понимание этого явления, с одной стороны, и оценка эффектов подобных мер, с другой стороны.

На фоне указанных высоких инфляционных процессов в сегменте медицинских услуг представляется закономерным тот факт, что в семьях с более высокими доходами наблюдается тенденция более интенсивного использования медицинского обслуживания. С другой стороны, имея возможность оплачивать профилактику, эта категория в состоянии уменьшить свою реальную потребность в медицинской помощи.

1. *Возраст*. Заболеваемость и являющаяся ее следствием потребность в здравоохранении меняется в зависимости от возраста. Наличие детей и пожилых людей в семье повышает частоту болезни, которая в свою очередь, увеличивает потребление медицинского обслуживания .
2. *Пол*. Дискриминация по половому признаку во многих обществах может быть главной причиной различия в использовании медицинских услуг мужчинами и женщинами .
3. *Размер семьи*. Эффект размера семьи на использовании медицинского обслуживания непредсказуем. У большой семьи есть более высокая частота заболеваемости по той простой причине, что у такой семьи больше потенциальных пациентов. Однако у такой семьи доход на душу меньше, чем в малочисленной семье с тем же уровнем дохода на семью. Это может уменьшить фактическое использование большой семьей медицинского обслуживания из-за более низкой покупательной способности. Кроме того, в большой семье в доме достаточно людей, чтобы заботиться о больном члене семьи. Это позволяет компенсировать больничный уход, а также сократить количество дней нахождения в ней .
4. *Доступность*. Для многих растущие цены значительно уменьшают доступность медицинских услуг. Финансовая доступность влияет на спрос на большинство товаров и услуг, вследствие чего появляется множество причин, почему у некоторых людей нет

медицинского страхования. Это факт, что число незастрахованных увеличивается. Так, в 2009-2010 гг. приблизительно 50 миллионов человек в Соединенных Штатах испытывали недостаток в медицинской страховке, а у еще большего количества населения имеющаяся страховка неудовлетворительна. Проблемы стоимости, инфляции и незастрахованных людей привели к многочисленным предложениям по формам государственного медицинского страхования .

5. *Образование*. Образованность может позволить человеку распознать ранние симптомы болезни, приводящей к большей готовности пациента искать раннее лечение. При этом пациент тратит больше на профилактические услуги и меньше на непосредственное лечение. Крайне важно образование матери, так как обычно она управляет домашним хозяйством. Например, в результате проведенного на Филиппинах исследования образование матери было сочтено важным в выявлении факта взятия ребенка на лечение: высокообразованные матери используют частную модемную практику в более чем 50 процентах случаев, в то время как наименее образованные матери выбирают этот тип только 25 процентов случаев
6. *Медицинское знание*. Медицинское знание и верования человека затрагивают его эффективность в поддержании личного здоровья через диету, гигиенические, и превентивные меры. Оно влияет и на правильный выбор медицинских учреждений.
7. *Расстояние до источника здравоохранения*. Расстояние - наиболее изученная помеха для потребления медицинских услуг. Чем более отдаленно медицинское учреждение от потенциальных пользователей, тем меньше вероятность того, что они его посетят *Медицинская потребность*. Спрос на здравоохранение основывается на чувстве человека потребности в медицинской помощи. Это - непосредственная причина решения обратиться за медицинской помощью
8. *Серьезность восприятия болезни*. В исследовании спроса, проведенном в , все респонденты, нуждающиеся в медицинских услугах, считали себя больными. Поэтому имеет больше смысла измерять медицинские потребности такими критериями, как тип болезни или серьезность ее восприятия пациентом.
9. *Качество*. Повышение качества медицинских услуг способствуют увеличению расходов на них. Чаще всего процесс повышения качества обеспечивается через выдачу профессиональных лицензий и сертификатов (в особенности на больницы) в рамках программ гарантии качества.
10. *Образ жизни*. Медицинские исследования показывают важность этого фактора для здоровья и, соответственно, для спроса на медицинские услуги.
11. *Социальный капитал*. Исследования выявили влияние семьи, друзей и общины на здоровье человека. Сеть социальных контактов человека или сложные перекрывающиеся сети в сообществе называют социальным капиталом. Политологи, социологи, медики и эпидемиологи заметили, что социальный капитал оказывает положительное воздействие на осуществление мер по улучшению здоровья отдельных индивидов и общества в целом.
12. *Окружающая среда*. Загрязнение окружающей среды является причиной заболеваний и смерти. В особенности оно опасно для пожилых людей и людей, восприимчивых к респираторным заболеваниям. Степень, до которой сокращения загрязнения улучшат здоровье населения, несколько менее ясна. Влияния загрязнения на здоровье

значительные и статистически значимы в эконометрических моделях как в промышленно развитых, так и в менее развитых странах

Ключевые слова: здравоохранение, медицинское страхование, детерминанты спроса, детерминанты предложения.

Литература

1. Grossman M. The Demand for Health: A Theoretical and Empirical Investigation. New York: Columbia, 1972.
2. Grossman M. On the Concept of Health Capital and the Demand for Health, Journal of Political Economy, 1972, 80: pp. 223–255.
3. Heller P.S. A Model of the Demand for Medical and Health Services in West Malaysia. - Discussion Paper No. 62, Center for Research on Economic Development Ann Arbor: University of Michigan, 1976.
4. Gertler P., Locay L., Sanderson W. Are User Fees Regressive? The Welfare Implications of Health Care Financing Proposals in Peru. Journal o f Econometrics 36 (1987), 67-88.
5. Acton J.P. Demand for Health Care Among the Urban the Urban Poor, with Special Emphasis on the Role of Time. In The Role of Health Insurance in the Health Services Sector. - New York: National Bureau of Economic Research, 1976.
6. Statistical Abstract of the United State, 1960-2009
7. Centers for Medicare and Medicaid Services, NHE Tables www.cms.gov/ National Health Expend Data/25_NHE_Fact_Sheet.asp (21 июнь, 2018)
8. Folland S., Goodman A. C., Stano M. The Economics of Health and Health Care. 7th Edition. Pearson, 2013, 625 p.
9. Ching P. Factors affecting the demand for health services in the Philippines. - Philippine institute for development studies, Working paper series no. 92-06, june 1992. 87 p.
10. Smith J.P. Socioeconomic Status and Health // American Economic Review 88 (1998): 192–196.
11. Currie J., Cole N. Welfare and Child Health: The Link between AFDC Participation and Birth Weight, American Economic Review 83 (1993): 971–985.
12. Currie J., Gruber J. Saving Babies: The Efficacy and Cost of Recent Changes in the Medicaid Eligibility of Pregnant Women," Journal of Political Economy 104 (1996): 1263–1296.

Səhiyyə xidmətləri bazari

Səhiyyə xidmətləri bazarı tələb və təklif amillərinin aşkarlanması baxımından tədqiq olunur. Bu bazarın spesifikliyinə xüsusi fikir verilir. Zaman, qiymət səviyyəsi, gəlir, yaş, tibbi sığorta, təhsil, ətraf mühit və sosial kapital kimi tələb determinantları ətraflı araşdırılır. Tibbi xidmətlərin mühüm təklif amili olaraq texnoloji inkişaf və hökumət subsidiyaları və dövlət təminatı tədqiq olunur.

"MƏN" OBRAZI VƏ MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAĞIN ÜNSİYYƏT TƏCRÜBƏSİ

Əlixanova Gülnarə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
gulnare.alixanova@mail.ru

Uşağın sağlam psixi inkişafı və sağlam böyüməsi, eyni zamanda onda adekvat "Mən" obrazının formalaşmasını tələb edir. Müxtəlif amillər sistemi bu prosesin həyata keçirilməsində iştirak edir. Uşaqda özünün obrazı onun fərdi təcrübəsi və başqa insanlarla ünsiyyətinin qarşılıqlı şəraitində təşəkkül tapır. Uşaqda "Mən"- obrazının formalaşması məktəbəqədər yaşa xeyli qalmış başlayır, belə ki, üç yaşa yaxın bir çox uşaqlar artıq öz imkanları barədə kifayət qədər aydın və dəqiq təsəvvürə malik olurlar.

Uşaqda yalnız onun fərdi təcrübəsi əsasında təzahür edən təsəvvürlər davamsızlığı və qeyri – dəqiqliyi ilə xarakterizə olunur. Bəzənuşaq yaşlıların qiymətverici təsirlərinə etinasızlıq da göstərə bilər. Uşaqlar inkişaf etdikcə mövcud təsəvvürlər daha əsaslı və davamlı xarakter alır. O, beş – yeddi yaşında olanda ətrafdakıların verdiyi qiymət şəxsi təcrübəsinin ona diqtə etdiyi nəticələrlə yekun prizmasından keçərək uşaq tərəfindən yalnız müəyyən ölçüdə qəbul edilə bilir [1].

Uşağın fərdi təcrübəsi nəticəsində qazandığı biliklər çox böyük konkretliyi ilə seçilir. Ona görə də məktəbəqədər yaşlı uşağın bu cür biliklərə əsaslanan təsəvvürləri, başqa insanlarla vasitəsiz ünsiyyət zamanı formalaşmış affektiv elementlərin geniş həcmdə mövcud olduğu təsəvvürlərdən daha emosional və ifadəli çalarlara malik olur.Uşağın fərdi təcrübəsinin əsas funksiyası öz obrazının, özü haqda faktiki biliklərin, öz xüsusiyyətlərinin və imkanlarının koqnitiv təminatından ibarətdir.

Böyüklərin uşaqlara hər hansı qiymətləndirici təsiri özündə emosional və dərketmə elementlərini birləşdirir, ona görə də onun diqqəti şəxsi davranışının yalnız yaxşı və ya pis tərəfinə istiqamətlənmir, həm də özü haqda təsəvvürlərin qurulmasında model rolunu oynayır. Bu münasibətlərdə yaşlının qiymətləndirici təsiretməsinin xarakteri, məktəbəqədər yaşlı uşaqda öz imkanları haqda təsəvvürlərin formalaşması prosesində müəyyən əhəmiyyətə malikdir [2].

Məktəbəqədər yaşlı uşağın özü haqda təsəvvürlərinin dəqiqlik səviyyəsi yaşlının dəyərləndirici təsirinin adekvat səviyyəsi ilə mütənasibdir. Yaşlılar tərəfindən azaldılmış qiymət uşaqlara öz hərəkətlərinin nəticəsini dəqiq qiymətləndirməsinə xüsusilə mənfi təsir göstərir. Bu cür vəziyyət uşaqda özünə inamsızlıq, münaqişə, ziddiyyət, hətta fəaliyyətdən imtina da yarada bilər.Eyni zamanda yaşlılar tərəfindən şişirdilmiş qiymət də məktəbəqədər yaşlı uşağın davranışına ikili təsir göstərə bilir:

- uşağın təsəvvürünü onun hərəkətlərinin nəticələrinin şişirdilməsi istiqamətində təhrif edir;
- onun qüvvəsini səfərbər edir, uşaqda yaxşı nəticələrin əldə edilməsinə inam və optimizm stimullaşdırır.

Məktəbəqədər yaşlı uşağın şəxsi təcrübəsi vasitəsilə öz imkanları barədə aldığı məlumat, onun ətrafdakılarla ünsiyyət təcrübəsində təsdiq olunduğu zaman, "Mən" obrazın formalaşması üçün

kontruktiv material təzahür edir. Ona görə də yaşlıların uşaqda,onun özü haqda obyektiv təsəvvürlərin yaradılmasında dəqiq qiymətləndirici təsirinin rolu çox böyükdür [3].

Böyüklərlə ünsiyyət təcrübəsi uşaq üçün qiymətverici təsiretmənin əsas mənbəyidir, çünkibu prosesin təsiri altında uşaqda real aləmə, onun özünə və başqa insanlara müvafiqmünasibət formalaşır. Bundan başqa, uşağın yaşlı ilə ünsiyyəti zamanıonun fərdi təcrübəsinin əsasınıtəşkil edən üç əsas funksiya yerinə yetirilir:

- ünsiyyət təcrübəsi uşağın qarşısında ünsiyyətin dərketmə məqsədini, bəzən isə öz fərdi təcrübəsinin verballaşmasını qoyur;
- bəzi hadisələrdə uşaqlara şəxsi təcrübədə müxtəlif tapşırıqların həlli vasitələrini təlqin edir;
- uşaqda cəmlənən təcrübənin sistemləşməsinə və ümümiləşdirilməsinə təsir göstərir.

Böyüklərlə ünsiyyət təcrübəsi uşaqlar üçün, yalnız səy göstərilə bilən, özünü etalon və ya idealla fərqləndirmə vasitəsi kimi də çıxış edir [5]. Məktəbəqədər yaşlının davranışının, böyüklərin qiymətləndirici təsiretməsindən asılılığı uşağın yaşına əks proporsionaldır: uşaq nə qədər kiçikdirsə, yaşlıların sözünü bir o qədər tənqidi qəbul edir və öz imkanları barədə təsəvvürü də bir o qədər az olaraq fəaliyyətin konkret nəticələrinə söykənir. Böyük məktəbəqədər yaşdayaşlı adam onun üçün daha nüfuzlu olur, lakin çox vaxtməktəbəqədər yaşlıuşağın qiymətləndirməsi onun şəxsi təcrübəsinin diqtə etdiyi nəticə və yekun prizmasından keçir.

Məktəbəqədər yaşlı uşaq nə qədər kiçikdirsə, yaşıdlarına verdiyi qiymət onun üçün çox əhəmiyyətlidir. Uşaqda formalaşma prosesində özünün yaşıdları ilə ünsiyyət təcrübəsinin imkanları barədə təsəvvürləri ilk növbədə, "məxluqa bənzətlərlə" fərqləndirmə kontekstidir ki, bu da mühüm kollektiv həyat bacarıqlarının mənimsənilməsinə xidmət edir [4]. Yaşıdlarla ünsiyyət eyni zamanda uşağın özünü yaşıdlarının gözü ilə görmək imkanı verən qiymətləndirici fikirlərin qarşılıqlı mübadilə vasitəsidir.

"Mən" obrazının düzgün formalaşması uşaqda özü haqqında dəqiq təsəvvürlərinin yaranması, onun fərdi təcrübəsinin harmonik uyğunluğu, başqa adamlarla ünsiyyəti vasitəsilə toplanan özü haqda bilik və qiymətləndirmə ilətəxmin edilir. Əgər mövcud harmoniya fərdi təcrübənin kasadlığından və ya uşağın ətrafdakılarla əlverişsiz ünsiyyət şəraiti gücünə görə pozularsa,o zaman onun özü haqda təsəvvürləri tədricən ya çoxalma, ya da azalma tərəfə təhrif olunacaqdır.

Açar sözlər: "Mən" obraz, ünsiyyət təcrübəsi, təsiretmə, mübadilə, harmoniya.

Ədəbiyyat

1. Bayramov Ə. S., Əlizadə Ə. Ə. Sosial psixologiya. Baki: Maarif, 2003.
2. Çələbiyev. N.Z. Uşaq psixologiyası. Bakı:ADPU, 2005.
3. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
4. Агапов В. С. Сущностная характеристика Я-концепции, М:МГСА, 2002.
5. Реан. А.А. Психология детства. СПб.: Прайм – ЕВРОЗНАК, 2008.

1918-ci İL MART SOYQIRIMI

Əliyev Fərid
Azərbaycan Universiteti
fridliyev.1997@mail.ru

Tarixin müxtəlif mərhələlərində ermənilər öz Böyük Ermənistan ideyalarını həyata keçirmək məqsədi ilə soydaşlarımıza qarşı etnik təmizləmə və soyqırımlar həyata keçirmişlər. Bunlardan ən faciəlisi isə 1918-ci il mart-aprel aylarında Bakı Sovetinin tabeçiliyində olan daşnak-bolşevik silahlı dəstələrinin törətdikləri kütləvi qırğınlardır. Heç bir sosial dayağı olmayan bolşeviklər daşnak qrupları ilə yaxınlaşmağa başladı. Bolşeviklərin nüfuzunun az olmasını 1917-ci il Bakı Sovetinə keçirilən seçkilərdə aydın göstərirdi. Seçkilərdə Müsavat partiyası böyük üstünlüklə qalib gəlmişdi. Müsavatın siyasi hakimiyyət uğrunda mübarizəsi bolşevikləri çox narahat edirdi. S.Şaumyan Müsavat partiyasının sosial dayağını zəiflətmək və milli azadlıq hərəkatını öncədən boğmaq məqsədi ilə azərbaycanlılara qarşı milli qırğın hazırlıqına başladı. Hətta S.Şaumyan Qafqazda Qırmızı ordu təşkili üçün Moskvadan 10 milyon rubl göndərilməsini xahiş etmişdi. Lakin bu yardım Bakı Sovetinə edilməsədə Moskavadan böyük mənəvi dəstək alırdı. Birinci Dünya müharibəsindən geri dönən ordu hissələrində qulluq edən erməni əsgər və zabitlər Bakıda toplaşırdılar. S.Şaumyanın təşkil etdiyi Qırmızı ordunun tərkibi demək olarki ermənilərdən ibarət idi. Soyqırımın təşkili üçün ilk olaraq S.Şaumyana bir bəhanə lazım idi. S.Şaumyan ilk olaraq Müsavatın əyalətlərdə olan siyasi üstünlüklərini zəiflətmək üçün tədbirlərə başladı. İlk təxribat kimi Müsəlman korpusunun generalı Əsəd bəy Talışinskinin Bakıda həbs olunması idi. Şaumyanın bu göstərişi müsəlman əhalisi arasında böyük etiraza səbəb oldu. Digər bir təxribat isə "Evelina" gəmisinin tərksilah olunması ilə davam etdirildi. Azərbaycan xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd Tağıyevin Bakıda keçirilən dəfn mərasiminə gələn müsəlman alayının əsgər və zabitləri Lənkərana geri dönərkən "Evelina" gəmisində tərksilah olundular.Məscidə toplaşan əhali tez bir zamanda silahların yenidən əsgərlər qaytarılmasını tələb edirdilər.Müsavatçılar alınan silahların geri qaytarılmasını tələb edən bir ultiumatumu İnqilabi müdafiə komitəsinə göndərdilər. N.Nərimanovun evində keçirilən təcili müşavirədə silahların Hümmət təşkilatı vasitəsilə geri qaytarılması qərara alındı. Hətta bolşevik Caparidze silahların qaytarılmasına söz versədə bu mümkün olmadı. Küçədə təxribat məqsədi ilə atışma başladı. Bu da Şaumyanın qırğınla bağlı bəhanələr tapmaq məqsədi ilə hazırladığı təxribatlardan idi. Özlərini bitərəf elan edən Erməni milli şurasıda tabeliyində olan ordu sıraları ilə birlikdə Şaumyanın tərəfinə yer aldı. Martın 31də səhər saatlarına yaxın bir vaxtda ermənilər müsəlman məhəllələrinə tərəf hücuma keçdilər. Kərpiçxana, Məmmədli, Zibilli Dərə Bakı şəhərinin ilk qırğına məruz qalan hissələri idi. Xəzər dənizində olan rus gəmiləri erməni daşnaklarının şaiyələrinə inanaraq Bakının müsəlman əhalisinin yaşadığı əraziləri top atəşinə tutdular. Amma sonradan bunun şaiyə olduqunu bilib atəşi dayandırdılar. Bu top atəşləri nəticəsində Təzə pir məscidinin minarələri dağıdıldı. Azərbaycan Milli Hökümətinin sədri Seyid Cəfər Pişəvəri Bakıdakı soyqırımı "Bakıdakı ilk Sovet hökümətin müqəddəratı" adlı məqaləsində təsvir edir və yazırdı:

"Mən daşnakların vəhşiliklərini,saysız-hesabsız günahsız insanların və bitərəf iranlıların karvansaralarda öldürülüb yandırılmasını öz gözlərimlə görmüşdüm. Bu çox faciəli və nifrət doğuran hadisələrdir" [4].

Ermənilər dinc əhaliyə qarşı tarix boyu görülməmiş faciələr törədirdilər. 3-4 günlük südəmər körpələri amansızcasına öldürüb yanan binalara atır, qaçan insanları güllə atəşinə tutur, diri diri gənc qadınları divara mismarlayırdılar. Əhalinin az ya da çox qiymətli nəyi var idisə hamısını yağmalayırdılar.

Bakıda qırğınlar davam etdiyi vaxta qəzalarda da ermənilər öz mənfur əməllərini davam etdirirdilər. Bakıdan Şamaxıya göndərilən silahlı dəstə yol boyu qarşılarına çıxan bütün müsəlman kəndlərini dağıdırdılar. 1919-cu ildə martın 30-da Bakıda nəşr olunan Azərbaycan qazetində "Şamaxının son günləri" adı altında bir yazı çap olunur. Burada Şamaxıda törədilən soyqırımın faciələri öz əksini tapır. Bu yazıda həmən dövürdə molokanlar və yəhudilər arasında əks-müsəlman təbliğatının olduğu yazılır. Guya ki, müsəlmanlar onlara qarşı hazırlanılır və onlara qarşı soyqırım törədiləcəkdir. Halbuki illərdir bir yerdə yaşayan bu əhali heç zaman öz aralarında münaqişə yaşamamışdır. Hətta bu çətin vaxta rus əsgərləri Şamaxını tərk edərkən öz silahlarını erməni quldur dəstələrinə təhvil verirdilər. Cəbhədən qayıdan erməni əsgər və zabitləri özləri ilə 1 yox 2 silah gətirərək digər ermənilərı də silahlandırırdılar. Saatzazbekov və Samson Aspirov birlikdə bir erməni dəstə ilə Şamaxıya gəlmişdi. Fövqəladə Təhqiqat Komissiyasının sənədlərində bu hadisənin şahidləri olan insanların dedikləri qeyd olunub [3]. Onlar ermənilərin əhalinin ibadətgah yeri olduğu cümə məscidinin yandırılması və insanların bu məscidlərə gizləndiyini bilib ora od vurub qaçanları güllələməsini gözləri ilə gördüklərini danışmışlar. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan ulu öndər M.Ə.Rəsulzadə qeyd edirdi: "Şirvanşahların paytaxtı olan bu qədim şəhər bir hücumda atəşə verildi və insanların qədim cümə məscidi yandırıldı. Yalniz erməni məhəlləsinə toxunulmadı. Bu faciəyə Şamaxı kimi Salyan,Lənkəran,Nəvahi, Kürdəmir,Quba qəzaları və bir neçə qəsəbələrimiz də məruz qalmışdı" [1].

Mart soyqırımları nəticəsində öldürülənlərin sayı dəqiq bilinmir. Təqribi hesablamalara əsasən Bakıda 15-20 min, Şamaxıda 7 min, Qubada 6 min nəfər öldürülmüşdür. Soyqırım zamanı milli mətbuat,mətbəələr və jurnalistlərdə ermənilərin hədəfində idi. Soyqırıma qədər Azərbaycanda 20-dən artıq milli mətbuat orqanları fəaliyyətdə idisə artıq soyqırımdan sonra yalnız 2 mətbuat orqanı Hümmət və Bakı Şurasının əxbarı-na icazə verilmişdi [2]. Digər mətbəələrə qadağa qoyulmuşdu. Bakı Sovetinin sədri S.Şaumyan əmri ilə "Mart soyqırımlarına düzgün qiymət verilməməsinə və vahid cəbhədə olmadıqlarına görə " bir çox mətbuat orqanlarımızın fəaliyyəti sonlandırıldı. 1918-ci il sentyabrın 15-i tarixinədək milli mətbuatımız dövrünün ən acınacaqlı iflic dövrünü yaşadı.

Milli Azadlıq Hərəkatı zamanı Azərbaycanın milli demokratları Rusiya daxilində milli-məhəlli muxtariyyət mövqeyindən çıxış edirdilərsə artıq bu soyqırımlardan sonra əhali arasında sovetlərə qarşı böyük nifrət formalaşdı və müstəqillik əzmi güclənməyə başladı.

Açar sözlər: mart soyqırımı, milli azadlıq hərəkatı, müsavat partiyası.

Ədəbiyyat

1. Altstadt 1992, səh.85.
2. Aşırlı, Akif (2011). 31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında səh.5.
3. Bakü katliamı Gerçeği (31 Mart-1 Nisan 1918).
4. Vaqif Abışov – Azərbaycanlıların soyqırımı (1917-1918) səh.94.

STURM-LIOUVILLE PROBLEMS WITH EIGENVALUE DEPENDENT BOUNDARY CONDITIONS

Aliyev Yagub
School of IT and Engineering, ADA University
ynaliyev@ada.edu.az

We study the following Sturm-Liouville problem

$$-y'' + q(x)y = \lambda y, \quad 0 < x < 1,$$
$$y(0)\cos\beta = y'(0)\sin\beta,$$
$$y'(1) = \frac{y(1)}{c\lambda + d},$$

where λ – spectral parameter, $0 \le \beta < \pi$, $q(x)$ – real function from $C[0,1]$ and c, d – real constants. It is known that this boundary value problem has infinite number of eigenvalues λ_n $(n \ge 0)$ which we shall order so that their real parts do not decrease and one of the following four cases are possible [1]:

(a) all the eigenvalues are real and simple;
(b) all the eigenvalues are real and all, except one double eigenvalue, are simple;
(c) all the eigenvalues are real and all, except one triple eigenvalue, are simple;
(d) all the eigenvalues are simple and all, except a pair of conjugate nonreal complex eigenvalues, are real.

We study the basis properties of various combinations of eigenvectors and associated vectors in L_2 and L_p. Similar study for the case of special rational function, quadratic function and linear function was done by the author in his previous papers.

Keywords: Sturm-Liouville, Basis, Minimality.

References

1. Paul Binding, Patrick J. Browne, Application of two parameter eigencurves to Sturm–Liouville problems with eigenparameter-dependent boundary conditions, January 1995, Proceedings of the Royal Society of Edinburgh Section A Mathematics 125(06):1205 – 1218.

Məxsusi ədəddən asılı sərhəd şərtli Şturm-Liuvil məsələləri

Məqalədə bir sinif Şturm-Liuvil məsələsinin bazislik xassələri araşdırılır. Biortoqonal sistem aşkar şəkildə qurularaq minimallıq isbat olunur. Məxsusi və qoşulmuş funksiyaların müxtəlif seçimlərinə baxılır. Göstərilir ki, bəzi hallarda minimallıq xassəsi pozulur. Bu halların tapılması üçün zəruri və kafi şərtlər verilir.

PAULİ OPERATORUNUN MƏXSUSİ ƏDƏDLƏRİNİN FUNKSİYASI ÜÇÜN MİNİMALLAŞDIRMA MƏSƏLƏSİ

Əliyeva Aynurə
Sumqayıt Dövlət Universiteti
aynura.sdu@gmail.com

Məlumdur ki, müxtəlif operatorların məxsusi ədədləri müxtəlif fiziki proseslərin və təbiət hadisələrinin müəyyən parametrlərini təsvir edir. Bəzən bu prosesləri modelləşdirərkən, onların baş verdiyi mühitin həndəsəsini də nəzərə almaq tələb olunur. Bir çox hallarda isə prosesin baş verdiyi oblastın özü qeyd olunmur və dəyişən parameter kimi modelə daxil olur. Belə məsələr dəyişən oblastlı məsələlər adlanır. Prosesin hansısa parametrini oblasta nəzərən minimallaşdırmaq (maksimallaşdırmaq) tələb edildikdə isə belə məsələlər oblasta görə optimallaşırma məsələləri (shape optimization) adlanırlar. Bu zaman baxılan fuksionalın arqumentində ənənəvi hallardan fərqli olaraq funksiyalar deyil, oblast dayandığından, belə məsələlərin həlli ciddi riyazi çətinliklərlə bağlıdır [2-3].

İşdə biz Şrödinger operatorunun ümumiləşməsi olan və kvant mexanikasında geniş tətbiq edilən Pauli operatorunun məxsusi ədədlərinin funksiyası üçün qoyulmuş oblasta nəzərən miimallaşdırma məsələsinə baxacağıq.

Aşağıdakı məxsusi ədəd məsələsinə baxaq

$$P\varphi = \lambda\varphi\ , \qquad x \in D\ , \tag{1}$$

$$\varphi = 0, \qquad x \in S_D\ . \tag{2}$$

Burada P aşağıdakı kimi təyin edilmiş Pauli operatorudur

$$P = P(a,v)\cdot J + \sigma B\,, \tag{3}$$

harada ki, $J = \begin{pmatrix} 1 & 0 \\ 0 & 1 \end{pmatrix}$, $\sigma = \begin{pmatrix} 1 & 0 \\ 0 & -1 \end{pmatrix}$, $P = (a,v) = (-i\nabla - a)^2 + V$; i - xəyali vahid; V - kifayət qədər hamar funksiya; $\nabla = \left\{\dfrac{\partial}{\partial x}, \dfrac{\partial}{\partial y}\right\}$; $a = (a_1, a_2) \in R^2$ - vector potensial; B isə a vector potensialın doğurduğu maqnit sahəsidir

$$B = \frac{\partial}{\partial x}a_2 - \frac{\partial}{\partial y}a_1\,.$$

Bütün bu işarələmələri nəzrə alsaq, onda ikiölçülü Pauli operatorunu aşağıdakı şəkildə yazmaq olar

$$P = \begin{pmatrix} (-i\nabla - a)^2 + a_2\dfrac{\partial}{\partial x} - a_1\dfrac{\partial}{\partial y} + V & 0 \\ 0 & (-i\nabla - a)^2 - a_2\dfrac{\partial}{\partial x} + a_1\dfrac{\partial}{\partial y} + V \end{pmatrix} =$$

$$= \begin{pmatrix} -\Delta + (2ia_1 + a_2)\dfrac{\partial}{\partial x} + (2ia_2 - a_1)\dfrac{\partial}{\partial y} + a^2 + V & 0 \\ 0 & -\Delta + (2ia_1 - a_2)\dfrac{\partial}{\partial x} + (2ia_2 + a_1)\dfrac{\partial}{\partial y} + a^2 + V \end{pmatrix}. \tag{4}$$

Ω ilə R^2-nin verilmiş məhdud açıq altçoxluğunu, K ilə isə Ω-nın bütün kvazi açıq altçoxluqları çoxluğunu işarə edək. Tutaq ki, K_c çoxluğu Ω-nın Lebeq ölçüsü c olan altçoxluqları çoxluğudur.

Biz burada K_c çoxluğunda Pauli operatorunun ilk iki məxsusi ədədindən asılı olan funksiya üçün aşağıdakı məsələyə baxacağıq:

$$\min\{F(K), K \in K_c\}. \tag{5}$$

Burada

$$F(K) = f(\lambda_1(K), \lambda_2(K)),$$

Harada ki, f kəsilməz, mənfi olmayan funksiya, $\lambda_1(K)$ və $\lambda_2(K)$ isə P operatorunun K oblastında uyğun olaraq birinci və ikinci məxsusi ədədləridir. R^2- nin aşağıdakı altçoxluğunu daxil edək

$$E_c = \{(x, y) \in R^2 : x = \lambda_1(K), y = \lambda_2(K), K \in K_c\}.$$

Onda (5) məsələsini bu formada yazmaq olar

$$\min\{f(x, y) : (x, y) \in E_c\}.$$

Buradan alınır ki, E_c çoxluğunun R^2-də qapalı olması çox vacib informasiya verə bilər, çünki bu halda (5) məsələsinin həllinin olması buradan birbaşa nəticə kimi çıxır. İşdə aşağıdakı teorem isbat olunur.

Theorem. Tutaq ki, $c \in [0, |\Omega|]$. Onda E_c qapalı çoxluqdur.

Açar sözlər: Pauli operatoru, məxsusi ədəd, minimallaşdırma məsələsi.

Ədəbiyyat

1. Cycon, H. L., Froese, R. G., Kirsch, W., & Simon, B. Schrödinger Operators: With Application to Quantum Mechanics and Global Geometry. Springer, 2009.
2. Gasimov Y.S. Some shape optimization problems for the eigenvalues. J. Phys. A: Math. Theor., Vol.41, No.5, 2008, pp.521-529.
3. Gasimov Y.S., On a shape design problem for one spectral functional.Journal of Inverse and Ill-Posed Problems, Vol.21, No.5, 2013, pp.629-637.

GƏNCLƏRİN SOSİAL MÜDAFİƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Əliyeva Fizzə
Azərbaycan Universiteti
ulkhanlnezrin@gmail.com

Bir cəmiyyətin tərəqqisi, yüksəlişi onun ideal və innovativ düşüncəyə, dünyagörüşünə malik gənc nəslinin yetişməsindən bilavasitə asılıdır. Sağlam və möhkəm əqidəyə və ruha sahib olan dövlətin, cəmiyyətin gəncləri hər zaman qarşıya çıxan maneələrə rahatlıqla sinə gərə, beynəlxalq arenada öz gücünü göstərə, həmçinin ölkənin adının daha da üstün zirvələrə daşınmasında böyük pay sahibi ola bilər [2]. Bu xüsusda gənclərin önünü açmaq, onlar üçün əlverişli şərait yaratmaq, hüquq və azadlıqlarının təmin olunması istiqamətində prioritet məsələləri birmənalı şəkildə həyata keçirilmək hər bir dövlətin üzərinə düşən ümdə vəzifələrdəndir. Məhz bu amilləri nəzərə alaraq

ölkəmizdə sosial siyasətin tərkib hissəsi kimi gənclər siyasəti uğurla və müvəffəqiyyətlə həyata keçirilir. Əsası Ümumillilider Heydər Əliyevin təkrarsız islahatları ərəfəsində qoyulan və cənab Prezident İlham Əliyev tərəfindən davam etdirilən gənclər siyasəti ölkəmizin sərhədləri daxilində yaşayan, həmçinin xaricdə yaşayan, təhsil alan bütün gəncləri əhatə edir [1].

Azərbaycan Respublikasının müstəqillik dövründən başlayaraq fasiləsiz və davamlı şəkildə reallaşan gənclər siyasəti Azərbaycan gəncliyinin ictimai və beynəlxalq arenada iştirakını və yüksəlişini, bilik və bacarıqlarının, potensiallarının artırılmasını, cəmiyyət həyatının hər bir sahəsində aktiv iştirakını, gənclərimizin hərtərəfli inkişafının bütün aspektlərini özündə birləşdirir. İndi isə mən gənclər siyasətinin ana xəttini təşkil edən gənclərin inkişafı istiqamətində əsas rol oynayan, onların cəmiyyət içərisində varlığını və spesifikliyini şərh edən gənclərin sosial müdafiəsi və onun özünəməxsus xüsusiyyətləri haqqında məsələləri ifadə etmək istəyirəm. Sosial müdafiə anlayışı çox mürəkkəb və geniş əhatəli anlayışdır. Sosial müdafiə insanın fəaliyyətinə minimum təminatı təmin edilməsi üçün cəmiyyət və onun müxtəlif strukturları tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Gənclərin sosial müdafiəsi də bilavasitə onların problemlərinin həlli ilə bağlıdır. Dünyada müasir gəncliyin problemləri sırasına gənclərin sağlamlıq vəziyyətlərinin xeyli pisləşməsi, fiziki, mənəvi, zehni, reproduktiv sağlamlıqda meydana gələn ciddi problemlər, gənclərin demoqrafik problemləri məsələsi, yəni yaşlı nəslin sayının gənc nəslə nisbətdə çoxalması, doğuş sayının azalması, gənclərin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, stressogen amillərin təsiri, ekoloji məsələlərin təsiri, intihar hallarının gənclər arasında artması, gənclər arasında zorakılıq meyllərinin yüksək həddə çatması, yoluxucu xəstəliklərin gənclər arasında yayqın formada yayılması, boşanmalar, siqaretin, alkoqolizmin, narkomaniya və toksikomiyanın və digər psixotrop maddələrin gənclərə təsiri, əmək sahəsində gənclərin mövcud problemlərinin yaranması – təhsilsizlik, xüsusi və ödənişli təhsilin əlçatanlılıq səviyyəsinin çətin olması, ali məktəbi bitirdikdən sonra işin, ən əsası ixtisas üzrə işin tapılmaması, gənclərdə əzbərçilik metodunun üstünlük təşkil etməsi, gənclərin hüquqlarının və azadlıqlarının bəzi hallarda məhdudlaşdırılması və s. bu kimi digər problemlər gənclərin aparıcı problemləri kimi şərh oluna bilər [2, 3]. Ölkəmizdə bu kimi problemlər daim araşdırılır və profilaktikası, həlli yolu istiqamətində həm dövlət, həm də digər qeyri-dövlət təşkilatları öz güclərini və mövcud resurslarını səfərbər edirlər.

"Gənclər siyasəti haqqında" Qanun (9 aprel 2002),"Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (15 sentyabr 2017), "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyasnın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında (26 yanvar 2015) gənclərin bir vətəndaş kimi hüquq və azadlıqlarının təmin olunması və bu əsasdan çıxış edərək problemlərin təsbiti və təhlili, sosial müdafiənin təşkili məsələləri geniş şəkildə şərh olunmuşdur [1, 4]. Dövlət sosial müdafiəyə ehtiyacı olan gənclərin yaradıcılıq potensialının inkişafı, iş yeri və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün imkanlar yaradır, sosial dəstəyin müvafiq modellərini tətbiq edir, habelə risk qrupunda olan gənclərin sosial adaptasiyası üçün tədbirlər kompleksini həyata keçirir. Gənclərin ahəngdar şəxsiyyət kimi inkişafı, onlara tibbi, psixoloji, pedaqoji, sosial, hüquqi yardımların göstərilməsi istiqamətində qabaqlayıcı tədbirlər planını hazırlayır və reallaşdırır. Bu kateqoriyaya daxil olan aztəminatlı gənclərin, gənc ailələrin mənzil-məişət şəraitini bərpa etdirir, güzəştli ipoteka kreditləri təşkil edir, gənclərin məşğulluq problemlərinin həll olunması üçün gənc sahibkarlara dəstək olur, sahibkarlıq şüurunu formalaşdırır, gənc fermerləri torpaq sahəsi ilə təmin edir, yerlərdə, bölgələrə yaşayan gənclərə özünəməşğulluq proqramı çərçivəsində öz maddi dəstəyini daim göstərir. İnformasiya əsrində, postindustrial dövrdə

yaşadığımız üçün müasir informasiya texnologiyaları, sosial şəbəkə və multimedia vasitələrindən gənclərin səmərəli istifadəsi istiqamətində imkanlar artırılır, saxta profilli məlumatların geniş sürətdə internet məkanında yayılmaması aspektində gənclər daim maarifləndirilir, onlarda vətənpərvərlik, azərbaycançılıq idealları möhkəmləndirilir, müvafiq sahələr üzrə təlim kursları keçirilir, gənclər siyasətinə töhfə verən gənclər təşkilatlarının işini dövlət stimullaşdırır, onları hər cür şəraitlə təmin edir, gənclər mərkəzləri və evləri gənclərin maarifləndirilməsi,işini formalaşdırır. Gənclərin hüquqlarının qorunması, hər bir gəncin şəxsi həyatının toxunulmazlığı, konfidensiallığı qorunur, şərəf və layəqətlərinin alçaldılmaması, səslərini, fikirlərini azad şəkildə ifadə etmələri istiqamətində şəffaflıq yaradılır. Xüsusən çətin həyat şəraitində olan, sağlamlıq imkanları məhdud, çətin tərbiyə olunan, sosial təhlükəli gənclərin, küçə həyatına məruz qalan uşaq və gənclərin, cəzaçəkmə müəssisələrindən tərxis olunmuş gənclərin sosial müdafiəsinə və problemlərinə də dövlət maksimum həssaslıqla yanaşır. Bu kateqoriyalara daxil olan gənclərin ilk olaraq təsbit olunması, sosial xidmətə ehtiyacın qiymətləndirilməsi, sosial xidmət müəssisələrinə qəbulu, diaqnozun qoyulması, sosial və fiziki reablilitasiya, profilaktik tədbirlərin görülməsi, sosial, hüquqi, pedaqji, tibbi yardımların göstərilməsi, mənəvi dəstəyin həyata keçirilməsi, sosial adaptasiya məsələləri, terapiyanın müxtəlif növlərinin (fiziki, sosial, artterapiya və s.) tətbiq olunması məsələləri buraya daxildir. Gənclərin incəsənətə və idmana olan maraqlarını nəzərə alaraq gənclərin yaradıcı fəaliyyətlərinin dəstəklənməsi, mədəniyyət və incəsənət (musiqi, rəqs, rəssamlıq, ədəbiyyat, teatr, kino, memarlıq və s.) sahəsində gənc istedadlar üçün festival, müsabiqə, yay məktəbi, konsert proqramları və digər tədbirlərin təşkili, istedadlı və yaradıcı gənclərin nailiyyətlərinin ölkədə və onun hüdudlarından kənarda təbliğ edilməsi, idman tədbirlərinin keçirilməsi, gənclər idmanın müxtəlif sahələrində uğurlarının mükafatlandırılması və digər stimullaşdırıcı tədbirlərin kompleks təşkilini reallaşdırmaq da mühüm addımlar arasında yer tutur.

Bu gün Azərbaycan gəncliyi dayanmadan öz üzərində işləyir. İnkişaf və sosial rifah naminə hər bir gənc öz üzərinə düşən bütün öhdəlik və vəzifələri lazımınca yerinə yetirməli, dövlətin müəyyən etdiyi standartlar çərçivəsindən kənara çıxmayaraq üst qurumlarda, beynəlxalq məkanda dövləti təmsil etməlidirlər. Ümumilli liderimiz Heydər Əliyev və cənab Prezident İlham Əliyev gənc nəsli daim diqqət mərkəzində saxlamış, onların fəaliyyətini yüksək qiymətləndirmiş və onların dövlət-idarəetmə strukturlarında fəaliyyətlərini daim dəstəkləmişlər. Əbəs yerə deyildir ki, ötən ilin oktyabr ayında həyata keçirilən kadr islahatlarında gənc nəslə şərait yaradılmış, onların hakimiyyətin üst qurumlarında vəzifəyə təyin olunması idarəetmə sisteminə gənc nəfəs gətirmişdir. Həmçinin gənclərimiz də göstərilən bu qayğıya, edilən bu etimadlara biganə qalmayıb, qeyd-şərtsiz bütün məsələləri həyata keçirməlidirlər. Daim irəliləmək, davamlı, fasiləsiz tərəqqiyə nail olmaq, prezidentin ətrafında sıx birləşmək və cəmiyyətin rifahı üçün bütün gücləri birləşdirmək lazımdır.

Açar sözlər: sosial müdafiə, gənclər siyasəti, sosial inkişaf.

Ədəbiyyat

1. “Gənclər siyasəti haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 9 aprel 2002-ci il. №297-II.
2. E.Ə.Qəhrəmanov, Y.P.Əhmədov. Sosial işin əsasları. (Dərs vəsaiti). Bakı, “B-print”, 2014, s-488.

İRƏVAN QUBERNİYASININ MÜSƏLMAN-TÜRK QAÇQINLARINA AXC-nin YARDIMLARI

Könül Əliyeva
AMEA Tarix İnstitutu
Konulqabilqizi@mail.ru

1918-1920-ci illərdə Ermənistan Respublikasının dövlət səviyyəsində apardığı etnik təmizləmə siyasəti İrəvan quberniyasının yerli azərbaycanlı əhalisi üçün fəlakətlər doğurdu. Dinc insanlar, xüsusən də qadın, uşaq və qocalar doğma yurdlarından qovuldular, qətl və qarətlərə məruz qaldılar. Bu son dərəcə ağır zamanda AXC hökuməti bütün mümkün vasitələrlə İrəvan quberniyasının azərbaycanlı əhalisinin hüquqlarını müdafiə etməyə çalışır, qaçqınlara pul, ərzaq və paltar yardımları göndərirdi. Təqdim edilən məruzədə AXC Himayəçilik nazirliyi vasitəsi ilə İrəvan quberniyasından olan müsəlman qaçqınlara yardımlardan bəhs edilmişdir.

Birinci dünya müharibəsi başlandıqdan dərhal sonra erməni qatı millətçi xadimləri, Daşnaksutyun partiyası rəhbərləri, erməni-qriqorian kilsəsi Osmanlı imperiyasının şərq vilayətlərində və Rusiya imperiyasının Qafqazdakı mülklərində, o cümlədən İrəvan quberniyasında "Erməni muxtariyyəti" yaratmaq üçün hərəkətə keçdilər. Bu qüvvələr həmin bölgələrdə müsəlman-türk əhalini kütləvi məhv etmək, köçüb getməyə məcbur etmək üçün geniş fəaliyyətə başladılar. Onların məqsədi müharibədən sonra həmin ərazilərdə yalnız ermənilərin yaşamasını təmin etmək və "Erməni muxtariyyəti", daha sonra da müstəqil "Böyük Ermənistan" yaradılmasına nail olmaq idi.

Ermənilərin bu məkrli planı 1917-ci il Fevral inqilabından sonra Müvəqqəti hökumətin və onun Cənubi Qafqazı idarə etmək üçün yaratdığı Xüsusi Komitənin zəifliyi, Qafqaz cəbhəsində nizam-intizamın pozulması hesabına geniş miqyas aldı. Erməni silahlı dəstələri Şərqi Anadoluda, Cənub-qərbi Qafqazda, o cümlədən İqdır (Sürməli) bölgəsində kütləvi şəkildə dinc müsəlman əhalini qırmağa, yaşayış məntəqələrini talan etməyə, yandırmağa və dağıtmağa başladılar. Nizami Osmanlı ordusu qarşısında tab gətirməyib qaçan erməni hərbçiləri yolları üzərindəki müsəlman-türk əhaliyə qəddarlıqla divan tutdular, kütləvi qətl və qarətlər törətdilər.

1918-ci ilin mayında Ermənistan Respublikasının yaranmasından sonra dövlət səviyyəsində etnik təmizləmə siyasəti yeridilməsi İrəvan quberniyasının yerli azərbaycanlı əhalisi üçün fəlakətlərin miqyasını dəfələrlə artırdı. Dinc insanların, xüsusən də qadın, uşaq və qocaların doğma yurdlarından qovulması, qətl və qarətlərə məruz qalması buradakı azərbaycanlı əhalini kütləvi məhv olmaq təhlükəsi ilə üz-üzə qoydu. Bu son dərəcə ağır zamanda AXC hökuməti bütün mümkün vasitələrlə İrəvan quberniyasının azərbaycanlı əhalisinin hüquqlarını müdafiə etməyə çalışır, qaçqınlara pul, ərzaq və paltar yardımları göndərirdi. Təqdim edilən məruzədə 1918-1920-ci illərdə AXC Himayəçilik nazirliyi vasitəsi ilə İrəvan quberniyasından olan müsəlman qaçqınlara yardımlardan bəhs edilmişdir.

1919-cu il iyulun 9-da Himayəçilik naziri V.Klenovskinin 3462 saylı əmri ilə nazirliyin Xüsusi tapşırıqlar üzrə məmuru Teymur bəy Vəkilov Ağstafa stansiyasına ezam edildi. O, Yevlaxdan Ermənistandakı müsəlman-türk qaçqınlar üçün göndərilən10 vaqon ərzağı Ağstafa stansiyasında qəbul edib gömrük rüsumu ödənilmədən, təcili surətdə yola salınmasını təşkil etdi.Daha sonra bu vaqonları Sanain stansiyasına kimi müşayiət edib oradan İrəvana kimi daşınma xərcini ödədi [1, siy.1, iş 13, v.36-37].

Himayəçilik nazirliyi Qaçqın şöbəsinin rəisi EmilŞmerlinq 1919-cu il iyulun 10-da Himayəçilik nazirinə raport verdi ki, Ermənistandakı qaçqınlar üçün əlavə taxıl alınıb göndərilməsi tapşırığını yerinə yetirmişdir [1, siy.1, iş 13, v.41].

AXC hökuməti bu dövrdə qaçqınlara həm də paltar yardımı göstərilməsini təşkil etdi. Bu məqsədlə iyulun 24-də Himayəçilik nazirliyi Qaçqın şöbəsinin rəisi Emil Şmerlinq və nəzarətçi Dmitri Perşke Batuma ezam edildi. Onlar Batumdan 75 min adama, hər nəfərə 10 arşın hesabı ilə, 750 min arşın parça almalı idilər. Bu məqsəd üçün Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəliyinin hesabına 3 milyon manat vəsait köçürüldü [1, siy.1, iş 13, v.45].

Himayəçilik nazirliyi qaçqınlar üçün parça alınması üçün daha iki nümayəndəsini: X.b.Quliyev və M.a.Vəkilovu avqustun 3-də Ənzəliyə ezam etmişdi. Onlar AXC hökumətinin İrana göndərdiyi ağ nefti satıb, əvəzinə parça almalı idilər [1, siy.1, iş 13, v.60].

1919-cu ilin avqust ayında Ermənistan hərbi qüvvələri Sürməli və Eçmiədzin qəzalarında yeni əməliyyatlara başladı. Qısa müddət ərzində 60-dan çox kənd qarət edildi və dağıdıldı. Bu kəndlərin bütün kişi əhalisi və gözəl qadınları erməni silahlı dəstələri tərəfindən aparıldı. Ermənilərin bu hücumuna başçılıq edən Ermənistan Hərbi nazirinin müavini Dro erməni dəstələrinin zorakılıqlarını, qətl və qarətlərinə "strateji zərurət" kimi haqq qazandırdı. Guya ermənilərin müsəlman kəndlərini dağıtması türk-kürd dəstələrinin olası hücumu zamanı "arxanın təhlükəsizliyini təmin etmək" məqsədini güdürdü [2, siy.10, işş80, v.212].

Həmin hadisələrin şahidi olanlar qeyd edirdilər ki, erməni silahlı dəstələrinin dağıtdıqları yaşayış məntəqələrinə daha sonra "torbaçı" adlandırılan erməni qarətçiləri soxulurdular. "Torbaçılar" müsəlman kəndlərindən qarət etdikləri ərzağı və ev əşyalarını torbalarına, kisələrinə doldurub aparırdılar [2, siy.10, iş 80, v.40].

Bütün bunlar haqqında Azərbaycan hökumətinə göndərilən məlumatda müsəlman qaçqınların dəhşətli dərəcədə ağır vəziyyətdə olmaları, aclıqdan və xəstəliklərdən əziyyət çəkdikləri xüsusi bildirilirdi. Xəbərdarlıq edilirdi ki, əgər qışa kimi onlar kəndlərdə yerləşdirilməsələr və ərzaq, paltar yardımları göstərilməsə kütləvi şəkildə məhv olacaqlar [2, siy.10, işş80, v.43].

AXC Himayəçilik nazirliyinin Ermənistana ezam etdiyi səlahiyyətli nümayəndəsinin məlumatına görə, 1919-cu il yayın sonunda "Naxçıvan, Sürməli və Eçmiədzin qəzalarında müsəlman əhalinin vəziyyəti fövqəladə dərəcədə kəskinləşmişdi" [3, c.81]. Bu bölgələrdə yaşayan yerli müsəlman-türk əhali qaçqına çevrilmişdi. Qaçqınlar dəfələrlə öz evlərinə qayıtmağa çalışsalar da, hər dəfə qətl və qarətlərə məruz qalırdılar. Onların evlərini və torpaqlarını Türkiyədən köçmüş ermənilər zəbt etmişdilər.

Himayəçilik nazirliyinin səlahiyyətli nümayəndəsinin Azərbaycan hökumətinə ünvanladığı məlumatda bildirilirdi ki, həmin bölgələrin müsəlman əhalisinin "nə taxıl ehtiyatı, nə toxumu, nə mal-qarası vardır. Onların çoxu hər hansı daldalanacaq yerindən də məhrumdur". Azərbaycan hakimiyyət orqanları İrəvan quberniyasından olan müsəlman qaçqınlara yardım etmək üçün dərhal hərəkətə keçdi. Parlament bu məqsəd üçün 3 milyon manat vəsait ayırdı [4, c.524].Qaçqınlara yardım üçün İrəvana 15 vaqon un, buğda, arpa, darı göndərildi [3, c.81].

1919-cu il oktyabrın11-də Himayəçilik nazirliyinin Xüsusi tapşırıqlar üzrə məmuru Bahadur bəy Maqrulov Qarabağa ezam edildi ki, qaçqınlar üçün daha 20 min pud buğda alınmasını təşkil etsin[1, siy.1, iş 13, v.132]. Himayəçilik nazirliyinin tədarük etdiyi 20 min pud taxıl oktyabrın 23-də Yevlax stansiyasından İrəvana yola salındı. Bu ərzaq yardımını nazirliyin digər məmuru A.Çerdanov İrəvana kimi müşayiət etdi [1, siy.1, iş 13, v.166].

AXC hökuməti yüksək insanpərvərlik nümunəsi göstərərək Ermənistan Respublikasının aclıq çəkən erməni əhalisinə də ərzaq yardımları göndərirdi. 1919-cu ilin sonunda Himayəçilik naziri D.Rəfiyevin sərəncamı ilə nazirliyin təsərrüfat işləri üzrə agenti Məmmədəli Veysov Yevlaxa ezam edilmişdi ki, Erməni Komitəsinin sərəncamına veriləcək 30 min pud darını qəbul edib İrəvana yola salınmasını təşkil etsin[1, siy.1, iş 13, v.249-250].

Bu faktlar aydın göstərir ki, AXC hökuməti İrəvan quberniyasında doğma yurdlarından didərgin salınmış müsəlman-türk qaçqınlara ardıcıl surətdə müxtəlif yardımlar göndərmiş, onları aclıqdan və soyuqdan qorumaq üçün böyük səy göstərmişdir.

Açar sözlər: Himayəçilik nazirliyi, Ermənistan silahlı dəstələri, müsəlman qaçqınlar, pul, ərzaq yardımları

Ədəbiyyat

1. ARDA, 8 saylı fond – AXC Himayəçilik nazirliyi
2. ARDA, 970 saylı fond – AXC Xarici işlər nazirliyi
3. Адрес-календарь Азербайджанской Республики на 1920 г. Под ред. А.И.Ставровского. Баку,1920, с.76-88
4. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (Станографические отчеты). Баку, Азербайджан, 1998, 992 с.

ИНТЕГРИРОВАННЫЕ УРОКИ НА МАТЕРИАЛЕ МАТЕМАТИКИ

Алиева Кенуль
Сумгаитский Государственный Университет
kr_eliyeva@mail.ru

Новые образовательные стандарты требуют формировать творческую, активную личность, стремящуюся к саморазвитию не только в профильной области, но и расширению кругозора в других областях знаний. Именно поэтому в последнее время часто поднимается вопрос об интегрированных формах образования. Следует учесть тот факт, что интеграция это наилучший вариант для выявления межпредметных связей, что влечёт за собой активизацию учебно-познавательной деятельности учащихся и повышения уровня учебной мотивации, помогает раскрыть значимость изучаемого материала, что особенно важно для математики. В современной школе существует несколько направлений и разных уровней интеграции. Основные из которых:

– внутрипредметный;

– межпредметный.

Кроме того, обозначают и особенности отбора содержания материала при интеграции: интеграция материала из традиционных, классических предметов и включение нового для школы содержательного материала. При использовании этих подходов могут быть и разные результаты:

а) рождение абсолютно новых предметов; б) рождение новых спец. курсов, обновляющих содержание предметов;

в) рождение цикла уроков, объединяющих материал одного или нескольких предметов с сохранением независимого существования;

г) разовые интегрированные уроки разного характера [1].

В настоящее время используются различные способы интеграции. Самый распространённый вариант: объединение нескольких учебных дисциплин в единый предмет. Стоит отметить, что различные способы реализации интеграции не могут быть хорошим или плохими. Невозможно применять один, а отвергать другой. Наилучшим вариантом решения проблемы будет введение системы интеграционных мер с учётом возрастных особенностей учащихся, и не отвергающей дифференциацию в образовании школьников. Тем самым, дополняя традиционное предметное обучение, способствуя воспитанию широкоэрудированного выпускника школы, имеющего целостное мировоззрение, готового переносить имеющиеся знания в сходные или иные ситуации, способного самостоятельно систематизировать полученные знания и нетрадиционно решать различные проблемы [1].

Интеграция имеет большое преимущество перед традиционным обучением, имея изобилие потенциальных возможностей в развитии интеллекта ребёнка. К сожалению, в традиционном обучении этот фактор используется недостаточно.

Как и любой другой подход, интеграция имеет свои недостатки. Во-первых, ограниченное число учебных предметов. Этот минус можно компенсировать тем, что содержание небольшого объёма усваиваемых знаний должно отражать действительную картину мира, взаимосвязь её частей. Во-вторых, трудность изложения интегрированного курса. Необходимо преподнести материал так, чтобы детям было понятно и интересно. Проблема интеграции образования имеет свои трудности. Но в то же время, есть условия, которые облегчают её решение [2].

Важной особенностью интегрированного урока (мероприятия) является то, что этот вид деятельности подходит для учащихся, которым легче даются гуманитарные дисциплины, потому что такая форма работы позволит им развить интерес к математике, через историю, обществознание, литературу, русский язык и т.д. Так же без внимания не останутся школьники, которым ближе точные науки. Такой подход поспособствует расширению кругозора и развитию интереса к гуманитарным дисциплинам [3].

В данной статье акцентируется внимание на интеграции математики и истории как одном из способов мотивации учебной деятельности. Рассмотрим возможность интеграции математики с историей. С одной стороны формулы и символы, а с другой–хронологическая последовательность человеческого общества. Любое математическое открытие, так или иначе, является историческим событием, а историческое событие не может существовать без математических понятий: дат, чисел, последовательности, продолжительности. Связующими звеном могут стать такие понятия, как «дата», «продолжительность», а темой – математика в истории. Реализовать подобный вид деятельности можно путём использования активных приёмов, методов и форм обучения.

Интеграция предметов даёт возможность преподавателям сократить сроки изучения отдельных тем, исключить повторение материала по предлагаемым предметам, акцентировать внимание (в разнообразных формах) тем целям, которые учитель выделяет в данный момент обучения (развитие мышления, творческого потенциала и т. д.) [3].

Как показала практика, ученики с интересом приступают к решению предложенных задач, активно учувствуют в дискуссиях, одни делятся своими знаниями в истории по изучаемой теме, а другие проявляют знания и навыки в математике, что положительно сказывается на обеих группах учащихся. Без внимания не остается творческий подход,

формирование аналитико-синтетической деятельности, системного подхода к изучению объекта познания, что влечёт за собой самостоятельность; повышение интеллектуального уровня; познавательную активность; интерес к предметам; умение анализировать, сравнивать процессы и явления; развитие коммуникации и качеств личности, и наконец, формирование научного мировоззрения. Всё вышеперечисленное ведёт к формированию того самого идеала требуемого современными государственными стандартами.

Ключевые слова: интеграция, интегрированный урок, межпредметные связи, активные приемы, аналитико-синтетическая деятельность.

Литература

1. Браже, Т.Г. Интеграция предметов в современной школе. Литература в школе. 1996. № 5. с. 150–154.
2. Максимова, В.Н. Межпредметные связи и улучшение процесса обучения. М.: Просвещение, 1994, 81 с.
3. Монахова, Г.А. Образование как рабочее поле интеграции. Педагогика. 1997. с. 11-13.

Riyaziyyatın tədrisində inteqrasiya olunmuş dərslər

Məqalədə təhsilin inteqrativ formalarına baxılır, dövlət standartlarına əsasən verilmiş metodiki xüsusiyyətlər təsvir olunmuşdur. Həmçinin riyaziyyatın tədrisində inteqrasiyasının müsbət cəhətləri qeyd olunmuşdur.

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЦИОНАЛЬНОГО МАКРОЭКОНОМИЧЕСКОГО ФИНАНСОВОГО МЕНЕДЖМЕНТА В РАЗВИТИИ НЕФТЯНОГО КЛАСТЕРА В АЗЕРБАЙДЖАНЕ

Алиева Тамара
Университет Азербайджан
tamara_aliyeva@yahoo.com

Теория Портера [2], впервые вводившего понятие кластер в экономику, ориентирована, в основном, на либеральные экономики и/или на развитие регионов в подобных экономиках. Поэтому она не предполагает непосредственного участия государства в создании объектов бизнеса, т.е. государственного предпринимательства. Но применительнок Азербайджану мы обязаны учитывать специфику, отличающую нашу национальную экономику.

Наши исследования выявили следующие функции финансового менеджмента Азербайджанского правительства на современном этапе:

1. Обеспечение общественно-политической стабильности. В связи с тем, что Азербайджанские земли оккупированы и страна находится в перманентном состоянии войны, это – крайне необходимое условие.

2. Государственное предпринимательство. Хотя это противоречит принятым в современном мире принципам либеральной экономики, с одной стороны, исторический опыт позволяет, а, с другой стороны, вышеописанная ситуация делает необходимым применение этого механизма. Дело в том, что все развитые страны активно занимались и сейчас используют государственное предпринимательство.

3. Льготное кредитование. В Азербайджане формировались довольно крупные по Азербайджанским меркам компании и холдинги, желание которых инвестировать в нефтяной кластер, должно поддерживаться также льготным государственным кредитованием. Тем более это касается малых фирм.

4. Информационно-консалтинговая поддержка. Ввиду судьбоносности выделенного кластера, государство должно позаботиться, чтобы фирмы избежали бесперспективных и неэффективных вложений.

5. Помощь в завоевании рынков сбыта. По концепции положительного эффекта масштаба для достижения минимального уровня себестоимости продукции, необходим довольно большой объем выпуска. С другой стороны, как отмечено выше, емкость Азербайджанского рынка мала, что не позволяет национальным фирмам, использовать этот эффект.

6. Стимулирование менее рентабельных отраслей. Ввиду того, что нефтедобыча - высокодоходная отрасль Азербайджанской экономики, то основные частные инвестиции устремляются именно в нее (подобные многочисленные эмпирические факты обобщены в теореме Рыбчинского [1]).

7. Стимулирование восходящих отраслей. Слабость этих отраслей в Азербайджане, хотя в советский период они были в достаточной степени развиты. Поэтому мы особо выделяем эти отрасли, хотя тут так же могут быть использованы описанные в предыдущем пункте государственные механизмы.

8. Создание благоприятного инвестиционного климата. С самого начала независимости – в 1992 году принят Закон Азербайджанской Республики О защите иностранных инвестиций [5], а в 1995 году - Закон АР инвестиционной деятельности [4]. Слабым звеном здесь является уровень институционального развития, одного из важных факторов, выделенных в теории М. Портера.

9. Создание специальных технопарков. Распоряжением Мы уже отмечали, что по распоряжению президента АР от декабря 2011-го года планируется создание в Сумгаите Химического Промышленного Парка, но, к сожалению, процесс продвигается медленно, одной из причин которого является пассивность частного сектора. А это означает, что необходимо более активное и эффективное государственное участие, в том числе государственное инвестирование в конкретные предприятия нефтегазового кластера, т.е. целенаправленный государственный финансовый менеджмент.

10. Организация кластера и институциональные свойства. Политические решения в этом направлении внутри компании включают следующее [3]:

- Установление национальной нефтяной и нефте-кластерной политики.
- Механизм/режим распределения капитала между различными стадиями стоимостной цепочки и внутри каждой цепочки.
- Политика лицензирования (в широком смысле) с целью стимулирования деятельности кластера в направлении эффективного и сбалансированного развития отдельных его подсистем.
- Налоговая система стимулирования.
- Установление правовых и регулятивных норм.
- Установление регулятивных функций отдельных структур.

Ключевые слова: нефтяной кластер, государственное предпринимательство, финансовый менеджмент.

Литература

1. Ашомко М.М., Бакланова Л.Д., Богомолова О.В. и др. Бакалавр экономики: Хрестоматия: Т. 2 - Экономическое право: В 3 тт: Т. (под ред. Видяпина В.И.) – 2004
2. Портер М. Международная конкуренция. - М., Международные отношения, 1993
3. Thepetroleumsectorvaluechain siteresources.worldbank.org/INTOGMC/Resources/noc_chapter_1.pdf
4. http://www.zewo.ru/laws/0057.html
5. http://files.preslib.az/projects/azereco/ru/eco_m4_2.pdf

Azərbaycanda neft klasterinin inkişafında rasional makroiqtisadi maliyyə menecmentinin əsas istiqamətləri

İnkişaf etmiş iqtisadiyyatlarda qəbul olunmuş yanaşmalardan fərqli olaraq Azərbaycanda neft klasterinin inkişafında dövlətin mühüm rolu əsaslandırılır. Bu kontekstdə Azərbaycan hökumətinin qarşısında duran vəzifələr müəyyənləşdirilir.

MÜASİR DÖVRDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLƏBƏLƏRİN İNTELLEKTUAL MƏDƏNİYYƏTİNİN FORMALAŞDIRILMASININ ƏHƏMİYYƏTİ

Əliyeva Təranə
"Naxçıvan" Universiteti
eliyeva.t59@gmail.com

İntellektual mədəniyyətin formalaşdırılması probleminin aktuallığı ali təhsilin keyfiyyətinə və təhsil sisteminin modernləşdirilməsinə qoyulan müasir tələblərdən irəli gəlir. Mürəkkəb bir pedaqoji hadisə kimi intellektual mədəniyyətin mahiyyəti, quruluşu və xüsusiyyətləri şəxsiyyətin ümumi mədəniyyətinin əsası hesab olunur və müxtəlif fəaliyyət növlərində özünü göstərir.İntellektual mədəniyyətə zehni iş sahəsində bilik və bacarıqlar kompleksi, idrak fəaliyyətinin məqsədlərini müəyyənləşdirmək, onu planlaşdırmaq, fərqli yollarla idrak əməliyyatları aparmaq, müstəqil düşünmək, fəaliyyətin prioritet sahələrini müəyyənləşdirmək bacarığı, habelə yeni biliklər əldə etmək, onları qiymətləndirmək və sistemləşdirmək, hər hansı bir işdə yaradıcı və bacarıqlı olmaq istəkləri, müxtəlif mənbələr, həmçinin informasiya texnologiyaları ilə işləmək və özünü tərbiyə etmək bacarığı daxildir. İntellektual mədəniyyətin formalaşmasının ən vacib göstəricisi elmi dünyagörüşünün inkişafıdır [3]. Elmi dünyagörüşünün əsasını isə bilik təşkil edir. Bilik və intellekt arasında dialektik bir əlaqə mövcuddur: bir tərəfdən bilik idrak fəaliyyətinin nəticəsidir, digər tərəfdən insan fəaliyyətinə daxil olmaqla bilik zəkanın, intellektual mədəniyyətin tərkib hissəsi kimi çıxış edir. Zəkanın əsasını təşkil edən bilik heterojendir: burada həm elmi, həm də gündəlik məlumatlar öz əksini tapır. Adi biliyin intellektdə olması onun mahiyyətinə zidd deyildir, ancaq elmi biliklərin intellektdə iştirak dərəcəsi nə qədər yüksəkdirsə, intellektual mədəniyyətin səviyyəsi də bir o qədər yüksək olur. Təfəkkür bir idrak prosesi kimi qəbul edilirsə, intellekt onun keyfiyyət və orijinallığı kimi çıxış edir. Bu, intellektual mədəniyyəti idrak

fəaliyyətinin müəyyən bir səviyyəsi və xarakterikası kimi başa düşməyə imkan verir. Şəxsiyyətin intellektual səviyyəsi ümumilikdə iki əsas parametr ilə xarakterizə olunur: əldə olunan məlumatın miqdarı və bu məlumatdan fəaliyyət prosesində yaranan müxtəlif problemli vəziyyətləri həll etmək üçün istifadə etmək imkanı. Bu parametrlərdən birincisi insanın erudisiyasını, ikincisi isə intellektual inkişafını xarakterizə edir [1].

Sosiallaşma institutu kimi ali təhsil müəssisəsi cəmiyyət tərəfindən yığılmış ənənələrin, mədəni dəyərlərin cəmini əks etdirir və bu mənada təhsilin mahiyyəti mədəniyyətin mənimsənilməsi və ötürülməsindən ibarətdir. Ancaq bu gün müasir informasiya texnologiyalarının həyat və məişətimizə geniş daxil olması, kütləvi informasiya vasitələrinin sürətlə artması, sosial, iqtisadi, mədəni proseslərin inteqrasiyası, məktəblilərin maraq dairəsinin qlobal xarakter alması və s. bu kimi məsələlər inkişaf prosesinə müəyyən müsbət çalarlar gətirsə də, onun şagirdlərin təlim marağının digər maraqlar hesabına zəifləməsinə də təsiri çox böyükdür. Bu isə müəllimdən öz işinə daha səriştəli yanaşmaq, uşaqların artan tələbat və maraqlarına cavab verə biləcək səviyyədə peşəkar olmaq bacarığı və vərdişləri tələb edir. Məhz buna görə də gələcək mütəxəssislərdə intellektual mədəniyyəti formalaşdırmaq ali təhsil müəssisələrinin qarşısında duran ən əhəmiyyətli və aktual məsələlərdən biri olmalıdır. Müəllim pedaqoji peşəkarlığın texnoloji tərəflərinə yiyələnməklə, yenilikləri, innovasiyaları öz fəaliyyətinə tətbiq etməklə, yeni pedaqoji texnologiyalardan istifadə etmək bacarığına malik olmaqla yanaşı, intellektual mədəniyyətə yiyələnməklə bu prosesdə müvəffəqiyyət qazana bilər. Ancaq bu gün ali məktəblərin bakalavriat pilləsi üçün nəzərdə tutulan pedaqogika dərsliklərinə nəzər saldıqda intellektual mədəniyyətin inkişafı ilə bağlı aspektin istənilən səviyyədə əks etdirilməməsi və bu prosesin nəzəri əsaslandırılmasının kifayət qədər olmaması diqqət çəkir. Təəssüf ki, ali təhsil müəssisələrində hələ də əsas diqqət tələbələrə fənn üzrə elmlərin nəzəri əsaslarının dərindən öyrədilməsinə yönəldilib və onların intellektual mədəniyyətə yiyələnməsi məsələsinə lazımi əhəmiyyət verilmir. Halbuki, müasir elmin, texnikanın nailiyyətləri, tələbələrin daxili, eyni zamanda beynəlxalq siyasi və mənəvi həyatdakı hadisələrə marağının yüksək səviyyədə inkişafı onlardan biliklərini tez-tez, müstəqil şəkildə yeniləmək və artırmaq bacarığı tələb edir. Buna görə bir universitetdə təhsilin mahiyyəti sadə hazırlığa, şablon bilik, bacarıq və vərdişlərin formalaşmasına yönəldilməməlidir. Tələbələrdə inkişaf və özünü təsdiq etmək istəyi formalaşdırmalı, eyni zamanda özünü təhsil bacarıqları aşılanmalıdır. Bu gün tələbələr yalnız akademik bilik və bacarıqları mənimsəməklə kifayətlənməməli, eyni zamanda müəyyən bir tapşırığın, problemin öhdəsindən gəlmək üçün ən uyğun həll yolunu tapmağı bacarmalıdır. Bunun üçün təkcə zehni qabiliyyətlərin kifayət qədər yüksək səviyyədə olması deyil, həm də idrak motivasiyasının yüksək səviyyədə inkişafı lazımdır. Bu səviyyədə tələbə başqa mövzuda hər hansı bir tapşırıq yerinə yetirərkən, qeyri-standart bir vəziyyətdə, əldə etdiyi bilikləri yaradıcı şəkildə tətbiq edə bilər. Bu isə, öyrənmə fəaliyyətinin motivasiyasının xarakteri onun intellektual fəaliyyətinin xarakterinə uyğun olduqda mümkündür [2].Aydın məsələdir ki, cəmiyyət və müasir əmək bazarı ali təhsil sistemindən tələbələrin öyrəndiyi bilikləri təhlil etmələrini, bir sahədən digərinə ötürmələrini, yaradıcı düşünmələrini və nəticədə əmək bazarında tələbkar və rəqabətli olmalarını gözləyirlər. Bu isə məzunlardan şəxsiyyətlərinin təməl mədəniyyətinin ayrılmaz bir hissəsi kimi intellektual mədəniyyətin müəyyən inkişafına nail olmağı tələb edir.

Müasir dövrdə ali təhsil müəssisələrində tələbələrin intellektual mədəniyyətinin formalaşdırılması probleminin araşdırılması bu sahədə mövcud olan müəyyənziddiyyətlərdən qaynaqlanır:

- əmək bazarında yüksək intellektual mədəniyyətə sahib rəqabətçi mütəxəssislərə olan ehtiyac ilə universitet məzunlarının bu istiqamətdə yetərli hazırlığı arasındakı ziddiyyətlər;

- universitet məzunlarının intellektual hazırlıq səviyyəsilə yeni biliklərin yaranma sürətləri arasındakı ziddiyyətlər;

- bütün elm sahələrində gənc mütəxəssislərin intellektual qabiliyyəti ilə onların intellektual mədəniyyətinin həqiqi səviyyəsi arasındakı ziddiyyətlər;

- cəmiyyətdə intellektualizmin sürətinin artması ilə innovativ texnologiyaların, ali təhsildə intellektual təlim və seminarların kifayət qədər istifadəsi arasındakı ziddiyyətlər.

İstənilən sahədə intellektual mədəniyyətin səviyyəsi cəmiyyətin inkişaf tendensiyaları ilə müəyyən edilir. İnkişaf etmiş bir cəmiyyətdə müasir texnologiyaların, o cümlədən məlumatların istifadəsi, intellektual potensialından səmərəli istifadəyə əsaslanan mütəxəssislər tələb edir. Bu gün müasir sivilizasiyanın insanın əldə etdiyi bütün biliklərin cəmiyyətin xeyrinə tətbiqini hərtərəfli təmin etməyə yönəlmiş yüksək intellektual mədəniyyətə sahib insanlara ehtiyacı vardır. Nəzərə alsaq ki, universitet təhsili cəmiyyətin bütün ehtiyaclarına cavab verməlidir, o zaman ali təhsilin bu istiqamətdə qurulması bu gün təhsilimizin qarşısında duran ən əsas məqsədlərdən biri olmalıdır.

Bir insanın intellektual mədəniyyətinin inkişaf etdirilməsi əslində onun ağıllı olmaq hüququnun həyata keçirilməsidir. Bu hüququn pozulması həm ayrı-ayrı fərdlər, həm də bütövlükdə cəmiyyət üçün çox baha başa gələr.

Açar sözlər: intellektual mədəniyyət, ali təhsil, elmi dünyagörüşü, təfəkkür, informasiya texnologiyaları, inkişaf.

Ədəbiyyat

1. Balayev Rəsul, Əlizadə Mətləb, Musayev İsa, İntellektual sistemlər və texnologiyalar, Bakı, 2016.
2. Бахтина О.В. Педагогические условия развития интеллекта студентов вобразовательном процессе педагогического вуза. Воронеж, 2007.
3. Башун О.В. Развитие культуры интеллектуального труда будущего учителя. Ярославль. 2008.
4. Паникарова С.В. Управление знаниями и интеллектуальным капиталом. Екатеринбург, 2015.

FUNKSİONAL TƏNLİKLƏRİN HƏLLİ METODİKASI HAQQINDA

Əliyeva Ülviyyə
Sumqayıt Dövlət Universiteti
ulaliyeva_71@mail.ru

Bir çox məsələlərin həllində elə tənliklərə rast gəlmək olar ki, orada dəyişən funksiya olur. Belə tənkilərdə funksiyaların kompozisiyasından istifadə edilir və həmin tənliklər funksional tənliklər adlanır.Beləliklə, funksional tənlik- müəyyən xassələrə malik olan funksiya və ya funksiyalar sinfinin axtarılması məsələsinn analitik ifadəsidir. Ona görə də funksional təliklərdə xüsusi həll və ümumi həll haqqında danışmaq olar. Verilən təyin oblastında tənliyi ödəyən funksiya və ya funksiyalar sisteminə funksional tənliyin xüsusi həlli deyilir. Tənliyi ödəyən bütün funksiyalar çoxluğuna funksional tənliyin ümumi həlli deyilir [1].

Funksional tənliklərin öyrənilməsi ilə Jan Leron Dalamber, Avqusto Koşi kimi məhşur alimlər məşqul olub. Məsələn, tətbiq qüvvələrinin toplama qanununun öyrənilməsi Dalamber tərəfindən üçün funksional tənlik alınıb. Xətti, üstlü, loqarifmik və qüvvət funksiyalarının xassələrinin öyrənilməsi zamanı, Koşi tərəfindən bir neçə funksional tənlik alınıb. Funksiyanın tək və ya cüt olmasını təyin edən tənliklər də funksional tənliklərdir [1].

$$\underbrace{f(f(\cdot f(x)))}_{n}=x \quad (1) \qquad f(g(x))=f(h(x)) \qquad (2)$$

funksional tənliklərin həlli metodları aşağıdakı teoremlərin istifadəsi ilə bağlıdır [3].

Teorem 1. $f(x)=x$ tənliyinin kökləri (1) tənliyinin kökləri olacaqdır.

İsbatı. Tutaq ki, $x=x_0$ qiyməti $f(x)=x$ tənliyinin kök üdür. Onda $f(x_0)=x_0$ bərabərliyi doğru olar. Onda aşağıdakı bərabərliklər də doğru olur:

$$f(f(x_0))=f(x_0)$$

$$f(f(f(x_0)))=f(f(x_0)),\ldots,\underbrace{f(f(\ldots f(x_0))\ldots)}_{n}=\underbrace{f(f(\ldots f(x_0))\ldots)}_{(n-1)}$$

Deməli $f(f\ldots f(x_0)\ldots)=x_0$ ödənilir, yəni $x=x_0$ qiyməti (1) tənliyinin köküdür.

Teorem 2. $y=f(x)$ funksiyası $a\le x\le b$ parçasında artan funksiyadırsa və $f(a)\le f(x)\le f(b)$ bərabərsizliyi ödənilirsə, onda $f(x)=x$ və (1) tənlikləri eynigüclü olur.

İsbatı. Tutaq ki, $x=x_0$ qiyməti (1) tənliyinin köküdür, yəni $\underbrace{f(f\ldots f(x_0)\ldots)}_{n}=x_0$ bərabərliyi ödənilir. Fərz edək ki, $x=x_0$ qiyməti $f(x)=x$ tənliyinin kökü deyil, yəni $f(x_0)\ne x_0$. Onda ya $x_0<f(x_0)$, ya da $x_0>f(x_0)$ olacaq.Beləliklə, $y=f(x)$ funksiyası artan olarsa,

$$x_0<f(x_0)<f(f(x_0))<\ldots<\underbrace{f(f\ldots f(x_0)\ldots)}_{n}<x_0$$

və ya

$$x_0>f(x_0)>f(f(x_0))>\ldots>\underbrace{f(f\ldots f(x_0)\ldots)}_{n}>x_0$$

bərabərsizliklərini alarıq.

Deməli, $x<x_0$ və ya $(x>x_0)$ ziddiyyətini alırıq, və buradan $f(x_0)=x_0$ alırıq.

Beləliklə, $x\in R$ nöqtələrində və $y=f(x)$ funksiyasının təyin oblastında həmin funksiya artan olarsa, onda (1) və $f(x)=x$ tənlikləri eynigüclüdür.

Teorem 3. $y=f(x)$ funksiyası (2) tənliyinin mümkün qiymətlər oblastında artan (azalan) olarsa, onda (2) və $g(x)=h(x)$ tənlikləri eynigüclüdür.

Əgər, $y=f(x)$ funksiyası $y=g(x)$ və $y=h(x)$ funksiyaların qiymətlər oblastında artan (azalan) olarsa, onda (2) və $g(x)=h(x)$ tənlikləri eynigüclüdür.

Yuxarıdakı teoremin köməyi ilə $2\cdot f\left(\frac{x-2}{x+1}\right)+f\left(\frac{x+1}{x-2}\right)=x$ ($x\ne 2$, $x\ne -1$ olduqda), tənliyinin həllini tapaq.[3]

Əvəzləmə üsulundan istifadə edək. Tutaq ki, $\frac{x-2}{x+1}=a$ olur. Onda

$x-2=a\cdot(x+1)$; $x(1-a)=2+a$ və buradan

$x=\frac{2+a}{1-a}, x\neq 1$ alınır.

Onda verilən tənlik aşağıdakı şəklə düşür: [4]

$$2\cdot f(a)+f\left(\frac{1}{a}\right)=\frac{2+a}{1-a}$$

əvəzləməsindən istifadə edərək,

$$2\cdot f\left(\frac{1}{a}\right)+f(a)=\frac{2+\frac{1}{a}}{a-1}$$

tənliyini alarıq. Bərabərliyin sağ tərəfini

$\frac{2+\frac{1}{a}}{1-\frac{1}{a}}=\frac{\frac{2a+1}{a}}{\frac{a-1}{a}}=\frac{2a+1}{a}\cdot\frac{a}{a-1}=\frac{2a+1}{a-1}$ şəklə gətirsək,

$$\begin{cases} 2\cdot f(a)+f\left(\frac{1}{a}\right)=\frac{2+a}{1-a} \\ 2\cdot f\left(\frac{1}{a}\right)+f(a)=\frac{2a+1}{a-1} \end{cases}$$

sistemini alarıq. Sistemin birinci tənliyini (-2)-yə vurub, ikinci tənliklə tərəf-tərəfə toplasaq, aşağıdakıları alarıq:

$-3\cdot f(a)=-2\cdot\frac{2+a}{1-a}+\frac{2a+1}{a-1}$ alarıq. Buradan isə müəyyən çevirmələr apararaq

$f(a)=\frac{4a+1}{3(1-a)}$ alarıq.

Beləliklə fverilən funksional tənliyin həlli $f(x)=\frac{4x+5}{3-3x}$ şəkilndə olacaq.

İndi isə $\cos^6 x-3\cos^2 x=\cos^3 2x-3\cos 2x$ tənliyinin həllini tapaq. Bunun üçün $f(x)=x^3-3x$, $g(x)=\cos^2 x$ və $h(x)=\cos 2x$ funksiyalarına baxaq. [3]

Aydındır ki, $f'(x)=3x^2-3=3(x^2-1)=3(x-1)(x+1)$ və $0\le g(x)\le 1;\ -1\le h(x)\le 1,$ onda $f(x)$ funksiyası $g(x)$ və $h(x)$ funksiyalarının qiymətlər oblastında azalandır. Ona görə də $f(g(x))=f(h(x))$ və $g(x)=h(x)$ tənlikləri eynigüclü olacaq (teorem 3). Beləliklə verilən tənlik $\cos^2 x=\cos 2x$ tənliyinə gəlir. Həmin tənliyin həlli isə [2]

$$\frac{1+\cos 2x}{2}=\cos 2x$$
$$1+\cos 2x=2\cos 2x$$
$$\cos 2x=1$$
$$\cos 2x=1$$
$$2x=2\pi n,\ n\in Z$$
$$x=\pi n,\ n\in Z$$

olacaq.

Açar sözlər: funksional tənlik, xüsusi həll, eynigüclü tənliklər, əvəzləmə üsulu, təyin oblastı, qiymələr oblastı.

Ədəbiyyat

1. Бродский Я.С., Слипенко А.К. Функциональные уравнения. Киев: Вища школа, 1983, 96с.
2. Литвиненко В.Н. Практикум по элементарной математике.Алгебра.Тригонометрия. – М.Просвещение, 1991, 352с.
3. Селивоник С.В. Элементарная математика и практикум по решению задач. Брест: БрГУ им. А.С.Пушкина, 2015, 206 с.
4. Супрун В.П. Математика для старшекласников: нестандартные методы решения задач.- Минск: Аверсэв, 2003, 254 с.

TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ İNNOVASİYA MENECMENTİNİN HƏYATA KEÇİRİLMƏSİ

Əliyeva Zərifə
Xəzər Universiteti
aliyeva.zarifa79@gmail.com

Dövlətin fəal innovasiya siyasəti aparmasına baxmayaraq, innovasiya menecmenti ali təhsil müəssisələrinin idarəetməsində nisbətən yeni anlayışdır. İdarəetmə elminin özündə və peşəkar fəaliyyətində yeni sahə olaraq innovasiya menecmenti ali təhsil müəssisələrinin inkişafında mühüm rol oynayır.

İdarəetməyə aid müasir elmi ədəbiyyatlarda innovasiya menecmentinin mahiyyəti və məzmununa müxtəlif yanaşmalar var. Ali təhsil müəssisəsi anlayışında innovasiya menecmenti müəssisənin ən üst səviyyəsində tətbiq edilən strateji idarəetmə sahələrindən biridir. O qaydalar, prinsiplər, normalar, metodlar, dəyərlər, təşkilati formalar, ümumi və iqtisadi münasibətlər məcmusunu təşkil edir.

Ali təhsil müəssisələrinin innovasiya imkanları bunlardır: təhsil texnologiyalarının, təhsil məhsullarının və xidmətlərinin innovasiyası; universitet resurslarının, biznes modellərinin, dizaynlarının, sahənin rəqib amillərinin istifadəsi; yeni təhsil proqramlarının, təhsil məhsullarının və xidmətlərinin marketinqinin buraxılışı, biznes proseslərinin effektivliyinin artırılması.

İnnovasiya menecmenti ali təhsil müəssisəsi şəraitində bir sıra funksiyaları yerinə yetirir. Bu funksiyalar aşağıdakılardan ibarətdir [2, s.89-92].

1. Təhsil prosesi iştirakçılarının və digər inzibati işçilərin elmi tədqiqat, innovasiya, qrant fəaliyyət mexanizmlərinin yaradılması;
2. İnnovasiya fəaliyyətinin təmin edilməsi üçün innovasiya infrastrukturunun idarə edilməsi;
3. İntellektual resursların və universitetin innovativ potensialının idarə edilməsi;
4. Tədqiqat və innovasiya fəaliyyətinin maliyyələşdirilməsi, motivasiyası və stimullaşdırılması;
5. İnnovativ sahibkarlığın idarə edilməsi;

6. İqtisadiyyatın real sektoru ilə dövlət-özəl tərəfdaşlığın institusional və müqavilə formalarının yaradılması;

7. İnnovasiyaların yaranması və yayılması ilə bağlı digər təhsil müəssisələri ilə şəbəkələrin qurulması və idarə edilməsi.

Ali təhsil müəssisələrində innovasiya menecmentinin həyata keçirilməsinə bir neçə amil təsir edir: [1, s.93]

1. İnnovativ fəaliyyətin spesifik xüsusiyyətləri.
2. Təhsil müəssisənin elmi müəssisələr və istehsal təşkilatlarları ilə əlaqəsi.
3. Regionun iqtisadiyyatında və peşəkar təhsildə innovasiya proseslərinin məzmununun, müəssisənin innovasiya fəaliyyətinin inkişafının təhsil və müəyyən edilmiş sahələrinin hədəf proqramlarına uyğunluğu.

Ali təhsil müəssisələrinin idarəetməsində innovasiya menecmentinin müstəqil sahə kimi qeyd edilməsi innovasiya proseslərinin effektiv həyata keçirilməsinin təşkilati şəraitlərinin axtarılmasını nəzərdə tutur. Bu baxımdan, innovasiyalı idarəetməyə yönəlmiş müəssisə idarəetməsinin inkişafında bir sıra meyillər və istiqamətlər vardır: [4, s.128]

1. Ali təhsil müəssisələrinin "korporatizasiyası" – innovasiya fəaliyyəti ilə məşğul olan kommersiya təşkilatlarının və təhsil müəssisələrinin idarəetmə prinsiplərinin və təcrübələrinin yaxınlaşması meyili kimi. Bu, universitet tərəfindən uzunmüddətli və yaxud qısamüddətli inkişaf proqramlarının, maraq konfliktlərinin daxildə həll edilməsi sisteminin inkişafının yaradılmasında, müvafiq əmlak uçotunun, maddi və əməliyyat risklərinin idarəetmə sistemlərinin təşkilində, məlumatın açıqlanması sisteminin inkişafında və s. istifadə edilir.
2. Yeni təşkilat strukturlarının inkişafı – innovasiya layihələrinin həyata keçirliməsi nöqteyi nəzərindən, klassik xətti-funksional strukturu tamamlayan ən perspektivlisi matriks təşkilati strukturdur. Bu cür struktur üçün xüsusi fəaliyyət göstərən qurum xarakterdir.
3. Müəssisənin innovativ fəaliyyətinin əsas amilləri olan professor-müəllim heyəti və digər işçilərinin təhsil, tədqiqat, təcrübə və praktiki fəaliyyətlərinin inteqrasiya mexanizmlərinin işlənib hazırlanması. İnnovasiya idarəetməsi bu aspektdə elmi tədqiqat istiqamətlərini planlaşdırır, işin məlumat və metodik dəstəyini təmin edir, innovasiyanın təşviq edilməsində və onun həyata keçirilməsində maneələrin azaldılmasını nəzərdə tutur.

İnnovasiya menecmentinin məqsədlərinin və vəzifələrinin effektiv həyata keçirilməsi üçün, bir çox ali təhsil müəssisələrində aparıcı olan funksional yanaşmadan imtina etmək lazımdır. Funksional yanaşma nöqteyi nəzərindən, ali təhsil müəssisəsi – strukturlar/şöbələr arasında bölüşdürülən bir sıra funksiyalara sahib olan mexanizmdir. Funksional yanaşmanın sərt şəkildə həyata keçirilməsi işçilərin nəticələrə deyil, prosesə yönəlmələrinə və qrup fəaliyyətinin cəlbedici olmamasına gətirib çıxarır. [3, s.102]

Keyfiyyətin ümumi idarəetmə prinsipləri üzərində fəaliyyət göstərməli olan ali təhsil müəssisələrində menecment sisteminin tətbiq edilməsində əsas məqam onun strateji yönümünün (oriyentasiyasının) formalaşdırılmasıdır. Bu o deməkdir ki, həmin sistem təkcə yüksək keyfiyyətli təhsil xidmətlərinin mövcud problemlərinin həllinə yönəlməməli, həm də ilk növbədə tələbələrin, müəllimlərin, eyni zamanda universitet məzunlarını işə cəlb edən təhsil məssisələrinin tələb, ehtiyac və gözləntilərinə cavab verməlidir.

Açar sözlər: innovasiya menecmenti, ali təhsil müəssisələri, innovativ fəaliyyət, infrastruktur, elmi tədqiqat.

Ədəbiyyat

1. Ветров Ю. Высшее образование: проблемы, перспективы. Высшее образование в России. 2006. № 11, с.175
2. Сакалова Е.А. Модель управления вузом в условиях модернизации российского образования: обоснование конкурентного позиционирования: дис. канд. соц. наук: 22.00.08. Ростов н/Д, 2011. с.176
3. Урванцев, Л.Л. Инновационный менеджмент / Л.Л. Урванцев, С.Е. Урванцева, Е.Ю. Зыбарев [и др.]. www.novosibirsk.openet.ru/mn – 2003.c.245
4. Welte H. Management von Universitäten / H. Welte, M. Auer, C. Meister–Scheytt / RaIner Hampp Verlag. München und MerIng, 2006. c.251

CƏZA ÇƏKMƏKDƏN AZAD EDİLMİŞ ŞƏXSLƏRİN PROBLEMLƏRİNİN HƏLLİ MƏSƏLƏLƏRİ

Əlizadə Cavid
Azərbaycan Universiteti
cavid6455@mail.ru

İnsan həmişə ətraf aləmlə qarşılıqlı əlaqədə olur və yalnız orada özünü şəxsiyyət kimi təsdiq edir. Çünki cəmiyyətdə onun tələblərinə uyğun olmadan yaşayan şəxsin müxtəlif problemlərlə üzləşməsi labüddür.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər sosial həyata keçid prosesində bir sıra problemlərlə rastlaşırlar. Ehtiyacların ödənməməsi, məhsuldar sosial əlaqələrin bərpasındakı çətinliklər, iqtisadi problemlər, sosial-maddi çətinliklər, yaşayış yerinin olmaması, sosial diskriminasiya və stiqmatizasiya cəza çəkməkdən azad edilmiş şəxsin əhatəsində müxtəlif və çətin həll olunan problemlər formalaşdırır. Bu problemlər isə, həmin şəxslərin tam şəkildə resosializasiyasını çətinləşdirərək, xeyli hissəsini yenidən cinayət törətməyə sövq edir.

A.Maslou 1943-cü ildə çap edilmiş "İnsan motivasiyasının nəzəriyyəsi" məqaləsində ilk dəfə ehtiyacların iyeyarxiyasını göstərmişdir. O, özünün "Motivasiya və şəxsiyyət" adlı kitabında isə bu nəzəriyyəni detallı şəkildə izah etmişdir. O, ehtiyaclar iyerarxiyası 5 əsas kateqoriyaya bölünür:

1. Fizioloji ehtiyaclar: su, qida,geyim, sığınacaq;
2. Təhlükəsizlik ehtiyacları: məşğulluq, sağlamlıq;
3. Aid olma ehtiyacı: dostluq, ailə, ünsiyyət, qayğı;
4. Hörmət ehtiyacı: status sahibi olmaq, hörmət edilmək, uğur qazanmaq;
5. Özünü reallaşdırma ehtiyacı: şəxsi inkişaf, şəxsi potensialını reallaşdırma, istedadının fərqinə varma və onu istifadə etmə, yaradıcılıq, qərəzsizlik [2, s.170].

A.Maslou qeyd edirdi ki, insanlar müəyyən kateqoriyalardakı ehtiyaclarını ödədikdən sonra, daha yüksək pillədə olan ehtiyaclarını təmin etməyə çalışırlar. Fərd bir kateqoriya ehtiyaclarını tam ödəmədən daha yüksək səviyyəli ehtiyaclar kateqoriyasına keçə bilməz.

Qeyd edə bilərik ki, cəza çəkməkdən azad edilmiş şəxslər ehtiyaclarını qismən və ya tam ödəyə bilmir, rastlaşdıqları problemləri fərdi qaydada həll etməyi bacarmırlar. Buna səbəb olan faktorlardan biri həmin şəxslərin cəza çəkdikləri dövrdə müstəqil qərar qəbul etmək imkanından məhrum olması, hərəkət azadlığının məhdudlaşdırılması ilə bağlıdır. Onların bütün həyat qaydasını

müəssisənin administrasiyası müəyyən edir. Məhkumluq dövründə onlar öz budcəsini planlaşdırmır, nağd pulları olmur, özlərini mənzil, paltar, qida məhsulları ilə təmin etmirlər. Beləliklə həmin şəxslər passivləşir, bəzi məsələləri həll etmək vərdişləri zəifləyir.

Digər bir faktor isə, məhkumluq və cəza çəkmə prosesinin şəxsin statusunu dəyişməsi ilə əlaqədardır. Azadlıqdan məhrum olan şəxslərin yalnız müstəqil qərar qəbul etmək imkanı, habelə hərəkət azadlığı deyil, həm də onların sosial həyatda iştirak imkanları dəyişir, o cümlədən sosial əhəmiyyətli əlaqələri kəsilir. Onların cəmiyyətdə hamılıqla qəbul edilmiş sosial-normativ həyata qayıtmaları üçün bu əlaqələrin qorunması vacibdir. Belə əlaqələrə, mikromühit - onların ailəsi, yaxınları, qohumları, iş yoldaşları və s. ilə olan əlaqələrdir. Qanunvericilik belə əlaqə kəsintisinin mənfi nəticələrini minimuma endirmək üçün bir sıra kompensasiya xarakterli tədbirlər nəzərdə tutur. BMT-nin cinayətkarlığın qarşısının alınması və hüquq pozucuları ilə davranışa dair 1955-ci ildə keçirilən Birinci konqresdə qəbul edilmiş və İqtisadi və Sosial Şuranın 663 (XXIV) saylı 31 iyul 1957-ci il, 2076 (XII) saylı 13 may 1977-ci il və 1984/47 saylı 25 may 1984-cü il tarixli qətnamələri ilə bəyənilmiş Məhbuslarla minimal standart davranış qaydalarının 37-ci maddəsinə uyğun olaraq məhbuslara müntəzəm olaraq vaxtaşırı və zəruri nəzarət altında ailələri və təmiz adları ilə tanınan dostları ilə həm yazışma, həm də görüş vasitəsilə əlaqə saxlamaq imkanı verilməlidir[1, s.340]. Belə ki, məhkumların yazışmalar aparmaq, yaxınları ilə görüşmək, sovqat almaq imkanları bu əlaqələrin saxlanılmasına müəyyən qədər də olsa, müsbət təsir göstərir. Diqqət yetirilməli məqamlardan biri sosial əhəmiyyətli əlaqələrin bərpası prosesində, prosesə cəlb edilməli şəxslərin düzgün seçilməsidir. Belə ki, mikromühit deviant davranışa güclü təsir göstərən amillərdəndir. Cəza çəkməkdən azad edilmiş şəxsdə hüquq və normaları pozmaq vərdişləri mövcud olur. Belə ki, onlar mikromühitin təsiri ilə yenidən cinayət törədə bilərlər.

Yuxarıda qeyd olunanları yekunlaşdırıb aşağıdakı nəticəyə gəlmək mümkündür:

1. Cəza çəkməkdən azad edildikdən sonra onların rastlaşdıqları problemlərin həlli istiqamətində onların ehtiyaclarına uyğun olaraq köməklik göstərə və cəmiyyət həyatına qoşulmasına imkan yarada biləcək şəxs və ya mütəxəssislərlə əlaqələrinin möhkəmləndirilməsi;
2. Cəza çəkməkdən azad edilmiş şəxslərin rastlaşdıqları problemlərin həlli istiqamətində dövlət orqanlarının fəaliyyətinin koordinasiyası;
3. Cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası və reabilitasiyası zamanı ehtiyacların ödənməməsi, məhsuldar sosial əlaqələrin bərpasındakı çətinliklər, iqtisadi problemlər, sosial-maddi çətinliklər, yaşayış yerinin olmaması, sosial diskriminasiya və stiqmatizasiya kimi problemlərin həlli istiqamətində maarifləndirmə prosesinin həyata keçirilməsi vacibdir.

Açar sözlər: cəza çəkməkdən azad edilmiş şəxslər; problem; sosial-maddi çətinliklər; sosial əhəmiyyətli əlaqə.

Ədəbiyyat

1. Дулов А.В. Судебная психология. Учебное пособие. Минск: Высщейшая школа, 1970, 392 с.
2. Стручков Н.А. Советская исполнительно-трудовая политика и ее роль в борьбе с преступностью. Саратов: Издательство СУ, 1970, 271 с.

FONEM ANLAYIŞININ İLKİN İZAHINA DAİR

Əlizadə Kübrə
Azərbaycan Dillər Universiteti
Kubramammadova90@gmail.com

Dil insanın şüurlu həyatının əsas bir hissəsidir. İnsan dil vasitəsilə düşünür, fikirlərini cəmləşdirir, dil vasitəsilə bir məlumatı alır və məlumatı verir. Dil ünsiyyət vasitəsi kimi insanlar tərəfindən kodlaşdırılır, reallaşdırılır. Dilin fonoloji vahidləri material formada öz əksini səslərdə tapır. Elə bir xalq yoxdur ki, o, səsli dilə sahib olmasın. Bu baxımdan hər bir dilin öyrənilməsində əsas cəhət dilin səslərini və fonetik quruluşunu, tələffüz xüsusiyyətlərinə yiyələnməsivacib hesab edilir. Bunlardan da görünür ki, dilin səs, material tərəfi onun ayrılmaz cəhətidir.

Bu baxımdan, dilin ilkin vahidi fonem hesab edilir. Fonemnəzəriyyəsi haqqında alimlərin müxtəlif, fərqli və mübahisəli fikirləri vardır. Hələ də fonem nəzəriyyəsi müxtəlif dilçiliklər,alimlərin əsərlərində müxtəlif şəkildə izah olunmuşdur [3, s.240].

Fonem nəzəriyyəsinin tədqiqi ilk olaraq rus dilçisi İ.A.Boduen de Kurtenedən başlayır. İ.A.Boduen de Kurtene fonem problemini ilk tədqiq edib, dilçiliyə gətirənlərdən biri hesab olunur. Onun tədqiqat sahəsi - dil və nitq, dilin sistem kimi anlaşılması, dil işarələrinin xarakteri, dilin morfoloji quruluş xüsusiyyətləri və ən əsası olan, fonem problemi haqqında elmi mühazirələrin əsasını təşkil edir. İlk olaraq fonem nəzəriyyəsinin mənasını geniş şəkildə izah etmişdir.Bu dilçi "fonem" terminini ilk olaraq söz mənasını fərqləndirən səsin fonem olması meyarından çıxış edərək işlətmişdir. İ.A.Boduen de Kurtene ilk olaraq fonemi etimoloji – morfoloji bir hadisə kimi izahını vermişdir və sonralar onun şagirdi N.V.Kurşevski tərəfindən inkişaf etdirilmişdir. L.V.Şerba fonem anlayışının mahiyyəti ilk olaraq izahını verən alimlərdən biridir. Onun mühazirələrində, fonemin əsas vəzifəsi mənaları fərqləndirməkdən ibarət olması qeyd edilir.

İ.A.Boduen de Kurtene ilk olaraq səsi hərfdən ayırmağın vacibliyini əsas götürərək, sübuta yetirməyə çalışırdı ki, səslər məna fərqləndirdikləri üçün fonem adlanırlar. Bunları misallar üzərində izah etmişdir. Məsələn: /ˈgɑ:dn̩/ - /ˈpɑ:dn̩/ misallarını götürək. Burada /g/ və /p/ fonemi cingiltili və ya kar olması ilə deyil, sözün mənasını dəyişərək yeni məna yaratdıqlarına görə fonem adlanırlar.

İ.A.Boduen de Kurtenenin fonem haqqında əsas iki aspekti nəzərə çarpır. İlk olaraq o fonemin morfemin tərkib hissəsi kimi götürür, sonralar isə öz morfemizindən uzaqlaşaraq fonemin fərqləndirici xüsusiyyətini ön plana çəkirdi.

Fonem sözün mənasını və formasını dəyişdirə bilən dilin ən kiçik fonetik vahididir və qrammatik formaları bir-birindən fərqləndirir. Fonemin fərqləndirici funksiyası onun əsas funksiyası hesab olunur. Fonemlər sözlərdə məna fərqi yarada bilən danışıq səsləridir. Fonemlər sözə məxsus olan səs strukturunda onun quruluşunda da dəyişiklik edə bilirlər və səs strukturunda da dəyişiklik edə bilən fonem onu qrammatik məna cəhətdən də dəyişə bilir. Və bu dəyişiklik zamanı söz öz qrammatik kategoriyaya aid mənsubluğunu itirir və yeni qrammatik funksionallıq yaranır. Fonem təkrarlanan fərqli səs və ya səslərin ardıcıllığıdır. Əgər ki, bir morfemada bir neçə allomorf varsa, müəyyən bir kontekstdə istifadə olunan allomorf seçimi normal fonoloji hadisədir. Bu o deməkdir ki, morfemi müəyyən bir kontekstdə təmsil etmək üçün seçilmiş allomorf, fonoloji xüsusiyyətlərinə görə başqa bir morfemin qonşu allomorfunda tapılan səslərə bənzər olan birisidir [4, s.29].

Fonemlər diskret vahidlərdir, onların fərqləndirmə və tanıma funksiyasını yerinə yetirən daha kiçik hissələrə bölmək mümkün olmur, eyni zamanda morfem və leksemlərin fonetik qabığında düz xətt boyunca bir-birinin ardınca düzülür. Morfem və sözlərin fonem tərkibi sabit qalır və heç bir zaman dəyişikliyə uğramır.

Fonetik dəyişmələrin təsiri sözə yox, səslərədir. Dəyişməyə məruz qalan fonemdir. Spontan və kombinator olmaqla fonetik əvəzlənmə iki qrupa ayrılır. Kombinator əvəzlənmələrin səbəbi məlum olur, lakin spontan əvəzlənmələr daxili səbəblərdən gəlir və həmişə olmur. Fonetik əvəzlənmələrin yaranma səbəblərinin izahı dilçiliyin ən çətin və mübahisəli məsələlərindən biridir.

Fonetik dəyişmələrin məqsədi iki və daha artıq sözü birləşdirən qrammatik əlaqənin ayrılmasından ibarətdir. Və bunun nəticəsində artıq yeni söz başqasından düzəldilmiş kimi qəbul olunur. Məsələn:white shoes [waıt ʃu:z] - why choose [waı ʧu:z] -/t/ və /ʃ/ samit səsləri arasında assimiliyasiya gəlmişdir. İki samit səsin birləşməsindən /ʧ/ samit səsi yaranmışdır. Birinci söz birləşməsində /aı/ diftonq səsi qapalı hecada gəldiyindən və ondan sonra /t/ kar samit səsi gəldiyinə görə qısa tələffüz olunur. Digər söz birləşməsində isə /aı/ diftonq səsi açıq hecada gəldiyinə görə uzun tələffüz olunur. Burada qovşaq fonem /t/ və /ʃ/ samit səsləri arasındadır. Əvəzlənməni fonetik hadisə kimi qəbul etmək dilçilərin çoxu indiyəcən səhvə yol verir, əvəzlənmənin materialı səsdir, onun mənşəyində səslərin dəyişməsi dayanır [5, s.280].

Fonem sistemi müxtəlif dünya dillərini bir-birindən ayıran və fərqləndirən əsas elementlərdən biridir. Dillərin fonem sistemində olan sayı və keyfiyyəti bir-birindən fərqlidir. Dilin lüğət fondunu tam şəkildə nəzərə alınmasıyla dildə olan fonemin və ümumən fonem tərkibini müəyyən edilir.

Açıq sözlər: fonem, morfem, funksiya, əvəzlənmə.

Ədəbiyyat

1. Axundov A.A. Azərbaycandilininfonemlərsistemi. -Bakı:Maarif, -1973. 303 s.
2. Ferdinand de Sössür. Ümumi dilçilik kursu, BDU nəşr. -Bakı: Nurlan nəşriyyatı, 2003. 407 s.
3. Veysəlli F.Y. German dilçiliyinə giriş. -Bakı: Təhsil, -2011. 408 s.
4. Katamba F.X. Morphology [2 vol.] -Basingstoke:Palgrave, -2nd edn. 2006. 382 p.
5. Куртене Б. де И.Е. Избранные труды по общему языкознанию. -Москва: Издательство Академии наук СССР, -1963. -391 с.

AZƏRBAYCANDA DAVAMLI İNKİŞAFIN TƏMİN OLUNMASI VƏ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASI

Əlizadə Murad
Azərbaycan Dövlət İqtisad Universiteti
a_murad97@mail.ru

Azərbaycan öz müstəqilliyini qazandığı gündən müasir dövrdə ölkəmizin sosial-iqtisadi strategiyasında bir çox dəyişikliklər baş vermişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin siyasəti nəticəsində əhalinin sosial-iqtisadi inkişafı və beynəlxalq təsərrüfat sisteminə adaptasiyası böyük nailiyyətlərlə həyata keçirilmişdir. Bu dövrdə ölkədə aparılan iqtisadi islahatlar və inkişafın nəticəsi yeni bir modelin – Azərbaycan modelini yaratmışdır. Ölkənin sosial-iqtisadi

inkişafına dair Dövlət Proqramları həyatın yeni mərhələsinin başlanğıcı olmaqla yanaşı, ölkə əhalisinin sosial rifahının artmasına da səbəb olmuşdur.

Respublikada davamli sosial-iqtisadi inkişafa ölkə idarəçiliyi 4 strateji hədəfi özü üçün qəbul etmişdir.Ölkənin qarşısında birinci strateji addım olaraq fiskal dayanıqlılığın təmin edilməsi və monetar fəaliyyətlərin üzən məzənnə rejimi üzrə qurulması idi. Bunun nəticəsi olaraq makroiqtisadi sabitliyin təmin olunması özünü göstərirdi. İkinci mərhələ özəlləşdirmənin həyata keçirilməsi ilə tərənnüm olunan iqtisadi aktivliyi təmin etməkdir. Üçüncü hədəf isə insan kapitalının inkişafı ilə bağlı olub, əmək bazarının inkişafında sosial-iqtisadi perspektivin başlıca amilləri ilə seçilib. Belə ki, sonuncu strateji addım biznes mühitinin inkişaf etdirilməsinə istiqamətlənmişdir. Belə strateji hədəflər istiqamətində həyata keçən yol xəritələrinin sosial-iqtisadi inkişafı hər sahə üzrə makroiqtisadi stabilliyin qorunub saxlanılmasına səbəb olmaqla, iqtisadi artımın davamlılığını təmin edəcəkdir. Dövlət tərəfindən həyata keçirilən milli iqtisadi inkişaf modeli fəaliyyət istiqaməti kimi yoxsulluq səviyyəsinin azaldılmasına və sosial infrasturuktur sahələrinin inkişafına yönəldilməsidir [2].

Dövlətin həyata keçirdiyi milli iqtisadi inkişaf modeli Azərbaycanın BMT İnkişaf Proqramının əhalinin rifah səviyyəsini əks etdirən İnsan İnkişafı Hesabatında 34 pillə irəliləyərək 169 ölkə arasında 2005-ci ildə tutduğu 101-ci yerdən 5 il sonra 67-ci yerə yüksəlməsinə səbəb olmuşdur. Dövlətin apardığı milli iqtisadi inkişaf modelinin uğurlu nəticəsi Azərbaycan orta insan inkişafı adlanan qrup ölkələrini tərk edərək yüksək insan inkişafı kateqoriyasına daxil edilməsidir [4].

Sosial-iqtisadi inkişaf və dövlət siyasəti bir-birinə bağlı və qarşılıqlı təsir gücünə malikdir. Mövcud olan təcrübəyə əsasən sosial-iqtisadi inkişaf insan kapitalınınformalaşması nəticəsi kimi qeyd etmək mümkündür. Davamlı və stabil artımın keyfiyyət amilləri ilə əlaqəli olduğu da müəyyən olunmuşdur. Belə ki, son illərdə insan kapitalının davamlı inkişafı, yüksək əlavə dəyərli məhsul istehsalı, ixtisaslaşma, məhsuldarlıq səviyyəsinin yüksəldilməsi, yeni texnologiyalardan yararlanma, iqtisadiyyatın innovasiya qabiliyyətinin inkişafı kimi faktorlar ön plana çıxmışdır [2].

Davamlı inkişafı təmin edəcək müasir sektorların üzərində fokuslanmaqla, iqtisadiyyatın sahələri arasında ticari sahələrin, hasilata nəzərən emalın, dövlət sahibkarlığından daha çox özəl sahibkarlığın, texnoloji tutumun yüksək texnologiyalara əsaslan sektorların yenidən formalaşdırılması nəzərdə tutulurdu. Milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, biznes mühitinin, maliyyə və bank sisteminin yaxşılaşdırılmasına və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi ilə xarici iqtisadi fəaliyyətin inkişaf etdirilməsinə yönəldilir.[5]

Respublikada həyata keçirilən proqramlardan əsası “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasıdır. Bu proqramın başlıca strateji məqsədi mövcud imkan və resursları nəzərə almaqla, ölkədə əhalinin yüksək sosial rifahı ilə yanaşı iqtisadi artım, effektiv dövlət idarəetməsi, insanların hüquq və azadlıqlarının tam təmin olunmasına nail olmaqdır. Müasir dövrdə Azərbaycanda sosial, iqtisadi və mədəni quruculuq prosesi mühitinin yaxşılaşdırılmasına, milli-mənəvi və dini dəyərlərimizin qorunmasına və zənginləşdirilməsinə, müxtəlif ölkələrlə münasibətlərin inkişaf etdirilməsinə diqqət göstərilir. Ölkədə sosial-iqtisadi inkişafın təmin olunması istiqamətində görülən tədbir və dövlət proqramlarının təhlil olunması, məqsəd və nəticələrlə qarşılaşdırılması aşağıdakı vəzifələrin həyata keçirilməsinə təsir göstərir:

- Dövlət tənzimlənməsinin əsas istiqamətlərini müəyyən etməklə sosial-iqtisadi inkişafa nail olmaq;
- Hüquqi təminatı məsələlərini tətbiq etmək;

- Respublikada sosial-iqtisadi inkişaf istiqamətində dövlət proqramının rolunu müəyyənləşdirmək və tətbiq etmək;

Milli iqtisadiyyat perspektivi istiqamətində hazırlanmış strateji yol xəritəsinin icrasındamakroiqtisadi sabitlik, vergi və gömrük islahatları, fiskal və monetar siyasət, özəlləşdirmə proqramı, məşğulluq strategiyası, işsizlikdən sığorta sistemi və icbari tibbi sığortanın pilot layihə kimi fəaliyyətlər həyata keçirilməkləyeni iqtisadi sahələrin inkişafına yönəldilmişdir [1].

İqtisadi inkişaf templərinin artması, əhalinin həyat səviyyəsinin keyfiyyətinin artırılması və yerli məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi qarşıya qoyulan strateji məqsədlərə nail olmaq üçün təklif olunan variantlar müəyyən edilmişdir: dünya bazarında muüəssisələrin fəaliyyətində onlara rəqabət üstünlüklərini təmin edən texnologiyaların aşkar edilməsi və inkişafı; elmi-təqiqata yönəlmiş dövlət xərclərinin artırılması; regionlarda elmi tədqiqat və innovasiya fəaliyyətini təmin edən yeni kompleks proqramlarının hazırlanması [3].

Davamlı inkişaf edən milli iqtisadiyyat bütün sahələri üzrə səmərəli, rəqabətqabiliyyətli və eyni zamanda sosial sahələr üzrə istiqamətləndirilməsi nəzərdə tutulmuşdur. Bütün bunlara əsaslanaraq innovativ inkişafın təmin edilməsində davamlı olaraq tədbir və mexanizmlər nəzərə alınmalıdır.

1. İqtisadiyyatda bazar və digər institusional dəyişikliklər edilməlidir;
2. Elmi-tədqiqatların və araşdırmaların inkişafı təmin olunmalıdır;
3. İstehsalın innovativ modernləşdirilməsi tətbiq olunmalıdır;
4. Regionlarda davamlı inkişaf proqramları işlənib hazırlanmalıdır;
5. Nəqliyyat və sosial-siyasi mexanizmlərin inkişafı nəzərə alınmalıdır;
6. Beynəlxalq əməkdaşlığı və xarici-iqtisadi siyasəti aktivləşdirməlidir;

Qeyd olunanları nəzərə alaraq, sosial-iqtisadi inkişaf Azərbaycan üçün davamlı olaraq böyük nailiyyətlərin əldə olunmasını zəruri hesab edir.

Ölkəmizdə bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi və davamlı inkişafın formalaşması reallaşan islahatlar strategiyası, makroiqtisadi sabitləşmə, liberallaşma, iqtisadi demokratiya və dünya iqtisadiyyatına inteqrasiyasına əsaslanan prinsiplərə söykənir. Son 15 il ərzində ölkəmizdə sosial-iqtisadi inkişafın sahə və istiqamətləri üzrə əldə olunan nailiyyətlər uğurla nəticələnmişdir. Bu da Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində təmin edən amil və şərtlərin, o cümlədən GZİT təhlilin ölkə iqtisadiyyatının inkişaf prioritetlərini başlıca məqsəd və hədəfləri kimi müəyyənləşdirməyə imkan verir. Ölkə prezidenti İlham Əliyev iqtisadi, institusional və struktur islahatlarını apararkən Ulu Öndərin fundamental prinsipinə əsaslanmaqla ölkədə həyata keçirilən sistemli dəyişikliklərin və islahatların başlıca şərti kimi milli maraqların qorunması və iqtisadi təhlükəsizliyin gözlənilməsi olmalıdır [1].

Açar sözlər: davamlı inkişaf, GZİT təhlil, makroiqtisadi sabitlik, rəqabət üstünlüyü, strateji məqsəd, davamlı və stabil artım, innovativ texnologiya.

Ədəbiyyat

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. UNEC, Bakı 2019
2. Ölkə Tərəfdaşlıq Strategiyası: Azərbaycan, 2014–2018
3. Allahverdiyev.H.B., Qafarov.K.S., Əhmədov.Ə.M., "Milli Iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. (2012) , s.502.
4. (http://www.elibrary.az)
5. (http://azerbaijan.az)

ОБЗОР ЕВРОПЕЙСКОГО РЫНКА ЛИЗИНГОВЫХ УСЛУГ И РОЛЬ СРЕДНЕГО И МАЛОГО ПРЕДПРИНИМАТЕЛЬСТВА В ЕГО РАЗВИТИИ

Ализаде Самед
Западно – Каспийский Университет
samed_alizade@yahoo.com

Лизинг - это особая форма финансирования на основе активов, когда лизинговая компания дает другой стороне во временное пользование принадлежащий ей актив в условиях платности. Лизинг используется для финансирования чрезвычайно широкого спектра типов активов, обеспечивая ценную форму поддержки для широкого круга предприятий, какими бы ни были их потребности в активах [1]. К лизинговым активам в европе относятся легковые и грузовые автомобили, машины и оборудование, компютерное оборудование, оборудование для возобновляемых источников энергии, медицинское оборудование, недвижимость, полиграфическое оборудование, вилочные погрузчики, офисную мебель, краны, программное обеспечение и многое другое. Договоры лизинга заключаются по многим каналам, например, через банковские сети, напрямую от лизинговых компаний или через поставщиков и дилеров оборудования. Самый популярный способ - это точка продажи актива. Это когда клиент получает доступ к лизингу напрямую от производителя в точке продажи, что эффективно а также экономит время. Следовательно, лизинг может обеспечить «единый подход» как для покупки, так и для финансирования оборудования, что является явным преимуществом и удобством для малого и среднего предпринимательства по сравнению с финансированием займов.

В мировом рынке лизинговых услуг европейский рынок занимает второе место, ему принадлежит около 34% объема лизинга. В 2018-м году объём новых лизинговых соглашений в Европе составил 424,3 млрд. долларов США с ростом объема рынка на 7,7% по сравнению с 2017-м годом [4]. Совокупный портфель европейского рынка лизинга составляет 914,3 млрд. долларов США. На долю Великобритании и Германии которые соответственно являются третьим и четвертым по размеру в мире рынками лизинга приходится около 40% Европейского и около 13% мирового рынка лизинга. В 2018-м году объём новых лизинговых соглашений в Великобритании составил 100,9 млрд. долларов США, в Германии 63,3 млрд. долларов США [2]. Стоит отметить что, ввиду состоявщегося BREXIT-а в этом году показатели Европейского рынка ожидает спад. Показатели роста объёмов лизингового рынка Великобритании в последние годы были незначительными из-за политических и экономических неопределенностей вокруг процедуры BREXIT-а. К примеру в 2017-м году рост рынка составил всего 1,7%, такие же показатели были и в 2016-м году. Считаю что приблизительно такой же объём роста рынка будет и в 2020-м и в ближайщих годах в переходный период к новым реалиям рынка.

Объём роста новых лизинговых соглашений сегмента оборудования и автомобилей составил 408 млрд. долларов США с годовым ростом в 7,9%, а доля сегмента недвижимости составил 15,9 млрд. долларов США с ростом 2,5%. Уровень проникновения лизинговых услуг в сегменте оборудования и автомобилей в 2018-м году продолжая рост последних лет составил 25,9%.

На долю автомобилей (пассажирских и коммерческих) пришлось 69% новых лизинговых соглашений с ростом около 7% по сравнению с 2017-м годом. Структура европейского рынка лизинга за 2018-ый год показана ниже в диаграмме (Диаграмма 1) [2]

Диаграмма 1.

На долю около 3000 объектов малого и среднего предпринимательства в 9 промышленных секторах в 8 странах Европы (Франция, Германия, Италия, Нидерланды, Польша, Швеция, Испании и Великобритании) приходится более 80% от общего объема производства в ЕС и более 70% европейского рынка лизинга. Сегодня более половины объектов малого и среднего предпринимательства используют лизинг в качестве финансирования и данный показатель растет из года в год. На данный момент более 30% инвестиций в малое и среднее предпринимательство осуществляется посредством лизинга. На уровне ЕС это означает, что около 165 млрд. долларов США инвестиций в основной капитал осуществляется посредством лизинга. Соотношение инвестиций в малое и среднее предпринимательство по типам финансовых инструментов показана ниже в диаграмме (Диаграмма 2). [3]

Диаграмма 2.

Более широкое освоение лизинга малым и средним предпринимательством способствует экономическому росту. Ожидается что лизинг в 2020 году добавит к ВВП около 0,9%, на фоне темпов роста еврозоны это значительное дополнение в экономику.

Ключевые слова: лизинг, уровень проникновения лизинга, инвестиции, активы, ВВП, оборудование.

Литература

1. Газман В.Д. Лизинг. Финансирование и секьюритизация. Москва, 2011.
2. Leaseurope – Annual Report, 2018.
3. Oxford Economics. The use of leasing amongst European SMEs, 2015.
4. White Clarke Group – Global Leasing Report, 2019.

Avropanın lizinq bazarı və onun inkişafında kiçik və orta sahibkarlığın rolu

Məqalədə 2018-ci ilin sonuna avropa reqionu üzrə lizinq bazarının həcmi, aktivnövlərinin lizinq bazarında olan payı və ötən ilə nisbətən dəyişiklik dinamikası göstərilib. Lizinq xidmətləri bazarının əsas hissəsi hansı seqmentə aid olduğunu göstərən lizinq xidmətləri bazarının tərkibi əks edilib. Əlavə olaraq yeni lizinq həçminin ÜDM-ə olan nisbəti əsasında lizinq xidmətlərinin istifadə səviyyəsi və lizinqin ÜDM-də olan payı göstərilib, və bu göstərici avropa reqionunda lizinq xidmətlərinin inkişaf dərəcəsini qiymətləndirmək imkanı yaradır. Avropanın lizinq bazarında kiçik və orta sahibkarlıq subyeklərin payı və onların avropa iqtisadiyyatının inkişafında olan rolları göstərilib.

THE MAIN DIRECTIONS OF IMPROVING THE INVESTMENT ACTIVITY IN AZERBAIJAN

Amirova Arzu
Azerbaijan State University of Economics
arzu.amirova5@gmail.com

The most important stipulation for the rapid recovery of the economy at the modern stage of development is the increase in investment in various industries and regions of the country. The significant socio-economic and political changes have occurred in recent years as a result of radical reforms in the Republic of Azerbaijan, which with great success created a completely new economic environment for entrepreneurship. The successful results of the economic reforms and the oil strategy of the late years are obvious: macroeconomic stability and high rates of economic growth were ensured, modern infrastructure was created, the problems of unemployment and poverty are being successfully solved [3].

The rapid growth of the economy of Azerbaijan, high rates of economic growth, development of entrepreneurship, small and medium-sized businesses, achievements in the socio-economic development of the regions are some of the results of successful economic reforms in the country. In general, the main essence of the economic policy pursued by the Azerbaijani state is to develop the economy in an upward direction to improve the material well-being of the nation. Today,

Azerbaijan holds one of the leading places among the countries of Eastern Europe in terms of foreign investments attracted to the economy [4].

Investing in the economy of Azerbaijan, introducing the structural changes through domestic and foreign investments, creating and developing the joint ventures with foreign investment in economic development, as well as improving the investment promotion activities, is becoming a primary goal.

Today, the investment market in Azerbaijan is developing rapidly. The mechanisms of financial support and regulation established by the state make investment in this way attractive for almost all sectors. Investments in the fixed assets from various financial sources are enlarging every year. Today, Azerbaijan has turned from an importer of investments into a country that invests in foreign countries itself. The general socio-economic and legal conditions of investment activity, as well as the legal and economic principles of foreign investment in the territory of the Republic of Azerbaijan are being determined by "The Law on Investment Activities" and "The Law on the Protection of Foreign Investments" of the Republic of Azerbaijan [5].

In this thesis, a SWOT analysis is given in accordance with which the strengths and weaknesses of the Azerbaijani economy and the opportunities and threats are presented in detail. As known, the Republic of Azerbaijan is an investment-attractive country.In the economic literature there are various approaches to understanding of the concept of "investment market", and in recent years this term has become widespread, and it is often considered as a market for investment goods.Would like to note that the foreign economists consider that the investment market is understood as the stock market, since investments in securities are the dominant form of investment in a developed market economy. Chart 1[1]

Investment movement in a market economy



Chart 1.Source: study guide by L.L. Igonina, "Investments"

In a market economy, with the help of the investment market, the investment circuit transforms investment resources (that is, investment demand) into investments, which determines future growth in capital cost, and at the same time, the movement of investments is carried out according to Chart 1.

Table 1. SWOT analysis of the investment climate in the Republic of Azerbaijan [2]

Strengths	Strategically important geographical location
	Social and political stability
	Social spheres are always in the center of attention of the state
	Improving the efficiency and transparency of the provision of public services to citizens ("ASAN Service" centers)
	State support to the development of entrepreneurship, promotion of export and creation of a favorable investment climate
	Participation in global energy and transport corridor projects
	The level of self-sufficiency in energy and food security is satisfactory
	The level of public debt, unemployment and inflation is satisfactory
Weaknesses	Weak diversification of economy and export
	Dependence of the country's economy on oil and gas revenues
	Lack of adequate corporate governance in state-owned enterprises and in the private sector
	Direct trend of foreign investment in the oil and gas sector
	A large share of the state in investments, weak dynamics of private enterprise
	Mainly export-oriented raw materials
	Dependence on imports in food products
	High informal employment
Opportunities	Integration into global value chains, diversification of the economy
	Availability of development opportunities in priority areas
	Creating a favorable business environment for non-resident entrepreneurs
	Promoting private investment by creating favorable conditions for the participation of local and foreign entrepreneurs in the privatization of businesses with lower returns
	The role of the private sector in employment
Threats	Increased geopolitical tensions in the region
	Increase in fiscal load
	Attracting investment in more infrastructure projects than production facilities
	Depletion of natural resources, low level of compensation for losses of new growth areas
	Falling up to middle level income or falling into a lower income group

https://www.economy.gov.az

The SWOT analysis of the components of the investment climate in the Azerbaijan Republic enabled to reveal their weaknesses and strengths, opportunities and threats (Table 3).

The role of investment in the development of each country is of great importance. Investments ensure economic growth and security, the competitiveness of the country's economy and improving the living standards of the population. Creating a favorable investment environment is one of the main conditions for solving macroeconomic stability and many socio-economic problems in the

national economy. The results of the SWOT analysis show that there are significant advantages for transforming the main drivers of economic growth into a new economic approach.The above SWOT analysis of the Azerbaijani economy shows the strengths and weaknesses of the Azerbaijani economy.As well as opportunities and threats.[2]

Keywords: economic growth, economic policy, small and medium-sized businesses, modern infrastructure, stock market, SWOT analysis.

References

1. http://www.azerbaijans.com/content_1614_az.html
2. https://www.economy.gov.az/
3. "Participants in the investment market and their functions" - URL: https://helpiks.org/3-1784.html
4. "The concept, structure and participants of the investment market" - URL: https://investoriq.ru/teoriya/investicionnyy-rynok.html
5. "What is an investment market" - URL: https://investicii-v.ru/investicionnij_rinok

Azərbaycanda investisiya fəaliyyətinin inkişafinin əsas istiqamətləri

Müasir dövrdə iqtisadiyyatın sürətlə inkişafının ən vacib şərti ölkənin müxtəlif sferalarda və sahələrdə həyata keçirilən investisiya mühitinin inkişafıdır. Son illərdə yeni iqtisadi mühitin yaradılması Azərbaycanda sahibkarlar üçün geniş istiqamətlər açmışdır. Bu da respublikamızda köklü islahatların nəticəsin kimi sosial-iqtisadi və siyasi inkişaf sahələrində dəyişikliklər baş vermişdir. Belə iqtisadi islahatların aparılması qeyri-neft sektorunda makroiqtisadi sabitlik və yüksək iqtisadi artım tempinə malik olmuşdur.

TARİXDƏ İZ BURAXMIŞ AZƏRBAYCAN QADINLARI

Əsədova Xanım, Əhmədova Elvira
Azərbaycan Dövlət Aqrar Universiteti
xanim.as@mail.ru

Hər bir xalq özünün tarixi abidələri görkəmli şəxsiyyətləri ilə ölməzdir.Onlar millətin və xalqınqədimliyindən,qəhrəmanlığındansoraq verir. Fəxrlə deyə bilərik ki, tarixi şəxsiyyətlərimiz tarixin bütün dövrlərində öz izlərini buraxmışlar.Xüsusiləda qadın qəhrəmanlarımız qibtə ediləcək dərəcədə çoxdur.

Qədim dövrdə döyüşə gedərək kaman, yüngül qalxanla silahlanmış,bədənini qorumaq üçün göndən tikilmiş paltar geyərək belinə gön kəmər bağlamış,başına dəbilqə qoyub ər kimi meydanda ad qazanmışdır Azərbaycan qadını.

Qədim yunan şairi Esxilnənələrimizinmərdliyini böyük heyranlıqla qeyd edərək yazırdı: “Midiyada və Qafqazda yaşayanqızlarqorxmazdırlar” [5].

Adı qəhrəmanlıq, qeyrətlik rəmzi kimi tarixə həkk edilmiş Massaget hökmdarı Tomris hələeramızdan əvvəl İran şahı Kirin Azərbaycana hücumunun qarşısını almaq üçün böyük səy,ağıl və mətanət göstərmişdi.Hiylə yolu ilə oğlu əsir düşən ana İran şahına bu hərəkətinin namərdlik olduğunubildirmiş və oğlunu geri qaytararaq geri çəkilməyini bildirmişdi.Kirə ağır döyüşdə qalib gələn Tomris onun cəsədini insan qanı ilə dolu böyük bir tuluğun içinə salaraq istehza ilə

demişdi:“Mən səni döyüşdə məğlub etdim.Sənsə oğlumu hiylə ilə əlimdən aldın ürəyimə dağ çəkdin.Mən də,dediyim kimi, səni qana doyuram. İç, istədiyin qədər iç, bəlkə doyasan”.

Eramızdan əvvəl 65-ci ildə Roma sərkərdəsi Pompeyin qoşunları Azərbaycana soxulanda döyüşlərdə kişilərlə bərabər əli silahlı qadınlar dadoğma yurdu işğalçılardan qoruyur,vuruşmalarda əsl igidlik göstərirdilər.Qədim Roma tarixçisi Appian yazırdı:“Yaralı döyüşçülər arasında çoxlu qadın da vardı“. Qadınlarımızın bu qəhrəmanlığı Roma döyüşçülərini heyrətə gətirmişdi [2].

XII və XIII əsrlərdə yaşamış bir çox azərbaycanlı qadının adı tarixə düşmüşdür.Qızıl Arslanın xanımı Qətibə xanım,Atabəylər dövlətinin axırıncı xanı Atabəy Özbəyin xanımı Mehrican xanım öz dövrünün görkəmli siyasi və dövlət xadimləri olmuşlar.Mehrican xanım əyyaş ərinin iradəsindən asılı olmayaraq dövləti özü müstəqil idarəedirdi.Onun xalq arasında böyük nüfuzu olmuşdur.XarəzmşahCəlaləddinin bütün hiylələrinə duyan Mehrican xanım tədbir görərək, qonşu dövlət başçıları ilə ittifaq bağlayıb, düşmənə qarşı mübarizə aparırdı. Təbriz, Xoy,Naxcıvan və başqa vilayətlərin camaatını Cəlaləddinə qarşı üsyan qaldırmaqla Mehricanxanım öz böyük nüfuzundan istifadə etmişdi.

1421-ci ildə Təbriz yaxınlığındakıAləşkərt çölündə Sultan Şahruxun qoşunlarına qarşı vuruşmalarda Qara Yusifin oğlu Cahanşahlayanaşı mərd və qorxmaz xanımı Əliykə Könüldaş da böyük şücaətlər göstərmişdi [4].

Ağqoyunlu Uzun Həsənin anası Sara xatunun siyasət və dövlət işlərində uzaqgörənliyi, tədbirliyi ilə diqqəti cəlb edirdi.Saraxatun Şərq aləmində tanınmış görkəmli diplomat olub. Onun səyi və təşəbbüsü ilə bir neçə danışıqlar baş tutmuşdu.

Səfəvi hökmdarı Şah İsmayılın qızı Məhinbanu Sultanım xanım sülhsevər xeyirxah və tərəqqipərvər bir qadın olmuşdu.Türkiyə ilə Səfəvi dövləti arasındakı ziddiyyətlərin yumşaldılması və sülh yolu ilə həll olunmasında o, fəal rol oynamışdı. Məhinbanu Sultanım xanım türk sultanının qızı ilə yazışaraq öz məktublarında sultan Səlimin qızını da müharibə əleyhinə olmağa və hər iki hökmdarı bu səhv yoldan çəkindirmək işində fəaliyyət göstərməyə çağırırdı.

XVIII əsrin ortalarındaAzərbaycanda xanlıqlar dövründə Qubalı Fətəli xana onun mərd ağıllı arvadı TutiBikə yaxından köməklik etmişdi. Azərbaycanı vahid bir dövlət kimi görmək TutiBikəninidealı idi. Bu arzu onu hətta öz doğma qardaşı Əmir Həmzəyə qarşı çıxmağa vadar etmişdir. Fətəli xan xanlıqda olmadığı vaxtlarda xan taxtını Tutiyə etibar edirdi.Əmir Həmzə Dərbəndə hücum edəndə bu qorxmaz qadın əyninə kişi paltarı geyinib şəhərin müdafiəsini öz əlinə almışdır. Dərbənd tarixini tədqiq edən Y.İ.Kozubski yazırdı: ”Fətəli xanın igid arvadı TutiBikə...qardaşına qarşı duraraq şəhəri mərdliklə müdafiə edirdi: o,qala bəndlərində şir kimi duraraq,hər şeyə özü rəhbərlik edir qala toplarının atəşi ilə qardaşını hədələyirdi” [1].

XIX əsrdəAzərbaycan qadınlarındanyerli feodalların mülkədarların haqsızlığınaqarşı çıxmış, öz azadlığı uğrunda mübarizə aparanlarda olmuşdur.Bunlardan müasirlərini heyrətləndirmiş, Fransanın qəhrəman qadını Jannad‘Arkla müqayisə edilən Cənubi Azərbaycanlı Rüstəmə və Qaçaq Nəbinin sədaqətli ömür gün yoldaşı Həcər olmuşdu.

Həcər Nəbi ilə birlikdə bəylərə qarşı ölüm-dirim mübarizəsi aparmışdı.Onu hiylə ilə tutub öldürmək istədikdə Həcər əyilməmiş, ərinə sadiq olduğunu qəhrəmanlıqla sübut etmişdir.

1914-cü ildə Birinci Dünya Müharibəsində iştirak etmiş Əliağa Şıxlinskaya öz sevimli xanımı Nigar xanımı dörd divar arasında saxlamayıb onu odların alovların arasına aparmışdı.Müharibə cəbhələrini dolaşaraq Nigar xanım əyninə şəfqət bacısı paltarı geyinib saatlarla yorulmadan çalışaraq yaralı əsgərlərə kömək etmişdi [3].

Açar sözlər:qəhrəman, qadın, yorulmadan, müharibə.

Ədəbiyyat

1. Azərbaycan tarixi. I cild. Azərbaycan SSR EA nəşriyyatı. Bakı 1958.səh 369.
2. Azərbaycan qadını jurnalı.1975 №8.
3. Ə.Şıxlinski.Xatirələrim Bakı 1984.səh 79.
4. S.Məmmədov. Azərbaycanın şanlı qızları. Bakı. İşıq.1988 səh 5.
5. Z. İbrahimov. Azərbaycan qadınlarının qəhrəman keçmişindən.Azərnəşr. Bakı 1943. s.5-15.

CEYN OSTİN YARADICILIĞINDA ROMANTİZMİN ƏLAMƏTLƏRİNƏ DAİR

Əziz Sevinc
Naxçıvan Dövlət Universiteti
ff.ya.ff@mail.ru

XVIII əsrin sonu XIX əsrin əvvəli Maarifçilik ədəbiyyatının sona çatdığı, romantizm və realizm kimi bədii-estetik istiqamətlərin yaranması dövrünə təsadüf edir. Bu dövr ingilis ədəbiyyatında üç böyük ədəbi-bədii istiqamətlərin eyni zamanda biri-birinə təsiri və yanaşı inkişafı ilə bağlıdır. Bu illər romantizmin ideya-estetik prinsipləri maarifçilik ideologiyasını tam sona yetirməmiş, eyni vaxtda yeni realizmin yaranmasıyla da əlamətdardır. Məhz bu üzdən maarifçi realizmlə yanaşı ədəbi aləmdə romantizmin ideya-estetik əsasları birgə inkişaf edirdi. Məlumdur ki, ingilis nəsrinin aparıcı simalarından olan Ceyn Ostin yaradıcılığı bu dövrlə bağlıdır və elə bu üzdən onun yaradıcılığında adları sadalanan bədii sistemlərin əlamətlərini görmək olur. Onun əsərləri öz təbiiliyi və insan qəlbinin dərinliklərində gizlənən əhval-ruhiyyə ilə bağlı olub psixoloji məqamları ifadə edir. Yazıçının sadə və təbii dildə nəql etdiyi hadisələrdə eyni zamanda da ironiya və "ingilis yumoru" da özünü büruzə verir. Ədəbi tənqidin Ceyn Ostinin yaradıcılığını realist sənətin nümunəsi kimi təqdir etməsinə [3, 4] baxmayaraq onun yaradıcılığına romantizmin estetikası da təsir göstərmişdir. Bunu yazıçının insan şəxsiyyətinə daha çox diqqət yetirməsi və onu əhatə edən mühitlə qarşılıqlı münasibətlərinə marağında görmək olur. Digər tərəfdən Ceyn Ostin öz dövrünü qabaqlamış, romantizmin demonik qəhrəmanlarını və insan qəlbində çağlayan ehtiraslarını deyil, ingilis əyalətlərində yaşayan adi kənd insanından bəhs edir, onların həyatını canlandırırdı. Bu onunla bağlı idi ki, yazıçı hələ də maarifçi ədəbiyyatın əhatə dairəsindən çıxa bilmir və bu səbəbdən yazıçının erkən yaradıcılığı daha çox maarifçiliyin ideya-mövzularına yaxın idi. Ceyn Ostinin yaradıcılığında eyni zamanda romantizm öncəsi ingilis nəsrində mövcud olan sentimental əhval ruhiyyəli əsərlərin izlərini də görmək olur. Bu sıraya onun "Sevdi və dostluq", "Ağıl və hissiyyat" əsərlərini aid etmək olar. Lakin bununla belə ədəbi tənqid yazıçının əsərlərində realizmin bədii prinsiplərini görür və bu üzdən Ceyn Ostinin əsərlərində ingilis realist nəsrinin xüsusiyyətlərini vurğulayırdı. Bu onunla bağlı idi ki, yazıçı xarakterlərin təsvirində maarifçi realizmin bədii xüsusiyyətlərindən yararlanırdı. Lakin burada bir paradoksu da qeyd etmək yerinə düşərdi ki, fərdi keyfiyyətləri vurğulamaqla yazıçı maarifçi kanonlardan uzaqlaşsa da romantiklərin şəxsiyyətin qeyr-adiliyinə, bənzərsizliyinə köklənən bədii aləminə də tam olaraq yaxınlaşmır. Nə isə orta mövqe tuturdu. Qəhrəmanların daxili dünyasının təsvirində daha çox psixoloji və sosial xarakterlərin açılmasına diqqət yetirirdi və məhz bu baxımdan yazıçı daha çox realizmin estetikasına yaxın idi. Əsərlərində təsvir edilən qadın dünyasındakı romantik əhval-ruhiyyə isə romantizmin ədəbi aləmə yeni gəlişi ilə bağlı idi. Görünür yazıçının romantik bədii aləmə olan

sevgisi qəhrəmanlarının ailədə, onları əhatə edən insanlar arasında seçilməsi ilə ifadə olunurdu (bu xüsusiyyət eyni zamanda dayazıçının şəxsi həyatı ilə bağlıdır – Ə.S.) [5]. Ceyn Ostinin əsərlərində romantiklərin sənədli nəsrindən gələn intonasiyanı da hiss etməmək mümkün deyil. Məhz yazıçının romantik əhval-ruhiyyəyə meylliliyini tənqid edən Şarlotta Bronte qadın həmkarını bəyənmir, onun yazı üslubunu "melodramatik" adlandırırdı [1]. Amma eyni zamanda da «there is a Chinese fidelity, a miniature delicacy in the painting»(Çin miniatürü kimi zərif və dəqiq") deməklə Ceyn Ostin yaradıcılığına olan marağını gizlətmirdi.

Ceyn Ostin əsərlərinin mövzuları bir qayda olaraq özünü, özgürlüyünü axtaran romantik qəhrəmanlardır. Bu romantizmin estetikasından irəli gələn insan həyatında ağlın və mənəvi dəyərlərin müəyyən edilməsi ilə də bağlıdır. "Mensfild park" romanın qəhrəmanı olan Fanni Praysın mənəvi dünyası romantik qəhrəmanın iç dünyasıyla eyniyyət təşkil edir. Romantik qəhrəman bir qayda olaraq tənhadır və o, cəmiyyətdən təcrid olur. Bu təcrid olma onun öz seçimidir, çünki hamı kimi olmaq istəmir. Onun şəxsi keyfiyyətlərindən biri də özgürlüyünü qoruyub saxlamaqdır. Bu üzdən o, bütöv şəxsiyyətdir. Ceyn Ostinin Fanni Praysı yetimdir,qohumları tərəfindən guya himayə olunur, lakin o, tənhadır və bu tənhalıq onun daxili dünyasını, mənəvi aləmini korlamır. Əksinə Fanni Prays onu əhatə edən riyakar, ikiüzlü insanların içində dürüst, ləyaqətli və çox mehribandır.

Romantizmin Ceyn Ostin yaradıcılığına təsirini yazıçının insan şəxsiyyətinə olan marağında görmək olar. Yazıçının yaratdığı personajların şəxsi keyfiyyətlərində romantik qəhrəmanların üsyankarlığını, romantik əhval-ruhiyyəsini izləmək olur. "Qürür və qərəz" romanı realizmin prinsiplərinə uyğun yazılsa da əsər romantizmin bir sıra əlamətlərini özündə ehtiva edir. Məlumdur ki, romantizmin estetikası idealizmlə xarakterizə olunur və biz bu əlaməti Ceyn Ostinin "Qürür və qərəz" romanının bədii aləmində aydın şəkildə görə bilirik. Əsərin qəhrəmanları olan Elizabet və Darsi romantik qəhrəmanlar kimi davranır, cəmiyyətdə hökm sürən xurafatı dəf edir, mövcud adət və ənənəyə qarşı çıxırlar. Belə ideallaşdırma romantizmə xas xüsusiyyətdir və biz bunu Ceyn Ostinin roman dünyasında izləyə bilirik. Darsi kütlədən seçilir, sirli və dinməz təsvir edilir və bu üzdən o, romantik qəhrəman kimi qeyri-adi görünür. Elizabet haqqında isə demək olar ki, o, bütöv şəxsiyyətdir. Xarakteri ilə üsyankar ruhu təcəssüm edir və digərlərinə iradəsini əzməyə imkan vermir. Özünə və öz mənəvi dünyasına sadiqdir.

Yuxarıda qeyd edilən fikirləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, ingilis realist romanın nümayəndəsi olan Ceyn Ostinin yaradıcılığında romantizmin əlamətləri açıq-aydın özünü büruzə verir. Başqa sözlə romantizmin estetik prinsipləri onun yaradıcılığından yan keçməmişdir.

Açar sözlər: Ceyn Ostin, romantizm, bədii aləm, roman.

Ədəbiyyat

1. Charlotte Bronte's Letters. https://pemberley.com/janeinfo/janeart.-html#charlottebronte
2. Honan P. Jane Austen: A Life. New York: St. Martin's Press, 1987. 302 p.
3. Lascelles M. Jane Austen and Her Art. L., Oxford University, 1968. 240 p.
4. Liddell R. The novels of Jane Austen. L., 1993. 190p.
5. Tomalin C. Jane Austen: A Life. New York: Alfred A. Knopf, 1997. 256 p.

İNTELLEKTUAL NƏSR – POSTMODERNİZMİN UĞURLU REALLAŞMASI "FORMASI" KİMİ
(Tomas Pinçonun yaradıcılığı əsasında)

Hacıyeva Fidan
Azərbaycan Dillər Universiteti
fidan.hajiyeva@yandex.ru

Postmodernizmin təşəkkül tapması ilə ədəbi proseslər "mətnləşmiş dünya"nın (J.Derrida) dekodlaşmasını hədəf almağa başladı, onun fərqli prizmalardan çözümünün, təhlilinin arayışına çıxdı. Bu baxımdan təsadüfi deyil ki, postmodern nəsr öz maraq dairəsini təkcə müasir insanın daxili sarsıntı və təbəddülatlarını, onun cəmiyyət həyatındakı reallaşma "sancı və ağrılarını" təhlili ilə məhdudlaşdırmadı. Postmodernizmin ümumiyyətlə, həyatın ən fərqli aspektlərin bir arada təhlil və analizini mümkün edən, keçmiş və gələcək arasında körpü sala bilən, real olanla irreal olan "barışdıran", stilistik izafiliyi tərənnüm edən və eyni zamanda xəttilik streotiplərindən uzaqlaşmaqla mənəvi-ruhi kontekst pizmalı interpretasiya sərbəstliyinə üstünlük verən nəsr formatını – "intellektual nəsri" ortaya qoymağa müvəffəq oldu.

XX əsr Amerika yazıçısı, postmodernist ədəbiyyatın aparıcı nümayəndələrindən hesab edilən Tomas Pinçonun yaradıcılığı birmənalı olaraq hansısa ədəbi metodun çərçivələrinə sığmır. Yazıçının əsərləri intellektual ədəbiyyatın nümunələri hesab edilir. Nəsr nümunələrinə "V"(1963), "Lot 49-un çağırılması" (1966), "Göyqurşağının cazibəsi" (1973), "Meyson və Dikson" (1977), "Mənim dəfn günümə" (2006) romanlarını aid etmək olar. Bu romanlar mətnlərarası dialoqu özündə cəmləşdirən kütləvi ədəbiyyatın hüdudlarında yazılmışdır. Tomas Pinçonun yaradıcılığını araşdıran tənqidçilər onun təkrar olunmayan roman aləmini intellektual nəsrə aid edirlər [14, 10].

Folkner ədəbi mükafatına (1963) layiq görülmüş Tomas Pinçon eyni zamanda ədəbiyyat üzrə ən nüfuzlu Amerika Milli kitab laureatı (1973) ilə də mükafatlandırılmışdır. Amerikalı yazıçı Tomas Pinçon Nyu-York ştatının Qlen-Kouv şəhərində anadan olmuşdur. Təhsilini Amerikanın ən nüfuzlu universitetlərindən olan Kornel Universitetinin fizika fakültəsində almış, sonralar ixtisasını dəyişərək ingilis ədəbiyyatı sahəsi üzrə təhsilini davam etdirmişdir.Yazıçının ictimai həyata marağı olmadığından onun şəxsi həyatı haqqında məlumatlar azdır. Tomas Pinçon gənclik illərindən ahil yaşına qədər mükəmməl yazıçı kimi tanınırdı. Yazıçının "V" romanı yazıldığı ildən günümüzə qədər öyrənilir. "Times qəzeti yazırdı: "Pinçon sanki yuxu görmənin arzusundadır.

Kitab insanın çata bilməyəcəyi, hüdudsuz mağaranın içi ilə üzür". "V" nədir? Nə deməkdir? Çox az insan tapılar ki, yatan və yatmayan insanların fikirlərini izləyə bilsin, amma kitabda bunlar vəhdət təşkil edirlər" [6].

"Times" qəzətinin 100 ilin ən gözəl ingilisdilli romanlar sırasına qeyd etdiyi [9] "Lot 49-un çağırılması" əsəri "nümunəvi postmodernist mətni" və postmodernizmin parodiyası" hesab edilir.Amerikalı tədqiqatçi Den Deddes qeyd edirdi ki, Tomas Pinçon bu əsərində tarixi sirləri simvollarla qeyd edərkən insanın heç bir sirri açа bilməməsi fikrinə istehza ilə yanaşır, əsərin qəhrəmanı hər yeni sirri açmaq istədikdə yeni bir sirr ilə rastlaşır. Biz heç vaxt tarixdə nə baş verdiyini bilməyəcəyik. Və bizim bu bilgisizliyimiz tarixi mətnlərin doğru və yalan olması fikrinidə təsir edəcəkdir" [7]. Amerikalı tədqiqatçı postmodernist nəsrin doğru və yalan anlayışlarına reaksiya verməklə Tomas Pinçonun "Lot 49-un çağırılması" romanını əhatə dairəsində araşdırır. Həmçinin yazıçı müasir Amerikanın "gizlin" tərəfini təsvir edir və insanın faciəsindən söz açır. Əsərin maraqlı cəhətlərindən biri də yazıçı deyilənləri kinayə ilə qələmə alır, çox vaxt oxucu

eyhamla söylənən fikirlərin doğru və yalan olduğuna qərar verə bilmirdi. “Lot 49-un çağırılması” əsəri bu cəhəti ilə onu postmodernist nəsrin oyun prinsipinə yaxınlaşdırır.

Yeganə Abdullayevanın “Göyqurşağının cazibəsi” barədə nəticə də maraq doğurur: “Müasir dünyanın bütün “eybəcərliyini” – özündə birləşdirən bu romanda fiziki və mənəvi “zora” məruz qlamış insanın məhvini canlandırır”. “Roman dünyada baş verən hadisələrin, insanların “qara yumor”la təsviridir” [1, s.107].

Roman mistifikasiya prinsipi üzərində formalaşıb və bu cəhəti ilə doğru və yalanın yerdəyişməsində özünü büruzə verir. Yazıçı müasir Amerika cəmiyyətində hökm sürən “mənasızlığı” gələcək fəlakətlərin ziyanı kimi təsvir edir.

Amerikalı tənqidçi Riçard Puarye yazırdı ki, ümumiyyətlə əsər dolayısı yolla cəmiyyətdə bəşər övladının tragizmindən bəhs edir: “Tarixi insan – faustsayağıdır. Kitabda Faust tipli olan kapitan Bliso adlı raket mühəndisi təsvir edilsədə, o, mövcud olduğu sistemin quludur.Bundanda çıxış yolu yoxdur” [11].

Yazıçının dünyaca məşhur olan “Meyson və Dikson” romanını görkəmli Amerika tənqidçisi Harold Blum əsəri “dövrümüzün şedevri” adlandırmışdır [4, s.19]. Roman Amerika respublikasının yaranması illərinə təsadüf edən ingilis astronomu və onun ortağı Ceremi Diksonun həyat və fəaliyyətindən bəhs edir.

Amerikalı tənqidçi Koragessan Boyl əsərə münasibət bildirərkən Tomas Pinçonun haqqında yazır: “Bizim qarşımızda tanınmış Pinçondur, əsil Pinçondur. “Meyson və Dikson” isə novator əsərdir, ədəbiyyatımızda ona heçnə yoxdur, olsa-olsa “V” və “Göyqurşağının cazibəsi” olar” [5].

Açar sözlər: postmodernizm, intellektual nəsr, Tomas Pinçon, roman.

Ədəbiyyat

1. Abdullayeva Y. Postmodernist romanın genesisinə dair. Humanitar elmlərin öyrənilməsinin aktual problemləri”. BSU, 2019, № 2.
2. Bennett D. Tears of Rage: The Racical Interface of Modern American Fiction – Faulkner, Wright, Pynchon, Morrison. LSU Press 2008, 272p.
3. Krewson J. Thomas Pynchon: Mason & Dixon.
4. https://aux.avclub.com/thomas -pynchon-mason-dixon-1798194294
5. Plimpton G. The Whole Sick Crew// The New York Times. October 6, 1996.
6. Weisenburger S. Thomas Pynchon at Twenty-Two: A Recovered Autobiographical Sketch // American Literature. 1990. V. 62. №4
7. Лало А. Е. Поэтика романов Томаса Пинчона. Диссер. канд. филол. наук, Москва, 2002, 181 с.

KOLLOKVİUM STRESİNİN HƏYƏCAN GÖSTƏRİCİLƏRİNİN YÜKSƏLMƏSİNDƏ ROLUNUN TƏDQİQİ

Haqverdiyeva Zümrüd, Kərəmova Natəvan
Qərbi Kaspi Universiteti
phd_karamova@mail.ru

Ədəbiyyat mənbələrindən məlumdur ki, uzunmüddətli və tez-tez emosional reaksiyaların yaranması beyində dayanıqlı qıcıqlanma ocaqlarının yaranmasına səbəb olur və bu da psixoemosional gərginliyin əsası sayılır. Bunun nəticəsində adaptasiya mexanizmlərinin həddən artıq gərginləşməsi baş verir ki, nəticədə endokrin sistem, maddələr mübadiləsi, ürək-damar sistemlərinin funksiyaları və s. ciddi dəyişikliklər baş verir. Təbii ki, müasir insanın xroniki psixoemosional gərginlik şəraitlərində yaşadığını nəzərə alsaq, orqanizmin patoloji proseslərə keçməsi üçün daimi risk faktorlarına məruz qalması aydınlaşır [1]. İmtahan stresi klassik stres nümunəsidir və tələbələrin tədrisdə müvəffəqiyyət əldə edilməsində mühüm rol oynayır.Emosional gərginliyin tələbələrdə bir sıra psixoloji dəyişikliklər əmələ gətirməsi haqqında məlumat çoxdur. Ən maraqlı məqamlardan biri isə həyəcan və yaddaş proseslərinin emosional gərginliyə qarşı verdiyi reaksiyadır [2]. Həyəcanın əsas 3 növü tədris prosesində mühüm əhəmiyyət kəsb edir: situativ, fərdi, ümumi həyəcan. Müasir həyat şəraitinin xüsusiyyətləri, intellektual proqramların sürətli inkişaf templəri, tələbə həyatına keçid, informasiyanın artan əhəmiyyəti gənc orqanizmdə artan tələblər yaradır [2, 3]. Bununla belə, psixi və psixo-emosional gərginliyin bir çox aspektləri kifayət qədər öyrənilməmişdir. Tələbənin psixi vəziyyətində patoloji risk faktorlarından biri də şəxsi və situativ həyəcan səviyyələrində baş verən dəyişikliklərdir [2].

Emosional gərginliyin yaddaş prosesinə təsirini aşkar etmək üçün I kurs tələbələri üzərində psixofizioloji tədqiqatlar aparmaq və bu əlaqələri müəyyənləşdirmək qarşıya məqsəd qoyulub. Emosional gərginlik modeli kimi semestr ərzində keçirilən kollokvium dövrü götürülüb. Tədqiqatlar 3 mərhələdə aparılıb: adi dərs günündə (kollokviumdan 20-25 gün əvvəl), kollokviumdan 15 dəqiqə əvvəl və kollokviumdan sonra. Tədqiqat obyekti 28 nəfər I kurs psixologiya fakültəsinin tələbələri olmuşdur. Tədqiqatlar zamanı Spilberger- Xanin testi iləsituativ və fərdi həyəcanın səviyyəsi təyin edilmiş və statistik işlənmişdir.

Alınmış nəticələr və onların müzakirəsi. Adi dərs günündə aparılan tədqiqatlar zamanı tələbələrin adi testləşdirmə prosesinə belə məsuliyyət hissi ilə yanaşması qeyd olunmuşdur. Belə ki, situativ həyəcan 40±3,23 bal, fərdi həyəcan isə 55± 4,25 bal olması müəyyən edilmişdir. Kollokviumdan əvvəl aparılan təkrari testləşdirmə zamanı isə situativ həyəcanın 49±3,71 bala, fərdi həyəcan 60± 2,75 bala (şəkil 1), qədər yüksəlməsi qeyd olunub. Kollokviumdan sonra aparılan testləşdirmənin nəticələri xüsusi maraq yaradır: situativ həyəcan 23±1,49 bal, fərdi həyəcan isə 42± 2,38 bal, olmuşdur.

Beləliklə, alınmış nəticələrin təhlili zamanı, məlum olmuşdur ki, adi dərs günü də həm situativ, həmdə fərdi həyəcan səviyyəsi yüksəkdir. Bunu onunla əlaqələndirmək olar ki, ilk dəfə testləşdirmə prosesinin aparılması stres təsirinə malik olmuşdur, tələbələrin bu prosesə məsuliyyətlə yanaşması nəticəsində həyəcan göstəricilərinin səviyyəsi yüksək olmuşdur. Kollokviumdan əvvəl aparılan testləşdirmə zamanı situativ və fərdi həyəcanın çox yüksək səviyyəsi qeyd olunmuşdur (şəkil 1). Bunu isə belə izah etmək olar ki, stres təsiri rolunu oynayan kollokvium prosesi tələbələr üçün çox əhəmiyyətlidir, onlar imtahana hazırlıq və imtahana keçid üçün mühüm olan nəticə-müvəffəqiyyət göstəricisinə qarşı daha yüksək məsuliyyət hissi ilə yanaşmış və uğur əldə

edilməsinə maksimum yanaşmışlar. Testləşdirmənin çox yüksək həyəcan səviyyəsini göstərməsi koqnitiv-dərketmə proseslərinin də aktivləşməsini bir daha sübut edir. Məsuliyyət hissi artdıqca, həyəan səviyyəsi artır. İmtahandan sonra isə maraqlı faktlar alınıb. Tələbələrdə hər iki həyəcan səviyyəsinin normativə yaxınlaşması qeyd olunub ki, bu tələbələrin stres faktorunun aradan qalxmasını dərk etməsi və dərketmə proseslərində gərginliyin götürülməsi ilə izah olunur.



Şəkil 1. Situativ və fərdi həyəcanın testləşdirməsinin nəticələri

Beləliklə, alınmış nəticələrin təhlili kollokvium prosesinin emosional gərginlik yaratmasını, nəticədə situativ və fərdi həyəcanın yüksəlməsini, sübut etdi.

Psixoemosional stress yeniyetməlik və gənclik dövrlərində ürək və sinir sisteminin bir sıra xəstəliklərinin əmələ gəlməsində əhəmiyyəti rol oynayır. İmtahan dövründə demək olar ki, əksər məktəbli və tələbələrdə emosional stress vəziyyəti müşahidə olunur. İmtahandan 20 dəqiqə keçəndən sonra isə göstəricilərin normaya qayıtması müəyyənləşdirilib (Kərəmova N.Y.) I kurs tələbələri üzərində aparılan psixofizioloji tədqiqatlar bir daha emosional gərginliyin həyəcan və koqnitiv proseslərə təsir etdiyini sübut etdi. Emosional gərginlik səviyyəsinin azaldılması və uğurun qazanılması üçün tələbələrdə profilaktik söhbətlər aparılması və imtahana bənzər vəziyyətlərin yaradılması yüksək tədris keyfiyyətinin alınmasında müsbət effekt verə bilər.

Ədəbiyyat

1. Kərəmova N.Y. Stress və onun koqnitiv proseslərlə qarşılıqlı əlaqələrinin tədqiqi problemi (ədəbiyyat icmalı) Gənc alimlərin əsərləri, Bakı, №7, 2013, səh.221-228.
2. Kərəmova N.Y.Stress və koqnitiv proseslər "Milli Nevrologiya jurnalı" Elmi-praktiki jurnal, Bakı, №1, 2012,səh.72-78.
3. Карамова Н.Я. Влияние эмоционального напряжения на формирование когнитивных процессов у школьников в зависимости от уровня их умственного развития. Информационно-аналитический журнал «Актуальные проблемы современной науки», №4, том 48, Москва, 2009,стр. 274-278.

RİSK QRUPUNA AİD OLAN UŞAQLARIN DÖVLƏT UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏ SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

Həmidova Nübar
Azərbaycan Universiteti
hemidova.nubar@mail.ru

Sabitliyi olmayan, tək çətinliklərlə mübarizə apara bilməyən insan kateqoriyalarına "Risk qrupu" deyilir. Belə insanların düşdüyü böhranlı vəziyyət, psixoloji stresslər, maliyyə uğursuzluqları, həyat səviyyəsinin aşağı olması təkcə sosial xidmətlərin bu müştərilərinə yox, həm də bütün cəmiyyətin atmosferinə mənfi təsir göstərir.Ailədə uşaqların rifahının yüksək olması üçün ailə başçıları,uşaqların sosiallaşmasını,onlara iqtisadi dəstəyin, səhiyyə, qayğı və müdafiə ehtiyaclarının ödənilməsi,ailənin qorunub saxlanılmasını özündə cəmləyən bir çox öhdəlikləri yerinə yetirməlidir [3].

Təcrübələrdən göründüyü kimi,ailənin problemi olduqda o, kömək axtarır.Adətən,onlar elə düşünürlər ki,əgər kimsə kömək etməzsə,onlarda bu problemi həll etmək üçün heç bir sərişdə və resurs yoxdur.Kömək gəldikdə isə onlar gözləyirlər ki,dəstək verənin sehrli əməlli ilə onların bütün problemləri həll olunacaqdır. "Risk qrupu"ndan danışdıqda cəmiyyətimizin zəif və həsas təbəqələrindən olan uşaqlar nəzəri daha çox cəlb edir. "Risk qrupu"na aid olan uşaqlar aşağıdakı qruplara bölünürlər:

- küçə həyatına məruz qalmış uşaqlar;
- valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- xüsusi qayğıya ehtiyacı olan uşaqlar;
- aztəminatlı, zəruri sosial-məişət şəraiti olmayan ailələrin uşaqları və s.

Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin əsas səbəblərindən biri də küçə həyatına məruz qalmalarıdır. Belə uşaqlar adətən ailə daxili münaqişələr zamanı, ailənin iqtisadi vəziyyətinə görə pul qazanmaq və s. səbəblərə görə küçəyə üz tutan uşaqlardır. Küçə həyatına məruz qalmış uşaqların əksəriyyəti 5-17 yaş arası uşaqlardır. Belə uşaqlar adətən karton qutularda, parklarda yaşayırlar.

UNİCEF tərəfindən küçə uşaqları iki qrupa bölünürlər:

1. Günün çox hissəsini küçədə keçirib axşamlar evə gedən uşaqlar. Belə uşaqlar adətən iqtisadi problemlər səbəbindən küçəyə üz tutan uşaqlardır. Onlar günün sonunda evə gedərkən qazandıqlarını öz ailələrinə verirlər.
2. Bu qrupa aid olan uşaqlarsa ailə ilə bağları olduqca zəifdir yalnız təsadüfü hallarda ailələri ilə eyni mühitdə olurlar. Belə uşaqlar adətən ailədaxili münaqişələr səbəbindən küçəyə üz tuturlar [5].

Hər iki valideyni məlum olmayan valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan), ölmüş elan edilən, cəzaçəkmə müəssisələrində cəzasını çəkən, uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən, uşaqlarını uşaqlar üçün sosial xidmət müəssisələrindən götürməkdən imtina edən, bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşınadək şəxslər valideyn himayəsindən məhrum olmuş uşaqlar hesab edilirlər. Valideyn himayəsindən məhrum olmuş uşaqların müdafiəsi üçün Azərbaycan Respublikası Prezidenti 1999-cu il 12 iyun tarixli, 693-IQ nömrəli "Valideynlərini

itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu imzalamışdır [4].

Xüsusi qayğıya ehtiyacı olan uşaqların dövlət uşaq müəssisələrinə düşmə səbəblərindən ən başlıcası təhsil almaq məqsədi ilə gələnlərdir. Bildiyimiz kimi sağlamlıq imkanları məhdud uşaqlar üçün Respublikamızın rayonlarında xüsusi təhsil müəssisələri fəaliyyət göstərmir. Yalnız 9 rayonda inteqrasiya təlimli internat tipli gimnaziyaların nəzdində xüsusi siniflər fəaliyyət göstərir və bu siniflərdə də əqli məhdudiyyəti olan uşaqlar təhsil ala bilirlər. Bu səbəbdəndə, rayonlarda yaşayan sağlamlıq imkanları məhdud uşaqlar Bakı şəhərində yerləşən xüsusi məktəb və internat məktəblərində təhsil almaq və yaşamaq məcburiyyətində qalırlar. (90%-i) [2].

Aztəminatlı, zəruri və sosial məişət şəraiti olmayan ailələrin övladları "Risk qrupu"na aid olamuş uşaqlar hesab olunurlar. Belə ailələrdən olan uşaqların əksəriyyəti dövlət uşaq müəssisələrində təhsil alır və yaşayırlar. Aztəminatlı, zəruri və sosial məişət şəraiti olmayan ailə dedikdə aşağıdakılar nəzərdə tutulur:

- Valideynlərin boşanması: tək ana və yaxud tək atanın ailəni maddi və mənəvi cəhətdən idarə etməsi;
- Valideynlərin hər ikisi günün çox hissəsini işdə keçirtməsi;
- İqtisadi cəhətdən zəif və işsiz olan ailələr [1].

Belə ailələr uşağın ilkin ehtiyaclarını ödəyə bilmədikləri üçün dövlət uşaq müəssisələrinə yerləşdirmək məcburiyyətində qalırlar.

Uşaqların dövlət uşaq müəssisələrinə düşməsionların cəmiyyətə adaptasiyasının digər uşaqlarla nisbətdə daha gec olması, özlərinə qapanan, tündxasiyyət, incidici və təcavüzkar olması ilə nəticələnir.

Açar sözlər: Küçə uşaqları, "Risk qrupu", İnternat məktəbləri.

Ədəbiyyat

1. Azərbaycan Dövlət Uşaq Müəssisələrinin İlkin Qiymətləndirilməsi üzrə Hesabat.
2. Azərbaycan Respublikası Təhsil Nazirliyinin 2019-cu il üzrə hesabat jurnalı.
3. SOSİAL İŞƏ GİRİŞ kursu üzrə METODİK VƏSAİT Bakı 2009 s.7.
4. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu.
5. https://tr.wikipedia.org/wiki/Sokak_%C3%A7ocuklar%C4%B1.

UŞAQ ZORAKILIĞININ SOSİAL VƏ HÜQUQİ ASPEKTLƏRİ

Həsənli Bahar
Azərbaycan Universiteti
1994.bh@mail.ru

Uşaq zorakılığı probleminin aktuallığı son on ildə xeyli artmışdır. Ailədə uşaqlara qarşı zorakılığın artması cəmiyyətdə zorakılıq hadisələrinin artması ilə bağlı ümumi meyllərlə - şəxsə qarşı cinayətlərlə, şəxsi azadlıqlarla, qanun pozuntuları ilə, intihar halları ilə, qəzalarla, habelə hərbi münaqişələrlə bağlıdır.

Uşaq zorakılığı probleminin inkişafındakı bu cür dinamika, ictimaiyyəti ailədə uşaqlara qarşı zorakılıq hallarının öyrənilməsi və sonradan qarşısının alınması üçün tədbirlər görməyə məcbur edir, çünki onların qarşısını almaq, bütün çətinliklərə baxmayaraq, olduqca vacib məsələdir. Uşaq zorakılığının qarşısının alınması, onun kökündən həlli həm müxtəlif sahələrdə çalışan mütəxəssislərin səyləri, həm də müvafiq hüquq təşkilatlarının, məsələn, BMT-nin, Avropa Şurasının fəaliyyəti nəticəsində mümkün ola bilər [4].

Uşaqların hüquqlarının qorunması istiqamətində BMT və Avropa Şurasının qanunları, Uşaq Hüquqları Konvensiyası, müxtəlif Dövlət Proqramları da çox böyük rol oynayır.

XX əsrdə sosiologiyada bu problempraktiki olaraqhəyata keçirilmədi, bunun müxtəlif səbəbləri vardı. Bunların arasında əsas olanlar bunlardır: gənc, "firavan" sosialist dövlətində belə bir sosial problemin mövcudluğunu nəzərə almamaq və bunun nəticəsində müasir cəmiyyəti səciyyələndirən zorakılığın araşdırılması qadağan edilmiş və ya məhdudlaşdırılmışdır; "şiddət" sosiologiyası və ailənin sosiologiyası müstəqil tədqiqat sahələri kimi Sovet dövründə geniş inkişaf etməmişdir və bu problemin öyrənilməsinə həsr olunmuş ədəbiyyatda ictimai-siyasi zorakılığın müxtəlif aspektləri araşdırılmamışdır [6].

Bu baxımdan belə bir nəticə çıxara bilərik ki, sosiologiya elminin (gənclər, ailə, uşaq sosiologiyası, gender sosiologiyası və s.) sahələrində bu məsələ zəif inkişaf etmişdir. Mütəxəssislər etiraf edirlər ki, elmi əsərlərdə ailədə uşaq zorakılığı, onun cəmiyyətdə yayılması, təzahür dinamikası və xüsusiyyətləri tədqiqatlarda öz əksini lazımi səviyyədə tapmamışdır. Bu məsələyə cəmiyyətin münasibəti isə rəy sorğularının aparılması yolu ilə müəyyən olunur.

Ailədə uşaq zorakılığı probleminin aspektlərinin öyrənilməsinə, onun haqqında ictimai rəyin formalaşmasına, zorakılığa təsir edən amillər, bu sahədə beynəlxalq və yerli təcrübə məsələlərinə həsr edilmişelmi əsərlər, monoqrafiyalar daha çox XXI əsrə aiddir. Problemin araşdırılması zamanı əldə edilən nəticələr aşağıdakı kimidir:

1. Ailədəki uşaq zorakılığının tipologiyasından, törədilən zorakılıqların xarakterindən, əlamətlərindən, sosial və psixoloji nəticələrdən asılı olaraq, cəmiyyətdə geniş şəkildə yayılmış uşaq istismar formalarını müəyyənləşdirmək mümkündür. Sosioloji bir araşdırma nəticəsində məlum olur ki, uşaqların psixoloji cəhətdən istismarı və uşağın əsas ehtiyaclarına qarşı etinasızlıq müasir ailədə uşaq istismarının ən yayılmış formalarındandır.

2. Ailədə uşaq zorakılığı probleminin araşdırılması zamanı aşağıdakı əsas nəzəri və praktik nəticələr meydana çıxdı:

- Ailədə uşaq istismarının yayılmasıonun fərdi formalarının gizli olmasına baxmayaraq, uşaq zorakılıq hadisələrinin əksəriyyətini təşkil edir;

- Təhsil səviyyəsinin aşağı olması, yaş yetişməməsi, təcrübəsizlik və valideynlərinin fiziki xəstəlikləri olan uşaqlar daha çox zorakılığa məruz qalır;

- Uşaqların ən çox təziq gördüyü ailələrin sosial-iqtisadi vəziyyətinin aşağı səviyyədə olması məsələsi mübahisəlidirvə təcrübədə özünü doğrultmamışdır;

- Ailədə aşkarlanan uşaqlara qarşı bütün hüquq pozuntularının təxminən 60%-ində valideynlər ilə profilaktik işlər aparılır, ümumilikdə isə, bu kimi məsələlər az hallarda valideynlər və uşaqlar iləsöhbət şəklində aparılır [5]. Bu məsələlər adətən yetkinlik yaşına çatmayanlar üçün komissiya iclaslarında müzakirə olunur və onların hüquqları qorunur. 40% hallarda isə bu məsələ ilə bağlı olaraq hüquq-mühafizə orqanları məlumatlandırılır, məsələ ilə bağlı cinayət işi açılır və lazım gələrsə, valideynlərin hüquqları məhdudlaşdırılır və onlar valideyn hüquqlarından məhrum edilirlər [3];

- Ailədə uşaq zorakılığının qarşısının alınmasında əsas istiqamət bütövlükdə ailə ilə iş olmalıdır. Əksər hallarda valideynlərə qarşı repressiv tədbirlərdən imtina edilməli, uşaqlara kömək və valideynlərin davranışlarını düzəltmə prosesindəki psixoloji, psixoterapevtik komponentlər gücləndirilməlidir. Müvafiq qurumlar və onların qarşılıqlı fəaliyyətini məqsədyönlü şəkildə həyata keçirmək və ümumiyyətlə ailə institutunun dövlət səviyyəsində möhkəmlənməsinənail olmaq dövlətin qarşısında duran əsas məsələdir.

Uşaq zorakılığı probleminin nəzəri və praktik təhlili bir sıra tədqiqat sahələri üzrə elmi biliklərin artırılması sahəsində çox böyük əhəmiyyətə malikdir.Heç şübhəsiz ki, hər bir dövlət, cəmiyyət gələcəyi olan uşaqlara qayğı göstərməli, onların həm fiziki, həm də mənəvi cəhətdən böyüməsi üçün hər bir şəraiti təmin etməlidir. Uşaqlara qarşı zorakılıq halları ilə kəskin mübarizə aparmaq lazımdır. Bu məsələyə ictimayyətin diqqətini yönəltmək, bu istiqamətdə maarifləndirmə artıq bir zərurətdir. Bundan başqa, hər ölkədə həyata keçirilən bütün proqramlar, layihələr uşaqların müdafiəsinin təmin olunmasına yönəldilməlidir [1].

Viktor Hüqo demişdir: “Mən dünyada körpə qığıltısından əzəmətli himn görmədim”. Uşaqlar hər evin, hər ailənin bəzəyidir, hər millətin sabahı, gələcəyidir. Amma bütün səylərə baxmayaraq, uşaq zorakılığına son qoymaq mümkün olmur [2].Hal – hazırda demək olar ki, dünya ölkələrinin əksəriyyətində uşaqlar hər gün müxtəlif zorakılıqlara məruz qalırlar.

Əlbətdə, uşaq hüquqlarının qorunması problemlərinin sosiolojiaraşdırması, uşaq zorakılığına təsir edən amillərin, cəmiyyətdəki ailə zorakılığı məsələsinin formalaşması prosesinin xüsusiyyətlərini araşdırmaqson dərəcə aktualdır.

Açar sözlər: ailə, zorakılıq, uşaq hüquqları.

Ədəbiyyat

1. İ.F.Dementyeva. Uşaqların təhlükəsizliyini təmin etmək. M., 2000.
2. N.K.Asanova. Uşaq zorakılığı və bunun mümkün nəticələri. Psixoloji jurnal. 1996., №6.
3. R.D.Şarapov. Cinayət qanununda fiziki zorakılıq. Sankt-Peterburq, 2001.
4. İ.F.Dementyeva, L.A.Oliferenko. Uşaqlığın Müdafiəsi İnstitutu: metodik vəsait. M., 2000.
5. Uşaq zorakılığı: istismar olunan uşaqlara və onların valideynlərinə kömək. M., 2001.
6. T.A.Safonova. Uşaq zorakılığı: təbiəti, səbəbləri, sosial və hüquqi qorunması. M., 1993.

ОБ ИЗУЧЕНИИ ИСТОРИКО-РЕЛИГИОЗНЫХ ПАМЯТНИКОВ ГЯНДЖИ КАК ХРАНИТЕЛЕЙ ТОЛЕРАНТНЫХ ЦЕННОСТЕЙ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА

Гасанов Эльнур
Гянджинское отделение Национальной Академии Наук Азербайджана
el-hasanov@mail.ru

Гянджа, один из древнейших городов Востока с многовековой историей, был построен на Великом Шелковом Пути, который соединяет Азию с Европой. Таким образом, Гянджа являлся духовным мостом между разными цивилизациями. Античный философ Страбон (I век до нашей эры) отмечал о древней Гяндже:

«Здесь один раз посаженная почва дает урожай два или даже три раза в год. Орошение почвы лучше, чем в Вавилоне и Египте. Кроме этого, здесь воздух особенно чист и целебен» [5, с. 9-10].

Благодаря многовековым национально-моральным ценностям этот город считался своеобразным «индикатором» социально-культурного и политико-общественного строя в течении многих веков. Один из самых древних православных церквей в Западном регионе страны находится в Гяндже и до сих пор здесь верующие выполняют свои религиозные обряды, отмечают важные исторические даты, праздники. А этот древний храм охраняется как важный историко-архитектурный памятник и жители города с уважением относятся к православным верующим.

Один из самых крупных и в тоже время древних немецких лютеранских храмов тоже сохранился в нашем древнем городе и объявлен историко-архитектурным памятником. Несмотря на то, что основная часть верующего населения города мусульмани, но в городе жители в течении веков с особым уважением охраняли древние албанские христианские храмы, а также грузинскую церковь и другие памятники.

Гянджа один из немногих городов, где существовали такие жилые кварталы как «Улица евреев», «Лезгинский квартал», «Квартал лагич (лахыдж)» и др., где представители других наций жили в мире и покое.

Гянджа столица первой демократической республики мусульманского Востока и в XX веке сохранила свой статус центра национально-государственных ценностей.

Один из важных памятников города, комплекс Имамзаде, расположенный на территории Государственного историко-культурного заповедника одного из древних центров науки и культуры – города Гянджи, был воздвигнут в 739 году над могилой Мовлана Ибрагима – сына пятого имама Мухаммед Багира, правнука Гусейна ибн Али – внука пророка Мухаммеда. Этот памятник является одним из основных символов города. Слово «Имамзаде» происходит от понятия «дитя имама» и означает «потомок рода имамов». В народе название Имамзаде считается священным местом поклонения и паломничества. Территория мавзолея, построенного в VIII веке, была расширена в XIV-XVI веках, а постройки вокруг него были воздвигнуты в основном в XVII-XVIII веках [8, с. 5-7].

В XX веке на внутренних стенах гробницы был обнаружен значимый историко-эпиграфический образец – древнее писание, которое было исследовано видными исследователями - профессором Исагом Джафарзаде, а также видным ученым в области эпиграфики, членом Национальной академии наук Азербайджана Мешадиханум Нейматовой. Территория места паломничества Имамзаде входила во владения представителей рода великого азербайджанского поэта и мыслителя Низами Гяджеви – Шейхзамановых. По указанию легендарного полководца, последнего хана Гянджи Джавадхана Зиядоглу (1748-1804 гг.), вписавшего свое имя в героическую историю Азербайджана, в Имамзаде были проведены широкомасштабные реставрационные работы. В 1878-1879 годах по инициативе генерал майора Исрафил бека Ядигярзаде, а в начале XX века – гянджинской интеллигенции в комплексе Имамзаде был проведен капитальный ремонт [1, с. 17; 2, с. 17].

В период с 1930 по 1944 год постройки комплекса были приспособлены под детский дом. Этот священный уголок приютил пострадавших во время войны малолетних детей разных национальностей [4, с. 14-18; 6, с. 42].

В Азербайджанской Республике толерантность и мультикультурализм имеют глубокие исторические корни и являются образом жизни народа. Многочисленные указы и распоряжения Президента Азербайджанской Республики Ильхама Алиева по восстановлению и реставрации религиозных и историко-архитектурных памятников, а также проекты, претворяемые в жизнь под руководством президента Фонда Гейдара Алиева, посла доброй воли UNESCO и ISESCO Мехрибан Алиевой, являются ярким примером заботы нашего государства о богатом национально культурном наследии Азербайджана.

Ключевые слова: Азербайджан, Гянджа, религия, исторические памятники, архитектура, толерантность.

Литература

1. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку: Изд-во АН Аз. ССР, 1956, стр. 17
2. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi Dövlət Arxivinin Gəncə şəhər filialı. F. 20, s. 1, iş 17
3. Azərbaycan etnoqrafiyası: 3 cilddə, I cild. Bakı: Şərq-Qərb, 2007, 544 s.
4. Əhmədov F.M. Gəncənin tarix yaddaşı. Bakı: Şirvannəşr, 1998, 328 s.
5. Hasanov E.L. Applied significance of investigation of handicrafts branches in Ganja city based on innovative technologies (Historical-ethnographic research). Prague: Vědecko vydavatelské centrum «Sociosféra-CZ» (Czech Republic), 2018, 110 p. ISBN 978-80-7526-323-0
6. Həsənov E.L. Azərbaycan ziyarətgahları: Gəncə İmamzadə türbəsi. Bakı: Elm və təhsil, 2012, 268 s.
7. Məmmədov F.N. XIX əsrdə Gəncə şəhərinin ərazisi, əhalisi və idarəsi (1868-ci ilə qədər) // Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (Tarix, fəlsəfə və hüquq seriyası), 1976, № 3, s. 30-37
8. Нейматова М. Эпиграфические памятники Гянджи. Баку, 1991, стр. 4-7
9. Памятная книжка Елисаветпольской губерніи на 1914 годъ. Елисаветполь, 1910, 337 с.

Gəncənin tarixi-dini abidələrinin tolerant dəyərlərin və multikulturalizm mühafizəçisi kimi tədqiqi haqqında

Elmi əsərdə qədim Gəncə şəhərinin mühüm tarixi və dini abidələri ənənəvi tolerant dəyərlərin tədqiqində vacib mənbə kimi araşdırılmışdır. Həmçinin, müxtəlif tarixi mənbələr, arxiv materialları və elmi əsərlər əsasında bu şəhərin sakinləri arasında əsrlər boyu multikulturalizmin mühafizəsinin səciyyəvi xüsusiyyətlərinə dair mühüm faktlar və dəlillər üzə çıxarılmışdır.

MÜASİR AİLƏ PROBLEMLƏRİNİN CƏMİYYƏTƏ TƏSİRİ

Həsənova Günay
Azərbaycan Universiteti
hesenova2307@gmail.com

Müasir ailənin problemləri ən aktual problemlərdən biridir.Bunun əhəmiyyəti onunla müəyyən edilir ki, bir tərəfdən, ailə cəmiyyətin əsas sosial institutlarından biridir, insan həyatının təməl daşıdır, digər tərəfdən isə bu institut hazırda dərin böhran keçirir. Böhran təkcə postsovet məkanında deyil, Avropa ölkələrində, Amerikada da müşahidə olunur."Demoqrafik fəlakət", "ailə böhranı" anlayışları ictimai səviyyədə getdikcə daha çox müzakirə olunur. Lakin ailə münasibətləri sahəsində qorxulu heç nə hələ baş vermir, köhnəlmiş ailə modelindən tədricən müasir həyat tərzinin tələblərinə cavab verən yeni ailə modelinə keçid həyata keçirilir.Buna baxmayaraq, böhran mövcuddur və bunun səbəbi qlobal sosial dəyişikliklər, əhalinin miqrasiyasının artması, urbanizasiya və s. “ailə təməllərinin” sarsılmasına səbəb olur.Bu və bir sıra digər amillər ailənin cəmiyyətin sosial təsisatı kimi tənəzzülə uğramasına, dəyər istiqamətindəki yerinin dəyişməsinə gətirib çıxarır.Ailə problemləri dərhal və birdən yaranmır.90-cı illərin böhran dövründən bu günümüzə qədər müəyyən problemlərin tədricən artması və çətinləşməsi prioritetlərinin dəyişməsinə səbəb olur [3, s.44].

Kəskin sosial problemlərdən biri boşanma problemidir.Məşhur rus sosioloqu N.M. Rimaşevskaya hesab edir ki, cəmiyyət həyatında dönüş nöqtəsində boşanma problemi və ailənin taleyi qeyri-adi dərəcədə ciddi əhəmiyyət kəsb edir [4]. Demoqrafların fikrincə, kişilərin və qadınların təxminən yarısı həyatı boyu evliliyinə xitam verir: orta hesabla hər beş qeydə alınan nikahdan ikisi pozulur.Boşanmaların 30% - dən çoxu 5 ildən az müddətdə mövcud olmuş gənc ailələrin payına düşür. Ölkəmizdə boşanmaların sayının artması bütövlükdə cəmiyyət üçün, sosial sabitləşməsi üçün ciddi problemdir.

Müasir ailə problemlərindən biri də iqtisadi problemlərdir. Ailənin iqtisadi problemləri ondan ibarətdir ki, bu gün əsas ailə strategiyası yaşamaq strategiyasına çevrilir.Ailələrin əksəriyyəti çətinliklərə passiv uyğunlaşma üsulunu seçirlər.Ev təsərrüfatlarının gəlirlərinin azalması ailənin sosial rolunun zəifləməsinə səbəb olur.Bu gün bir çox ailələr üçün mövcud olan sosial köçürmələr sistemi uşaqlar üçün durmadan artan xərcləri kompensasiya edə bilmir.Birbaşa yaşamağa gəldikdə ən çətin vəziyyətdə işsiz ailələr, tək analar və çoxuşaqlı ailələrdir [2, s.77].

Qadınların artan azadlığı, onların ictimai həyatda getdikcə fəal iştirakı ana olmaq üçün təbiət tərəfindən təyin edilmiş vəzifənin yerinə yetirilməsində böyük çətinliklər yaradır.Müasir ailənin əsas ziddiyyəti bundan ibarətdir.Bu fenomen bəzi qadınların uşaq sahibi olmaqdan, tərbiyə etməkdən imtina etmələri ilə əlaqələndirilir. Ailədə qadınlarının əksəriyyəti sadəcə ailələrini qidalandırmaq üçün işləmək məcburiyyətində qalırlar və çox vaxt (məsələn, tikintidə) çox ağır fiziki iş görürlər.Lakin onların bir qismi yeni şəraitə uğurla uyğunlaşıblar və biznesdə, menecmentdə fəal iştirak edirlər.Buna görə, bu gün qadınların ailə funksiyalarını necə yerinə yetirməsi məsələsi açıq qalır [1, s.28].

Ailənin sosial qrup kimi problemləri, ilk növbədə, bir neçə onilliklər ərzində müşahidə olunan qohumlar, valideynlər və uşaqlar arasındakı münasibətlərin zəifləməsi ilə əlaqədardır.Bu, "atalar və uşaqlar" adlanan münaqişədir və bu münaqişə onların həyatda mövcud olan problemlərə müxtəlif münasibətlərində ifadə olunur. Onun əsasında gənclik maksimalizmi və böyüklər avtoritarizmi

dayanır. Valideynlər və uşaqlar arasında qarşılıqlı əlaqə problemi, öz növbəsində, ailə dəyərlərinin ötürülməsi problemi ilə ayrılmaz şəkildə bağlıdır.Bu, təkcə ailənin sosial-iqtisadi böhranı ilə deyil, həm də ailə institutunun özünün dəyişməsi ilə müəyyən edilir.Urbanizasiya proseslərinin təsiri altında nəsillər arasındakı əlaqələr zəif və dayaz olur.Artıq bu gün nəsillər arasında inam dərəcəsi azalır.Valideynlərin və uşaqların qarşılıqlı münasibətləri problemi bu gün çox kəskindir. Uşaqlar valideynlərinə qayğı göstərməyi dayandırırlar.Beləliklə, dövlətin yükünə çevrilən tənha yaşlı insanların sayı artır.Nəsillər arasındakı əlaqənin itirilməsi təkcə cəmiyyətdə deyil, həm də ailədə mənəviyyatın aşağı düşməsindən xəbər verir ki, bu da mənfi dərin sosial və psixoloji, demoqrafik nəticələrə səbəb olur.Bu günün vəzifəsi nəsillərin onların varisliyinə olan münasibətlərini uyğunlaşdırmaqdır [2, s.81].

Ailə problemlərinin həyat dövrünün müxtəlif mərhələlərində nəzərdən keçirilsə, onların bütün müxtəlifliyini təsəvvür edə bilərik.Müasir ailələrin qarşılaşdığı problemlərə dair misallar kifayət qədərdir.Ailənin həyat dövrünün müxtəlif mərhələlərində problemlər fərqlidir [4].

Ailə münasibətləri əxlaq və hüquq normaları ilə tənzimlənir.Onların əsasını nikah -kişi və qadın münasibətlərinin legitim tanınması təşkil edir, ailədə uşaqların dünyaya gəlməsi və ailə üzvlərinin fiziki və mənəvi sağlamlığına görə məsuliyyətmüşayiət olunur.XXI əsrin reallıqlarında başqa bir insanla davamlı, ahəngdar ittifaq əldə etməyimiz və bu ittifaqı bütün ömrümüz boyu necə saxlamağımız ilə bağlı məsələlər daha da kəskin şəkildə durur.Ailə münasibətləri psixologiyası problemi insanın həyatı və şəxsiyyət məfkurəsini dərk etmək, bir insanın ailə ssenarisini qurmaq baxımından və ailə həyatının məna və məqsədlərini həyata keçirmək baxımından ortaya çıxır. Ailə ilə əlaqəli problemlərin öyrənilməsi həm nəzəri, həm də praktik həyatda getdikcə daha vacib hala gəlməkdədir.

Açar sözlər: ailə, nigah, boşanma, ailə böhranı.

Ədəbiyyat

1. Биктагирова Г.Ф., Муртазина Э.И. Психология и педагогика семьи. Казань: Издательство «Бриг», 2015. 232 с.
2. Никонова Э.И., Падерин В.К. Социология семьи. Казань, КГАСУ, 2014. 136 с.
3. Психология семейных отношений. Москва, Изд-во ЭКСМО-Пресс, 2010. 512 с.
4. Социальное значение изменений современной семьи // http://www.demoscope.ru/weekly/2006/0237/analit04.php

İNTİBAHIN İNGİLİS FRAZEOLOJİ SİSTEMİNƏ TƏSİRİ

Həsənova Lamiyyə
Azərbaycan Universiteti
hasanovalamiyya97@mail.ru

Frazeoloji birləşmələr bütün dillərin inkişafında çox vacib rol oynayır .Müasir inkişafla əlaqədar olaraq xalqlar bir-biri ilə elmi, mədəni, siyasi, iqtisadi cəhətdən əlaqələr yaratdığına görə bu dillərdən bir-birinə alınma sözlərin keçdiyi kimi frazeoloji birləşmələr də keçmişdir. İntibah dövründə ingilis dili yeni bir mərhələyə keçdi ki, bu mərhələdə yeni milli ədəbi ingilis dilinin

yaranmağa başladı və biz buna renesans yazıçılarının əsərlərində, xüsusilə, dahi ingilis dramaturqu Uilyam Şekspirin əsərlərində rast gələ bilərik.

Dahi ingilis şairi və dramaturqu U.Şekspir dünyanı heyrətə gətirən, bənzərsiz sənət inciləri yaradan yazıçılardan biri olmuşdur. Onun yaratdığı əsərlər XVI –XVII əsrlərə aid olsa da, bəşəriyyət günü gündən inkişaf edib dəyişsə də, yeni, müasir dövrümüzü əks etdirən ədəbiyyat nümunələri yaransa da Şekspir yaradıcılığında rast gəlinən ideyalar heç vaxt köhnəlmir, onun söylədiyi fikirlər bu gün də aktualdır və insanlar tərəfindən sevilərək oxunurlar . Onun yaradıcılığı hər dəfə tədqiq ediləndə yeni keyfiyyətlər, yeni ideyalar ortaya çıxır. Tədqiqatlar dərinləşdikcə, Şekspirin əsərlərindəki incə məna çalarları açıldıqca bizə daha aydın olur ki, hamımızın qarşısına çıxan sualları duymuş, gündəlik həyatda rast gəlinən problemlərin cavablarını o bir neçə yüz il bundan qabaq son dərəcə yüksək sənətkarlıqla vermişdir. O, yalnız öz dövrünün adamı olmamışdır, yaratdığı sənət inciləri ilə bütün dövrlərin və bütün dünya xalqlarının həyatına işıq salmış, onların vəziyyətini əks etdirə bilmişdir. Şekspir yalnız intibah dövrünün görkəmli şairi deyil, həmçinin dövrünün novatoru, minlərlə yeni sözün yaradıcısı idi və bu da onun necə dahi, əvəzsiz biri olduğunun sübutu idi. O, böyük şücaət göstərərək ondan əvvəl heç kəsin işlətmədiyi, qələmə almadığı yeni sözlər yaratmışdır. Bu onun intibah dövrünə verdiyi ən böyük töhvə idi.Şekspir nitq hissələrini bir-biri ilə əvəz edərək, isimləri sifət və ya fel kimi, sifəti zərf kimi, əvəzliyi isim kimi işlədirdi və bununlada onun əsərlərini oxuyarkən oxucular ilk dəfə eşidib, gördükləri sözlərin mənasını başa düşə bilirdilər. Demək olarki onun bütün əsərlərində bu qəbildən olan sözləri görmək mümkündür.İngilis dilinin lüğət tərkibinə nəzər salsaq görürük ki, bu dilə məxsus frazeologizmlərin böyük bir qismi bədii ədəbiyyat nümunələrindən götürülmüşdür, məhz bu baxımdan da Şekspirin yaradıcılığı olduqca zəngindir. Yazıçı öz əsərlərində həm ümumxalq dilinə məxsus frazeologizmlər, həm də ingilis ədəbi dilində özünə möhkəm yer tutmuş obrazlı ifadələr , frazeoloji birləşmələr yaratmışdır. Şekspir tərəfindən yaradılmış və dillər əzbəri olan birləşmələr şekspirizmlər adlanırlar. Şekspir tərəfindən yaradılmış və onun müxtəlif əsərlərdə ilk dəfə işlədilmiş ifadələrə nəzər salaq:

When sorrows come, they come not single spies, but in battalions–Şekspir tərəfindən yaradılmış bu birləşmənin azərbaycan dilində ekvivalenti vardır; dərd gələndə xəlbirlə gəlir. Hamletin atasının dilindən deyilmiş həmin ifadənin işlənmə yerinə nəzər salaq [4, p.218].

Cladius : O, this is the poison of deep grief ; it springs
All from her father's death .O Getrude ,Getrude ,
When sorrows come , they come not single spies
But in battalions .First , her father slain :….

Şekspir yaradıcılığının zirvəsi hesab olunan "Romeo və Cülyetta" tragediyasında da öz sənətinin zirvəsinə qalxa bilmiş və bu gün də dilimizdə işlənən ifadələr yarada bilmişdi. "To secure"–müdafiə etmək sözünü ilk dəfə feil kimi işlətmişdir, bump –qəfildən, shudder –titrəmə sözü də ilk dəfə Şekspir yaradıcılığında isim kimi işlənilmişdir [1, p.130]. All of a sudden –birləşməsi "suddenly" sözünün daha poetik variantıdır və ifadənin mənası- anidən, qəfildəndir.

Age cannot wither her, nor custom stale herinfinite variety – ifadəsiylə Şekspir Kleopatranın gözəlliyini təsvir edir. Bu birləşmənin qarşılığı – nə illər yaşlandıra bilər onu, nə də adətlər köhnəldə bilər onun sonsuz varlığını.

Şekspir qələminin yaratdığı ifadələrdən olan "What a piece of work is man" ifadəsinə nəzər salaq:

Hamlet: What a piece of work is man! How noble in reason! How infinite in faculties! in form and moving, how express and admirable! in action ,how like an angel! In apprehension! how

like a god! the beauty of the world!the paragon of animals. Bu parçadangördüyümüzkimi "What a piece of work is man" ifadəsi ilə insanın yüksək varlıq olduğu göstərilir [3, p.1085].

All that glitters isn't gold – bu birləşmənin atalar sözü olduğunu düşünənlər az deyil , lakin apardığımız tədqiqatlar nəticəsində birləşməsin Şekspir tərəfindən yaradıldığı ortaya çıxdı . "Hər parıldayan qızıl deyil" mənasında işlədilir.

To have on the hip-əlverişsiz şəraitdən istifadə etmək, a pound of flesh-dəqiq miqdar, to one's heart's content – ürəyi istədiyi qədər ifadələrini də Şekspir həmin əsərində ilk dəfə olaraq işlətmişdir .

Cakes and ale – ifadəsi çox yığcam və bir o qədər də mənalıdır. Birləşmənin mənası – həyatdan zövq almaqdır. (2, p 89)

Make your hair stand on end - birləşmənin qarşılığı azərbaycan dilində "tükləri biz biz durmaq , tükləri ürpəşmək, tir-tir əsmək , qorxmaq" –dir .

To gild refined gold – birləşməsi vaxtını boş yerə sərf etmək mənasında işlədilmişdir.

"Othello " faciəsində də Şekspir öz ənənəsinə sadiq qalaraq və öz yenilikçi ruhunu ortaya qoyaraq yenədə ilk dəfə onun yaradıcılığında rast gəlinən ifadələr yaratmağa müvəffəq olmuşdur : accomodation – sığınacaq, to comply –tabe olmaq, tranquil- sakit , silliness- axmaqlıq , the seam side –xoşagəlməyən tərəf , the greed eyed monster – qısqanclıq, to wear one's heart upon one's sleeve – öz hisslərini gizlətmək.

Aforegone conclusion – Otellonun dilindən deyilmiş bu birləşməni açıq aşkar nəticə, sonu öncədən bilinən nəticə kimi tərcümə etmək olar.

İngilis dilinin frazeologizmlərlə zənginləşməsində Bibliyanın böyük rolu var. Qədim dövrlərdən indiyədək Bibliya insanlar tərəfindən ən çox oxunan kitablardan biri olmuşdur və məhz buna görə də ingilis dilindəki frazeologizmlərin əksəriyyəti Bibliyadan götürülmüşdür. 1604 –cü ildə King James I Bibliyanın ingilis dilinə tərcümə olunmasını əmr etmişdi . Tərcüməsi 1611-ci ildə tamamlanan King James Bible, Bibliyanın ilk tərcüməsi olmasa da ən çox oxunan versiya oldu . Bibliyadan götürülmüş frazeologizmlər bibleizmlər adlanır . King James Bayblın təsiri o qədər böyük olmuşdur ki Bibliyadan əldə olunan frazeoloji birləşmələr bu gün də işlədilir, həmin birləşmələrin bir qisminə nəzər salaq:

To be of one mind "bir fikirdə qalmaq" , forbidden fruit" haram" , to hide one's light under bushes "bir kəsin istedadını boğmaq" , in the twinkling of an eye "bir göz qırpımında" ,the prodigal son "fərsiz oğul" , at the eleventh hour "son məqamda" , a dead letter " həyata keçirilməmiş" , to beat the air "əbəs yerə çalışmaq" , to drow a bow at a venture " bir şeyi düşünmədən etmək" , to have pity on (smb) "yazığı gəlmək" [2, p.95].

Bəzi bibleizmlər zaman keçdikcə formaca qismən dəyişdirilmiş və ingilis dilinin lüğət tərkibinə müasir formada daxil olmuşdur.

A man soweth, that shall he reap "nə əkərsən, onu da biçərsən "ifadəsində to sow feli arxaik formada işlədilmişdir , lakin ifadənin müasir formasında bu arxaik forma atılaraq "Whatever a man sows, that shall he reap kimi işlədilir .

Yuxarıda göstərdiyimiz frazeologizmlər intibah dövründə yaranmış, həmin dövrdən bu günə qədər istifadə olunmuş və ingilis dilinin lüğət tərkibinin zənginləşməsində çox böyük rolu olmuşdur.

Açar sözlər: frazeoloji birləşmə, Şekspir, Bibliya, renesans, üslubiyyat.

Ədəbiyyat

1. Bevington David. Shakespeare, Oxford, 2002.
2. Chingiz Garasharli, Language and Culture, Bakı, 2014.
3. William Shakespeare, Hamlet , University of Michigan.
4. Şekspir U., Seçilmiş əsərləri .Tərcümə edən : S..Mustafa, Şərq-Qərb nəşriyyatı, 2009.

KONTRKULTURA İDEYALARININ C. KERUAK YARADICILIĞINA TƏSİRİ HAQQINDA

Həsənova Turanə
Azərbaycan Universiteti
turana.hasanova@student.au.edu.az

Bildiyimiz kimi, C. Keruak yaradıcılığı haqqında çox müxtəlif, bəzən isə təzadlı fikirlər irəli sürülür.Yazıçının yaradıcılığını obyektiv və hərtərəfli qiymətləndirilməsi üçün isə ilk öncə onun yaradıcılıq metodunu araşdırmaq yerinə düşərdi. Məsələn, qərb ədəbiyyatında onu "sadəlöhv realist", "neoromantik", "sürrealizm davamçısı", "yazıçı - mistik" adlandırırlar. Rus amerikanistləri isə C. Keruakı yazıçı-modernistlərə aid edirlər. Məlumdur ki, "modernizm" anlayışının bir neçə mənası mövcuddur. İlk öncə "modernizm" XX əsrin bədii sistemini ifadə edir. Öz növbəsində onun daxilində çoxlu sayda cərəyanlar və istiqamətlər mövcuddur. İ.F.Volkovun sözləri ilə desəkyaradıcılıq metodu insanın hisslərinin və bədii obrazın ətraf aləmlə münasibətdə "bu və ya digər obyektiv-tarixi qanuna uyğunluğudur" [1, s.43].

Kontrkultura hərəkatının doğurduğu gerçəklik çox mürəkkəb və mübahisəlidir.Belə ki, tənəzzül prosesi bütün Amerika cəmiyyətinə və onun bütün qatlarına sirayət etmişdi. Bitnik hərəkatı həmin dövrün doğurduğu həqiqətlərin çox mürəkkəb və təzadlı güzgüsüdür. Bu güzgüdə Amerika ictimai həyatındakı böhran hadisələri bütün açıqlığı ilə əks olunurdu. Müharibədən sonrakı onillik tək siyasətdə deyil amerika cəmiyyətinin bütün mənəvi həyatında da müəyyən təzyiqlərə məruz qalırdı. Bitnikər,eləcə də C.Keruak belə hallarla barışmaq istəmirdilər. Onlar rəsmi və hakim ideologiyaları, kohformist amerika həyat tərzini inkar edirdilər. Real idealların axtarışında onlar öz əsərlərində demokratik ənənələrə və amerika transendentalist fikirlərə,Şərqin fəlsəfi və mistik təlimlərinə müraciət edirdilər.

Qeyd etdiyimiz kimi, hələ gənc yaşlarından Keruak Tomas Vulf yaradıcılığının vurğunu idi. Kolumbiya universiteinin tələbəsi olan Keruak yazıçının subyektiv epopeya janrında qələmə aldığı əsərləri dönə-dönə oxuyur,onların təsiri altında yaşayırdı. Güclü yaddaşa malik olan Keruak A. Rembo, F. Nitsşe, C.Coys, O.Hakslinin əsərlərinə də böyük maraq göstərirdi. Hələ məktəb illərindən o H.Melvill, E.Dikins,U.Uitmen kimi amerikan romantiklərinin əsərləri ilə tanış idi. Daha sonralar isə gələcək yazıçı Ç.Dikens və F.Dostoyevski kimi dahi yazıçıların əsərlərini maraqlaoxuyur. Qeyd etmək lazımdır ki, hələ o zaman yazıçının estetik baxışları yenicə for-malaşmağa başlayırdı. Lakin, artıq o vaxtlardan gələcək yazıçının modernist ədəbiyyat və incəsənətə yan almağı aydın görünürdü. Belə ki, musiqidə onu daha çox caz improvizasiyaları, atonal musiqi və bunlarla eyni zamanda Betxoven,Mosart ,Malerin klassik əsərləri cəlb edirdi. Gələcək yazıçı rəssamlıq sahəsində isə üstünlüyü daha çox impressionist və sürrealist müəllifərə,xüsusilə Pikasso və Dala verirdi.Keruak həmin dövrlərdə Nyu-Yorkun intelektual bohemalarına qoşulmuşdu.Bununla yanaşı Keruak heç də sadə Amerika xalqının həyatına olan marağını itirməmişdi. Məhz, bu həyat ona real, rəngarəng,çoxşaxəli və maraqlı gəlirdi. Gənc

yazıçının dünyaya estetik baxışlarının müəyyən eklektikliyi,onun yaradıcı axtarışları təxminən dörd il üzərində işlədiyi "Şəhərçik və şəhər" romanında əks olunmuşdu. Roman ailə münasibətlirinin dağılması və insanlar arasında münasibətlərdən bəhs edir. Tədricən artan üzücü tənhalıq hissi romanın sonunda həyatın mənasız və maraqsız olması fikrinə gətirib çıxardırdı. Keruakın fikrincə bu əsərin onun sonrakı yaradıcılığına heç bir aidiyyəti yoxdur.

Artıq C.Keruakın yazıçılıq manerası birinci dərc edilmiş romanından yeddi il sonra işıq üzü görmüş "Yolda", *"On the Road"*əsərində əmələ gəlmişdi. Bu dövrlərdə onun tərəfindən "spontan nəsr" nəzəriyyəsi hazırlanmışdı. Mahiyyət etibarı ilə bu nəzəriyyə yaradıcılıq metoduna deyil, poyeziya və üslub sahəsinə aid idi. Qeyd etmək lazımdır ki, Keruak "Yolda" romanı üzərində işləyəndə çox böyük yaradıcılıq çətinlikləri ilə üzləşir.Belə ki, yazıçı ilk romanından fərqləndirə biləcək yazı materialına yeni yanaşma tərzinin ehtiyacını hiss edir və əvvəl istifadə etdiyi üsullar onun üçün artıq lazımsız görünürdü. Nəhayət, yazıçı belə bir fikrə gəlir ki, olmuş hadisələri "olduğu kimi", sanki "etiraf" edərək nəql etmək lazımdır. Məhz, T.Vulf və H.Miller qələmindən çıxan əsərlər də bu tərzdə yazılmışdır. Bildiyimiz kimi, dini təcrübədə etiraf etmək əsas və vacib hissə sayılır. Bəzi amerika tədqiqatçıları da C.Keruakın katolik tərbiyəsi aldığı üçün etiraf formasını seçməsini din ilə əsaslandırırlar. Sonralar Keruak bu haqqda "Dağıdıcı mələklər--Desolate Angels" romanında bütün təfərrüatı ilə işıqlandırır. Oxucularla birbaşa əlaqə yaratmaq istəyi tək C. Keruakın deyil bir çox bitnik-yazıçılarının istəyi idi. Bundan başqa bitnikər özləri oxucularla təmas qurmağa cəhd edirdilər.Onlar tez-tez kütlə içərisində şeir və nəsr əsərləri oxuyurdular.Keruak da belə yığıncaqlarda kitab oxuyur, caz musiqiçiləri ilə birlikdə teatrlarda və televiziyada ifa edirdi. Yazıçının impressionizmə və sürrealizmə olan marağı "spontan nəsrin" nəzəri və praktiki cəhətdən formalaşmasında böyük rol oynayırdı. Belə ki, C.Keruakın İmpressionistlərin hadisə və əşyadan aldıqları dəqiq ilk təəssüratlarını, sürrealistlərin "sürətli yazı" sahəsində eksperimentlərini çox sevirdi. Və ən əsası yazıçının caz improvizasiyalarına olan marağı onun yaradıcılığına böyük təsir göstərmişdi. C.Keruak tədqiqatçıları yazıçının "spontan nəsr" üslubundan istifadə etməsinin bir neçə səbəblərini izah edirdilər.Məsələn, yazıçının Nyu-Yorklu dostlarından biri ona rəssamın fırça və qələmlərlə görüb və təəssüratları altında çəkdiyi rəsm əsərindən nümunə götüməyi məsləhət görmüşdü. Yalnız fırça və qələmlərin yerinə sözlərdənistifadə etməyi məsləhət görmüşdü. Belə bir yazı üslubu T.Vulf yaradıcılığında da təsadüf edilir.

Demək olar ki, C. Keruak yaradıcılığının əsas hissəsini onun böyük və kiçik həcmli nəsr əsərlərinin cəmləndiyi "Duluz haqqında əfsanə" si təşkil edir. Həqiqətən, bura daxil olan əsərlər bir-birləri ilə sıx əlaqəlidirlər. Əsərlərdə bir çox ədəbi qəhrəmanların yalnız adları dəyişərək bir əsərdən digərinə çox böyük məharətlə keçirilir. Əsərin birində baş verən bu və ya digər hadisə başqa bir əsərdə işıqlandırılır.Bəzən isə müəllif oxucularla öz personajlarını tanış etmək və ya hadisənin tam təfərrüatını təsvir etmək yerinə özünün daha erkən yazdığı əsərlərinə müraciət edərək oradan məlumat almağı məsləhət görür.

Müəllifin əsərlərinin nəql forması da öz tərkibinə və məzmununa görə çox fərqlidir. Onlar bir bir-birlərini tamamlayırlar, eyni zamanda ayrı-ayrılıqda da tam sərbəst əsərlər kimi qəbul edilirlər. Məsələ burasındadır ki, əsərlərin hamısında qəhrəmanın tərcümeyi-halı nəql olunur. Belə ki, romanın birində verilmiş mövzu digər əsərdə öz sonrakı inkişafını tapa bilir. C.Keruaka etiraf edir ki,hələ 1943-cü ildə o ticarət flotunun matrosu işlədiyi zamanlar özü ilə dənizə C. Qolsvorsinin "Forsaytlar haqqında saqa"nı götürürdü və onu oxuduğu zamanlar böyük bir əsər yazmaq arzusunda idi. Yazıçı əsərlərinin birində sözönü kimi yazır "Mənim yazılarım Prustun "İtirilmiş zamanın axtarışındakı" kimi böyük bir əsərdir.Yeganə fərq ondadır ki, mənim xatirələrim ölüm yatağında

deyil hadisələrin qaynar mərkəzində yazılmışdır" Əlbəttə ki, Keruaka bu qəbildən amerika və qərb ədəbiyyatından çoxlu nümunələr məlumdur. C.Keruakın gənclik illərinin kumiri Tomas Vulf idi ki, onun da əsərləri silsilə təşkil edirdi. C.Keruak yaradıcılığına Henri Millerin də əsərləri böyük təsir etmişdi. Belə ki, H.Millerin əsərlərində ön plana avtobioqrafik qəhrəmanın təsviri çəkilir. C.Keruak qələmindən ilk çıxan və işıq üzü görən "Şəhərcik və şəhər" romanıdır. Roman üçüncü şəxs tərəfindən nəql edilir və onu ailə həyatının xronikası kimi qəbul etmək olar. Bu əsərdə hələ C. Keruakın yazıçı manerası formalaşmamışdır [3, s.12-20].

Daha sonra yazıçı əsərlərinin mövzusunu və problemləri Amerikanın böyük şəhərlərində yaşayan kontrkultura nümayəndələrinin həyatlarına müraciət edərək götürmüşdür. Beləliklə, tədricən C.Keruakın yazı tərzi də dəyişməyə başlayır. Belə ki, o əsərlərində sakit, mülayim nəql tərzindən sərt şəkildə subyektiv dünya görünüşünün təhlilinə keçir. Lakin, bununla bərabər "Desolate Angels"əsərindəproblemlər haqqında fəlsəfi düşüncələrinin roluda öz pik nöqtəsinə yüksəlir. Bundan sonra isə yazıçı "Big Sur" əsərində acımasız şəkildə altmışıncı illərin dərin ruhi böhranının səbəbini və mahiyyətini təhlil etməyə çalışır [2, s.153-169].

C.Keruak yaradıcılığının və həyatının sonlarında isə gənclik illərinin təcrübəsini bir daha nəzərdən keçirərək yarımçıq qalmış əsərlərini bitirməyə çalışır. Maraqlıdır ki, Cek Keruak dəfələrlə yazırdı ki, onun əsərləri bir növ "yaramaz rəvayətləridir"ki, onları da ancaq və ancaq barda yaxın dostlara rahatlıqla danışmaq mümkündür.Digər tərəfdən isə onun elə fikirlərinə də rast gəlmək mümkündür ki, o həyatı şüurlu şəkildə tamamilə yeni üsul ilə, spontan formada dəqiqliklə təsvir etdiyini bildirirdi. Yazıçı hər şeydən əvvəl tək həyata deyil, ümumiyyətlə həyat fikirlərini tam səmimiyyətlə münasibət bəsləməyin vacibliyini vurğulayaraq "həyatın elə Müqəddəs Ruh" olduğunu israrla təkrarlayırdı [4].

Beləliklə, "Duluz haqqında əfsanə" rəvayətini iki qrup əsərə ayırmaq olar. Birinci qrupa böyük həcmli əsərlər aiddir. Bu əsərlər insanın dünyagörüşündə yarana biləcək problemlərin bədii təhlilini, insan varlığının mahiyyətini, yazıçının cəmiyyətdə vəzifəsini təqdim edir. Bu əsərlərdə baş verən hadisələr fonunda yetərincə personajlar iştirak edir. İkinci qrupa isə dərin psixoloji durumu ilə fərqlənən,insanın intim həyatını əhatə edən əsərlər daxildir.

Açıq-aydın göründüyü kimi birinci qrupa müəllifin romanlarını, ikinci qrupa isə povestlərini aid etmək olar. Düzdür,roman və povesti müqayisə etdikdə ikincinin daha qapalı və ciddi olması nəzərdən qaçmır. Povestin süjeti müəyyən bir şəxsin həyatı ilə bağlı olur. Bununla bərabər "roman və povestin bir-birlərinə çox maraqlı keçidlər alması" nəzərdən qaçmır [5].

Kontrkultura ideyalarının C.Keruak yaradıcılına təsiri"Yolda" əsərindən daha aydın görünür. Demək olar ki, bu əsər müəllifin fikir axtarışlarının məhsuludur. Məlumdur ki, yazıçı "Yolda" əsəri üzərində altı il işləmişdir. Sözügedən əsərin 1957-ci ildə çap olunmuş variantından əlavə bir neçə variantı da mövcud imiş.

Daha sonralar onlar sərbəst əsərlər kimi çap olunmuşdu.Kontrkultura ruhlu "Yolda" əsəri Keruakın fikrincə dələduz rəvayətidir.Belə ki, əsərin əsas qəhrəmanı ictimai-tarixi vəziyyətin təsirindən özü-özünü axtarır. Keruak yaradıcılığının, daha dəqiq desək "Yolda" əsərlərini tədqiq edən Tim Hant hesab edir ki, bu əsərlər daha çox tərbiyəvi romanlardır. Tim Hant "Yolda" romanını "Amerika tərbiyəsi" adlandırır.

Açar sözlər: yazıçı, yaradıcılıq metodu, estetik baxış, roman.

Ədəbiyyat

1. Волков И. . Творческиеметодаихудожественныесистемы. М., Искусство, 1978, с. 43.
2. Гуревич П.С. Культура и контркультура. Культурология. – М.: Знание, 1996. – С. 153–169.
3. Левикова С.И. Молодежные движения США. Вестник Московского Университета. Серия 10. Философия. – 1991. – №1. – С. 12–20.
4. Денисова Т.Н. На цути к человеку. Борьба Реализма и модернизма в современном романе американском. Киев, Наукова думка, 1971. 340 с.)
5. Денисова Т.Н. Современный американский роман. Киев, Наукова думка, 1976. 306 с.

POSTMODERNİZM CƏRƏYANI MODERNİZMİN BÖHRANINA HUMANİTAR FİKRİN REAKSİYASI KİMİ

Həsənova Türkay
Azərbaycan Universiteti
hasanova-t95@mail.ru

Modernizm 19-cu əsrin sonu ilə İkinci Dünya müharibəsinin başlanğıcına qədər olan müddətdə Qərbi Avropada, Amerikada, xüsusilə incəsənətdə və ədəbiyyatda meydana gələn müəyyən tarixi, sosial, ideoloji, radikal dəyişiklikləri izah etmək üçün istifadə olunan bir termindir .

Virciniya Vulf, Ezra Paund, T. S. Eliot, J. Coys, Marsel Prust, Franz Kafka, E. Heminquey, B. Brext, P. Elüar və P. Neruda kimi sənətkarlar yüksək modernizmin əsas simaları hesab olunurlar. Bu yazıçıların yaradıcılıqları forma və məzmunca modernizmin poetikasına uyğun gəlir.

Modernizm XX yüzilliyin əvvəllərində meydana gəlmişdir. Bu dövrdə incəsənət modernizm vasitəsilə bir növ müasir həyat düşüncə və duyğusunu ifadə edirdi. 20 - ci əsrin əvvəllərində müasir maşınlar gündəlik həyatın sürətini, atmosferini və görünüşü dəyişdirdiyi kimi rəngarənglik nümayiş etdirən sənətkarlar və yazıçılar da milli sənətin klassik formalarını köklü şəkildə dəyişən yeni formalar tapmağa çalışmışdırlar.

Modernist bədii hərəkatı estetik və sosial sərhədləri pozan intellektual hərəkatdır. Bu cərəyan XX əsrin əvvəllərində ortaya çıxdı və yazı, rəssamlıq, heykəltəraşlıqda və bütün bədii və yaradıcılıq sahəsində ardıcıl üslubdan istifadə edərək müxtəlif hadisələri izah etməklə bilinməyən kodların və ya qaydaların aşkar edilməsini hədəf seçdi.

Modernistlər özlərini "avanqardist" adlandırırdılar. Modernist hərəkatı, 20 - ci əsrin əvvəllərində "modernizm" sözünün üstünlük təşkil etdiyi müddətə qədər müncər edildiyi "avanqard" ifadəsinin sənətlər üçün istifadə edildiyini ilk dəfə qeyd etdi (hərbi və siyasi kontekstdə). Sürrealizm modernizmin ən ekstremal forması və ya "modernizmin avanqardı" kimi ictimaiyyət arasında şöhrət qazandı.

Modernizm realizmin mühafizəkar dəyərlərinə qarşı bir üsyan idi. Modernizmin ən paradiqmatik motivi ənənənin rədd edilməsi və onun təzələnməsi, birləşdirilməsi, yenidən yazılması, yenidən baxılması və parodiya olunmasıdır. Modernizmin qırılması incəsənətdə Maarifçilik düşüncə tərzinin uzun müddət davam edən inamını, müəllifin yaratdığı əsərin hüdudlarında Allah statusuna malik olması ideyasını rədd etdi.

Modernizm Allahın və ənənənin yerinə ağlın və elmin tətbiq olunduğunu və yalnız bu formada qurulan bir dünya nizamının firavanlığı təmin edəcəyini irəli sürür. Mədəniyyət, inam və ənənəyə aid olan elmlə izah edilə bilməyən hər şeyi məhv etməyə çalışır. Bunu gerçəkləşdirmək üçün isə sənət, fəlsəfə və ədəbiyyatdan bəhrələnməyə çalışır.

Bu cür tarixi, siyasi və fəlsəfi inkişaf qarşısında ədəbiyyatın laqeyd qala bilmədiyi görünür. Modernist ədəbiyyatda sənətkarlar, xüsusən şüuraltı və insanın daxili dünyasına söykənməklə personajların oxucuya ötürülməsində yeniliklər yaratdılar.

İngiltərə və Amerikada bir ədəbi hərəkat kimi modernizm ümumiyyətlə 1930-cu illərin əvvəllərinə qədər aktual sayılır və 1945 - ci ildən sonra görkəmli müəllifləri təsvir etmək üçün "modernist" ifadəsi nadir hallarda istifadə olunur. Bu, vizual və ifaçılıq sənətləri istisna olmaqla, mədəniyyətin bütün sahələri üçün bir qədər doğru idi. Müharibədən sonrakı dövr iqtisadi və siyasi cəhətdən yenidən qurulma üçün təcili olaraq Avropanın paytaxtları ayağa qalxdı. Parisdə (keçmiş Avropa mədəniyyət mərkəzi və sənət dünyasının keçmiş paytaxtı) sənət üçün mühit bir fəlakət idi. Əhəmiyyətli kolleksiyaçılar, dilerlər və modernist sənətkarlar, yazıçılar və şairlər Avropadan Nyu Yorka və Amerikaya qaçmışdılar. Avropadan qaça bilməyənlərin çoxu həlak oldu. Bir neçə sənətkar, xüsusilə Pablo Pikasso, Henri Matisse və Pier Bonnard Fransada qalmaqlarına baxmayaraq sağ qaldılar.

1980-ci illərin əvvəllərində sənət və memarlıqda postmodernizm hərəkatı müxtəlif konseptual və medialar arası formatlar vasitəsilə öz mövqeyini yaratmağa başladı. Musiqidə və ədəbiyyatda postmodernizm daha erkən dövrlərdə başlamışdı. Postmodernizm bir nəzəriyyə olaraq çağdaşlığın və müasirliyin nədən qaynaqlandığını tənqid etmək ətrafında inkişaf etdi. Sənayeləşməni, sahələrdə kəndlilərə, fabriklərdə işləyənlərə və güc kapitalistlərinin xalq üzərində yaratdığı təsirləri tənqid etdi. Başqa sözlə postmodernə bir-birinə qarışan üslublar, qarışıq mədəni təbəqələr, qəribə şəkildə birləşən ənənələr və çox mədəniyyətli plüralizm aiddir.

Modernizm və postmodernizm arasındakı əlaqənin mövcud şərhləri fərqlidir. Bəziləri bu iki cərəyan arasındakı bölünməyə tənqidi münasibət bəsləyir və onları eyni hərəkatın iki aspekti kimi görürlər. Bir çox nəzəriyyəçi və alim modernizmin davam etdiyini iddia edirlər.

Postmodernizm əslində ictimai-siyasi nəzəriyyəyə söykənən mərkəzləşmiş bir hərəkatdir. Halbuki, bu termin indi daha geniş mənada 20-ci əsrdən başlayaraq müasir dövrü tanıdan və yenidən şərh edən fəaliyyətlərə istinad etmək üçün istifadə olunur.

Postmodern nəzəriyyə modernizmin "həqiqətdən sonra" kanonsayağı cəhdinin mübahisəsiz ziddiyyətlərlə nəticələnəcəyini iddia edir.

İkinci Dünya müharibəsindən sonra avtomatlaşdırma və kompüterləşmə işçi tələbatını get-gedə azaltmaqda idi. Ağıllı maşınlar sənaye tarixində, sənayenin inkişafına paralel olaraq artan işçi ehtiyatı tələbini minimuma endirmişdi. Texnologiyalar inkişaf etdikcə və yayıldıqca insana daha az tələbat yaranırdı. Sənaye inqilabından olduğu kimi, yenə də yeni texnologiyalar insan əməyini əvəz etdi. Texnologiyalar işçi ehtiyacını azaldır, ancaq məhsuldarlıq öz növbəsində artmaqda idi. Bundan əlavə əmək, kapital, enerji kimi əsas iqtisadi amillərə də qənaət edilirdi. Lakin bunların hamısını böyük sosial xərcləri var idi. Bu cür texnoloji dəyişikliklər fərdin və cəmiyyətin böhranına səbəb olurdu.

Kompüterlə təchiz olunmuş iş yerləri getdikcə daha ağıllı, nüfuzlu, bacarıqlı işçilər tələb edirdi. Buna görə də əmək tələb edən texnologiyadan kapital tələb edən texnologiyaya keçiddə kütləvi işsizliyin meydana gəlməsi labüd idi. Müəssisələr bir çox insanın gördüyü işi bir maşına həvalə edərək insan əməyindən istifadəni məhdudlaşdırdılar. Bu məhdudlaşma reaksiyadır: hal-

hazırda mövcud olan sosial quruluş insanların məşğulluğu üzərində qurulmuşdur. Bu problemi həll etmək üçün işçilərin kütləvi şəkildə yeni ixtisaslar əldə etmələrinə nail olmaq vacib idi.

XX yüzillikdə Birinci və İkinci dünya müharibələrinin baş verməsi, nasizmin, son dərəcə varlı və son dərəcə kasıb ölkələrin meydana gəlməsi, eləcə də ictimai təbəqələr arasında artan bərabərsizlik, kapitalizmin böhranının doğurduğu bəzi meyllər, məsələn fərdin özəl xüsusiyyətlərindən məhrum olması modernizmin öz mövqelərini postmodernizmə təhvil verməsinə səbəb oldu.

Açar sözlər: Modernizm, Postmodernizm.

Ədəbiyyat

1. Qorxmaz Quliyev , XX əsr ədəbiyyatşünaslıq konsepsiyaları . Bakı, 2012, 344 səh.
2. T.S. Eliot. Tradition and the individual talent. 1919 , in Selected Essays. Paperback Edition. Faber & Faber, 1999.
3. https://www.ukessays.com/essays/english-literature/modernity-modernism-literature-6276.php

VI SİNİF RİYAZİYYAT VƏ İNFORMATİKANIN TƏDRİSİNDƏ FƏNLƏRARASI ƏLAQƏNİN REALLAŞDIRILMASINDA İKT-dən İSTİFADƏNİN METODİKASI

Həsənova Xalidə
Sumqayıt Dövlət Universiteti

VI sinifdə informatika dərsliyini nəzərdən keçirsək, görərik ki, riyaziyyat fənninə inteq-rasiya üçün xeyli göstəriş verilmişdir. Burada əvvəlki siniflərdə olduğu kimi, informatikanın məzmun xətlərinin reallaşdırılmasına uyğun əlavə 5 fəsil verilmişdir [2].

I fəsli nəzərdən keçirdikdə əsasən "İnformasiyanın kodlaşdırılması" mövzusunda riyaziyyat fənni ilə (qalıqlı bölmə) əlaqə aydın görünür. Burada şagirdlər tam ədədlər üzərində bölmə əməliyyatını bilsələr, bu fəsildə nəzərdə tutulan materialın öyrənilməsində heç bir çətinlik çəkməyəcəklər.

II fəsildə şagirdlərə tətbiqi proqramlarla (təqdimat proqramı) işləmək qaydalarının öyrədilməsi qarşıya qoyulduğundan, bu fəsildə riyaziyyat fənni ilə əlaqə demək olar ki, yoxdur. Lakin bu təqdimatlarda müəyyən riyazi faktları və hadisələri işıqlandırmaq şagirdlər üçün maraqlı olar.

III fəsildə "Alqoritmlərə" həsr olunduğundan, əvvəlki sinifdə bu məzmun xəttinə aid metodik göstərişlər verilmişdir.Ona görə də bu sinifdə riyaziyyatdan da məzmun xəttini dəyişib həndəsə məzmun xəttindən istifadəyə üstünlük veririk. Məlumdur ki, altıncı sinifdə riyaziyyat dərsliyində paralelliyə dair həndəsə materialları tədris olunur.Aşağıda qeyd etdiyimiz məsələlərin həllinə indi riyaziyyat müəllimləri də həvəs göstərmirlər. Çünki bu tipli məsələlər qəbul imtahanı zamanı testə də düşmür. Bundan başqa, həm də belə məsələlərin həllində həm müəllimlər, həm də şagirdlər çox işləməlidirlər. Son illər bu praktika orta məktəb riyaziyyatının öyrənilməsində çoxlu problemlər yaratmışdır. Bu problemləri də bizim təklif etdiyimiz metodika ilə asanlıqla aradan qaldırmaq olar. Bununla əlaqədər aşağıdakı məsələnin araşdırılması və həlli mərhələləri üzərində fikirlərimizi söyləməklə bir daha qeyd etdiklərimizin doğruluğunu göstərək:

Məsələ: MN düz xəttinə aid olmayan A nöqtəsindən həmin düz xəttə paralel keçirin.Bu

məsələnin sxematik təsvirini verək.

Verilir MN, A∉MN		
AB‖MN-nin qurulması prosedurası		
	№	Təkliflər
	1.	MN üzərində C və D nöqtələrini götürün.
	2.	A ilə C-ni birləşdirin.
	3.	AC-yə aid O nöqtəsini elə götürün ki, OA=OC olsun
	4.	O nöqtəsindən OB=OD olmaqla BD xəttini çəkin.
	5.	A iləB-ni birləşdirin.
	6.	AB axtarılan parça olar.
	7.	Son.

İndi bu prosedurun izahını geniş verək.

1) MN üzərində C və D nöqtələrini götürüb CD parçasını alırıq.
2) A nöqtəsindən ACD bucağına bərabər CAB bucağı qurulur.
3) AB=CD ayırırıq. Bu zaman ∠DBA=∠CDB onda AB‖CD alınar.

Altıncı sinifdə verilmiş nöqtədən verilmiş düz xəttə perpendikulyarın çəkilməsi, paralel xətlərin çəkilməsi, düzbucaqlı koordinat sistemində nöqtələrin göstərilməsi, çevrə, dairə, kürə ilə bağlı məsələlər alqoritmləşmə yolu ilə asanlıqla izah edilə bilər [2]. Verilmiş ***a*** düz xəttindən xaricdə yerləşən ***A*** nöqtəsindən həmin düz xəttə perpendikulyarın endirilməsi məsələsini alqoritmik təsvir edək. Burada ilkin verilənlər ***a*** düz xətti və onun üzərində olmayan ***A*** nöqtəsidir. 1) Birinci addımda mərkəzi ***A*** nöqtəsində olmaqla verilmiş ***a*** düz xəttini kəsən ***r*** radiuslu çevrə çəkin. 2) Bu çevrənin ***a*** düz xəttinin kəsişmə nöqtəsini qeyd edin. 3) Mərkəzi ***C*** nöqtəsində olmaqla ***r*** radiuslu çevrə çəkin. 4)Mərkəzi ***D*** nöqtəsində olmaqla ***r*** radiuslu çevrə çəkin. 5) Bu çevrənin kəsişmə nöqtəsini qeyd edin. 6) Həmin nöqtə ilə ***A*** nöqtəsini xətkeşlə birləşdirin. 7) Alınan xətt verilmiş ***a*** düz xəttinə perpendikulyar olacaq. Son.

Şagirdlər bu məsələni addım-addım icra etməklə, alqoritmin sözlərlə və riyazi simvollarla təsvirini icra edirlər və həmçinin məsələni həll edirlər.

Riyaziyyatda "Tam ədədlər üzərində əməllər" mövzusunu informatikada blok-sxem vasitəsilə daha maraqlı və əyləncəli etmək olar ki, bu da şagirdlərə riyaziyyatdan daha da çox misal həll etmək imkanı ilə yanaşı, alqoritmin mahiyyətini də dərk etməkdə kömək olar [1]. Bununla bağlı göstərilən misalışagirdlərə təqdimat şəklində nümayiş etdirərək, cədvəli doldurmaq tələb olunur.



Ən böyük ortaq bölənin tapılmasının Evklid alqoritminin (çıxmaya görə) riyazi modeli 6-cı sinif riyaziyyat dərsliyində verilmişdir və bunun üzərində onun blok-sxemini quraraq həm riyaziyyatdan olan bilikləri möhkəmləndirmək, həm də informatikadan dövrü alqoritmlərin yaradılması bacarığını inkişaf etdirmək olar [1]. Çünki informatika dərsliyində dövrü alqoritmlərlə bağlı misallar çox azdır.

Dairə və onun hissələrinin sahəsinin hesablanması məsələlərinin də müasir informasiya

texnologiyasından istifadə edərək həllini vermək məqsədəuyğundur. Burada müxtəlif təsvir formalarından istifadə edərək, sahələrin hesablanmasını vermək olar. Hazır proqramlardan istifadə edərək həm ekranda çevrə, dairə və onun hissələrini nümayiş etdirmək və həm də hesablamaları icra etmək olar. Buna aid aşağıdakı proqram nümunələrini misal göstərmək olar.Dərs sistemi şagirdlərin fəallığını inkişaf etdirən məşğələ formalarını heç də inkar etmir, əksinə, onları həmin sistemin vacib hissələri hesab edir. Bu cür dərslərə misal olaraq şagirdlərin müstəqil praktik işlərini (Paint-də, Word-də və s. müstəqil işləmək) göstərmək olar.

Açar sözlər: İnformatika dərsliyi, Riyaziyyat dərsliyi, İKT, tədris prosesi, müasir texnologiya.

Ədəbiyyat

1. S. İsmayılova, A.Hüseynova. 6-cı sinif Riyaziyyat dərsliyi. Bakı-2017.
2. R.Mahmudzadə, N.İsayeva, İ.Sadıqov. 6-cı sinif İnformatika dərsliyi. Bakı-2018

XİDMƏT SFERASINA İQTİSADİ BAXIŞ

Həşimova Albina
Azərbaycan Dövlət İqtisad Universiteti
albina-hesimova@mail.ru

Ümumi qəbul edilmiş fikrə görə, xidmət sferası iqtisadiyyatın müstəqil, spesifik sferasıdır. Bu sahənin inkişaf dinamikası sosial inkişafın əsas qanunauyğunluqlarından birinin – maddi istehsal ilə müqayisədə xidmət sferasının qabaqlayıcı inkişafı qanununun – təsiri ilə müəyyən edilir. Bu iqtisadi inkişaf amillərinin xidmət sferasına təsiri ilə bağlıdır.

İctimai əmək bölgüsü prosesində iqtisadiyyatın xidmətlər istehsalı üzrə ixtisaslaşan sahələrinin aktiv ayrılması tələbatın artması – iqtisadi qanununun təsiri ilə, maddi və qeyri-maddi istehsal elementlərinin inteqrasiyasının güclənməsi ilə, iqtisadi artımın xarakterində baş verən dəyişikliklərlə, yəni, bu artımın mənbələri kompleksində elmi biliyin, qeyri-maddi yığımın, insan amilinin ön plana keçməsi ilə bağlıdır.

İqtisadi lüğətdə verilən tərifə görə, xidmət sferası dedikdə "… xalq təsərrüfatının elə sahələri sistemi başa düşülür ki, həmin sahələrin məhsullarının istehlak dəyəri rahatlıqlar təqdim edilməsində ifadə olunur".

Xidmət sferasında əmək əşyalar şəklində maddiləşmir. Bir qayda olaraq, xidmətlərin istehsalı prosesi onların istehlakı prosesi ilə üst-üstə düşür. Xidmətlərin aşağıdakı növlərini fərqləndirirlər: maddi istehsal xidmətləri sferası (nəqliyyat, rabitə, məişət xidmətləri); mənəvi həyat xidmətləri sferası (təhsil, idman, elm, incəsənət); sosial sferada xidmət sferası (ticarət, mənzil-istismar xidməti, səhiyyə)".

Biz "xidmət sferası» anlayışının izahında maddi istehsal sferası ilə müqayisədə xidmət sferasına xas olan bir sıra spesifik xüsusiyyətləri əsas götürürük.

Birincisi, əmtəələrdən fərqli olaraq, xidmətlər əsasən eyni zamanda istehsal və istehlak edilir, yəni xidmətlər saxlanılmalı deyildir. Bununla əlaqədar, xidmətlərlə bağlı tələb və təklifin nizamlanması problemi yaranır.

İkincisi, xidmətlər çox vaxt məhsula qarşı qoyulur, hərçənd təkcə dövriyyə sahəsində deyil, həm də sənayedə xidmətlər göstərilməsinin rolu artır, buraya avadanlığın təmiri, satışdan sonrakı

xidmət və malların satışı ilə bağlı başqa xidmətlər də daxil edilə bilər. Demək olar ki, məhsulun satışı zamanı xidmət elementləri olduğu kimi, xidmətdə də çox vaxt məhsul elementləri olur. Malların satışı və xidmətlərin təqdim edilməsi arasında sıx əlaqə olması xidmətlərin ayrılıqda uçotunun aparılmasını çətinləşdirir.

Üçüncüsü, adətən dövlət maddi istehsal sferası ilə müqayisədə xidmət sferasını xarici rəqabətdən daha çox qoruyur. Bundan əlavə, ənənəyə görə, əksər ölkələrdə nəqliyyat və rabitə, maliyyə və sığorta xidmətləri, elm, təhsil, səhiyyə, kommunal xidmətləri tamamilə və ya qismən dövlətin mülkiyyətindədir və ya dövlət bu sahələrə ciddi nəzarət edir və onları tənzimləyir.

Bu xüsusiyyətlərin dərk edilməsi sayəsində xidmət sferası ictimai əməyin tətbiqinin spesifik üsullarının öyrənilməsinin ayrıca bir sahəsinə çevrilmişdir. İctimai əmək vasitəsilə yaradılan xüsusi istehlak dəyərləri əhali tərəfindən gözlə görünən predmetlər kimi deyil, xidmətlər formasında istehlak edilir.

Buna uyğun olaraq, biz xidmət sferası dedikdə, iqtisadi fəaliyyətin müxtəlif növləri sistemini nəzərdə tuturuq. Bütövlükdə ictimai məhsulun yaradılması və ondan istifadə prosesi maddi istehsal sferası ilə yanaşı, həmin fəaliyyət növlərinin iştirakı ilə baş verir [1].

Bizim fikrimizcə, xidmət sferasının xüsusiyyətləri xidmətin özünün spesifik xarakteristikalarının məntiqi nəticəsidir.Xidmət anlayışının mövcud izahlarının məzmununun təhlili göstərmişdir ki, bu anlayışının tərifl ərinin əksəriyyətində ya xidmətlərin istehsal xüsusiyyətləri, ya da onların istehlak xüsusiyyətləri əsas götürülür. Bundan asılı olaraq xidmət sferasına daxil olan iqtisadi fəaliyyət yarımsahələrinin və növlərinin təsnifatı da dəyişir.

Apardığımız təhlil göstərir ki, xidmət sferasının növ tərkibinin təyininə yanaşmalar xidmətlər haqqında nəzəri təsəvvürlərin inkişafı ilə eyni zamanda təkamül etmişdir. Bu tendensiya həm yerli, həm də xarici təcrübədə müşahidə olunur.Məsələn, ABŞ-da xidmət sferasının sahəvi strukturunun təyininə iki yanaşma paralel mövcuddur.Onlardan birincisinə əsasən belə hesab edilir ki, nəqliyyat, rabitə, kommunal təsərrüfat, ticarət, ictimai iaşə, təhsil, səhiyyə, qismən elm, maliyyə, sığorta, təsərrüfat idarəçiliyinin dövlət aparatı, dövlətin hərbi-polis, siyasi, ideoloji aparatı və xidmət sferasının başqa sahələrinin (məsələn, mehmanxana təsərrüfatı, reklam, dizayn, "əyləncə sənayesi", injinirinq (layihələşdirmə)) fəaliyyəti, uçot, nəzarət-təftiş və mühasibat əməliyyatları, həmçinin kommersiya şərtləri ilə təqdim edilən bir sıra başqa işgüzar, texniki, peşəkar və fərdi xidmət sahələrinin məhsulları xidmətlərin məzmununa daha çox uyğundur.

Başqa yanaşmaya əsasən, ABŞ-ın xidmət sferasının sahəvi tərkibi aşağıda sadalanan dörd qrupa bölünür: bölgü xidmətləri (nəqliyyat, rabitə, kommunal xidmətlər, topdan satış və pərakəndə ticarət); aralıq xidmətlər (məhsulları başqa sahələrdə istehsal xərcləri kimi, məsələn, təsərrüfat fəaliyyətinin təhlilinə, lahiyə-konstruktor işlərinə və başqa işgüzar xidmətlərə çəkilən xərclər kimi istifadə olunan idarə və müəssisələr); istehlak xidmətləri (son istehlakın xidmətləri, məsələn avtomobillərin və məişət texnikasının təmiri, bərbərxanalar, kinoprokat və s.); hökumətin və qeyri-kommersiya təşkilatlarının xidmətləri (səhiyyə, təhsil, xeyriyyəçilik və s., həmçinin hökumət fəaliyyəti).

Qeyd edək ki, yaxın vaxtlara qədər ölkəmizin təcrübəsində də xidmətlərin tərkibinin təyini məsələsinə sahəvi yanaşma üstünlük təşkil edirdi.

Xüsusi halda, bu təsnifatda xalq təsərrüfatı sahələrinin aşağıdakı siyahısı nəzərdə tutulurdu: sənaye; kənd təsərrüfatı; meşə təsərrüfatı; balıqçılıq təsərrüfatı; nəqliyyat və rabitə; tikinti; ticarət və ictimai iaşə; maddi-texniki təchizat və satış; tədarük; informasiya-hesablama xidməti; daşınmaz əmlakla bağlı əməliyyatlar; bazarın fəaliyyətinin təminatı üzrə ümumi kommersiya fəaliyyəti; geologiya və yeraltı yataqların kəşfiyyatı, geodeziya və hidrometeoroloji xidmət; maddi istehsal

sferasının fəaliyyətinin sair növləri; mənzil-kommunal təsərrüfatı; əhaliyə məişət xidmətinin qeyri-istehsal növləri; səhiyyə, bədən tərbiyəsi və sosial təminat; xalq təhsili; mədəniyyət və incəsənət; elm və elmi xidmət; maliyyə, kredit, sığorta, pensiya təminatı; idarəetmə; ictimai birliklər [2].

Sadalanan bütün sahələr həmin təsnifatda iki ənənəvi sferaya bölünmüşdü: maddi istehsalı sferası və qeyri-istehsal sferası. Maddi istehsal sferasına məhsullar və enerji formasında, yüklərin yerdəyişməsi, məhsulların saxlanması, çeşidlənməsi, qablaşdırılması və tədavül sahəsində istehsalın davamı olan başqa funksiyalar formasında maddi nemətlər yaradan bütün fəaliyyət növləri aid idi. Belə ki, maddi istehsal sferası aşağıda sadalanan sahələri əhatə edirdi: sənaye; kənd təsərrüfatı; meşə təsərrüfatı; balıqçılıq təsərrüfatı; nəqliyyat və rabitə; tikinti; ticarət və ictimai iaşə; maddi-texniki təchizat və satış; tədarük; informasiya-texniki xidmət; daşınmaz əmlakla bağlı əməliyyatlar; bazarın fəaliyyətinin təminatı üzrə ümumi kommersiya fəaliyyəti; geologiya və yeraltı yataqların kəşfiyyatı, geodeziya və hidrometeoroloji xidmət; maddi istehsal sferasında fəaliyyətin başqa növləri.

Onu da qeyd edək ki, ictimai (maddi və qeyri-maddi) istehsal sferalarının tərkibinin təyininə yanaşmaların dəyişməsinin və sahəvi yanaşmadan növlər üzrə yanaşmaya keçidin əsas səbəbi ondan ibarət idi ki, bazar münasibətlərinin sürətli inkişafı şəraitində iqtisadiyyatın fəaliyyəti obyektiv olaraq, köhnə xidmət növlərinin çoxlunun genişlənməsini və yeni xidmət növlərinin yaradılmasını tələb edirdi [3].

Beləliklə, xidmət sferası ilə maddi istehsal arasında texnoloji və təkrar istehsal baxımından qarşılıqlı asılılığının kəskin artması, "əşya məhsulu" və xidmətlər istehsalının iqtisadiyyatın bütün sahələrinə və iqtisadi fəaliyyətin bütün növlərinə dərindən qarşılıqlı nüfuz etməsi müasir dövrdə xidmət sferasının inkişafının əsas xüsusiyyətidir, bu, ayrı-ayrı sahələr arasında sərhədlərin silinməsinə gətirib çıxarır.

Bu nəticəni belə bir fakt da təsdiq edir ki, ticarət-sənaye, tibbi-sənaye, informasiya, rekreasiya kimi yeni iqtisadi komplekslərdə inteqrasia edən "əşya məhsulu" və xidmətlər birlikdə bu və ya digər ictimai tələbatı təmin edirlər.

Açar sözlər: xidmət sferası, istehsal prosesi, iqtisadi fəaliyyət, xidmət növləri.

Ədəbiyyat

1. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı: Gənclik, 2004, 304 s.
2. Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti), Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 2010, 326 s.
3. Ялунер Е.В. Система стратегического планирования перспективного развития хозяйствующих субъектов сферы услуг. М., 2009.

KONSEPT DÜNYA HAQQINDA İNFORMASİYA VAHİDİ KİMİ

Heydərova Lamiə
Sumqayıt Dövlət Universiteti
murselova.lamiye@gmail.com

Koqnitiv dilçiliyin nümayəndələri hesab edirlər ki, hər bir dil müəyyən konseptlər sisteminə ekvivalentdir.Belə ki, bu konseptlər vasitəsilə dil daşıyıcıları ətraf aləmdən gələn məlumat axınını qavrayır, təsnifləşdirir və şərh edir.

Konseptlərin təfəkkürdə oynadığı başlıca rol- müəyyən oxşarlıqları olan obyektləri qruplaşdırmağa imkan verən kateqorizasiya (sinifləndirmə) hesab edilir.S. A. Borisova görə konsept (verballaşmış konsept) idrakın operativ vahidi kimi çıxış edir [2]. Konseptlər (anlayışlar) şüurun konseptual kateqoriyalar adlanan mürəkkəb strukturlarda qruplaşan diskret komponentləridir.

Konseptlər insanı əhatə edən bütün mövcud və müşahidə edilən gerçəklik hadisələrini və faktlarını vahid bir anlayışda ümumiləşdirir. Bu yolla, alimlərin fikrincə, konseptdə hər bir xalqın mədəniyyəti, ideologiyası və çoxəsirlik təcrübəsi cəmləşmişdir. Konsept insanın mental reallığında (onun şüurunda) emosiyalar, hisslər, assosiyasiyalar və s. kontekstində həqiqi dünyada mövcud və ya ehtimal olunan vəziyyət haqqında bilik və məlumatların birləşməsi kimi mövcuddur. Onun mental varlıq kimi dərk edilməsi konseptual sistemin daşıyıcısının mental dünyasını, onun ruhi dünyasını yalnız yenidən qurmağa deyil, eləcə də, onun etnomədəni obrazını, etnomental xarakterologiyasını yeniləməyə imkan verir, çünki, konsept- insanın mental dünyasında etnomədəni mühitin bir hissəsidir [3]. İnsan zehni olaraq ona zəruri olan konsepti bir-biri ilə qarşılıqlı əlaqəli olan konseptlərlə əlaqələndirir. Axtarılan konsept insanın təfəkküründə müəyyən bir hücrəni tutur və ehtiyac olduqda mövcud təsnifat sıralamasına daxil edilir.

Y.S.Stepanov konsepti kulturologiyanın sərhədləri çərçivəsində müəyyənləşdirməkə onu insanın mental dünyasında mədəniyyətin başlıca vahidi olduğunu qeyd etmişdir. Onun fikrincə, konseptlər yalnız dərk edilmir, eləcə də hiss edilir və konseptlər emosiya, simpatiya və antipatiya və bəzən də qarşıdurma predmetidir [4].

Yalnız nəzəri deyil, eləcə də adi idrakın nəticələrini edən bilik vahidi kimi konseptin tərifi aşağıda verilmiş konsept formalaşdırma üsullarınınəzərdə tutur:

- hissi təcrübə əsasında praktik fəaliyyət
- verbal və qeyri-verbal ünsiyət əsasında təcrübi-idraki və nəzəri-idraki (elmi) fəaliyyət

A.P. Babuşkin konseptləri zehni şəkillər, sxemlər, hiperonimlər və məntiqi qurulmuş konseptlər, freymlər, insaytlar, ssenarilər və "kaleydoskopik" konseptlərə ayırmaqla təsnifləndirmişdir. A.P. Babuşkin konsepti real və ya ideal bir dünyanın predmetini əks etdirən və şifahi müəyyən olunan bir substrat şəklində (в виде познанного вербально обозначенного субстрата») dil daşıyıcılarının milli yaddaşında saxlanan "kollektiv şüurun hər hansı bir diskret vahidi" kimi nəzərdən keçirir [1]. Alimin fikrincə, hər bir konseptual vahid milli konseptsferada müvafiq hücrəni tutur. Konseptlərin kollektiv xarakteri dünyanın birliyi ilə izah olunur, baxmayaraq ki, insanın beynində bu və ya digər konsept növünün formalaşması onun müəyyən düşüncə predmetini bilmə səviyyəsindən asılıdır.

Linqvistik konseptologiyada konsept insanın predmet haqqında kompleks mədəni təsəvvürləri kimi başa düşülür. Konsept özlüyündəəvəzedici konseptlərdən təşkil olunan dominant konsept

ətrafında sistemləşdirilmiş konseptual sahə, yəni semantik sferayaradır. Bu konseptlərin hər biri öz ətrafında oxşar semantik bir sahə yaratmaq iqtidarındadır.

İnsanın konseptual sistemi onun fon bilikləri, etnik-mədəni və sosial mühiti, linqvomədəni icma tərəfindən toplanmış və nəsildən-nəslə ötürülən bütün dəyərli təcrübə ilə müəyyən edilir.

Məlum olduğu kimi, sözlərdə və konseptlərdə birmənalı uyğunluq yoxdur, belə ki, eyni bir sözlə fərqli konseptlər (omonimiya və polisemiya), eyni zamanda fərqli sözlərlə eyni bir konsept ifadə oluna bilər (sinonimiya). İnsanların idak fəaliyyətinin sözlərlə yazıldığını nəzərə alsaq, onda "söz-konsept" qarşılıqlı əlaqəsi koqnitiv əlaqə kimi müəyyən oluna bilər.

İnsanın şüuruna "daxil edilmiş" konseptual sistem insanın həqiqi dünyanı qavramasına əhəmiyyətli təsir göstərir. Dil daşıyıcısının təfəkküründə konseptin məzmunu haqqında məlumat almaq üçünbütün dil vasitələrini, habelə konsepsiyanın məzmununu açan mətnləri nəzərə almaq lazımdır. Alimlərin fikrincə, konseptin tam təsvirini vermək mümkün deyil, hər zaman konseptin yalnız bir hissəsi olacaq, çünki heç bir konsept nitqdə tam ifadə olunmur. Şübhə yoxdur ki, yalnız sözlə konsept haqqında biliklər açıqlanır və dil həqiqi dünyanı mükəmməl əks etdirən konseptlərin sirli dünyası haqqında məlumat verən saf mənbədir.

Açar sözlər: konsept, informasiya vahidi, konseptual sistem, konseptual kateqoriya.

Ədəbiyyat

1. Бабушкин А.П. Типы концептов в лексико-фразеологической семантике языка, их личностная и национальная специфика: автореф. дис. д-ра филол. наук А.П. Бабушкин. Воронеж, 1996, 95-96.
2. Борисова С.А. Пространство - Человек – Текст, Ульяновск: УлГУ, 2003, 48.
3. Фесенко Т.А. Этноментальный мир человека: опыт концептуального моделирования: дне. ... д-ра филос. Наук, М., 1999, 334.
4. Степанов Ю.С. Константы: словарь русской культуры: 3-е изд. - М.: Академический проект, 2004, 43.

TƏLİM PROSESİNDƏ KOMPÜTERDƏN İSTİFADƏ PROBLEMLƏRİ

Heydərova Məftun
Sumqayıt Dövlət Universiteti
abdullayev_ayxan@list.ru

Beynəlxalq təcrübədə (o cümlədən keçmiş SSRİ-də) proqramlaşdırmanın elementlərinin məktəbdə öyrənilməsi keçən əsrin 60-cı illərdən, məktəbin kompüterləşməsi prosesi isə 80-ci illərdən etibarən inkişaf etməyə başlamışdır. Məlumdur ki, Azərbaycan Respublikasında 1985-86-cı tədris ilindən ümumtəhsil məktəblərinə yeni "İnformatika və hesablama texnikasının əsasları" fənni tədris edilməyə başlanmışdır. Bu fənnin tədrisində məqsəd şagirdlərdə alqoritmik mədəniyyət, kompüter savadlılığı formalaşdırmaq, EHM-lərdən yalnız informatika dərslərində yox, digər fənlərin də tədrisində istifadə etməyə kömək etmək idi. Fərdi kompüterlərin yaranması bir çox məktəb fənnlərinin, o cümlədən riyaziyyat kursunun proqramına da ciddi təsir göstərmişdir. Tədricən məktəb riyaziyyatı ilə informatika kursunun qarşılıqlı əlaqəsi yaranmağa başlamışdı. Kompüter riyazi məsələlərin həllində tətbiq edilərkən ədədi yaranmağa başlamışdı. Kompüter riyazi

məsələlərin həllində tətbiq edilərkən ədədi üsulların geniş tətbiqinə imkan yaradır. Bu təlim prosesində həll edilən məsələlərin kəmiyyət və keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

İnformatika kursunun orta ümumtəhsil məktəblərində tədrisi istiqamətində böyük xidmətləri olmuş, keçmiş SSRİ-də ilk "İnformatika" dərsliyinin və tədris proqramının müəllifi, akademik A.P. Yerşovun fikrincə informatika məqsədyönlü fəaliyyət qaydaları haqqında elmdir [1]. İnformativ fəaliyyətin əsasını həlli 4 mərhələdən ibarət olan informasiya məsələləri təşkil edir:

- informasiya məsələsinin qoyuluşu;
- informasiya modelinin qurulması;
- modelin tədqiqi;
- alınmış nəticələrin analizi.

Bu mərhələlər istənilən tip informativ fəaliyyətin əsasını təşkil edir, hələ kompüterlərin yaradılması və geniş tətbiqindən çox-çox əvvəldən bu struktur mövcud idi. İnformasiyanın qəbulu, saxlanılması və emalı vasitəsi olaraq kompüterlərin yaradılması informativ fəaliyyətin xarakterində ciddi dəyişikliklər etdi. Belə ki, bu prosesin hər bir bu mərhələsində kompüterdən istifadə oluna bilər və bunun nəticəsi olaraq informativ fəaliyyətin səmərəsi dəfələrlə yüksələr. Təbii ki, belə güclü, universal, insanın intellektual imkanlarını dəfələrlə gücləndirən vasitə ilə şagirdlər məktəb illərindən başlayaraq tanış olurlar. Bu məqsədlə ilk növbədə bütün məktəbləri kompüterlə təchiz etmək lazımdır. Son illər respublikamızda bu istiqamətdə mühüm işlər görülməkdədir. Təhsil sisteminin müasir İKT vasitələri ilə təmin edilməsi üzrə xüsusi Dövlət Proqramı hazırlanmış və prezident tərəfindən imzalanmışdır (2005-2007-ci illər üçün). Proqrama əsasən hər 33 şagirdə bir kompüterin düşəcəyi planlaşdırılmışdır. Proqrama əsasən texniki təminat məsələləri ilə paralel olaraq proqram-metodik və kadr təminatı məsələləri də həll ediləcəkdir. Bu məqsədlə Azərbaycan Respublikasında yeni kompüter istehsal edən zavod da tikilmişdir.

XX əsrin 80-cı illərində mikrokalkulyatorlar, fərdi EHM-lər, displey sinifləri, məktəblərarası tədris-istehsalat hesablama mərkəzləri (hal-hazırda belə mərkəzlər bağlanıb, onların əvəzində regionlarda Resurs Mərkəzlərinin açılması planlaşdırılır) kompüterləşmə işini təmin edən əsas vəsaitlərdən hesab olunurdu $[3-4]$.

Bu gün mənəvi cəhətdən köhnəlmiş kompüterlərdən məktəblərdə istifadə etmək zərərlidir (bu şagirdləri gələcəyə yox, keçmişə yönəltmək olardı). Elm və texnikanın heç bir sahəsi informasiya texnologiyaları qədər sürətlə inkişaf etmir. Texnika, sənaye və iqtisadiyyatın bütün sahələrində kompüterlərin geniş tətbiqləri var və bu tətbiqlərin spektri durmadan artmaqdadır. Sözün həqiqi mənasında bu sahə günbəgün inkişaf edir. Məktəb, pedaqoji elmlər isə tarixən ətalətli olub, yeni texnika və texnologiyaların təhsildə tətbiqinə nisbətən ləng reaksiya verirlər. Təhsil sektoru, o cümlədən pedaqoji-psixoloji elmlər yeni informasiya texnologiyalarının belə intensiv inkişafı ilə ayaqlaşa bilmir. Bu mənada fərdi kompüterlərin elmi-metodik cəhətdən tədqiq olunmuş, aşkarlanmış, eksperimental olaraq özünü təsdiq etmiş didaktik imkanları sürətlə inkişaf edən, yeni yaranan, hələ kifayət qədər tədqiq olunmayan didaktik imkanlarından, inkişaf tempindən daima geri qalır. Kompüterin bir çox didaktik imkanları, funksiyaları hələ də tam araşdırılmamışdır. Lakin indiyə kimi məlum olan elmi təhlillərin nəticələri, prosesin inkişaf tendensiyaları kompüterin təlim imkanları haqqında müəyyən fikir söyləməyə, proqnozlar verməyə imkan yardır. Bu mənada təlim prosesində kompüterdən səmərəli istifadə üçün gələcəkdə də bir sıra pedaqoji-psixoloji problemlərin tədqiqi və həlli zəruridir. Təlimin kompüterləşməsinin əsas aspektlərinin elmi tədqiqi bir sıra yeni pedaqoji problemləri aşkara çıxaracaq, onların müvəffəqiyyətli həlli, öyrənmə obyekti və təlim vasitəsi kimi kompüterdən məktəbdə səmərəli istifadə yollarını müəyyən edəcəkdir.

N.F. Talızinanın fikrincə kompüterin vəzifələrini müəyyən edərkən nəzərə almaq lazımdır ki, müəllim və şagirdin hansı funksiyalarını maşına həvalə etmək olar [2]. Ümumiyyətlə, təlim prosesində müəllimin yerinə yetirdiyi əsas funksiyaları 4 qrupa ayırmaq olar:

I. Təlim məzmununun seçilməsi:

- təlim məqsədinə uyğun biliklərin seçilməsi;
- şagirdlərin təlimin məqsəd və məzmununa uyğun fəaliyyətinin müəyyən edilməsi.

II. Şagirdlər haqqında məlumat:

- lazım olan bilik və bacarığın həcmini qabaqcadan müəyyənləşdirmək;
- şagirdlərin fərdi xüsusiyyətləri haqqında məlumat almaq;
- biliyin mənimsənilməsi haqqında məlumat almaq (əks əlaqə).

III. Təlimə məzmunun daxil edilməsi:

- təlimin müsbət motivlərinin yaradılması;
- formalaşan fəaliyyətin izahı, göstərilməsi və ona nəzarət.

IV. Tədrisdə istifadə olunan məsələlərin hazırlanması və təqdim edilməsi:

- tədris məsələlərinin əsas sisteminin işlənib hazırlanması (əsas öyrədici proqramlar);
- təshihedici təsirlərin işlənib hazırlanması.

Faktiki olaraq bütün bu funksiyalar tam və ya qismən avtomatlaşdırıla bilər, bəzi funksiyaların isə işin xarakterinə görə (məsələn, əks əlaqə və təshihedici funksiyalar) avtomatlaşdırması zəruridir. Bəzi alimlər bu fikirdədilər ki, idrak fəallığını artırmaq məqsədi ilə müəllim şagirdlərin fərdi imkanlarını nəzərə alaraq mənimsəmə prosesi qurmalı, sistematik əks əlaqə həyata keçirməli, bu əsasda kompüterin köməyi ilə tədris prosesinin təshihi və s. funksiyaları kifayət qədər gücləndirilməlidir. Tədris prosesində kompüterin funksiyalarını müəyyənləşdirərkən M. Taşbaltev kompüterin tədris vasitəsi və öyrədici vasitə olduğunu qeyd edir [5]. Onun fikrincə, kompüterdən yalnız tədris vasitəsi kimi istifadə olunarsa, onun funksiyaları elm, istehsalat və digər fəaliyyət sahələrində yerinə yetirdiyi funksiyalardan çox az fərqlənir. Şagirdlərin kompüterlə qarşılıqlı əlaqəsi "istifadəçi-EHM" əlaqə sisteminə uyğun gəlir. Lakin bu cür sistemlərdə kompüter tədris vasitəsi olmur. Kompüterdən tədris vasitəsi kimi istifadə etdikdə onun əsas funksiyası tədris fəaliyyətini idarə etməkdən ibarətdir.

Açar sözlər: təlim prosesi, kompüter, informativ fəaliyyət.

Ədəbiyyat

1. Ершов А.П. Компьютеризация школы и математическое образования. Математика в школе, 1989, №1, с14-31.
2. Талызина Н.Ф. Внедрению компьютеров в учебный процесс-научную основу. Советская педагогика, 1985, №12, с.34-38.
3. Талызина Н.Ф.Управление процессом усвоения знаний. М.:Изд-во МГУ, 1975, с.343.
4. Талызина Н.Ф. Методика составления обучающих программ. М.: Изд-во МГУ, 1980, 124с.
5. Ташбалтаев М. Больше внимания к проблеме компьютеризации, Математика в школе, 1991,№2, с.4-6.

TƏKRARLARIN SİYASİ DİSKURSDA RİTORİK FUNKSİYALARI
(ABŞ prezidenti D.Trumpın çıxışları əsasında)

Hovuslu Xalidə
Azərbaycan Universiteti
hovusov1999@mail.ru

Konstruktiv,poetik və ritorik funksiyalarla yanaşı,təkrarlama diskurs daxilindəki idrakk proseslərində də əsas rol oynayır. Kitabın bu hissəsi təkrarlamanın idrak funksiyasından bəhs edir və əvvəlcə psixologiyada təkrar fenomeninə müxtəlif yanaşmaları nəzərdən keçirir [2].

Təkrarlama zamanı hərəkət və bilik yeniləndikdə paradiqmatik bir dəyişiklik baş verir.Bu yenilənmə prosesinin insan üçün bilik əlavə etməsi ilə yanaşı,zamana və məkana uyğun olaraq ona yeni bir istiqamət də göstərir [1]. Xüsusilə siyasi diskursda bu, iqtidar və digər siyasi partiyaların yürütdüyü siyasi,iqtisadi və mədəni siyasətləri tənzimlədiyinə görə baş verir.Konstruktiv bir element kimi təkrarlama,müəyyən kontekstə görə modifikasiyaya məruz qalır. Həm də insanı motivasiyaya stimullaşdırır,bu da təkrarlanan istəyi qəbul etməsinin təsdiqidir [4].

Psixologiyada təkrarlama bir qəbuledici üçün bir lingistik fəaliyyət stimulunu əks etdirən,nitq söyləməyə başlamazdan əvvəl insanın bənzərsiz və xüsusi hərəkətlərə münasibətini ifadə edən bir idrak vasitəsi olaraq qəbul edilir.Təkrarlanan insanın varlığının iqtisadi,sosial və gündəlik həyat səviyyəsi fərdi qavrayış səviyyəsini təşkil edir [6]. Simvolik funksiyanın psixi məzmununu stimullaşdıran fizioloji mexanizm də bu fəaliyyətə qoşulur. Psixi aktın tamamlanması və xaricləşdirilməsi üçün onun şüurda çoxluq təşkil edən hərəkətləri yeni bir psixi aktın qəbuluna səbəb olur.Öz növbəsində,psixi məzmunun simvolik funksiya ilə birləşməsi təkrarlama zamanı gələcəyə yönəlmiş hərəkətin əldə edilməsini nümayiş etdirir və psixi məzmun tədricən diskussiyada formal bir xüsusiyyət qazanır.

Tez-tez verilən bir sual var: ”Keçmişimizə ehtiyacımız varmı?” Artıq yoxdursa və bunun üçün ehtiyac yoxdursa,buna nə üçün ehtiyacımız var.Ancaq problem ondadır ki,indiki vaxt keçmişdən sonra gəlir,yəni başlanğıc keçmişdə olub, keçmişi əhatə etmirsə,heç bir məlumatı yoxdur.İndiki təməlini keçmişdən seçilmiş variantlardan qurur və bu gün keçmişlə gələcək arasında körpü olur. Keçmişin mövcüdluğu indiki, indiki isə gələcəyi müəyyənləşdirir. Keçmiş indiki ilə keçmişi birləşdirən simvolik nizamla əlaqələndirilir [2].

Keçmiş bu günün və gələcəyin hərəkətlərini istiqamətləndirir. Keçmişin mövcudluğu və indiki dövrdəki gerçək hadisələrə istinad simvolik qaydada əldə edilir. Keçmişin mövcudluğu təkrarla təmin edilir, buna görə keçmiş təkrarla indiki hala gətirilir.Keçmiş bir reallıqdır və bu günün qurucusudur,buna görə keçmişə ehtiyacımızın səbəbi və keçmişə qayıtmağımızın səbəbi də budur.

Təkrar təkcə keçmişlə indiki deyil, həm də keçmişlə indiki arasındakı münasibətləri və keçidləri birləşdirir [5]. Vaxt qaydası idrak yolu ilə həyata keçirilir. Münasibətlər qurmaq üçün idrakın analitik-sintetik etmək məcburiyyətindədir.Buna görə də mnemonic-bilişsel proseslər dil cihazlarından istifadə edərək təkrarlama yolu ilə hipotetik bir quruluş yaradır. Bunun əhəmiyyəti ondadırki,idrak quruluşunun quruluşu dildə təkrarlanmanın quruluşuna uyğundur.

Təkrarlama ilə qurulan etiqad,idrak üslübunun bu günü və gələcəyi üçün etibarlı və perspektivli bir istiqamət vəd edilir [6]. Təkrarlığın keçmiş təcrübəyə istinad etməsi onun

sərhədsiz təbiətinə edilən bir çağırışdır və gələcəyə təkrarlama istinadı həyəcan dolu çağırışlara çağırışdır, çünki insan hər hansı bir şeyi bildiyini bilir. Təcrübə təkrardır və bu bir yoldur və sonrakısı yenidir və inancla irəliləməyə meyllidir. Keçmişdə edilənlərə inanmadan yeni addımlar atmaq ağlasığmazdır [3]. Əvvəlki davranışdan irəli gələn və insanın inanc içində olmasını təmin edən bioloji və sosial amillərin çoxluğu qrup şüursuzluğu səviyyəsində insana tanışdır.

İnsan əhatə edən fiziki mühit dəyişir və inkişaf edir,sanki bu vəziyyətdə insanın təkrarlanma perspektivi yoxdur [2]. Bununla yanaşı,əslində xarici dəyişikliklər üçün daxili sabitlik,insanın varlığına inam və sabitlik və inanc kimi keyfiyyətlərin formalaşması üçün emosional əhval inkişaf üçün varlığın çağırışlarıdır [5].

Təkrarlanma bioloji varlığın soial mənimsənilməsinin əsas elementidir. Müəyyən bir müddət ərzində insanın varlığını yaşaması,həmçinin bu günə və gələcəyə olan istəkdir [6]. Çıxış iştirakçısı inancın köməyi ilə şübhəni aradan qaldıran subyektiv gerçəkliyi qəbul edir və eyni zamanda özünə inam hiss edərkən varlığı və ya olmaması məntiqini qazanır.

Açar sözlər: təkrarlama, ritorik funksiyalar, diskurs.

Ədəbiyyat

1. Ahmadian, Sara; Azarshahi, Sara; and L. Paulhus, Delroy. 2017. Explaining Donald Trump via communication style: Grandiosity, informality, and dynamism. *Personality and Individual Differences.*107 Amsterdam: Elsevier, 49-53.
2. Altmann, Gabriel; and Kohler, Reinhardt. 2015 *Forms and Degrees of Repetition in Text-Detection and Analysis* Berlin/Munich/Boston: de Gruyter.
3. Aristotle, 1995. *The complete works of Aristotle.* Two volumes. Ed. by Jonathan Barnes. Princeton: Princeton University Press.
4. Casassanto Daniel. 2009. When is a linguistic metaphor a conceptual metaphor?In: Vivyan Evans and Stephanie Pourcel (eds.). *New Directions in Cognitive Linguistics.* Amsterdam, Philadelphia: John Benjamins. 127-146.
5. Cockroft, Robert; Cockroft, Susan; Hamilton, Craig; and Downing, Hidalgo, Laura. 2014. *Persuading People: An Introduction to Rhetoric.* Third Edition. Basingstoke: Palgrave Macmillan.
6. Chilton, Paul. 2013. Frames of reference and the linguistic conceptualization of time: present and future. In Jaszcrolt and Saussure (eds.). *Time: language, cognition and reality*. Oxford: Oxford University Press. 236-258.

MAYA ANCELOU POEZİYASINDAKI QADIN PROBLEMİ AFRO-AMERİKAN (İRQÇİLİK) KONTEKSTİNDƏ

Hüseynli Gilə
Azərbaycan Dilər Universiteti
huseynli_ing@mail.ru

Qadının cəmiyyətdəki rolu məsələsi bir sıra müəlliflərin yaradıcılıqlarının əsas ideya xəttini təşkil etmişdir. Nəzərə almaq lazımdır ki, qadın problemi XIX əsrin sonlarından daha qabarıq

planda idi, belə ki, bu məsələ artıq bir mövzu xətti olmaqdan çıxmış, ictimai hərəkata çevrilmişdi. Təkcə feminizm hərəkatının inkişaf tarixinə nəzər saldıqda bunu aydın müşahidə etmək mümkündür. Baxmayaraq ki, Birləşmiş Ştatlarda yaranan irqçilik problemi gedişində qadın probleminə yanaşma tərzi bir qədər fərqli idi, şübhəsiz ki, bunların hər birinin əsasında qadın hüquqlarının müdafiə etmək, qadınların sosial status olaraq kişilərlə bərabər mövqedə çıxış etməsini təmin etmək, qadınlara qarşı zorakılıqlara qarşı çıxmaq, qadınların ictimai, siyasi, mədəni, iqtisadi həyatda rolunu inkişaf etdirmək, əsrlərdir qadınlara qarşı formalaşdırılan stereotiplərə qarşı çıxmaq və s. kimi məsələlər dayanırdı. Radikal olaraq aparılan bu mübarizədə hər kəs kimi öz fikrini səsləndirməyin vacibliyini dərk edən qadın yazıçılar, şairlər nəsli yetişməyə başlamışdı. Qadının cəmiyyətin bir parçası olaraq rastlaşdığı problem və çətinlikləri bu yazıçılar (T.Morisson, E.Uolker) bir Afro-Amerikan qadınının gözü ilə dəyərləndirmişlər.

Maya Ancelou poeziyasında qadın problemi öz təcəssümünü zənci qadının kölәlik, irqi ayrı-seçkiliyə məruz qalması ilə birgə yaşadığı keşməkeşli həyat yolunun təsviri ilə qarışıq şəkildə tapmışdır. Afro-Amerikalı qadın olaraq görüb müşahidə etdiyi hadisələr Maya Anceloya eyni taleyi yaşayan qadınların həyatlarını dərk etməkdə çox yardımçı olmuşdu. Onun şeirlərində təsvir olunan qadın ağ dərili cəmiyyətin və mədəniyyətin təsiri altında sanki öz mədəniyyətindən imtina edilməyə məcbur edilmişdir. Ən dəhşətlisi isə kölәliyin əzabları altında öz talelərinə boyun əymiş qadınların həyatını ifadə etmək idi. Bu ideya xətti onun "Mən Yüksələrəm" (Still I Rise) adlı şeirində xüsusi ustalıqla təsvir edilmişdir. Şeirin bədii dilinə nəzər saldıqda burada həm kədər, həm qəzəb, həm də qəribə yumoristik ruhun olduğunu görə bilərik. Şeirin "Siz" sözü ilə başlaması ağdərililərə müraciət xarakteri daşıyır. Şeir öz məzmununda həm də siyasi xarakter daşıyır:

You may write me down in history
With your bitter, twisted lies,
You may trod me in the very dirt
But still, like dust, I'll rise. [4]
Siz məni öz acı, bulanıq yalanlarınızla
Tarixin dərinliklərində gömə bilərsəniz,
Məni çirkabın içərisində əzə də bilərsiniz,
Amma sanki bir toz kimi mən yüksələrəm.

"Əsrarəngiz Qadın" (Phenomenal Woman) şeiri M.Ancelounun elə əsərlərindəndir ki, burada qadın problemi afro-amerikan kontekstində verilir. İlk öncəmüəllif bir qadın olmaqdan necə qürur duyduğunu əks etdirmişdir. Onun əks etdirdiyi qadın adi biri deyil. Çünki o, ona qarşı stereotipləri qəbul edən, lakin bunu dərk edən qadın kimi hərəkət edir. Bu qadın əsrarəngiz, xüsusi və güclüdür. Şeirin qəhrəmanı bildirir ki, onu bu qədər mükəmməl edən heç bir xüsusi şey yoxdur. Onu hər kəsdən fərqləndirən və bu qədər əsrarəngiz olmasını təmin edən yalnız bir şey onun "Qadın" olmasıdır. Bu şeirin özündə əks etdirdiyi ideyadan da aydın görünür ki, qadınlar malik olduqları xüsusiyyətlərlə fəxr etməlidirlər. Onlar hər bir şeydə əsrarəngiz olduqları üçün bunu hər zaman qiymətləndirməlidirlər.

Men themselves have wondered
What they see in me.
They try so much
But they can't touch
My inner mystery.....
.....I'm a woman
Phenomenally.

Phenomenal woman,
That's me. [5]
Kişilər bəzən heyrətlənirlər
Məndə gördüklərindən
Onlar çalışsalar da
içimdəki möcüzəyə toxuna bilməzlər.
.....mən qadınam,
Xariqüladə,
Əsrarəngiz qadınam
Bu, mənəm.

Lakin şeirdə əsas məqam bu deyil. Elə şeirin ilk bəndindən biz qəhrəmanın zənci olduğunu başa düşürük. Bu qadın özünü gözəl, ağbəniz qadınarla müqayisə edərək onlarla gözəllikdə müqayisə oluna bilməyəcəyini başa düşür. Bu, onu nəinki narahat edir, hətta onları eybəcərləşdirən bu keyfiyyətlərə malik olduqları üçün qadınları qürur duymağa səsləyir.

M.Ancelonun yaradıcılığına ümumi baxış keçirtdikdə görürük ki, o, bir qadının simasında əslində dövrünün bütün qadınlarının ümumiləşmiş obrazını yaratmışdır. Bu ümumiləşmiş obraz həyatın bütün çətinlikləri qarşısında ayaqda durmağı bacarır. Bununla da, sənətkar qadının ictimai-sosial həyatın ən vacib tərkib hissəsi olduğunu göstərir. İnsanlığın həll etməli olduğu bütün problemlərin arasında ən vacib həll olunmalı məsələnin məhz elə qadın problemi olduğunu göstərməklə formalaşmış cəmiyyət normalarının heç bir halda insan mənəviyyatından üstün olmadığını ifadə etməyə çalışmışdır.

Açar sözlər: Amerika ədəbiyyatı, qadın problemi, irqçilik.

Ədəbiyyat

1. Angelou M. Complete collected poems of Maya Angelou. NY: Random House, 1994.
2. Hagen L.B. Heart of a Woman, Mind of a Writer, and Soul of a Poet: A Critical Analysis of the Writings of Maya Angelou. Lanham, NY: University Press, 1997.
3. Lupton M.J. Maya Angelou: A Critical Companion. London: Greenwood Press, 1998.
4. https://www.poetryfoundation.org/poems/46446/still-i-rise
5. https://www.poetryfoundation.org/poems/48985/phenomenal-woman

İBTİDAİ SİNİFLƏRDƏ İNCƏSƏNƏT NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN PEDAQOJİ ŞƏRTLƏRİ VƏ PRİNSİPLƏRİ

Hüseynli Səriyyə
Azərbaycan Dillər Universiteti
huseynlisariyya@gmail.com

Dünya mədəniyyətini daim öz tövhələri iləzənginləşdirən Azərbaycan incəsənətinin çoxəsrlikənənələri vardır. Bu ənənələrin nəsildən-nəslə yaşanaraq zəngin bir irs yaradan xalq musiqi yaradıcılığının, Azərbaycan musiqisinin, rəssamlığın, heykəltəraşlığın, kino sənətinin və digər sahələrin inkişafında böyük xidmətləri olmuşdur. Məsələn, Azərbaycan milli musiqi sənətində muğam, xalq mahnıları, rəqsləri və aşıq yaradıcılığının özünəməxsus yeri vardır.Azərbaycan

musiqisinin möhtəşəmliyi Avropa və dünyada indi daha açıq şəkildə görünür.Məsələn, "Koroğlu" operasından üvertüranın xarici ölkələrdə səslənməsi, muğam mədəniyyətinin dünyaya tanıdılması, Qəmbər Hüseynlinin dünya şöhrətli «Cücələrim» mahnısı və s. hər bir azərbaycanlıda iftixar hissi yaradır. Məlumdur ki, bu cür inciləri şagirdlərə ibtidai siniflərdən başlayaraq çatdırmaq, dəyər verməyi öyrətmək müəllimlərin başlıca vəzifələrindən biridir. Eyni zamanda dünya musiqisinin və digər incəsənət nümunələrinin şagirdlərə çatdırılması milli-mənəvi dəyərləri qiymətləndirməklə yanaşı, ümumbəşəri dəyərləri də əxz etməyə imkan verir və onların dünyagörüşünü genişləndirir.

Azərbaycan incəsənəti xalqımızın tarixi qədər qədim və zəngindir. Uzun və mürəkkəb inkişaf yolu keçmiş teatr, musiqi, kino və xalq sənətinin müxtəlif növlərinin ibtidai siniflərdə tətbiqi şagirdlərdə estetik hissləri inkişaf etdirməklə yanaşı, təlimin keyfiyyətinin yüksəldilməsinə də müsbət təsir göstərir.

Bu barədə A.M. pedaqoq alimlər Həsənov və Ə.M.Ağayevin fikirləri olduqca dəyərlidir. Onlar qeyd edirlər ki, təbiət və cəmiyyət gözəlliklərini müxtəlif təzahür formalarında duymaq, qavramaq, düzgün başa düşmək, sevmək, qiymətləndirmək, həyatı gözəllik qanunları əsasında qurmaq prosesi estetik tərbiyə adlanır və bu proses məqsədyönlü, mütəşəkkil şəkildə həyata keçirilir. Estetik təfəkkürün tərbiyəsi vasitəsi ilə şagirdlər həqiqəti dərk etməyə istiqamətləndirilir, onların hiss və təxəyyülünə təsir edilir, həyatda tipik olan cəhətlərin dərk olunmasına, insanlara, hadisələrə, əşyalara münasibət yaradılır.

Estetik təfəkkürün tərbiyə olunması şagirdləri yaradıcılığa alışdırır və incəsənətin müxtəlif sahələrində onların yaradıcılıq qabiliyyətini inkişaf etdirir, təbiətə qayğı ilə yanaşmağı, onun gözəlliyindən zövq almağı öyrədir. Estetik təfəkkür tərbiyəsi insanların özünə bəxş etdiyi sevinci qiymətləndirməyə, bu sevincə nail olmaq üçün insanın həmişə öz ümumi mədəniyyətini yüksəltməyə, öz qabiliyyət və istedadını inkişaf etdirməyə xidmət edir [3, s.397].

Təlim fəaliyyətində incəsənət nümunələrindən istifadəyə motivasiyanın formalaşdırılmasında müəyyən pedaqoji şərtlərin nəzərə alınması zəruridir. Bunlardan ən əhəmiyyətliləri aşağıdakılardır:

1. İbtidai siniflərdə təlim və təlimdənkənar prosesdə incəsənət nümunələrinin qarşılıqlı təsirinin fəallaşdırılması.
2. Təlim prosesinə inteqrativ oyun texnologiyalarının daxil edilməsi.
3. Məktəbin pedaqoji kollektivi və valideyn icmasının qarşılıqlı işləməsi.
4. Təsviri fəaliyyət, musiqili teatr, bədii oxu üzrə məktəb proqramının reallaşması.

Nəzəri təhlil zamanı kiçikyaşlı məktəblilərin təlimində incəsənət nümunələrindən istifadənin pedaqoji prinsiplərinə də aydınlıq gətirilmişdir. Bunlar aşağıdakılardır:

1. Estetik hisslərin, qabiliyyətlərin aşılanması.
2. Şagirdlərin bədii qavrama və yaradıcı təxəyyülünün inkişaf etdirilməsi.
3. Təlimdənkənar vaxtlardafənlər üzrə planların müxtəlif incəsənət nümunələrinin məşğələləri ilə uzlaşması.
4. Təlim və təlimdənkənar prosesdə şagirdlərin incəsənət nümunələrini dərk etməsi və müstəqil yaradıcı fəaliyyəti üçün emosional komfort şəraitin yaradılması.
5. İncəsənət əsərinin estetik dəyərinin şagirdlər tərəfindən dərk olunması.
6. Estetik təhlillərin aparılması, estetik zövqün formalaşması.
7. Yaradıcı fəaliyyətə meyil və marağ yaradılması.
8. İnteqrasiya prinsipi.

Elmi araşdırmalar göstərdi ki, sadalanan pedaqoji şərtlərin və prinsiplərin reallaşması aşağıdakı mexanizmlərlə həyata keçir:

- estetik istiqamətli tədbirlərin inteqrasiyası;

- estetik blok çərçivəsində müxtəlif təşkilat formalarından istifadə. Bu cür oyun fəaliyyəti uşaqların dərin maraq və fəallığını təmin edir, onların oyuna, hərəkətə, yaradıcılığa olan tələbatına əsaslanır;

- oyun üsullarının geniş tətbiqi;

- şəxsiyyətyönümlü yanaşma;

- təlimdənkənar vaxtlarda uşaqların yorğunluğunu aradan qaldırmaq üçün fənn komponentləri ilə estetik tərbiyə üzrə məşğələlərin növbələşdiriməsi;

- valideynlərlə fəal işin aparılması [4, s.36-42].

Beləliklə, ibtidai siniflərdə incəsənət nümunələrindən istifadənin pedaqoji şərtləri və prinsiplərinin nəzərə alınması həm şagirdlərin şəxsiyyət kimi formalaşmasına, həm də təlimin keyfiyyətinin yüksəldilməsinə müsbət təsir göstərir. İbtidai sinif şagirdləri ilə işləyərkən onların mənəvi dünyasına bələd olmaq, meyil və maraqlarını təmin edərək həyatının emosional və intellektual tərəflərini zənginləşdirmək zəruridir.

Açar sözlər: ibtidai siniflər, incəsənət nümunələri, pedaqoji şərtlər, prinsiplər, oyun, şəxsiyyətyönümlü yanaşma.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. “Azərbaycan müəllimi”, 2013, 25 oktyabr, № 41.
2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Təhsil xəbərləri, 2009, № 6.
3. Həsənov A.M., Ağayev Ə.M. Pedaqogika. Bakı:Naşir, 2007, 496 s. (s.397).
4. Широкова Т.Н. Модель эстетического воспитания учащихся начальных классов коррекционно- развивающего обучения во внеурочное время. // Актуальные проблемы общей педагогики https://cyberleninka.ru/article/n/model-esteticheskogo-vospitaniya-uchaschihsya-nachalnyh-klassov-korrektsionno-razvivayuschego-obucheniya с. 36-42.

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ OYUNLARIN ROLU

Hüseynova Günel
Gəncə Dövlət Universiteti

Müasir dövr xarici dillərin öyrənilməsini zərurətə çevirib. İndi müxtəlif dillərdə danışan, dünya arenasına çıxa bilən, müxtəlif səviyyələrdə öz sözünü deyə bilən gənclərə müstəqil respublikamızın böyük ehtiyacı var. Bunun üçün Avropa standartlarına uyğun yazılmış yeni dərsliklərlə yanaşı, əlavə yardımçı vəsaitlərin olması, rəngarənglik, müxtəliflik, müəllimin özünün də yaradıcı işləməsinə, öyrəncilərin kommunikativ bacarıqlarının inkişafına lazımi kömək edə bilir.

Məlumdur ki, yeni təlim texnologiyaları, fəal təlim metodları, inteqrativ təlim öyrəncilərin müstəqil, yaradıcı işləməyini, təşəbbüskar olmağını, liderlik qabiliyyətlərinin formalaşdırılmasını, müxtəlif fikrə hörmətlə yanaşmasını, ünsiyyətə girmə bacarıqlarını foramalaşdırmağı qarşıya məqsəd kimi qoyur.

Müasir dövrdə xarici dillərin öyrənilməsinin nə dərəcədə vacibliyini nəzərə alsaq, onun tədrisi zamanı oyunların böyük əhəmiyyəti olduğunu görərik. Bunun üçün də öyrəncilərlə iş prossesində

oyun-tapşırıqların müstəsna rolu var. Yeni təlim texnologiyaları cütlər, qruplarla iş, rollu oyunlar, debatlar, işgüzar səs-küy və s. variantlar məqbul və vacib hesab edir [2].

Dərsdə, keçdiyi mövzuya uyğun hər hansı bir oyun-tapşırıqdan istifadə etmək üçün müəllim əvvəlcədən bu oyun-tapşırığa hazırlaşmalı, lazım olan materialları (kartları, şəkilləri, internet resursları və s.) qabiliyyəti, bacarığı olan tələbələrin köməyi ilə hazırlamalı və yaxud əvvəlcədən onların özlərinin hazırlaşmalarını tövsiyə etməlidir. (məs: Siz hansı xarici ölkələri tanıyırsınız? Böyük dövlətlərin bayraqlarını, rəmzlərini bilirsinizmi? Dünya korifeylərindən, məşhur şəxsiyyətlərdən kimləri tanıyırsız? və s.)

İnteraktiv oyunlardan istifadə, öyrəncilərin xarici dilə olan marağını artırır, ünsiyyətə girməyə, fikirlərini sərbəst ifadə edə bilməyə zəmin yaradır, onlarda tərəddüd hissini, hazırcavablıqla, cəldlik, çevikliklə əvəz edir və onlar asanlıqla xarici dili ünsiyyət dilinə çevirirlər.

Oyun-tapşırıqların üstünlüyü ondadır ki, bu zaman passiv öyrənci qalmır, hamı həvəslənir, hamı can atır, nəyi bacardısa etməyə, deməyə səy göstərir. Demək bu müsbət nəticəni verəcək [1].

Bu mövzu aktuallığını ona görə qoruyub saxlayır ki, xarici dillərin tədrisində keçilən materialların mənimsənilməsini təmin edəcək interaktiv oyunların dərs prossesində necə və nə cür aparılmasını, hansı etaplara riayət olunmasını və bu zaman dərsin təşkilinin, müəyyən psixoloji amillərin fikir verilməsini aydın və səlis bir şəkildə işlənib hazırlanmasını əsas tələb kimi götürmək lazımdır.

İnteraktiv oyunların seçilməsi kriteriyaları da vacibdir. Bu oyunlar günün və müasir zamanın tələbinə uyğun olmalı, tələb olunan dərs materiallarını möhkəmləndirməli , dərs materiallarında verilən süjet xəttini inkişaf etdirəcək debat və diskussiyalar yaratmalı, öyrəncilərdə arqument gətirmək bacarığını inkişaf etdirməlidir. Bu məqsədə çatmaq üçün, tələbələrin dərsə marağını artıra bilən daha da həvəsləndirici oyunları, oyun xarakterli dialoqların və səhnəciklərin qurulmasını, dərs materiallarının öyrənilməsində rast gəlinən maneə və çətinliklərin interaktiv oyunların köməyi ilə aradan qaldırılması imkanlarının olması zərurudir.

Bu mövzuda dilşünaslar müəyyən tədqiqatlar aparmış, xarici dil müəllimləri də bu məsələyə yeni prizmadan yanaşmağa, öz mülahizələrini irəli sürməyə cəhd göstərmişlər. Biz orta məktəbdə təhsil alarkən, xarici dil dərslərində demək olar ki, ənənəvi metodla, yəni daha çox grammatik çalışmalar işləməklə dərs materialını mənimsəyirdik. Çox az hallarda müəllim bu və ya digər sadə oyunlardan istifadə etməklə sinfi canlandırırdı. Əksər hallarda bu aşağı siniflərdə rast gəlinirdi. Lakin müasir dövrdə kommunikativ metoda əsaslanaraq xeyli sayda interaktiv oyunların keçirilməsi, debat və diskussiyaların aparılması, mahnı və şerlərin öyrənilməsi, səhnəciklərin qurulması öyrəncilərdə dilin mənimsənilməsini daha da asanlaşdıraraq, tələbədə dilə qarşı marağın artmasına səbəb olur. Qrup şəklində aktivitelərin yerinə yetirilməsi hətta ən zəif tələbənin aktiv iştirakına zəmin yaratmış olur. Oyunların çox səsli-küylü keçməsindən (xüsusilə debatlarda) ehtiyat etmək lazım deyil, zaman keçdikcə öyrəncilərdə oyun intizamı vərdiş yaradır.

Kor-koranə və ya əzbərçiliklə öyrənilmişdərs materiallarının mənimsənilməsində əlavə tapşırıqlardan, testlərdən çox istifadə olunur. Lakin əgər bu biliklər ünsiyyətə xidmət etməzlərsə öz əhəmiyyətini itirmiş olarlar. Müxtəlif tip oyunların spesifik xüsusiyyətlərini vurğulamaqla yanaşı onlara yaradıcı bir şəkildə də yanaşmağın mümkünlüyünü qeyd etmək lazımdır. Istifadə olunan interaktiv oyunlardan əlavə müəllim özü də aktivitelər tərtib edib onları dərs zamanı tətbiq edə bilər.

Müəllimlər pedaqoji cəhətdən müasir və zəngin dünyamızda bir qədər də yaradıcı işləmək üçün bu tip oyunlardan istiqamət götürüb özləri də öyrənciləri ilə birgə yaradıcı axtarışda olub,

müxtəlif vasitələrdən istifadə edəcək, tələbələr isə seçdikləri xarici dildə danışmaq arzusunda olacaqlar.

Açar sözlər: interaktiv oyunlar, xarici dillər, müasir tədris, öyrəncilər, qrup işi.

Ədəbiyyat

1. Caré J. M. et Debyser F. « Jeu, langage et créativité ». Paris. Hachette/ Lavrousse.1978.
2. Gülbəniz Məzahimqızı «Apprendre le français par les jeux-activités», Bakı, 2005.

CƏNUB BÖLGƏSİNDƏ MÜASİR DÖVRDƏ AĞAC OYMA SƏNƏTİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Hüseynova Nazilə
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
aslan_ashiq@mail.ru

Ağac üzərində oyma sənətinin bədii tərtibat xüsusiyyətlərinin müasir dövrümüzdə olan inkişaf xəttinə diqqət yetirərkən onun klassik formalara, ənənələrə olan sadiqliyi hər bir şeydən öncə diqqəti cəlb edir. Məsələn, Bakı, Şirvanşahlar sarayının təsvirinə həsr edilmiş üç hissədən ibarət olan ağac oymanın texniki və bədii xüsusiyyətləri klassik ənənələr əsasında öz həllini tapmışdır. Əsərdəki relyef oymaları icra edən sənətkar V.Əhmədov, işin icrası zamanı ağac üzrə oyma üçün nəzərdə tutulmuş bütün alətlərdən istifadə edərək, iş üslubunu da miras qalmış adətlər üzrə ardıcıllıqla yerinə yetirməyi əsas götürmüşdür. Yerli rəssam hər şeydən əvvəl liflərin istiqamətindən asılı olaraq oduncağın kəsim qaydalarına, eləcə də forma üzərində iş zamanı əməliyyatların ardıcıllığına düzgün riayət etməklə uğurlu nəticə əldə etməyi bacarmışdır.

Şirvanşahlar sarayının klassik və günümüz üçün olduqca həssaslıqla yanaşılan tarixi görkəmini rəssam iki hissəli tablo üzərində yerinə yetirmişdir. Nümunələrdən 240x270 sm olan daha böyük olanında ümumi ansamblın bir qədər aralıqdan görünən romantik üslubu böyük məharətlə həyata keçirilmişdir. Dördkünc ağac parçasının üzərində verilmiş üçkünc arkanın açıq olan hissəsinə əlavə edilmiş əsas görüntü ağacların əhatə etdiyi ön səhnədən sanki bir tamaşaçı gözünün izləyə biləcəyi səmti əks etdirir. Kompleksdə istifadə olunana iri şəbəkəvarı hissələrin detalların təsvirin bir çox yerlərində təkrarlanmaqdadır. Pəncərə tipli çərçivə detalların ara hissələrində Şirvanşahların əsas memarlıq üslubunu müəyyən edən tikilidən hissələrin detalları əks edirilmişdir. Sağ tərəfdə isə aşağıdan yuxarıya doğru türbənin bir hissəsi canlandırılaraq onun həssaslığını tamaşaçısına çatdırmışdır. Rəssam şəxsi təxəyyülünə əsaslanaraq əsas hissənin önündə ağac yarpaqlarının iri görüntülərini olduqca plastik şəkildə həkk etdirmişdir.Yarpaqların dağınıq, pərakəndə atışlar sanki ruzigarın hərəkətini ilə rəqs edir. Rəssam bu görüntü üzərində uğurla kompozisiya qurmaqla yanaşı, həm də onu böyük məharətlə həyata keçirməyi bacarmışdır.

Sırf təsvirçilikdən yayınan usta sənətkar burada yaradıcı istedad nümayiş etdirər, Şirvanşahlar sarayının ağac üzərində oymasını böyük məhəbbət və həvəslə yaratdığını sübut etmişdir. Belə ki, daha arxa hissdə yenə də verilmiş ağaclıqların ardından isə kompleksin ümumi forması tam şəkildə daxildən əks olunaraq özünün maraq doğuran görünüşünü təqdim edir.

Kompleks təsvirə daxil olan daha uzunsov və ensiz hissə olan, 13x43 sm ölçüsündə olan ağac oyma isə özünün yığcamlığında böyük məna-dəyəri cəmləşdirməyi bacarmışdır.

“Bakı, Şirvanşahlar sarayı” adlanan ağac üzərində oymaya daxil olan hər iki əsər üzərindəki təhlilin nəticəsi olaraq qeyd etmək olar ki, onların hər birinin ən xırda detalına qədər sənətkar barmaqlarından material üzərinə köçürülmüş sevginin həssaslığı duyulur.

V.Əhnmədovanın “Bakı, XIX əsr” adlandırılan digər əsəri də sərt ağac materialının bu dəfə daha tünd, hətta qırmızıya çalan növü üzərində icra edilmişdir. Bu isə səbəbsiz deyil. Rəssam burada axan buludların, qızaran qürub çağının, hətta dalğalanan dənizin plastikasını olduqca romantik tərzdə həyata keçirməyi qarşısına məqsəd qoymuşdur.O, bu məqsədinə nail olmaq üçün hər bir detalı dəqiqliklə və incə zövqlə həyata keçirilməsində böyük sənətkarlıq nümayiş etdirmişdir [1, s.3].

Yerli sənətkar A.Hüseynovanın 84x56 sm ölçüsündə olan “Payız bayramı” adlanan ağac oyma əsərində təqdim etdiyi dinamik təsvir payızın bol məhsullu mövsüm olduğunu, əslində canlanan, rəngarəng təbiətini, zəhmətsevər qadın əməyini təmsil edir. Əsərdə istifadə edilmiş tənək və üzümlərin uzun sarmaşıqlı forması mail iskənə və ya çəpinə kəsim bıçaq ilə çərtilərək həyata keçirilmişdir. Bütün detallar eləcə də maili iskənə ilə kəsilmişdir.

Müasir dövrə ağac üzərində bədii oymanın yerinə yetirilməsində nəbati elementlərin istifadəsi qədər, həndəsi bəzək elementləri də rəssam təxəyyülünə uyğun formalarla fərdi nümunələrlə qarşımıza çıxır.

Həndəsi oymada forma, ölçü və yerinə yetirilmə texnikasına görə müxtəlif olan üçüzlü oyuqlar (üçbucaqlar) ən çox yayılmışlar.Qeyd olunanları nümunə olaraq verilmiş illüstrativ materialın oval forması arasında yerləşdirilmiş bir neçə qatda düzbucaqların yaratdığı üçkünclərin sistemli şəkildə davam etdirilərək bütün forma boyu əhatələnməsi onun bədiiliyini ifadə edir [3, s. 83-85].

Oymanın ən kənar hissəsində qara fon üzərində verilmiş haçalı formanın əhatələnməsi həm də tünd yaşıl rəngdə verildiyindən digər hissələrin məna kəsb etməsinə də imkan yaratmışdır. Çünki oyuğun daha dərin hissəsində ərəb hərfləri il verilmiş “Allah” kəlməsi əsərin dini-mənəvi əhəmiyyətini təsdiq edərək sənətkardan daha həssas münasibət göstərməsini tələb edir. Mərkəzdə Allah kəlməsi yazılmış digər bir nümunənin daha ifadəli forması ilə ağac üzərində digər oyma nümunəsində qarşılaşırıq. Lakin burdakı bəzək elementləri üslublaşdırlmış nəbati naxışların vasitəsilə yerinə yetirilməsi onun daha mürəkkəb formaya malik olduğunu göstərir.

Sənətkarın əsərlərinin əksəriyyəti dairəvi lövhə üzərində relyefli oymatexnikasındadır. Rəssam əvvəlcə düz səthdə rəsmi çəkir, sonra müxtəlif ölçülüözünün düzəltdiyi iskənələrlə yazının kənar hissələrini oyaraq onların səthdə qalmasına nail olur. Yazıların oxunaqlı və daha aydın görünüşlü olması üçün dərindəqalan fonu nöqtələrdən ibarət müxtəlif naxışlı döymələrlə tamamlayır. Ritmik təkrarlanan bu naxışlar oymaların bədii həllinə də təsir edən əsas elementlər kimi çıxışedir. Onu da qeyd etmək lazımdır ki, oymalarda bəzən mövzuya uyğun süjet xətti olan təsvirlərdən də istifadə edilir.

Dekorativ güldan, su bardağı, masa, beşik və s. oymaların hər birində usta incə zövq, fərqli bədii plastik forma axtarışı imkanlarınınümayiş etdirir. Bu əşyalar gündəlik həyatda istifadə olunmaq məqsədilə deyil, ağac oyma sənətinin yeni-yeni bədii imkanlarını əks etdirir. Bu əşyalar hətta müasir interyerdə, sərgi salonlarında öz sözünü deyə biləcək bir sənət nümunəsi qədər baxımlıdır.

Azərbaycanın cənub bölgələrində məişət yönümlü ağac emalının inkişafı etnoqrafik və bədii ağacoymasənətinümunələrininsənətşünaslıq zəminində araşdırılması bizə bu nəticəyə gəlməyə əsas verir ki, hər iki sahə bir-biri ilə qarşılıqlı şəkildə mövcud olmuşdur.

Açar sözlər: ağac oyma sənəti, plastik, cənub, dizayn, texnoloji xüsusiyyətlər.

Ədəbiyyat

1. Abbasov Ə.S, Qasımov A.H. Talış zonasının epiqrafik abidələrindən. Bakı. 1994.
2. İmanov A. Ağac üzərində oyma. Metodik göstəriş–Bakı: Ləmannəşr, 2011.
3. Həsənzadə T. Ağacüzərindəxətt oyma, "Qobustan" , 2000, № 2, s. 83-85.
4. Əfəndi R. Azərbaycan bəzək sənəti – Bakı, 2010

ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINA KÖÇÜRÜLMƏSİ TARİXİNDƏN

Hüseynova Nuranə
Azərbaycan Texniki Universiteti
nuranehuseynova93@mail.ru

Ermənilərin ilkin tarixi barədə demək olar ki, dəqiq informasiya yoxdur. Onlar Hind-Avropa dil qrupuna məxsusdur. Bəllidir ki, Kiçik Asiyanın şərqini əhatə edən müstəqil erməni çarlığı Tiqranın dövründə yaradılmışdı. Tiqrandan sonra ermənilər əsrlər boyu digər dövlətlərin, o cümlədən Roma, Sasani və Bizans imperiyalarının vasalları olmuşlar. İlk dəfə ermənilərin bugünkü Ermənistan ərazisinə gəlməsi 1475-ci ilə təsadüf edir. Matendaranda saxlanılan sənədə görə 1431-ci ildə Ağqoyunlu padşahı Yaqubun nümayəndəsi Əmir Rüstəm Makulu Qriqoriyə 530 min Təbriz dinarına İrəvan xanlığının 7 kəndini satdı. İrəvan türklərinin faciəsi də elə həmin tarixdən başlayır [2]. Varlanmış haylar XIX əsrin əvvəllərində artıq 60 qədim Oğuz kəndini pulla alaraq ermənileşdirə bilmişdilər. Məhz indiki Ermənistan adlanan qondarma dövlət Rusiya imperiyasının yardımı ilə həmin 60 türk kəndinin bazasında yaradılmışdır. "Böyük Ermənistan" dövləti yaratmaq xülyasında olan ermənilər, qədim tarixə malik olduqlarını iddia edərək, hətta Urartu mədəniyyətini də öz adlarına çıxmağa çalışırlar. Lakin Urartu mixi yazıları oxunandan sonra elmdə erməni dilinin Uraratu dili ilə heç bir əlaqəsi olmadığı qəbul edilmişdi. 1989- ci ildə Ermənistan SSRİ Elmlər Akademiyasının Rəyasət heyəti urartuluların ermənilərin əcdadları sayılması haqqında fikrin səhv hesab edilməsini qəbul etmişdi.

Tanınmış fransız yazıçısı Aleksandr Dümanın ermənilərə qərəzli yanaşmadığı məlumdur.Ancaq onun ermənilər haqqında reallığı əks etdirən təsəvvürləri də mövcuddur. Təbii ki, bu təsəvvürlər erməni ideologiyasını təbliğ edənləri razı sala bilməz. Çünki onun fikrincə "ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir, niyyət və duyğularını saxlayan hiyləgər və kələkbaz adamlara çevrilmişlər".

Ermənilərin Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürlməsi məsələsi bu gündə öz aktuallığını qoruyub saxlayan tarixi məsələlərdən biridir. Hazırda torpaqlarımızın 20%-ni təcavüzkarlıq yolu ilə mənimsəmiş olan ermənilərin Azərbaycana köçürülməsi əslində mərhələ - mərhələ əsrlər boyu davam etmişdir. Erməni müəllifi V. İşxanyanın XX yüzilliyin əvvəllərinə aid olan yazısında ermənilərin Cənubi Qafqaza son əsrlərdə gəlməsi qeyd olunub.O, ermənilərin vətəninin Kiçik Asiya olduğunu vurğulamışdı.

Erməni tarixçiləri XVII əsrdən başlayaraq erməni tacirlərinin Rusiyaya meyllənməsini və Rusiyanın himayədarlığı ilə Azərbaycan torpaqlarında erməni dövləti yaradılması ideyasını ortaya atılmasını ermənilərin milli-azadlıq hərəkatı kimi dəyərləndirirdilər. Cənubi Qafqaza Rusiyanın

daha fəal müdaxiləsi isə XVIII əsrin birinci rübünün sonunda baş verdi. Demək olar ki, rus çarı I Pyotr açıq müdaxiləyə keçdi. Ermənilər daha çox əmin olurdular ki, axtardıqları himayədarı Rusiyanın şəxsində tapıblar. Rusiya da əmin oldu ki, Cənubi Qafqazın İşğal altına alınmasında ermənilərin "xidmətlərindən" geniş istifadə edilə bilər.

I Pyotrun 1715- ci il mayın 30-da imzaladığı fərmana əsasən A.Volınski Səfəvi dövlətinə səfir göndərildi. I Pyotr Volınskiyə kəşfiyyat və iqtisadi xarakterli vəzifələr, o cümlədən də yerli əhalinin ələ alınması məsələsini tapşırmışdı. Rusiya rəhbərliyi ermənilər məskunlaşan əraziləri nəzarət altına ala bilməsə də, işğal altında olan ərazilərin ermənileşdirilməsinə çox çalışırdı. I Pyotr üçün hələlik Bakı ətrafında ələ keçirilmiş ərazilərdə möhkəmlənmək lazım idi. Bunun da ən yaxşı yollarından biri həmin ərazilərdə xristianların, xüsusilədə ermənilərin məskunlaşdırılması idi.

Səfəvilər dövlətinin zəifləməsindən istifadə edən I Pyotrun 1724-cü ilin noyabrın 10-da ermənilərin Azərbaycanın Xəzər dənizi sahillərində, Dərbənd, Bakı, həmçinin Gilan, Mazandaran və Gürgan ərazilərində məskunlaşmasını rəsmiləşdirən fərmanından sonra başladı. Ermənilərə vəd edilirdi ki, onların yaşayışı üçün Xəzəryanı vilayətlərdə hər cür şərait yaradılacaq.Hətta yerli əhali öz yerlərindən köçürüləcək və onların torpaqları ermənilərə paylanacaqdır. Bu fərmana görə ermənilər Rusiya imperiyasının Cənubi Qafqazdan İran körfəzinə kimi geniş əraziləri ələ keçirmək planının həyata keçirilməsində "beşinci qüvvə" rolunu oynayacaqdılar.Lakin Rusiyanın Qafqazdakı hərbi uğursuzluqları onun ermənilərin planlı məskunlaşdırılması siyasətini bir müddətə dondurdu.

XIX əsrin əvvəllərində çar Rusiyasının Qafqazı işğal etməsini N.Şavrov da açıq şəkildə söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsini də yazırdı."Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzu edilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi".

Xanlıqların işğalından sonra çar məmurları ermənilər Rusiya imperiyasının yenicə ələ keçirdiyi ərazilərə köçməyə şirnikləndirməyə və beləliklə də xristian əhalinin sayını artırmağa başladı. Ermənilərin köçürüldüyü vilayətlərdən biri də Qarabağ xanlığının ərazisi oldu. Lakin 1820-ci ilədək ermənilərin köçüb gəlməsi kütləvi xarakter daşımırdı. 1823-cü il məlumatına görə Qarabağ vilayətinin 20 minə yaxın ailəsindən cəmi 1.5 minini erməni ailəsi təşkil edirdi. Köçürmədən sonra əhalinin etnik tərkibi kəskin şəkildə dəyişdi. Qarabağın dağlıq hissəsinə əvvəlcə rəsmən 124 min, daha sonra isə qeyri-rəsmi olaraq xeyli erməni köçürüldü. 1828-1830-cu illər ərzində Qarabağın dağlıq hissəsinə 200 min erməni köçürülmüşdür. Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri – Marğalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və başqa kəndlər salınmışdı. Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər 1978-ci ildə sovet dövründə Ağdərə rayonunda həmin köçürülmənin şərfinə abidə ucaltmış, lakin XX əsrin 80-ci illərinin sonunda, yəni Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman həmin abidələri özləri məqsədyönlü şəkildə dağıtmışlar.

İkinci Rusiya-İran müharibəsinin nəticəsi olaraq, 1828-ci il fevral ayının 10-da Təbrizdən bir qədər cənubda yerləşən Türkmənçay kəndində Rusiya ilə İran arasında müqavilə imzalandı. Türkmənçay danışıqlarında rus yazıçısı A.S.Qriboyedov və Azərbaycan maarifçisi A.A.Bakıxanov da iştirak etmişdilər. Ən faciəlisi isə o idi ki, bu müqavilə vasitəsilə Azərbaycan torpaqları iki hissəyə parçalandı. Bununla da, Cənubi Azərbaycan məfhumu yaranmış oldu. On altı maddədən ibarət olan Türkmənçay sülh müqaviləsinin on beşinci maddəsinə əsasən ermənilərin Azərbaycan torpaqlarına köçürülməsinə rəsmi şəkildə icazə verilirdi. Türkmənçay müqaviləsinin on beşinci bəndinə görə, 1828-1830-cu illər ərzində İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisinə İrandan 40 min, Türkiyədən isə 84.600 erməni köçürüldü.

1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlanıldı. Bu köçürülmə prosesinin davamı olaraq 1877-1879-cu illərdə də Türkiyədən Cənubi Qafqaza daha 85 min erməni köçürüldü [1].

Ərazilərinin genişləndirilməsi məqsədini güdən ermənilər 1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban patriarxat kilsəsinin ləğv olunmasına və onun mülklərinin erməni kilsəsinə verilməsinə nail oldular. Təbii ki, bu da həmin yerlərin əhalisinin qriqoryanlaşdırması prosesini gücləndirdi.

XIX əsrin sonu XX əsrin əvvəllərində Cənubi Qafqaza ermənilərin köçürülməsi daha geniş vüsət aldı. Belə ki, təkcə 1896-cı ildən 1908-ci ilə kimi keçn 13 il ərzində bu regiona 400 min erməni köçürülmüşdü. Qarabağın dağlıq hissəsinə ermənilərin kütləvi şəkildə köçürülməsi bölgədə demoqrafik vəziyyətə ciddi təsir göstərmişdir.1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54 min 841 ailədən, 29min 350 000-nin azərbaycanlı, 18 min 616-nın isə erməni ailəsi olduğu bildirilir. 1917-ci ildə isə Qarabağda ermənilərin sayı gəlmələrin hesabına artaraq ümumi əhalinin 46%-ni, azərbaycanlılar isə 51%-ni təşkil etmişdir [1].Ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi bölgədə "erməni amili"nin yaranmasına səbəb oldu. Bu məsələni isə gələcəkdə ermənilərin Azərbaycanın əzəli torpaqlarına qarşı ərazi iddialarında çıxış etməsinin başlıca amili kimi qiymətləndirmək olar.

Açar sözlər: köçürmə, Rusiya imperiyası, siyasət.

Ədəbiyyat

1. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü: Etnik təmizləmə, soyqırım, terror, işğal. Bakı, 2015
2. Əliyev İ.Y. Qafazda imperiyalar və ermənilərin Azərbaycana köçürülməsi. Bakı, 2012
3. Süleymanov. M. Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı, 2008
4. Kərim K. Şükürov Türkmənçay 1828. Tarixi xronika. Bakı, 2006.

TERROR ANLAYIŞI VƏ ONUN FORMALARI

Hüseynova Südabə
AMEA Qafqazşünaslıq İnstitutu
sudabeaskerova@gmail.com

Terror termini siyasi leksikona 1789-1794-cü illərin Böyük Fransa Burjua İnqilabi dövründə daxil olub. Hərfi mənada "terror" qorxu, xof yaratma mənasına gəlsə də, ümumilikdə termin olaraq müxtəlif mənalarda izah olunur. Məhz buna görə də terrorun yaranma tarixini müəyyən etmək çox çətindir. E.ə.44-cü ildə Qay Yuliy Sezarın öldürülməsini hazırda bizim dərk etdiyimiz mənada ilk klassik terror aktı kimi qəbul etmək olar [3]. Eyni zamanda bizim eranın 66-72-ci illərində müasir Fələstin ərazisində Roma imperiyasına qarşı mübarizə aparan Skarilər sektasını da ("sicari", "sica" sözündən olub, mənası qısaqılınc deməkdir) ilk terror təşkilatı kimi göstərmək olar. Lakin digər araşdırmaçılar terrorun tarixinin məhz XVIII əsrdə Fransa Burjua inqilabından başladığını iddia edirlər. Bu cür ikili yanaşmanın kökündə isə əsasən, "terror" və terrorizm" məfhumlarının izahı

durur. İlk baxışdan da göründüyü kimi, hər iki terminin eyni mənşəlli olması onlar arasında elə də ciddi fərqin mövcud olduğunu söyləməyə əsas verir. Bir çox tədqiqatçılara görə "terror" və " terrorizm bir-birini tamamlayan ifadələrdir. Terror, adətən, zorakılığın tətbiq metodunu ifadə edən hadisə kimi izah olunur. Təbii ki, terrorizm də bu metodun tətbiq edilmə prosesi kimi nəzərdən keçirilir [2].

Təcavüz, hərbi cinayət, soyqırımı, irqçilik, insanlar üzərində qanunsuz təcrübələrin həyata keçirilməsi, əzab, quletmə, quldurluq, gəmiçiliyə qarşı qanunsuz hərəkətlər, hava gəmilərinin saxlanılması, onlara qarşı terror, diplomatik şəxslərin saxlanılması, mülki vətəndaşların girov götürülməsi, ətraf mühitə zərər vurulması, insan hüquqlarının pozulması – bunlar terror aktlarıdır. Terrorun məqsədi ictimaiyyətdə vahimə yaratmaqdır [4]. Hollandiyalı tədqiqatçı Willem Schinkel yazır: Terrorizm qorxu törətmək üçün qeyri-dövlət aktorları tərəfindən həyata keçirilir [6]. Kaliforniya Universitetinin tədqiqatçısı Con Alan Cohan yazır: terrorizm münaqişələrin törədilməsi zamanı ortaya çıxan şiddətin ilk formasıdır və çoxları üçün şikayətlərin aradan qaldırılmasının təsirli bir yoludur [5].

Terrorizmin əsasında zorakılığa, qətlə qarşı açıq pataloji meyl durur.Terroristlər arasında açıq-aşkar insanlığa nifrət edənlərə daha çox rast gəlinir. Qətl özlüyündə hər zaman insan təbiətinə ziddir və əgər o baş verirsə, qatil yalnız psixi deyil, güclü fizioloji zərbə alır.

Terroristin davranışı, aydın və açıq şəkilli asosial davranış çatışmazlığı (deviant) növüdür. Ümumi qiymətləndirməyə görə, belə davranış bu və ya digər dərəcədə anormal olub, özünə bir sıra patoloji komponentləri daxil edir. Bu terroristin sadəcə olaraq qeyri-produktiv və qeyri-düzgün olan hədsiz dərəcədə asan yolla "dəli" olduğunu təsdiq etmək deyil. Terrorist-şəxsiyyətini aksentuasiyalı adlandırmaq daha düzgündür. Bu, o deməkdir ki, terrorist, həm psixoloji, həm də kliniki cəhətdən normal insandır. Lakin müəyyən xarakter əlamətləri və şəxsiyyət cəhətləri onda aksentuasiyaya uğramışdır [1].

Terrorizmin formalarından danışarkən, onun mikro, mezo və makro səviyyələrini də qeyd etmək olar. Bu halda terrorizmin obyektləri, subyektləri və təsir gücü nəzərə alınır. Mikro səviyyəli terrorizm terroristin öz məqsədləri üçün mülki şəxslərə hücumudur. Terrorizmin mezo səviyyəsinə gəldikdə isə terroristi təşkilatlandırılmış terrorist qrupları əvəz edir. Makro səviyyə isə istər təşkilatlanma, istər terror aktının təsir gücü, istərsə də qurbanlarının sayına görə terrorizmin ən ali səviyyəsidir. Günümüzdə beynəlxalq terrorizmin əsas aktlarının demək olar ki, hamısı məhz makro səviyyəyə aid edilir.

Terrorizmin məqsədlərini, hədəflərini, subyektlərini, təsir gücünü, ideologiyasını və həyata keçirilmə mexanizmlərini eyni anda nəzərdən keçirərək aşağıdakı terrorizm formalarını göstərə bilərik:

1. Siyasi terrorizm: bir çox tədqiqatçıların fikrincə, terrorizmin və terror aktının məqsədi nə olursa olsun, onun əsasında mütləq siyasi motivlər dayanır.

2. İqtisadi terrorizm: daha çox sosial xarakter daşıyan terrorizmin bu formasında əsas hədəf iqtisadi qurumlardır.

3. İdeoloji terrorizm: siaysi-ideoloji və dini-ideoloji kimi altqruplara ayrılan bu forma müəyyən ideologiyanın yayılmasını təmin etmək üçün həyata keçirilən terrorizmdir.

4. Dini terrorizm: dini-ideoloji terrorizmlə bir-birinə çox bağlı olsa da, başlıca fərq tək ideologiyanın yayılması deyil, həm də terrorizmin həyata keçirilməsində dini müxtəlifliyin qabardılmasıdır. Məsələn, İrlandiyadakı katolik – protestant qarşıdurması.

5. İrqi terrorizm: sosial xarakter daşıyan irqi terrorizmin digər sosial xarakterli iqtisadi terrorizmdən əsas fərqi irqi müxtəlifliyə əsaslanmasıdır.

6. Dövlət terrorizmi: bir dövlət tərəfindən düşünülmüş və məqsədyönlü şəkildə digər dövlətin ərazisində həyata keçirilən zorakılıq metodudur.

7. Etnik və ya milli terrorizm: separatist və repressive milli terrorizm kimi alt qruplara bölünür. Separatist terrorizm bir çox hallarda yuxarıda bəhs etdiyimiz dövlət terrorizmi ilə üst-üstə düşə bilər. Demək olar ki, əksər separatist təşkilatlar müəyyən maraqlı dövlətlər tərəfindən dəstəklənir. Avropada separatist təşkilatlara İRA, ETA, PKK və s. göstərməkolar.

8. Kriminal terrorizm: Narkobiznes, silah qaçaqmalçılığı, reket fəaliyyəti və digər sahələr üzərində nəzarəti ələ keçirmək üçün həyata keçirilən terror növüdür.

9. Daxili və xarici terrorizm: bu bölgüdə əsas prinsip kimi terror aktının baş verdiyi ərazilər götürülür. Avropadakı daxili terrorist təşkilatlara missal kimi İspaniyadakı ETA-nı göstərə bilərik. Xarici terrorizmə isə Avropa və Amerikada Türkiyə Cümhuriyyətinin səfirlərinə, konsullarına və iş adamlarına qarşı terror aktları törədən ASALA-nın fəaliyyətini göstərmək olar.

10. Fərditerrorizm: psixoloji, dini, etnik, social və criminal səbəblərdən yaranan terrorizmin bu növü fərdi xarakter daşıyır.

11. Terrorizmin ən yeni formaları olan nüvə, kimyəvi, bioloji və kiber terrorizm (bəzi hallarda isə virtual terrorizm) özündə müasir terrorizmin xarakterik xüsusiyyətlərini ehtiva edir.

Terrorizm kimi terror aktlarının da bir neçə formasını göstərə bilərik. Bunlara təxribat, girov götürmə, nəqliyyat piratlığı, xüsusi əhəmiyyətli binaları və tikililəri ələ keçirmək və silahlı hücumu aid edə bilərik.

Terrorizm eko-terrorizm, narko-terrorizm, agro-terrorizm, bioloji, kimyəvi və nüvə terrorizmi, kiber-terrorizm, həmçinin intihar terrorizmi ola bilər.

Beləliklə, terrorizm son dövlərdə beynəlxalq miqyasda çox ciddi təhlükədir. Terrorizm hadisəsi bütün millətlərin, xalqların həyatı üçün təhlükə törədən və qarşısı asanlıqla alına bilməyən sosial hadisədir.

Açar sözlər: terror, terrorizmin formaları, terrorist şəxsiyyəti, asosial davranış.

Ədəbiyyat

1. Bayramov Ə., Əliyev B. Hüquq psixologiyası(dərslik). Bakı, Təhsil, 2012, 656 s.
2. Piriyeva E., Məmmədli İ. Siyasi psixologiya (dərslik). Bakı, Ecoprint, 2016, s.236
3. İsgəndərov T. Terrorizm və onun formaları, 9 yanvar, 2011 http://turalisgandarov.wordpress.com/2011/01/09/terrorizm/
4. Seydali Ekici.Küreselleşme ve Türkiye'de narkoterör. https://www.researchgate.net/publication/304014144_Kuresellesme_ve_Turkiye'de_narkoteror
5. John Alan Cohan. Necessity, Political Violence and Terrorism. https://www.stetson.edu/law/lawreview/media/necessity-political-violence-and-terrorism.pdf
6. Willem Schinkel.On the concept of terrorism.Palgrave Macmillan 1470-8914 Contemporary political theoryvol. 8, 2, www.palgrave-journals.com/cpt, 183.

MÜASİR DÖVRDƏ BANK SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN İSTİQAMƏTLƏRİ

Hüseynzadə Aysel
Azərbaycan Dövlət İqtisad Universiteti
aysel_huseynzade_1996@mail.ru

Beynəlxalq təcrübədən məlumdur ki, istənilən iqtisadi sistemin normal şəkildə fəaliyyət göstərməsi üçün dövlət müstəsna rola malikdir. Bu nöqteyi-nəzərdən dövlətlə iqtisadiyyatın qarşılıqlı münasibətinin, dövlətin iqtisadi sistemə müdaxiləsinin optimal nisbəti və hüdudunun müəyyənləşdirilməsi, gözlənilməsi iqtisadi sistemin əsas problemlərindəndir. Hal-hazırda mövcud olan bazar iqtisadisistemi ictimai tərəqqi və iqtisadiyyatın səmərəli şəkildə inkişaf etməsinə nail olmaqdan ibarətdir. Demək olar ki, bütün iqtisadi sistemlərdə dövlət iqtisadi struktura müdaxilə edir və bu müdaxilə inzibati amirlik sisteminə nisbətən daha az olur. Əksər hallardadövlətin iqtisadiyyata təsiri minimuma endirlərək azad sahibkarlığın rolu artırılır. Dövlət maliyyə və bank nəzarəti də dövlətin idarə edilməsinin əsas funksiyalarından, maliyyə-kredit sisteminin normal fəaliyyətinin mühüm şərtlərindən biri kimi nəzarətin əsas istiqamətindən biridir. Onun başlıca məqsədi dövlət büdcəsi və qeyri-büdcə fondlarının kəsirsiz yerinə yetirilməsinə, kredit resurslarının istifadəsinə, ölkənin daxili və xarici borclarının vəziyyətinə, dövlət ehtiyatlarına, maliyyə və vergi güzəştlərinin yerinə yetirilməsinə nəzarətdir. Nəzarətin bu növünün qarşısına prioritet olaraq bütün növ dövlət gəlirlərinin vaxtında və tam daxil olması, büdcə defisitinin aradan qaldırılması üçün cəlb olunmuş vəsait və kreditin düzgün istifadəsi, sosial sahəyə xərclərin vaxtında maliyyələşdirilməsi məsələləri qoyulmuşdur.

Azərbaycan Respublikasının bank sistemi Azərbaycan Respublikasının Mərkəzi Bankındanvə kredit təşkilatlarından ibarətdir. Qeyd edilən qurumların fəaliyyətinə Azərbaycan Respublikasının Konstitusiyası, “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında”,“Bank olmayan kredit təşkilatları haqqında” və “Kredit İttifaqları haqqında” Azərbaycan Respublikasının Qanunları,Azərbaycan Respublikasının Mülki Məcəlləsi, bu Qanun və bu qanunlara uyğun olaraq, qəbul olunmuşbaşqa normativ hüquqi aktlar, eləcə də Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq müqavilələrlə nəzarət edilir. Azərbaycan Respublikasının bank sisteminin institusional və hüquqi quruculuğu 1991-ci ildə dövlət müstəqilliyinin əldə olunmasından sonra başlanmışdır [1]. Bank sisteminin inkişaf mərhələsində qarşıda duran əsas vəzifə bank sisteminin institusional və infrastruktur quruculuğunun, ödəniş sisteminin normal işinin təmin edilməsi olmuşdur. 1992-ci ildə “Azərbaycan Respublikasının Milli Bankı haqqında” və “Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında” qanunların qəbul olunması ilə bank sisteminin hüquqi-normativ bazasının əsası yaradılmışdır. Bank sisteminin quruculuğunun ilkin mərhələsi bank bazarına daxilolmanın liberal şərtləri ilə müşaiət edilmişdir. Bank sisteminin institusional-hüquqi quruculuğu prosesini stimullaşdırmaq məqsədilə ilkin mərhələdə Mərkəzi Bank kapitalla əlaqədar aşağı tələblər qoymaqla və bank fəaliyyətini tənzimləmək üçün kifayət qədər yumşaq nəzarət mexanizm və alətlərindən istifadə edirdi. Bu prosesin nəticəsində 233 bank qeydə alınmış və fəaliyyət göstərirdi. Lakin hal-hazırda baş verən böhran nəticəsində 31 bank və xarici bankların filialları, 47 bank olmayan kredit təşkilatı, 76 kredit ittifaqı fəaliyyət göstərir [2].

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətlərinin təsdiqi və bundan irəli gələn məsələlər

haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamı ilə müəyyən olunmuş vəzifələrin yerinə yetrilməsi məqsədilə "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi" işlənib hazırlanmışdır.

Maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsibeynəlxalq iqtisadiyyat və maliyyə bazarlarında müşahidə olunanhadisələrə çevik uyğunlaşma və postneft iqtisadi inkişaf modelinin dəstəklənməsi üçün maliyyə sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla işlənib hazırlanmışdır. Yol Xəritəsi maliyyə xidmətləri sektorunun çevikliyə, rəqabətqabiliyyətliliyə, innovativliyə və iqtisadi inkişafa dəstək prinsipləri əsasında tərtib edilmişdir. Strateji Yol Xərtəsində bank sistemi üçün aşağıdakı prioritetlər və tədbirlər müəyyənləşdirilmişdir [3].

Bank sisteminin kapitallaşması və likvidliyinin təmin edilməsi

Bank sektorunun hərtərəfli diaqnostikasının aparılması

Problemli bankların kapitallaşdırılması üzrə tədbirlər planının hazırlanması

Planın icrası və monitorinqin aparılması

Problemli bankların restrukturizasiyası üzrə institusional və hüquqi mexanizmlərin yaradılması

Kapital dayanıqlılığı bərpa olunmayan bankların restrukturizasiyası

Əmanətlərin sığortalanması mexanizminin təkmilləşdirilməsi

Likvidliyin verilməsi alətlərinin genişləndirilməsi

Banklararası pul bazarında aktivliyin artırılması

Banklararası pul bazarının təşviqi

Təminat çeşidinin artırılması

Marketmeyker institutunun yaradılması

Banklarda daha sağlam risk idarəetməsinin təmin edilməsi

Bank sektorunda risk idarəetməsinin diaqnostikası

Yol xəritəsinin hazırlanması

Sistem əhəmiyyətli bankların tənzimləmə mexanizminin müəyyən edilməsi

Bankların rəqəmsal transformasiyasının sürətləndirilməsi üçün tənzimləmə mexanizminin təkmilləşdirilməsi

Banklarda rəqəmsallaşma ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi

Tənzimləmə mexanizmində zəruri dəyişikliklərin müəyyən edilməsi

Müəyyən edilmiş tədbirlərin həyata keçirilməsi

Bank əməliyyatları, məhsulları və risk idarəetməsi üzrə sektoral inkişafı təmin etmək üçün qeyd edilən prioritetlərin davamı olaraq, 2025- ci ildən sonrakı dövrdə bank sektorunun rəqəmsallaşdırılması tamamlanacaqdır. Yüksək rəqabət mühitində müştərilərin əksəriyyəti öz əməliyyatlarını mobil rabitə və internet vasitəsilə həyata keçirəcəkdir. Satış və xidmət prosesləri tamamilə rəqəmsallaşdırılaraq, mobil rabitə və internet vasitəsilə müştərilərə əlçatan olacaqdır.

Açar sözlər: bank nəzarəti, bank tənzimlənməsi, yol xəritələri.

Ədəbiyyat

1. "Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu.
2. "Banklar haqqında" Azərbaycan Respublikasının Qanunu.
3. "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi".
4. H.B.Allahverdiyev. "İqtisadiyyatın hüquqi tənzimlənməsi" Bakı 2002.

5. Z.F. Məmmədov. “Banklar haqqında normativ-hüquqi aktlar toplusu” Bakı, 2009.
6. Z.F.Məmmədov. “Dövlət maliyyəsi normativ-hüquqi aktlar toplusu” Bakı, 2010.
7. www.president.az
8. www.cbar.az

ƏMƏK RESURSLARININ SƏMƏRƏLİLİYİ ANLAYIŞI VƏ ONUN ELMİ MAHİYYƏTİ

Hüseynzadə Emin
Bakı Biznes Universiteti
emin_huseynzade@inbox.ru

Müəssisənin səmərəli fəaliyyəti onun kadrlarından, orada çalışan işçilərin sərişt ələrindən, peşəkarlıq və ixtisas səviyyələrindən bilavasitə asılı olur. Hər hansı bir müəssisənin istehsal proqramını yerinə yetirmək üçün zəruri sayda işçilər tələb olunur. Sifarişlər portfelindəki öhdəlikləri yerinə yetirmək üçün lazım olan işçilərin sayı mücərrəd anlayiş olmayıb, onların müəyyən qruplar üzrə konkret sayını nəzərdə tutur. Bunun üçün müəssisənin kadrları funksional tərkibinə görə təsnifləşdirilir. Müəssisənin kadrları, ilk əvvəl, istehsal heyəti və qeyri-istehsal heyəti kimi qruplaşdırılır.İstehsal heyəti icra etdikləri funksiyaların xarakterinə görə fəhlələr, mühəndis-texniki işçilər, qulluqçular, kiçik xidmətedici heyət, şagirdlər və mühafizə işçiləri kateqoriyalarına bölünürlər.İstehsal heyətinin əsas tərkib hissəsi olan fəhlələr qrupuna bilavasitə məhsul yaradılmasında iştirak edən və istehsal prosesinin normal gedişatını təmin edən işçilər aid olunurlar [1-2].

İcra etdikləri işin xarakterindəki fərqlərə görə fəhlələr kateqoriyasını 4 əsas qrupa bölmək olar:

1. Texnoloji prosesdə iştirak edən, əmək predmetini emal etmək yolu ilə bilavasitə hazır məhsula çevirən fəhlələr. Lakin bunlardan əlavə, avtomatlaşdırılmış istehsallarda fəhlə-nizamlayıcılar da bu qrupa aid edilirlər, çünki onlar avadanlıqların normal işini təmin edirlər;
2. Xammal, material və hazır məhsulun, yanmfabrıkatların daşınması, anbarlaşdırılması və qorunması ilə məşğul olan fəhlələr;
3. Əsas fondların təmirini, istehsal avadanhqlarının profilaktikasını həyata keçirən, təmir üçün hissə və tərtibatlar istehsal edən fəhlələr;
4. Hazır məhsulun keyfiyyətinə nəzarət işini icra edən fəhlələr. Birinci qrupa daxil olan fəhlələr əsas, digər qruplara aid edilənlər isə köməkçi fəhlələr hesab olunurlar [2].

Mühəndis-texniki, mütəxəssis və rəhbər işçilər kateqoriyasına istehsala texniki rəhbərlik işini həyata kecirən işçilər aid olunurlar. Əqli əmək nümayəndələri olan bu kateqoriya işçilər istehsala rəhbərlik və onun təşkilinin konstruktor, texnoloji, təşkilati-texniki və sırf istehsal məsələləri ilə məşğul olurlar. Bu kateqoriya işçilərə müəssisənin rəhbərliyi, menecerlər, baş mütəxəssislər, sex (sahə, növbə) rəisləri, mühəndislər, texniklər, ustalar və s. aiddirlər. Buraya bəzi iqtisadçılar (əmək, normalaşdırma və s.) da aid edilir.

Qulluqçular kateqoriyasına maliyyə, uçot, təchizat-satış, dəftərxana və bəzi inzibati-idarə işçiləri aid olunurlar.Şagirdlər kateqoriyasına fəhlə peşəsinə yiyələnmək üçün fərdi və briqada (qrup) şəklində həm bilavasitə müəssisənin özündə hamilik yolu ilə və həm də başqa məktəblərə

ezamiyyə olunmuş gənclər daxil edilir. Bu kateqoriyaya müəssisənin balansmda olan texniki-peşə məktəblərinin şagirdləri də aiddir.

Kiçik xidmətedici heyətə inzibati-idarə binalarına xidmət edən xadimələr, süpürgəçilər, minik avtomobillərinin sürücüləri, kuryer-lər, paltarasanlar və s. işçilər aiddirlər.Mühafizə işçilərinə isə müəssisənin gözətçiləri və yanğından mühafizə işçiləri aid edilirlər.Müəssisələrin qeyri-istehsal sahələrində çalışan işçilər istehsal heyətinə aid edilmir. Bu qəbildən olan işçilərə yaşayış binalarına, səhiyyə məntəqələrinə, uşaq bağçalarına, klııblara, yardımçı təsərrüfatlara xidmət edən işçilər daxil olunurlar. Bundan məqsəd istehsal işçilərilə istehsal xarakterli işləri icra etməyənlər arasındakı optimal say nisbətini təyin etməkdir [2]. Fəhlələr ixtisas dərəcələrinə görə dörd qrupa bölünür: ixtisassız (ixtisas dərəcəsi olmayan), az ixtisaslı, ixtisaslı, yüksək ixtisas dərəcəli.

Öz-özlüyündə məlumdur ki, xüsusi hazırlıq tələb etməyən işlərin icrası ixtisas dərəcəsi olmayan, başqa sözlə, ixtisassız fəhlələr tərəfindən icra olunmalıdır. Az ixtisas dərəcəli fəhlənin xüsusi hazırlıq keçmə müddəti cəmisi bir neçə həftə ərzində baş verə bilər. Bu qəbildən olan fəhlələrin icra etdikləri iş o qədər də mürəkkəb olmur.İxtisas dərəcəli, başqa sözlə, ixtisash fəhlələrin hazırlanması 2-3 il müddətində vaxt tələb edir.Yüksək ixtisas dərəcəli fəhlələrin hazırlanmasında, onlarda nəzəri biliklərlə yanaşı müəyyən iş təcrübəsinin formalaşması da zəruri əhəmiyyət daşıyır. Belə fəhlələr isə nisbətən daha uzunmüddətli vaxt ərzində formalaşır. İstehsal sahəsində elmi-texniki tərəqqinin təsiri altmda, tədricən olsa da, yuxarıda göstərilən ixtisas dərəcələri arasında ixtisassız fəhlələrin sayı azalmağa doğrıı meyl edir, yüksək ixtisas dərəcəli fəhlələrin sayı isə artır.Hər hansı bir istehsal sahəsində ixtisas dərəcəsi aşağı olan fəhlələrin sayca çox olması o deməkdir ki, həmin sahədə elmi-texniki tərəqqinin nailiyyətləri lazımmca tətbiq olunmur, köməkçi işlərin, yükləmə-boşaltma, təmir və s.-nin mexanikləşdirilmə səviyyəsi aşağıdır.

Açar sözlər: İstehsal heyəti, qeyri-istehsal heyəti, ixtisassız fəhlə, az ixtisaslı fəhlə, ixtisaslı fəhlə, yüksək ixtisaslı fəhlə.

Ədəbiyyat

1. Əliyev İ.M. Əməyin iqtisaddiyyatı. 2 hissə. Hissə 1: Magtratura və bakalavriatlar üçün dərslik və praktika. 3-cü nəşr.,"YURAYT" nəşriyyatı, 2016. 203s.
2. Bajanova M.İ., Tretyakova E.P. Müəssisənin əmək potensialının qiymətləndirilməsinə müasir yanaşma, Vestnik YurQU No 7 , 2010, 98s.
3. Alesinskaya T.V., Yurko T.S. Işçinin potensialı marketinq sisteminin effektivliyinin faktoru kimi//Izbestiya Yfu No 1, 2012,15s.

MÜƏLLİM REFLEKTİV TƏCRÜBƏÇİ VƏ TƏTBİQİ TƏDQİQATÇI KİMİ

İsgəndərova Sudabə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
iskenderova.sudabe@yandex.com

Şagirdlər ən böyük nailiyyəti o zaman əldə edirlər ki, müəllimlər öz tədris praktikalarını öyrənir, şagirdlər isə özlərinin müəllimlərinə çevrilirlər. Hər iki hal onlarda refleksiya qabiliyyətinin formalaşması ilə baş verir. Nəticədə şagirdöyrənmənin yolunu öyrənməyəvə bu prosesdə özünü öyrənməyə nail olur.

Öyrənməni özünüöyrənmənin obyektinə çevirmək üçüninsanın iradi keyfiyyətlərinə aid olan rifah halını anlaması və hiss etməsi lazımdır. Yaşamaq adlı kompetensiyaya aid olan bu hal sayəsində şagirdlər asan öyrənməyə şərait yaradan bəzi məqamları dərk edirvə "öyrənən olaraq özlərini daha yaxşı anlaya bilirlər". Rifah halı dayanıqlı deyil, zaman keçdikcə xarici təsirlərə qarşı dözümsüz olur. Onunyaradılması üçün strategiyaları erkən yaşdan anlaması sayəsində uşaqlar eləcə də böyüklər həyatının bütün mərhələlərində bundan istifadə edə bilər və rifah halının idarəsi həqiqi həyat bacarığına cevrilər [2].

Müəllim öyrənmənin baş verməsi üçün tədris prosesində bəzi dəyişikliklər etməyi bacarmalıdır. O, şagirdləri öz yaxın inkişaf zonalarında düşünməyə həvəsləndirməlidir. Şagirdlərin sualları tədqiqatın istiqamətini müəyyən etməməli, öyrənmənin özü tədqiqatın obyektinə çevrilməlidir. Yəni, əsas diqqət cisim və hadisələrin öyrənilməsinə deyil, öyrənmənin yollarını öyrənməyə yönəldilməlidir. Şagirdlər maraqlı suallar verməyi, xəyal gücünü artırmağı, problemləri ortaya çıxarmağı, cəsarətli olub yenilikləri sınaqdan keçirməyi,öz işini yoxlamağı və təkmilləşdirməyi, rəy bildirməyi, müxtəlif qruplarda fəal olmaq və hörmətlə dinləməyi, diqqəti cəmləməyi, bir sözlə öz müəlliminə çevrilməyi öyrənməlidirlər.

Bunun üçün tədrisin stukturunda yeniliklər və müəllimdən yeni bacarıqlar tələb olunur.Əgər, müəllim sinifdə reflektiv təcrübəçi və tətbiqi tədqiqatçı olarsa, o, şagirdlərin qavramasına və sinif mühitini inkişaf etdirmək məqsədilə onlara nəzarət edər, məlumat toplayar, istifadə etdikləri metodlarda lazımı dəyişikliklər edə bilər. Tətbiqi tədqiqat tədris prosesinin təbii bir hissəsi olub, şagirdlərin necə, niyə və nə vaxt daha yaxşı öyrənməsini anlamaq üçün müəllimlərə kömək edə bilən araşdırma formasıdır. Tədqiqatın bu növü tətbiqi tədqiqatçı tərəfindən refleksiya, qərar vermə və eləcə də daha keyfiyyətli dərs metodlarının hazırlanması məqsədilə müntəzəm istifadə olunan müşahidələr və məlumatın toplanmasıdır." Bu haqda Parsons və Braun özlərinin "Müəllim reflektiv təcrübəçi və tətbiqi tədqiqatçı kimi" (2002) adlı kitablarında qeyd etmişlər [3].

Tətbiqi tədqiqat müəllimlərin özləri tərəfindən elə öz təcrübələri üzərində həyata keçirilir. Ona həmçinin təcrübəyə əsaslanan tədqiqat da deyilir. Bu tədqiqat növü öz fəaliyyəti barədə düşünmək və onun üzərində refleksiya tələb etdiyindən tətbiqitədqiqatı, həmçinin, reflektiv tədris də adlandırmaq mümkündür.

Tətbiqi tədqiqat sorğu, refleksiya və dialoq tələb edən peşəkar inkişaf modelidir. Tətbiqi tədqiqatın əsas ideyası ondan ibarətdir ki, təhsil problemləri və aidiyyatı məsələlərin müəyyən edilib araşdırılması məhz tədris prosesində həyata keçirilir. Tədqiqatı mövcud tədris mühitinə daxil etmək, eləcə də bu mühitdə olan iştirakçıları tədqiqat işlərinə cəlb etməklə, problemlərin daha tez həlli və nəticələrin dərhal tətbiq olunmasına nail olmaq mümkündür. Tətbiqi tədqiqatın xüsusiyyətlərinə *dövriyyəlik*, tənqidi refleksiya, tənqidi təhlil, iştirakçılıq, vəziyyətə müvaffiqlik, tədricilik, sistemli öyrənmə, nəzəriyyələşdirmə, məhdudiyyətsizlik, səbəbli mühakimə, məlumatın toplanması və şəxsi qeydlərin aparılması aiddir. Tədbiqi tədqiqat vasitəsilə müəllimlər həm özləri, həm şagirdləri, həm də həmkarları haqqında öyrənir və davamlı inkişaf üçün yollar axtarırlar. O, müəllimlərə öz işlərinin keyfiyyətini qiymətləndirmək üçün meyarlar, standartlar müəyyənləşdirməyə imkan yaradır [1].

Tətbiqi tədqiqat zamanı tədqiqatçı kimimüəllimə lazım olan ən vacib bacarıqlarından biri refleksiya etmə qabiliyyətinin olmasıdır. Bu, gələcəkdə şagirddə də reflektiv bacarıq və vərdişlərin formalaşmasına şərait yaradır. Buradaəsas məqsəd hər bir yaş dövründə öz düşüncələrini idarə etmək, tənzimləmək və təşkil etmək təcrübəsini mənimsəmək imkanı verməkdir. Həmçinin dəyərlərin, qərarların müstəqil seçilməsi təcrübəsi, özünü qiymətləndirmə və özünüaktuallaşdırma yolu ilə şəxsiyyətin inkişafına nail olmaqdır. Bu, inklüziv təhsildə psixi inkişafında problemləri

olan uşaqların da təhsilini həyata kecirməyə imkan verəcək. Muxtəlif düşüncə, öyrənmə tərzinə və səviyyəsinə malik olan uşaq və ya şagird potensial imkanına görə bu prosesdən yararlanacaq. Beləliklə də istedadlı uşaqlarla sağlamlıq imkanları məhdud uşaqların birgə fəaliyyətini həyata keçirmək üçün təlim mühiti yaradılmış olacaq.

Açar sözlər: refleksiv bacarıq, öyrənmə, özünüdərk, tətbiqi tədqiqat, reflektiv təçrübəçi.

Ədəbiyyat

1. Andrew Pollard. Reflective teaching in the primary school : a handbook for the classroom. London ; New York : Continuum, 2001. -442.
2. Hattie, J. (2009) Visible Learning: A Synthesis of Over 800 Meta-Analyses Relating to Achievement. Abingdon, UK: Routledge.
3. İsgəndərova S.N. Tətbiqi tədqiqat inkziv təhsil modeli kimi. Elmi iş" humanitar elmlər üzrə aylıq beynəlxalq elmi jurnal №4(5), Bakı, 2019. s. 134-136.
4. Kiçik məktəb yaşlı uşaqların təhsili sahəsində tətbiqi tədqiqatlar: Müasir tendensiya və metodlar / Açıq Cəmiyyət İnstutu-Yardım Fondu. Bakı: Yeni Nəsil, 2003, 98s.

ПРИМЕНЕНИЕ ИНТЕРАКТИВНОГО МЕТОДА НА УРОКАХ АНГЛИЙСКОГО ЯЗЫКА

Искендерова Афет
Азербайджанский Университет Языков
afa.iskenderli@mail.ru

На сегодняшний день перед преподавателями иностранного языка стоит проблема поиска путей повышения познавательного интереса студентов к изучению языка, укрепления их положительной мотивации в учении. Одной из возможностей решения данной проблемы является использование технологии интерактивного обучения.Интерактивный метод – это метод взаимодействия, режим диалога, беседы. Он ориентирован на более широкое взаимодействие студентов не только с преподавателем, но и друг с другом и на доминирование активности учащихся в процессе обучения [1]. Учитель выступает в роли организатора процесса обучения, лидера группы, фасилитатора, создателя условий для инициативы учащихся.

В традиционной системе учитель обычно опирается на сильного студента, ведь он быстрее схватывает материал, быстрее его запоминает, а слабый отсиживается на уроке. Уроки, проведённые в интерактивном методе, позволяют включить всех студентов в активную работу, обеспечить каждому студенту посильное участие в решении проблем, в результате слабые обретают некоторую уверенность в собственных силах, сильные ощущают пользу, помогая товарищам понять материал.В процессе работы в интерактиве у студентов формируются коммуникативные навыки, способность к сотрудничеству и взаимодействию, развивается критическое мышление. Учебный процесс протекает таким образом, что практически все студенты оказываются вовлеченными в процесс познания, они имеют возможность понимать и рефлектировать по поводу того, что они знают и думают.Таким образом, использование интерактивных методов помогает повысить эффективность учебного

процесса.

В качестве интерактивных были предложены и широко используются следующие методы преподавания: кластер, сравнительная диаграмма, пазл, метод Jigsaw, метод мозгового штурма, метод критического мышления, ролевые игры, метод Insert и многие другие.

Рассмотрим некоторые методы интерактивного обучения иностранным языкам.

Работа в группах – это одна из самых популярных стратегий, так как она дает всем студентам возможность участвовать в работе, практиковать навыки сотрудничества.При таком форме работы мои студенты добываются поставленной цели, сотрудничая друг с другом. Работая в группе, студенты проявляют речевую самостоятельность.Моя работа в этом направлении показала, что групповая форма организации учебного труда обладает рядом достоинств: она способствует повышению мотивации и учению, учит объективно оценивать себя и других. Технология обучения в сотрудничестве способствует повышению эффективности овладения английском языком, повышает мотивацию студентов и улучшает результативность их учебного труда.

Кластер – объединение нескольких тем для более детального рассмотрения. Это графические систематизаторы, демонстрирующие различные типы связи между рассматриваемыми объектами и явлениями.Так, при работе с использованием метода кластер, который применяется для стимуляции познавательной деятельности студентов, развития их памяти и пространственного мышления [3]. Например, я записываю в центре классной доски тему (ключевое слово), прошу студентов сделать то же в тетрадях, а затем подумать и записать вокруг данного слова (словосочетания) всё, что приходит им на ум в связи с предложенной темой. Затем студенты обмениваются своими идеями при работе в парах, делятся ими со всем классом.

И очень любимая мной технология – **Brainstorm**. Она прекрасно стимулирует творческую активность.Например, одной из тем изучаемой на уроках английского языка является **Education**. Я спрашиваю у студентов, что для вас значит понятие ”education”. Члены каждой группы обмениваются мнениями.С моей точки зрения этот приём позволяет заставить студентов размышлять путем мозговой атаки студенты называют все, что они знают и думают по теме.

Я привела всего лишь несколько примеров использование интерактивных технологий при изучении английского языка. И сразу видно, что занятия, построенные в интерактивном режиме, вызывают интерес у студентов. Наверное, потому что, нарушается привычный и надоевший порядок на уроке, когда студенты не пассивные слушатели, а активные участники учебного процесса.

Ключевые слова: интерактивный метод, мотивация, взаимодействие

Литература

1. Гальскова Н.Д. Современная методика обучения иностранным языкам. Пособие для учителя. М.: Просвещение, 2005, 284 с.
2. Конышева А.В. Современные методы обучения английскому языку. Минск – 2011, 304 с.
3. Кашлев С.С. Технология интерактивного обучения. – Мн.: Белоруссия, 2005, 160 с.
4. Щукин А.Н. Современные интенсивные методы и технологии обучения иностранным языкам: Учебное пособие. М., 2008, 186 с.

İngilis dili dərslərində interaktiv metodun tətbiqi

Bu məqalə ingilis dili dərslərində istifadə olunan interaktiv metoddan bəhs edir. Bu metodun mahiyyəti ondan ibarətdir ki, tələbələr bilavasitə biliyi öz subyektiv mülahizələri əsasında mənimsəyirlər, tələbələr öz fikirlərini sərbəst ifadə edə bilirlər. Müəllim isə tələbələrə yol göstərir, istiqamət verir, onlara yardımçı olur.İngilis dilinin tədrisində interaktiv metodun tətbiqinin əsas məqsədi tələbələrdə kommunikativ bacarıqların yaradılması və inkişaf etdirilməsindən ibarətdir.

ALTSHEYMER XƏSTƏLİYİ OLAN ŞƏXSLƏR VƏ ONLARI ƏHATƏ EDƏN YAXINLARININ HƏYAT KEYFİYYƏTİNİN ARTIRILMASINDA SOSİAL İŞÇİNİN ROLU

İsmayılbəyli Çimnaz
Azərbaycan Universiteti
cismayilbeyli@mail.ru

Yaşlılıq dövrü və yaşlı fərdlər sosial iş peşəsinin əhatə dairəsinə aid olan sahələrdən biridir. Altsheymer xəstəliyi də yalnız yaşlı fərdləri əhatə etməyib, bəzi hallarda gənc və orta yaşlı şəxslərdə görülsə də, əsasən yaşlıların məruz qaldığı xəstəlikdir [2]. Bu xəstəliyin səbəbi hələ ki, tam olaraq müəyyən edilməmişdir. Lakin xəstəliyin əmələ gəlməsində xromosom anomaliyaları, viruslar, otoimmun pozulmaları, beyin travmaları kimi genetik və sosioekoloji faktorların önəmli rol oynadığı güman edilir .Xəstəlikdə serebral korteksdəki neyron itkisi ən əsas patoloji simptomdur. Bu hüceyrəvi itkilər beyində qan dövranının zəifləməsinə və ya pozulmasına səbəb olur. Altsheymer xəstəliyində rast gəlinən yaddaş itkisi və öyrənmə funksiyalarındakı zəifləmə də məhz bununla əlaqələndirilir [3].

Altsheymer xəstəliyindən əziyyət çəkən şəxs qədər bu yolda ona dəstək olan yaxınları və ailə üzvlərini də çox yoran bir prosesdir. Ona görə də bu şəxslərə qulluq prosesihər kəsi düşündürəsi bir mövzudur. Qulluq edən şəxsin yükünün azaldılması, xəstəliyi olan şəxsin həyat şəraitinin müəyyən səviyyədə saxlanılması və ya yaxşılaşdırılması, depressiya ərəfəsində olan şəxsin bu vəziyyətdən çıxarılması üçün əvvəlcə belə hallarda rast gəlinən mənfi təcrübələrin nələr olduğunu müəyyənləşdirilməsi lazımdır. Bunun üçün mütəxəssislər üç məqama diqqət yetirməlidirlər: Altsheymer diaqnozu qoyulan şəxslərin ailələrinin qarşılaşdıqları əsas problemlər; Bu problemlərin həllində ehtiyac duyulan sosial xidmət növlərinin müəyyənləşdirilməsi; Müəyyən edilmiş ehtiyaclar əsasında ailələrin sosial xidmətlərə yönəldilməsi və maarifləndirmə [1].

Bu xəstəliyin ailəyə necə təsir etdiyini nəzərə alaraq, istər xəstəliklə mübarizə aparan şəxsin ailəsi ilə olan harmoniyasını artdırmaq, istərsə də, ailə üzvlərinin psixo-sosial sağlamlığını qorumaq yolu ilə onların həyat rifahını artırmaq üçün ailəyə peşəkar dəstək göstərilməsinin önəmi xüsusi vurğulanmalıdır [2]. Qulluq göstərən ailə üzvləri və ya yaxın ətrafın ən çox yardıma ehtiyac duyduqları sahələraraşdırıldıqda bir çoxunun psixoloji və iqtisadi yardıma ehtiyacı olduğu müəyyənləşdirilmişdir. Qulluq etməyin öz çətinliyindən əlavə, onlara olan yaxın şəxsin xəstəliyə məruz qalması da psixoloji olaraq insanlara mənfi təsir edir və öz həyatlarını daha əvvəlki kimi yaşaya bilmirlər [4]. Bu baxımdan bir peşəkar kimi onlara psixo-sosial dəstək göstərəcək, hüquqi

müstəvidə ictimai müvəkkillik edəcək, dövlətin yaratdığı imkanlar haqqında məlumatlandıracaq və sosial xidmətlərə istiqamətləndirəcək şəxs sosial işçidir.

Altsheymer xəstəliyi öz təsirləri etibarıilə sosial xəstəlik hesab olunur. Mikro səviyyədə xəstəliyi olan şəxsə, mezo səviyyədə həmin şəxsə, ailəsinə və ətrafına təsir etdiyi halda, mikro səviyyədə ictimai təsirləri məlumdur. Araşdırmalar göstərir ki, Altsheymer xəstəliyi olan şəxslərə qulluq edənlər zaman keçdikcə bu mövzunu peşəkar biri ilə paylaşmaq istəyir və xəstəliyin simptomları artdıqca müəssisə baxımına, ya da evdə sosial xidmətçinin qulluq göstərməyinə mülayim yanaşırlar. Xəstəliklə mübarizə aparan şəxslərin qulluğu ilə məşğul olanlar üçün psixoloji, iqtisadi və sosial resurslar əlçatan deyil. Onların bu xəstəlikdən əziyyət çəkən yaxınlarına qarşı davranış qaydaları baxımından çətinlik çəkdikləri və məlumatsız olduqları, eyni zamanda, bu haqda maarifləndirilmək niyyətlərinin mövcud olduğu müəyyən edilmişdir.

Sosial iş, insanların həyat rifahını artırmağa, resurslardan ədalətli bir şəkildə faydalanmağa və fərdləri öz həyatlarında söz sahibi olmalarına istiqamətləndirməyə əsaslanan bir peşədir. Digər peşə sahibləri ilə işbirliyi halında koordinasiya və ünsiyyət yaradılmalı, bunlardan əlavə, xəstəliklə mübarizə aparan şəxs və ailəsinin xəstəliyi daha rahat qəbul etməsi üçün onlar qorxu və narahatlıqlardan azad edilməlidir. Bundan başqa, bu yolda onlara seçimlər təklif etməli və ehtiyac duyduqları resurslara yönləndirməlidir. Bütün bunlar da vasitəçilik, maarifçilik və müvəkkillik rolları nəzərə almaqla edilməlidir [3].

Qeyd etmək lazımdır ki, ölkəmizdə "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 19.1-ci maddəsinə əsasən hazırlan Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydasına əsasən əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlillərə və sağlamlıq imkanları məhdud uşaqlara, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə evdə (səyyar) sosial xidmətin göstərilməsi mövcuddur. Əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllar, ahıl ər-arvadlar, əlillər və sağlamlıq imkanları məhdud uşaqlar, xəstəliyin terminal (son) mərhələsində olan şəxslər evdə (səyyar) sosial xidmət göstərilməsi üçün yaşayış yeri üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbələrinə ərizə ilə müraciət edirlər. Evdə (səyyar) sosial xidmət həmin xidmətin xarakterindən asılı olaraq, sosial işçi və sosial xidmətçi tərəfindən göstərilir. Sosial işçi tərəfindən göstərilən xidmətlərə daxildir: sosial xidmətə ehtiyacı olan şəxsə tibbi və psixoloji yardım və hüquqi məsləhət almaqda köməklik göstərmək; qəyyumluq və himayəçilik sənədlərinin hazırlanmasına, tənha-ahıl vətəndaşların və əlillərin internat evinə, sağlamlıq imkanları məhdud uşaqlara müvafiq xüsusi təhsil müəssisələrinə göndərilməsi üçün lazımi sənədlərin toplanmasına köməklik göstərmək və s. Sosial xidmətçi tərəfindən göstərilən xidmətlərə daxildir: yemək hazırlanmasına kömək etmək (o cümlədən diyetik yeməklər); özünə qulluq edə bilməyən xəstələri yedizdirmək və qabları yumaq; şəxsin çimizdirilməsinə, saçlarının daranmasına yardım etmək; yataq dəstlərini dəyişdirmək, yataq və geyim əşyalarını yumaq və ütüləmək; mənzili yığışdırmaq və təmizləmək və s [5]. Bütün bunları nəzərə alaraq, peşəkar bir dəstəyin bu xəstəliyin öhdəsindən gəlməkdə böyükəhəmiyyət kəsb etdiyini qeyd edə bilərik.

Açar sözlər: Altsheymer, qulluq, ailə, sosial iş.

Ədəbiyyat

1. Burcu Akpınar (2009). Alzheimer Hastalığı Olan Bireye Bakım Verenlerin Cinsiyetinin Bakımveren Yükü Üzerine Etkisi (Yüksek lisans tezi). Dokuz Eylül Üniversitesi Sağlık Bilimleri Enstitüsü.
2. Ecem Naz Nazlıer Keser (2019). Alzheimer Tanısı Konulan Yaşlıların Ailelerinin Sosyal Hizmet Gereksinimleri (Yüksek lisans tezi). Hacettepe Üniversitesi Sosyal Bilimler Enstitüsü.
3. Ümide Demir Özkay, Yusuf Öztürk, Özgür Devrim Can (2011). Yaşlanan Dünyanın Hastalığı: Alzheimer hastalığı. Süleyman Demirel Üniversitesi Tıp Fakültesi Dergisi,18(1), 35-42.
4. Sezen Soner (2017). Alzheimer Hastalık Sürecinde Bakım Veren Aile Üyelerinin Yaşadıkları Güçlükler ve Sosyal Hizmet.Ahi Evran Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (AEÜSBED), 3(2), 375 – 387.
5. Sosial xidmət haqqında Azərbaycan Respublikasinin Qanunu.

YUQOSLAVİYA BÖHRANINA TARİXİ YANAŞMALAR

İsmayılova Aygün
Bakı Dövlət Universiteti
aygunismayilova13@gmail.com

Yuqoslaviya Federativ Respublikasının dağılması ilə bağlı hadisələr tarixə müasir Yuqoslaviya böhranı adı ilə daxil olmuşdur. Bunda bir-biri ilə sıx bağlı, lakin müstəqil bir neçə prosesi ayırd etmək olar. Birinci və mərkəzi proses çoxmillətli bir dövlətin dağılmasıdır. De fakto Yuqoslaviyanın dağılması 25 iyun 1991-ci ildə, Sloveniya və Xorvatiyanın parlamentləri müstəqillik elan etdikdə və vahid dövlətin tərkibindən çıxmaq barədə qərar qəbul etdikdə baş verdi. De yure isə Yuqoslaviya Federativ Sosialist Respublikası 1992-ci ilin yanvarında, Sloveniya və Xorvatiyanın müstəqilliyi Avropa Birliyi ölkələrini tanıdığı yarım ildən sonra mövcud olmağı dayandırdı. 1992-ci ilin aprel ayının əvvəlində Bosniya və Herseqovina beynəlxalq səviyyədə tanındı. İlkin razılaşmalar olmadan dövlətin parçalanması özündə müharibə təhlükəsini gizlədirdi [2, s.51].

Qeyd edək ki, Yuqoslaviya böhranı ilə bağlı rus və qərb tarixşünaslığında müxtəlif fikirlər mövcuddur. Belə ki, bəzi rus müəllifləri belə hesab edir ki, "Balkan böhranı" termininin tarixşünaslıqda Yuqoslaviya böhranının sinonimi kimi, hətta XX əsrin sonlarında keçmiş Yuqoslaviya məkanında dramatik hadisələrin daha dəqiq adı kimi istifadə edilməsi düzgün deyil. Çünki, böhran heç vaxt keçmiş Yuqoslaviyanın hüdudlarından kənara çıxmamış və ciddi şəkildə desək, regional olmamışdır. Məhz onun regional, ümumbalkan xarakteri beynəlxalq birliyin Yuqoslaviya işinə müdaxiləsi ilə baş vermişdir [4, s.767].

Rusiya tarixşünaslığında böhranın günahkarının Qərbin müdaxiləsi olduğu qeyd edilir. Belə əsərlərdən birində qeyd edilir ki, Qərb ölkələri tərəfindən yeni dövlətlərin tanınması (bunu Almaniya və Vatikan birinci etdilər), münaqişə iştirakçılarından birinin digərinə açıq – aşkar himayədarlıq etməsi, sanksiyalardan hərbi qüvvəyə qədər ikili standartların və geniş təzyiq arsenalının tətbiqi nəinki Yuqoslaviya məkanında on illik müharibələrə səbəb oldu, həm də onlara

belə uzun və şiddətli xarakter verdi. Tam qətiyyətlə demək olar ki, Yuqoslaviyanın süqutu prosesinə kənardan müdaxilə ilə bu dövlətin dağılması prosesi də əlavə edildi [3, s.112].

Rus tarixçisi V.K. Volkov yazırdı ki, "Balkan böhranı beynəlxalq münasibətlər sistemində qaçılmaz olaraq baş verməli olan prosesləri sürətləndirdi. Onların mahiyyəti bu sistemin konkret-tarixi modelini (Yalta Potsdam) hələlik öz adını almayan başqa bir modellə əvəz etməkdən ibarətdir. Soyuq Müharibə illərində də Balkan rolu (və xüsusilə Yuqoslaviyanın) "onların daxili problemləri ilə deyil, ikiqütblü dünya üçün xarakterik olan ideoloji və siyasi qarşıdurma ilə müəyyənləşdirilirdi" [1, s.176].

Qeyd edək ki, belə mövqedən yanaşan qərb tədqiqatçıları da mövcuddur. Qərb tarixşünaslığında Yuqoslaviyadakı hadisələrə təsir, xüsusilə də NATO-nun müdaxiləsi tarixi zərurət kimi əsaslandırılsa da, bunun əksini iddia edənlər də kifayət qədərdir. Bunlardan birin ingilis tədqiqatçısı, politoloq və jurnalist N. Beloff "Yuqoslaviya-qarşısını almaq mümkün olan müharibə" kitabında yazırdı ki, "Əgər kənardan müdaxilə olmasaydı, Yuqoslaviyada münaqişədən qaçmaq olardı, Yuqoslaviya dövlətini isə bu və ya digər formada saxlamaq olardı" [7, s.96]. Bundan başqa, belə fikirdə olanlardan biri də keçmiş fransız generalı, geosiyasət üzrə mütəxəssis P.-M. Qallua idi. O yazırdı ki, Qərbin Yuqoslaviya işlərinə qərəzli müdaxiləsi, "ikili standartlar"ın tətbiq edilməsi münaqişəni yalnız uzadır, yeni qurbanlara gətirib çıxarırdı [4, s.769].

Qərb tarixçilərinin əsərlərində Yuqoslaviya böhranının səbəbləri içərisində onun sosialist əsaslar üzərində qurulması göstərilir. "Serbian Nationalism and the Origins of the Yugoslav Crisis" adlı məqalədə yazılır ki, Ölkənin əsas etnik qrupları yeni federasiya daxilində millətlər kimi qurulsa da, tənzimləmə ən yaxşı şəkildə "formada milli, məzmunca sosialist" olan klassik Sovet düsturu ilə ifadə edildi. Yuqoslaviya kommunizminin kövrək milli ideologiyası son nəticədə Federasiyanın böhranına səbəb olur. Sosializmin ideoloji suverenliyinin zəifləməsi və itməsi, Çexoslovakiyada və Sovet İttifaqında olduğu kimi Yuqoslaviyanın bir dövlət kimi varlığı ilə bağlı fundamental və dərin suallar doğurdu [6].

Eyni zamanda qərb tədqiqatçıları belə hesab edir ki, hər hansı imperiyanın süqutu nəticəsində yaranmış yeni dövlət ya özünü müdafiə etmək imkanına malik olmalı, ya da beynəlxalq silahlı qüvvələr tərəfindən müdafiə olunmalıdır. Əks təqdirdə, nəticədə son dərəcə qeyri-sabit vəziyyət yaranır ki, bu da zərər çəkmiş əhali qruplarının və dövlətlərin yaranmasına gətirib çıxarır.

NATO-nun Yuqoslaviya ərazisinə hərbi müdaxiləsi ilə bağlı fikirlər də fərqlidir. Rusiya tarixşünaslığında bu müdaxilənin əsas səbəbi NATO-nun öz hərbi gücünü nümayiş etdirmək və bununla da, beynəlxalq məsələlərin həllində zəruriliyini göstərmək, qərbin regionda üstün rola malik olaraq, Rusiyanın mövqeyini zəiflətmək və s.kimi əsaslar göstərilir. Lakin qərb tədqiqatçıları hesab edirlər ki, NATO-nun müdaxiləsi etnik albanlara qarşı baş verən dini-etnik haqsızlıqların qarşısını almaqda və münaqişəni tənzimləməkdə mühüm rol oynamışdır.[5]Qeyd edək ki, müxtəlif əsərlərdə bir-birinə zidd və oxşar faktlar obyektivlik baxımından neytral mövqedən araşdırılsa daha real tarixi qiymətləndirmək baxımından daha düzgün olar.

Açar sözlər: Yuqoslaviya böhranı, Balkanlar, konflikt, tarixşünaslıq.

Ədəbiyyat

1. Волков В.К. Балканы в системе геополитических интересов России. Узловые проблемы новейшей истории стран Центральной и Юго-Восточной Европы. М., 2000. с. 322.
2. Гуськова Е.Ю.История Югославского кризиса (1990-2000) Москва 2001, 720 с.

3. Маначинский А.Я., Денисов Д.О. Косово и Метохия: между автономией и сепаратизмом. История и современность. Москва, Центр стратегической конъюнктуры, 2014, 316 с.
4. Югославия в XX веке: Очерки политической истории. Москва «Индрик», 2011, 888 с.
5. Operation Allied Force // https://www.history.navy.mil/browse-by-topic/wars-conflicts-and-operations/allied-force.html
6. Serbian Nationalism and the Origins of the Yugoslav Crisis https://www.usip.org/publications/1996/04/serbian-nationalism-and-origins-yugoslav-crisis
7. Kaplan R. Balkan ghosts: a journey through history. N.Y., 1994.

LEKSİK-QRAMMATİK ZAMAN GÖSTƏRİCİLƏRİNİN MƏTNYARADICI FAKTOR OLARAQ FUNKSİYASI

Karaevi Leila
Azərbaycan Universiteti
qarayevaleyla55@gmail.com

Mətndə olan zaman anlayışını yaradan məna əlaqələrinə ardıcıllıq və eynizamanlıq əlaqələrini aid etmək olar. Bu iki əlaqə tipi zaman məfhumunun çərçivəsində kəsişir, yəni ki, onlardan mətnin tərkibinə aid olan tam məzmun quruluşlarını zaman baxımından müxtəlifliyi meydana çıxır.

Mətndə tərkiblər arasına məzmun əlaqələri araşdırarkən çox mühüm olan bir nöqtəni bildirmık lazımdır. Bu əlaqələr qarşılıklı formada var olaraq, izolyasion edilmiş istifadə imkanlarına sahib deyil. Çoxtərkibli mətnlərdə bir sira məzmun münasibət özünü göstərir. K. Abdullayev ardıcıllık və eynizamanlik əlaqələrini özəliklə qeyd edir, mətndaxil münasibətlərin məna növlərinə bölərkən. O, tərkiblər arasında ardıcıllıq münasibəti mətnin inkişafını K.Abdullayeva belə düşünür ki, mətnin irəliləməsi dedikdə, münasibətdə olan mətnin elə ardıcıl fasiləsiz cəryanı düşünülür ki, onun heç bir nöqtədə ondan öncəki sintaktik hissələrə tələbi olmasın xidmət edən ən böyük təsirli üsull olaraq şərh edir.

Dilçilik əsərlərində mətn tərkiblərinin ardıcılıq münasibəti zamanı onları bağlayan vasitələr olaraq, bunları fərqli-fərqli zaman, məntqi anlamı olan sözlər, bağlayıcılar, zaman zərfləri və başqa vasitələr bildirilib. O formal vasitələr zaman sinfini yaradan mətn nişanlarının şifrələnməsi və açılası zaman dil şüurunda tamamilə bu şəkildə işarətləyici və ya açar funksyasını yerinə yetirir. Azərbaycan və ingilis dillərində təhkiyyəli mətnlərdə temporalın əlavə ifadə vasitələrinin yayğın formada istifadə olunduğunu bildirir təcrübi dil materiallarının analizi. Müəllifin məqsədinə müvafiq şəkildə mətnin zaman hissəsini quruluş baxımdan düzəldirlər bu vasitələr. Bildirilən bu funksiyada daha çox prepozisiyada mövqey almış bağlayıcılar çıxış edir. Məsələyə nəzər yetirək:

Kino searched for a true answer, and at last he said ,"Everybody ". And he could feel a shell of hardness drawing over him.

After a while they lay down to gather on sleeping mat, and Juana did not put the baby in his box tonight, but cradled him on her arms and covered his face with her head shawl. And last light went out of the embers in the fire hole [J.Steinbeck, 35].

Bu nümunədə tekstin kompanentləri arasında zaman axıcılığna təsir edən " And" bağlayıcısının fərqli nöqtələrdə işlənməsi və eyni zamanda burada "after a while " və "last" vahidləri görürük.

Bilindiyi üzrə, mətnin vahidləri arasında zaman ardıcılığını yaradan vasitələrdən biri də *and* bağlayıcısıdır. Mətnin komponentləri arasında informasiyanın daha dəqiq və tam ötürülməsinə kömək edir zaman əsasında. Mətnin vahidləri arasında bağlılıq qarşlıqlı münasibət əsasında əmələ gəlir.

"*Juana caught her breath and moaned a little. And to Kino the secret melody of maybe pearl broke a clear and beautiful, rich and warm and lovely, glowing and gloating and triumphant . In the surface of the great pearl he could see dream forms. He picked the pearl from the dying flesh and held it in his palm ,and he turned it over and saw that its curse was perfect. Juana came here stare at it in his hand and it was the hand he was smashed against the doctor's gate, and the torn flesh of the knuckles was turned greyish white by the sea water"*

(J .Steinbeck,79)

Qeyd olunan mətn parçasında "And" zaman əlaqəsi yaradir kompanentlər arasında.

İfadə etmək lazımdır ki, R. Komponsun ilə U. Hendirks qeyri-simmetrik (biryönlü istiqamət) tətbiq etmək, tərsinə isə, simmetrik (iki-yönlü istiqamət) tətbiq mövqeyinə istinadən zaman ardıcıllığının "And" bağlayıcısının anlamının bir hissəsini əhatə etmədiyi nəticəsinə gəlir və onu bu ideyasına istinad edir: " Cümlələr arasında zaman ardıcılığının interpretasiyası mətnin interpretasiyasından aslıdır, bağlayıcının semantik özəlliklərindən yox".

Halbuki, R. Komponsun çalışmasında əvvəllərin anlamın varlığını nişan etmədiklərini bildirir, bu vasitələrin anlamlarının onları semantik əlaqələrinin assosiyasi nöqtey-nəzərindən sıx-sıx kəsişdiyini ifadə edir.

Bununla əlaqədar nuümunələr göstərilir:

1) You went out and Camila came here.
2) Jack played the guitar and Camila sang.
3) Camila had a baby and got married.

Bu cümlərin hər birini ayrılıqda izahı verilir aşağıda kontekstə əsasən: binci cümlədə əlaqələndirilən iki olayın zaman baxmından əlavə edilməsi və ya eynizamanliq; ikincidə isə zaman əlaqəsi yoxdur ancaq bağlılık olaraq xarakterizə edilir; Üçüncü cümlə də zaman ardıcıllığı olaraq göstərilir. Eyni zamanda kontekslə əlaqədar olaraq birinci nümunə sadə bağlılı və üçüncü nümunə də eynizamanlik olaraq baxmaq mümkündür.

Bu nümunələrdə bir çox zaman göstəriciləri istifadə etmək olar. Misal ; ikinci nümunədə kontekst olayların ardıcıl olaraq irəliləməsini tələb edərsə, bu zaman "and " bağlayıcısını "*then*" və ya "*and then*" birlikləri əvəz etmək olar. Eynizamanliqda "and"-in yerinə "as"işlətmək olur. "Then"ilə"as" birlikləri daha eksplisit olduğunu ifadə edir "and " bağlayıcısına nisbətən V.Dresslerr bu əlaqələndirici vahidlərin bu formada əvəzlənməsini ,üslubi variantivlik olaraq ifadə edir.

Təhkiyyəli mətnlərdə müəlliflərin niyyətinə əsasən təhkiyyəni zaman sahəsini quruluş olaraq tamamlayan və elə olur ki məzmun zamanı vurğulamaq üçün bağlayıcılara müraciət edilir və eyni zamanda bir çox zaman göstəticiləri var. Zaman zərflərini və zaman semantikalı sözləri ilk olaraq bildirmək olar. Mətndə ardıcıllık əlaqələrinin yaranmasında zaman zərfləri daha çox nəzərə çarpır.

Fərqli-fərqli göstəricilərdən, özəliklə zaman zərflərin yer verilməsinin sonucu olaraq daha da açıq formada özünü göstərən ikonik (tam üst-üstə düşən) ardıcıllıklar təhkiyyəli mətndə çox istifadə edilir. Tam üst-üstə düşən zaman ardıcıllığı kimi bilinən bu növ(tip) münasibət mətn

vahidlərinin ardıcıllığının yardımı ilə təsir göstərilən vəziyyətin tarixə görə sıralanmış qaydasını göstərir. L. Luzinanın da ifadə etdiyi kimi, zaman ardıcıllığının zaman zərfiliyinin sistemli vəziyyət,(yerləşməs) ilə mətndiskursu da təmin olunur. Xarakterik özəlliklərindəndir zaman zərfliyinin bu funksiyada olmasi və ümumən onlar cümlənin əvvəlində yerləşir. Bu cümlələr əsas etibari ilə daha böyük mətn parçalarının ön hissəsində yer tutur. Beləliklə də fərqli zaman konstruksiyaları eyni zamanda abzasın limitini və başqa abzasa keçidi bildirir. Şəkilənən sistemli zaman ardıcılığı mətnin koherentliyini təşkil edir. Misala nəzər yetirək:

Then from his back he take a little bottle of white powder and a capsule of gelatin. He filled the capsule with powder and closed it, and then around the first capsule he fitted second capsule and closed it. Then he worked very deftly. He took the baby and pinched its lower lip until it opened its mouth. His fat lingers placed the capsule far back on the baby's tongue, back of the point where he could spit it out, and then from the floor he picked up the little pitcher of pulque and give Coyotito a drink , and it was done. He looked again the baby's eyeball and he pursed his lips and seemed to think.

At last he handed the baby back to Juana, and he turned to Kino. "I think the poison will attack within the hour," he said. " The medicine may save the baby from hurt, but I will back in an hour. Perhaps I am in time to save him." He took a deep breath and went out of hut. And his servant followed him with the lantern.

Now Juana had a baby under her shawl, and she stared at it with anxiety and fear. Kino came to her, he lifted the shawl , and stared at the baby. He moved his hand to look under the eyelid, and only then he saw that the pearl was still in his hand. Then he went to a box by wall, and from it he brought a piece of rag. He wrapped the pearl in rag, then he went to the comer of the brush house and dug a little hole with his fingers in dirty floor, and he pull the pearl in hole and covered it up and concealed the place. (J. Steinbeck 41)

Bu mətnin təşkilində bir sira komponentlər iştirak etdiyini aydın şəkildə müşahidə olunur. Ancaq zaman xətti üzrə təhkiyyəni təşkil edən " then ", "at last", "now" kimi zaman göstəriciləri mətndə ikonik zaman ardıcılığını yaradır.

Açar sözlər: mətn, zaman, ardıcıllıq, eynizamanlıq.

Ədəbiyyat

1. Abdullayev K. M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı,1998. 281 s.
2. Steinbeck J. The Pearl. The Red Pony. Penguin B.
3. Hamann C. The Awesome seeds of Reference Time // Essays on Tensing inEnglish. Vol. 1 Reference time, Tense and Adverb. Tubingen-Mac. Neyemer verlag. 1989, 31-154 p.ooks, 1976, 181 p.

İBTİDAİ SİNİFLƏRDƏ HƏYAT BİLGİSİ TƏLİMİNDƏ TƏKRAR VƏ MÜMARİSƏLƏRİN ROLU

Kazımova Günay
Gəncə Dövlət Universiteti
gunaykazimova@rambler.ru

Yeni pedaqoji təfəkkür şəraitində fənlərin tədrisində müxtəlif üsul və vasitələrdən, səmərəli metodikalardan istifadə olunur ki, şagirdlər tədris materialını asanlıqla mənimsəyə bilsin, həyati bacarıqlara yiyələnsin, onların idrak fəallığı və yaradıcı müstəqilliyi inkişaf etsin. Hazırda ümumtəhsil məktəblərinin başlıca məqsədi təhsilalanların əqli, mənəvi, emosional və fiziki inkişafının qayğısına qalmaqdır.

İbtidai siniflərdə "Həyat bilgisi" fənni şagirdlərin ictimai fəallığını artıran, davranışını, fəaliyyət və ünsiyyətini nizamlamaq qaydalarını öyrədən bir fənndir. Həyat bilgisi fənni üzrə təhsil proqramında fənn üzrə ümumi təlim nəticələri, təlimin məzmunu (məzmun standartları), müəllim və şagird fəaliyyətlərinə aid texnologiyalar, şagird nailiyyətlərinin qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır. Həyat bilgisi fəninin tədrisində prosessual və kontekstual biliklərin verilməsinə, psixomotor və ünsiyyət bacarıqlarının formalaşdırılmasına üstünlük verilir. Fənnin tədrisi zamanı müvafiq fənlərlə interasiya düzgün aparılmalı, məzmun xətləri və mövzular arasında məqsədlərin uyğunluğunu, şagirdlərin fəaliyyətinin harmoniyasını təmin etməlidir [2].

Təlim prosesində materialı yaxşı öyrənmək və yaxşı yadda saxlamaq üçün onu daim təkrar etməyə ehtiyac duyulur. Bəzən şagirdlər materialı yaxşı anlamadan onu təkrar edirlər. Belə təkrar onlarda psixoloji doyumluluq yaradar və şagirdlər həmin mövzunu mənimsəməkdən tez yorularlar. Belə təkrar ancaq mexaniki təkrar adlanır və təkrarın sonunda şagirdlərin mövzu haqqında soruşsaq onlar mövzu haqqında bizə ətraflı məlumat verə bilməyəcək. Lazımdır ki, gərək şagird öyrənəcəyi materialı yaxşı dərk etsin və onu başa düşsün. Bu zaman yaranan arasıkəzilməz təkrar sonda uğurlu mümarisə ilə nəticələnər. Belə olan halda şagird təlimə yaxşı yiyələnər və onu yaxşı yadda saxlayar [1].

Bəzən material aşağıdakı amillərdən asılıdır. Bunları qeyd edək :

- *təkrarın vaxtaşırı aparılması* öyrəniləndən sonra yalnız bir dəfə təkrar olunur. Cavab veriləndən sonra isə unudulur. Təkrar məhz bu cür unudulmanın qarşısını almaq üçün aparılır.

- *təkrar məqsədəyönəlmiş və planlı şəkildə aparılmalıdır* –Çünki, şagird bilməlidir ki,konkret hansı mövzunu və hansı hissəni təkrar edir. Təkrar daima aparılarsa onda bu mümarisə adlanır.

-*təkrarın aparılması zamanı mühüm və ikinci dərəcəli anlayışlara diqqətin yetirilməsi* – şagirdlər mümarisəni apararkən materialda verilən mühüm və mühüm olmayan əlamətlərə nəzər yetirməli, onları bir-birindən ayırmağı bacarmalı və onları qruplaşdırmalıdır. Bəzən şagirdlər oxar əlamətləri qarışdırır və onları ayıra bilmirlər. Şagirdlər təkrarı ümumi aparmamalı, onları qrup halında mənimsəsə və belə yadda saxlasa onda yadda saxlama daha səmərəli olar.

- *mümarisə olunacaq mətnlərin müxtəlifliyi* – təkrar olunacaq mövzular həmişə eyni tipli və bir-birinə oxşar olmamalıdır. Çalışmaq lazımdır ki, mövzular ayrı-ayrı fənnlərdən olsun. Mümarisə aparılacaq mövzular fənnlər ardıcıllığı ilə düzülməlidir. Onda şagirdlərin diqqəti yayılmaz və onlarda psixoloji doyumluluq yaranmaz.

-mümarisə zamanı vaxtın nəzərə alınması – bəzən az vaxt tələb edən mümarisə saatlarla davam edir. Bu şagirdin yorulmasına və diqqətin yayınmasına səbəb olur. Əsas nəzər yetirilən mövzunun özəyini təşkil edən anlayışlar və qaydalardır.

Mümarisələrin təşkili zamanı şagirdlərin fərdi imkanlarının nəzərə alınması- bəzən şagird özünə və müəllimləri şagirdə çox yüklənirlər. Yəni, gün əzində öyrənə bilməyəcəkləri qədər təkrar etməyə və materialı mənimsəməyə çalışırlar. Bu isə şagirddə mexaniki təkrarın yaranmasına səbəb olur. Belə halda onlar materialdan heç nə yadda saxlaya bilmirlər. Şagirdlər çalışmalıdırlar ki, təkrar zamanı əvvəlki səhvlərinə yol verməsin və onları aradan qaldırsınlar.[3]

Nəticə: Müasir təhsil sistemi getdikcə fəallaşır, vaxtaşırı elə yeniliklər, səbəb-nəticə əlaqələri, sübutlar ortaya qoyulur ki, bu da məhz şagirdin yeni təfəkkürünün məhsuludur və "Həyat bilgisi" fənni təlimində təkrar və mümarisələrin əhəmiyyətini qeyd etməmək olmazdı. Yuxarıda qeyd olunmuş amillər mümarisə zamanı nəzərə alınması zəruri hesab olunan amillərdir. Bu amillərə vaxtında əməl olunsa onda mənimsəmə və yadda saxlama daha səmərəli alınar .

Açar sözlər: kurikulum, həyat bilgisi, mümarisə, təlim, şagird.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan elmi pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri. Bakı, Avropa, 2005, səh 288.
2. Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurrikulumu.Bakı-2009.
3. Əliyev B.H., Əliyeva K.R., Cabbarov R.V. Pedaqoji psixologiya. Bakı, Təhsil, 2011, 214 s.
4. Azərbaycan müəllimi http://www.az – muallimi.ab.az

VAŞİNQTON İRVİNQ YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

Kazımzadə Leyla
Azərbaycan Universiteti
leyla.kazimzade.96@mail.ru

Amerika romantizminin özünə məxsus xüsusiyyəti maarifçilik ənənələrinin davamçısı olmasıdır. Onun Avropa romantizmindən fərqi budur ki, şəxsiyyətlə cəmiyyət probleminə xüsusi diqqət yetirir və realizmlə sıx əlaqə ön plana çəkilir.Amerikada Romantizmin inkişaf etməsi orada yaranan Yeni İngiltərə və bədii nümunələrdir. Bu yerdə yaranan ədəbiyyat nümunələri ingilis dilində yaransa da,Amerika yazıçıları öz əsərlərini ölkədən kənarda tanıtmağa çalışırdılar. Amerikan romantizmi milli ideologiyanı hazırladı və vahid amerikan ədəbiyyatının yaranmasına yol açdı. Bu dövrdə amerikan ədəbiyyatı inkişaf etməyə başladı.Əgər əvvəllər amerikan ədəbiyyatı Avropada publisistik əsərlərinə görə tanınırdısa bu dövrdə yəni XIX əsrin 20-ci illərindən başlayaraq poeziyada öz sözünü deyən şairlər formalaşır və yüksək bədii keyfiyyətə malik bədii əsərlər yaranırdı. Həmin yüksək keyfiyyətli bədii əsərləri yaradanlardan biri də ilk amerikan romantizminin cərəyanının nümayəndəsi Vaşinqton İrvinqdir.

Vaşinqton İrvinq 3 aprel 1783-cü ildə Nyu Yorkda anadan olmuşdur.İrvinq bir neçə təxəllüsdə yazmışdır bunlara misal olaraq Dietrich Knickerbocker,Jonathan Oldstyle,Geoffrey Crayon göstərmək olar."Jonathan Oldstyle" təxəllüsü ilə Vaşinqton, şəhərin baş teatrında bir neçə tamaşa və tamaşaçıya sataşırdı".Vaşinqton İrvinq amerikan ədəbiyyatının ilk romantiklərindən biri kimi

əsərlərində kapitalist qayda-qanunlarının insafsızlığı və qəddarlığı, iri sənaye sahiblərinin, maliyyəçilərin,plantasiyaçıların xalqı soymağa can atmalarından narazı qalanların əhval-ruhiyyəsi əks olunurdu" [1]. Onun yaradıcılığında Aristotel,Epikür və Heredot kimi filosofların təsirini görmək mümkündür.İrvinqin yaradıcılığı üç mərhələyə bölünür: "Erkən Amerika Dövrü", "Avropa və romantik" və "Son Amerika dövrü".Birinci dövr 1802-1819 cu illəri əhatə edir ki, bu dövrdə "Conatan Oldsaytın məktubları", "Salmaqundı", "Nyu Yorkun tarixi", "Eskizlər kitabı"əsərlərini yazmışdır.İkinci dövr 1819-1832-ci illəri əhatə edir ki, bu dövrdə "Breysbic Holl", "Centlmen,Conatan Oldstaylın məktubları", "Səyyahın hekayələri","Xristofor Kolumbun həyatı və səyahətlərinin tarixi","Qranadanın fəthi", "Əlhəmbra" kimi əsərlər yazmışdır.Üçüncü dövr 1832-1859-cu illəri əhatə edir ki, bu dövrdə yazdığı əsərlər bunlardır: "Periferiyaya səyahət", "Kreyonun Cızmaqarası", "Astoriya", "Oliver Qoldsmitin həyatı", "Məhəmməd və ardıcılları", "Corc Vaşinqtonun həyatı" və başqaları.

Şəxsi təhsili olan İrvinq, böyük qardaşı Peter tərəfindən redaktə edilmiş "Səhər salnaməsi" üçün Conatan Oldsayt (Jonathan Oldstyle) qələm adı ilə esse yazmağa başladı.Yaradıcılıq impulslarını əyləndirməyə üstünlük verən İrvinq, dostu Ceyms Kirke Paulding və yaşlı qardaşı William ilə birlikdə yumoristik esselər dövri olaraq nəşr olunan "Salamagundi"ni nəşr etdirdi. 1815-ci ildə Vaşinqton İrvinq ailənin biznesinin çətin vaxtında qardaşlarına kömək etmək üçün İngiltərəyə gedir.Bu səy uğursuz olduqda, "Eskizlər kitabı" ("The Sketch Book of Geoffrey Crayon, Gent") hekayə və esselər toplusunu meydana gətirdi. 1819-20-ci illər ərzində bir neçə hissə ilə yayımlanan bu kitabında müəllifin ən məşhur iki əsərindən biri olan "Rip Van Winkle" və "The Legend of Sleepy Hollow" ("Yuxu içi boşluq əfsanəsi") var ki, bu əsərlər onu həm İngiltərədə, həm də Amerikada ədəbi ulduz halına gətirdi. Bu kitabın nəşr olunmasında Valter Skotun rolu çox böyükdür. "Rip Van Winkle" əsəri ilə sənətkar Amerika ədəbiyyatında milli novellanın əsasını qoyur.Bu əsərYeni İngiltərədə yaşayan holland mühacirlərin yaşam tərzi haqqında yumoristik oçerkdir.İrvinqə məxsus olan melanxolik ovqat bu əsərdə toplanmışdır. "Rip Van Winkle" hekayəsinin bizim təxəyyülümüzə təsirinin sirri amansız romantik "tempus edax rerum"(nəsnələri həzm-rabedən keçirən zaman)mövzusunu təcəssüm edən mətnaltı məzmun ilə bağlıdır [4]. İrvinq amerikalıları və onların etdiklərini lağ etmək üçün satira və istehzadan istifadə edirdi. "The Legend of Sleepy Hollow" əsərində də İrvinq hadisələrin inkişafını təbiət mənzərəsi ilə ifadə edir.O hekayədəki əlaqələrin mənfi təsirlərini və dəhşətli ola biləcəyini göstərmək üçün yumordan istifadə edib.Həmçinin bu əsərdə satira ilə Amerikan həyatının bir çox cəhətlərinin qüsurlarını dilə gətirir.

İrvinq daha sonra "Breysbic Holl "(1822) və "Səyahətçinin nağılları" (1824) əsərlərini yazır.ABŞ nazirinin İspaniyaya dəvətini qəbul etdikdən sonra, 1826-cı ildə Madridə köçdü və "Xristofor Kolumbun həyat və səyahət tarixi" (1828), "Qranadanın fəthi"(1829) və "Əlhambra" (1832) əsərini yazdı.İspaniyadan topladığı hekayə və materiallar hesabına yazdığı "Qranadanın fəthi" əsərində yazıçı heç bir təxəllüsdən istifadə etmir və hadisələri öz dilindən danışır.Əsər müsəlman və xristianlar arasında olan münasibətlə əlaqədardır. İrvinq bu əsərdə göstərir ki, müsəlmanlarla xristianlar arasında əlaqə mümkünsüzdür, çünki sonda hər iki tərəf bir-birinə xəyanət edəcək. Yazıçı bu əsərdə ərəb tarixçisi Əbülqasim Tarif ibn Tariqin "İspaniyanın tarixi" əsərindən istifadə etmişdir. İrvinq bu əsərdə zəngin elmi tarixi,ədəbi bədii mənbələrdən istifadə etmişdir.Əsərdə təsvir olunan hər bir hadisə və şəxsiyyət gerçəklikdə mövcud olmamışdır,amma burada Kolumbun silahdaşları və Qranadanın kralı Boabdil romantik xarakterləri ilə diqqəti cəlb edir.Xristian və müsəlman arasında olan dini ayrı seçkiliyindən "Əlhambra" əsərində də toxunur. Yazıçı xristian olsada bu əsərdə o Məkkədən, Qurandan danışır.Əsərdə həmçinin Şərq ədəbiyyatının və Şərq mədəniyyətinin gözəlliyindən də söhbət açır.Yazıçı bu əsərin ön sözündə

qeyd edir ki, burada ərəb üslubundan istifadə edib.Beləliklə bu novellasını xalq adət ənənələrindən,şifahi xalq ədəbiyyatından götürülmüş rəvayət adlandırır.

Pul hərisliyi və zəngin olmaq ehtirası kimi mövzular İrvinqin novellalarında tez-tez rast gəlinir. Yazıçı hər dəfə cəmiyyətdə olan bu problemə yeni və fərqli tərzdə kinayə və satira ilə yanaşır.Onun novellalarında həmçinin alman romantik hekayələrinin, italyan ədəbiyyatında aktual mövzu olan quldurluq haqqında əhvalatlar,ingilis qotik romanının təsiri öz əksini tapırdı.

1832-ci ildə Amerikaya dönən İrvinq,dostu Ceyms ilə birlikdə ölkənin qərb sərhədlərindən kənarda yerləşən tanınmamış ərazilərə baş çəkdi.Bu zaman o, qərb sərhəd mövzusunda "Astoriya" əsərini yazdı.Hələ tamamilə yeni, təcavüzkar demokratik Amerikada rahatlıq tapmasa da, İspaniyaya nazir təyin olunmağı qəbul etdi və 1842-1846-cı illər arasında xidmət etdi. 1846-cı ildə ABŞ-a qayıdaraq ədəbi karyerasına başladı. "Oliver Qoldsmit" (1849), "Məhəmməd və onun ardıcılları" (1849-1850) və "Wolfert Roost" (1855) əsərlərini yazır.Onun uzun düşündüyü son layihəsi, Corc Vaşinqtonun beş cildlik həyatı (1855-1859) idi, sağlamlığı uğursuz olduğu üçün əzmlə araşdırılmış və əzmlə başa çatdırılmışdır.İspaniyadakı uğurlarından yəni nazir vəzifəsindən sonra, o Amerikada sonrakı illərini dövrünün aparıcı yazıçıları, sənətçiləri və siyasətçiləri üçün görüş yeri olaraq işləyən "Sunnyside" adlı New York əmlakında keçirmişdi.İlk həqiqi Amerika yazıçısı hesab olunan İrvinq öz varislərini yetişdirməyə çalışdı və müəllifləri müəllif hüquqlarının pozulmasından qorumaq üçün daha güclü qanunlar tələb etdi.İrvinq 28 noyabr 1859-cu ildə vəfat etdi.

Avropa İrvinqi daha yaxşı tanıyırdı və Avropanın bir çox yazıçı və şairləri, onun əsərlərini yüksək qiymətləndirmişlər.Belə şair və yazıçılara nümunə olaraq Dikkens, Tekkerey, Qodvin, Bayron, Şelli, Belinski və başqalarını göstərmək olar [3]. F.S.Kasenslə söhbətində İrvinq novella yazarkən özünü dirijor kimi hiss etdiyini deyir: "Mən hekayənin bir hissəsinə skripka,digər hissəsinə klarnet, trombon,fleyta səsi və nəhayət bəm səsli baraban əlavə edirəm. Bir musiqi alətinin səsini azaldarkən digərinin səsini artırıram,bu proses yenidən təkrarlanır, bəzən barabanın gur səsi digər alətlərin səsini üstələyir" [5].

Açar sözlər: amerikan romantizmi, milli novella, esse, satira.

Ədəbiyyat

1. Ceyms Fenimor Kuper."Ləpirçi".Bakı,"Şərq-Qərb", 2016.
2. Filologiya məsələləri – N3 , 2016 / V.İrvinq Amerika ədəbiyyatının ilk klassik yazıçısıdır.
3. Honour Hugh .Romanticism. New York,1979.
4. Qorxmaz Quliyev,Ülviyyə Əliyeva."Amerika ədəbiyyatı: tarixi oçerklər" .Bakı 2016.
5. William.H.L . Kinckbocker,Bolingbroke, and the Fiction of History. Journal of the History of Ideas: 1959.
6. www.biografy.com/writer/Washington-irving.

ƏMƏKDAR RƏSSAM FƏRMAN QULAMOVUN NATÜRMORTLARINDA BƏDİİ İFADƏ VASİTƏLƏRİ

Mədətova Gülnaz
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
gulnazmadatova@gmail.com

Fərman Qulamovun natürmort yaradıcılığındakı fəaliyyətinə nəzər saldıqda onun real-gerçəkçi tendensiyalarla yanaşı, abstrakt, improvizə edilmiş formalarla qarşımıza çıxan sənət nümunələrinə müəlliflik etdiyini görürürk. Daha çox milli xüsusiyyətləri ilə izah edilən rəngkarlığın səddlərinin aşaraq fərdi dəsti-xətti ilə seçilən həmin əsərlərdə rəssam bəzən əlaqəli, bəzən isə əlaqəsiz elementlərin tərənnümündə formal rəngkarlıq stilinə əsaslanməşdır. Belə sənətkarladan Kamal Əhməd, Rasim Babayev, Cavad Mircavadov, Fazil Nəcəfov kimi rəssamların da adını çəkmək mümkündür ki, onların hər birinin özülərinə məxsus üslub xüsusiyyətinə malik əsərləri təsviri sənətimizin inkişaf xəttini müəyyən etmişdir.

Ümumiyyətlə, 1980-90-cı illərdə Azərbaycan rəssamları klassik və müasir sənət üslubları arasında bir təcrübə keçirərək hər iki istiqamətin ortaq kontekstində əsərlər yaratmağa meyl edirdilər. Və bu da mövcud ideologiyadan uzaqlaşmağa, sənətkar fərdiliyini təsdiqləməyə imkan verirdi. Fərman Qasımov yaradıcılığının araşdırması həmin istiqamətin yüksək formada digər sahələrlə yanaşı, eyni zamanda natürmort janrında da öz əksini tapdığını sübut edir.

Rəssamın natürmortlarındakı obyektlər praktik istifadələri ilə deyil, simvolik əlaqələri baxımından da əhəmiyyət daşıyır. Məsələn, sənətkarın bu tipli tablolarından birində müxtəlif mətbəx əşyasının yan-yana məqsədsiz düzülüşünün yanında bir hissəsi bıçaqla kəsilmiş yağqabı da təsvir edilmişdir. Doğrudur, Fərman Qulamovun bütün natürmortlarında təsvir detalları son dərəcə canlı və həqiqidir. Hər bir əşya, meyvə və s. diqqətlə təsvir edilmişdir. Hər zaman olduğu kimi işığın təsirediciliyi isə həmin reallıqda rəssamın alışdığı əşyalara münasibətini əks etdirir.

Əsasən də XVI-XVII əsrlərdən başlayaraq geniş yayılmağa başlayan natürmort janrında həyatın daha səmimi anlarını canlandırmağa üstünlük verən Avropa rəssamları ətraflarındakı obyektləri real formalarla canlandırmağa başlamışdırlar. Müşahidəyə söykən obyektlərin görünüşlərindən təsirlənib həyatın özünə yaxınlaşmağa çalışan həmin sənətkarlar bu zaman evdə hər gün gördükləri, sıradan olan detallara günlük yaşamımızın bir parçası kimi yanaşaraq onları təsvirə almışdılar. Burada bir səmimiyyət, əhatəmizdəki hər nə varsa hər bir nüansa ayrıca münasibət, yaşantımıza daxil olan cansızların sadəcə bir görüntü olaraq deyil, onların yaşam tərzimizi nümayiş etdirməsi kimi həssaslıq özünü göstərməkdədir. Həmin münasibəti Fərman Qulamovun da natürmort janrında icra ediyi əsərlərində görmək olar. Məsələn, qeyd edilmiş tabloda arxa planda xüsusi fon deyil, ətraf mühitin qarışıq kölgəli təsvirinin verilməsi detalların daha eal, canlı ifadə bağışlamasına imkan yaratmışdır. Rənglərin harmonik ifadəliliyini verən rəssam burada qarışıq təzadlı münasibət yaradaraq əlaqələndirmənin öz daxilidə sənətkarın yaradıcılığına xas realizmi, eləcə də işıq-kölgə arasındakı əlaqələndirməni diqqətə çatdırır.

Natürmortda adi səhər yeməyi süfrəsində düzülmüş sadə dekorativ elementlərin məqsədli və ya məqsədsiz tərənnümünün daxilində onları bir-birinə yaxınlaşdıran rəng münasibətləri əsərin səmimiliyini göstərir. Tünd yaşıl çaydanlıq, onun bir qədər arxa tərəfində qəhvəyi rəngli iki qulplu abugərdan, daha orta hissədə tam ölçüsü ilə görünən qəhvəyi-yaşıl tonlarda olan boğazı dar enli

kuzə, ətrafa dağılmış meyvələr, ön sağ hissədə isə qeyd etdiyimiz kimi artıq bir qədər istifadə olunmuş nimçənin içində yağ və kənardan qoyulmuş yağ bıçağı təsvirində əslində uyğun əşyaların bir araya gətirilməsi nüası tamaşaçısını düşündürsə də, burada onları əlaqələndirən rəng qamması natürmortun yüksək bədii ifadəsindən xəbər verir. Detalların hər birinin material xüsusiyyətini aydınlaşdırmaq üçün məqsədli formada verilmiş işıq nüansı onların təbii göskəmindəki reallığı daha canlı formalarla tamaşaçısına çatdırır. Masanın üzrinə düşən kölgə bu xüsusiyyəti xüsusi olaraq daha təsirli etməklə sənətkar yaradıcılığının yüksək məharətini bir daha təsdiq edir.

Qeyd edilmiş bütün bu rəngarənglik açıq süd rəngli masa örtüyünün üzərində verilməklə hər detalın ayrılıqda qavranılmasını təmin edilmiş, bununla yanaşı, elementlərin həm də ətraf mühitin də ümumi rəng tonları ilə yaxın münasibətdə verilməlməsi əsas olanın önə çəkilməsinə imkan yaratmışdır. Fon üzərinə atılmış açıq yaşıl, sarı, qəhvəyi kölgələr natürmortda cansız əşyaları "canlı" göstərəcək qədər önəmli nüans olduğunu diqətə çatdırır.

Fərman Qasımovun "İki proyeksiyalı natürmort"undakı detalların olduqca rəngarəng, parlaq, çoxluq təşkil etməsinə baxmayaraq əşyalar və meyvələr nəzərdən qaçmaz və gözü yormayan bir sadəlik daxilindədirlər. Öndə verilmiş iki kiçik meyvə, bəyaz uzunsov qabın içərisində verilmiş digər kiçik meyvələr, lampa, dolçalar, rəngli örtüklərin aralıqlardakı təsviri özünün daha aydın rəngləri və işıq tonun düzgün qurulması nəticəsinə bağlı olaraq dəqiqliklə qavranılır. Seçilən obyektlərin sadəliyi, hər bir proyeksiyada fərqli olmasına baxmayaraq daha tünd tonlar, işıq, kölgə nəticəsində ciddi və mistik atmosferi gücləndirir.

İki hissəyə bölünmüş natürmortun proyeksiyalarda təsvir edilmiş detallarını birləşdirən ön hissəsində verilmiş elementlərin hər iki sahədə iştirak etməsi əsərin dağınıqlığına məntiqi bir izah gətirir. Taxta arakəsmə ilə iki hissəyə bölünən sahənin ön hissəsində onlar birləşərək eyni detalları paylaşırlar. Burada həm ayrılan fərqli hissələr, həm də onları əlaqələndirən təsviri münasibət əsərin özünəməxsus yüksək ifadə tərzini canlandırır.

Sağ planda verilmiş təsvirdə son yan hissədəki ağ lampa sanki ərtafı işıqlandıraraq detalların rəngləri ilə izah olunan təsviri məqsədlərini açıqlayır. Lampanın çəhrayı fon üzərində saldığı qara kölgə və ətrafa yayılan bəyaz işıq kəskin təzad yaradır. Eyni münasibəti divardakı narıncı, parlaq sarı, açıq yasəməni və yaşıl rənglərdən ibarət asılqanın da tərənnümündə görmək olar. Olduqca şux və parlaq tonların fon rolunu oynayan divar üzərinə saldığı tünd qara kölgə əsərdə təzadlı rəng münasibətlərini nə qədər daha kəskin ifadə etsə də, atmosferin parlaq tonlarının sayəsində bəxş etdiyi şuxluq hər şeydən öncə diqqəti cəlb edir.

Arakəsmənin ikinci hissəsi isə bir qədər də arxa tərəfə çəkilərək gendən tərənnüm edilməklə hissələr arasındakı məsafə fərqini də göstərir. Bu isə öz növbəsində proyeksiyalar arasında sadəcə detal deyil, eyni zamanda təsvir məkanını da ayırd edir. Burada fon yasəməni çalarlarda verilmişdir. Yasəməni və çəhrəyanın yaxın ton münasibətlərindən istifadə edən rəssam əsərdə həm də bədii əlaqələndirmədən məharətlə bəhrələnmişdir.

Qeyd edildiyi natürmortun bir qədər uzaqdan verilmiş hissəsində isə milli məişət əşyalarının təsviri yer almışdır. Onların ağ işıq ləkələri ilə parlaqlığını ortaya çıxaran qəhvəyi tonları kənar hissələrdə verilmiş müxtəlif rəngarəng parça hissələri ilə təzad yaradır. Önə doğru bir qədər boşluğun buraxılmasından sonra isə ön səhnədə iki tərəfi də birləşdirən ümumi detalların təsviri diqqət çəkir. Əsərdə hətta əlaqəsiz əşyaların verilməsi nüansı da nəzəri cəlb edir. Masa üzərinə qoyulmuş açıq formada olan yelpənək, ağ, çəhrayı, qara, mavi zolaqlı parça örtüyünün aşağı hissəsində verilmişdir. Daha öndə kiçik meyvələr həm bir qabın içərisində, həm də masa üzərində verilmişdir. Bu sahələr arxaya nisbətən daha parlaq, işıqlı və açıq tonlarla qarşımıza çıxır. Sağ

küncdə axan yaşıl, açıq boz-qəhvəyi və qara zolaqların bir parça hissəsi olaraq aşağıya doğru uzanması təəssüratı da kiçik bir detal olmasına baxmayaraq əsərdəki məqsədli ifadəsini təqdim edir. Lakin bütün bunların – qarışıq tonların, təyinatı fərqli detal və əşyaların balanslı və gözü yormayan bir şəkildə təsvir edilməsi ilə həmin elementlərə simvolik və dərin mənalar yükləyən istedadlı rəssam Fərman Qulamovun qeyd edilən natürmortunda güclü bir müşahidəçiliyin özünü büruzə verməsi faktı əsərin mahiyyətini izah edir.

Formaların mahiyyətini onların rəngində axtaran rəssamın "Boz natürmort" tablosundakı ifadəlilik onun cansız əşyaların təsvirində göstərdiyi incə həssaslığı ilə diqqəti cəlb edir. Sənətkarın natürmortdakı boz çalarları detalları təsvir edəcək boz mühit əhatəsində verməsi ilə izah edilir. Həmin boz çalarlar mavi tonun qarışıqğı ilə öz şuxluğunu təqdim edir. Araya atılmış ağ işıq ləkələri rəssamın simvollaşdırdığı əşya mühitinə olan münasibətini göstərir.

Tabloda verilmiş elementlər uzunsov vazanın içində meyvələr, bir qədər arxa tərəfdə enli, boğazı dar dekorativ vazanın içində incə lələk, ondə ağ çay bardağı və nəlbəki təsviri verilmişdir. Bütün bunlar sadə element kimi özlərinin də adi, sıradan olan fomaları ilə təsvirə cəlb edilmişdilər. Lakin sənətkarın yüksək rəng dəyərləndirmə, onun çalarlarını xüsusi effektlərlə emossional təsir gücünə tabe etmək bacarı natürmortun maraqla izlənməsinə, yüksək sənət əsəri kimi dəyər qazanmasına səbəb olmuşdur.

Əşyaların təsvir edildiyi masanın da xüsusi forması verilmədən nun simvolik təsviri xüsusi qəhvəyi çaların əsas təsviri çərçivəyə alınması ilə ifadə edilmişdir. Ağ-qızılı çalarla ifadə edilmiş vazadakı meyvələr isə qırmızı, yaşıl, sarı kimi daha isti çalarla verilməklə əsərdəki monotonluğu aradan qaldırır. Hətta çay bardağının işərisindəki çayın isti çalarlarının təbii ifadəsi suyun istilik təsirini tamaşaçısına çatdırır. Monumental bir ifadənin və ciddiliyin hökm sürdüyü sadə kompozisiyada tonlar olduqca incə bir forma anlayışı ilə qarşımıza çıxır. Rəssam burada romantikaya əsərində romantikaya qaçmadan məhz bizi əhatə edən mühitin rənglər dünyasının mahiyyətinə varmağa məcbur edir. Natrümort janrındakı romantika məsələn, sevgini, gözəlliyi simvozlizə edən zərif güllərin, və yaxud mövsüm meyvələrinin uyğun tərənnümü ilə, eləcə də qədim dekorativ əşyaların tərənnümü ilə izah edilir. Bütün bunlarla yanaşı masa üzərində boş şüşə və yaxud yarımçıq qalmış qədəh, eləcə də səhər və yaxud axşam yeməyinin dağınıqlığı, insan tənhalığın izahı olan masa düzənindəki kədəri ifadə edən təsvirlər kimi müxtəlif formlalarla rəssam öz məqsədini açıqlaya bilər ki, belə nümunələrə saysız misal çəkmək olar.

Lakin Fərman Qulamov tərəfindən təqdim edilmiş natürmortda sadə əşyaların real forma təqdimində verilmiş ifadələr lirizmindən uzaq, məhz rənglərin özünün mahiyyətini açıqlamağa cəhd etdiyi detalların təsvir nümunəsidir. Atmosferin ilkin təəsüratını verən boz rəngi çalarlarındakı ağ, mavi parıltılar pessimist ruhu deyil, məhz cidiyyəti göstərir. Əsərdəki detalların ətrafında verilmiş boşluqlar rənglərin vasitəsilə dolğun bədii ifadəni tamaşaçısının qarşısına çıxardaraq obu heyrətləndirir. Tablonun sol aşağı hissəsindən salınmış işıq bu ifadəni daha emosiao formalarla qarşımıza çıxarır.

Rəssamın "Abstrakt natürmort" əsərində dağınıqlığın parlaq işıqda əks olunması, arxa fonun qəhvəyi rənginin üzərinə atılmış sarı işıq ləkələri, əsasən isti rənglərlə qurulmuş kompozisiya təqdim edilir. Monumental tərzdə həll edilmiş tabloda istifadə edilən detallar özünün real formanını dağıqlığında daha mistik, nağılvari formlarla çıxır tamaşaçısının qarşısına.

Fon və əsas səhnənin bir-birinə xaraktercə yaxın tonları əsərindəki mürəkkəb abstrakt kompozisiyanın drk rdilməsində işıq effektlərinin vasitəsilə ayırdı edilir. Bir-biinin üzərinə gəlmiş formaların seçilməsində onların üzərindəki rəng parlaqlığını xüusi diqqətdə saxlayan rəssam dekorativ əşyalrın istifadəsini natürmortda əsas detallar olaraq seçmişdir.

Əsərdə az da olsa milli ornamental təsvirlərin rastlanması dekorativ milli nümunələrin tərənnümünü daha da mənalı göstərməyə yönəlmişdir. Sanki bir ipin üzərindən asılmış xalı, kilim tipli elementin təbii tərənnümündə rəssam sərt ştrixlərlə onun qalın yun material təəssüratı çatdıra bilmişdir. Həmin elementin üzərində sarı, qırmızı, narıncı, çəhrəyı kimi tonların qarşılıqlı əlaqələndirilməsi əslində yaxın münasibətdə olan rənglərin fərqli çalarları ilə kontrastın yaranmasına səbəb olmuşdur.

Fərman Qulamovun natürmort yaradıcılığında əsasən bədii-estetik və fəlsəfi yanaşma əsaslandırılaraqı, onların sənətkarlıq xüsusiyyətlərinin özünəməxsusluğu göstərilmişdir.

Açar sözlər: rəng, çalar, rəngkarlıq, natürmort, tablo, əsər, rəssam.

Ədəbiyyat

1. Fərman Qulamov – "Rəngkarlıq", kataloq, 2009.
2. А.А.Унковский. «Живопись Вопросы колорита». Москва, 1980 г.
3. Axundzadə L. XX əsr Dünya Təsviri İncəsənəti. Bakı: Azərnəşr, 2011.

BİOLOGİYA DƏRSLƏRİNDƏ FƏNDAXİLİ İNTEQRASİYANIN YARADILMASI

Mehdiyeva Sevinc
Azərbaycan Dövlət Pedaqoji Universiteti
mehdiyeva.82@inbox.ru

Fəndaxili inteqrasiyanın effektiv təşkili alt standartların düzgün seçilməsindən asılıdır. Beləki, bilik və bacarıqların harmonik assosiasiyası müxtəlif və eyni məzmun xətlərinə aid alt standartlarının inteqrasiyasını tələb edir. Biologiyanın tədrisində, canlıların quruluşu və müxtəlifliyi məzmun xəttinə aid alt standartların reallaşması məqsəd olaraq götürülübsə mütləq olaraq digər məzmun xətləri ilə əlaqələndirilməlidir. Bu seçim dərsin məzmun və strukturuna kompleks yanaşmağa zəmin yaradır. Məsələn, VI sinifdə canlıların quruluşu və müxtəlifliyi məzmun xəttinə aid "1.1.2. Canlıların quruluşunu təsvir edir" alt standartı şagirdlərdə şəkillərdə gördükləri canlı varlıqların strukturunu təsvir etmək, müəyyən etmək, göstərmək, obyekt haqqında öz sözləri ilə danışmaq bacarıqlarını formalaşdırır. Bu fəaliyyət bioloji proseslər məzmun xəttinə aid "2.1.2. Bioloji proseslərin xüsusiyyətlərini sadalayır" alt standartdan çıxan bakteriyalar, göbələklər, bitkilər və heyvanlara xas həyati proseslərə dair materiallar toplamaq, sadalamaq kimi fəaliyyət növü ilə davam etdirilərək inkişaf etdirilir [1]. Şagird bioloji prosesləri o zaman şüurlu mənimsəyir ki, canlıların quruluşunu, təşkil səviyyələri barədə mülahizələrini şərh edə bilir. Deməli, alt standartların üfiqi və şaquli inteqrasiyası bioloji anlayışların, morfoloji, fizioloji, ekoloji və s. biliklərin inteqrativ şəkildə yiyələnməsini stimullaşdırır. Qeyd edək ki, alt standarların eyni sinif üzrə əlaqələnirilməsi üfiqi, müxtəlif siniflər üzrə əlaqələndirilməsi isə şaquli inteqrasiya adlanır.

Bioloji anlayışların, biliklərin öyrədilməsində mühim vəzifələrdən biri üfiqi və şaquli inteqrasiyanın reallaşdırılmasıdır. Məzmun standartların inteqrasiyası həm eyni məzmun xəttinə həm də, müxtəlif məzmun xəttinə aid alt standartlarla aparılır. Eyni məzmun xəttinə aid alt standartların üfiqi inteqrasiyasını həyata keçirmək olar. Fikrimizi nümunələrdə izah edək. "Maddələr mübadiləsi" anlayışının mahiyyəti aşağı siniflərdə canlıların əsas xüsusuiyyətlərindən

biri olaraq öyrədilir [2]. Tam olaraq mahiyyəti isə yuxarı siniflərdə açıqlanır. Məsələn, 8-ci sinif "Maddələr mübadiləsi və enerji çevrilmələri" mövzusunda bioloji proseslər məzmun xəttinə aid "2.1.1. İnsan orqanizmdə baş verən bioloji prosesləri izah edir" alt standartı ilə həmin sinfin digər "Daxili maye mühitimiz" (2.1.1.), "Ağciyərlər, tənəffüs hərəkətləri, qazlar mübadiləsi"(2.1.1.), "Mədə və bağırsaqlarda həzm" (2.1.1.)mövzuları ilə inteqrasiya edilir [4]. Eyni sinif daxilində eyni məzmun xətti üzrə alt standartların inteqrasiyası maddələr mübadiləsi haqqında biliklərin mövzudan-mövzuya transfer etməyə yönəldilmişdir. Nəticədə, şagirdlərin orqanizmdə həyat fəaliyyəti proseslərinin qarşılıqlı əlaqəsi haqqında təsəvvürləri formalaşır, qidalanma, tənəffüs, qan-dövranı üzrə bilikləri təkmilləşir.

Maddələr mübadiləsinin mahiyyətini tam anlamaq üçün metabolizm proseslərinin hüceyrə səviyyəsində necə baş verdiyini bilmək lazımdır. Bu, şagirdlərə maddələr mübadiləsi prosesinin bioloji mahiyyətini anlamağa imkan verir, daha dolğun mənimsənilməsinə kömək edir. Metabolizm proseslərini bilmək yalnız canlı orqanizmlərin mühitlə əlaqəsini anlamaq üçün deyil, həm də bitki, heyvan və insan hüceyrələrində gedən prosesləri aşkar etməyə kömək edir.

9-cu sinif "Canlı orqanizmlərdə maddələr mübadiləsi və enerji çevrilmələri" mövzusunda canlıların quruluşu və müxtəlifliyi məzmun xəttinə aid 1.1.2 və bioloji proseslər məzmun xəttinə aid 2.1.1. alt standartları reallaşmışdır [3]. Şaquli inteqrasiyanı həyata keçirtmək üçün 8-ci sinif bioloji proseslər məzmun xəttinə aid 2.1.1. alt standartı reallaşan "Maddələr mübadiləsi və enerji çevrilmələri" mövzusu ilə inteqrativ-əlaqə yaradılır. Fəndaxili inteqrasiya yaradılarkən öyrədilən hər bir mövzu özündən əvvəlki inteqrativ biliklərə əsaslanır və özündən sonra 10-cu sinifdə tədris olunan "Maddələr mübadiləsi", "Maddələr mübadiləsinə təsir edən amillər", "Maddələr mübadiləsində baş verən dəyişikliklər" mövzular üçün zəmin yaradır [5].

Müxtəlif məzmun xəttinə aid olan alt standartların şaquli inteqrasiyasına nail olmaq mümkündür. Misal üçün 8-ci sinif "Qan xəstəlikləri və qanla yoluxan xəstəliklər" mövzusunda insan və onun sağlamlığı məzmun xəttinin 3.2.1. alt standartı reallaşıb. [4] Mövzunun məzmunu qan xəstəlikləri olan anemiya, leykoz, talassemiya, hemofiliya,qanla yoluxan xəstəliklər virusların törətdikləri xəstəliklər, hepatitlər, QİÇS və bu xəstəliklərdən qorunma yolları haqqındadır. Dərsin məzmun və struktur tamlığını reallaşdırmaq üçün şaquli inteqrasiyaya müraciət olunur. Bu mövzu 1.1.2; 2.1.2; 4.1.1 alt standartları reallaşan 6-cı sinif "Bakteriyaların yayılması və təbiətdə rolu. Xəstəliktörədən bakteriyalar.Viruslar" mövzusu ilə əlaqələnir. Şagirdlərə məlum olan xəstəliktörədən bakteriyalar onların quruluşu, yayılması, törətdikləri xəstəliklər vəba, difteriya, tetanus, brusellyoz, virusun canlı orqanizmlərə təsiri, QİÇS, qızılca, qrip xəstəlkikləri bir daha yada salınır, keçmiş biliklərlə əlaqə yaradılır və həmin anlayışların mahiyyəti haqqında təsəvvürlər ümumiləşir. Biologiyanın tədrisində məzmun xətlərinə aid alt standartların üfiqi və şaquli inteqrasiyası materialın hərtərəfli, kompleks nənimsənilməsinə imkanlar açdığı şübhəsizdir.

Açar sözlər: biologiya, fəndaxili inteqrasiya, üfiqi inteqrasiya, şaquli inteqrasiya, məzmun xətti, alt standart.

Ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün biologiya fənn kurikulumu (VI-XI siniflər), Bakı, 2013, 76 s.
2. Seyidli Y.M. Biologiya 6. Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2013,160 s.
3. Seyidli,Y.M. Biologiya 9. Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün dərslik. Bakı: Bakınəşr, 2016. 204 s.

4. Məmmədova, N.Ə. Biologiya 8. Ümumtəhsil məktəblərinin 8-cı sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2015. 176 s.
5. Məmmədova, N.Ə. Biologiya 10. Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik. Bakı: Şərq-Qərb, 2017. 208 s.

ƏLİLLİYİ OLAN QADINLARIN CƏMİYYƏTDƏN SOSİAL TƏCRİD EDİLMƏSİ

Mehdiyeva Ülviyyə
Azərbaycan Universiteti
ulya.mehdixan@gmail.com

Əlillik sosiologiyası Qərbdə inkişaf etməyə başlasa da, zaman keçdikcə digər qeyri-qərb ölkələrinə yayıldı. Əlilliyin gender, irqi, cinsi oriyentasiya və peşə kimi sosial fərqlərlə üst-üstə düşdüyü tədqiqatlar əhəmiyyət qazandı [5]. Əlilliyi izah edən iki model var idi: tibbi model və sosial model. 20-ci əsrin əvvəllərində əlilliyi təyin edən tibbi model,əlilliyi xəstəlik, güc itkisi kimi qəbul edir, psixoloji və bioloji bir xəstəlik olaraq görür, tibbi müdaxilə ilə xəstənin vəziyyətinin yaxşılaşdırılacağına güman edirdi. Tibbi model, əlilliyi olan şəxslərin sosial həyatında məruz qaldıqları təcrid olunmağa, cəmiyyətin fərdlər qarşısına çıxartmış olduğu maneələrə məhəl qoymurdu. Bir müddət sonra, tibbi modelin əskikliklərı sosial modelin ortaya çıxmasına səbəb olmuşdur. Sosial model, əlilliyi olan insanların cəmiyyətdə özlərini tapmaqlarına yardımcı olmaq məqsədilə yaradılmışdır. Əlilliyin bir problem olduğunu düşününən cəmiyyətə qarşı duran, sosial modelin spesifik xüsusiyyəti əlilliyi olan insanın fərd olduğu, təhsil almaq,işləmək və cəmiyyətin bir parçası olduğunu vurğulamaqdır. Bu modelə görə, əlillilik bioloji və fizioloji olmaqla yanaşı, həm də sosial reallıqdır [6]. Tarixə baxdıqda, əlilliyi olan insanların hər zaman cəmiyyət içərisində təzyiqlərlə qarşılaşmış olduğunu, cəmiyyətdən, siyasətdən, işdən uzaq tutulduqlarını görərik. Əlilliyi olan insanların kənarda qalmasına səbəb cəmiyyətin özü, cəmiyyətin yaratmış olduğu normalar olmuşdur. Nəticədə isə əlilliyi olan insanlar cəmiyyət tərəfindən təzyiqlərə məruz qalaraq, sosiumdan uzaqlaşır və cəmiyyətin onlar üçün biçmiş olduğu stereotiplərlə yaşayır.

Dünyanın harasında yaşayırsınızsa yaşayın, qadın olmaq çətindir. Qadın olaraq hər hansı bir işi bacarmaq, özünü, gücünü insanlara isbat etmək və bu yolda qarşılaşacağın problemlərin öhdəsindən gəlmək, heç də bəsit olmayan məsələdir. Hər bir cəmiyyətin qadınlar üçün biçmiş olduğu normalar var; bunlara baxımlı, zəif, müdafiəyə möhtac, ana, evdar qadın olmaq aiddir. Bu normalar, cəmiyyətin qadınlar üçün yaratmış olduğu normalardır. Qadınların qarşılaşdıqları ayrı-seçkilikləri nəzərə alaraq, bu qənaətə gəlirik ki, əlil qadınlar 2 dəfə daha çox ayrı-seçkiliklərlə üzləşirlər. Təhsil alma, küçəyə çıxmaq, evlənmə, sosial, iqtisadi, işə girmə kimi ayrı-seçkiliyə məruz qalırlar. Feminist əlillik tədqiqatçıları, əlilliyi olan qadınların, əlilliyi olan kişilərdən daha çox problemlər yaşadıqlarını göstərir.

Əlil qadınlar, əlil kişilərdən daha kasıbdır; reabilitasiya xidmətləri, təhsil və məşğulluq imkanlarının daha məhdud olması; işsizlik problemləri, ailələri ilə birlikdə yaşamalı olması və cinsi təcavüzə məruz qala bilmə ehtimalının çox olduğunu qeyd edirlər[3]. Əlilliyi olan kişilərlə müqayisədə əlil qadınlar daha çox stiqmaya və ikiqat ayrı-seçkiliklə qarşılaşırlar [4]. Əlil qadınların, əlilliyi olmayan qadınlardan fərqli olaraq, ailə qurmaq, uşaq sahibi olmaları və cinsi

varlıqları rədd edilə bilməkdədir. Əlilliyi olan qadınların; təhsil, iş, sağlıq imkanlarında istifadə etmə faizi aşağı olarkən, istismara və şiddətə məruz qalma riskləri daha yüksəkdir. Bu vəziyyət psixoloji travmalara səbəb ola bilər. Qadınlar fiziki, emosional, cinsi və bunun kimi hər növ istismara məruz qala bilər, əlil qadınların isə tipik qadınlara nisbətən istismara daha uzun müddət məruz qaldığı bilinir. Əlil qadınların yaşadığı problemlərdən biri də şiddətdir. Əlil olmaları, şiddətə məruz qalmalarını asanlaşdırır. Edilən araşdırmaların çoxu, əlil qadınların daha çox yoldaşları tərəfindən fiziki və emosional istismara məruz qaldıqlarını isbat edir. Cəmiyyət tərəfindən əlilliyi olan qadınlar yardıma möhtac olaraq görüldüyü üçün, uşağa baxa bilməyəcəyi düşünülməkdədir [2]. Uşaqlar qayğıya, yardıma möhtac olduğu üçün, əliliyi olan qadınların onlara baxa bilməyəcəyi, buna səbəb isə əlilliyi olan qadınların yardıma möhtac olmasıdır [4]. Ənənəvi qadın rollarından kənarda qalan bir çox əlil qadın, evlənmək, ana olmaq, cinsi əlaqədə olmaq istəməyərək, evliliyi, uşaq sahibi olmasını sosial uğur kimi qəbul etmir[1].

Əlil qadınların həm əlil olması, həm də qadın olması səbəbindən ikiqat ayrıseçkiliklə qarşılaşmaması üçün bəzi işlər görülməlidir. Əlilliyi olan qadınlar qarşılaşdıqları problemlərin öhdəsindən gəlmək üçün psixoloji cəhətdən dəstəklənməlidirlər, zəif cəhətləri güclənməli və artırılmalıdır. Əlil qadınlara sosial xidmət təşkilatlarının ehtiyacları daxilində məsləhət xidmətləri göstərilməlidir. Əlil qadınların təcrübələrini bölüşmək, problemlərini qaldırmaq və həll yolları tapmaq üçün bir araya gələ biləcəyi mühit yaradılmalı və qrup terapiyaları aparılmalıdır. Cəmiyyətin xurafatlarını minimuma endirmək üçün maarifləndirmə işləri təşkil edilməlidir. Həyat keyfiyyətini yüksəltmək üçün sanksiyaların qanuni səviyyədə təmin edilməsi üçün səy göstərilməlidir. Əlil qadınlar ictimai həyatda daha çox iştirak etməli və görünməlidirlər. Arzuladıqları həyatı yaşamaq üçün səy göstərməli və bir araya gələrək təşkilatlanmalıdırlar [7].

Açar sözlər: əlillik, əlil qadınlar, təcrid olunma.

Ədəbiyyat

1. Asch A., Fine M. (1988). Introduction: Beyond Pedestals. Michelle Fine və Adrienne Asch (der.), Women with Disabilities: Essays in Psychology, Culture and Politic (s. 1-37). Philadelphia: Temple University.
2. Garland-Thomson R. (1997). Extraordinary Bodies: Figuring Physical Disability in American Culture and Literature. New York: Columbia University Press.
3. Goodley D. (2011). Disability Studies: An Interdisciplinary Introduction. London: SAGE.
4. Hanna W. J., Rogovsky, B. (1991). Women with Disabilities: Two Handicaps Plus. Disability, Handicap & Society, 6, pp.49-63.
5. Vernon A., Swain J. (2002). Theorizing Divisions and Hierarchies: Towards a Commonality or Diversity? Colin Barnes vd. (der.), Disability Studies Today (s. 77-97). USA: Blacwell Publishers.
6. Wendell S. (1989). Toward a Feminist Theory of Disability, Hypatia (Feminist Ethics & Medicine, 4, pp.104-124.
7. https://eeeh.engelsizerisim.com/yazi/62/toplumsal_cinsiyet_ve_turkiyede_engelli_kadin_olmak

MÜASIR İNGİLİS DİLİNDƏ İŞLƏNƏN FRAZEOLOGİZMLƏRƏ FƏRQLİ YANAŞMA
(qədim Roma və Yunan mənşəli frazeologizmlər kontekstində)

Mehdizadə Nəzmiyyə
Azərbaycan Universiteti
nazmiyya.mehdizade.94@gmail.com

Dil insanlar arasında başlıca ünsiyyət vasitəsidir. Bu, onun ictimai və ümumxalq xarakteri daşıması, xalqın tarixilə sıx sürətdə bağlı olması ilə əlaqədardır. Bir an belə cəmiyyəti dilsiz təsəvvür etmək olmaz. Çünki dil vasitəsi ilə insanlar öz fəaliyyət dairəsini səhmana salır, gündəlik tələbatla əlaqədar öz fikir və mülahizələrini bir-birinə söyləyir, istehsalatda, məişətdə, adət-ənənələrində yeni yaranan fəlsəfi-estetik mülahizələri, elmi-texniki kəşfləri bir-birinə və nəsildən-nəslə çatdırır. İnsanlar arasında vahid dil olmasaydı onlar cəmiyyət halında da birləşə bilməzdilər. Deməli, insan cəmiyyətinin təşəkkülü də biləvasitə dilin ünsiyyət vasitəsi kimi yaranması ilə bağlı olmuşdur.

İngilis dili də beynəlxalq dil olub, hal hazırda mühüm ünsiyyət vasitəsi kimi böyük rol oynayır. İngilis dilində ünsiyyət vasitələrinə kömək edən vasitələrdən biri də idimlardır. Hər bir dil üçün əsas material sözdür və dil öyrənmək istəyən hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir. Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. İngilis dili idiom və idiomatik birləşmələrlə zəngin dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür: yazıda, danışıqda, bədii ədəbiyyatda və s. Hətta qəzetlər belə idiomatik ifadələrlə zəngindir. İngilis dili idiomatik birləşmələrlə zəngin bir dildir. İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində yeni məna çalarlığı yaradır [7, s.145].

Hər bir dildə frazeologizmləri tiplərə ayırmaq üçün əsəs meyar kimi onun birləşmələrdəki sözlərin bir-birinə yanaşma və qovuşma dərəcəsi əsas götürülür. Frazeoloji vahidlərin komponentlərinin bir-birinə qovuşma dərəcəsi olduqca müxtəlifdir.

Dilçilikdə frazeolji vahidlərin təsnifi müxtəlif istiqamətlərdə aparılır. Bunlardan birincisi "Frazeologiya nəzəriyyəsi"nin banisi İsveçrə dilçisi Şarl Ballinin frazeoloji vahidlərə verdiyi təsnifat frazeologiyanın inkişafına böyük təsir göstərmişdir. Onun, söz birləşmələrinə dair ilk kitabları "Üslubiyyatın xülasəsi" və "Fransız üslubiyyatı" olmuşdur. Ş.Balli özünün "Üslubiyyatın xülasəsi" kitabında söz birləşmələrinin ilk təsnifatını vermişdir. O, fransız dilində frazeologiyanın ənənəyə görə işlədilməsini qeyd edərək yazırdı ki, dildə bir sıra sözlər başqa sözlərə nisbətən bir-biri ilə daha sıx bağlılığa meyl edir. Ş.Balli söz birləşmələrini dörd qrupa bölmüşür:

1) sərbəst söz birləşmələri;
2) adi birləşmələr;
3) frazeoloji qrup;
4) frazeoloji birləşmələr [2, s.117].

Sərbəst söz birləşmələri: bu cür birləşmələrin hər bir üzvi ayrılıqda olduğu kimi birləşmə daxilində də öz müstəqilliyini saxlayır və parçalana bilir.

Adi birləşmələr: bu söz birləşmələrinin tərkibindəki sözlər qismən müstəqildir. Adi birləşmələrin tərkibində bəzi dəyişikliklər etmək mümkündür.

Frazeoloji qrup: bu söz birləşmələri nisbi müstəqilliyini saxlayan sözlərin köməyi ilə düzəlir. Frazeoloji qruplarda komponentlərin yenidən qruplaşdırılması mümkündür. Onun komponentlərinin qismən başqa sözlə əvəz edilməsinə yol verilir.

Frazeoloji birləşmələr: elementləri tamamilə bir-biri ilə sıx əlaqədə olan birləşmələrdir. Bu cür söz birləşmələrinin tərkibindəki sözlər öz mənalarını itirərək, birlikdə ümumi bir məna ifadə edir. Frazeoloji birləşmələrin komponentlərinin dəyişdirilməsi qeyri-mümkündür.

Beləliklə, Ş. Balli söz birləşmələrini onların sabitlik dərəcəsinə görə müqayisə etmişdir. O, söz birləşmələrini sxematik olaraq bu qruplara bölmüş, lakin onların geniş şərhini verməmişdir. Ş.Balli özünün növbəti "Fransız dilinin üslubiyyatı" kitabında adi söz birləşmələrini və frazeoloji qrupu "ara tip" kimi adlandırmışdır. O, belə ifadələrə feli birləşmələri misal göstərmişdir. Sonradan o, söz birləşmələrinin yalnız iki qrupunu qeyd etmişdir:

1) sərbəst söz birləşmələri;

2) frazeoloji birləşmələr.

Qeyd etmək lazımdır ki, Ş.Balli "frazeoloji birləşmə" adı ilə nəzərdə tutduğu semantik qrupdan olan frazeoloji vahidlərin xarici cəhətinin xüsusiyyətindən bəhs edərkən bunlarda üç əlamətin olduğunu da göstərmişdir:

1. Tərkibindəki sözlər ayrı yazılır.

2. Tərkibindəki sözlər sabit sırada olur və onların komponentləri arasına başqa söz daxil etmək qeyri-mümkündür.

3. Birləşmələrin komponentlərindən heç birini başqa sözlə əvəz etmək mümkün olmur.

Akademik V.V.Vinoqradov rus dilinin materialı əsasında frazeoloji vahidləri "frazeoloji birikmələr", "frazeoloji bitişmələr" və "frazeoloji birləşmələr" adı ilə üç semantik qrupa bölmüşdür.O, frazeoloji birikmələrdən bəhs edərkən yazırdı ki, bunların ümumi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, hətta potensial əlaqə belə yoxdur. Bunların tərkib hissələri dildəki bir və ya digər sözlə eyni səs tərkibinə malik olsa da, bu cür qarşılıqlı əlaqə omonimlikdən başqa bir şey deyildir [4, s.134].

Frazeoloji bitişmə sözün potensial ekvivalentidir. Bu cəhətdən bunlar frazeoloji birikməyə yaxınlaşır, lakin öz məna quruluşlarının mürəkkəbliyi, komponentlərinin məna əlaqəsinin potensial şəkildə mövcüd olması ilə frazeoloji birikmələrdən fərqlənir. Frazeoloji bitişmə xarici səs forması ilə sərbəst söz birləşməsinə uyğun gəlir.

Frazeoloji birləşmədə sərbəst mənada olmayan sözlərin sinonimlərlə əvəz edilməsi mümkündür. V.V. Vinoqradov bu bölgüsündə "frazeoloji birləşmə" adlandırılan qrup ilk baxışdan Ş. Ballinin təsnifatındakı "frazeoloji qrup" və ya "adi birləşmələr"ə oxşayır. Lakin, əslində bunlar bir-birindən kəskin sürətdə fərqlənir. Belə ki, V.V. Vinoqradovun bölgüsündə frazeoloji birləşmə səciyyəsi daşıyanların komponentlərindən biri ancaq məhdud sözlərlə frazeoloji cəhətdən "bağlı məna" daşıyır. Ş. Ballinin təsnifatında isə, özünün qeyd etdiyi kimi "birləşmə parçalandıqdan sonra sözlər öz mənalarını saxlayır" [3, s.67].

Qeyd etmək lazımdır ki, V.V. Vinoqradovun söz birləşməsi şəklində olan və frazeoloji səciyyə daşıyan terminləri "frazeoloji bitişmələrə" aid edir və bunları həmin qrupdan olan frazeoloji vahidlərdən ayrıca nəzərdə tutmağın lazım gəldiyini qeyd etmişdir [4, s.86].

N.N. Amasova V.V.Vinoqradovun təsnifatı ilə razılaşmamışdır. O, V.V.Vinoqradovun bölgüsünün dərin təhlilini verərək yazırdı ki, buradakı təsnifat vahid bir prinsipə əsaslanmır, belə ki, iki əvvəlki semantik qrup (frazeoloji birikmə və frazeoloji bitişmə) komponentlərinin mənasından asılı olmayaraq, ümumi mənalarının dərk edilməsi dərəcəsinə görə müəyyənləşdirildiyi halda, "frazeoloji birləşmələr" adı ilə üçüncü qrupa aid edilənlər tərkibindəki sözün başqa leksik vahidlərlə məhdud şəkildə birləşməsi əlamətinə görə səciyyələndirilir.

N.N. Amasova yazırdı ki, V.V. Vinoqradovun frazeologiya ilə əlaqədar olan məqalələrindən frazeologiyanın bir sıra ümumi məsələləri, o cümlədən frazeoloji vahidin daxilən ayrılıqda

formalaşması problemi, frazeoloji vahidlərin tərkib hissələrinin müxtəlif tiplərinin müəyyənləşdirilməsi kimi məsələlər nəzərə alınmamışdır [1, s.45]. Sonra N.N. Amasova V.V. Vinoqradovun "frazeoloji vahiddə onun ümumi məzmunun müəyyənləşməsi üçün kiçik bir işarə belə olarsa, frazeoloji birikmə haqqında danışmaq olmaz" cümləsini xatırladaraq yazırdı ki, burada frazeoloji vahidlərin mənalarının dərk edilməsi haqqındakı fikir digər faktları ilə obyektiv şəkildə əsaslandırılmır.

Daha sonra, N. N. Amasova qeyd edirdi ki, V.V.Vinoqradovun "frazeoloji bitişmənin mənası onun komponentlərinin mənası ilə bağlı deyildir" fikri inandırıcı deyildir. N.N.Amasova frazeoloji vahidin əsas xüsusiyyəti olan sabitlik məsələsini, idiomatikliyini, mahiyyətini və bunların sadəcə olaraq dildə təkrar edilən ənənəvi birləşmələrdən fərqini tam genişliyi ilə öz monoqrafiyasında dolğun şəkildə işıqlandırmışdır. O, ingilis dili materialı əsasında "frazeologiya və kontekst" məsələsini də geniş şəkildə işıqlandırmışdır ki, bu da dilin frazeoloji təsnifində əsas meyarlardan biri kimi xüsusi əhəmiyyət kəsb edir [1, s.56].

N.M. Şanski isə təsnifatı daha da genişləndirərək sabit söz birləşmələrinin üç deyil dörd tipini qeyd etmişdir. O, sabit söz birləşmələrinin frazeoloji birikmələr, frazeoloji bitişmələr, frazeoloji birləşmələr və frazeoloji ifadələr qruplarını qeyd etmişdir. O, sözlərin həqiqi mənası üzərində yaranıb, öz lüğəvi tərkibinə və qrammatik qovuşmasına görə möhkəm, həm də aydın sabit söz birləşmələrini frazeoloji ifadələr adlandırmışdı. N.M. Şanski düşünürdü ki, frazeoloji ifadələrin ümumi mənası onun tərkibinə daxil olan sözlərin mənası ilə bağlıdır. Məsələn: Live and learn "beşikdən qəbrə qədər öyrən!" [5, s.89]. Biz N. N. Amasovanın təsnifatı ilə razılaşırıq.

İngilis dili frazeologizmlərinin əksəriyyəti Qədim Roma və Yunan ədəbiyyatlarından götürülmüşdür. Bu frazeologizmlər aşağıdakılardır: The golden age "qızıl əsr" (bu frazeologizm yunan yazıçısı Qesiodun poemasından götürülmüşdür. Bu poemada Saturun əsri təsvir olunmuşdur ki, bu əsrdə insanlar qayğısız, rahat, müharibəsiz həyat keçirmişlər); a labor of Hercules "Herkules əməyi"; Lares and Penates "larlar və penatlar" (dindar ailə); Achilles' heel "axillesin dabanı"; Augean stables "avgi tövlələri"; a labour of Sisyphus "sizif əməyi".

Homerin "İlliada" və "Odissea" poemalarından və digər əfsanələrdən götürülmüş frazeologizmlərdən: Homeric laughter "qəhqəhə ilə gülüş", "qəhqəhə çalıb gülmək"; a sardromic laugh "acı gülüş", "istehzalı gülüş"; winged words "qanadlı sözlər"; between Scylla and Charybdis "iki od arasında qalmaq", "çıxılmaz vəziyyətdə qalmaq"; on the knees of the Gods "bir Allah bilir"; the trojan horse "troya atı" (gizli təhlükə); like a Trojan "cəsur", "igid"; on the razor`s edge "təhlükəli vəziyyət"; Penolope's web "Penelop planı".

Yunan tarixindən, Ezop və digər əfsanələrdən götürülmüş frazeologizmlər: to blow hot and cold "ikili mövqe tutmaq" (Ezop əfsanələri); the lion`s share "ən yaxşı hissə", "ən çox hissə"; the last straw "səbr kasası dolmaq"; to nourish a viper in one`s bosom "qoynunda ilan bəsləmək"; to take time by the forelock "fürsətdən istifadə etmək"; to call a spade a spade "necə var, elə demək" (Plutarx); the Gordian knot "dolaşıq iş", "müşkül məsələ", "əngəl"; the unwritten law "yazılmamış qanun"; Platonic love "plotonik sevgi" (filosof Platonun yaradıcılığından götürülmüş frazeologizm); there's many a slip' twixt the cup and the lip "arxı keçməmiş hop demə" (Aristotel); one swallow does not make a summer "bir güllə bahar olmaz" (Ezop əfsanələrindən götürülmüşdür); the dog in the manger "nə özü yeyir, nə başqasına verir" (Lukian); take the wolf by ears "özünü riskə atmaq" [9,s.34-67].

İngilis dili frazeologizmlərinin çoxu Qədim Romaya aiddir. Bu frazeologizmlər Qədim Roma tarixindən, Qədim Roma yazıçılarının əsərlərindən götürülmüşdür. İngilis dilində istifadə olunan bu

frazeologizmlər aşağıdakılardır: The watches of the night “dəqiq vaxt”; a snake in the grass “əfi ilan” (məkirli, hiyləgər insan); the sinews of war “pul”, “maddi vəsait”; a bed of rose “xoşbəxt, dinc həyat” (Qədim Romada zənginlərin oturduqları yerlərə qızılgül ləçəkləri səpirdilər); the die is cast “püşk atılmışdır”, “qərar qəbul edilmişdir” (Sezarın yürüşləri ilə bağlı yaranmış frazeologizm); be (turn) thumbs down “əlehinə olmaq”, “qadağan etmək”; be (turn) thumbs up “lehinə olmaq” “həvəsləndirmək” (döyüşdə qalib gələn qladiatorun həyatı imperatorun əl işarələrindən aslı idi, yəni böyük barmağı aşağı salmaq ölüm, yuxarı qaldırmaq isə yaşamaq deməkdir). Beləliklə yuxarda göstərdiyimiz frazeologizmlərin ingilis dilinin lüğət tərkibinin zənginləşməsində çox böyük rolu olmuşdur.

Açar sözlər: frazeologizm,ekvivalent, semantik qrup, frazeologiya və kontekst.

Ədəbiyyat

1. Амосова Н.Н. Фраземы как разновидность фразеологических единиц английского языка, Проблемы фразеологии: Исследования и материалы / под ред. А.М. Бабкина, М. Л.,1964. 326с.
2. Балли Шарль Французская стилистика: пер. с фр./ К.А. Долинина. М.: Феникс, 1961. 25с.
1. Виноградов В.В. Основные понятия русской фразеологии как лингвистической дисциплины. Л., 1944, s.190.
2. Виноградов В.В. Фразеология. Семасиология. Лексикология и лексикография. Избранные труды. М.: Наука, 1977, с. 118-161.
3. Шанский Н.М., Фразеология современного русского языка. Москва, 1985, s.145.
4. Шанский Н.М., Зимин В.И., Филлипов А.В. Школьный фразеологический словарь русского языка. Москва, 2002, s.178.
5. Кунин А.В. Английская фразеология. М., 1970. с.190-206.
6. Кунин А.В. Большой англо- русский фразеологический словарь, М., 2005, s.340.
7. Кунин А. В. Фразеология современного английского языка, М.,1972. s. 34-67.

MƏHƏMMƏD FÜZULİNİN QƏZƏLƏRİNDƏ KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİNİN TƏHLİLİ

Məmişova Ceyran
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

Məhəmməd Füzuli anadilli poeziyamızın ən kamil nümunələrini yaradan, ədəbi-bədii dilimizə yeni ruh verən qüdrətli şairdir. Onun poeziyası dövrünün, habelə müasir ədəbiyyatın parlaq inciləri sırasında öncül yerləri tutur. Füzuli öz dili,üslubu ilə mükəmməl sənət əsərləri yaratması və bu əsərlərdə yüksək mənəvi dəyərləri, ictimai- sosial problemləri özünəməxsu bədii dil vasitəsilə əks etdirməsilə,ümumtürk poeziyasına çox güclü təsir göstərməsi ilə seçilmiş, məşhurlaşmış, ədəbi məktəb yaratmış, əsərləri dünya şərqşünasları, tədqiqatçılar tərəfindən təhlil edilərək yüksək qiymətləndirilmişdir.

O, öz üslubu ilə sonrakı nəsillər üçün bədii-ədəbi irs qoymuşdur. Füzuli Azərbaycan ədəbi dilinin inkişaf tarixində əlamətdar cəhətlərə malik süsusi bir mərhələnin yaradıcısı olmuşdur. Bu

mərhələ isə Azərbaycan ədəbi dilinin inkişaf tarixində feodalizm dövrünün ən yüksək zirvəsi olan bir mərhələnin əsasını təşkil edən Füzuli üslubu, nəinki sonrakı mərhələdə, hətta sonrakı dövrdə də uzun müddət yaşamış və əsrlər boyu nüfuzlu üslublardan biri sayılmışdır [1, s.26].

Nəsimidən sonra poeziyanın inkişafı və bu inkişafın ən yüksək dövrü məhz Füzuli yaradıcılığı dövrüdür. Azərbaycan ədəbiyyatında lirikanın, doğma ana dilində yaranmış əsl lirik şeirin böyük banisi və ölməz dahisi Məhəmməd Füzulidir [4, s.44].

Füzuli qəzəlləri köməkçi nitq hissələrini təhlil etmək, onların tarixən mövcud olan formalarını,dəyişmə və inkişafetmə qanunauyğunluqlarını öyrənmək cəhətdən kifayət qədər material verir. Füzulinin bir qəzəlindən götürülmüş beytə diqqət edək: *Könlüm açılır zülfü-pərişanını görgəc, Nitqim tutulur qönçeyi-xəndanını görgəc!* [3, s.34]. Beytdə işlənmiş "-gəc" köməkçi nitq hissəsi olan qoşmadır. Qoşmalar tarixən mövcud olan müstəqil sözlərdən yaranmışdır. Beytdə "-gəc" zaman mənalı "kimi" qoşmasının ilkin variantıdır."Görgəc"- "görən kimi" anlamını verir. Bundan başqa Füzulinin başqa bir qəzəlində də bu qoşma həmin mənada işlənmişdir: *Can çıxır təndən könül zikri-ləbi-yar eyləgəc,Tən bulur can yenlədən ol ləfzi təkrar eyləgəc* [3, s.33]. Göründüyü kimi "eyləgəc" "eyləyən kimi" mənasını ifadə etmişdir. Sənətkarın qəzəllərində təsadüf edilən daha bir morfoloji fakt "nisbət"qoşmasının işlənməsidir: *Bir məhi-bimehrəyəm mail, Füzuli, yox əcəb Qılsa hər yan, zərrə nisbət,çərx sərgərdan mən* [3, s.186]. Beytdə işlənmiş "nisbət" bənzətmə qoşmasıdır,dilimizə ərəb dilindən keçmişdir. Dilimizdə qoşma vəzifəsində çox az işlənmişdir. Hələlik buna XV əsr ədəbi dil materiallarından Xətainin dilində rast gəlirik.Qoşulduğu sözün adlıq halda olmasını tələb edir. İcra olunan iş və ya hərəkətin arasında oxşarlığı bildirir. Məsələn: *Mən ol Yəqub nisbət zar oldum, Camalın Yusifi Kənandır ey dust.*

Füzuli qəzəllərində müşahidə edilən daha bir arxaikləşmiş köməkçi nitq hissəsi "xah" bağlayıcısıdır. Bu bağlayıcı tabesioz bölüşdürmə bağlayıcıları qrupuna aiddir: *Tutmazam zənciri-zülfü tərkin,ey naseh, məni // Xah bir aqil xəyal et, xah bir divanə tut* [3, s.29].

"İstər" sözünün məzmununu bildirən bu söz yazı dili vasitəsilə fars dilindən Azərbaycan dilinə keçmişdir."Xah" sözünün bir bağlayıcı kimi Azərbaycan dilində sabitləşdiyini söyləmək mümkün deyildir. Ədəbi-bədii dildə çox az işlənmişdir. XIX əsrdən sonra buna bəzi yazılarda rast gəlmək olur [2, s.229]. Bu bağlayıcı Ş.İ.Xətyainin, Qövsi Təbrizinin, M. P. Vaqifin yaradılığında da müşahidə edilmişdir: *Xah sultan, xah dərvişü gəda biliittifaq, Özlərin qılmış giriftarü qəmü dərdü fəraq* [5, s.185].

Bundan başqa əmma (amma), lakin, vəli, leyk kimi tabesiz qarşılaşdırma bağlayıcılarına da Füzuli qəzəlləində təsadüf edilir. *1. Yadi-lələnlə Füzuli gözləyib rahi-ədəm, Var bir tədbiri, əmma aşikar etməz mana* [3, s.12].

Bu bağlayıcının poeziyada işlənməyə başlanması XIV -XVII əsrlərə təsadüf edir. İmadəddin Nəsimi, Nemətullah Kişvəri, Qətran Təbrizi yaradıcılığında bu bağlayıcıya rast gəlirik. *2. Mehriban derlər səni əğyarə, lakin mən ona. Bavər etmən kim,sənə mehr eyləmək ayin deyil* [3, s.109].

Mənşə etibarı ilə ərəbcə olan və iki tərkib hissədən "və+lakin"dən düzələn *vəlakin* bağlayıcısına XIV əsrdə Nəsiminin, XVII əsrdə Fədainin "Bəxtiyarnamə" adlı əsərinin dilində rast gəlirik. *3. Səni mələk görəli yanmaz oldu eşqi günah, Vəli yazıldı bu üzdən bəsi səvab sana* [3, s.11]. Bu bağlayıcı XIX əsrə qədər az işlənən bağlayıcılar sırasına daxildir. "Ancaq" bağlayicisinin sinonimidir,Nəsiminin yaradıcılığında da müşahidə edilir. *4. Çəkdi məcnun ayağın badiyədən, leyk verir// Qanlı güllər ayağından çəkilən xar hənuz [3, 81]*. Ərəbcə "vəleykin" sözünün tərkib hissəsi olan "leyk" Azərbaycan dilində " ancaq" bağlayıcısının tam sinonimidir.Az-çox üslub xatirinə bədii dildə rast gəldiyimiz bu bağlayıcı danişiq dilində yoxdur.Demək hər iki bağlayıcı ümumxalq dilinə

təsir göstərən bilmədiyindən get-gedə zəifləyərək danışıq dilindən də çıxmışdır. XIX və XX əsrlərin ədəbi dilində bunlardan uslub xatirinə istifadə edilmişdir [2, s.227-228]. Göründüyü kimi sinonim bağlayıcıların tarixi inkişafini biz Füzuli qəzəllərində aydın görə bilirik. Bundan başqa sənətkarın yaradıcılığında geniş şəkildə müşahidə olunan lakin müasir səviyyədə normativliyini və işləkliyini itirən daha bir bağlayıcı tabeli güzəşt bağlayıcısı olan "gərçi"dir: *Xəm qədilə ağlaram ol türreyi-tərrarsiz, Gərçi derlər çəngdən çixmaz tərənnüm tarsız [3, 72]*. Yazılı abidələrin dilindən belə aydın olur ki, XIV əsrdən ədəbi dilimizdə işlənməyə başlamış və müxtəlif imlalarda *əgərçe əgərçi, gərçi* işlənmişdir. XVIII əsrdən etibarən öz normativliyini itirməyə başlamışdır.

Qoşma və bağlayıcılardan əlavə, ədatların və onların müxtəlif növlərinin tarixi təkamül prosesini izləmək üçün Füzuli qəzəlləri çox zəngindir: *Qəm diyarında əcəl peyki güzar etməz mana, Yox sanıb varım məgər kim,etibar etməz mana [3,12]*. Beytdə işlənmiş "məgər" sözü sual ədatıdır. Bu söz Azərbaycan dilinə fars dilindən keçmişdir. Müasir Azərbaycan dilində olduğu kimi tarixən də bu söz cümlə daxilində sərbəst surətdə sual ədatı vəzifəsində işlənmiş və mənaya müxtəlif xüsusiyyətlər əlavə etmişdir. Başqa sözlə desək, sual məzmunu ilə birlilkdə təkid, tərəddüd, şübhə və sair də bildirmişdir [2, 219]. Digər bir beytə diqqət edək: *Girib məscidlərə gər müqtədalər peyrəvi olman, Budur vəchi ki, hərgiz görmədim üz müqtədalərdən [3, 133]*. Beytdə işlənmiş "hərgiz" inkar ədatıdır. Nəsimi və ondan sonra gələn şairlərimizin dilində işlənmişdir."Kitabi-Dədə Qorqud" dilində buna rast gəlinmir,bu isə hər şeydən əvvəl onunla izah edilə bilər ki, danışıq dilində normalaşmayan "hərgiz" sözü xalq ədəbiyyatının, eləcə də "Kitabi- Dədə Qorqud" dilində öz ifadəsini tapa bilməmişdir [2, 223]. Füzuli yaradıcılığında modal sözlərin də tarixi inkişafı müşahidə edilməkdədir. Aşağıdakı beytləri nəzərdən keçirək:*1. Tutalım kim,aşk seylabinə yoxdur etibar, Ey Füzuli, çeşmi- giryanım gərəkməzmi sana?[3, 15]. 2. Qaliba məqsəd visalındır ki,dün-dün durmayıb, Çərx sərgərdan gəzər,bilməz nədir rəncü-təəb [3, 21]. 3. Nola ağlarsa Füzuli rövzeyi-kuyin anıb, Lacərəm giryan olur qılğac vətən yadın qərib.[3, 25]. 4.Əgərçi,ignə tək keçdim cahanın hər nə varından, Hənuz ardımcadır qeydi-təəllüq zülfü tarından [3, 141]*. Bu beytlərdə güman,şübhə bildirən "tutalım kim","qaliba", arzu bildirən "nola", təsdiq bildirən müvafiq olaraq "əlbəttə" və "düzdür" modal sözlərinin sinonimi məqamında işlənən "lacərəm" və "əgərçi" modal sözləri işlənmişdir.Modal sözlərin poeziyada həcminin genişlənməsi ədəbi dildə üslubların inkişafı ilə əlaqədardır.Bunlardan əlavə Füzuli qəzəlləri nidalarla da zəngindir: *Yəqinimdir ki,məqsudum olur hasil sənə etsəm, Bihəmdullah mənə səndən yana rəhbər yəqinimdir [3,51]. Bihəmdullah nidası bu beytdə "Allaha şükür" mənası ifadə edir.*

Beləliklə, Füzuli qəzəllərini nəzərdən keçirərkəın köməkçi nitq hissələrinin vəziyyəti aydın nəzərə çarpır. Onların tarixən mövcud olmuş formalarını biz sənətkarın yaradıcılığında müşahidə edib belə qənaətə gəlirik ki, bu sözlərin bir qismi milli, digər qismi alınmadır. Onlardan bəziləri müasir dildə olduğu kimi işlənir, bəziləri müəyyən fonetik- morfoloji dəyişmələrə məruz qalır, bəziləri isə qeyri-sabit olaraq dildə əhəmiyyətini itirib istifadədən çıxır.

Açar sözlər: Füzuli, qəzəlləri, qoşma, bağlayıcı, ədat, modal söz, təhlil.

Ədəbiyyat

1. Ə. Dəmirçizadə."Ədəbi dilimizin inkişafinda Füzuli mərhələsi". Bakı: "Azərnəşr", 1958
2. H.Mirzəzadə."Azərbaycan dilinin tarixi qrammatikası". Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1990
3. M. Füzuli, Seçilmiş əsərləri. I cild, Bakı, "Oka ofset" nəşriyyatı, 2005.
4. Mir Cəlal."Füzuli yaradıcılığı", Bakı, Çaşıoğlu, 2018.
5. M. P.Vaqif, Əsərləri, Bakı, "Şərq-Qərb", 2004.

MÜSTƏQİLLİK İLLƏRİNDƏ YAZIÇI PUBLİSİSTİKASINDA DİL MƏSƏLƏLƏRİ

Məmmədəliyeva Leyla
Azərbaycan Universiteti
leyla.mammadaliyeva@au.edu.az

Məşhur filosof Konfutsidən soruşmuşlar: "Bir məmləkəti idarə etməniz lazım olsa, işə hardan başlarsınız?" O, düşünmədən tərəddüdsüz işə əvvəl dildən başlanılmasının vacib olduğunu vurğulamışdır.

Təsadüfi deyildir ki, ana dili məsələsi, ana dili mövzusu dünya ədəbiyyatında daim diqqət mərkəzində olmuş, əhəmiyyətli bir yer tutmuşdur. Dünyanın bir çox məşhur elm və sənət adamları, ana dili haqqında görüş və düşüncələrini dönə-dönə ifadə etmişlər. Ulu öndər Heydər Əliyev dilimizin inkişafı ilə bağlı belə söyləmişdir: "Müstəqil Azərbaycan Respublikasının gələcəyi üçün əsas vasitələrdən biri Ana dilimizin, dövlət dilimizin inkişaf etdirilməsidir" [1, s. 77].

Ana dilinin mənası lüğətlərdə belə ümumiləşdirilmişdir: "Ana dili- insanın doğulub böyüdüyü ailə və soy tərəfindən bağlı olduğu cəmiyyət, anasından və yaxın adamlardan, daha sonra geniş mühitdən və milli imkanlardan faydalanaraq öyrəndiyi dil" [2, s. 35]. Vaxtilə dilimizin inkişafında böyük xidməti olmuş Həsən bəy Zərdabi də ana dilimizi yüksək qiymətləndirərək yazırdı:

"Dil elə bir şeydir ki, öz halında saxlamaq mümkün deyil. Elə ki, artıq şeylər ələ gəldi və adətlər dəyişdi təzə sözlərin qədəri günü-gündən artacaqdır. Belə sözlərin artmağının dilə zərəri yoxdur, xeyri var" [2, s. 95].

R. Rzanın da dilimizin inkişafı ilə bağlı xidmətləri danılmazdır. Onun dil haqqında fikirləri də diqqətəlayiqdir:

"Dilin ifadə bacarığının yeni çalarlarla yetkinləşməsi, lüğət sayının yeni və yeniləşmiş sözlərlə zənginləşməsi, bir sözlə, dilin harmonik, intensiv inkişafı üçün onun gərəkliliyi mühüm şərtdir. Metal alət işlədilməsə paslanar. Dil işlədilməsə get-gedə kəsərini, məna dəqiqliyini, ifadə, incəlik və gözəlliyini itirər, inkişafdan qalar" [1, s. 94]. Bütün bu sadalanan fikirlər Anarın dilə münasibəti ilə də həmahəng səslənir. Dilə belə həssas münasibət bəsləmiş R.Rzanın ailəsində dünyaya göz açan Anar təbii ki, ailədən və xalqdan gələn bu ənənəyə sadiq qalmışdır.

O bir ictimai xadim olaraq millətin sözünü daha yuxarı dairələrə çatdırmaqda daim məsuliyyətli olmuşdur. Hələ imperiyanın süqutundan sonra ölkədə başlanan xaos, hərci-mərcilik əhali arasında bir çaxnaşmaya səbəb olmuşdu. Daim əsarətdə yaşamağa məcbur edilmiş xalqımız qəfildən müstəqillik qazananda, necə deyərlər, çaşıb qalmışdı. Dil məsələsi daha böyük mübahisə və müzakirə obyektinə çevrildi: Bəs indi biz kimik? Türk, azərbaycanlı yoxsa kim? Və beləliklə, dövlətin ali orqanı olan Milli Məclisdə dilimizin adı ilə bağlı çoxsaylı müzakirələr keçirilməyə başladı. Məsələ ətrafında müzakirə, mübahisələr getdikcə şiddətləndiyi bir vaxtda təbii ki, daha düzgün, ədalətli qərar çıxarılmasının tərəfdarı olanların da sayı xeyli çoxalmışdı: Necə yəni iki dilin bir adı, türk dili; Bu necə ola bilər? Elə bu hiddət, bu qəzəblə də publisist dərhal məsələ ilə bağlı işə qarışır (Daha doğrusu bu onun bir ictimai xadim kimi səlahiyyətlərinə aid idi.), müzakirələrə qoşulur, tələb və təkliflərini bildirir, müsahibələrini cavablandırır, müraciət ünvanlayır. Belə bir məqamda Anar öz məntiqi mühakimələri ilə anlaşılmazlıqlara son qoydu. O, yazırdı: "Azərbaycan dili müstəqil bir dildir. Çünki Azərbaycan dilinin özünün özəllikləri, özünəməxsus xüsusiyyətləri

vardır" [3, s. 123].

Dilimizin adının təsdiqi ilə bağlı Anarın xidmətləri o dövr yenicə müstəqillik əldə etmiş ölkəmizin tarixində özünəməxsus əhəmiyyətə malikdir. Bu baxımdan onun "İki dilin bir adı ola bilməz", "Dilimizin adı" kimi məqalə və müsahibələrində də yenə həmin fikirlərə qayıdır. Həmin dövr Milli Məclisin müzakirələri zamanı Anar müstəqil dövlətimizin adının bir neçə versiyada səsləndirilməsinə əsasən yalnız «azərbaycan türkcəsi» adlandırılmasına tərəfdar olduğunu bildirir. Azərbaycan dilinin yalnız ləhcə olduğunu iddia edənlərə publisist qəti və kəskin şəkildə etirazını bildirir, dilimizin türk dili adlanmasını isə birmənalı olaraq qəbul etmir.

«Ləhcə küçədə, bazarda, evdə danışılan dildir. Azərbaycan dili müstəqil bir dildir. Necə ki, qırğız, tatar dili müstəqildir», – deyən publisist bu gün Azərbaycanca-türkcə lüğətin sabah "türkcə-türkcə" lüğət kimi gülməli bir şəkildə adlandırıla biləcəyindən narahat olduğunu bildirir. Türk dili adlandırılması dilimizi daim izahata məruz qoyacaq, əhalinin daim əziyyət çəkəcəyi bir versiyadır. Məsələn "Türk dili tarixi" almaq istəyən alıcı satıcının,- Hansı türk dili tarixi? Sualına cavab verməli olacaq. Yaxud universitetdə tələbə mühazirəyə gedir. Hansı mühazirəyə gedirsən? Türk dilinə. Hansı türk dilinə? Azərbaycan türk dilinə, yoxsa türk-türk dilinə?" [4, s.124] və s. kimi hər dəfə izahat və başağrısına səbəb ola biləcək bu kimi hallara qarşı Anar dəfələrlə etirazını bildirmişdir. "Azərbaycan türkcəsi ilə Türkiyə türkcəsi 2 qardaş dildir. Amma mən həmişə misal çəkirəm ki, Əhməd və Məmməd adlı iki qardaş nə qədər mehriban olsa da, onların hər ikisi nə Əhməd adlana bilməz nə də Məmməd" [4, s.125], – deyə düşünən publisist o dövr Milli Məclisin dil haqqında iclasında heç bir nəfərin də türk dili lehinə səs vermədiyinə baxmayaraq səhəri gün Milli Məclis dövlət dili kimi türk dilini qəbul etdiyini bildirir.

"Müstəqil qəzet"ə verdiyi "İki dilin bir adı ola bilməz" adlı müsahibəsində Türkiyəyə ifrat alüdəçiliyin yaxşı nəticə verməyəcəyini düşünən Anar hər şeyin öz həddində gözəl olduğunu bildirir. Ukraynada aparılan ifrat ruslaşdırmanı misal gətirir. Bunun nəticəsidir ki, ruslara «masqal» deyir, həqarətlə baxırlar. Eyni vəziyyət Belorusiyada da var. Əgər biz Türkiyə ilə münasibətlərin həmişə mehriban olmasını istəyiriksə, onda ifrat alüdəçiliyə heç vaxt yol verməməliyik. Müsahibə zamanı Anar əgər dəvət edilərsə, efirdə də, öz fikrini bildirəcəyini söyləyir. Ziyalıların bu işdə kənara çəkildiyini söyləyənlərə də münasibət bildirən müsahib «Hər yazıçının öz fikri olduğunu bildirir. Məsələnin çox tələsik həll olunduğundan gileylənir, dillə bağlı referendum keçirilməsinin də qəti əleyhinə olduğunu bildirir. «Təzədən referendum keçirək görək bizim adımız nədir, dilimiz nədir?», – söyləyən Anar bunu dünya qarşısında biabırçılıq saydığını da gizlətmir.

1990-1991-ci illərdə ölkənin olduqca gərgin çağlarında Anar bir növ meydanda köməksiz, əliyalın olduğunu zənn etsə də, ruhdan düşmür, qələmə sarılır və bir-birinin ardınca onlarla publisistik əsərlər ortaya qoyur.

Ölkənin tərəqqi və çiçəklənməsində mədəniyyət, mədəni cəmiyyət anlayışı müəllifin publisistik əsərlərində öz yüksək qiymətini almışdır. Ölkəmizin düşmənlə qarşıdurma səviyyəsində üz-üzə, göz-gözə dayandığı mürəkkəb bir dövrdə vətənpərvər publisist daim narahatdır. Anar məhz həmin illərdə dinclik nə olduğunu bilmir, gecəli-gündüzlü yazır, yazdıqlarını hər vasitə ilə yuxarı dairələrə çatdırmaq üçün əlindən gələni edirdi. Müstəqillik dövrü ədəbi məhsullarına daxil olan bu publisistik əsərlərin hər birində həmin dövrdə ölkənin siyasi mənzərəsi tamlıqla göz önündə canlanır, siyasi səhnələr ustalıqla əks etdirilir və bundan çıxış yolu axtarılır. Bütün varlığı ilə vətənə, xalqa bağlı olan, əsərlərində, o cümlədən publisistikasında daim millətin tərəqqisi, rifahı naminə var qüvvəsini səfərbər edən müəllif "İpək yolu" adlı məqaləsində də ənənəsinə sadiq qalmış, ölkəsi üçün dəyərli təkliflərlə çıxış etmişdir. Hələ vaxtilə (1968-ci ildən) "Qobustan" toplusunda çalışarkən bir sıra milli ideyalarına görə pantürkizmdə suçlanan publisist həmin illərin

geridə qaldığından böyük qürur hissi keçirir, indi də ölkəsinin tərəqqisində "İpək yolu" kimi bir toplunun vacib rol oynayacağından söz açmışdır. Daim dostluğun, qardaşlığın, xüsusilə qonşu, qardaş Türkiyə ilə səmimi münasibətlərin ölkəmiz üçün, xalqımız üçün böyük əhəmiyyət daşıdığını söyləyən Anar bu dəfə də latın qrafikalı əlifbanın bərpasının milli-mənəvi birliyimiz üçün mühüm addım oduğunu söyləyir.

Müstəqil dövlət kimi artıq orfoqrafiyamızın da təzələnməsi, yeni-yeni terminlər, neologizmlərin yaranmasında ikinci türkoloji qurultayın çağırılması zərurətini tələb edirdi. Anar çox böyük qürur və sevinclə gözlədiyi bu qurultayın Bakıda keçirilməsini ədalətli sayır, məhz onun təşəbbüsü ilə sonralar "TÜRKSOY" adlı bir qurum yaradılır. Türkçülüyün sadiq keşikçisi olan publisist yazır: "Bu orqanı türk xalqlarının humanitar problemləri ilə, onların tarixi, ədəbiyyatı, incəsənəti, memarlıq və mədəniyyət abidələri ilə məşğul olacaq "Türk YUNESKO"su kimi bir təşkilat şəklində təsəvvür edirəm. Bu təşkilat bütün müstəqil türk dövlətləri tərəfindən müəyyənləşdirilə və maliyyələşdirilə bilərdi" [4, s. 101].

"Türk YUNESKO"su təhsil prosesini də nizama sala bilər," deyən publisist ayrı-ayrı türkdilli ölkələrin tarixini, ədəbiyyatını yaxşı bilən mütəxəssislər-ölkəşünaslar hazırlanmasının, Türkiyənin nüfuzlu universitetlərinə Bakıdan müəllim kadrları cəlb etməklə Azərbaycan şöbəsinin yaradılmasından, Azərbaycanın Türkiyədə mədəni mərkəzinin yaradılması vacibliyindən də söz açmışdır. Məqalədə qardaş Türkiyə ilə əlaqələrin vacibliyini dönə-dönə vurğulayan publisist beşcildlik Türkiyə ədəbiyyatı antologiyasını azərbaycanca nəşr etdirmək təşəbbüsünü irəli sürüb.

Bütün bu kimi oxşar fikirlər bir ictimai xadim kimi Elçinin də səlahiyyətlərinə aid idi.

Müstəqillik illərində Elçinin dilimizin adı ilə bağlı tövsiyələri xüsusən maraq doğurur. O, "Dilimizin adı haqqında" (1995), "İlk növbədə doğma dilin təəssübü çəkilməlidir" (2001) və s. kimi buna bənzər müsahibə və çıxışları ilə o dövrün mətbuat səhifələrində tez-tez çap olunaraq müstəqil dövlətin dil siyasətində öz fikir və mülahizələrini dönə-dönə bildirmişdir.

Yazıçı-publisist 1995-ci ildə Prezident H.Əliyevin yanında Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın iclasında "Dilimizin adı haqqında" adlı çıxışında dil haqqında öz maraqlı mülahizələrini söyləmişdir. 1936-cı ilə qədər dilimizin türk dili adlandırılmasına baxmayaraq Elçin müstəqil Azərbaycanın dövlət dilinin türk dili adlandırılmasının tamamilə əleyhinə olduğunu bildirmişdir. "Azərbaycan dilini yalnız "türk dili" adlandırıramsa, onda Azərbaycan ədəbiyyatına nə deməliyəm?", – deyə bunu absurd hesab edən publisist konstitusiyada "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan (türk) dilidir" təklifini bildirmişdir. Elçin digər məqalələrində də daim dilimizin təəssübünü çəkən vətənpərvər bir ziyalı kimi çıxış etmişdir. Latın qrafikalı əlifbaya on ildən artıq keçilməsinə baxmayaraq, iqtisadi çətinliklərlə əlaqədar olaraq bu qrafikada heç bir əlavə ədəbiyyat nəşr edilməmişdi. Bütün bunlar 1990-2000-ci illər Elçinin publisistikasında diqqəti çəkən əsas məqamlardan idi.

Açar sözlər: dil məsələsi, müstəqillik illəri, publisistika, yazıçı.

Ədəbiyyat

1. Anar. Əsrin əsiri, İctimai-siyasi mövzularda yazılar, müxtəlif sənədlər, Bakı, 2010, 712 s.
2. Anar. Mübarizə bu gün də var. Bakı, 2010, 712 s.
3. Gündoğdu Bayram. "Bəxtiyar Vahabzadənin publisistikası" (dissertasiya) Bakı, 2010.
4. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı, Azərbaycan Universiteti, 2002, 232 s.

XAÇMAZ RAYONUNUNUN TURİZM POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN TƏŞKİLİNİN TƏHLİLİ

Məmmədov Emin
Bakı Biznes Universiteti
nesib.memmedxanli.97@mail.ru

Son illər aparılan geniş miqyaslı tikinti quruculuq və abadlıq işləri nəticəsində Xaçmaz sözün əsl mənasında tanılmaz dərəcədə dəyişib. Geniş və abad küçələr, meydanlar, biri birindən yaraşıqlı yaşayış evləri və ictimai binalar,müasir memarlıq inciləri olan bulaq və fəvvarə kompleksləri Xaçmazı digər rayon və şəhərlərimizdən xeyli dərəcə fərqləndirən özəl cizgiləridir.Bənzərsizliyi ilə adını elə ilk baxışdan heyran edən qoşa qapılar,zövqlə inşa edilmiş yeraltı keçid və geniş parklar və yaşıllıq zolaqları bir birilə harmoniya təşkil edir.Şəhərin simasına xüsusi yaraşıq verən obyektlər sırasında mədəniyyət və istirahət parkının fəvvarələri, Şah İsmail Xətainin, Koroğlunun və digər tarixi şəxsiyyətlərin abidələrinə, Xaçmaz Dərbənd Dostluq abidə kompleksini qeyd etmək olar. Bu gözəlliyə heyran qalan sakinlər gecələri üz tuturlar gözəl parklara. Xaçmazda 4 km uzunlugu olan bu parka ətraf rayonlardanda istirahətə gələnlər var. Şəhərin Bakı prospektinde abadlıq və quruculuq işləri davam etdirilir. Heydər Əliyev seyrangahı ərazisində bir sıra yeni memarlıq və bəzək elementləri ilə diqqəti çekən 16 metr hündürlükdə qədim lampa, şəlalə və fəvvarələr kompleksi tikilib. Yerli sakinlər bildirir ki, Xaçmaz Bakı prospektinde yerləşən Çənlibel parkı Xaçmazın digər parkları kimi gözəldir. Xatırladaq ki, şimal rayonlarından olan Xaçmaz rayonu ən çox parkları olan rayondur. Bunun üçündə turist sakini bu rayonda çoxluq təşkil edir.

Xaçmaz rayonunda 60-dan çox tarixi abidə var. Onlardan biridə Alban kilsəsidir. Azərbaycan ərazisində çox az sayda qalan Alban kilisələrinin arxeoloji tətqiqatlar aparılmasına baxmayaraq hansı əsirlərdə tikilməsi tam məlum deyil. Alban kilisəsinin tarixi çox qədim olmasada Xaçmaz rayonu ərazisində unikalliği ilə seçilir. Qədim şərq üslubunu xatırlatan abidənin bəzi mənbələrdə Xiristiyanlara məxsus olduğu bildirilir. Alban kilsəsinin müsəlman dövlətdə inşa olunması həmin dövrlərdə xalqımızın tolerant olduğunu bir daha sübut edir. 4 tərəftən girişi olan abidə bişmiş qızıl kərpicdən olunmaqla bərabər həmdə tacirlərin dayanacaq nöqtəsi kimi istifadə olunub.

Azərbaycanın şimal regionunu Rusiya ilə birləşdirən Xaçmaz Dəmir yolu Vaqzalı 19 əsrdə tikilib. Öz görünüşü ilə fərqlənən binanı Alman mütəxəssisləri inşa ediblər. Zəngin memarlıq üslubu ilə seçilən Xaçmaz Dəmir yolu Vaqzalı Zaqafqaziyada çəkilən ilk dəmir yolu kimi tarixə düşüb. Tarixi mənbələrə görə Quba Quberniyasının Çar Rusiyasına müraciəti əsasında dəmir yolunun Xaçmazdan keçməsini istəyən xalq sonda buna nail olmuşdur. Tez bir zamanda dəmir yolu stansiyasının tikilməsinə başlanılmışdır. 19-cu əsrin ikinci yarısında Qafqazdakı təbii zənginliyin Rusiyaya daşınması üçün əlverişli və sürətli nəqliyyat vasitəsinə yaranan tələbat Xaçmaz stansiyasına marağı daha da artırır. Ölkəmizin şimalda Rusiyaya açılan qapısı kimi xüsusi əhəmiyyət daşıyan Xaçmaz Dəmir Yolu Stansiyası son illərdə daha çevik işləməyə başlayıb. Xaçmaz Stansiyası vasitəsilə Rusiyaya, Quba Qusar və digər qonşu rayonlardan böyük həcmdə kənd təsərrufatı malları aparılır. Yaxın gələcəkdə Xaçmazdan yaxın Şərq ölkələrinə reyslər təşkil olunacaq. Xaçmaz Dəmir Yolu Vaqzalı bir çox tarixi və mədəni hadisələrə şahidlik edib. Rejisor Arif Babayevin 1977-ci ildə lentə aldığı Arxadan Vurulan Zərbə filminin bir hissəsi bu vaqzalda çəkilib. Hər bir dövlətin iqtisadi inkişafında dəmir yolu nəqliyatı önəmli yerlərdən birini tutur. Onun beynalxalq aləmdə daha sıx inteqrasiyasına imkan verir. Xaçmaz Dəmir Yolu Stansiyasının

binası həm öz görnüşü və həmdə tarixinin qədimliyi ilə seçilir. Məs bu səbəbdən Xaçmaz Dəmir Yolu Stansiyasının binası dövlət tərəfindən qorunan memerlıq abidələri siyahısına daxil edilib.

1903-cü ildə Xaçmazda inşa edilən su anbarı qülləsi memarlıq quruluşu ilə diqqəti cəlb edir. Şirin su bulaqları ilə zəngin olan Xaçmazdan böyük su sıxıntısı yaşayan Abşeron Yarmadasına və getdikcə böyüyən neft şəhəri Bakıya içməli su məs burdan, dəmir yolu vasitəsilə yollanırdı. 1899-cu Bakı və Abşeron Yarmadasında olan əhalinin suya olan tələbatlarının artdıgını görən Bakı milyonçusu xeyriyyəçi Hacı Zeynalabdin Tagıyev Avropanın bir neçə şəhərinə su kəməri çəkən məhşur ingilis mühəndis Herleyni Azərbaycana gətirir. Herleyn bol şirin su mənbələri olan Xaçmaz ərazisinə qədər gəlir. Burada Şollar kəndində quyu qazdırır. Şahdağın qarı və buzluqları ilə qidalanan keyfiyyətli suyun mənbəyini kəşf edir. Uzun sürən mübahisə və müzakirələrdən sonra 1904-cü ildə tikilməyə başlayan kəmərin inşası 1916-cı ildə başa çatmışdı. 100-illik tarixi özündə qoruyub saxlayan su qülləsi anbarı və su kəməri bir dəfədə olsun qəza şəraiti ilə üzləşməyib. Uzunlugu 175 km olan kəmər eləcədə su anbarı qülləsi Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qorunan tarixi abidələr siyahısına daxil olub. Potensial və böyümə templəri baxımından Xaçmazda turizmin inkişafının ən perspektivli istiqamətləri, bir idman təbiətinin və rekreasiya xarakterli daxili turizm kimi görünür.

Açar sözlər: memarlıq, turizm, potensial, Xaçmaz.

Ədəbiyyat

1. Əlirzayev Ə.Q. Turizmin iqtisadiyyatı və idarə olunması, Bakı: “İqtisad Universiteti” Nəşriyyatı, 2010.

AZƏRBAYCANIN XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ SOSİAL-SİYASİ VƏZİYYƏTİ

Məmmədov Kənan
Azərbaycan Universiteti
kenanmemmedov.1994@mail.ru

XX əsrin əvvəli dünya tarixində dərin dəyişikliklər dövrüdür. Sosial-iqtisadi həyatdakı dəyişikliklər,sənaye çevrilişinin başa çatması və dünya iqtisadiyyatının inkişafında inhisarlaşma mərhələsinə keçid, burjua cəmiyyətinin formalaşması, siyasi partiyaların yaranması xüsusən də proletariatın -fəhlələrin adından çıxış edən ictimai qüvvə və qruplar tərəfindən siyasi təşkilatların yaranması –bu dövrün başlıca xüsusiyyətlərini təşkil edir [8, s.164].

XX əsrin əvvəllərində həm Bakıda həm də bütün regionda neftlə bağlı süni canlanmadan sonra iqtisadi böhran başladı. Onun nəticəsi olaraq kütləvi işsizliklər başlandı, yaşayış şərtləri ağırlaşdı. Bu da fəhlə çıxışlarının artmasına gətirib çıxardı. Tətillərin kütləvi hal alması nəticəsində Bakıda 1902 -ci ilin yanvarında hərbi vəziyyət elan olundu.

XX əsrin əvvəlində Azərbaycan xalqının milli şüurunun inkişafında ermənilərin azərbaycanlılara qarşı qətl və qarətləri böyük rol oynadı.XIX əsrin sonunda ermənilərin Azərbaycan ərazilərinə kütləvi şəkildə axışıb gəlməsi onların Osmanlı imperiyasında antitürk çıxışlarının yatırilması ilə əlaqədar idi. Türkiyə torpaqlarından gələn erməni qaçqınlar üçün xüsusi

olaraq Bakının kənarında qəsəbə salındı və şəhər öz torpaqlarının bir qismini güzəştli şərtlərlə ermənilərə verdi.

Beləliklə, 1905-ci ilin fevralında Bakıda başlamış erməni-müsəlman münaqişəsinin kökləri hələ XIX əsrin sonunda erməni köçü ilə birbaşa bağlı idi. Rusiyanın mərkəzində və milli ucqarlarında inqılabi çıxışlar və milli-azadlıq hərəkatı başlayan kimi çarizm onların qarşısını almaq məqsədilə milli münaqişələri qızışdırmağa, bir xalqı o birinin üstünə salmaqla qədim zamanlardan sınaqdan çıxmış prinsipdən - (parçala və hökm sür) siyasətindən məharətlə istifadə etdi.

Erməni-azərbaycanlı münaqişəsi zəminində faciənin başlanmasına 1905-ci ilin fevralında Bakıda baş verən hadisələr səbəb oldu.Fevral ayının 2-də şəhərin Quba meydanındaAğarza adlı azərbaycanlı erməni daşnakları tərəfindən vəhşicəsinə öldürüldü. Bundan 4 gün sonra fevralın 6-da isə istintaqa aparılan Babayev erməni əsgərlərinin əli ilə qətlə yetirildi [6, s.13]. "Daşnaksutyun"partiyasının 1905-ci ilin fevral ayının 12-də gürcü və rus bolşevikləri ilə birgə imzaladığı "Bütün Qafqaz xalqlarına" adlı müraciətin bu hadisələrin səbəbkarı kimi müsəlman əhali ittiham edildi, hökümətin onları silahlandırıb guya əliyalın ermənilərin üstünə göndərdikləri iddia oludu [4, s.84]. Erməni-azərbaycanlı münaqişəsi Bakının iri müəssisələrinədə sirayət etdi. Bu münaqişələr ən çox erməni milyonçularına məxsus müəssisələrdə onların sahiblərinin ermənipərəst siyasət yeritməsi nəticəsində baş verirdi [4, s.91]. Erməni-daşnak təcavüzkarlarının silahlanmasında və möhkəmlənməsində Mantaşev, Saturov, Adamov və başqa erməni milyonçularıböyük rol oynadılar. Erməni-azərbaycanlı münaqişəsində rusların ermənilərlə əlbir olması azərbaycanlıları ayrıca bir təşkilatda birləşməsini zəruri etdi. 1906-cı ilin payızında Əhməd bəy Ağayev tərəfindən "Difai" partiyasının əsası qoyuldu."Difai" partiyasının yaranma səbəbi erməni silahlı dəstələrinin dinc azərbaycanlı əhaliyə qarşı qətl və qarətlərinin qarşısını almaq idi. Əhməd Ağayev qeyd edirdi ki, "....xalqımızın əleyhinə aparılan bu iş 3-5 erməninin ağılsız hərəkəti deyil, ətrafında silahlı dəstələr qərb dövlətlərindən havadarlar yığmış əslində siyasi-strateji taktikası olan "Daşnaksutyun"un- proqramlı bir təşkilatın işi idi [2, s.27]. Məhz erməni-rus fitnəkarlarının bu məkrli əməlinə qarşı xalqın vahid bir təşkilatda birləşməsi zərurətini başa düşən Əhməd Ağayev "Difai" partiyasını yaratdı. "Difai"partiyasının üzvləri erməni-azərbaycanlı münaqişəsinin qarşısını almaq üçün ciddi təbliğat işləri aparırdılar. Partiya lideri Ə Ağayev Gəncə məscidindəki çıxışlarının birində ermənilərlə azərbaycanlıların rusların Qafqaza gəlişindən əvvəl əmin-amanlıq içində yaşadıqlarını xatırlatdı [7, s.14].

Azərbaycan xalqının düşmənlərindən qətiyyətlə intiqam aldığına görə çar hakim dairələri "Difai"-ni "müsəlman döyüş partiyası" adlandırırdı [4, s.86]. 1909-cu ildə "Difai" lideri Ə Ağayev Türkiyəyə muhacirət etdi, fəal üzvləri isə 5 il müddətinə Qafqazın hüdudlarından kənara sürgünə göndərildi.

Ötən əsrin əvvəllərində Hüseyn Baykaranın da qeyd etdiyi kimi ilk türk siyasi təşkilatı olan və 1904-cü ilin axırlarında RSDFP-nın Bakı komitəsinin nəzdində "Müsəlman sosial-demokratik "Hümmət" təşkilatı" yaradılmışdır.Təşkilat əsasən fəhlələr arasında təbliğat, təşviqat işi aparırdı. "Müsəlman sosial-demokrat "Hümmət" təşkilatı" Mir Həsən Mövsümov, Məmməd Həsən Hacınski və Məmməd Əmin Rəsulzadə tərəfindən yaradılmışdı.Təşkilatın "Hümmət" adlı qəzeti 1904-cu ilin oktyabr ayında Bakıda nəşr olunmuşdur. "Hümmət"adının seçilməsi təsadüfi deyildir.Beləki qəzetin adı şərqdə və Azərbaycanda məşhur olan "Hümmətul-rical təqləul-cibal"(el bir olsa dağ oynadar yerindən) xalq məsəlindəki "Hümmət" sözündən alınmışdır. Ərəbcə "Himmət"sözündən yaranmış "Hümmət"kəlməsi dilimizdə qeyrət, şücaət, birlik mənaları daşımaqdadır.1905-ci il inqılabının başlaması ilə fevral ayında çarizmin Bakıda törətdiyi milli qarşıdurma və toqquşmalar nəticəsində aparılan həbslər və axtarışlar qəzetin nəşrinin dayandırılmasına səbəb oldu [3, s. 63].

Azərbaycanda milli hərəkatı gücləndirən amillərdən biri də Balkan müharibələrinin başlanması oldu. M. Ə.Rəsulzadə "Azərbaycan Cumhuriyyəti" əsərində həmin dövrün hadisələrini səciyyələndirərək yazırdı: Rusiya cəmiyyətində şovinist bir siyasi cərəyan başladı bu cərəyan Balkan müharibəsi əsasında daha da şiddətləndi. Rus şovinizmi doğurdan-doğruya türk aləminə qarşı çevrilmişdi. Tanınmış rus ədiblərindən biri Balkanlara gedən qırmızı xaç cəmiyyətini yola salmaq üçün yazdığı məqalədə "bir slavyan bir xristian varkən türk yaralısına baxmayın" deyirdi. Balkan müharibəsi Rusiya inqılabçılarının türkçülüyə və müsəlmançılığa münasibətdə mənfi mövqedə dayandıqlarını üzə çıxardı .Məhz bu hadisədən sonra Azərbaycan inqilabçıları sırasında millətçiliyə meyl gücləndi və onlar rus inqılabçıları ilə əlaqəni kəsməyə başladılar [5, s.44].

1911-ci ilin payızında əvvəllər M.Ə. Rəsulzadə ilə birlikdə "Hümmət"təşkilatında çalışmış 3 nəfər Məmməd Əli Rəsulzadə, Abbasqulu Kazımzadə və Tağı Nağıyev qeyri-leqal şəkildə təşkilat-firqə yaratmaq qərarına gəlirlər [4, s.100]. Sonralar siyasi hadisələrin hegemon qüvvəsinə çevriləcək bu firqəyə "Müsavat" ərəb sözü olub "bərabərlik" mənasını ifadə edir /adı qoyulur.1913-cu ildə Romanovlar sülaləsinin 300 illiyi münasibətilə çar hökümətinin verdiyi əfv siyasi məhbuslarada şamil edilirdi. Bundan istifadə edən M.Ə. Rəsulzadə Azərbaycana qayıtdı və "Müsavat"-ın sıralarına qoşularaq onun liderliyini əlinə aldı. 1911-ci ildə siyasi mübarizə meydanına atılan "Müsavat" firqəsi fevral burjua inqılabından sonra leqal fəaliyyətə başladı.Onun əsas mərkəzi Bakıda yerləşirdi.

Fevral burjua inqılabından sonra leqal fəaliyyət göstərən partiyalar sırasında "Müsavat", "Türk ədəmi-mərkəziyyət", "Müstəqil demokratik qrup", "Hümmət", "Ədalət" və"İttihad"-ı misal göstərmək olar.

" Türk ədəmi-mərkəziyyət" firqəsi Gəncədə fəaliyyət göstərirdi. Onun əsas dayağını kəndlilər və fəhlələr təşkil edirdilər. "Müsavat" partiyası kimi "Türk ədəmi-mərkəziyyət"-in də ideoloji təməli türkçülük idi. Partiya Nəsib bəy Yusifbəyli tərəfindən yaradılmışdı.1908-ci ildən sonra bir müddətTürkiyədə yaşaması onun siyasi görüşlərinin formalaşmasına təsir göstərmişdi.

Əlimərdan bəy Topçubaşov və Fətəli xan Xoyskinin rəhbərlik etdiyi "Müstəqil demokratik qrup" da milliyətçi mövqedə dayanmışdı. Onun sıralarında bir çox ziyalılar birləşmişdilər. Bu ziyalılar başlıca olaraq Rusiya Dövlət Dumasında və "İttifaqi müslimin"sırasında məktəb keçmişdilər.

Fevral burjua inqilabından sonra siyasi mübarizə meydanına atılan partiyalar içərisində "İttihad" özünəməxsus yer tutur. Bu partiya əvvəlcə iki özək şəklində fəaliyyət göstərirdi.Yelizavetpol şəhərində "İttihadi islam" Bakıda isə "Rusiyada müsəlmançılıq" özəkləri [1, s.17]. 1917-ci ildən bu iki partiya birləşərək "İttihad" partiyasını təşkil edirlər. "İttihad" partiyasının əsas liderləri Q Qarəbəyov, S M Qənizadə , Hacıbəyov və başqaları idi.

Ötən əsrin əvvələrində milli-azadliq hərəkatının liderlərinin yorulmaz fəaliyyəti nəticəsində tariximizdə parlaq iz qoymuş Azərbaycan Xalq Cumhuriyyəti təşəkkül tapdı.

Açar sözlər: Erməni-müsəlman davası, "Difai" partiyası, "Hümmət" təşkilatı, "Musavat" firqəsi.

Ədəbiyyat

1. Göyüşov A. "İttixadi-islam" "Elm" 5 yanvar.
2. Həmidov A. XX əsrin birinci yarısında Azərbaycan muhacirəti. Bakı 1992.
3. Huseynov Ş.A. Azərbaycan dilində ilk bolşevik nəşrləri. Bakı 1978.

4. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918). Bakı, 1996.
5. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı.Bakı 1990.
6. M S Ordubadi "Qanlı illər" Bakı 1991.
7. N Keykurun Azərbaycan İstiqlal Mücadelesi Hatıraları . İstanbul 1964.
8. XIX-XXI əsrin əvvəlləri Azərbaycan tarixi Muhazirələr kursu. (A Rzayevin redaktəsi ilə Bakı 2010).

TÜRKİYƏDƏ 2015-Cİ İL PARLAMENT SEÇKİLƏRİNDƏ MÜXALİFƏT PARTİYALARI

Məmmədov Namiq
AMEA akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu
mammadov.namig@yahoo.com

Müasir Türkiyədə, parlament demokratiyasının inkişaf etdiyi dövlətlərdən biri kimi seçkilərə və onun nəticələrinə maraq mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Türkiyədəseçkilər həmişə hakimiyyətin mahiyyəti, onun müddəti, forması, xarakteri və s. məsələlərə öz təsirini göstərmiş və göstərməkdə də davam etməkdədir.Buna görə də seçkilər əhəmiyyətli dərəcədə diqqət mərkəzindəsaxlanılır, seçki kampaniyalarının yüksək səviyyədə təşkil olunmasına çalışılır. Siyasi partiya və liderlər qələbə qazanmaq üçün demək olar, bütün mümkün variantlardan istifadə etməyə səy göstərirlər. Bu cəhətdən 2015-ci il parlament seçkiləri müasir Türkiyə tarixinin ən əhəmiyyətli hadisələrindən biri hesab oluna bilər. Seçicilərin səsvermədə iştirak aktivliyi də bunu söyləməyə əsas verir. İl ərzində təşkil edilən hər iki seçki kampaniyasında seçicilərin iştirak göstəricisinin 80 faizdən artıq olması qeyd edilənlərin əyani sübutudur. Bu seçkilərdə müxalifət partiyaları da xüsusi fəallıq göstərmişlər. Bu məqalədə seçkilərdə 10 faizlik baryeri keçən üç müxalifət partiyasının seçkilərdə iətirakı məsələləri araşdırılmışdır.

2015-ci il aprelin 19- da solyönümlü Cumhuriyet Halk Partisinin (CHP, Respublika Xalq Partiyası-RXP) seçki bəyannaməsi elan edildi. Bu bəyannaməCHP -nin son illərdəki ən detallı və geniş seçki sənədidir. 203 səhifədən ibarət olan bəyannaməCHP -nin iqtidar təsəvvürünü müəyyən etməklə, iqtisadiyyat yönümlü seçki strategiyasının ən mühüm göstəricisi kimi qeyd edilə bilər.CHP baş katibi Kamal Kılıçdaroğlu seçki bəyannaməsini açıqladığı nitqində sosial yardımlara geniş yer vermiş, əlillərə, qadınlara, əsgərlərə, yaşlılara və analara maddi yardım ediləcəyini bildirmişdir [8, s.17]. Tələbələrə dəstək, ailə sığortası, 10 faizlik seçki baryerinin və kütləvi informasiya vasitələrinə olan təzyiqlərin aradan qaldırılması vədləri də seçki bəyannaməsinin digər müəyyənedici ünsürləridir. CHP -nin seçki bəyannaməsində kredit faiz borclarının silinəcəyi, mazutun 1.5 TL olacağı və s. kimi iqtisadi yönümlü vədlər də yer almışdır [6, 20.04.2015]. Ümumilikdə CHP -nin seçki kampaniyasının əsasını iqtisadi xarakterli məsələlər təşkil etmiş və seçicilər iqtisadi vədlərlə cəlb edilməyə çalışılmışdır.

Sağ partiya olan Milliyetçi Hareket Partisi (MHP - Milliyətçi Hərəkat Partiyası) seçki üçün namizəd siyahısını aprel ayında Ali Seçki Komissiyasına (ASK- YSK) təqdim etsə də, seçki bəyannaməsini digər partiyalarla müqayisədə nisbətən gec - mayın 3-də elan etmişdi və bu hal heç də müsbət qiymətləndirilməmişdi. Bəyannamədə daha çox seçiciləri iqtisadi cəhətdən maraqlandıran vədlərə üstünlük verilmişdi [5, 4.05.2015]. Seçki bəyannaməsi "İctimai təmir və xoşbəxt gələcək" başlığı ilə müəyyən edilmiş və seçki kampaniyası "Bizimlə irəlilə Türkiyə" şüarı ilə ictimaiyyətə təqdim edilmişdi. MHP-nin seçki bəyannaməsi beş mühüm layihə əsasında tərtib

olunmuşdu [3, s.19]. Bunlar ictimai təmir müddətində dövlət və idarəetmə islahatı, istehsal iqtisadiyyatı proqramı, yoxsulluqla mübarizə layihəsi, terrorla mübarizə və milli birlik layihəsi, rüşvətxorluqla mübarizə, əxlaq və keyfiyyətin təsis edilməsi layihələrindən ibarət idi. MHP seçkiqabağı təbliğat kampaniyasında bəyənnamədə irəli sürülən iqtisadi vədləri açıqlamaqla yanaşı, kürd məsələsi ilə əlaqədar hökumətin siyasətini tənqid edərək, R.T.Ərdoğan, Ə.Davudoğlu və ümumilikdə AK Partiyə qarşı tənqidi mövqeyini nümayiş etdirmişdi.

Kürdyönümlü sol partiya olan Halkların Demokratik Partisi (HDP, Xalqların Demokratik Partiyası - XDP) seçki bəyannaməsi 2015-ci il aprelin 21-də "Biz Məclisə" şüarı ilə ictimaiyyətə təqdim edildi. Seçki bəyannaməsi demokratiya, demokratik konstitusiya, siyasi partiyalar və seçki qanunu, məhkəmə islahatı, demokratik muxtariyyat və ərazi demokratiyası, kürd problemi və həlletmə prosesi, bərabər, müstəqil və sülhsevər xarici siyasət, insan hüquqları, inanc azadlığı və iqtisadiyyat,xalqlara bərabərlik və s. adlanan əsas başlıqlardan ibarət idi. HDP-nin seçki bəyannaməsini təhlil edən professor Haluk Alkan qeyd edir ki, bəyannamənin iqtisadi və sosial siyasət sahələrində həddən artıq populist, təhsil və yerli muxtariyyət siyasəti sahələrində mərkəziyyətçi-iyerarxik və ümumi perspektiv olaraq marksist – modernist yanaşmaya sahib olduğunu, digər məsələlərin isə bəyannaməyə aksesuar kimi daxil edildiyini söyləmək mümkündür [1, s.24-25]. Seçki bəyannaməsi HDP-yə səs verən kürd seçicilərlə yanaşı,AK Parti və R.T.Ərdoğan əleyhdarlarına, ələvilər və sekulyar kütlələrə xitab edirdi. Bəyannamədə parlamentar sistemin gücləndirilməsinin vacib olduğu vurğulanırdı. Seçki bəyannaməsində demokratiya və əsas hüquqlar sahəsində vədlər verilsə də, HDP-nin PKK ilə əlaqələrinin kəsilməməsi, baryeri keçməyəcəyi halda partiya və Türkiyənin yenidən şiddətlə qarşılaşacağı təhlükəsini yaradırdı [15, s.66].

Seçkiqabağı təbliğat – təşviqat kampaniyasında partiyalar fəallıqlarını artırmışdılar. Bunu onların təşkil etdiyi mitinqlərdən də görmək mümkündür. Aprel ayından başlayan mitinqlər iyun ayının 6-dək davam etdi. Mitinqlərin sayında AK Parti xeyli irəlidə idi.AK Partinin baş katibi və baş nazir Ə.Davudoğlu Türkiyənin 81 vilayətində (ilində) 110 mitinq təşkil etmişdi. Müqayisə üçün qeyd edək ki, CHP baş katibi K.Kılıçdaroğlu 78, MHP baş katibi D. Bahçeli 54, HDP-nin həmsədrləri S. Dəmirtaş və F. Yüksekdağ isə birlikdə 66 mitinq təşkil etmişdilər [15, s.20].

2015-ci il iyun ayının 7-də Türkiyə Böyük Millət Məclisinə (TBMM) keçirilən növbəti seçkilərdəümumilikdə 21 siyasi partiya və 166 müstəqil namizədin qatılmışdı. Bu seçkilərdə 10 faizlik baryeri keçən cəmi 4 siyasi partiya oldu. Bunlardan AK Parti – 40.9faiz (müqayisə üçün qeyd etmək olar ki, 2011-ci ildəki seçkilərdə bu göstərici 49.83 faiz idi) səs toplamaqla 258,CHP– 25 faiz səs toplamaqla 132, MHP – 16.3 faiz səs toplamaqla 80, HDP isə 13.1 faiz səs toplamaqla 80 deputat yeri qazandı [12;14]. Seçicilərin səsvermədə iştirakı 83.3 faiz olmaqla reallaşdı. 2015-ci il 7 iyun seçkilərinin nəticələrinə əsasən, AK Parti - 5, CHP - 38, MHP – 34, HDP isə 55 vilayətdə (ildə) deputat yeri qazana bilmədi [9, 12.07.2015]. Şərqi və cənub-şərqi Anadoludakı HDP- nin deputat sayındakı artım AK Partinin deputat sayındakı ciddi azalma ilə izah oluna bilər. Bunu İstanbul üçün də söyləmək mümkündür. Belə ki, HDP MHP – ni də geridə qoyaraq İstanbulda ən çox səs toplayan üçüncü partiya oldu. Diyarbəkirdə mövcud 11 deputat yerinin 1-ni AK Parti, qalan 10-nu isə HDP, Vandakı 8 deputat yerindən yalnız 1-ni AK Parti əldə etdi. Mardində AK Partinin sahib olduğu 3 deputat yeri (2011) də1-ə endi. Ümumilikdə HDP-nin qazandığı səslərin 53 faizi 2011-ci il seçkilərində AK Partiyə səs vermiş seçicilərin hesabına olduğu qeyd edilir [15, s.21].

Səsvermə nəticələrinə görəAK Partibirincilik qazansa da, TBMM-də 50 faizlik deputat yeri əldə edə bilmədiyinə görə, son 13 il ərzindəilk dəfə təkpartiyalı hökumətin qurulması qeyri – mümkün oldu.Bu səbəbdən də koalisiyalı hökumət qurulması məsələsi ön plana çıxdı. Bu

vəziyyətdə, əgər müxalifət partiyaları razılığa gəlsə idilər, AK Parti parlament sədrini belə təkbaşına seçə bilməyəcəkdi. Lakin iyunun 30-da həyata keçirilən parlament sədri seçkisinin birinci turunda müxalifət partiyaları ortaq məxrəcə gələrək vahid bir namizəd müəyyən edə bilmədilər. Bunun əsas səbəblərindən biri, MHP-nin seçkidən əvvəlki R.T.Ərdoğan və ümumilikdə AK Parti əleyhinə olan siyasətini seçkidən sonra davam etdirməməsi idi. Nəticədə isə AK Partinin namizədi olan İsmət Yılmaz TBMM sədri seçildi.Bundan sonra iyulun 9-da prezident R.T.Ərdoğan 63-cü hökuməti qurmaq vəzifəsini AK Partinin baş katibi Ə. Davudoğluna tapşırdı [5, 10.07.2015].

AK Partininlideri Əhməd Davudoğlu koalisiya hökuməti qurmaq üçün digər üç partiya rəhbərləri ilə danışıqlara başladı və bu proses avqust ayının ortalarına qədər davam etdi. Mümkün koalisiya, deputat sayında üstünlük təşkil etdiyinə görə,AK Parti ilə hər hansı digər partiyanın birləşməsi nəticəsində yarana bilərdi və əsas danışıqlar bu istiqamətdə aparılırdı. İlk olaraq CHP, sonradan isə digər iki partiya ilə də danışıqlar və müzakirələr həyata keçirildi. İyulun 14-də Ə.Davudoğlu MHP baş katibi D.Bahçeli ilə koalisiya danışıqları apardı. Danışıqlar zamanı Ə.Davudoğlu "aparılan araşdırmalara görə bizə səs verənlər MHP-ni özlərinə yaxın görür və sizinlə hökumət qurmağımızı istəyirlər" [6, 16.07.2015] deyə bildirdi. Lakin sonradan MHP-nin AK Parti ilə koalisiyaya qatılmayacağı məlum oldu. Bununla belə, koalisiya üçün yaradılmış komissiya yenə də öz işinidavam etdirdi. HDP ilə aparılan danışıqlar da uğursuz oldu və onun AK Parti əleyhinə olan siyasətində dəyişiklik yarada bilmədi. Beləliklə, MHP və HDP ilə hər hansı koalisiyanın yaradılmasının qeyri-mümkünlüyü ortaya çıxdı. Bu tipli görüşlər və fikir mübadiləsi həmçinin, CHP nümayəndələri ilə aparıldı. Koalisiya yaratmaq üçün yeganə çıxış yolu CHP ilə danışıqların aparılmasında görünürdü. Danışıqlar üçün CHP 14, AK Parti isə 10 maddədən ibarət prinsiplər hazırladı [7, 22.07.2015]. İyulun 13-dən avqustun əvvəllərinədək iki partiya nümayəndələri arasında koalisiya yaradılması ilə əlaqədar müxtəlif görüşlər keçirildi. Axırıncı belə görüş Ə.Davudoğlu ilə K.Kılıçdaroğlu arasında avqustun 13-də reallaşdı. Bu görüşdən sonra keçirilən mətbuat toplantısında koalisiyanın yaradılmasının qeyri-mümkünlüyü elan edildi [4]. Bu partiyalar arasındakı fikir ayrılıqlarından ən başlıcası prezident seçkisi məsələsində idi.CHP əvvəlki sistemə qayıdaraq prezidentin məclis tərəfindən seçilməsini irəli sürürdü. Avqustun 17-də MHP lideri ilə də görüş keçirən Ə.Davudoğlu koalisiyanın yaradılmasının mümkün olmadığını müəyyən etdi və avqustun 18- də prezidentə istefa verdiyini bildirdi. Beləliklə, müxtəlif görüş və danışıqların aparılmasına baxmayaraq, ideoloji və siyasi baxımdan fikir ayrılıqlarının olması koalisiyaların təşkil edilməsini çətinləşdirdi və bu hal sonda yeni seçkilərin keçirilməsinin qərara alınması ilə nəticələndi.

Avqustun 24- də prezident R.T.Ərdoğan konstitusiyaya əsaslanaraq, Türkiyə tarixində ilk dəfə olaraq təkrar seçki keçirilməsi haqqında qərarı ictimaiyyətə bildirdi.Noyabrın 1-nə təyin olunmuş seçkilərin keçirilməsini təşkil etmək üçün yaradılacaq hökumətə rəhbərlik etmək yenidən Ə. Davudoğluna tapşırıldı. CHP və MHP hələ əvvəlcədən hökumətə daxil olmayacaqlarını bildirdiklərinə görə, hökumət AK Parti, HDP və müstəqil namizədlərdən ibarət olmaqla, avqustun 28-də fəaliyyətə başladı [7, 27.08.2015].

2015-ci il noyabrın 1-də reallaşan seçkilər AK Partinin qələbəsi ilə yekunlaşdı. Səsvermə nəticəsində AK Parti– 49.5 faiz səs toplamaqla 317, CHP – 25.3 faiz səs toplamaqla 134, MHP – 11.9 faiz səs toplamaqla 40, HDP isə 10.8 faiz səs toplamaqla 59 deputat yeri qazandılar [5, 12.11.2015; 13]. Seçicilərin bu səsvermədə iştirakı göstəricisi isə artaraq 87.6 faiz təşkil etdi.Nəticədə, Türkiyədə AK Parti növbəti dəfə böyük üstünlüklə qələbə qazandı. Noyabrın 12-də ASK tərəfindən rəsmi nəticələr elan olundu və noyabrın 17-də prezident R.T.Ərdoğan 64-cü hökuməti təşkil etməyi AK Partinin baş katibi Ə.Davudoğluna tapşırdı.Sonda noyabrın 30-da 64-cü

hökumət TBMM-in etimadını qazanaraq təşkil edildi. Beləliklə, Türkiyədə AK Partinin növbəti təkpartiyalı hakimiyyəti bərqərar oldu.

Yuxarıda qeyd edilənləri bu şəkildə ümumiləşdirmək olar ki, parlament seçkiləri yenə də müasir Türkiyə siyasi həyatının ən aktual məsələlərindən biri kimi çıxış etməkdədir. Türkiyə ictimaiyyəti hələ də öz sosial-iqtisadi və siyasi maraqlarının ifadəsi kimi seçkilərə və onun nəticələrinə etibar və böyük maraq nümayiş etdirir. Bütün bunlar isə ölkədə parlament demokratiyasının müsbət istiqamətdə inkişafına öz təsirini göstərir. Bu cəhətdən 2015- ci il seçkiləri unikal hesab oluna bilər.Həmin il Turkiyə tarixində ilk dəfə təkrar seçkilər təşkil olundu. AK Partinin uzunmüddətli təkhakimiyyəti üçün belə desək,təhlükə yarandı. Bu məsələ həm AK Partinin öz fəaliyyətini yenidən gözdən keçirməsi, həm də digər partiyaların əhali ilə münasibətləri və siyasi fəaliyyətlərini analiz etmələrinin aktual olduğunu bir daha sübuta yetirdi. AK Partinin təkrar seçkilərdə qələbə qazanaraq yenidən təkbaşına iqtidar olması müxalifət partiyalarının fəaliyyətində çatışmazlıqların olmasını ortaya çıxarsa da, qeyd edilənlər AKParti üçün də müəyyən nəticələrin çıxarılması baxımındanistiqamətverici olmalıdır.Seçkilərin nəticələri AK Partinin hələ də Türkiyə cəmiyyəti üçün güclü siyasi partiya olaraq qaldığını təsdiq etsə də, əhalinin konstitusiyaya dəyişikliklər edilməsinə birmənalı yanaşmadığınıgöstərdi. İkinci bir tərəfdən,seçkilər əhalinin koalisiyalı hakimiyyəti siyasi və iqtisadi sabitliyə təhlükə kimi dəyərləndirdiyini təsdiq etdi. Digər bir tərəfdən kürdyönümlü siyasi partiya olan HDP-nin parlamentdə təmsil olunması onların mühüm siyasi qüvvə kimi də çıxış etdiyini və əhalinin buna loyal münasibət bəslədiyini söyləməyə əsas verir. Son olaraq qeyd etmək mümkündür ki, müxalifət partiyalarından olan CHP hər iki seçkidəöz mövqeyini qoruyub saxlasa da, MHP və HDP əhalinin istəklərinə cavab verməyən və dəyişkən mövqe nümayiş etdirmələri sayəsində noyabr ayında təşkil edilən təkrar seçkidə səs faizi və deputat yerlərinin sayında xeyli azalma müşahidə olundu.

Açar sözlər: Türkiyədə seçkilər, CHP, MHP, HDP, 2015-ci il seçkiləri, təkrar seçki, parlament seçkiləri, koalisiya.

Ədəbiyyat

1. Alkan H. HDP Seçim Beyannamesinin Değerlendirilmesi // 7 Haziran 2015'e Doğru AK Parti, CHP, MHP ve HDP'nin Seçim Beyannamelerinin Deyerlendirilmesi. SDE Analiz. Ankara, Haziran 2015.
2. Aslan A. 7 Haziran'dan 1 Kasım'aTürkiye'de Siyaset ve Seçimler. SETA Analiz.İstanbul, Ekim 2015, sayı-140.
3. Çetin S. MHP Seçim Beyannamesinin Değerlendirilmesi // 7 Haziran 2015'e Doğru AK Parti, CHP, MHP ve HDP'nin Seçim Beyannamelerinin Deyerlendirilmesi. SDE Analiz. Ankara, Haziran 2015.s.19.
4. Erken seçim ne zaman?(2015 erken seçimleri) // http://www.aksam.com.tr/siyaset/erken-secim-ne-zaman-2015-erken-secimleri/haber-432082
5. Habertürk, 10.07.2015; 12.11.2015
6. Hürriyet, 20.04.2015; 16.07.2015
7. Milliyet, 22.07.2015; 27.08.2015
8. Özkan A. 7 Haziran ve 1 Kasım Seçimlerinde Siyasal İletişim.SETA Analiz. Ocak 2016, sayı 146, s17
9. Sabah gazetesi, 12.07.2015

10. Ünlü H. CHP Seçim Beyannamesinin Değerlendirilmesi // 7 Haziran 2015'e Doğru AK Parti, CHP, MHP ve HDP'nin Seçim Beyannamelerinin Deyerlendirilmesi. SDE Analiz. Ankara, Haziran 2015.
11. 1 Kasım 2015'e Doğru AK Parti, CHP, MHP ve HDP'nin Seçim Beyannamelerinin Deyerlendirilmesi. SDE Analiz. Ankara, Ekim 2015.
12. 2002'den 2015'e AK Parti'nin seçim zaferleri // www.iha.com.tr/haber-2002den-2015e-ak-partinin-secim-zaferleri-508490/
13. 122015 GenelSeçimSonuçları // www.hurriyet.com.tr/secim-2015/
14. 2015 seçimsonuçlarıaçıklandı! İşte AK Parti, CHP, MHP ve HDP sandıksonuçları //www.milliyet.com.tr/2015-secim-sonuclari-aciklandi--gundem-2072537/
15. 2015'te Türkiye. SETA. İstanbul, 2015.

ELİTAR DİL KİMLİYİNİN VERBALLAŞMA MEXANİZMLƏRİNƏ DAİR
(Böyük Britaniya və Azərbaycan qadın yazıçılarının əsərlərinin dilinin müqayisəsi əsasında)

Məmmədova Bənövşə
Azərbaycan Dillər Universiteti
benovshemamedova@yandex.ru

Dil kimliyi nəzəriyyəsinin tədqiqi çərçivəsində tədqiqatçılar "elitar dil kimliyi"anlayışının fərqləndirilməsini də məqsədəmüvafiq hesab edirlər. Məlumdur ki, tədqiqatçılar V.Y.Qoldin, O.B.Sirotinina və başqaları milli dil daxilindəki nitq mədəniyyəti formalarını aşağıdakı qruplar üzrə fərqləndirirlər: 1) elitar; 2) orta-ədəbi; 3) ədəbi-məişət (ədəbi-jarqonlaşmış); 4) familyar-danışıq nitq mədəniyyəti növləri [1, s.102]. Elitar dil kimliyi dedikdə, cəmiyyət həyatında ön mövqelərdə olan, bu və ya digər toplumun intelektual maariflənməsində, onun incəsənət və mədəniyyətinin inkişafında, habelə sosial-siyasi həyatında mühüm rol oynamış şəxslərin danışıq dilinin, yəni gündəlik yazılı və şifahi nitqindən başlayaraq, bədii və elmi əsərlərinin, ictimai çıxış və publisitik yazılarının dilinəqədər geniş "refleksiya reallaşma sahəsi" nəzərdə tutulur. Elitar dil kimliyi bilavasitə cəmiyyət flaqmanı olan həmin şəxsin prefessional maraq dairəsinin təsirilə formalaşır. Yəni siyasətçi siyasi sahədə, yazar və şair ədəbi təhkiyə formatında ifadə tapan təkrarsız bacarıq və istedadı vəyüksək səviyyəli professionallığı ilə "elitarlıq" ünvanı qazanır. Bu səbəbdən də, həmin şəxsə bu ünvanı qazandırmış fəaliyyət sahəsi və maraq dairələrinin də onun elitar dil kimliyinə təsir etməməsi mümkünsüzdür. Bu mənada təqdim olunan məruzədə müqayisəli şəkildə tədqiq ediləcək A.S.Byattın və Afaq Məsud publisitikasında da onların fəaliyyət sahələri ilə bağlı olan terminologiyanın, konseptsferanın və s. əlaqəli verbal reallaşma mexanizmlərinin öz əksini tapması tam məntiqəmüvafiqdir.

"Professional diskursda elitar dil kimliyi" problemini araşdırmış M.S.Silantyevanın da qeyd etdiyi kimi, məhz terminlərin çəkisi, onların işlənmə mövqeləri, onların definisiya ilə bağlı şəraitlər elitar dil kimliyinin prof-oriyentasiyasının (professional yönləndirməsi) bəlirləşdirən ən vacib faktorlardan sayıla bilər [2, s.14-17]. İstər dilçiliyin, istərsə də ədəbiyyat və ədəbiyyatşünaslığın "xammalının" söz olması baxımından [3; 11], heç də təsadüfi deyil ki, yazarlar öz dil kimliyinin ifadə resursları məsələsinə yetərincə həssaslıqla yanaşırlar. Bu məqama diqqət ayıran A.S.Bayett özpublisistik məqalələrindən birində yazır: "*What goes on in our minds when we think about using language? When we use language to write? I find I increasingly notice the language I am using as*

well as what I am trying to say or describe" [4]. Yazıçının publisitik məqalələrində nümayiş etdirdiyi elitar dil kimliyi (məqalənin əsas mövzusundan asılı olmayaraq) onun professional yazar kimi,dil kimliyinin "möhürünü" əks etdirir. Belə ki, yazarın məqalələri intertektual "pərçimlənmələr", sitatlar, kvazisitatlar, müvafiq presedent fenomen və onim xatırlatmaları "yüklüdür". Eləcə də bu kiçik formatlı əsərlərədəbiyyat, ümumilikdə filologiya ilə bağlı terminloji inventar zənginliyi ilə seçilir. Məsələn, A.S.Bayettin digər məqaləsində XIX əsər ingilis qadın şairəsi və rəssamı **Christina Rossetti**, XVI-XVII əsər ingiilis şair və mütəfəkkiri **John Donne** və bir çox başqalarının əsərlərindən geniş sitatlardan istifadə edilir, **Gilbert White, Alexandra Harris** və b. alimlərin mülahizələrinə dolayı "göndərmələr"ə yer verilir [5]. Məqalə müəllifinin elitar dil kimliyini sübuta yetirən digər faktlar sırasında məqalədə **affective disorder**, **industrial climate,myth-making,reflections,idiosyncrasy**və s. bu kimi terminlərə geniş yer verirlməsini də xüsusilə qeyd etmək olar. O da maraqlıdır ki, müəllif qeyri-elitar dil kimliyinə malik oxucusunun həmin terminlərin yozumunda çətinlik çəkməməsi üçün, orta statistik Britaniyalı üçün qəliz gələ biləcək istilahların açılışını da təqdim edir (*I knew I had seasonal* ***affective disorder (Sad)*** *long before that condition was so aptly named*.). Məqalədə "**A Nocturnal Upon St Lucy's Day, Being the Shortest Day", "The Natural History of Selborne", "Far from the Madding Crowd", "Party Going**" və s. bu kimi çox sayda ideonimlərə təsadüf edilir. Onu da qeyd edək ki, elitar dil kimliyinin publisistik diskursda təzahür formatlarını dəyərləndirmiş A.Aşeva bu qəbildən mətnlər üçün "sitatların, presedent mətnlərin, presedent adların xatırladılmasının, habelə, allyuziv plan yaradan təhkiyə situasiyalarına" yer verilməsinin xarakterik olduğunu vurğulamışdır [6]. Müqayisə üçün deyək ki, müasir Azərbaycan yazıçısı Afaq Məsudun "ŞƏFFAF TEATR, yaxud böyük sirrin o üzündə" [7] məqaləsində də terminoloji rəngarənglik, presedent onim və ideonimlərin çoxsaylı istifadəsi müşahidə edilir. Məsələn: **intelektual qavrayış, intellektual maarifçilik, parapsixoloq, şüuraltı proseslər** və s. bu kimi terminlər; sitatlar (məs.; *Məşhur «Teatr - asılqandan başlayır» ifadəsi burda bütövlüklə öz əksini tapır*.); presedent adlar ("*M.Füzulinin, U.Şekspirin, Firdovsinin, C.Məmmədquluzadənin, Xətainin, M.Ə.Sabirin, A.Çexovun, S.Ekzüperinin, F.Kafkanın, S.Bekketin, R.Desnosun və digərlərinin əsərləri..." ; «Dekameron», H.Cavid, «Divanə*») və s. Maraqlıdır ki, teatr tənqidinə həsr olunmuş məqalədə 36 dəfə "Teatr", 28 dəfə "tamaşa" terminlərindən istifadə edildiyi halda, 6 dəfə "ədəbiyyat"; 16 dəfə "əsər" istilahına yer verilmişdir. Müəllifin professional kimliyini ortaya qoyan ifadələr sırasında ziddiyyətə əsaslanan və ya qeyri-adi analogiyalara istinad edənaşağıdakı söz birləşmə və cümlələri qeyd etmək olar: ***təkəbbürlü pafos bataqlığı***, *İlk baxışda* ***miniatür, kiçik*** *təsiri bağışlayan bu teatr ...* ***böyük*** *işlər görür*.; *«Yuğ» ...* ***fərqli, şəffaf*** *bir atmosferə - ..****qəribə,izaholunmaz bir bakirəliyə*** *malikdir*.Göründüyü kimi, elitar dil kimliyinin reallaşma mexanzimləri öz spesifikliyi ilə digər səviyyəli dil şəxsiyyətlərinin analoji strategiyalarından əsaslı şəkildə fərqlənir.

Açar sözlər: dil kimliyi və elitarlıq, A.S.Bayett, Afaq Məsud, publisitikanın dili.

Ədəbiyyat

1. Курьянович А.В. Элитарная языковая личность: опыт моделирования, Вестник науки Сибири. 2014. № 3 (13), с.100-110.
2. Силантьева М.С. Элитарная языковая личность в профессиональном дискурсе, автореферат диссер.канд.филол.наук, Пермь, 2012, 23 с.
3. Babayev A. Dilçiliyə giriş,Bakı: "Maarif", 1992, 504 s.

4. Byatt A.S. Beatrix Potter and the beginnings of my need to be a writer // The Guardian, 17 Dec 2016.
5. Byatt A.S.Weatherland by Alexandra Harris review – are seasons and colours the same for all readers? // The Guardian, 30 Sep., 2015.
6. Ашева А.А. Элитарная языковая личность в публицистическом дискурсе, автореферат диссер.канд.филол.наук., Майкоп, 2013.
7. Məsud A. Şəffaf Teatr, yaxud böyük sirrin o üzündə https://www.afaqmesud.az/az/posts/id:403

BİOLOGİYANIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN YARADICI TƏFƏKKÜRÜNÜN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Məmmədova Günel
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya.tt.kaf@adpu.edu.az

Hazırda ümumdünya təhsilinin, o cümlədən ölkəmizdə təhsilin inkişafının əsas göstəricilərindən biri təhsilalanların yaradıcı təfəkkürə malik olmasıdır.Problem ümumtəhsil məktəb fənlərinin tədrisində öz həllini tapmalıdır. Bu baxımdan problemin həlli biologiyanın tədrisi qarşısına mühüm vəzifələr qoyulur.

Müəllim tədris prosesində şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirmək üçün ona təsir edən amilləri nəzərə almalı, onlara əsaslanmalıdır. Fənlərin tədrisində şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirən amillərdən biri və ən başlıcası tətbiq olunan üsul metod, texnika və təşkil formalarıdır. Belə ki, yaradıcı təfəkkürün inkişafında əqli hücum, müşahidə, Venn diaqramı, tədqiqat, təqdimat, layihə, təcrübə, təlim xarakterli rollu və əyləncəli oyunlar kimi üsul və metodların tətbiqi daha faydalıdır. Adı çəkilən metodların tətbiqi şagirdlərin mövzuları daha dərindən mənimsəmələrinə, onları asan dərk etmələrinə, beləliklə, yaradıcı təfəkkürlərinin inkişafını təmin edir. Müəllimlər biologiyanın tədrisində həmin metodların tətbiqinə üstünlük verməlidirlər.

Şagirdlərin yaradıcı təfəkkürünün dərslərdə təşkil edilən qruplarla iş formalarında inkişaf etdirilməsinə geniş imkanlar açılır. Belə ki, qrupla iş formasında şagirdlərarası ünsiyyət, əməkdaşlıq yaranır. Onların biliklərinin digərlərinə ötürülməsi işi asanlaşır. Qrup işində aparılan tədqiqat işləri şagirdlərdən yaradıcı təfəkkürü işə salmağı tələb edir. Obyekt və hadisələrin quruluşunun, orada gedən bioloji proseslərin təcrübələrin, laboratoriya işlərinin, müşahidə və praktik fəaliyyətlərin, təşkili, layihə, təqdimatların hazırlanması ilə öyrədilməsi şagirdlərdə yaradıcı təfəkkürün inkişafına zəmin yaradır.

Şagirdlərin yaradıcı təfəkkürünü inkişaf etdirən amillərdən biri onların müstəqil işləri yerinə yetirməsidir. Şagirdlərin müstəqil işlərinə proqram və dərsliklərdə işlənilməsi tələb olunan, aktual mövzularda esse, təqdimat, müxtəlif əsərlərin, eksponatların, layihələrin işlənilməsi, olimpiada və müsabiqələrdə iştirak etmələridir. Müəllim biologiyadan zəngin bilik və bacarıqlara yiyələnmiş şagirdləri seçir. Onları yaradıcılığa yönəlmiş tapşırıqların həllinə cəlb edir. Onlarla müntəzəm olaraq disput, müzakirə, debat, rollu və əyləncəli oyunlar təşkil edir. Bu sahədə şagirdlərin müstəqilliyinə diqqət artırılır.

Şagirdlərin biologiyadan əyani vəsaitlərin (herbari, kolleksiya, modellər, mulyaj, müqəvva, qrafik, cədvəl, tablo, slayd, kartoçka və s.) hazırlanmasında iştirakının təmin edilməsi də yaradıcı təfəkkürün inkişafına müsbət təsir göstərir.

Şagirdlərin yaradıcı təfəkküründü inkişaf etdirən müsbət amillərdən biri sinifdənkənar tədbirlərin təşkilidir. Onlar məktəblərdə "Sabahın alimləri", "Kiçik Akademiya", "Hazırcavablar klubu" kimi müsabiqə-layihələr kimi təşkil olunur və istedadlı şagirdlər cəlb edilir. Müxtəlif fəaliyyətləri yerinə yetirməklə onlarda yaradıcı təfəkkür müntəzəm inkişaf etdirilir.

Müəllim bütün göstərilən amillərdən istifadə etməklə şagirdlərin yaradıcı təfəkküründü müntəzəm olaraq inkişaf etdirməlidir.

Açar sözlər: yaradıcı təfəkkür, biologiya, müstəqil iş, təqdimat, layihə, müsabiqə, debat.

Ədəbiyyat

1. Hüseynov Ə.M., Babayev M.Ş., Məhərrəmov Ə.M. Biologiya tədrisinin ümumi metodikası. Bakı, 2003, 138 s.
2. Məmmədova G.Ə. "Biologiyanın tədrisində layihələr metodunun tətbiqi ilə şagirdlərin yaradıcı təfəkküründün inkişaf etdirilməsi". Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Elmi əsərləri, cild 85, № 5, Bakı, 2018. s.186-189.
3. Məmmədova G.Ə. "Развитие творческого мышления у учащихся при преподаваниибиологии в общеоб-разовательной школе". Міністерство освіти і науки україни. Херсонський Держав-ний Университет. Збірник Наукових Праць, Педагогічні Науки. Випуск LXXXI. Том 1. Херсон, 2018. s.67-70-125

MƏSUDİ DÖVRANIN POEMALARINDAKI FOLKLOR ÖRNƏKLƏRİ

Məmmədova Nərmin
Lənkəran Dövlət Universiteti
ele.eliyev@gmail.com

Məsudi Dövran yaradıcılığını tədqiq edərkən xalq ruhunu daha çox hiss edirik. Məsudi Dövranı oxucuya yaxın edən ən böyük dəyərlərdən biri də məhz elə budur. Onun yaradıcılığında şahid olduğumuz xalq təfəkküründən süzülüb gələn deyimlər - atalar sözləri, bayatılar, ağılar oxşamalardan kifayət qədər bəhrələndiyinin şahidi oluruq.Belə ki, ədib yaradıcılığında daha çox şifahi xalq ədəbiyyatımızdan ilhamlanaraq onun həm forma biçimlərindən istifadə etmiş, həm də məzmunca xalq ədəbiyyatımızın ideyalarından qaynaqlanaraq öz misralarına bu ideyaları yansıtmağı bacarmışdır.

Məsudi Dövranın poemalarında folklor örnəkləri ilə daha çox qarşılaşırıq. Onun "Nüşravan" və "Təkatlı Kərimxan" poemaları buna bariz nümunədir.Apardığımız araşdırmalar zamanı Məsudi Dövranın "Nüşravan" poemasında strukturturca bayatıya, məzmunca isə ağıya bənzəyən şeirlərlə də qarşılaşırıq. Məlumdur ki, "ağılar folkorun ən qədim janrlarındandır. Bu janrı bayatılardan məzmun spesifikliyi fərqləndirir. Ağılarda həm kədər, ələm və fəryad, həm də ictimai - siyasi quruluşun və zülmün doğurduğu qüssə və şikayət təsvir olunur; fəryadın, hiss və duyğuların kədərə bürünməsi görünür, fikir və düşüncələr ümumiləşir" [1, s.251]. Belə ki, poemanın mövzusu tarixdən qaynaqlanan, bir çox padşahlar haqqında söylənilən əfasanələri, rəvayətləri belə özündə ehtiva

edən əvvəli və sonluğunda verilən ağı nümunələri onu sanki yazılı və müəllifli ədəbi nümunə sırasından çıxardaraq folkor nümunələri sırasına qoyur. Poemanın əvvəlində ədibin qələmə aldığı:

A dağlar, ulu dağlar
Daşları sulu dağlar.
Qoynunda igid yatıb
Gücüdür qulu dağlar. [3, s.265]

ağısı eyni ilə folklorda qarşılaşdığımız aşağıdakı ağı ilə eyni forma və məzmuna malikidir:

Bu dağlar, ulu dağlar,
Çeşməli sulu dağlar.
Burda bir qərib ölmüş,
Göy kişnər bulud ağlar.

Ədib bu poemasında eyni zamanda bayatılardan da istifadə etmişdir.Məlumdur ki, bayatı folklorumuzun ən qədim janrlarından biridir. Ədəbiyyatşünas alim Nizaməddin Şəmsizadə haqlı olaraq bayatı haqqında deyir: "Bayatı türk xalq şeirinin ən geniş yayılmış qədim formalarından biridir. Onu çöllərdə, səhralarda çağırılan el şeiri hesab etmək olar. Bayatı qədim türkün – cahan, zaman, ədalət, inam, kədər və ən başlıcası vətən və sevgi haqqında bədii - fəlsəfi nəğməsidir." [4, s.182] Məlumdur ki, "yeddi hecalı dörd misralı bir bəndlik bu şeir həm hikmət dolu fəlsəfi məzmunu, həm mövzu əlvanlığı, həm də poetik gözəlliyi ilə insanı heyran edir, onu yaradan və ağızdan - ağıza yaşadan xalqın dühası haqqında möhtəşəm təsəvvür yaradır." [4, s.183] Məsudi Dövran da bayatıların bu incəliklərindən məharətlə istifadə etməyi bacarmışdır:

Əzizinəm qolum var.
Həm sağım var, solum var.
İndi bildim ay bala
Səntək igid oğlum var. [3, s.285]

Ədibin "Təkatlı Kərimxan" poeması real hadisələrdən götürülmüşdür. Belə ki, Kərimxan "Qaramal başı" kəsməyən nəsildəndir. Onun atası Marağalı alim Şeyx Məhəmməd olmuşdur. Təkatlı Kərimxanın özünün Ərdəbildə və Savalan dağının ətəklərində malikanəsi olmuşdur. Məzarı Cənubi Azərbaycanın Savalan dağının yaxınlığında, bağlı-bağatlı, sıx meşəsi olan "Varanov" kəndin məzarlığındadır. O, həmişə zülmkarlara qarşı mübarizə aparmışdır və xalq da öz qəhrəmanına "Təkatlı" ləqəbin vermişdir. Ucaboylu, enlikürəkli, gözəl səsi olan şəxs elə ədibin üçüncü Ulu babasıdır. Poema oxucuda "Koroğlu" dastanının təəssüratını oyadır. Bu da Məsudi Dövranın folkora olan dərin məhəbbətindən irəli gəlir. Poemada Koroğlunun, Qıratın, Çənlibelin adı tez –tez çəkilir:

Sanki elə buyumuş Koroğlunun Qıratı,
Hələ kişnək çəkəndə büsatı var, büsatı!
Palıd gövdəli qoca sahibidir köhlənin,
Ürəyindən səs gəlir: Bir yaxın get, danış, din. [2, s.261]

Məsudi DövranTəkatlı Kərimxanın etdiklərini Koroğlu ilə müqayisə edir. Belə ki, ədib poemada Kərimxanın haqq divanı qurduğu qalasını Koroğlunun Çənlibelinə bənzədir:

Döndərdi Çənlibelə bu qalanı Təkatlı,
Könlü gözü havalı, atı şimşək qanadlı.
Neçə zülmkar başı burda düşdü boynundan,
İlanlar haya çıxdı viranənin qoynundan. [2, s.265]

Poemada Kərimxanın Koroğlu kimi nərə çəkməsi, ədalət çarçısı olması onu real qəhrəmandan çox əfasanəvi bir qəhrəmana çevirir:

Uçurumun başında at üstündə Kərimxan,
Bir kərə nərə çəkdi dedi: - "Yetişdi zaman,
Bağrı yarılmış dağım, budur mənim məzarım,
Ədalətdir dünyada qalan, dövlətim, varım!" [2, s.266]

Apardığımız araşdırmalar zamanı Məsudi Dövranın poemalarında həm formaca, həm də məzmunca foklor nümunələrindən kifayət qədər istifadə etdiyinin şahidi oluruq. Bu ədibin şifahi xalq ədəbiyyatına olan sonsuz sevgi və bağlılığının əsas göstəricilərindən biridir. Məsudi Dövranın şeirləri kimi poemalarının da ayrıca olaraq geniş tədqiqata ehtiyacı vardır.

Açar sözlər: Lənkəran ədəbi mühiti, Məsudi Dövran,poema janrı, xalq ruhu, folklor.

Ədəbiyyat

1. Haciyev A. Ədəbiyyatşünaslığın əsasları. Bakı, 2015, ADPU nəşriyyatı, 367 səh.
2. Məsudi Dövran "Qəfildən gələn səda". Bakı: "Elm və təhsil", 2018,280 səh.
3. Məsud Dövran "Ümidlə inama doğru gedən yol". Bakı: Elm və Təhsil, 2011, 289 səh.
4. Şəmsizadə N. Ədəbiyyat nəzəriyyəsi. Bakı "Proqres " nəşriyyatı , 2012, 434 səh.

ONLAYN ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ "TƏKRAR ÖDƏNİŞ" SƏHVİNİN QARŞISININ ALINMASININ BİR ÜSULU HAQQINDA

Məmmədova Nigar
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
sevda-ton@mail.ru

Terminallarda həyata keçirilən ödənişlər zamanı baş verən texniki qüsurlar informasiya idarəetmə sistemlərində ödəniş məlumatının təkrar saxlanması və emalına səbəb olur. Ödəniş terminalları idarəetmə sistemi ilə abonent xidmət sistemi proqram təminatı arasında informasiya mübadiləsi ikinci tərəfdəki məlumatın oxunması və ödəniş əməliyyatından sonra məlumatın daxil olunmasından ibarətdir. Bəzən terminallarda ödəmə zamanı baş verən sistem xətaları səbəbindən eyni nömrəli tranzaksiya məlumatları ikinci tərəfin verilənlər bazasındakı müvafiq cədvələ təkrar daxil olur və avtomatik borc hesablanması ilə nəticələnir. Sonradan əlavə sistem resursları tələb edən korrektəedici prosedurların çalışması ilə bu problem aradan qaldırılır.

Təklif olunan həll üsulu *"instead of"* tipli trigerin ikinci tərəf ödəniş cədvəlində istfadə olunmasına əsaslanır. Həmin triger işə düşüb ödənişin daxil edilməsi əməliyyatının qarşısını alaraq, tranzaksiya nömrəsini cədvəldə yoxlayır və unikallıq şərti ödənərsə "insert" əməliyyatını icra edir. Bu zaman əlavə server resurslarının sərf olunmasına gətirən "*rolback tranzaction*" və əlavə borc hesabat əməliyyatlarının aparılmasına ehtiyac tam aradan qaldırılmış olur.

Açar sözlər: verilənlərin emalı, trigger, onlayn ödəniş sitemi.

Ədəbiyyat

1. SQL Server INSTEAD OF Trigger http://www.sqlservertutorial.net/sql-server-triggers/sql-server-instead-of-trigger/
2. Как работает платежный терминал https://www.avtomaty.ru/business/how-works

3. Bob Beauchemin, Niels Berglund, Dan Sullivan, First Look at SQL Server 2005 for Developers, Published by Addison-Wesley Professional. Part of the Microsoft Windows Development Series series.

XIX ƏSRİN 20-30- cu İLLƏRİNDƏ MÜSƏLMAN TƏBƏQƏSİNİN SOSİAL-SİYASİ STATUSU HAQQINDA

Məmmədova Roza
Azərbaycan Universiteti
roza19961234@gmail.com

1828-ci ildə Rusiya ilə Qacarlar dövləti arasında Türkmənçay müqaviləsinin bağlanması ilə Azərbaycanın bölünməsi və işğalı qəti başa çatdı.Qafqazda müstəmləkəçilik idarə sisteminin tam bərqərar olunması üçün inzibati, sosial, mülki dəyişiklikləri zəruri idi.İşğal ərəfəsində Azərbaycanda sosial zümrənin yuxarı təbəqəsini ağa və bəylər təşkil edirdi. Ali müsəlman təbəqəsini təşkil edən ağa və bəylərin Rusiyaya münasibəti birmənalı deyildi:bir qrup çarizmə sədaqətlə ximət etmək yolunu tutdu; ikinci qrup açıqca işğalçı rejimə qarşı çıxdı; üçüncü qrup isə gözləmə mövqeyində durub ehtiyyatlı siyasət yeridirdi.Cənubi Qafqazın işğalı dövründə idarəçilikdə yerli hakimlər söz sahibi olaraq qalırdı.Zorla, silah gücünə tutulmuş ərazilərdə əvvəllər olmayan qaydaların tətbiq olunması, üsyan və qiyamlarla qarşılanırdı. Bu baxımdan çarizmin hakimiyyətə tam nəzarət etmək istəyi onu yerli feodalların sosial iqtisadi statusunu öyrənməyə məcbur etdi [1, s.23-24].

İşğaldan sonra çarizmin diqqəti 2 mühüm məsələ yönəlmişdi:birinci növbədə inzibati dəyişiklik edib, Qafqazı Rusiyanın xammalistehsalı mərkəzinə çevirmək; ikincisi çar hökümətinəyerli ali zümrədən dəstəkçi tapmaq. Bununla bağlı olaraq çar hökümməti yerli bəy və ağaların sosial-silki hüquqlarını araşdırmağa başladı. İlk belə addım 1828-ci ildə çarın tapşırığı əsasında qraf Paskeviçin "Zaqafqaziya müsəlman əyalətlərinin qurulması üzrə komitə"yə tapşırığı idi. Bu komitənin ali müsəlman təbəqəsi haqqında topladığı məlumatlar 1835-ci ildə hazırlanan 2 arayış üçün mənbə oldu.

1830-cu ildə "Qafqaz arxasında kameral sayımı keçirilməsi haqqında qaydalar" bəy və ağaların silki-sosial imtiyazlarını müəyyənləşdirmək məqsədi güdürdü. Bu siyahıyaalmanın nəticələrinə görə, Quba əyalətində 201, Lənkəran əyalətində 69,4, Bakı əyalətində 72, Şirvan əyalətində 262 bəy aləsi yaşayırdı [4, s.658]. Ancaq bu tip məlumatları toplayan inzibati orqanlar ali silkin sosial-silki hüquqlarını tam müəyyənləşdirə bilmədi. İşğaldan sonra Rusiyanın Şimali Azərbaycanda olan feodallara münasibəti nisbətən daha ehtiyyatlı xətt idi. Çarizm yaxşı başa düşürdü ki, ali silki öz tərəfinə çəkməmiş müstəmləkə siyasəti uğurlu alınmayacaq. Buna görə də 1829-1830-cu illərində Qafqazda yerli şəraiti, idarəçiliyi öyrənmək üçün gəlmiş P.İ Kutaysov, Y.İ.Meçnikov və Paskeviç çara burada rus zadəganlığının yaradılmasını təklif edirdi [1, s.23-25]. Bu layihədə yerli ağa və bəylərin sosial-silki hüquqlarının məhdudlaşdırılması, üstünlüyün xristian nümayəndələrə verilməsi nəzərdə tutulurdu. Bu layihənin gerçəkləşməsi ali müsəlman təbəqəsinin məhvinə yönəlmişdi və müqavimətsiz həlli mümkün deyildi. Ona görə də sonrakı dövrdə birinci layihəyə oxşar və bir az da daha "yumşaq" layihə - təbii müsəlman zadəganlığının yaradılması ideyası irəli sürüldü. Bu layihə Rusiyaya sədaqətli mövqe ifadə edən azərbaycanlı feodalların dövlət xidməti orqanlarına cəlb olunmasını nəzərdə tuturdu. Nisbətən ehtiyyatlı davranan və ya çarizmə qarşı mübarizəni davam etdirən bəy və ağalara qarşı sərt mövqe nümayiş etdirilirdi.XIX

əsrin 30-cu illərində çarizm müsəlman və xristianlar zadəganlarla bağlı fərqli siyasət yeridirdi. Müsəlman zadəganlığına verilən imtiyazlar erməni və gürcü feodallarına verilən hüquq və imtiyazlardan dəfələrlə az idi. Ali müsəlman təbəqəsinin xüsusi mülkiyyətinin irsən keçməsi məsələsi tam müəyyən olunmamışdı və mübahisəli olaraq qalırdı.

1830-cu illərin əvvəllinə aid olan digər layihələrdə yerli müsəlman feodalların hüquqları ya tam şəkildə məhdudlaşdırılır, ya da tam ləğv edilməsi nəzərdə tutulurdu.Çarizm yerli feodalların silki hüquqlarını tanımaq istəmir, ən yaxşı halda onlardan dövlət xidmətində olan məmur kimi faydalanmaq istəyirdi. Bunun nəticəsində, bir sıra feodallar bəy hüququndan məhrum oldu və hüquq və imtiyazlarını varislərinəirsi ötürmək hüququnu itirdi [3, s.60-65].

Çar I Nikolay imzaladığı1830-cu il 13 iyun tarixli qanunda yerli feodollara ilk dəfə daha yumşaq siyasətin aparılmasının şahidi oluruq. Bu sənəddə hökümətin əsl məqsədi ali müsəlman silkinin çarizmə münasibətini öyrənmək idi. Bir vaxtlar "xəyanətkar" statusu qazanan, qaçan, sürgün olan feodallara və yaxud varislərinə mülklərinin qaytarılması üçün şərait yaradılırdı. Qanunun mahiyyəti küsmüş, qisas mövqeyində duran feodalları hökümətə geri qaytarmaq, onlardan güc sktrukturu kimi yararlanmaq məqsədi güdülürdü. Ancaq çarın bu fərmanı bəzi yerlərdə gec tətbiq edildi, bəzi yerlərdə qəsdən həyata keçirilmədi. Məsələn, Şamaxı xanı Mustafa xan öz torpaqlarına qayıda bilmədi və onun əmlakı qaytarılmadı.13 iyun qanunu Cənubi Qafqazda qismən sakitlik yaratdı, icrası isə 1837-ci ilə qədər davam etdi. Bu da 40-cı illərdə yenidən köklü şəkildə dəyişikliyi, Qafqazda ali silklə hökümət arasındakı münasibətləri yeni müstəvidə qurmağı zəruri edirdi.

Açar sözlər: ali müsəlman silki, çarizm, təbbi müsəlman zadəganlığı, təbii rus zadəganlığı

Ədəbiyyat

1. Azərbaycan tarixi üzrə qaynaqlar, Bakı,1969
2. Azərbaycan Tarixi, II cild, Bakı, 2007
3. Abdullayev M. Q. Xanlıqlar və rus müstəmləkəçiliyi dövründə Şimali Azərbaycanda aqrar münasibətlər (XIX əsrin 40-cı illərinə qədər). Bakı, 2005
4. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər) Bakı, 2009.

MƏİŞƏT ZORAKILIĞI CƏMİYYƏT VƏ DÖVLƏTİN ORTAQ PROBLEMİ KİMİ

Məmmədova Səcdə
Azərbaycan Universiteti
memmedova.sejde@bk.ru

Məişət zorakılığı cəmiyyətin və dövlətin ən çətin həll olunan problemlərindən biridir. Ekspertlər qeyd edirlər ki, məişət zorakılığı geniş vüsət almış, və bu zəmində baş verən cinayətlərin sayı artmışdır. Məişət zorakılığı qəbul edilməz və dözülməz haldır. Belə halları pisləmək kifayət deyil, bu halların qarşısının alınması üçün təsirli tədbirlər görülməsinə və strategiya dəyişikliyinə ehtiyyac vardır. Zorakılığın gizlədilməsi insan haqqlarının pozulması hesab edilir. Sağlam cəmiyyətin formalaşmasına zorakılıqlar bir başa mənfi təsir göstərir. Məişət zorakılığını bir norma

deyil, cinayət olduğunu hər kəs qəbul etsə cəmiyyətdə bu halların qarşısının alınması bir o qədər sürətli olar.

Məişət zorakılığı-yaxın qohumluq münasibətlərindən, birgə və ya əvəllər bir yerdə yaşamaqlarından sui istifadə etməklə şəxslərdən birinin digərinə qəsdən fiziki və ya mənəvi zərər vurmasıdır.

Məişət zəmnində baş verən zorakılıqların növləri vardır ki, onlar aşağıdakılardan ibarətdir:

- Məişət zəmnində fiziki zorakılıq-qarşı tərəfə fiziki cəhətdən zərər toxunması deməkdir. Qəsdən təzyiq göstərmə, zor tətbiq edilməklə təhlükəsizliyin pozulması, sağlamlığa qəsdən ziyan vurma (döymə, təpikləmə, şillə vurma, bədəndə müxtəlif xəsarətlərə yol açma).
- Məişət zəmnində psixi zorakılıq-birinin digərinə qəsdən psixi təzyiq göstərməsi və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərdir. İnsan psixikasının pozulmasına, hətta ölümlə nəticələnə bilər.
- Məişət zəmnində mənəvi zorakılıq-qarşı tərəfin daxili dünyasının dağılması, mənəvi cəhətdən zərər çəkməsi aiddir.
- Məişət zəmnində iqtisadi zorakılıq-qarşı tərəfin iqtisadi və maddi imkanlarına zərər vurulması nəzərdə tutulur. Şəxslərin birinin digərini onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum etməsinə, iqtisadi asılılıq yaratmasına, belə asılılığı saxlamasına və ya ondan sui-istifadə etməsinə yönəlmiş hərəkətləridir.
- Məişət zəminində cinsi zorakılıq-qarşı tərəfin razılığı olmadan onu cinsi əlaqəyə təhrik etməkdir.

Bu zorakılıqların baş verməsinin əsas səbəblərindən biri, zorakılığa məruz qalmış şəxslərin öz hüquqlarını bilməməsi və hüquqlarına laqeyd yanaşmalarıdır. Zorakılığa qarşı qadın hüquqlarının tapdanması ilə bağlı bir çox hüquqlar mövcuddur. "1979-cu ildə BMT qadınlara qarşı zorakılığın aradan qaldırılması, hər cür ayrı-seçkiliyin aradan qaldırılmasına aid Konvensiya qəbul etmişdir. 1981-ci ildə bu Konvensiyaya 21 ölkə qoşulmuşdur. Bu günə kimi isə 181 ölkə bu konvensiyaya daxil olmuşdur. 1995-ci ildə isə Azərbaycan bu Konvensiyaya ratifikasiya olunmuşdur. Bu Konvensiya 30 maddədən ibarətdir ki, bunun da 10 maddəsi qadın hüquqlarına aiddir" [1].

Qadın və kişi arasında bərabər olmayan qüvvələr münasibətinin təzahür formasıdır ki, bu da qadınlar üzərində hökmranlığa gətirir. Münasibətlərdəki hökmranlıq isə mütləq daha zəif tərəf (ələlxüsus da iqtisadi) sayılan qadının kişi tərəfindən diskriminasiyası ilə nəticələnir. Qadınların güzəranının ağırlığı, onların kişilərdən asılı münasibətdə olması zorakılıqda əsas sosial mexanizm qismində iştirak edir. Məişət zorakılığını törədən şəxs hər hansı bir nəzarət funksiyasını yerinə yetirmək üçün fiziki şiddət üsulundan istifadə edir. Və bu davranış forması "kişi cinsiyyətli, haqqı çatmaq təsəvvürüdür, yəni kişilərə qadınlara nisbətən daha çox haqq qazandıran patriarxal strukturunun xüsusiyyətidir"(Bush və b, 2002, 1995) [2].

Qadınlara qarşı zorakılıq xüsusən keçmiş patriarxal adət-ənənələrin qaldığı, üstünlük təşkil etdiyi regionlarda daha qabarıq şəkildə müşahidə olunur.

Qeyd olunanlardan əlavə olaraq, "22 iyun 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Həmin Qanun məişət zorakılığının qurbanı olan şəxslərin sosial və hüquqi müdafiəsi, eləcə də məişət zorakılığının qarşısının alınması istiqamətində tədbirlərin gücləndirilməsini nəzərdə tutur" [3].

Ailədaxili zorakılıq – geniş yayılmış cinayətdir. Digər cinayətlər kimi ailədaxili zorakılıq hadisələrini dəqiq müəyyən etmək çətindir. Tədqiqatlar göstərir ki, cinayət səviyyəsində baş verən hadisələr bütün nikahların 20-40%-ni təşkil edir. Zorakılıq irqindən, təhsil səviyyəsindən, əhatə edən cəmiyyətdən asılı olmayaraq, istənilən ictimai–iqtisadi təbəqədən olan ailələrdə müşahidə

edilir. Təxminən 40%-ə yaxın kişilər müəyyən anda öz həyat yoldaşlarına qarşı zorakılıq tətbiq edə bilərlər. Qanun məişət zorakılığına yol vermiş şəxslərin Cinayət məcəlləsində nəzərdə tutulmuş cinayətlərə uyğun cəzalandırılmasını nəzərdə tutur [4].

Belə nəticəyə gəlmək olar ki, məişət zorakılığı bir intim partnyorun digəri üzərində nəzarətini həyata keçirmək üçün işlətdiyi davranışlar toplusudur. Bəzən yanlış olaraq məişət zorakılığı baş verən zaman günahın qurbanda olduğu düşünülür və zorakılığı törədən şəxsə bəraət qazandırılır. Lakin bunlar heç bir halda bir partnyorun digərinə qarşı zorakılıq törətməsinə haqq vermir.

Digər cinayət hallarında stressli, içkili olmaq güzəşt sayılmadığı kimi məişət zorakılığındada heç bir halda zorakılığ törədən şəxsə haqq qazandırılmamalıdır. Zorakılığın qarşısının alınması üçün, zorakılığla üzləşmiş qurbanların problemlərinin həllində, zorakı şəxslərin cəzalandırılmasında dövlətin bir başa iştirakı qaçılmazdır. Bütün ölkə üzrə məişət zorakılığı hallarının qarşısının alınması işlərində məişət zorakılığı haqqında hüquq mühafizə orqanlarının təlimatlandırılması, zorakılığa məruz qalmış və zorakılığ törətmiş şəxslə işin aparılmasında bilik və bacarıqlarının artırılması, yeni sığınacaqların salınması və bu sığınacaqların psixoloq, vəkillər kimi insan resursları ilə təmin edilməsində dövlətin bilavasitə dəstəyi və ya münbit şərait yaratması lazımdır.

Açar sözlər: Məişət zorakılığı, qadın hüquqlarının tapdalanması, məişət zorakılığına məruz qalmış şəxslərin dövlət tərəfindən mühavizəsi, məişət zorakılığını törədən şəxslər.

Ədəbiyyat

1. “Qadınlara qarşı zorakılığın aradan qaldırılması”haqda Konvensiya.BMT, 1979.
2. United Nations. (1995). Beijing declaration and platform for action. Fourth World Conference on Women, Beijing, China. New York: United Nations Department of Public Information
3. 22 İyun 2010-cu il tarixli, 1058-IIIQ nömrəli Azərbaycan Respublikasının Qanunu
4. 30 dekabr 1999-cu il tarixli, 787-IQ nömrəli Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Qanunu.

FRAZEOLOJİ VAHİDLƏRİN STRUKTURUNUN DƏYİŞMƏSİLƏ MÜŞAHİDƏ OLUNAN ƏVƏZLƏNMƏLƏR

Məmmədova Səkinə
Azərbaycan Universiteti
s.mamedova321@mail.ru

Frazeoloji vahidlərin komponenti söz birləşməsilə və frazeoloji vahidin tərkibindəki söz birləşməsi sözlə və ya müxtəlif fərqli struktura malik söz birləşməsilə əvəz olunduqda frazeoloji vahidin strukturu və konteksti dəyişdirilmiş frazeoloji vahidin strukturu fərqli olur.

Frazeoloji vahidin strukturunun dəyişməsi əvəz olunan və əvəz edən komponentlərin fərqli strukturları ilə əlaqədardır. Bu növ əvəzlənmədə eyni üslubi vasitələrdən istifadə olunur. Belə əvəzlənmədə əsasən tematik əvəzlənmə və tematik cəhətdən frazeoloji vahidin komponenti ilə bağlı olmayan leksemaların əvəzlənməsindən istifadə olunur.

Müasir ingilis dilində frazeoloji variantların çoxu tərkibindəki bir və ya iki sözün-komponentin dəyişməsi əsasında yaranmışdır. Bunu nəzərə alaraq, leksik variantın bu növünü “leksik əvəzlənmə” adlandırmaq məqsədəuyğundur. Leksik əvəzlənmə, öz növbəsində, frazeoloji

vahidlərin baş sözlərinə və ya digər komponentlərinə aid ola bilər. Bu cəhətdən leksik əvəzlənməni iki yarimqrupa bölmək olar:

a) baş sözə;

b) digər sözə görə leksik əvəzlənmələr.

Baş sözlərə görə leksik əvəzlənmələr. Belə əvəzlənmələr daxilində baş söz kimi çıxış edən ismin başqa dillərdən alınma və ya ingilis mənşəli olmasına görə aşağıdakı tiplərə ayrılır:

1) İngilis mənşəli baş sözlərin əvəzlənməsi hesabına yarananlar. Bu qəbildən olanların baş sözü leksik mənalarına görə bir-birinin tam eyni olmayıb, sinonimdir. Məsələn, *to my mind, in my opinion - zənnimcə.*

2) İki, üç mənşəli baş sözün əvəzlənməsi ilə yarananlar: *hold your mouth, hold your tongue-dilini saxla, sus.*

Tematik əvəzlənmə

Bet one's botten dollar (risk etmək; "başımı kəsərəm")

She would be willing to bet her botten ten-shilling note. (J.Jones).

Not to know whether one is on one's head or one's heels.

(Başını itirmək; nə edəcəyini bilməmək).

I didn't know whether I'm on my head or on my painted tail. (R.Kipling).

"Heels" (daban) sözünün *"painted tail" (rənglənmiş quyruq)* söz birləşməsilə əvəz olunması ifadə olunan bütün fikrə bir zarafat tərzi gətirir, çünki danışan xallı yaquardır.

Frazeoloji vahidlərin komponentləri onlarla semantik bağlılığı olmayan sözlərlə əvəz oluna bilər.

Be born with a Silver spoon in one s month.

"I was brought up rich".

"Yes", I said. "You were born Cadillac in your month".

"A silver spoon" söz birləşməsinin *"Candillac"* sözü ilə əvəzlənməsi frazeoloji vahidin strukturunu dəyişməklə yanaşı, deyimə zarafat xarakteri verir.

The Mills of God grind slowly.

(Qisas qiyamətə qalmaz).

A gun licence, it seems, cam be taken at any age.

For years we have "deplored" such unnecessary accidents and "writen the papers about them".

Truely the mills at the Home Office grind slowly. ("The Sphere", Feb. 17, 1962).

"of God" sözünün *"at the Home Office"* sözbirləşməsilə əvəzlənməsi *if add* olunan fikrə istehzanı daha da gücləndirir və Daxili İşlər Nazirliyini gülünc vəziyyətə qoyur.

Time and Tide wait for no Man.

(Zaman heç nəyə baxmır; zaman öz işini görür).

Come on. Good whisky waits no man.

"time and tide" sözbirləşməsinin *"good whisky"* sözbirləşməsilə əvəzlənməsi ifadə olunan fikrə zarafatyana tərz gətirir.

Qarışıq növ əvəzlənmə

İkiqat əvəzlənmədə bir leksema onunla heç bir semantik bağlılığı olmayan sözlə, digər komponent isə tematik əvəzlənmə olur və nəticədə qarışıq əvəzlənmə baş verir.

Be born with a silver spoon in one's month.

There was no need to teach any of the men to shoot.

Most Southerners were born with guns in their hands. (M.Mitchel).

(Müəllif ABŞ-da vətəndaş müharibəsi zamanı şücaət göstərmiş qəhrəman qadın obrazını bu tərzdə təsvir etməklə onun əməllərini çox yüksəklərə qaldırır.)

Sözgəlişi antonimlərlə əvəzlənmə bu qəbildən - qarışıq olan frazeoloji vahidlərdə nadir hallarda olsa da rast gəlmək olur.

Worship the ground somebody walks on. (Sən ayaq qoyduğun yerə mən başımı qoyaram; gəldiyin yollara qurban olum).

"Your district attorney is not particulary fond of the ground I walk on",

Mason pointed out. (E.C.Gardner)

Worship (səcdə qılmaq, baş əymək) sözünün antonimi olan *"is not particulary fond of"* ifadəsilə əvəz olunması frazeoloji vahidin strukturunu pozmaqla yanaşı ona ironik xarakter də verir.

Açar sözlər : struktur, tematik əvəzlənmə, leksik əvəzlənmə, qarışıq növ əvəzlənmə.

Ədəbiyyat

1. Hacıyeva Ə.H. İngilis və Azərbaycan dillərində somatik frazeologiyanın əsasları. Bakı, 2008, 270 s.
2. Кунин А.В. Фразеология современного английского языка. М., 1972.
3. Hajiyeva A.H., Najafli E.B., Cafarov A.M., English phraseology. Baku, 2009, 270 p.
4. Jana Molhova. Outlines of English Lexicology. Second edition, 1967, p.43-45.

CƏLİL MƏMMƏDQULUZADƏNİN "ANAMIN KİTABI" ƏSƏRİNDƏ AZƏRBAYCANÇILIQ İDEYASI

Mənəfova Reyhan
Şəki Regional Elmi Mərkəzi
mecidova.reyhan@mail.ru

Ədəbiyyat hər zaman dövrün bütün proseslərini özündə əks etdirərək insanların düşüncəsinə təsir etmiş, doğru, yalnışı göstərməyə müvəffəq olmuşdur. Tarixi, iqtisadi, ictimai, siyasi məsələləri əks etdirmək baxımından bədii ədəbiyyat əvəzsiz vasitədir. Bu əksetdirmə keçmişdən gələcəyə güzgü tutan ziyalıların qələmində daha dəqiq ifadə olunur. Zaman-zaman ictimai-siyasi proseslər ədəbiyyatı öz pəncəsi altına almağa cəhd etmişdir. Bundan çıxış yolunu ədəbiyyat sətiraltı mənalardan istifadə etməkdə tapır. Sətiraltı mənalardan istifadə edərək ədəbiyyatın zənginləşdirilməsində mühüm rol oynayan şəxslərdən biri də Cəlil Məmmədquluzadədir.

Görkəmli yazıçı, dramaturq, "Molla Nəsrəddin" ədəbi məktəbinin banisi, Azərbaycan ədəbiyyatında tənqidi realizm cərəyanının təşəkkülündə müstəsna rol oynamışCəlil Məmmədquluzadəninistər bədii, istərsə də elmi yaradıcılığı xalqımızın taleyinin işıqlandırılmasında böyük önəm daşıyır.

Ədibin yaradıcılığının əsasını təşkil edən tənqidi realizmin əsas məqsədi cəmiyyətin tamamilə yararsız olduğunu təsdiq etmək və bu çürük cəmiyyətin dağılmasını, hər şeyin yenidən yaradılmasını dəstəkləməkdir.Bu mənada Mirzə Cəlilin bir çox əsərlərində qabardılmış məsələlərin həlli də cəmiyyəti tamamilə məhv edib, yeni cəmiyyət qurmaq arzusundan yaranmışdır."Molla

Nəsrəddin" jurnalında nəşr etdirdiyi elmi məqalələrində azad şəkildə insanları birlik və həmrəyliyə çağırış ruhlu fikirləri əks olunurdu.

Ancaq XX əsrin əvvəllərində baş verən tarixi hadisələr və inqilabi proseslər Mirzə Cəlil yaradıcılığında müəyyən dəyişikliklərin baş verməsinə səbəb olur.Rusiyada mütləqiyyətin devrilməsi nəticəsində 1918-1920-ci illəri əhatə edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranması [1, s.343] onun demokratik ideyalarının gerçəkləşməsi üçün imkan yaratdı. 1920-ci ilin aprelində Azərbaycan Sovet hakimiyyətinin qurulmasıxalqımızın azadlıq arzularını nakam qoydu. İstiqlal məfkurəsini dadan, lakinistiqbalı yarımçıq qalan bir xalqın nümayəndəsi-ziyalısı olaraq millətin gələcək taleyi Cəlil Məmmədquluzadəni narahat etməyə bilməzdi. Lakinqurulan siyasi rejimin mahiyyətini nəzərə alsaq, bir çoxları kimi o da məlum səbəblərdən fikrini açıq şəkildə ifadə etməkdən ehtiyat edirdi. Buna görə də C.Məmmədquluzadə Mirzə Fətəli Axundovun "əgər mövcud quruluşu açıq şəkildə tənqid edə bilmirsənsə, zaman və məkanı dəyişdir, ürək sözünü yaz, anlayan anlayacaq" [4] düsturundan faydalanaraq "Anamın kitabı" kimi milli mənlik duyğularını sətiraltı ifadələrlə əks etdirən əsər yazır.

Beləliklə, Mirzə Cəlil yaradıcılığında yeni bir mərhələ başladı. Ədibin 20-ci ildə yazdığıbirpərdəli "Kamança" faciəsivə dörd məclisli "Anamın kitabı" dramı həmçinin, Azərbaycan nəsri və dramaturgiyasının inkişafında da yeni bir mərhələ idi. "Kamança" pyesindəki hadisələr Qarabağda cərəyan edir və həmin dövrdə Qarabağda yaşayan ədibin real həyati müşahidələri əsasında qələmə alınmışdır. Əsər 1918-1920-ci illərdə Qarabağda baş vermiş erməni- Azərbaycan münaqişəsi dövrünün hadisələrindən bəhs edir.

"Anamın kitabı"əsərində isə məsələ bir qədər başqa cür qoyulub, burada dramaturqun süquta uğramış ümidləri, arzuları təsvir olunur.Akademik İsa Həbibbəyli yazır: "Anamın kitabı" – Azərbaycanın milli istiqlalı haqqında XX əsr boyu yazılmış silsilə əsərlərin mənəvi Anasıdır. ...C.Məmmmədquluzadənin "Anamın kitabı" əsəri ...milli-mənəvi özünüdərk, Vətənçilik, milli birlik və müstəqillik dərsliyidir. "Anamın kitabı" – Azərbaycanın...tale kitabıdır, milli ədəbiyyatımızın ən mükəmməl Azərbaycannaməsidir" [7].

Əsərin adına diqqət yetirək-"Anamın kitabı". Baxmayaraq ki, kitab ataya məxsus idi, dramaturq həmin kitabı "Anamın kitabı" adlandırmışdır. Bu da əsassız deyil. Çünki ana sözü təkcə yaradılışın adı deyil, həm də qeyrət, namus, ləyaqət göstəricisidir. Təsadüfi deyil ki, biz Vətən, torpaq sözlərinin önündə ana kəlməsini istifadə edirik. Dramaturq "kitab"ı bədii detal kimi istifadə edərək Vətənin timsalına çevirir və insanları vətənə sədaqətli olmağa, sahib çıxmağa, öz kökünə qayıtmağa çağırır.

C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində Zəhrabəyim ananın oğlanları- Rüstəm bəy, Mirzə Məhəmmədəli, Səməd Vahid hərəsi bir xarici ölkədə təhsil almışdır.Rüstəm bəy Rusiyada təhsil alıb, rus dilində danışır, rus mədəniyyətini, Səməd Vahid Türkiyədə təhsil alıb, türk dilində danışır,osmanlı mədəniyyətini təmsil edir. Mirzə Məhəmmədəli İranda təhsil alıb, farsca danışır.

Diqqət yetirsək görərik ki, C.Məmmədquluzadə bu obrazların vasitəsilə ürəyində məhəbbət bəslədiyi Azərbaycan bayrağını əks etdirməyə çalışır. O, bu dövlətlərin timsalında bayrağımızı böyük məharətlə yaratmışdır. Bizə belə gəlir ki, o dövrdə müasir dövlət hesab olunan Rusiyanı bayrağımızdakı qırmızı rəngi ifadə etmək üçün-müasirlik, Türkiyəni bayrağımızdakı göy rəngi ifadə etmək üçün-türkçülük, İranı isə bayrağımızdakı yaşıl rəngi ifadə etmək üçün-islamçılıq ideyalarını təsvir etmişdir.

Ailənin yeganə qız övladı Gülbahar əsərdə olduqca yüksək dəyərləndirilir. Gülbahar doğma vətənində təhsil almış, öz yurduna, vətəninə, elinə, evinə, ocağına sadiq qeyrətli Azərbaycan qızıdır. O, bütün çəkişmələrə rəğmən öz mənəviyyatını, milli mənliyini qoruyub saxlayır. Əsərin sonuna

qədər böyük mətanət göstərərək, səbrlə dayanır. Lakin qardaşları arasındakı çəkişmələr bir vətənpərvər insan olaraq Gülbaharı narahat etməyə bilməzdi. Ona görə də əsərin sonunda Gülbahar bütün bu çəkişmələrə son qoyur. O, atasının kitabını saxlayıb digər kitabları yandırır.

Əsərdə Cəlil Məmmədquluzadənin Gülbahar obrazı müstəqil Azərbaycanın ifadəçisi kimi çıxış edir. Bütün çətinliklərə baxmayaraq, mübarizəsindən əl çəkməyən Gülbahar kimi vətənə, millətə sədaqətli olan, mübarizə aparan, qaranlıq dünyadan işıqlı dünyaya çıxmağın mümkünlüyünü dərk edən dramaturq Gülbaharı xüsusi sevgi və rəğbətlə yaratmışdır.

Əsərdə diqqət yetiriləcək məqamlardan bir də "almaz" detalıdır."A" hərfi əlifbanın ilk hərfidir. Ədib "a" hərfini bədii detala çevirərək əsərə daxil etmiş və bu detala diqqəti cəlb etmək üçün onun üzərindən səthi keçməmiş, əksinə daha dərin təhlil etməyə çalışmışdır. Rüstəm bəy lüğət tərtib edir, "almaz" sözünün açıqlanmasını axtarır. Bu isə onu göstərir ki, hələ "A" hərfindədir. Bunu isə Sovet hakimiyyətinin yenicə qurulduğuna işarə hesab etmək olar. Eyni zamanda A hərfi həm də Azərbaycan sözünün də ilk hərfidir. Bizə belə gəlir ki, dramaturq Azərbaycanın Rusiya tərəfindən işğal olunmasından məyusluğunu ifadə etmək istəmişdir.

Əsərin sonunda atanın kitabından oxunan vəsiyyət Mirzə Cəlilin azad Azərbaycan həsrətinin daha bir ifadəsi kimi qəbul oluna bilər: "Yer, göy, aylar, ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar; çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır" [3, s.475].

Dramaturq bayrağımızın üzərini bəzəyən ay və ulduzu konkret dilinə gətirə bilmir. O, bunun üçün çox gözəl bədii priyom seçir. Böyük məharətlə sətirlər altına enərək fikrini ifadə etməyə çalışır. Adi oxucu bunun o qədər də fərqinə varmır. Lakin ədəbiyyatşünasların, ədəbi tənqidçilərin nəzərində bu məqam olduqca böyük dəyərə malikdir. Filologiya üzrə fəlsəfə doktoruRamiz Qasımov yazır: "C.Məmmədquluzadə yeganə sənətkarlardandır ki, ayı və ulduzu atanın yadigar qoyduğu "Anamın kitabı"nda təsvir etməklə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağına işarə etmiş, bu əsəri ilə sanki ilk müstəqil Azərbaycan dövlətinin süqutuna "ağı" demiş, ona olan rəğbətini bildirmiş, üç qardaşın barışmaz münasibətlərinin timsalında onun süqutu səbəblərini əks etdirmişdir" [6].

Azərbaycanın yenidən öz istiqlalını qazanacağına böyük ümid bəsləyən mütəfəkkirin azadlıq ideyası aşağıdakı şəkildə ifadə olunmuşdur. "Mən etiqad edirəm ki, mənim balalarım dünyada hər yanı gəzib dolansalar, genə anaları Zəhranın (əlini anasına tərəf tutur) ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır" [3, s.475]. Zənnimizcə, müəllif belə qənaətə gəlir ki, nə qədər başqa dövlətlərin diqtəsinə məruz qalsaq da, əsarət altında yaşamaqdan bir gün qurtulub birbayraq altında birləşməliyik. Burada Şəms-Günəşə, oda işarədir. Beləliklə, müəllif Odlar yurdunun ətrafında zərrə-zərrə birləşməkdən söz açıraq, bu zərrələrdən böyük bir alovun yaranacağına, və yalnız o zaman əsarətdən qurtulabiləcəyimizə inanır. "Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək; nə qədər canında nəfəs var, peşiman olacaq" [4, s.475] qənaətinə gələn dramaturq azadlığı hər kəsin mənəvi haqqı hesab edir, buna cəhd etməyənlərin ömür boyu əzab çəkəcəyini deyir.

Beləliklə, əsər boyu ananın qoynunda gəzən "kitab" əsərin sonunda birlik, bərabərlik simvoluna çevrilir. Milli özünüdərk formulu kimi çıxış edir və əsrlərin qoynundan aşıb gələn Azərbaycan həqiqətlərini, xalqın acınacaqlı vəziyyətini dərindən dərk etməkdə bizlərə yol göstərir.

Nəticədə milli azadlıq və istiqlal ideyasının təsvir olunması Cəlil Məmmədquluzadənin yaradıcılıq qayəsinə çevrilmişdir. Sərt qadağa və rejim şəraiti ədibi öz məqsədindən çəkindirə

bilməmiş, xalqın azadlığı və tarixi ilə bağlı fikirləri bəzən iz azdırmaq məqsədilə ayrı-ayrı coğrafi ərazilərin nümunəsində təqdim etmək məcburiyyətində qalmışdır.

Dramaturqun qələmi millətin və xalqın tarixi taleyinin həll olunduğu məqamları xüsusi həssaslıq və narahatlıqla təsvir etmiş, baş verən hadisələrə vətəndaş mövqeyindən yanaşmışdır.

Beləliklə, C.Məmmədquluzadənin "Anamın kitabı" əsərində ümummilli məsələlər, taleyüklü məqamlar, insan mənəviyyatı, onun ictimai-siyasi münasibətlərlə əlaqə və bağlılığı, milli hiss və düşüncələr öz bədii əksini tapmışdır.

Ədəbiyyat

1. Azərbaycan tarixi. VII cilddə, V cild. Bakı, 2008.696 s.
2. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 2007, 696 s.
3. Məmmədquluzadə Cəlil. Əsərləri. IV cilddə. I cild. "Öndər Nəşriyyat", Bakı, 2004. 663 s.
4. Vahabzadə B. "Gəlin açıq danışaq" Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1988. 210 s.
5. https://kayzen.az/blog/ctrlA/10154/c%C9%99lilm%C9%99mm%C9%99dquluzd%C9%99-az%C9%99rbaycan-m%C9%99qal%C9%99si.html
6. https://nuhcixan.az/news/cemiyyet/15526-azerbaycan-xalqinin-tale-kitabi-anamin-kitabi
7. http://artkaspi.az/az/2-bu-eser-azerbaycannamedir-sevdiyim-eser-layihesi-isa-hebibbeyli/
8. https://www.azadliq.org/a/3546269.html

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR VƏ İNKİŞAF MODELİ

Mikayılova Nurəngiz
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
nurengiz.mikayilova@mail.ru

Müstəqillik qazandıqdan sonra bütün sahələrdə olduğu kimi iqtisadi sahədə də islahatların keçirilməsi zəruruliyi yarandı. Keçid dövrünə qədəm qoyan Azərbaycanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüş, xarici iqtisadi əlaqələr tamamilə qırılmışdı. İqtisadi islahatların hüquqi bazasının yaradılması və işlək mexanizminin müəyyən edilməsi qarşıda duran ən vacib məsələlərdən biri idi.

Davamlı və dinamik inkişaf məntiqinə əsaslanan inkişaf modelinin strateji istiqamətləri aşağıdakı kimi səciyyələndirilir: 1) sərbəst bazar münasibətlərinə əsaslanan və özünüinkişaf qabiliyyətinə malik olan sosialyönümlü bütöv iqtisadi sistemin - müstəqil milli iqtisadiyyatın formalaşdırılması; 2) ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövriyyəsinə cəlb olunması; 3) milli iqtisadiyyatın dünya təsərrüfat sisteminə səmərəli şəkildə inteqrasiyasının təmin olunması.

Sovet sisteminin buraxdığı problemlərlə üzləşən Azərbaycan iqtisadiyyatı keçid dövrünə qədəm qoydu və iqtisadi islahatların keçirilməsinə başlanıldı.Şərti olaraq, müstəqillik dövründə aparılan iqtisadi islahatları dörd qrupa ayırmaq olar:

– I dövrdə aparılan iqtisadi islahatlar (1991-1994)
– II dövrdə aparılan iqtisadi islahatlar (1995-2003)
– III dövrdə aparılan iqtisadi islahatlar (2004-2010)
– IV dövrdə aparılan iqtisadi islahatlar (2010 və sonrakı dövr[2, səh. 49]).

Keçid dövrünün ilk illərində iqtisadi böhranın ağır nəticələrinə baxmayaraq, islahatların keçirilməsinə və qanunvericilik bazasının formalaşdırılmasına başlanıldı. 1991-ci ilin iyun ayında "Özəl Mülkiyyət" Qanunu qəbul edilmiş, 1992-ci ilin əvvəllərində qiymət liberilizasiyasına gedilmiş, eyni ilin yanvar ayında Əlavə Dəyər Vergisinin tətbiqinə başlanılmışdır. 1992-ci ilin aprel ayında "Xarici İnvestisiya" Qanunu, avqust ayında isə "Milli Bank" Qanunu qüvvəyə minmiş, pul vahidi olaraq "manat" bazarda fəaliyyətə başlamışdır.

1993-94-cü illərdə də davam edən müharibənin təsiriylə islahat prosesində ləngimələr olmuşdur. 1993-cü ilin yanvar ayında kiçik həcmli müəssisələrin özəlləşdirilməsiylə bağlı qanun qüvvəyə minmiş, 1994-cü ilin yanvar ayında manatın "Yeganə valyuta vahidi" olmasına qərar verilmişdir. May ayında Ermənistanla atəşkəsin imzalanması ilə islahatlar prosesi sürətlənmiş, 1994-cü iyun ayında "İflas" Qanunu qəbul edilmiş, bankların konsolidasiyası prosesinə başlanılmışdır.

Bu dövrdə iqtisadiyyatda mənfiyə doğru gedişi dayandırmaq üçün iqtisadi islahatlar proqramı hazırlanaraq strateji fəaliyyətə yönələn modellər qurulmağa başlanılmışdır. Dövrün tələbinə uyğun olaraq iqtisadiyyatda sərbəst bazarın təşəkkül tapmasına çalışılması, özəlləşdirmə və özəl sahibkarlığın inkişaf etdirilməsi, yeni iqtisadi strukturun, gömrük, vergi və maliyyə sisteminin yenidən qurulması, ticarətin liberallaşdırılması, torpaq və kənd təsərrüfatı islahatlarının həyata keçirilməsi, xalqın sosial imkanlarının artırılması, təhsil və səhiyyənin inkişaf etdirilməsi üçün lazımi hüquqi infrastrukturun yaradılması məqsədi ilə mühüm qanunlar qəbul edilmişdir.

1993-cü ilin ikinci yarısından etibarən həyata keçirilən islahatlar Azərbaycanın sosial, siyasi və iqtisadi həyatında stabillik əldə etməyə imkan vermişdir. Ölkədə bank sektorunun və maliyyə sisteminin yenidən qurulmasına dair mühüm addımlar atılmışdır. Sərbəst bazar iqtisadiyyatı istiqamətində atılan addımlar Azərbaycanın beynəlxalq maliyyə təşkilatları ilə əlaqələrini artırmışdır.

Respublikanın istehsalında yaranmış geriləmə hallarının qarşısı alınmış, ölkədə iqtisadi sabitlik təmin olunmuşdur. 1996-ci ildən başlayaraq ÜDM ilbəil artmağa başlamışdır. Bununla belə keçid dövrü iqtisadiyyatına sabit inkişaf edən bir iqtisadiyyat kimi baxmaq olmaz və ona qeyri-sabit inkişaf xasdır ki, bu da onun xarakterik cəhətlərindən biridir.

1994-cü ildə "Əsrin Müqaviləsi"nin imzalanması və 12 noyabr 1995-ci ildə Konstitusiyanın qəbul edilməsi bazar iqtisadiyyatının hüquqi normativ strukturunun sürətlənməsi ilə birlikdə ölkəyə böyük həcmdə xarici sərmayə daxil olmasına gətirib çıxartdı. Ulu öndər 1993-cü ilin iyun ayının 18-də ABŞ-ın aparıcı mətbu orqanlarından biri olan "Çikaqo Tribun" qəzetinə verdiyi müsahibədə bununla baqlı bildirirdi: "Başa düşürəm ki, Azərbaycana cəlb olunmuş neft şirkətlərinin öz maraqları var. Bu, tamamilə təbii məsələdir. Ancaq eyni zamanda, biz də ölkəmizin maraqlarını neft şirkətlərinin mənafelərindən yüksək tutmalıyıq" [1, səh.57].Konstitusiya ilə özəl mülkiyyətin, özəl sahibkarlığın dünya iqtisadiyyatına inteqrasiyasının hüquqi əsası müəyyən edildi. Bu baxımdan Azərbaycanda geniş mənada iqtisadi tənzimləmələrin başlanğıc ili 1995-ci il qəbul edilə bilər.Bundan əlavə, 1995-ci ildə "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikasının Qanunu, "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999-cu ildə "Azərbaycan Respublikasının Torpaq Məcəlləsi", 1999-cu ildə "Bələdiyyə mülkiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu, 2001-ci ildə "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmiş və qanunlardan irəli gələn fəaliyyət mexanizmləri müəyyənləşdirilmişdir.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üçün Dövlət Proqramları, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Azərbaycan Respublikasında kosmik sənayenin yaradılması və inkişafı üzrə Dövlət Proqramı" uğurla icra olunmuş, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı", Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019-2023-cü)", "Azərbaycan 2020: Gələcəyə baxış İnkişaf Konsepsiyası", "Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə üzrə Strateji Yol Xəritəsi" icra olunmaqdadı.İqtisadi islahatlara sistemli yanaşmanı təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 mart tarixli Sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmişdir.

Bu gün əminliklə demək olar ki, Azərbaycan iqtisadiyyatında islahatlar bəhrəsini verməkdədir. Belə ki, neft qiymətlərinin kəskin aşağı enməsi səbəbindən 2016-cı ildə ÜDM azalsa da, 2017-ci ildənsahədə adaptasiya prosesi getmiş, 2018-ci ildə isə iqtisadi artım tam bərpa olmuşdur. İslahatların 2017-ci ildə ən böyük uğurları kimi tədiyyə balansında müsbət dəyişiklik, manatın sabitliyi, qeyri-neft ixracında 1/3 səviyyəsində artım, strateji valyuta ehtiyatlarının artması, həmçinin biznesin və ev təsərrüfatlarının gözləntilərinin müsbətə doğru dəyişməsi qeyd edilə bilər. İslahatlar davamlı olaraq həyata keçirilir. Kredit Zəmanət Fondunun yaradılması ilə kredit resurslarına çıxış asanlaşacaq və iqtisadiyyatın maliyyələşməsi artacaq. Ümumilikdə strateji yol xəritələrinin icrası iqtisadiyyatın yeni inkişaf tsiklinə öz müsbət təsirini göstərməkdədi.

Açar sözlər: müstəqillik, iqtisadi islahatlar, iqtisadiyyat, qeyri neft sektoru, dövlət proqramları.

Ədəbiyyat

1. Mehdiyev R. Ə., "İnkişafin Azərbaycan modeli", "OSKAR" NPM, Bakı, 2010.
2. Mikayılova N.Y., "Azərbaycan iqtisadiyyatı", "Avropa" nəşriyyatı, Bakı, 2018.
3. Novruzov V.T., "Heydər Əliyevin dövlət quruculuğu strategiyası və iqtisadi islahatlar", "Azərbaycan" qəzeti, 01 may 2013.

QAQAUZ YAZI DİLİNİN FORMALAŞMA TARİXİNƏ DAİR

Mirzəyeva Aygül
AMEA akad. Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu
mirzeli89@mail.ru

Özünəməxsus əlifbası, yazı sistemi və yazılı ədəbiyyatının olmaması qaqauz xalqının tarixi, mədəniyyəti, mənşəyi haqqında mövcud olan fikirlərin müxtəlifliyinə səbəb olmuşdur. Bu da hər bir xalqın tarixində yazının önəmini bir daha sübut edir.

Qaqauz yazı dilinin inkişafında əsaslı dəyişiklik 1957-ci ildə kiril qrafikası əsasında tərtib olunmuş qaqauz əlifbasının yaradılmasından sonra baş vermişdir. Bu tarixə qədər Osmanlı İmperiyası, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya və Moldova kimi ölkələrin hakimiyyəti altında olmuş və eyni coğrafi ərazidə yaşamış qaqauzlar həmin xalqların dil və mədəniyyətinin

təsiri altına düşmüşlər. Buna baxmayaraq, qaqauz ziyalıları öz dil və mədəniyyətini qoruyub saxlamağa çalışmış, bu məqsədlə bir sıra tədbirlər həyata keçirmişlər.

Qaqauz yazı dilinin formalaşmasında nüfuzlu din xadimiMixayıl Çakırın böyük xidmətləri olmuşdur. Onun fəaliyyəti 1908-1935-ci illəri əhatə edir. O, xalqının dini anlayaraq sitayiş etməsi üçün "İncil"dən və başqa din kitablarından çox istifadə olunan duaları ana dilinə və moldovan dilinə tərcümə edib çap etdirmiş və kilsələrdə oxumuşdur. Bu əsərlər əsasən xristian dininin yayılmasına xidmət etsə də, milli şüurun oyanmasına da səbəb olmuşdur.O, ilk əsərlərini kiril əlifbası ilə, Rumıniyanın hakimiyyəti dövründə yazdığı əsərlərini isə latın qrafikalı rumın əlifbası ilə yazmışdır. M.Çakır, eyni zamanda "Qaqauzca-Romence laflık" adlı lüğətin də müəllifidir. Qaqauz türkcəsinin söz ehtiyatından yararlanmaq baxımından onun əsərləri bu gün də öz aktuallığını qoruyub saxlayır.

M.Çakır hətta 1908-ci ildə qaqauz dilində bir səhifəlik qəzet də çıxarmağa nail olmuşdur. "Həqiqətin səsi" adlı dini məzmunlu qəzet ilə qaqauzlar ilk dəfə danışdıqları dilin yazılı formasını gördülər.

1957-ci ildə D.Tanasoğlu və L.Pokrovskaya ilk qaqauz əlifbasını hazırladılar. Yeni qəbul olunmuş əlifba qaqauz dilinin özünəməxsus saitləri əlavə olunaraqkiril əlifbası əsasında yaradıldı vədilin orfoqrafik qaydaları müəyyənləşdirildi. Bu dövrdə qaqauzca elmi terminlər belə mövcud deyildi. Bundan başqa, qaqauz dilinin bir neçə dialekti vardı. Yazı dili üçün hansı dialektin əsas götürülməsi və elmi terminlərin hazırlanması işində də D.Tanasoğlunun böyük xidmətləri olmuşdur. Dionis Tanasoğlu məktəblərdə ana dilində dərslərin keçilməsinə, dərsliklərin tərtib olunmasına, şair Nikolay Baboğlu ilə birlikdə rayon qəzetlərində qaqauz türkcəsində səhifələrin hazırlanmasına nail olmuşdur.

Əlifbanın yaradılması publisistikanın və yazılı ədəbiyyatın formalaşmasına da şərait yaratmışdır.

1959-cu ildə D.Tanasoğlu tərəfindən "Bucakdan sesler – literatura yazıları" adlı toplu çap olundu. Topluya folklor nümunələri ilə yanaşı, qaqauz şairlərinin də əsərləri daxil edildi. Bu kitab qaqauz milli mədəniyyətinin və dilinin öyrənilməsində mühüm mənbədir.

Qeyd edək ki, D.Tanasoğlu 1965-ci ildə Bakıda Azərbaycan EA Dil və Ədəbiyyat İnstitutunda Məmmədağa Şirəliyevin rəhbərliyi altında "Çağdaş qaqauz dilində tabeli mürəkkəb cümlə" mövzusunda dissertasiya işini müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır [3].

Qaqauz ziyalılarının cəhdlərinə baxmayaraq, SSRİ-nin Bessarabiyanı işğalından sonra qaqauz türkcəsinin inkişafında durğunluq yaranmışdı.Bu dövrdə qaqauz dilinin işlənmə dairəsi azaldılır, rəsmi qurumlarda və məktəblərdə rus dili hökm sürür və qaqauz dili yalnız evlərdə işlədilməyə başlamışdı. Sovet hakimiyyətinin son illərindən etibarən isə qaqauz dili və ədəbiyyatı dərsləri yenidən keçilməyə başlanmış, qaqauz ədəbiyyatına maraq yaranmışdır.

1988-ci ildə "Sovetskaya Moldaviya" qəzetinin əlavəsi kimi qaqauz türkcəsində gənc şair Todur Zanetin redaktorluğu ilə "Ana sözü" adlı qəzet nəşrə başladı.

Sovet İttifaqı dağıldıqdan sonra 1994-cü il dekabrın 23-də qaqauz xalqı Qaqauz Yeri Muxtar Vilayətini qurdu.1996-cı ildə bir çox türk xalqları kimi qaqauzlar da latın qrafikalı əlifbaya keçdilər. Bu dövrdən tarixi keçmişlərinə, mədəniyyətlərinə sahib çıxmağa başladılar, "ədəbiyyat tarixlərinin Orxon-Yenisey abidələri ilə, "Divani lüğət-it türk"lə, "Qutadqubilik"lə, "Kitabi-Dədə Qorqud"la və s. əsərlərlə başladığını yazdılar" [1, s.117].

Qaqauz dilinin işləklik qazanması və inkişafı üçün bir sıra addımlar atılmışdır: bədii əsərlər nəşr olunmuş, "Gagauz sesi" qəzeti, "Sabaa yıldızı" ədəbi-bədii, publisistik, etnoqrafik jurnal,

jurnalın əlavəsi kimi uşaqlar üçün “Güneşcik” jurnalı, “Ana sözü” qəzeti, onun əlavəsi kimi uşaqlar üçün “Kırlangıç” jurnalı buraxılmağa başlanmışdır. Adıçəkilən nəşrlər və məktəblərdə qaqauz dili və ədəbiyyatı dərslərinin keçilməsi dilin inkişafına və nüfuzunun qorunmasına xidmət edir. Türkiyə Cümhuriyyəti bu işdə qaqauz xalqına böyük dəstək verir.

Qeyd etmək lazımdır ki, görülən işlərə baxmayaraq, müasir dövrdə də qaqauz dili yetərincə nüfuz qazanmamış və öz dəyərini itirməkdədir. Rəsmi qurumlarda, tədbirlərdə və gənclər arasında rus dilinin üstünlük təşkil etməsi bu dilin nüfuzunu aşağı, gələcəyini isə təhlükə altına salır.

Açar sözlər: qaqauz, yazı dili, əlifba, ədəbiyyat, qəzet.

Ədəbiyyat

1. Əli Şamil (Şamilov). Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı. Bakı, Nurlan, 2011.
2. Harun Güngör, Mustafa Argunşah. Dünden bugüne gagauzlar. Ankara, 1993. http://azedu.az/az/news/3082
3. Harun Güngör, Mustafa Argunşah.Gagauz türkleri (tarih, dil, folklor ve halk edebiyyatı). Kültür Bakanlığı yayınları, 2002.

TALASSEMİYA XƏSTƏLİYİNİN SƏBƏBLƏRİ VƏ ƏLAMƏTLƏRİ

Muradlı Aygün
Azərbaycan Universiteti
muradliaygun9@gmail.com

Müasir dövrün ən aktual problemlərindın biri dətalassemiya xəstəliyidir. Dünyada hər il ən azı 365 min talassemiyalı xəstə uşaq dünyaya gəlir. Talassemiya, müalicənin düzgün tətbiq edilmədiyi təqdirdə, insan ömrünü ciddi şəkildə qısaldan və həyat keyfiyyətinə mənfi təsir göstərən xəstəlikdir. Dünyada 269 milyon talassemiyalı daşıyıcı mövcuddur [2]. Azərbaycanda isə 1 milyona yaxın daşıyıcı və 3 mindən çox talassemiya xəstəsi vardır.

Talassemiya valideynlərindən uşaqlara “miras” qalan genetik qan xəstəliyidir.Talassemiya (yunanca: "dəniz qanı") ilk dəfə Aralıq dənizi ətrafındakı insanlar arasında aşkarlandığı üçün belə adlandırılmışdır.

Talassemiya xəstəliyinin klinik təzahürü iki talassemiya daşıyıcısının nikahından dünyaya gələn uşaqlarda özünü göstərir. Genetik bir nöqsan nəticəsində hemoglobini meydana gətirən globin zəncirlərinin qırılmasında çatışmazlıq və ya patologiya yaranarsa, talassemiya xəstəliyi baş verir. İnsanlarda müəyyən xüsussiyyətə aid iki gen var, biri anadan, digəri atadan gəlir. Valideynlərdən keçən globin normal olarsa, uşaq sağlam doğulur. Birində problem olduğunda, uşaq daşıyıcı olur. Hər ikisində globin zədəli halda olsa uşaq talassemiyalı dünyaya gəlir və bu hal həyatının sonunadək davam edir [5].

Diaqnoz ümumiyyətlə qan analizi, xüsusi hemoglobin və genetik testlər daxil olmaqla qan testləri əsasında aparılır [1].

- Həm ana, həm də ata daşıyıcıdırsa, doğulacaq "hər" uşağın 25% sağlam, 50% daşıyıcı və 25% xəstə olma ehtimalı var.

- Ana və ya atadan biri xəstə və daşıyıcıdırsa, "hər" hamiləlik üçün 50% daşıyıcı və 50% xəstə körpənin olma riski var.

Talassemiyanın aşağıdaki növləri mövcuddur:

Daşıyıcı (kiçik): Bu şəxslər tamamilə sağlamdırlar və yüngül anemiyadan başqa heç bir problemi yoxdur.

Yüngül xəstəlik (intermedia): Daşıyıcılar tamamilə sağlam olsalar da, bu yüngül xəstəliyin əlamətləri meydana çıxır.

Şiddətli xəstəlik (əsas): Anemiya simptomları ümumiyyətlə həyatın 3-cü ayından sonra başlayan və davamlı qan tədarükünü tələb edən ağır bir xəstəlik növüdür. Bu uşaqlar lazımlı miqdarda hemoglobini (qan səviyyəsini) yarada bilmirlər. Yorğunluq, solğunluq, anoreksiya, narahatlıq, qaraciyər və dalağın genişlənməsi, böyümə inkişafının geriliyi və xüsusilə üz və baş sümüklərindəki anormallıqlar xəstəliyin əsas tapıntılarıdır.

Yüngül talassemiya: talassemiya əlamətləri olan uşaq və yetkin şəxslərdə ilkin diaqnoz qoyulandan sonra tibbi və ya təqib tələb olunmur [3]. Orta və ağır talassemiyalı insanlarda bədəndə dəmir həddindən artıq yüklənməsi baş verir. Şiddətli talassemiya vəziyyətində aşağıdakı ağırlaşmalar ola bilər: Sümük deformasiyaları. Talassemiya sümük iliyini genişləndirə bilər, bu da sümüklərin genişlənməsinə səbəb olur. Bu, xüsusən üz və kəllə sümük quruluşunun pozulması ilə nəticələnə bilər. Sümük iliyinin genişlənməsi də sümükləri incə və kövrək edir, qırılan sümüklərin riskini artırır [4].

Genişlənmiş dalaq: Talassemiya tez-tez çox sayda qırmızı qan hüceyrəsinin məhv olması ilə müşayət olunur. Bu, dalağın böyüməsinə və normaldan daha çox işləməsinə səbəb olur. Böyüdülmüş dalaq anemiyanı pisləşdirə bilər və köçürülmüş qırmızı qan hüceyrələrinin ömrünü azalda bilər.

Yavaş artım templəri: Anemiya həm uşağın böyüməsini, həm də cinsi yetkinliyi ləngidə bilər.

Ürək problemləri: Konjestif ürək çatışmazlığı və anormal ürək ritmləri ağır talassemiya ilə əlaqələndirilə bilər.

Orta və ağır talassemiya üçün müalicə aşağıdakılardan ibarətdir:

Tez-tez qan köçürülməsi. Talassemiyanın daha ağır formaları tez-tez, bəlkə də bir neçə həftədə baş verən qan köçürülməsini tələb edir.

Çelasiya terapiyası. Bu, qandan artıq dəmir çıxarmaq üçün bir müalicədir. Dəmir müntəzəm transfüzyon nəticəsində əmələ gələ bilər. Mütəmadi olaraq qan köçürməyən talassemiyalı bəzi insanlar da artıq dəmiri inkişaf etdirə bilərlər.

Bəzi körpələr doğuş zamanı talassemiya əlamətlərini göstərir; digərləri həyatının ilk iki ilində inkişaf etdirir. Hər il talassemiya ilə doğulan bütün körpələrdən 100.000-nin dünyada ağır formada doğulduğu təxmin edilir. Uşaqda talassemiya ümumiyyətlə ilk altı ayda ağır, irəliləyici bir hemolitik anemiya şəklində özünü göstərir. Bu uşaqların həyat boyu təqribən 3-4 həftədə bir dəfə olmaqla qan köçürməyə ehtiyacları vardır. Anemiyanı aradan qaldırmaq məqsədi ilə edilən davamlı qan köçürmələri uşağın həyatını uzadarkən, eyni zamanda bədəndə dəmir yığılmasına gətirib çıxarar və müxtəlif orqanların funksiyaları pozular. İrəli yaşlarda dalağı bədəndən kənar edərək, xəstənin qan ehtiyacını müvəqqəti azaltmaq olar, lakin bu qəti həll deyil. Sümük iliyi nəqli, xəstəliyi tamamilə düzəldən bir müalicə üsuludur. Uşaqlar həyatının ilk iki ilində talassemiya əlamətlərini sərgiləməyə başlaya bilərlər. Ən diqqət çəkən əlamətlərdən bəziləri bunlardır; yorğunluq, sarılıq, solğun dəri, zəif iştaha, yavaş böyümə.

Talassemiyası olan uşaqların əksəriyyətində ömrü boyu bir rejim şəkində qan köçürülməsi tələb olunur. Xəstəliyin ağırlaşmaları və onun müalicəsi ürək problemləri, qaraciyər zədələnməsi, diabet, sonsuzluq, böyümə çatışmazlığı və nazik və ya deformasiya olunmuş sümüklərdir.

Aydındır ki, talassemiyanın qarşısını almağın yeganə yolu, talassemiya daşıyıcısı olan gənclərin nikahdan əvvəl skrininq testlərinin keçirilməsidir. Ümumdünya Səhiyyə Təşkilatı kimi beynəlxalq qurumların köməyi ilə səhiyyə orqanı tərəfindən qəbul edilən talassemiya ilə mübarizə üzrə effektiv proqramın tətbiqi, yayılma dərəcəsinin yüksək olduğu ölkələrdə talassemiyaya qarşı effektiv nəzarət üçün əsasdır.

Talassemiya haqqında az məlumatı olan ölkələrdə xəstəliyin yayılması səbəbindən düzgün müalicə və diaqnoz əldə etmək çətin ola bilər. İnkişaf etməkdə olan ölkələrdə bəzi diaqnostika və müalicə müəssisələri olsa da, əksər hallarda bunlar dövlət tərəfindən pulsuz xidmətlərlətəmin edilmir [3].

Açar sözlər: talassemiya xəstəliyi, talassemiyanın növləri, müalicə üsulları, çelasiya terapiyası,reabilitasiya,genişlənmiş dalaq.

Ədəbiyyat

1. "How Are Thalassemias Diagnosed?". NHLBI. 3 July 2012. Archived from the original on 16 September 2016. Retrieved 5 September 2016.
2. Waheed, Fazeela; Fishter, Colleen; Awofeso, AwoNiyi; Stanley, David (July 2016). "Carrier screening for beta-thalassemia in the Maldives: perceptions of parents of affected children who did not take part in screening and its consequences"
3. Weatherall, David J. (November 2005). "Keynote Address: The Challenge of Thalassemia for the Developing Countries".
4. "What Are Thalassemias?". NHLBI. 3 July 2012. Archived from the original on 26 August 2016. Retrieved 5 September 2016.
5. "What Causes Thalassemias?". NHLBI. 3 July 2012. Archived from the original on 26 August 2016. Retrieved 5 September 2016.

SOSİAL PSİXOLOGİYADA SAĞLAMLIQ VƏ ŞƏXSİYYƏT MƏSƏLƏLƏRİ

Muradova Xəyalə
Azərbaycan Dillər Universiteti
xayalamuradova80@gmail.com

Sağlamlıq üçün önəmli amillərdən biri də sosial mühitdə formalaşan şəxsiyyət üçün xarakterik olan xüsusiyyətlərin öyrənilməsidir. Şəxsiyyətin xüsusiyyətləri ilə davranışı arasındakı korrelyasiya davranışı təşkil edən prosesləri izah etmirlər; bəzi hallarda müxtəlif dəyişənlər ortaya çıxır və fərdi keyfiyyətlər eyni bir fərdin davranışının fərqliliyini izah edə bilmir (intra-individual variation)... Bizim üçün fərdi keyfiyyətlərin davranışa necə təsir etdiyini və ətraf mühitlə necə qarşılıqlı əlaqəyə girdiyini anlamaq çox vacibdir. Fərdi keyfiyyətlərin necə yarandığını və sinir sistemində necə möhkəmləndiyini başa düşmək önəmlidir [6].

Şəxsiyyətin fərdi keyfiyyətlərinin onun xəstəliklərinə təsiri müxtəlif alimlər tərəfindən araşdırılmışdır. Rankor və Sandermanın fikrinə görə şəxsiyyətlə onun sağlamlıq vəziyyəti arasında əlaqəni müxtəlif yollarla konseptuallaşdırmaq mümkündür. Məsələn bu məsələnin tədqiqində iki yanaşmanın arasında olan fərqləri müqayisə etmək mümkündür [4, s.68]. Birinci yanaşmanın əsasında xəstəliklərin özünəməxsusluğu ilə seçilir, yəni müəyyən xarakter tipinə xas şəxsiyyətlərə aiddir. Başqa sözlə, şəxsiyyət xəstəliyin yaranmasının kauzal amilidir. Belə tədqiqatlarda müxtəlif

formalı xərcəng və ya ürək-damar xəstəliklərinin etiologiyasında şəxsiyyətin rolu tədqiq edilir. Bu sahədə araşdırma aparan ilk alimlərdən biri Alexander olmuşdur və 7 psixosomatik xəstəlik irəli sürmüşdür, onlar da öz növbəsində dərk edilməyən səbəblərlə şərtləndirilmişdir [5, s.13]: mədə və on iki barmaq bağırsaq xorası, bronxial astma, tireotoksikoz, revmatoid artrit, xoralı kolit və neyrodermit.

Şəxsiyyətin fərdi-xüsusiyyətləri onun stressə dayanıqlığını zəiflədən amillərdəndir və misal olaraq yüksək həyəcanlılıq; qəzəb, düşmənçilik, özünə istiqamətlənmiş aqressiya; emosional oyanıqlıq, qeyri-stabillik; qapalılıq, bağlılıq; həyatdakı situasiyalara bədbin yanaşmaq və digərlərini göstərmək olar. Psixoloji dözümlülüyü özününizamlamanın çətinləşməsi, özünü bəxtsiz qavrayan, şəxsiyyətdaxili münaqişələr və digərləri zəiflədir. Dözümlülüyü zəiflədən mövcud amil kimi A davranış tipini və ya koronar tipi – şəxsi xüsusiyyətlərinin və davranış üslublarının riski artırdığını göstərmək olar. Koronar tipə xas olan xüsusiyyətlər [3, s.96]: iddialı; təsdiqlənməyə tələbat; impulsivlik; səbrsizlik; fəallığını azalda bilməyən; hər şeyi vaxtında yerinə yetirməyə çalışan; emosiyanallıq; düşmənçilik. Bu şəxsiyyət xüsusiyyətlərinə sahib olan insanlarda yüksək nailiyyət motivasiyası, rəqabətə meyllilik və mübarizə əzmi üstünlük təşkil edir.

M.Fridman və R.Rozenmanın A davranış tipinə həsr etdikləri fundamental əsərini "A tipi və onun ürəyi" adlandırmışdır [2, s.44]. "A şəxsiyyət tipi" və "A davranış tipi" psixosomatik tibbdən şəxsiyyət psixologiyasında gətirilmişdir... Onlar bu tipi, onun davranış xüsusiyyətlərini, davranışın səbəb olduğu psixosomatik nəticələrini geniş təsvir etmişdilər. Bir çox tədqiqatların təhlili tam əminliklə sübut edir ki, A tipi davranış forması və bu tipin şəxsiyyət xüsusiyyətləri psixoemosional distressin risk əmsalını yaradır.

S.Allahyarova qeyd edir ki, "ürək-damar xəstəliklərinin patogenezində ən vacib rol düşmənçilikdir... Arterial hipertoniyalı xəstələr hər zaman qarşıdurma zamanı çox qıcıqlı olurlar. Onlar uzun müddət eyni bir iş yerində işləyirlər, hətta maaşları az olsa belə. Vəzifədə olsalar da, avtoritet ola bilmirlər. Onlar başqalarının işini yerinə yetirirlər. Nəticədə qəzəb, nifoət və aqressivliyin yaranması baş verir və getdikcə bu hissləri idarə etmək olmur. Nəticədə gərginliyin xroniki halı yaranır [1]". Beləliklə, buradan belə bir nəticəyə gəlmək olar ki, tez-tez qəzəblənən, kəmhövsələ, düşmənçilik haqqında düşünən insanlar daha çox ürək-damar xəstəliklərinə məruz qalırlar. Belə hallarda həkimlərin qarşısında duran ilkin məqsədlərdən biri də xəstələri psixoloqlara yönləndirmək və onların sağlamlıqlarının uzunmüddətli olmasını təmin etməkdir.

Beləliklə, düşmənçiliyə meyilli olan aqressiv insanlar həyatdan zövq almaq, yaxşı düşünmək, ətrafı və özünü sevmək kimi hisslərdən uzaq olduqlar üçün, özlərinə vaxt ayıra bilmədikləri üçün xəstəliklərə tutulmağa daha çox meyilli olurlar. İnsan həyatını poztiv düşüncələrlə qurmalı və ən cüzi hadisədə də yaxşı tərəfi görməyi bacarmalıdır. Bütün bunlarla bərabər xəstəliklər mübarizədə həkimə müraciət etməli və istər psixoloqun köməyi ilə, istərsə də sosial şəbəkələrdən əldə etdiyi məlumatlarla öz üzərində müsbət yöndə işləməyi bacarmalıdır. Həkimin xəstə ilə pozitiv, humanist və xeyirxah münasibətləri bir daha nə qədər önəmli olduğunu, onun xəstəliklə mübarizəsində və xəstəliyə qalib gəlməsində rolunun əvəzsiz olduğunu sübut edir.

Açar sözlər: şəxsiyyət psixologiyası, sağlamlıq, xarakter.

Ədəbiyyat

1. Allahyarova S.A. Ürək-damar xəstəliklərinin psixosomatik komponentləri. Sosial və humanitar elmlərin müasir problemləri. BDU, Elmi əsərlər toplusu, Bakı, 2014, № 13 s.85-90.

2. Митрушина Н. А. Социально-перцептивные и личностные корреляты поведенческих типов А и Б: Дис. …канд. псих. наук. Ярославль, 2007, 198 с.
3. Психология здоровья / Под ред. М.Б.Алиева: Киев: Общество с ограниченной ответственностью "Финансовая Рада Украины", 2017, 100 с.
4. Фернхем А., Патрик Х. Личность и социальное поведение: пер. с англ., СПб: Питер, 2001, 360 с.
5. Фролова Ю.Г. Психосоматика и психология здоровья: Учеб. пособие. 2-е изд., Мн.: ЕГУ, 2003, 172 с.
6. Diener E. Traits can be powerful, but are not enough: lessons from subjective well-being. Journal of Research in Personality, 1996, v.95, pp.389-399.

UŞAQ QORXULARI VƏ ONLARIN UŞAQLARA PSİXOLOJİ TƏSİRİ

Musayeva Aygün
ADPU-nun Şəki filialı
m.r.musayev@mail.ru

Problemi araşdırmazdan əvvəl qorxunun psixoloji mahiyyətini aydınlaşdıraq. Qorxu insanın hər hansı gözlənilən təhlükə ilə bağlı hiss etdiyi xoşagəlməz emosional haldır. Qorxu insanın həyatını o hala çatdırır ki, insan adi həyatına davam edə bilmir və onu əhatə edən dünya ilə sadə əlaqəni itirir. Qorxulara ən çox kiçik yaşlardan rast gəldiyi, bəzən böyüklərdə olan qorxuların kökləri uşaqlıq dövrünə gedib çıxdığı üçün problemi məhz bu yaş dövründə öyrənilməsi və korreksiyası aktuallıq kəsb edir.

Qorxu hissi necə yaranır? Ən ümumi formada qorxu, həqiqi təhlükəyə cavabdır. Lakin, ən çox yayılmış qorxu uşaq qorxusudur. Onun əsas mənbəyi – uşaqların ətrafındakı böyüklərdir, hansı ki, onlar mövcud təhlükəni (həqiqi və xəyali) daha çox israrla və emosional şəkildə göstərirlər. Belə ki, böyüklər xəstəlik, yanğın, ölüm, cinayət haqqında söhbətlər etdikdə uşaqlarda daxili qorxu meydana gəlir. Böyüklər çox nadir hallarda uşaqların keçirdiyi qorxuları ciddiyə alırlar. Reallığı daha şüurlu şəkildə qəbul edən bizə, uşaqların hansısa "xortdandan", qaranlıqdan və digər şeylərdən qorxması və bu qorxuların səbəbini başa düşmək çətin gəlir. Adətən valideynlər bu hallara o vaxt diqqət yetirirlər ki, artıq qorxular faciəvi şəkil alıb, uşaqların həyatına ciddi, aşkar təsir göstərir: uşaq yuxuya gedə bilməyib valideynlərini gecə yarısı yuxudan oyadanda, bərk qorxub kəkələməyə başlayanda, bağçaya, məktəbə getməyə qəti etiraz edəndə, liftə tək daxil ola bilməyəndə və buna oxşar hallar ortaya çıxanda.

Son illər mütəxəssislər tərəfindən kifayət qədər çox uşaq qorxuları qeyd edilmişdir. Fikrimizcə, bu fenomenin daha dərin tədqiq edilməsi onun düzgün həlli istiqamətini müəyyən etməkdə yardım edə bilər. Uşaq yaşlarındakı qorxu hisslərini diqqətsiz qoymaq olmaz, belə ki, bu ontogenezdə şəxsiyyətin inkişafının pozulması faktoruna çevrilə bilər. Uşaqların emosional uğursuzluğundakı problemlərin, xüsusilə də, uşaqlarda qorxu hissi probleminin kifayət qədər öyrənilməsinə baxmayaraq, bizim günlərimizdə nəinki aktuallığını itirmir, hətta böyüklərin və birbaşa uşaqların həyatındakı ictimai-siyasi və iqtisadi dəyişikliklərlə bağlı olaraq kəskinləşir. XXI əsrin uşağı əvvəlki əsrin həmyaşıdlarının yaşamadıqları qorxu hissləri ilə mübarizə aparmalı olur; bu hissləri qorxulu filmlərdən sujetlər, kompüter oyunlarının personajları, serial qatilləri, zorakılıq və qətl səhnələri ilə dolu olan döyüş filmləri, kütləvi informasiya vasitələrində terror aktları barədə

gündəlik məlumatlar və digər bu kimi hadisələr əmələ gətirir. Həm ölkəmizdə, həm də xarici elmi ədəbiyyatdakı uşaqlarda qorxu hissinin tədqiqatı emosional pozuntuların onların şəxsiyyətinin formalaşmasına və psixi proseslərin gedişatına nə dərəcədə təsir etməsinə əsaslanır. Uşaqlarda aydınlaşdırılmamış qorxu hissləri tədris prosesinə ciddi maneə törədə bilər, xüsusilə də, bu tədris qorxusuna aid olan bir məsələdir. Qorxu uşaq-valideyn münasibətlərini poza bilər və eyni zamanda uşağın sosial aktivliyinə, həmyaşıdları və böyüklərlə olan qarşılıqlı münasibətlərinə mənfi təsir göstərə bilər.

F.Dzerjinski demişdir: "Uşaqlar gördükləri işdə, xeyir yaxud şər işlərdə məsumdurlar; onlar öz arzularına görə istədikləri və hiss etdikləri kimi hərəkət edirlər, onlarda hələ saxtakarlıq yoxdur. Kötəkləmə, hədsiz dərəcədə sərtlik və kor-koranə intizam uşaqlar üçün pis tərbiyə vasitəsidir. Çubuq və hədsiz dərəcədə sərtlik uşaqlarda riyakarlıq və saxtakarlıq tərbiyə edir, onlar bir şeyi hiss edib və arzuladığı halda, qorxu nəticəsində başqa cür danışıb hərəkət etməyi tərbiyə edir" [4]. Hələ kiçik yaşlarından sərtlik görən uşaqda qorxu hissi yaranacaq. O, bu və ya digər hərəkəti etməkdə qorxacaq. Etdiyi hərəkətin pis nəticələrini anlamadan məhz qorxu hissindən onu etməyəcək. Nəticədə uşaqda qorxu hissi yaranacaq və qorxaq bir insana çevriləcək.

Bundan başqa uşaqlarda evdən ayrılma qorxusu - məktəbə getmək istəməyən, getsə belə, sinfə girməyən uşaqların yaşadıqları vəziyyətdir. Çox vaxt ibtidai sinif vaxtında meydana çıxan bir haldır. Məktəb qorxusu, məktəblə bağlı hər hansı bir problem yoxdursa (məsələn, şiddət, müəllimin təhqiredici sözləri və s.), onda ana və uşaq arasındakı sıx və möhkəm əlaqədən asılıdır. Daha doğrusu, bu, uşağın anadan asılılığından qaynaqlanır. Uşaq buna anasını itirmə, ondan ayrı düşmə şübhəsi ilə yanaşır. Bununla yanaşı, məktəbli uşaqlar bir tərəfdən artıq məktəbli olması ilə fəxr edir. Digər tərəfdən yeni fəaliyyət növünə daxil olması ilə bağlı qorxu hissi onu narahat edir. Çünki indi o şagirdlər üçün nəzərdə tutulan qaydalara əməl etməli, həmişə eyni vaxtda zənglə sinfə girib sinifdən çıxmalı, bütün dərs ərzində sakit oturmalı, lövhənin qarşısında dərs danışmalı, müəllimin bütün tələb və göstərişlərini yerinə yetirməlidir. Bunlara isə heç də bütün uşaqlar psixoloji cəhətdən hazır olmur. Ona görə də bu yeni tələblərə çox çətinliklə uyğunlaşırlar. Əgər ilk zamanlar onlar aldıqları qiymətlərin hamısına eyni münasibət bəsləyirlərsə, tədricən onlar qiymətləri fərqləndirir və aşağı ballı qiymətlər onları həyəcanlandırır, narahat edir. Onlar yenidən aşağı qiymət alacaqlarından qorxur. Digər tərəfdən müəllimlərin yalnış seçilmiş ünsiyyət üslubu, uşaqlara yalnış yanaşma tərzi, eləcə də uşağın səhv edəcəyi təqdirdə müəllimin danlaq hədəfinə çevrilməsi bu qorxunu daha da gücləndirir. Nəticədə isə bəzi uşaqlarda məktəb fobiyası yaranır. Onlar məktəbə getmək istəmir, bunun üçün min bir bəhanə gətirirlər. Bütün bunlar isə kiçik yaşlı məktəblilərdə təzahür edən qorxuların səbəbini, eləcə də onların aradan qaldırılması yollarının tədqiqini aktual edir [3].

Uşaqlarda qorxu hissi şəxsi təcrübə nəticəsində meydana gəlir. Düzgün olmayan tərbiyə, böyüklərin uşaqları tez-tez qorxutması onlarda qorxu hissi doğurur. Əzəldən bəri psixoloqlar və psixiatrlar L.A.Pertovskaya, T.M.Mişina, A.S.Spivakovskaya qeyd edirdilər ki, uşaqlarda qorxunun əmələ gəlməsinin ən çox yayılmış səbəbi ailədə uşağın düzgün tərbiyə edilməməsi, ailədə çətin münasibətlərin mövcud olmasıdır [2]. Psixologiya və pedaqoqikada müxtəlif nəzəri istiqamətlərin nümayəndələrinin fikirləri üst-üstə düşür ki, pozulmuş ailədaixili münasibətlər uşağın psixi inkişafına neqativ təsir göstərir. Xarakterdə müxtəlif patoloji cəhətlərin formalaşması və inkişafı, əsəbilik simptomlarının əmələ gəlməsinin ailə ilə bağlı səbəbləri aşağıdakı kimidir: ailədaxili konfliktlər, valideynlərin qeyri-adekvat tərbiyəedici mövqeləri, ailənin dağılması və ya valideynlərdən birinin uzun müddət ərzində olmaması üzündən uşağın valideynləri ilə əlaqəsinin pozulması, ailə mühitindən uşağın erkən izolyasiya edilməsi, valideynlərin şəxsi xarakterləri və

digər səbəblər. Qeyd etmək lazımdır ki, böyüklər tərəfindən adekvat yanaşılarsa, qorxu və qorxaqlıq daimi xarakter daşıyan cəhətlər hesab edilmir. Sosial inkişafın ilk addımlarında olan insan kimi, uşaq da həyatının ilk yaşlarında hər bir yenilikdən və qeyri-müəyyənlikdən qorxur, əşyaları və nağıl personajlarını canlandırır, tanış olmayan heyvanlardan ehtiyat edir və inanır ki, özü və valideynləri əbədi yaşayacaqlar.

Qorxu – spesifik kəskin emosional hal, təhlükəli situasiyada əmələ gələn reaksiyadır. Qorxu konkret, artıq yaxın və çatmaqda olan təhlükədən irəli gəlir. Qorxu – insanın həyatı və rifahı üçün konkret təhlükənin affektiv əksidir. Qorxu özünümüdafiə instiktinə əsaslanır, mühafizə xarakteri daşıyır və nəbzin və tənəffüsün tezliyi, arterial təyziqin göstəriciləri və mədə şirəsinin ifrazında əks olunan əsəb fəaliyyətinin müvafiq fizioloji dəyişiklikləri ilə müşahidə edilir [1]. Uşaqlarda qorxuya düzgün yanaşılarsa, onların əmələ gəlmə səbəbləri aydınlaşarsa, həmin qorxular uşaqdan izsiz yox olar. Əgər belə qorxu hissləri kəskinləşir və uzun müddət davam edirsə, bu uşağın fiziki və əsəbi zəifliyindən bəhs edir. Uşağa təsir etmək və ona qorxulardan azad olmağa komək etmək üçün valideynlər, pedaqoqlar qorxunun nə olduğunu, onun hansı funksiya daşıdığını, necə əmələ gəldiyi və inkişaf etdiyini, uşaqların ən çox nədən və niyə qorxduğunu bilməlidirlər.

Psixoloji nöqteyi-nəzərdən qorxu emosional prosesdir. O, həyəcanlandırıcı və ya məyusedici emosional vəziyyət şəklində görünə bilər. Bu vəziyyətin aradan qaldırılmasında psixoterapevtik metodlar müsbət nəticə verir. Böyüklər hər bir uşağın fərdi-psixoloji xüsusiyyətlərini nəzərə almaqla və oyunlardan, rəsmlərdən,nağıllardan və s. psixoterapevtik metodlardan istifadə etməklə uşaq qorxularını aradan qaldıra bilər.

Açar sözlər: qorxu hissi, uşaq qorxuları, uşaq və yeniyetmə, qorxuların korreksiyası.

Ədəbiyyat

1. Cavadov R.Ə., Tağıyeva G.B. Ekstrimal şəraitlərdə psixoloji xidmət.
2. Çələbiyev N.Z. Uşaq psixologiyası, Bakı, 2005.
3. Xəlilov H. Uşaq və yeniyetmələrin inkişafının sosial psixoloji məsələləri. Bakı, 2012.
4. Щербатов У. Психология страха, Москва, 2007.

İNGİLİS DİLİNDƏ MİLLİ-MƏDƏNİ XÜSUSİYYƏTLƏR İFADƏ EDƏN FRAZEOLOGİZMLƏR

Mustafayeva Nərmin
Bakı Slavyan Universiteti
aysel.mikayilova.02@mail.ru

Bu və ya digər dildə işlənən frazeologizmlər xalqın ruhunu, mədəniyyətini, adət-ənənələrini, həyat tərzini, dünyagörüşünü özündə əks etdirir. Rus dilçiliyinin görkəmli nümayəndələrindən biri T.Z.Çerdantseva məqalələrinin birində qeyd etmişdir: “"Hər bir dilin idiomatikası həmin dildə danışan insanların dünyagörüşünü, milli mədəniyyətini, adət-ənənələrini, inanclarını, xəyallarını və tarixini əks etdirən qiymətli bir linqvistik irsdir. Frazeologiya sayəsində yalnız dilin deyil, həm də onun daşıyıcılarının tarix və mədəniyyətinin uzaq keçmişinə daxil olmaq olar." [2, səh 59].İngilis dilində işlənən frazeologizmlər aşağıdakı kulturolojikonotasiyaları ifadə edə bilərlər:

1) Tarixi hadisələr və faktlar, məsələn: “*turn a blind eye”(bilərək görməzdən gəlmək)* frazeologizmi etimologiyası XIX əsrə gedib çıxır. Belə ki, 1801-ci Kopenhagen döyüşü zamanı

ingilis hərbi dəniz qüvvələrinə bir gözü görməyən admiral Nelson başçılıq edirdi. Hücum zamanı Nelsona xəbər verilir ki, rəhbərlik hücümun dayandırılması barəsində havaya siqnal göndərib. Hücumu dayandırmaq istəməyən admiral durbini qəsdən görməyən gözünə yaxınlaşdıraraq heç bir siqnal görmədiyini qeyd edir və hücumu həyata keçirir. Bu hadisədən sonra hər hansı bir məsələni bilərəkdən görməzdən gəlmək "*turn a blind eye"* frazeologizmi ilə ifadə olunur.

2) Xalqın inancları, məsələn: *"black sheep" (üz qarası)* frazeologizmi ingilislərin qədim inancı əsasında yaranıb. Orta əsrlərdə qara qoyunların şeytanın nişanəsi olduğuna inanan ingilislər biabırçı, rüsvayçı hərəkət edən insanların şeytana xidmət etdiyini düşünərək onları hərfi mənası qara qoyun olan *"black sheep"* adlandırırdılar. Vaxt keçdikcə, bu söz birləşməsi ilkin mənasından uzaqlaşsa da frazeologizm kimi dildə işlənməyə davam edir.

3) Sosial status, məsələn: "*born with a silver spoon in one's mouth"(varlıailədədoğulmaq)*. İngilisaristokratiyasına mənsub varlı ailələr uşaqlarının xaç suyunasalma mərasimində gümüş qaşıqdan istifadə edirlər. Orta əsrlərdə orta və aşağı təbəqənin insanları adətən taxta qaşıqdan istifadə edirdilər. Odur ki, gümüş qaşıqdan istifadə edənlər yalnız varlı təbəqənin insanları idi. Həmin dövrdən başlayaraq indiyədək bu frazeologizm "*varlı ailədə doğulmaq"*mənasında dildə işlənir.

4) Toponimlər, məsələn: *"Carry coals to Newcastle" (mənasız bir işlə məşğul olmaq).* Bildiyimiz kimi, toponim hər hansı bir yerin, coğrafi ərazinin xüsusi adına deyilir. Nyukasl İngiltərənin kömür mədənlərinin mərkəzi hesab olunur və əlbəttə, oraya kömür aparmaq lazımsız işdir. Odur ki, hər hansı bir şəxs mənasız işlə məşğul olduqda ona obrazlı şəkildə bu ifadəni işlədirlər.

5) Şifahi xalq ədəbiyyatı, məsələn: *"The sandman is about"(yatmaq vaxtıdır).* İngilis şifahi xalq ədəbiyyatında sandman (qum insan) adlı nağıl qəhrəmanı vardır və nağıla görə o, hər axşam gələrərək uşaqların gözünə qum səpir ki, yatsınlar.

6) Yazılı ədəbiyyat. İngilis yazılı ədəbiyyatı dilin zənginləşməsi üçün əsas mənbələrdən biri hesab edilir. Dilə müxtəlif yazıçı və şairlərin yaradıcılığından xeyli sayda frazeologizm keçmişdir. Bu baxımdan Uilyam Şekspir yaradıcılığından keçən frazeologizmləri xüsusi qeyd etmək lazımdır. Məsələn, "Otello" faciəsindən *the green eyed monster (qısqanclıq)*, "Romeo və Culyetta" əsərindən *" a fool's paradise"* (yalan, illyuziya üzərində qurulmuş xoşbəxtlik) və s. dilə keçmişdir.

7) Xalqın həyat tərzi. Bu qrupa daxil olan frazeologizmlərdə xalqın məşğuliyyəti, həmin ölkədə geniş yayılmış idman növləri, populyar olan yemək içkilər və s. öz əksini tapmışdır. İngilislər kriket, regbi, badminton, tennis kimi idman növlərinin yaradıcısı olmuş, qolf, hokey kimi oyunların qaydalarını müəyyənləşdirmişdir. Odur ki, ingilis frazeologiyasında həmin idman növləri ilə bağlı xeyli sayda frazeologizm vardır. Məsələn: *"that's no cricket"(buədalətlideyil), "skating on thin ice" (risklinəsəetmək), "the ball is in your court" (qərarsənindir)*və s.

İngilis xalqının ənənəvi səhər yeməyi çörək, süd, piroq, cem və yağdan ibarətdir, bundan əlavə, onlar çay içməyi də çox sevirlər. Bütün bu xüsusiyyətlər frazeologizmlərdə də əks olunur. Məsələn: *"have jam on it"(nədənsə xeyir götürmək), to know which side one's bread is buttered (gücün hansı tərəfdə olduğunu bilmək), storm in a teacup (lazımsız məsələ üzərinə narahatçılıq, əsəb keçirtmək)* və s.

Göründüyü kimi, ingilis dilində işlənən frazeologizmlərin böyük əksəriyyəti xalqın mədəniyyətinin, tarixinin, sosial və ictimai həyatının, milli-mənəvi xüsusiyyətlərinin inikası olub, həm dilin, həm də mədəniyyətin öyrənilməsi baxımından müstəsna əhəmiyyətə malik leksik vahidlərdir.

Açar sözlər: frazeologizm, milli-mədəni xüsusiyyət, ingilis dili.

Ədəbiyyat

1. Bayramov A. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: "Maarif", 1978, 176 s.
2. Черданцева Т.З. Идиоматика и культура // Вопросы языкознания. М., 1996, № 1, 58-70 с.
3. Hajiyeva A.H., Najafov E.B., Jafarov A.M. English Phraseology. Baku: Science and Education, 2009, 224 p.

ƏLİLLƏRİN CƏMIYYƏTƏ İNTEQRASİYASI: ONLARIN HÜQUQU – BİZİM MƏSULİYYƏTİMİZ

Mustafayeva Nigar
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
nigar.mn@bk.ru

Müasir dövrdə inkişaf edən elmlər, texnologiyalar, yaranan yeni ictimai mühit zənnimcə, əlillərin cəmiyyətə adaptasiyası problemini bir qədər də, aktuallaşdırmışdır. Əlillik bir çox məhdudiyyəti özündə birləşdirən, ifadə edən bir çətir terminidir. Bu gün əlillərin cəmiyyətdə tam olaraq qərarlaşmaması, cəmiyyətə inteqrasiya edə bilməməsi onların inkişafına çox ciddi şəkildə mənfi təsir göstərir. Əlillərin hüquqlarını tanımaq cəmiyyətin qalan hissəsinin borcudur. Buna bir xeyriyyəçilik kimi yanaşmaq doğru deyil, bu bir məsuliyyətdir. Əlillərin cəmiyyətdə hər kəs kimi çalışması, təhsil alması məsələsi çox vacib bir problemdir [1, s.97].

Hal-hazırda əlillərin cəmiyyətə inteqrasiyası, onların istedadlarının üzə çıxarılması və inkişaf etdirilməsi, onların əməklərinin qiymətləndirilməsi istiqamətində böyük tədbirlər görülür. Məsələn, 2005-ci ilin dekabrında "Kor və zəif görən uşaqlar üçün İKT-ə çıxışın təmin edilməsi" layihəsi üzrə BMT ilə əməkdaşlıq sazişi imzalanmışdır. İki mərhələdə həyata keçirilən bu layihənin əsas məqsədi əlillərin informasiya-kommunikasiya texnologiyalarına olan ehtiyaclarının təmin edilməsi, onların bu texnologiyalardan istifadəsinin reallaşdırılmasıdır. Əlillərə və sağlamlıq imkanları məhdud olan şəxslərə diqqət və qayğının artırılması, onların problemlərinin həllinə cəmiyyətin cəlb olunması, reabilitasiyası, sosial və psixoloji hazırlıqlarının təmin edilməsi və s. bu kimi məsələlər bugün əlillərin cəmiyyətə inteqrasiyası məsələsi qarşısında duran ən mühüm problemlərdir [1, s.105]

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzi əlilliyi olan şəxslərə kompleks tibbi-sosial və peşə reabilitasiyasının aparılması üçün nəzərdə tutulan müəssisədir [4].

Mərkəz əlillərə kompleks tibbi, sosial və peşə reabilitasiyası tədbirlərinin aparılması yolu ilə onların sosial statusunun bərpa edilməsi və cəmiyyətə inteqrasiyası, tibbi, sosial,peşə diaqnostikasının və reabilitasiyasının həyata keçirilməsi, xəstəlikləri nəzərə alınmaqla bərpa müalicəsi alanların dietik və rasional qidalanmasının təşkili, əlillərin reabilitasiya potensialının reallaşdırılması üzrə fərdi reabilitasiya proqramlarının hazırlanması və icrası istiqamətində işlər görür [4].

Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan vətəndaşların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşdırılır. Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında Konvensiyaya qoşulub. Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən geniş

miqyaslıı tədbirlər həyata keçirilib. Ölkə qanunvericiliyində əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşılıb, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görülüb [5].

Bugünki gündə əlillərin asudə vaxtının düzgün şəkildə təşkil olunması, onların hər zaman cəmiyyətlə iç-içə olması, adaptasiya problemi çəkməməsi üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Onlar tez-tez istirahət mərkəzinə göndərilir, müalicəvi sanatoriyalarda vaxt keçirirlər. Həmçinin, əlillərin əl işlərinin, rəsm əsərlərinin nümayiş olunması üçün tez-tez sərgilər, yığıncaqlar keçirilir.

Əlilliyi tam anlamaq onun güclü insan hüquqları ölçüsünə sahib olduğunu və tez-tez sosial xaricolma, yoxsulluğa məruz qalma və həssaslığın artması ilə əlaqələndirilir. Əlillik insan hüquqları məsələsidir. Dünya Bankının (1999) hesabatında dünyanın ən yoxsul insanlarının hər beşindən birinin əlil olduğu vurğulanır.

Əlillər ayrı-seçkiliklə və hər gün başqaları ilə bərabər səviyyədə cəmiyyətdə iştirak etmələrini məhdudlaşdıran əngəllərlə üzləşirlər. Əlillər ümumi məktəb sisteminə daxil olmaq, məşğulluq, cəmiyyət daxilində müstəqil yaşamaq, sərbəst hərəkət etmək, səsvermə, idman və mədəni tədbirlərdə iştirak etmək, sosial müdafiədən istifadə, ədalət əldə etmək, tibbi müalicə, əmlak alqı-satqısı kimi qanuni öhdəlikləri sərbəst şəkildə istifadə edə bilərlər [2].

2006-cı ildə qəbul edilmiş və 2008-ci ildə qüvvəyə minən Əlillərin hüquqları haqqında Konvensiya, tibbi əsaslı əlillik yanaşmasına əsaslanan ənənəvi humanitar yanaşmadan "paradiqma dəyişikliyinə" işarə etdi [3].

Əksər ölkələrdə əlillər üçün dövlət xidmətləri hələ də cəmiyyətin qalan hissəsindən ayrılmış kiçik miqyaslı reabilitasiya layihələridir. Əlillik nəticəsində yaranan əngəllər yalnız hökumətin, QHT-lərin, korporasiyaların, film muğallarının və təhsil müəssisələrinin razılaşdırılmış və vahid səyləri sayəsində aradan qaldırıla bilər. Əlillərin hüquqlarını tanımaq cəmiyyətin qalan hissəsinin borcudur. Buna artıq xeyriyyəçilik kimi yanaşmaq olmaz, bu bir məsuliyyətdir.

Beləliklə, biz yuxarıda əlillər və onların cəmiyyətə inteqrasiyası problemini nəzərdən keçirdik. Aydın oldu ki, əlillərin cəmiyyətə inteqrasiyası qarşısında duran problemlər onların özlərini tam sərbəst hiss etməməsi, insanlar ilə kontaktdan çəkinməsi və bəzi psixoloji məsələlərdir. Bu səbəbdən də, biz cəmiyyət olaraq əlilləri anlamalı onlara hər zaman bizim bir parçamız kimi yanaşmağı unutmamalıyıq.

Açar sözlər: əlillik, cəmiyyət, sosial münasibət, yoxsulluq, insan hüquqları, maneələr, inteqrasiya, məsuliyyət.

Ədəbiyyat

1. Əsgərov A.M. Azərbaycan Respublikasında əlillərin cəmiyyətə inteqrasiya olunmasındakı problemlər. Bakı-2010
2. https://www.ohchr.org/en/issues/disability/pages/disabilityindex.aspx
3. https://www.tandfonline.com/doi/abs/10.1080/09687599.2010.489314
4. http://sosial.gov.az/respublika-lillrin-brpa-mrkzi
5. https://www.unikal.org/news/168320/elilliyi-olan-sexslerin-cemiyyete-inteqrasiyasi-suretlendirilmelidir

TÜRKDİLLİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ TOPLANTILARI (1993-2003-cü illər)

Nadirov Afiq
Azərbaycan Universiteti
aphig.nadirov@gmail.com

Türkdilli dövlətlərin mühüm siyasi, iqtisadi və mədəni əlaqələrinin qurulması, inkişaf etdirilməsi və zaman-zaman yeni istiqamətlərdə əməkdaşlıq yaradılması məqsədilə türkdilli dövlətlərin zirvə toplantıları mühüm əhəmiyyət kəsb edir. Müstəqil dövlətlər kimi 1991-ci ildən sonra əlaqələr yaratmağa çalışan bu dövlətlərin zirvə görüşlərinin keçirilməsini Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəl təklif etmişdir. 1992-ci ildə baş nazir kimi Azərbaycana, daha sonra Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistana səfəri zamanı bu təşəbbüslə çıxış etmiş və təklif təsdiqini tapmışdır [5, s.157-158]. Zirvə toplantılarının əsas məqsədi türk dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsi, hüquqi-demokratik dövlət prinsipləri, türk dövlətləri və xalqları arasında əlaqələrin möhkəmləndirilməsi, qarşılıqlı inkişaf kimi məsələlər idi.

Zirvə toplantılarının ilki 1992-ci ilə təsadüf etsə də, tədqiq edilən tarixi dövr ərzində (1993-2003) altı görüş keçirilmişdir. Belə ki, birinci istisna olmaqla ikinci zirvə görüşü 1994-cü il 18-19 oktyabrda İstanbul şəhərində, üçüncü görüş 1995-ci il 28 avqustda Bişkekdə, dördüncü görüş 1996-cı il 21-22 oktyabrda Daşkənddə, beşinci görüş 1998-ci il 9 iyunda Astanada, altıncı görüş 2000-ci il 8 apreldə Bakıda, yeddinci görüş 2001-ci il 26-27 apreldə İstanbulda təşkil edilmişdir [5, s.158].

1994-cü il 18 oktyabrda İstanbul şəhərində keçirilən II Zirvə görüşündə müstəqillik illərindən bəri qurulmuş siyasi, iqtisadi və mədəni əlaqələrə nəzər salınmış, əməkdaşlığın bütün mümkün perspektivləri müzakirə edilmişdir. II Zirvə toplantısının Azərbaycan Respublikası üçün mühüm əhəmiyyəti onun Dağlıq Qarabağ münaqişəsinin türkdilli dövlətlər arasında müzakirə obyektinə çevrilməsi oldu. Bundan başqa Zirvə görüşündə dövlət başçıları bir çox regional və beynəlxalq məsələləri müzakirə etmiş, BMT və ATƏM-in qərarlarına münasibət bildirmiş, bir çox sahədə fikir razılıqları əldə olunmuşdur. II Zirvə toplantısı 19 oktyabr tarixində imzalanan birgə bəyannamə ilə yekunlaşmışdır. Bəyannaməyə əsasən, türkdilli dövlətlər arasında mövcud olan hərtərəfli əməkdaşlığı daha da inkişaf etdirmək əzmi öz əksini tapmışdır. İmzalama mərasimindən sonra keçirilmiş məbuat konfransında da qeyd edildi ki, əməkdaşlığın möhkəmlənməsi üçün belə görüşlərin böyük əhəmiyyəti vardır [7, 21 oktyabr 1994], [8].

III Zirvə toplantısı 1995-ci il 28 avqustda Qırğızıstanın paytaxtı Bişkek şəhərində keçirildi. III Sammitin Bişkekdə keçirilməsi qırğız eposu "Manas" dastanının 1000 illik yubileyi və bu münasibətlə "Manas aılı" kompleksinin açılışı ilə bağlı idi. Zirvə toplantısında türkdilli dövlətlərin dövlət başçıları – Süleyman Dəmirəl, Heydər Əliyev, Əskər Akayev, Nursultan Nazarbayev və İslam Kərimov iştirak edirdi. Zirvə görüşünün gündəliyində regional və beynəlxalq xarakterli məsələlər, narkobiznes və qanunsuz silah alverinə qarşı mübarizə, Tacikistan və Əfqanıstan problemləri, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi məslələr mövcud idi. Heydər Əliyev nitqində söyləmişdir: "Tarixi mənşəyimiz, qarşımızda duran məqsəd və problemlərin oxşarlığı, milli mənafelərimizin birliyi – bütün bunlar bizim strateji əməkdaşlığımızın etibarlı təməlidir və gələcəyimizə nikbin baxmağa imkan verir" [2].

Zirvə görüşünün nəticələrinə dair imzalanan bəyanata əsasən, türkdilli dövlət başçıları TÜRKSOY-un fəaliyyətini yüksək qiymətləndirmiş, demokratiya, insan haqları, dünyəvilik və

bazar iqtisadiyyatı prinsiplərinə sadiq qalacaqlarını bildirmiş, türk xalqları arasın da ortaq mədəniyyətin qorunması və inkişaf etdirilməsinə tərəfdar olduqlarını bildirdilər.

IV Zirvə toplantısı 1996-cı il 21-22 oktyabr tarixlərində Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilmişdir. Bu da təsadüfi deyil, məhz özbək hökmdarı Əmir Teymurun 660 illik yubileyinin keçirilməsi ilə bağlı idi. Zirvə görüşündən əvvəl prezidentlər Əmir Teymurun yubiley tədbirində iştirak etdilər. Zirvə görüşünün gündəliyində duran məsələlər əsasən iqtisadi və mədəniyyət sahəsində əlaqələrin inkişaf etdirilməsi, əlamətdar və tarixi günlərin qeyd edilməsi, növbəti zirvə görüşlərinin harada və nə zaman keçiriləcəyi haqqında məsələlərdən ibarət idi [5, s.168].

İqtisadi sahədə müzakirə olunan əsas məsələlərdən biri "Böyük İpək Yolu" proqramı çərçivəsində TRASEKA layihəsi idi. "Böyük İpək Yolu" layihəsi 1991-ci ildə Avropa Birliyi tərəfindən yeni müstəqil dövlətlərin iqtisadi inkişafı üçün hazırladığı "TACIS" proqramı çərçivəsində "TRASEKA" layihəsindən ibarətdir. Avropa Şurası bu layihəni 1993-cü ilin may ayında Brüssel konfransında Cənubi Qafqaz və Mərkəzi Asiyanın yeni müstəqil dövlətlərinin razılığı ilə qəbul etmişdir [9]. Sözügedən layihə çərçivəsində Transqafqaz dəhlizi yaradılmalı və bu dəhliz Avropa ilə Asiya arasında körpü rolunu oynayacaqdı. 1996-cı ildə Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında Transqafqaz dəhlizindən istifadə etmək barədə Sərəxs sazişləri imzalanmışdır. IV zirvə toplantısının ən əhəmiyyətli hadisələrindən biri də bu fonda gerçəkləşdi.

Sözügedən layihə çərçivəsində Transqafqaz dəhlizi yaradılmalı və bu dəhliz Avropa ilə Asiya körpü rolunu oynayacaqdı. 1996-cı ildə Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan arasında Transqafqaz dəhlizindən istifadə etmək barədə Sərəxs sazişləri imzalanmışdır. IV zirvə toplantısının ən əhəmiyyətli hadisələrindən biri də bu fonda gerçəkləşdi.

Mədəni sahədə müzakirə obyektlərindən biri TÜRKSOY-un fəaliyyəti oldu. Qeyd edildi ki, türk sivilizasiyasına dair tarixi günlərin təqvimi hazırlansın, Böyük Türk Xaqanlığının 1450 illiyinin birgə keçirilməsi barədə tədbirlər planı hazırlansın, UNESCO-nun bu yubileydə iştirak imkanı öyrənilsin.

Zirvə görüşlərində türk dövlətləri prezidentlərinin qarşılıqlı münasibətlərinin, müzakirə və məsləhətləşmələrinin, əldə olunmuş razılıq və qərarların həyata keçirilməsinə nəzarət məqsədilə Türk Dövlətləri Başçılarının Görüşlərinin Katibliyi (TDBGK) yaradılması barədə qərar qəbul edildi. Katibliyin yaradılması türkdilli dövlətlərin Xarici İşlər Nazirlərinə həvalə edildi[1, 134].IV Zirvə görüşü "Daşkənd" bəyannaməsinin bağlanması ilə başa çatdı.

V Zirvə toplantısı 1998-ci il 9 iyunda Qazaxıstan Respublikasının paytaxtı Astanada keçirildi. Zirvə görüşünün Astanada keçirilməsinə səbəb Astananın Qazaxıstanın yeni paytaxtı elan edilməsi idi. Qazaxıstan Prezidenti Nursultan Nazarbayev sammitin gündəliyini elan edərək çıxışında türkdilli dövlətlərin dinc, yanaşı yaşamalarının siyasi və iqtisadi əsasını qurmağın zəruriliyini söylədi, onların siyasi-iqtisadi inteqrasiyasını və işguzar əməkldaşlıqlarını fəallaşdırmağın vacibliyini vurğulayaraq bildirdi ki, bu həmin ölkələrin əksəriyyətinin regional təhlükəsizliyi və stabilliyi möhkəmlətmək səyləri ilə, habelə iqtisadi inkişafın perspektivləri ilə qabaqcadan müəyyən edilmişdir [1, s.136].

Zirvə görüşü çərçivəsində Türkiyə Cümhuriyyətinin Prezidenti Süleyman Dəmirəl türkdilli dövlətlərdə çox zəngin enerji ehtiyatları olduğunu və Türkiyənin bu ehtiyatların dünya bazarına çıxarılmasının ən əlverişli və iqtisadi baxımdan səmərəli alternativlərini təsdiq etməyə hazır olduğunu, "Bakı-Tiflis-Ceyhan" layihəsinin işlənib hazırlanaraq artıq dünyaya təqdim edildiyini

bildirdi. Qırğızıstan Prezidenti Əskər Akayev çıxış edərək türkdilli dövlətlər arasında iqtisadi və mədəni sahədə əməkdaşlığın genişləndiyini, habelə regionun siyasi çəkisini artıracaq birgə layihələrin, o cümlədən nəqliyyat-kommunikasiya layihələrinin müvəffəqiyyətlə həyata keçirildiyini bildirdi. Görüşdə geniş nitq söyləyən prezidentlərdən biri Heydər Əliyev olmuşdur. Heydər Əliyev öz nitqində bildirmişdir: "1992-ci ildə Ankarada keçirilmiş ilk zirvə görüşümüzdən sonra ölkələrimizin və xalqlarımızın həyatında çox hadisələr baş vermişdir. Bütün çətinliklərə baxmayaraq, biz dövlətlərimizin müstəqilliyinin möhkəmləndirilməsində, siyasi və iqtisadi islahatların aparılmasında, xalqlarımızın rifah halının yaxşılaşdırılmasında ciddi uğurlar qazanmışıq" [3, s.345].

V Zirvə görüşünün sonunda da ənənəvi olaraq yekun akt-Astana bəyannaməsi qəbul edildi. Bəyannaməyə əsasən dövlət başçılarının birgə imzaladığı bu sənəddə türkdilli dövlətlər arasında əlaqələrin genişləndirilməsi uğrunda təşkil olunmuş yüksək səviyyəli toplantıların təşkilatlandırılması üçün konkret müddəalar irəli sürülmüşdür.

Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin 1998-ci il 9 iyunda Astanada keçirilən V Zirvə görüşündə türk dövlətlərinin başçılarını növbəti zirvə görüşü üçün Bakıya dəvət etməsi ilə növbəti – VI zirvə görüşü 2000-ci il 8 apreldə Bakı şəhərində keçirilmişdir. Bu da, əlamətdar olaraq növbəti bir ortaq mədəni tədbirin – "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi ilə üst üstə düşürdü.

VI Zirvə görüşünün gündəliyində duran əsas məsələlərdən biri TRASEKA və "Böyük İpək Yolu" layihələrinin həyata keçirilməsi idi. Bu yöndə Heydər Əliyev çıxış edərək bildirmişdir: "İpək Yolu"nun bərpa edilməsi, TRASEKA proqramının həyata keçirilməsi Avropa Birliyi məkanında başlayıb Qafqazdan, Xəzər dənizindən keçməklə Mərkəzi Asiyaya uzanacaq-Şərqlə Qərbi, Avropa ilə Asiyanı birləşdirəcək bu nəqliyyat dəhlizi gerçəkliyə çevrilərək xalqlarımızın rifahının yuksəlməsinə böyük töhfə verəcəkdir. Bu layihənin reallaşdırılmasında da türkdilli dövlətlər açar rolunu oynayır" [4, s.349].

VI Zirvə görüşünün sonunda imzalanan Bakı bəyannaməsinə əsasən dövlətlərarası əməkdaşlığın bütün sahələrində dostcasına, bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı münasibətlərin yüksək səviyyəsini vurğulayaraq və tarix, dil və mədəniyyətin ümumiliyini əsas tutaraq əvvəlki zirvə görüşlərində qəbul edilmiş İstanbul (1994), Bişkek (1995), Daşkənd (1996), Astana (1998) bəyannamələri təsdiq edilir, BMT nizamnaməsinin, ATƏT-in Helsinki Yekun aktının və digər əsas sənədlərinin məqsəd və prinsiplərinə sadiq olduqlarını ifadə edir, dostluq və mehriban qonşuluq siyasətinin xalqaların mənafelərinə uyğun olduğu hesab edilir, ölkələr arasında münasibətlərin vəziyyətini və əməkdaşlığı inkişaf etdirməyin perspektivlərini nəzərdən keçirərək, bir sıra beynəlxalq və regional problemlər barədə fikir mübadiləsi aparırlar [4, s.351].

VII Zirvə toplantısı 2001-ci il 26-27 aprel tarixlərində İstanbulda keçirilmişdir. Zirvə görüşünün gündəliyində yeni müstəqillik əldə etmiş türkdilli dövlətlərdə mövcud olan siyasi gerçəkliklər, Türkiyənin bu dövlətlərin siyasi və iqtisadi həyatında oynadığı rol, beynəlxalq və regional təşkilatlar çərçivəsində əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi kimi məsələlər dururdu [1, s.143].

Türkiyənin dövrü-mətbuatında zirvə toplantısına həsr olunmuş analitik materiallarda zirvə görüşünün nəticəsi olaraq qeyd olunurdu ki, XXI əsr ölkələrimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv siyasi dialoq, qarşılıqlı surətdə faydalı əməkdaşlıq, xalqlarımız üçün isə, ictimai tərəqqi və rifah əsri olacaqdır. VII Zirvə Toplantısı yekun olaraq dövlət başçıları İstanbul bəyannaməsini imzaladı. Bəyannamənin 3-cü maddəsinin ikinci paraqrafı TÜRKSOY-un fəaliyyətinə aid idi. 22 iyun 2001-ci ildə Azərbaycan Respublikasının PrezidentiHeydər Əliyev tərəfindən türkdilli

Dövlətlərin Başçılarının Zirvə görüşünün İstanbul Bəyannaməsinin təsdiq edilməsi haqqında qanun qəbul edildi [6].

Beləliklə, türkdilli dövlətlərin dövlət başçıları səviyyəsində keçirilən Zirvə toplantıları 1990-cı illərdə yeni müstəqillik əldə etmiş türk dövlətləri üçün zəruri hal olmuş vəsözügedən dövlətlər arasında iqtisadi, siyasi və mədəni əməkdaşlığın təməl prinsiplərini qoymuşdur. Zirvə toplantıları türk dünyasının, türk dövlətlərinin, o cümlədən türk xalqlarının bir-birinə və dünyaya inteqrasiyasında, yeni dünya düzənində formalaşmasına, inkişaf etməsinə çox böyük təsir göstərmişdir.

Açar sözlər: türk dünyası, türkdilli dövlətlər, zirvə toplantıları,“Daşkənd” bəyannaməsi, “Bişkek” bəyannaməsi, “Astana” bəyannaməsi, “Bakı” bəyannaməsi, “İstanbul” bəyannaməsi.

Ədəbiyyat

1. Əhmədov Ə. Azərbaycan beynəlxalq münasibətlərdə (Türkdilli dövlətlərlə əlaqələr: XX əsrin 90-cı illəri). Bakı, Elm-təhsil, 2009, 378 s.
2. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 28 avqust 1995
3. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 9 iyun 1998
4. Heydər Əliyev. Elektron sənədlər toplusu. Nitqləri, çıxışları, məruzələri, müsahibələri, bəyanatları. 8 aprel 2000
5. Ruintən S.F. Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində(XX əsrin 90-cı illəri). “Adiloğlu” nəşriyyatı, Bakı-2005. S 211
6. Türkdilli Dövlətlərin Başçılarının Zirvə görüşünün İstanbul Bəyannaməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 22 iyun 2001-ci il. № 153-IIQ
7. “Xalq” qəzeti, 1991-2000-ci illər. 21 oktyabr 1994
8. https://azertag.az/xeber/TURK_DOVLATLARI_BASCHILARININ_II_ZIRVA_TOPLANTISI-
9. https://az.wikipedia.org/wiki/Böyük_ipək_yolu#Dirçəliş

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN ELMİ DÜNYAGÖRÜŞÜNÜN FORMALAŞDIRILMASININ İMKAN VƏ YOLLARI

Nəsibova Saidə
Gəncə Dövlət Universiteti
gunaykazimova@rambler.ru

Təhsil islahatının həyata keçirilməsi sahəsində əldə edilmiş nailiyyətlər, fasiləsiz təhsil sisteminin ən əhəmiyyətli, ən məsuliyyətli və ən mürəkkəb həlqəsi olan ibtidai təhsilin qarşısında bir sıra vəzifələr qoyur; bu hər şeydən əvvəl şagirdlərin intellektual inkişafının zəruri səviyyəsini yüksəltmək, onlara elmlərin əsasları üzrə sadə biliklər vermək, şagirdlərdə təbiət və cəmiyyət haqqında ilkin elmi təsəvvürlər formalaşdırmaq, onların şüurunu zənginləşdirmək, dərketmə marağını inkişaf etdirməkdən ibarətdir.

Bü gün inkişaf etməkdə olan dövlətimizdə şəxsiyyətin təşəkkülü və inkişafı həm mürəkkəb və həm də ziddiyyətli sosial münasibətlər mühitində baş verir. Bu münasibətlərin dairəsi getdikcə genişlənir və inkişaf edir. Belə olan halda yetişən gənc nəsli bu münasibətlərdə şüurlu iştirak etməyə, ona uyğunlaşmağa hazırlamaq üçün kiçik yaşlarından uşaqların davranışında, rəftarında, insanlara münasibətində köklü dəyişikliklər yaratmağa çalışmalıyıq. Bu da o vaxt mümkündür ki, kiçik yaşlarından uşaqları ailə ilə məktəbin birgə səyi sayəsində dünyagörüşü ruhunda tərbiyə etmək onların qarşısında xüsusi bir zərurətə çevrilsin.Ona görə də bu gün məktəbdə, təhsildə, ailədə demokratik mühit yaradılmalı, uşaqların elmi dünyagörüşü ruhunda tərbiyə olunması üçün bütün pedaqoji tələblər yerinə yetirilməlidir. Hər bir kəs istər ailə, istər müəllim, istərsə də şagird öz hüququnu, borcunu, vəzifədə məsuliyyət hissini bilməli və düşünüb ondan nəticə çıxarmağı bacarmalıdır. Bütün bu keyfiyyətlərin kiçikyaşlı məktəblilərdə aşılanmasında dünyagörüşünün formalaşması mühüm əhəmiyyət kəsb edir.

Dünyagörüşü insanın davranış və fəaliyyətinin tənzimləyicisi, motivi kimi çıxış edir. O, şəxsiyyətin ümumi istiqamətini, həyat qayəsini müəyyən edir, xarakteri möhkəmlədir. Tək-tək insanlar var ki, vahid dünyagörüşü yoluna müstəqil çıxa bilirlər.

“Xaqaniyəm, qəlbim azaddir mənim,
Ağlım, idrakımdır yol göstərənim”.

Xaqani Şirvani bunun parlaq nümunəsidir [2].

Müasir dövrdə şəxsiyyətin formalaşması qarşısında yeni tələblər, vəzifələr qoyulur. Bu vəzifələr elə yerinə yetirilməlidir ki, adamların tələbkarlığına, müstəqil düşünüb nəticə çıxarmağa geniş imkan yaransın.

Müəllim-tərbiyəçinin qarşısında duran vəzifələrdən biri ibtidai sinif şagirdlərində elmi dünyagörüşü yaratmaq üçün təbiətin və bəşər cəmiyyətinin inkişafının qanunauyğunluqları haqqında ibtidai təsəvvür və anlayışlar yaratmaqdır. Müəllim uşaqları ətrafdakı əşya və təbiət hadisələri ilə tanış edərkən I sinifdən başlayaraq bunların sadəcə gözdən keçirilməsi və təsvir edilməsi ilə kifayətlənməyib, uşaqlarıda ən sadə ümumiləşdirmələri dərk etməyi və mənimsəməyi öyrətməyə çalışmalıdır. Bu işlər ancaq inandırma metodları ilə həyata keçirilə bilər.

İbtidai sinif şagirdləri ictimai həyat hadisələrinin öyrənilməsi sayəsində bir sıra mühüm məfhum və ideyaları dərk edir və mənimsəyirlər. Məsələn, kiçikyaşlı məktəblilər dərk edirlər ki, əmək insanın həyatının əsasıdır. Aparılmış tədqiqatların nəticəsi sübut edir ki, dünyagörüşü formalaşdırmağın təyinedici şərti biliklərin davamlı əqidəyə çevrilməsidir ki, bu da şagirdlər üçün davranış prinsipləri və motivlərini təşkil edir. Dərk edilmiş əqidə olmadıqda dünyagörüşü xarakterli faktları və ümumiləşdirmələri insan yalnız formal mənimsəyə bilir [1].

İbtidai sinif şagirdləri ictimai həyat hadisələrinin öyrənilməsi sayəsində bir sıra məfhum və ideyaları dərk edir və mənimsəyirlər. Deməli, bu gün məktəbin başlıca vəzifəsi şagirdlərin təfəkkürünün inkişaf etdirilməsidir. Məktəbin qarşısında duran ən vacib məsələlər şagirdlərə müstəqil, yaradıcı düşünməyi öyrətməkdir. Təlimin əsasında şagirdlərin qabiliyyəti, məhsuldar yaradıcı təxəyyülü, təfəkkürü durmalıdır ki, o şüurlu fəaliyyət prosesinə qoşula bilsin.

Açar sözlər: dünyagörüş, kiçikyaşlı məktəbli, təfəkkür, ailə, təlim prosesi.

Ədəbiyyat

1. Ağayev Ə.Ə. Azərbaycan elmi pedaqoji fikrində şəxsiyyətin formalaşması problemləri. Bakı, Avropa, 2005, səh 288.
2. Kazımov N. Məktəb pedaqogikası. Bakı: Çaşıoğlu, 2002, 448 səh.

POST-NEFT MƏRHƏLƏSİNDƏ MİLLİ İQTİSADİYYATIN İNKİŞAF MEXANİZMLƏRİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

Nəsibzadə İlahə
Azərbaycan Dövlət İqtisad Universiteti
ilahanasibli@mail.ru

Müstəqillik illərində ölkəmizdə sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, maliyyə potensialı, insan kapitalı, əhalinin sosial rifahının yaxşılaşdırılması, iqtisadi-sosial və siyasi sahələrdə həyata keçirilən uğurlar Ulu Öndər Heydər Əliyev şəxsiyyəti ilə bağlıdır. Ulu Öndər tərəfindən müəyyənləşdirilən və bu gün ölkə prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilən Azərbaycanın iqtisadi inkişaf strategiyası ümumi və xarakterik cəhətlərlə, formalaşma mərhələləri ilə, şərt və vasitələrlə sistemli təhlil olunması və dəyərləndirilməsi ölkəmizin gələcək inkişafının prioritetlərinin, məqsəd və hədəflərinin seçilməsində, reallaşmasında müstəsna əhəmiyyət kəsb edir.

Məlumdur ki, hər bir ölkə öz modelinə uyğun fərqli inkişaf strategiyası seçir. Hal-hazırda Azərbaycanda iqtisadi inkişaf strategiyasının dəyərləndirilməsi hər bir ölkənin malik olduğu təbii-iqtisadi, əmək resurslarının balanslaşdırılması, texniki-texnoloji inkişaf səviyyəsi, insan kapitalının inkişaf dərəcəsi ölkənin seçdiyi inkişaf modelinə uyğun olaraq sosial-iqtisadi proseslərin idarə olunmasında dövlət və bazar mexanizminin tətbiqində məqsəd və hədəflərin reallaşması prinsiplərinə görə bir-birindən fərqlənən milli iqtisadiyyatı başa düşmək lazımdır. Azərbaycanda müstəqillik illərində ölkənin iqtisadi-sosial və davamlı inkişafında dövlət, cəmiyyət, vətəndaş həmrəyliyinin təmin olunması müstəsna əhəmiyyət kəsb edir. Bu gün inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçən və müstəqil dövlətə çevrilən bir çox postsovet respublikaları ölkəmizdə formalaşan milli iqtisadi inkişaf modelinin təməl prinsiplərindən və islahatlar strategiyasından bəhrələnir. Bu da Azərbaycanda reallaşan iqtisadi inkişaf strategiyasının nəzəri-metodoloji əsaslarının öyrənilməsi bu yol keçən digər ölkələr üçün əhəmiyyətlidir. Ölkəmiz həmçinin bazar iqtisadiyyatı şəraitində milli iqtisadiyyatın formalaşması ilə bağlı reallaşdırılan islahatlar strategiyası, makroiqtisadi sabitləşməyə, liberallaşmaya, iqtisadi demokratiyaya və dünya iqtisadiyyatında inteqrasiyaya əsaslanan prinsiplərə söykənir [3].

Son 15 il ərzində Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan uğurlar, iqtisadi, sosial, insan kapitalı, infrastruktur, maliyyə potensialı, institusional baza və habelə əhalinin sosial rifahının yaxşılaşdırılması ölkəmizdə inklüziv iqtisadi artımın bir problem kimi qarşıya qoymağa və onun mərhələlər üzrə reallaşdırmağa imkan verir. Son illərdə baş verən qlobal maliyyə böhranı və dünya bazarında xam neftin qiymətinin aşağı düşməsi, manatın devalvasiyası, milli iqtisadiyyatın inkişafında neft amilinin rolunun məhdudlaşması, bütünlükdə, iqtisadi inkişafın xarakterinə, iqtisadi artım amillərinə, sosial yönümlülüyünə təsir göstərmişdir. Bu da iqtisadi inkişaf konsepsiyasına keçidi təmin etmək üçün müvafiq Strateji Yol Xəritələrinin işlənib hazırlanması və reallaşmasını obyektiv zərurətə çevirdi.

Son illərdə ölkəmizdə həyata keçirilən islahatlar sahibkarlıq mühitinin yaxşılaşdırılması, investisiya və innovasiya sahələrinin inkişafı,struktur və institusional islahatların aparılması, qeyri-neft sektorunun və ixracın işinin stimullaşdırılması, əmək haqqı, pensiya və sosial müavinət sisteminin təkmilləşdirilməsi, “Made in Azerbaijani” brendinin təşviqi və s. istiqamətlərdə işlər

görülmüşdür. Məhz bunun nəticəsi kimi Dünya Bankı tərəfindən yayımlanmış "Doing Business-2019" hesabatında Azərbaycan dünyanın 10 ən başlıca islahatçı dövlət siyahısına daxil edilmiş və 2019-cu ildə dünyanın ən çox islahat aparan ölkəsi elan edilmişdir. Ölkədə aparılan islahatlar həyata keçirilən bütün istiqamət və xarakterinə, strategiyalarına, tədbirlər sisteminin formalaşmasına və reallaşmasına görə mühüm sahələri əhatə edir [1].

Respublikada milli iqtisadi inkişaf strategiyasının formalaşması və inkişafının prioritetlərinə əsaslanaraq 16 mart 2016-cı il tarixli sərəncamda "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri"ndə iqtisadi və sosial inkişafın ahəngdarlığı indiki və gələcək nəsillərin maraq və mənafelərinin həll olunması, habelə iqtisadiyyatın inklüzivliyinin artırılmasını strateji bir vəzifə kimi məqsəd qoymuşdur. Belə bir proqramın Azərbaycan iqtisadiyyatının GZİT təhlilinin və 360 dərəcəlik diaqnostikası əsasında iqtisadi inkişafın güclü, zəif tərəfləri, imkanları, təhlükələr və təhdidləri nəzərə almaqla ölkəmizin rəqabət üstünlükləri, iqtisadi inkişafın fəlsəfəsi, prinsiplərinin müəyyənləşdirilməsi 2020-ci ilədək ölkəmizdə iqtisadi inkişaf strategiyasının tədbirlər planı və 2025-ci ilədək qarşıda duran məqsədlərin, hədəflərin və sonrakı dövrlər üzrə baxışlar sistemini özündə əks etdirir.

Eyni zamanda ölkə prezidentinin 6 dekabr 2016-cı il tarixli digər sərəncamı ilə təsdiqlənmiş 11 sektor üzrə 12 strateji yol xəritəsində dövlətin qarşısında duran başlıca strateji məqsəd və hədəflərin istiqamətləri üzrə yerinə yetirilməsini təmin etmək məqsədilə milli iqtisadiyyatın strukturunu dəyişən şəraitə və tələbə uyğun təkmilləşdirilməsi, real və maliyyə sektoru arasında optimal tarazlığın gözlənilməsi, xüsusilə də fiskal və monetar mexanizmlərin optimal nisbətində sosial-iqtisadi proseslərin tənzimlənməsi mühüm bir vəzifə kimi qarşıya qoyulmuşdur [2].

Ümumən, son 15 ildə Azərbaycan iqtisadiyyatı inkişaf istiqamətlərinə görə dünya ölkələri arasında kifayət qədər yüksək yer tutmuşdur. Son illər ərzində respublikada ümumdaxili məhsul 3,3 dəfə, qeyri-neft sektoru 2,8 dəfə, qeyri-neft ixracı 4,1 dəfə artmış, sənaye potensialı 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə, maaşlar 7 dəfə, pensiyalar 9 dəfə artıb, işsizlik 5 %-ə, yoxsulluğun səviyyəsi isə 5,1 %-ə enmişdir. Ölkə iqtisadiyyatına 250 mlrd. dollar sərmayə qoyulmuş, ölkə əhalisinin 1,5 mln.nəfər artımına qarşı 2 mln. yeni iş yeri yaradılmışdır. Bu illər ərzində bütün istiqamət və sahələr üzrə ölkəmizdə sosial-iqtisadi inkişafda əldə olunan nəticələr ölkə prezidentinə iqtisadi inkişafın yüksəltmək məqsədilə mühüm sosial proqramların reallaşmasına imkan yaradılmışdır. Belə ki, ölkə prezidenti 2019-cu il 25 fevral tarixli sərəncamı ilə "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı böyük əhali qrupunun sosial müavinətlərini, 26 fevral 2019-cu il digər fərmanı isə "Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətləri"n həcmini artırdı [4].

Ölkəmizin sosial-iqtisadi inkişafının GZİT təhlili və 360 dərəcəli diaqnostikası əsasında dəyərləndirilməsi inklüziv inkişaf strategiyasının əsas prioritetlərini müəyyənləşdirməyə imkan verir:

- inklüziv iqtisadi artıma nail olmaq üçün innovasiyayönümlü investisiya siyasətinin formalaşması və reallaşması;
- perspektiv dövrdə ölkəmizdə davamlı iqtisadi artımı təmin etmək üçün müvafiq infrastrukturun yaradılması;
- Azərbaycanda dünya standartlarına cavab verən milli innovasiya sisteminin formalaşması;
- ölkənin ümumdaxili məhsulunda intellektual kapitalın xüsusi çəkisinin kəskin artırılması;

– bazarın dəyişən şəraitə, tələb və iqtisadi reallıqlara uyğun zəruri institusional dəyişikliklərin aparılması [3].

Beləliklə, müasir dövrdə ölkəmizin malik olduğu resurslar balansı, elmi-texniki tərəqqinin imkanları daxilində işlənib hazırlanan inkişaf strategiyası ölkə prezidenti İlham Əliyevin güclü iradəsi və təşəbbüskarlığı sayəsində yaxın gələcəkdə milli iqtisadiyyatın dinamik və davamlı inkişafını təmin etməklə iqtisadi artım konsepsiyasına keçməsinə imkan yaradacaq. Müstəqil Azərbaycan Respublikasında milli iqtisadi inkişaf strategiyasının uğurla reallaşdırılması ölkəmizdə dayanıqlı, davamlı və dinamik inkişafı təmin edən milli iqtisadiyyatı formalaşdırır.

Açar sözlər: iqtisadi artım, davamlı inkişaf, GZİT təhlil, innovasiya, intellektual kapital, dinamik inkişaf, institusional islahat, inklüziv iqtisadi artım.

Ədəbiyyat

1. Azərbaycanın iqtisadi inkişafının Heydər Əliyev strategiyası. UNEC, Bakı 2019
2. Azərbaycan Respublikasının Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
3. www.prezident.az
4. www.econom.gov.az

AZƏRBAYCAN XALQININ MİLLİ OYANIŞINDA ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOVUN XİDMƏTLƏRİ

Nəzərova Nərmin
Azərbaycan Universiteti
nerminnezerova98@gmail.com

Əlimərdan bəy Topçubaşov (1865-1934) XX əsrin əvvəllərində Azərbaycanın aparıcı siyasətçilərindən və görkəmli dövlət xadimlərindən olmuşdur. Sayılıb, seçilən Azərbaycan ziyalıları dəstəsinə aid olan Ə. Topşubaşov Rusiya imperiyası çərçivəsində də öz xalqının hüquqlarını qızğın müdafiə edirdi.Eyni zamanda o, 1918-1920-ci illərdə bir dövlət xadimi kimi Azərbaycanı beynəlxalq arenada təmsil etmişdir.

Əlimərdan bəy 1862-ci il, mayın 4-də Tiflisdə anadan olmuşdur. O, 1885- ci ildə birinci Tiflis gimnaziyasında orta təhsilini başa vurmuşdur. 1889-cu ildə isə Peterburq Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.Daha sonra Bakıya gələn Topçubaşov 1894- cü ildən ilk əvvəl burada hüquq-mühafizə orqanlarında, daha sonra məhkəmə köməkçisi, dairə məhkəməsinin katibi vəzifələrində çalışmışdır [1]. 1895-ci ildə "Kaspi" qəzeti redaksiyasını və onun mətbəəsini alan Tağıyev, 1898-ci ildə onu yeni binaya köçürərək,qəzetə redaktorluğu Ə.Topçubaşova həvalə edir.Redaktoru olduğu "Kaspi" qəzetində və başqa mətbuat orqanlarında milliazadlıq, ədəbiyyat, mədəniyyət və s. məsələlərə dair çoxlu məqaləsi dərc olunmuşdu."Həyat" qəzetinin nəşrinə icazənin alınması da onun xidmətlərinin nəticəsi idi [5].

Ə. Topçubaşov sosial ədalətsizliyin əleyhinə çıxırdı. Xüsusən 1905-ci ilin mayında Ümum Bakı tətilindən sonra azərbaycanlı fəhlələrin şüurluluğunun və fəallığının artmasına böyük əhəmiyyət verən Topçubaşov sahibkarlara xatırladırdı ki, "məzlum və unudulmuş azərbaycanlı fəhlələr artıq onların ucuz əməyindən istifadə edildiyi kor-koranə mütilik dövründən çıxmışlar". O,

bütün fəhlələrə əmək haqqını artırmaq, müəssisələrdə üçnövbəli iş gününə keçmək,illik məzuniyyətlər və başqa cür yollarla kömək etməyə çağırırdı. Eyni zamanda,işçi qüvvəsinin yarıya qədərini təşkil edən azərbaycanlılara özlərinin fəhlə təşkilatlarını təşkil etməyi məsləhət görürdü [5]. Əminliklə göstərilirki Ə.Topçubaşovun bu sahədə əvəzsiz xidmətləri olmuşdur.Belə ki, 1905-ci ildə olan birinci rus inqilabı Rusiyada olan digər xalqlarla yanaşı müsəlmanlarında ictimai-siyasi şüurunun oyanmasında mühüm rol oynamışdı. 1905-ci ilin avqustun 5-də Nijni-Novqoroddakı yarmarka vaxtı ümumrusiya müsəlmanlarının birinci qurultayı açılmışdı. Qurultaya isə Ə.Topçubaşov rəhbərlik edirdi.Qurultayda Əlimərdan bəyin rusca hazırladığı 23maddədən ibarət nizamnamə və 79 maddəlik proqram layihələri üzrə "Ümumrusiya müsəlman ittifaqı"-"İttifaqül-müslimin" partiyasını təşkil etmək qərara alınır [3]. Qurultay Topçubaşovun bu layihəsini cüzi dəyişikliklər etməklə qəbul edir.Qətnamənin məğzində Rusiya müsəlmanları türk xalqlarının ictimai,siyasi,iqtisadi eyni zamanda mədəni həyatına aid məsələlərə münasibətdə həmrəy olmalı, birlikdə mübarizə aparmalıdırlar deyə göstərilmişdir.

Xalq kütlələrinin təzyiqi altında çar 1905-ci il oktyabrın 17-də manifest verməyə məcbur olmuşdu. Ə.Topçubaşov 17 oktyabr manifesti üzrə "elan edilmiş azadlıqlarla xüsusən Qafqaz işlərindəki asılı vəziyyət" arasında böyük uçurum olmasını qeyd edərək göstərirdi ki, burada hökumətin özbaşınalığı, satqınlıq və rüşvətxorluq, qanunsuzluq hökm sürməkdə davam edir, yerli idarə orqanlarının tərkibi dəyişilməz qalmaqdadır.Topçubaşov,Qafqazda "ölkənin daxili həyat məsələləri üzrə qanunvericilik funksiyaları olan seymin" yaradılması ideyasını irəli sürürdü [2]. Ə.Topçubaşov 17 oktyabrda verilmiş vədlərin səmimiliyinə inanmırdı. O, hələ dekabrın əvvəlində "vətənin,şübhəsiz,təhlükədə olması" haqqında qabaqcadan xəbərdarlıq edirdi,sağ partiyalar da daxil olmaqla,bütün siyasi partiyaları birləşməyə çağırırdı.

1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda ikinci Ümumrusiya müsəlman qurultayı gizli surətdə çağırıldı. Ə.Topçubaşov "İttifaq"ın Mərkəzi Komitəsinin sədri seçildi. Avqust ayında Nijni-Novqorodda onun rəhbərliyi ilə açıq surətdə keçirilən üçüncü qurultayda Topçubaşovu yenidən Mərkəzi Komitənin sədri seçdilər. Azərbaycan azadlıq hərəkatının hələ ideya əsaslarının hazırlandığı bu ilk mərhələdə milli demokratik ziyalılar, başlıca olaraq, "Füyuzat" və "Molla Nəsrəddin" jurnallarının ətrafında birləşmişdilər. Füyuzatda əsasən liberal ruhlu ziyalılar birləşmişdi ki, onlardan biridə Topçubaşov idi [5].

Milli azadlıq hərəkatı dövründə, Topçubaşovun azərbaycanlılar qarşısında misilsiz xidmətlərindən biri də təşkil edilmiş Dövlət dumalarında onların müdafiəsini təşkil etmək olmuşdu. I Dövlət duması Peterburqda 1906-cı ildə açılan zaman Topçubaşovun sədrliyi ilə müsəlman fraksiyasını təşkil etdilər.Topçubaşovun hazırladığı müsəlman siyasi proqramında: imperiyanın bütün ərazisində möhkəm konstitusiya əsaslarında özünüidarə vahidləri və vilayət məclisləri yaradılması, torpağın vilayət üzrə milliləşdirilməsi, din işlərində tam muxtariyyət olması və yerlərdə geniş muxtar idarəetmə sisteminin təşkili tələbləri irəli sürülürdü [3]. Lakin bütün səylərə baxmayaraq I dövlət duması öz işini uğursuzluqla başa vurmuşdu. Bu vaxt Kadetlərin təşəbbüsü ilə hökumətə qəti etiraz bildirilmiş, onlar Dumanın iclaslarını Vıborqda keçirməyi qərara almışdılar. BuradaAzərbaycandan olan deputatlar da iştirak edirdilər. İclasda«Xalq nümayəndərindən» xalqa müraciət qəbul olundu. Bumüraciəti kadetlər, həmçinin A.M. Topçubaşov və İ. Ziyadxanov imzaladılar. Vıborq müraciəti bütün Rusiya əhalisini Dumanınburaxılmasına səsləyirdi. Müraciəti imzalayan şəxslərə qarşıcinayət işi qaldırıldı. Bunlardan biri də Topçubaşov idi. Məhkəmə 1907-ci ilin dekabrında keçirimiş, qərarına əsasən deputatlar 3 ay müddətinə həbsə məhkum olundular, həmçinin gələcəkdə də Dumaya seçilmək hüququndan məhrum edildilər [2]. II dövlət dumasında Topçbaşov deputatlar arasında birbaşa iştirak etməsədə Müsəlman fraksiyasının işində fəaliştirak

edirdi. Əlimərdan bəy Topçubaşov 1916-cı ildə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil etmiş, 1917-ci ildə isə əvvəlcə Bakıda,sonra isə Moskvada keçirilmiş müsəlmanların qurultayına sədrlik etmişdir [1].

1918-ci il mayın 28-də axşam Milli Şura Azərbaycan Demokratik Respublikasının yaradıldığını elan etdi. İyunun 17-də təşkil edilmiş 2-ci hökümət kabinetinin tərkibinə Topçubaşovda daxil idi.O,burada ilk öncə portfelsiz nazir,avqustun 20-dən Xarici işlər naziri vəzifəsinə təyin olunmuş və 23 avqustda səlahiyyətli nazir kimi Gəncədən Türkiyəyə göndərilmişdi. İstanbulda olan zaman onun müəllifliyi əsasnda "Azərbaycanın təşəkkülü" adlı kitab çapdan çıxmışdı.Bu kitab Azərbaycan torpağı haqqında XX əsrdə azərbaycanlı müəllif tərəfindən yazılmış ilk belə əsər olmuşdur [2].

1918-ci ilin noyabrın 19-da Milli Şura Azərbaycan parlamentinin yaradılması haqqında qanun qəbul etdi. 7 dekabr 1918-ci ildə Azərbaycan parlamenti təntənəli surətdə açıldı və Ə.Topçubaşov Azərbaycan parlamentinə sədr seçildi. Lakin o, Bakıda olmadığından bu vəzifəni onun müavini doktor Həsən bəy Ağayev icra etməyə başlamışdı. 1919-cu ilin ortalarından Azərbaycan hökümətinin beynəlxalq əlaqələri canlandı. Azərbaycan Respublikası xarici siyasətinin başlıca məqsədi respublikanın suverenliyinin digər dövlətlər tərəfindən tanınmasına nail olmaqdan ibarət idi. Azərbaycan parlamentinin ilk iclaslarının birində Paris sülh konfransına yollanacaq nümayəndə heyətinin tərkibi müəyyən edildi. Topçubaşov nümayəndə heyətinin başçısı təyin edildi. 1920-ci il yanvarın 11-də Paris kofransının ali şurası Azərbaycanın,suverenliyini de-fakto tanıdı. Azərbaycanın suverenliyinin tanınması xəbəri martın 14-də Bakıya çatdı. Bu tarixi hadisə münasibətilə ümumi amnistiya elan edildi, Bakıda hərbi parad keçirildi [6]. Məhz bu proseslərdə Topçubaşovun geniş xidmətləri olmuş, konfrans zamanı o və digər azərbaycanlı nümayəndələr Azərbaycan haqqında kiçik məqalələr və broşuralar çap edərək konfrans iştirakçılarına paylayır,Azərbaycanın ərazisi haqqında onlarda təsəvvür yaradırdılar. Onun,Parisdə böyük elmi arxivi qalmışdır. Qeyd etmək lazimdir ki, Topçubaşov 1917-ci ilin fevralından ömrünün sonuna kimi heç bir siyasi partiyanın üzvü olmamışdır. O, 1934-cü il noyabrın 8-də Parisin Sen-Deni rayonunda vəfat etmişdir. Həyatını təkcə öz xalqına deyil, eyni zamanda bütün Rusiya müsəlmanlarının azadlığı uğrunda mübarizəyə həsr etmiş Ə.Topçubaşovun xatirəsi bu gün təkcə Azərbaycan xalqı tərəfindən deyil,bütün türk xalqları tərəfindən minnətdarlıqla yad edilir.

Açar sözlər: mətbuat, qurultay, duma, cümhuriyyət, parlament, de- fakto tanınma.

Ədəbiyyat

1. Ataxan Paşayev. Milli Arxiv İdarəsi-Əlimərdan b.Topçubaşov, Bakı, 2018.
2. Azərbaycan tarixi.7 cilddə, 5-ci cild, 1900-1920-ci illər. Bakı. Elm, 2008.
3. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası, I/II cild. Bakı, 2004.
4. Mais Əmrahov. XX əsrdə Azərbaycanda Milli Azadlıq Hərəkatı, Bakı, 2009.
5. Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində, Bakı, Zaman, 1997.
6. Məmmədov X. Azərbaycan milli hərəkatı (1875-1918-ci illər), Bakı, 1996.

EPİK NÖVÜN TƏDRİSİNDƏ NAĞIL JANRINA MÜRACİƏT

Nurəddinli Bəhruz
Azərbaycan Dövlət Pedoqoji Universiteti
nurəddinlib@mail.ru

Şagirdlərin istər şəxsi həyatında istərsə də gələcək elmi fəaliyyətlərində folklor nümunələrinin tədris olunması həyati əhəmiyyətə malikdir. Ədəbiyyatımızdakı folklor nümunələri həm xalqımıza zəngin tarixi mədəni sərvətlər verməklə yanaşı xalqımızın gələcəyi olan uşaqların hərtərəfli inkişafını təmin edir, onlarda yaradıcılıq qabilyyətlərinin formalaşmasına və adı çəklilən mövzularda müstəqil şəkildə münasibət bildirmə vərdişlərini aşılayır. Əlbəttə, bəlkə də elə bu səbəbdəndir ki, folklor nümunələrinin əksəriyyəti uşaqlar nəzərdə tutularaq yaradılmışdır.

Hər bir uşaq anadan olarkən ana laylaları ilə əzizlənir və böyüyür. Bu da onu sübut edir ki, insan həyata göz açdığı gündən etibarən folklor nümunələri onların həyatında ayrılmaz bir hissəyə çevrilir. İlkin rüşeymlər olaraq folklor uşaqlarda vətənə, anaya məhəbbət və hörmət hislərini aşılayır. Hətta məktəbə başlamamışdan qabaq bu məsələlər barədə br çox şeir nümunələri ilə tanış olurlar və nağıllara qulaq asırlar. Bu biliyə malik olan uşaqlar məktəbə böyük bir həvəslə gəlirlər. Ancaq bəzən uşaqların bu marağı inkişaf etdirilmək əvəzinə kiçik yaşlarından konkret mövzular çərçivəsində məhdudlaşdırıldığı üçün onlarda yaranan bu həvəs zəifləyir. Buna görə də də şagirdlərdə pasivləşmə halları daha çox müşahidə edilməyə başlayır. Bunun səbəbi də ümumi foklor ənənəsindən qoparaq konkret mövzularla çərçivələnmiş və məhdudlaşdırılmış bir dünyaya düşmələri olur. Əgər balacalardan gələcəkdə də həmin aktivliyi görmək istəyiriksə bu və bunun kimi prablemlərin qarşısı alınmalıdır. Bu prablemin həlli yükü məhs ilkin növbədə orta məktəb müəllimlərinə həvalə edilir.

Ulu Öndər Heydər Əliyevin dediyi kimi: “Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır” [1]. Ümummilli Lider Heydər Əliyevin bu sözündən çıxış edərək qeyd edə bilərik ki, uşaqlar xalqımızın gələcəkdə özünüifadə imkanlarından biridir. Məhs bu səbəbdən də onların mükəmməl şəkildə təhsil almalarına və bir şəxsiyyət kimi formalaşmalarına şərait yaradılmalıdır.

Şifahi xalq ədəbiyyatında epik növün ən qədim və ifadə imkanları baxımından ən çox yayılmış, sevilərək oxunan janrlarından biri nağıllardır. Məhz buna görə də epik növün tədrisi məsələsində nağıllar mühüm əhəmiyyətə malik janrlardan biridir.

Mümkün olan şəraitdə tədris zamanı müxtəlif videomateriallardan və bir sıra slayd şəklində şəkillərdən (nağıl qəhrəmanlarının şəkilləri) istifadə etmək lazımdır. Bu məsələ ilə bağlı filologiya üzrə fəlsəfə doktoru Çinarə Rzayevanın səsləndirdiyi maraqlı bir fikrə də müraciət etməyimiz yerinə düşər: "Nağılları danışarkən nə qədər canlılıq yaratsaq, bir o qədər yüksək nəticə əldə etmiş olarıq. Onları öyrədərkən yaxşı olar ki, nağıl qəhrəmanlarının şəkillərini əks etdirən slaydlar hazırlansın. Uşaqların iştirakı ilə nağıl qəhrəmanlarını əks etdirən kiçik səhnəciklərin yaradılması onlarda maraq doğurar" [1]. Mövzu tədris olunduqdan sonra həmin mövzunu əhatə edəcək şəkildə bir sıra ümumiləşdirici suallarla şaqirdlərin olduğu auditoriyaya mücraciət olunması tədris prosesində arzu olunan üsullardan bir neçəsindən biridir.

Bu suallardan bir qismi aşağıdakı şəkillərdə ola bilər: Məsələn, Əgər sən bir nağıl müəllifi olsaydın həmin nağıla necə bir ad verməyi fikirləşərdin?, Sizcə nağıllara verilən adlar baş verəcək hadisələr haqqında insanlarda müəyyən fikirlər formalaşdıra bilərmi?, Əgər bir nağıl qəhrəmanı

olsaydız bu hansı nağılda hansı qəhrəman olardı və nəyə görə?, Siz nağılda hadisələrin necə cərəyan etməsinə üstünlük verərdiz? və s. kimi buna oxşar suallarla şagirdlərdə özünəinam hisslərini formalaşdırmaq, onları gələcək təqqiqatçılar kimi yetişdirmək, müstəqil şəkildə düşünmək və müəyyən hadisələrə özünəməxsus yanaşma tərzi formalaşdırmaq mümkündür.

Təbii ki, əvvəlki səhifələrdə bəhs etdiyimiz öyrətmə üsulu ənənəvi tədrisə verilən tələblər sırasındadır. Lakin nəzərə almaq lazımdır ki elm və texnikanın inkişafı məhs metodika sahəsində də bizdən müasir təhsil standarlarına cavab verəcək şəkildə yeni tədris üsullarının formalaşdırılmasını tələb edir. Yeni tədris üsulunun yaradılması digər fənlərdə olduğu kimi ədəbiyyat sahəsində də müəyyən inkişafa sərait yaratmışdır.

Dərslərə verilən müasir tələblər barəsində prof. Yusif Aslanov maraqlı bir fikir səsləndirmişdir: "Ədəbiyyatın dərindən öyrənilməsi, dünya təcrübəsindəki yeniliklərlə təhsilimizin əlaqələndirilməsi, öyrənməyi öyrətmək, müstəqil bilik əldə etmək, informasiya toplamağa və fikirlərini əsaslandırmağa qadir olan şagirdlərin tərbiyyə edilməsi, yeni texnologiyalardan, ideyalardan səmərəli istifadə ədəbiyyat tədrisi metodikasının yeni problemlərini ortaya qoymuş, bu sahədə ciddi tədqiqatların aparılmasını aktuallaşdırmışdır" [3, s.22].

Bəs müasir tədris üsulunda nağıl janrının tədrisi necə və nə səviyyədə aparılmalıdır? Mükəmməl şəkildə təşkil olunmuş dərs birinci növbədə şagirdlərdə fikir aydınlığı yaratmalıdır. Bu tip dərslərdə əsas məqsəd birinci növbədə təlim və tərbiyəyə əsaslanır. Bu fikri nağıl janrına müraciət edərək əsaslandırmağa çalışaq:

Nümunə: (VII sinif dərsliyi əsasında)

Mövzu: "Ofcu Pirim" nağlının bədii təhlili

Standartlar: 1.1.1, 1.2.3, 1.2.4, 1.2.5, 2.3.4, 2.2.1, 3.1.1, 3.2.2.

İnteqrasiya: Tarix, 0.0.0 Musiqi, 0. 0. 0

Texnikalar: Klaster üsulu, BİBÖ, mövzulararası əlaqə, söz oyunları.

İş forması: Fərdi və ya qruplar üzrə işin təşkli.

Mənbələr: "Azərbaycan xalq nağılları 1 cild", dərslik.

Dərsin təlim nəticələri: Epik növün nağıl janrında istfadə olunan bədii təsvir və ifadə vasitələri müəyyənləşdirilir: Nağıldakı bədii təsvir və ifadə vasitələrinin rolu müəyyənləşdirilir.

Məqsəd: Uşaqlarda əxlaqi və mənəvi kamillik, insaf, vicdan hiss, seçim edərkən tələsməmək. Şagirdlərin nağıl haqqında özünəməxsus fikir söyləmə bacarıqları, məntiqi təfəkkürün inkişafı, fikirlərini əsalandırmaq vərdişinin aşılanması

Şagirdlərin nağıllarla ümumi tanışlığı qurtardıqdan sonra mövzu obyekti olan hekayələr daha konkret şəkildə (ümumidən xüsusiyə doğru) tədris olunur. Bildiyimiz kimi nağıllar da öz növbəsində bir sıra qruplara bölünür. Bu qruplar aşağıdakılardır:

1. Heyvanlar haqqında nağıllar: Tədqiqatşıların fikrincə bu nağıllar daha qədim tarixə malikdir. Qədim zamanlarda insanlar bir sıra heyvanlara daha ecazkar yanaşaraq onları müqəddəsləşdirmışlər. Məsələn, "Fatmanın inəyi", "Göyçək fatma", "Şəngilim, şüngülüm, məngülüm" və s. kimi nağıllar heyvalar haqqında olan nağıllara aiddir.

2. Sehirli nağıllar: Bu tip nağıllarda qəhrəmanlar şər qüvvələrlə mübarizədə bir sıra sehirli qüvvələrin və ya əşyaların köməyinə müraciət edirlər. Məs. ’’Sehirli üzük’’, ’’Şəms və Qəmər’’, ’’Məlikməmməd’’ və s.

3. Tarixi nağıllar: Bu nağılların qəhrəmanı tarixi şəxsiyyət, hökmdar, xalqın qəhramanı və ya məşhur bir sənətkardır. Məsələn, ’’İsgəndər və fağır’’ ’’Saleh və Valeh’’, ’’Üç bacı’’ və s.

4. Məişət nağılları: Bu nağıllarda daha real və xalqın ictimai və məişət problemləri ön plana çəkilir. Məsələn, ''Hacının köpəyi'', ''Yeddi qardaş bir bacı'', ''Dərzi şagirdi Əhməd'' və s.

Nağılların ayrı - ayrı bölmələrinin tədrisi isə aşağıdakı qaydada aparıla bilər. Autitoriyaya aşağıdakı suallarla müraciət oluna bilər:

1. Nəyi bilirik: Nağıllar şifahi xalq ədəbiyyatının epik növünün janrlarından biridir.
2. Nəyi bilmək istəyirik: Nağıllar epik növün ən qədim, folklor nümunələri sırasında ən çox müraciət olunan, ifadə imkanları və həcm baxımından ən geniş yayılmış janrlarından biridir.
3. Nəyi öyrəndik: Nağıllar da öz növbəsində 4 qrupa bölünür: 1) heyvanlar haqqında nağıllar, 2) Sehirli nağıllar, 3) Tarixi nağıllar, 4) Məişət nağılları. Heyvanlar haqqında nağıllar digər nağıl növlərindən daha qədim tarixə malikdir.
4. Bir sonrakı nağıllarla əlaqəli dərsimizdə nəyi öyrənəcəyik: Nağılların ayrı - ayrı növlərində hadisələr necə cərəyan edir. Hər bir nağıl növünün özünəməxsus xüsusyyətləri nələrdir və s.

Açar sözlər: şagird, nağıl, tədris, folklor, uşaq.

Ədəbiyyat

1. Aslanov Y. Ədəbiyyat tədrisi: ənənə və müasirlik. Bakı-2011, 80 səh.
2. Azərbaycan nağılları, I cİld, Bakı-2005, "Şərq - Qərb", 359 səh.
3. Qafarli R. Uşaq folklorunun janr sistemi və poetikasi. Bakı-2013, "Elm və Təhsil", 539 səh.
4. Şərq qapısı, 2018, 7 mart, Rzayeva Ç**,** Uşaqların formalaşmasında folklorun rolu, səh 1.
5. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı-2018, 349 səh.

AZƏRBAYCAN DİLİNDƏ EKZOTİK SÖZLƏR

Orucova Afaq
Azərbaycan Dövlət Pedaqoji Universiteti
orucovaafaq79@gmail.com

Ekzotik – yunanca exotikos “yad”, “yadelli” sözündən götürülüb. Azərbaycan dilçiliyində ekzotik sözlər terminini ilk dəfə Türkan Əfəndiyeva işlətmişdir.Ekzotik sözlər mənsub olduğu xalqın adət - ənənələrini, məişətini, həyat tərzini, tarixini, milli koloritini dəqiq ifadə edən leksik vahidlərdir.

Mənşəcə başqa dilə məxsus olub hər hansı bir xalqın məişətini, onun adət-ənənəsini, milli xüsusiyyətlərini göstərən leksik vahidlərə ekzotik söz və ya ekzotizm deyilir [2, s.265].

Ekzotik sözlər mənşəcə başqa dilə mənsub olub,xalqın məişətini,adət -ənənəsini, milli xüsusiyyətlərini göstərən leksik vahidlərdir [3, s.132].

Dilçilikdə adətən “milli xarakterli sözlər” deyəndə elə sözlər nəzərdə tutulur ki, bu sözlər xalqın məişətində, adət - ənənələrində yaşayan, sırf milli əşyaların, geyimlərin və s. adını ifadə edir. Dildə bu cür sözlər ekzotik leksikaya daxildir. Odur ki, ekzotizm deyəndə yalnız dilin lüğət tərkibinə daxil olan və həmin dilin aid olduğu xalq tərəfindən dərk edilən və işlədilən spesifik sözlər nəzərdə tutulur [4, 93].

Ekzotik sözlər aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Ekzotik sözlər bir dildən başqa dilə tərcümə edilmir.
2. Ekzotik sözlər mənsub olduğu xalqın adət - ənənəsini, etnoqrafik cəhətlərini ifadə edir.

3. Ekzotik sözlər bədii üslubda işlənərək ekspressivlik yaradır.
4. Ekzotik sözlər elmi, publisist, daha çox bədii tərcümə əsərlərində işlənir.

Müasir Azərbaycan dilində müşahidə olunan ekzotik sözlər məzmunca daha rəngarəng olduğu üçün leksik-semantik cəhətdən aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Pul vahidlərinin adını bildirən ekzotik sözlər: dollar, frank, lari, lirə, funt sterlinq, şillinq,dinar, rupi, rial və s.
2. Rəqs adları bildirən ekzotik sözlər: tanqo, ləzginka, xorumu, çardaş, tərəkəmə, sirtaki və s.
3. Musiqi alətlərinin adını bildirən ekzotik sözlər: gitara, balalayka, handura, bandura, qonq, quri, violaçan, konsertino, tamburu, fleyta,mandarina və s.
4. Vəzifə adlarıbildirən ekzotik sözlər: lord, spiker, prezident, mer, kansler, reyxkansler və s.
5. Geyim adları bildirən ekzotik sözlər: dublyonka, frak, kaftan, kapşonka, şinel, sabo, makentoj,kimano, qalifey, çuxa, kitel, plaş və s.
6. Xörək adları bildirən ekzotik sözlər: borş, xarçu, qulyaş, dönər, omlet,bifşteks, buterbrod, sandviç və s.
7. İçki adları bildirən ekzotik sözlər: viski, konyak, fanta, rakı, likyor, balzam, sufle və s.
8. Müraciət bildirən ekzotik sözlər: madam, ledi, mister, misyö, madmazel, ser, senyor və s.
9. Oyun adlarını bildirən ekzotik sözlər: qolf, kirket, voterbol, reqbi, dirədöymə,çilikağac və s.
10. Meyvə adları bildirən ekzotik sözlər: ananas, kivi, banan, qreyfurt, kokos və s.
11. Şəxs adları bildirən ekzotik sözlər: Con, Hans, İvan, Mehmet, Anar və s.

Dilçilik baxımından Avropa mənşəli ekzotizmlərin əksəriyyəti zaman keçdikcə dilimizdə vətəndaşlıq hüququ qazanır və dildə sabitləşir, məsələn, palto, tramvay, avtobus, klub və s. onlarca söz artıq dilimizin öz sözlərindən seçilmir. Bu, bir tərəfdən həmin əşya və məfhumların xalqımızın həyat – məişətinə möhkəm daxil olması ilə izah olunursa, digər tərəfdənbu tip sözlər dilimizin fonetik, leksik və qrammatik qanunları ilə uyuşub mənimsənilməsində özünü göstərir [1, s.74].

Beləliklə, ekzotik sözlər xalqın adət - ənənəsində, məişətində yaşayan, milli və etnik xarakterli geyimlərin, əşyaların və s. adını ifadə edir. Ekzotik sözlərin dildə əhəmiyyəti ondan ibarətdir ki, onlar dili zənginləşdirir, dilin təsvir imkanlarını genişləndirir, dili daha ifadəli edir.

Açar sözlər: Azərbaycan dili, ekzotik sözlər, leksik vahidlər, alınma sözlər, üslublar.

Ədəbiyyat

1. Abdulla Qarayev "Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar" Azərbaycan Universiteti nəşriyyatı. 1989, 93 səh.
2. Afad Qurbanov "Müasir Azərbaycan ədəbi dili" "Nurlan" 2003, 450 səh.
3. Buludxan Xəlilov "Müasir Azərbaycan dilinin leksikologiyası". Bakı,"Nurlan" nəşriyyatı. 2008, 442 səh.
4. Nizami Xudiyev "Tərcümə ədəbiyyatı və ədəbi dilimiz" Bakı, Bilik cəmiyyəti. 1991, 112 səh.

İNGİLİS DİLİNDƏ SLENQ VƏ DİLDƏ YARATDIĞI RƏNGARƏNGLİK

Orucova Aytac
Azərbaycan Universiteti
aytacorucova97@yandex.com

İngilis dilindədanışıq zamanı canlılıq, təbiilik yaradan slenqlər "colloquial english" "danışıq dili"nin ayrılmaz bir hissəsidir. Yeniyetmələrdən, gənclərdən alimlərə qədər hər birinin öz aralarında istifadə etdikləri bir qrup slenqlər vardır."Slenq qrup daxili münasibətlərdə istifadə olunan müxtəlif sosial və peşə qruplarını xarakterizə edən parlaq və rəngarəng sözlər və ifadələrdən ibarət leksika sahəsidir" [1]. İşlənmə sahəsinin və məqsədlərinin çoxluğuna görə, slenq müxtəlif sahələrdə çalışan insanlar, leksikoloqlar, sosioloqlar, psixoloqlar və ümumi ictimaiyyət üçün ortaq nöqtədir.

Slenq haqqında bir çox tərifə rast gəlmək mümkündür, ancaq bu tərifl ərin özü üçün də ortaq nöqtə məhz onların "informal" (qeyri-rəsmi) danışıq dilində istifadə edilməsidir. Bunu "Oxford İngilis dili Lüğəti"ndə verilən izahda da görmək mümkündür: "Slang is a type of language consisting of words and phrases that are regarded as very informal, are more common in speech than writing, and are typically restricted to a particular context or group of people" "Slanq qeyri-rəsmi olaraq qəbul edilən, yazıdan daha çox nitqdə yayqın olan və adətən müəyyən bir kontekstdə və ya insanlar qrupu ilə məhdudlaşan söz və ifadələrdən ibarət bir dil növüdür" [6]. "Slenq" sözünün etimologiyası çox da dəqiq göstərilməsə də, iniglis dilində 1700-cü illərin ortalarında ilk dəfə istifadə edildiyi güman edilmiş və icmanın aşağı təbəqəsinə mənsub xüsusi lüğət kateqoriyasına aid edilmişdir. İngilis ədəbiyyatında isə slenq ifadələrinin izləri 16-cı əsrə söykənir.

Dildə yeni bir sözlə qarşılaşanda onu oxuyarkən tələffüzü ilə birlikdə öyrənirik. Məsələn, "standard iniglis dili"nə aid bir sözü eşitməklə öyrənərkən onun tələffüzünə asanlıqla ya lüğətdən istifadə edərək, ya da müəllimdən soruşaraq öyrənmək mümkündür. Çünki tələffüz və yazılış arasında fərqin olması yazıda düzgünlük tələb edir. Bunu eynilə slenqlər üçün demək çox da mümkün deyil. Çünki slenqlər əsasən danışıq dilində istifadə edildiyi üçün məhz onun tələffüzünü düzgün bilməməyin səbəb olması ilə yanlış yazılış problemi üzə çıxmayacaqdır.

İctimai həyat inkişaf etdikcə, tarixi dəyişikliklərlə yanaşı nəsil növbələşməsi ilə gündəlik həyatda danışıq dilində istifadə olunan slenqlər də bu tarixi prosesin iştirakçısına çevrilmişdir. Elə bu səbəbdəndir ki, cavan nəsillə yaşlı nəslin istifadə etdikləri slenqlər arasında fərqlər vardır. Bu tarixi prosesdə slenq ya heç işlənməyə, ya da illər keçdikcə dəyişilib başqa formaya düşə bilər. Məsələn, "really good" (çox yaxşı) mənasında işlənən "super", "groovy" və "hip"slenqləri zamanla "awesome", "rad", "wicked" sözləri ilə əvəzlənmişdir [2]. Bununla yanaşı nəyinsə "wonderful" (möhtəşəm) olduğunu ifadə etmək üçün I Dünya müharibəsindən qabaqki dövrlərdə "top-hole", 1940-cı illərdə "wizard", 1960-cı illərdə "fab", 1970-ci illərdə "ace", "cosmic", 1980-ci illərdə "brill", "wicked" slenqləri istifadə edilmişdir.1980-ci illərdə əsasən Amerikada yayılmış "young upwardly mobile people" (gələcəyə doğru inkişaf edən gənclər) cümləsindəki sözlərin baş hərflərindən yaranmış"yump, yumpie" slenqləri şəhərlərdə işləyən gənc peşəkarlardan ibarət sosial-iqtisadi qrupun üzvləri üçün işlədilmiş və artıq istifadədən çıxmışdır [4].

Bəs slenqlər necə yaranmışdır? Bildiyimiz kimi "standart ingilis dili"nə daxil olan sözlərin böyük əksəriyyəti alınma sözlər olub mövcud sözlərin yeni qrammatik funksiyalarla işlənməsi, qısaldılması, müxtəlif mənalar yaradılması yolu ilə yaranmışdır. Slenqlər haqqında bu fikirdən yola

çıxaraq onun yaranmasının eyni inkişaf yolu keçdiyini vurğulamaq mümkündür. Məsələn, “medico” (həkim, tibb tələbəsi) ispan dilindən alınmış, “kahuna”(bacarıqlı sörfçü) həvayi dilindən götürülmüş və “müdrik insan”, “keşiş”, “mütəxəssis” kimi mənalarda istifadə edilmişdir. Bundan əlavə hərbi sahədə də slenqlər yaranmış, məsələn, bir başqa dildən cümlə şəklində götürülmüş ifadə bir sözlə əvəz edilmişdir. Britanyalı əsgərlər fransız dilindən "il n’y en a plus” (heç nə qalmadı) cümləsindən nida kimi “napoo” , yəni “all gone, finished” (hamısı bitdi), fel kimi “to finish, to kill” (bitirmək, öldürmək), sifət kimi “good for nothing, dead” (işə yaramaz, ölü)mənasına gələn slenq düzəltmişlər [5].

Bədii əsərlərdə bir çox yazıçı slenqlərdən xüsusilə dialoqlarda, obrazların xüsusiyyətlərini ortaya çıxarmaq məqsədilə istifadə edirlər. “Slenqlər qeyri-ədəbi dilə, xüsusilə də danışıq dilinə xas olsa da, üslubi məqsədlə ədəbi və bədii mətnlərdə də geniş istifadə olunan, emosional çalarlıqlı dil vahidləridir”[3]. Mark Tveyn “The Adventures of Huckleberry Finn” (Hucklberry Finn’in Macəraları) əsərində “well now, I’ll be damned”(Yaxşı, indi lənətlənəcəm) cümləsini Cim xarakterinin dilindən “Well now, I be ding-busted” şəklində vermişdir. Bununla “damned” felini “ding-busted” slenqi ilə əvəz etməklə xarakterdə “aşağı” təhsilli bir kölə obrazı yaratmağa çalışmışdır [8].

Dilin maraqlı, eyni zamanda çətin hadisələrindənbiri kimi slenq anlayışı araşdırılarkən dialekt məsələsi də ortaya çıxmışdır. Əsasən də sosial dialekt olaraq sistemləşdirilməsi ilə slenqə müəyyən əraziyə aidlik, müvəqqətilik kimi xüsusiyyətlər aid edilmişdir.Etnik və milli qruplara aid bir neçə slenqə nəzər yetirək: “homey, homie”, yəni“öz evi kimi rahat, dost” mənasına gələn və mənşəyi 1927-ci illərə əsaslanan bu slenq Yeni Zellandiyalılar tərəfindən yenicə gəlmiş britaniyalı miqrantları adlandırmaq üçün istifadə olunurdu. Və ya bəzi İrlandiya ərazilərinin bataqlıq havasından dolayı irlandlar “bog-trotter” “bataqlıq ərazidə yaşayan şəxs”adlandırılmışlar [4].

Sonda deyilənləri yekunlaşdıraraq demək olar ki, ingilis dilinin leksikoqrafiyasında 20-ci əsrin əvvəllərində meydana gəlmiş “slenq” mürəkkəb, maraqlı dil hadisəsi kimi yaranması ilə dilin və dilin aid olduğu cəmiyyətin tarixi, sosial, mədəni meyarları ilə əlaqəli olmuşdur.

Açar sözlər: slenq, sosial dialekt, danışıq dili, qeyri-rəsmi dil.

Ədəbiyyat

1. Félix Rodríguez González “Youth and Student Slang in British and American English:An Annotated Bibliography”. Universidad de AlicanteRevista Alicantina de Estudios Ingleses7 (1994): 201-12.
2. George Yule “The Study of Language”. Cambridge University Press, 2010.
3. Xuraman Məmmədova “İngilis dilinin leksik inkişafında etnoqrafik fonun rolu”. Bakı-2015.
4. John Ayto “The Oxford Dictionary of Slang”. Oxford University Press, 1998.
5. Julie Coleman “TheLife of Slang”. Oxford University Press, 2012.
6. Oxford Dictionary of English. Oxford University Press, 2010, 2017, 2019.
7. Saliyeva D.O. “Etymology of Slang: Its origin and definition” Kazakhstan, Astana, L. N. Gumilyov Eurasian National University, 2018.
8. Tim Pedersen “The Use of Slang in British English” The University of Kalmar Spring, 2007.

YENİYETMƏLƏRİN ÖZÜNÜ AKTUALLAŞDIRMASINA MANEƏ OLAN BƏZİ AMİLLƏRƏ DAİR

Orucova Sevinc
Bakı Dövlət Universiteti
sevincorucova@gmail.com

Müasir dövrdə yeniyetmələrin və məktəblilərin özünüaktuallaşdırması vacib amil kimi diqqət mərkəzindədir. Ənənəvi təhsildən fərqli olaraq bugünkü təhsil özünüaktuallaşdırma, özünütəsdiq və humanist prinsiplər üzərində qurulmuşdur. Nəzərə almaq lazımdır ki, yeniyetməlik yaş dövrü təlim-tərbiyə prosesində, habelə şəxsiyyətinin inkişaf prosesində mühüm yer tutur. Təlim-tərbiyə prosesində hərtərəfli inkişaf etmiş şəxsiyyətin formalaşmasına yönəlmiş tədbirlər sistemində yeniyetmələrin özünüaktuallaşdırmasının psixoloji əsaslarının işlənib hazırlanması mühüm vəzifə kimi qarşıda durur.

Yeniyetmələrin tərbiyəsində müəllim və tərbiyəçilər öz məqsədinə o zaman nail olur ki, onlar yeniyetmələrdə öz şəxsi idrak fəaliyyətini idarə etmək bacarığını formalaşdırır. Bu, özünüaktuallaşdırmaya gedən yoldur. Burada sadəcə yeni insanın şəxsi keyfiyyətlərinin tərbiyəsi deyil, birgə tədris fəaliyyətində fərdi özünüifadə tələbatının, üsullarının, formalarının yeni strukturunun qurulması şərtidir.Faktlar göstərir ki, bu sistem düzgün qurulmadıqda yeniyetmə özünü neqativ yönümdə, antisosial davranışda aktuallaşdırır və cəmiyyətə yararlı vətəndaşa çevrilə bilmir.Bəs görəsən yeniyetmələrdə özünüaktuallaşdırmaya hansı amillər maneə olur? Onları aradan qaldırmaq olarmı? Qeyd etmək lazımdır ki, özünüaktuallaşdırma səviyyəsinə çatmış insan bütün istedadını, qabiliyyət və potensialını tam şəkildə istifadə etməyə çalışır. Özünüaktuallaşdırma insanların öz potensialından maksimum istifadə etməklə əldə etdiyi zirvədir. A.Maslounun sözləri ilə desək, musiqiçi musiqi ilə, rəssam rəssamlıqla, şair şeir yazmaqla məşğul olmalıdır. Onda onlar özləri kimi olacaqlar. İnsanlar öz təbiətlərinə sadiq olmalı, hansı sahədə özlərini təsdiq edə bilirlərsə, o sahəni seçməlidirlər. Həyatı boyunca özünüaktuallaşdıra bilən insanlar əhalinin bir faizdən az hissəsini təşkil edir [6, s.238]. Əgər potensial bütün insanlarda mövcuddursa, bəs onda niyə şagirdlərin, xüsusilə də yeniyetmələrin çox hissəsi özünüaktuallaşdıra bilmir və ya bu prosesdə gerçək olmayan vasitələr seçirlər?

Müxtəlif tədqiqatlarda [2; 4; 6] bu suala müxtəlif cür cavab verirlər. Tanınmış alim Ə.Əlizadə [1] hesab edir ki, insnaların özünüaktuallaşdıra bilməməsinin səbəbləri subyektiv və obyektivdir. Bəzi hallarda şərait buna imkan vermir, digər hallarda isə insanın özü bunu istəmir. D.A.Leontyevin fikrincə, bir çox insanlar isə sadəcə olaraq öz potensiallarını görmürlər. Onun mövcudluğundan xəbərsizdirlər və özünüaktuallaşdırmanın faydasını anlamırlar [9, s.33]. Bu insanlar öz qabiliyyətlərinə şübhə ilə yanaşır, hətta ondan qorxurlar və bununla da özünüaktuallaşdırma şanslarını azaldırlar. Bu halı A. Maslou "İona kompleksi" adlandırmışdır. Bu insana özünütəkmilləşdirməyə mane olan müvəffəqiyyət qorxusu ilə təzahür edir.

Yeniyetmələrin özünüaktuallaşdırması üçün əlverişli təhsil mühiti olmalıdır. Elə bir təhsil mühiti ki, məktəbli burada öz potensialını tam şəkildə açа bilsin. Şagirdlərin özünüaktuallaşdırmasına mane olan səbəblər çoxdur. Xüsusilə təhlükəsizlik tələbatının yaratdığı mənfi təsirləri xüsusi qeyd etmək olar. İnkişaf insanda daimi risk etmək, sərf etmək, köhnə vərdişlərdən imtina etmək bacarığını tələb edir. Bu isə cəsarətli olmağı tələb edir. İnsanda qorxu və həyəcanı gücləndirən hər şey onun təhlükəsizlik və müdafiə axtarışına qayıtmaq meylini də gücləndirir [6].

Həqiqətdir ki, insanların çoxu spesifik vərdişləri saxlamağa meyil edirlər, daha dəqiq, köhnə davranış tərzinə maraq göstərirlər. Bu baxımdan özünüaktuallaşdırma tələbatının gerçəkləşməsi üçün məktəblilərin yeni ideya və sınaqlara açıq olmağı gərəkdir. Təhlükəsiz, mehriban, qayğıkeş mühitdə tərbiyə alan uşaqlar inkişaf prosesi haqqında daha sağlam təsəvvürlərə malik olurlar. Qısası, sağlam şəraitdə, insanın əsas tələbatlarının ödənilməsinə heç nə mane olmadıqda insanın inkişaf prosesi ona məmnunluq gətirir və insan mümkün qədər yaxşı oxumağa çalışır.

Ümumiyyətlə, psixoloji ədəbiyyatın təhlili göstərir ki, özünüaktuallaşdırma maneələrinin bir neçə növünü ayırd etmək olar: məna maneələri, koqnitv maneələr, emosinal maneələr və s. Bununla yanaşı motivasiya və prosessual maneələrindən də danışırlar. Bu maneələr koqnitiv, affektiv və davranış sferalarında özünü təzahür etdirir. Yeniyetmələrin özünüaktuallaşdırmasında eləcə də, təhsildə və təlim fəaliyyətində daha çox rast gəlinən maneələrdən biri də məna maneləridir. Bu həm şagirdin və ya tələbənin özünügerçəkləşdirməsində, həm də onun mənimsəmə imkanlarında özünü göstərir. Məna maneələri dedikdə yeniyetmənin özünə və öz dünyagörüşünə olan münasibətin məhdudlaşdırılmasıdır. Məna maneələrini insan əksər hallarda özü yaradır. Belə vəziyyətdə mənanın və şəxsiyyətin dəyərlərinin qeyri-dəqiqliyi özünü göstərir. Məna maneələri olduqda şagird öz həyatını müəyyən dəyərlər üzərində qura bilmir və onun üçün ən əhəmiyyətlisinin nə olduğunu dərk etmir. Məna maneələri ilə yanaşı intellektual maneələr də mövcuddur ki, həmin maneələr istər təlim fəaliyyətində, istərsə də özünüaktuallaşdırmada mühüm maneələrdir. Bu manelər olduqca çoxdur. Bunların içərisində ən çox diqqəti çəkən intellektual passivlikdir. Yəni müəyyən intellektul qabiliyyətlərin olması şəraitində belə şəxs xüsusi səy göstərmir və lazımi intellektual fəaliyyət proqramını həyata keçirmir.

Özünüaktuallaşdırmada emosional maneələr də bu prosesə neqativ təsir göstərən baryerlərdən biridir. Bu maneələr digərlərindən daha çox özünüaktuallaşdırmanı əngəlləyir. Emosional maneələrə fövqələdə dərəcədə yüksək həyacanlılıq daxildir. Həyacanlılıq vəziyyəti sosial qeyri-sabitlikdən və təhlükəsizlik hissinin itirilməsi qorxusundan yaranır. Qeyri-sabit ölkələrdə insan təşvişə meyillənir. Onun təhlükəsizliyə olan tələbatı frustrasiyaya uğrayır. Belə hallarda insan özünü toplaya və özünüaktuallaşdırma strategiyasının istiqamətlərini müəyyənləşdirə bilmir. Bu zaman yeniyetmələr daha çox başqalarının məsləhətinə qulaq asır və özü zəruri qərarlar qəbul edə bilmir. Apardığımız eksperimentlər də göstərdi ki, yeniyetmələrin özünüaktuallaşdırmasının peşə seçiminə təsiri zaman tələbatlarının ierarxiyasında təhlükəsizliyə olan tələbatla (r=0,004 səviyyəsində, p= -0,554) və şəxsiyyətlərarası münasibətlərə tələbatla özünüaktuallaşdırma arasında əlaqə var və bu əlaqə əhəmiyyətlidir (r=0,42, p=3.014). Həmçinin öünüaktuallaşdırmanın dəstək şkalası ilə peşə seçimi arsında əlaqə (Sig.= 0.009, p=0,01) özünü göstərir [2]. Digər şkalalarla əlaqə də müsbətdir və əhəmiyyətlidir. Bu onu göstərir ki, yeniyetmələr valideynlər və müəllimlər tərəfindən peşə seçiminə ciddi dəstək duyurlar. Bütün bu faktları nəzər alıb belə bir qənaətə gəlmək olar ki, özünüaktuallaşdırma şəxsiyyətin inkişafı prosesində bir mərhələdir. Ancaq ən yüksək mərhələdir. Öz potensialını dərk etmək, onu üzə çıxarmaq, özünün kimliyini dərk etməkdən daha çətindir. Bu xüsusi fərdiləşmə və özünüaxtarma yoludur. Bugünkü cəmiyyətə özünüyaradan və aktuallaşdıran gənclər hava, su kimi lazımdır. Çünki inkişaf, dəyişilmə, yeniləşmə bunu diktə edir. Müəllim və pedaqoqlar, təhsil işçiləri bu kontekstdən çıxış etməli və cəmiyyəti inkişaf etdirən, özünüaktuallaşdıran insanlar yetişdirməlidirlər.

Açar sözlər: yeniyetmələr, özünüaktuallaşdırma, təlim fəaliyyəti, maneə rolunda çıxış edən amillər.

Ədəbiyyat

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. (2008). Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, 2008, 479 s.
2. Sevinj Orujova. (2019) Gênero e Direito Centro de CiênciasJurídicas -Universidade Federal da ParaíbaV. 8 -Nº 07 -Ano 2019, http://periodicos.ufpb.br/ojs2/index.php/ged/inde
3. Yashchenko EF (2006) Features of self-actualization of students with different professional orientations, Psychological Journal, 2006, Volume 27, No. 3, pp. 31-41.
4. Age and pedagogical psychology: anthology: Textbook. allowance for students of higher education institutions / Comp. I.V. Dubrovina, A.M. Parishioners, V.V. Zatsepin. 2nd ed. M.: Publishing Center "Academy", 2008, 368.
5. S.Grokholskaya O.G. (2011). Introduction to professional activity: textbook. manual for universities. M .: Bustard, 191 p.
6. Maslow A . (2008). Motivation and Personality 3rd ed. / Per. from English St. Petersburg: Peter, 2008.
7. Cohen S., Doyle W., & Alper C. Sleep Habits and Susceptibility to the Common Cold. Archives of Internal Medicine 2009, 169(1), 62-67.
8. Cares R.C., Blackburn R.T. (1978). Faculty self-actualization: Factors affecting professional selectionsuccess. Research in Higher Education, 9, 123-136
9. Леонтьев Д.А . Самоактуализация как движущая сила личностного развития: историко-критический анализ, Современная психология мотивации, Под ред. Д.А. Леонтьева. М.: Смысл, 2002. с.13–46.

МОЛОДЕЖНАЯ ПОЛИТИКА В КОНТЕКСТЕ ВОЛОНТЕРСТВА И ГЕНДЕР

Гасымлы Кенуль
Университет Азербайджан
Kenul888@mail.ru

В сложный геополитический период конца XX века Азербайджан вновь приобрел государственную независимость. Эта эпоха одна из самых славных страниц в истории Азербайджанского народа. Укрепить суверенитет страны намного сложнее, чем его завоевание. Такую ответственную миссию взял на свои плечи выдающийся политик времени Гейдар Алиев, и он стал общенациональным лидером своего народа. Создавая идеологию “Азербайджанств ”он смог объединить народ вокруг себя.

Гейдар Алиев вел многостороннюю политику. Основное направление в его деятельности занимало создание современного общества с помощью развития интеллектуальных ресурсов, а также модернизации образовательной и научной системы. Учитывая важность образования и науки Гейдар Алиев предпринял несколько реформ в этой сфере. Переход на двухступенчатую форму высшего образования в вузах, а также создание частных секторов, открытие филиалов многих вузов в регионах дали хорошие результаты за короткий срок. Превращения всех институтов в университеты дали им автономию и финансовые возможности высшим образовательным учреждениям.

Одним из приоритетных направлений многоаспектной политики Гейдара Алиева стало повышение внимания к молодому поколению, обеспечение активного участия молодежи в социально-экономической, общественно-политической жизни нашей республики, ведь – молодежь является будущим и надежной народа. Учитывая важность осуществления “Молодежной политики” в стране 26 июня 1994 г. Гейдар Алиев издал указ о создании “Министерство молодежи и спорта” [1] Одной из важных задач, поставленных перед министерством, стало воспитание подрастающего поколения в духе любви к родине, народу, удовлетворение нравственных нужд, решение социально-экономических проблем молодежи, создания реальных условий для всестороннего развития молодого поколения.

Форум молодежи независимого Азербайджана, проведенный 2-го февраля 1996 года по указу Президента Гейдара Алиева, имел большое значение в обеспечении выполнения этой важной задачи [2].

1 февраля 1997 года Гейдар Алиев подписал указ об объявлении 2-го февраля “Днем молодежи” , а также была создана “Золотая книга” молодых талантов и Фонд помощи им.

Сегодня молодежь Азербайджана, используя цивилизационные интеллектуальные формы и методы, принятые в мире рассматривает разные проблемы молодых, вносит свой вклад в социально-экономическое, нравственно-культурное развитие нашего общества.

Одним из таких главных вопросов молодежей является образование и гендерное равество. Гендерное равенство во все большей степени признается в качестве необходимого условия процесса устойчивого развития и формирования действенной национальной политики и программ в области развития. С годами потребность в гендерной статистике возрастает вследствие принятия международных конвенций и учета гендерного фактора в проводимой политике.

Одной из важных задач является преодоление профессиональной сегрегации на занятия, традиционно воспринимаемые как «мужские» и «женские», и открытие их для представителей обоих полов. Женщины часто не знают о своих законных правах и ролевых моделях, и поэтому медленно осваивают профессии, в которых традиционно преобладают мужчины. Молодые женщины, особенно в развивающихся странах, сталкиваются с препятствиями в форме дискриминации и гендерных стереотипов, когда они стремятся получить образование. В неформальной экономике аналогичные подходы проявляются в системах ученичества для девушек и юношей.

В этом году наряду с образование гендерная политика также проявляется в сфере добровольческой деятельности , где юноши и девушки участвовали в социально – общественном жизни страны."Азербайджанский народ веками сохранял традиции доброжелательности, самоотверженности, добровольной и безвозмездной помощи".

Азербайджанский лидер поручил Кабинету министров АР в месячный срок подготовить и представить президенту план мероприятий относительно объявления 2020 года в "Годом волонтеров". И так Президент Ильхам Алиев объявил 2020 год в Азербайджане «Годом волонтеров» [3].

Социальные проекты “Волонтерства” были направленны на развития молодежей. Были созданы ASAN, Общественное объединение «Региональное развитие», и другие волонтерские движения, в центральных и местных органах исполнительной власти сформированы волонтерские группы, объединяющие десятки тысяч молодых людей.

Молодежная организация «Добровольцы ASAN» объединяет добровольцев, работающих в центрах службы ASAN. Организация была создана в 2013 году.

На одном из церемоний председатель Государственного агентства по обслуживанию граждан и социальным инновациям при президенте Азербайджанской Республики Ульви Мехтиев заявил: до сих пор организация «Добровольцы ASAN» осуществила почти 300 проектов, в которых приняли участие в общей сложности 30 тысяч молодых людей [4].

Молодежная политика является составной частью государственной политики Азербайджана, которая неустанно стремится поддержанию статусу подрастающего поколения.Отношение к молодежи всегда будет актуальной для государства современного общества.

Ключевые слова: независимое государство, образование, современное мышление, гендерные стреотипы, волонтерсто, молодежная политика.

Литература

1. Указ Президента Азербайджанской Республики Г.Алиева об образовании “Министерство молодежи и спорта” Газ. Азербайджан-27.07.1994 г.
2. В.Алиев “Г.Алиев и современная молодежь» Журнал “История и ее проблемы” 2003, № 3, ст. 235-236.
3. https://www.trend.az/azerbaijan/politics/3171635.html
4. https://ru.oxu.az/society/257136

Könüllülük və gender kontekstində gənclər siyasəti

XX əsrin sonları Azərbaycan yenidən istiqlalına qovuşdu.Müstəqilliyi qorumaq onu qazanmaqdan daha çətindir.Görkəmli siyasətçi Heydər Əliyev bu missiyanı öz çiyinlərinə götürdü.Müəllifi oldugu azərbaycanlılıq ideologiyası vasitəsilə xalqın birləşdirdi.

Heydər Əliyevin çoxvektorlu fəaliyyətinin tərkib hissəsini gənclər siyasəti təşkil etdi.Bu siyasət bu gün prezident İlham Əliyev tərəfindən ugurla davam etdirilir.

Təhsil strategiyası və gender bərabərliyi Gənclər Siyasətinin əsas istigamətlərindəndir.2020 – ci ilin Könüllülər ili elan edilməsi bu siyasətin əhəmiyyətinin göstəricisidir.

MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN–BELARUS ƏDƏBİ ƏLAQƏLƏRİ

Qədirova Məlahət
Az.MİU-nun nəzdində İnşaat Kolleci
melahet.soltanqizi@mail.ru

XX əsrin sonu–XXI əsrin əvvəllərindən etibarənAzərbaycan-Belarus ədəbi əlaqələri xeyli genişlənmişdir. Ədəbi əlaqələrin hərtərəfli inkişafında respublikamıza gələn belarusiyalı alimlərin, yazıçı və publisistlərin xüsusi əməyi vardır. Onların bir qismi vətənə döndükdən sonra öz ölkələrinin müxtəlif mətbu orqanlarında burada tanış olduqları və qarşılıqlı fikir mübadiləsi etdikləri azərbaycanlı alim, yazıçı və mədəniyyət xadimləri ilə görüşləri haqqında məqalələr, publisistik yazılar, oçerk və reportajlar nəşr etdirir. Azərbaycana aid səfər təəssüratları və bədii nümunələri qələmə alırlar.

2009-cu ildə Azərbaycan-Belarus Dostluq və Əməkdaşlıq Cəmiyyəti yaradılmışdır. Bu qeyri-formal təşkilata görkəmli azərbaycanlı alim, akademik Arif Mehdiyev rəhbərlik edir. Cəmiyyətin aktiv fəaliyyəti Belarus rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bu səbəbdəndir ki, cəmiyyətin 4 üzvü (Arif Mehdiyev, Ziyad Səmədzadə, Zərifə Salahova və Xanlar Fətiyev) Belarusiya dövlət mükafatlarına layiq görülmüşdür.

2009 və 2010-cu illərdə Dostluq və Əməkdaşlıq Cəmiyyətinin üzvü və Bakı Miniatür Kitab Muzeyinin yaradıcısı Zərifə Salahovanın təşəbbüsü və bilavasitə iştirakı ilə Belarusiyanın Milli Kitabxanasında miniatür kitabların sərgisi təşkil edilmişdir. Həmin Cəmiyyət vasitəsi ilə reallaşdırılmış mühüm layihələrdən biri 2010-cu il 04 iyunda Bakı Slavyan Universitetində Belarus Dili və Mədəniyyəti Mərkəzinin açılması olmuşdur.

İki müstəqil ölkənin teatr kollektivləri arasında da əməkdaşlıq geniş şəkildə inkişaf etməkdədir.2011-ci ildəBelarus Respublikasının Milli Akademik Böyük Opera və Balet Teatrında Qara Qarayevin "Yeddi gözəl" baletinin səhnəyə qoyulması əlamətdar bir hadisə idi. Tamaşanın uğuru nəinki Belarusda Azərbaycan musiqisinə, həm də bütövlükdə Azərbaycana marağı artırmışdır.

2011-ci ildə nəşr olunan "XX əsr dünya ədəbiyyatı antologiyası" -nin III cildində Belarus yazıçısı Vasil Bıkovun "Estafet" adlı hekayəsi dərc olunub[1,69-76]. Hekayəni Azərbaycan dilinəNəriman Əbdülrəhmanlı tərcümə etmişdir.

2013-cü ildə başqa bir belarus yazıçısı Ales Karlyukeviçin "Dələ inşa yazır" adlı nağıllardan ibarət kitabı S.Nuruqızı tərəfindən rus dilindən Azərbaycan dilinə tərcümə olunmuşdur.

2015-ci il 23 may tarixində "525-ci qəzet"də İsfəndiyar Vahabzadənin tərcüməsində Belarus xalq şairi Yanka Kupalanın "Ulduzlar","Kədərliyəm, ya Rəbbim!","Xoşbəxtlik" adlı şeirləri dərc olunub.Həmin ildə "Azərbaycan"jurnalının 12-ci sayında Belorus yazıçısı Ales Badakın "İdeal oxucu "adlı hekayəsi dərc olunub. Eyni ildə Belorus yazıçısı Ales Karlyukeviçin "Şuburşunun macəraları" adlı kitabı S.Nuruqızı tərəfindən rus dilindən Azərərbaycan dilinə tərcümə olunub [2, s.61].

Belarus yazıçısı, Nobel mükafatı laureatı Svetlana Aleksiyeviç dünyada çox nüfuzlu bir yazıçı olmasına baxmayaraq onun əsərləri yalnız Azərbaycanın müstəqilliyi dövründə dilimizə tərcümə olunmuşdur."Müharibənin qadın olmayan üzü"romanı 2016-ci ildə Əyyub Qiyas tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq "Qanun" nəşriyyatında işıq üzü görmüşdür [3, s.400]. Elə həmin ildə yazıçının "Sonuncu şahidlər" adlı əsəri Kifayət Haqverdiyeva tərəfindən rus dilindən Azərbaycan dilinə tərcümə olunaraq"TEAS. Press Nəşriyyat evi "ndə çap olunmuşdur [4, s.316].

Müstəqillik dövründə eyni zamanda Svetlana Aleksiyeviçin əsərləri Azərbaycan ədəbiyyatşünasları tərəfindən geniş təhlilə cəlb olunmuşdur. "Azərbaycan"jurnalının 2016-cı il 03 sayında Qazi Vahidin "Qırıq talelərin pazl tablosu"adlı məqaləsi dərc olunmuşdur. Müəllif Belarus yazıçısı Svetlana Aleksiyeviç və onun "Vremya cekond xend" kitabı ilə bağlı düşüncələrini paylaşır.

2017-ci ilin26 iyul tarixində"Mütərcim" nəşriyyatı tanınmış Belarus yazıçıları Nikolay Çergineç, Ales Badak və Georgi Marçukun kitablarını Azərbaycan dilində çap edib. Kitabları Azərbaycan dilinə tanınmış ədəbiyyatşünas, yazıçı və tərcüməçi Kamran Nəzirli çevirib.

Nikolay Çergineçin "Oğullar" adlı kitabına yazıçının eyniadlı romanı daxil edilib. Romanda mənasız "əfqan müharibəsi"ndən bəhs edir; bu müharibədə iştirak edən yazıçı həm əfqan-sovet döyüşçülərinin dostluğunu, həm də gözüyaşlı sovet analarının iztirab və qayğılarını qələmə alıb.

Ales Badakın hekayələr kitabına onun son illər yazdığı "Görüntünün o biri üzü", "İdeal oxucu", "Yağışdan qurtulan gün" və digər hekayələri daxil edilib. Georgi Marçukun "Qorın çayının adamları" adlı kitabında isə tanınmış yazıçının etüd və hekayələri yer alıb.

2018-ci ilin 03 oktyabr tarixində "Bizim yol" qəzetində Minsk yazıçılar ittifaqının sədri Ales Karlyukeviçin ədəbiyyatşünas alim İradə Musayeva ilə "Nobelçilərin əksəriyyəti publisist yazarlardır"adlı müsahibə dərs olunub.Həmin ildəAzərbaycan Tərcümə Mərkəzinin növbəti beynəlxalq nəşri – XX əsr Azərbaycan poeziyasının mənzərəsini əks etdirən "Müasir Azərbaycan ədəbiyyatı antologiyası– Poeziya" kitabı Belarusda işıq üzü görüb. Kitabı Belarus dilinə tanınmış Belarus şairləri Naum Qalperoviç, Tatyana Sivets, Yuliya Aleyçenko, Valeriya Sarotnik tərcümə edib.Azərbaycan və Belarus ədəbi münasibətləri tarixində ilk hadisə olan bu nəşr Belarusun "Zvyazda" nəşriyyatı tərəfindən çap olunub və 2019 cu il 02 fevral tarixində XXVI Minsk Beynəlxalq Kitab Sərgisində təqdim edilib.

Belarus –Azərbaycan ədəbi əlaqələri sovet dövrü ilə müqayisədə respublikamızın müstəqilliyi dövründə daha geniş vüsət almışdır. Tərcümə olunan yeni –yeni əsərlər, qarşılıqlı səfərlər, görkəmli sənət adamlarının resepsiyaları bunu özündə əks etdirir.

Açar sözlər: müstəqillik, ədəbi əlaqələr, tərcümə,poeziya, nəsr, yazıçı, dünya mədəniyyəti.

Ədəbiyyat

1. XX əsr dünya ədəbiyyatı antologiyası" III cild, Bakı,"Şərq-Qərb",2011, 488 s., səh.69-76.
2. Ales Karlyukeviç . "Şuburşunun macəraları" Bakı, Təhsil, 2015,61s.
3. Svetlana Aleksiyeviç."Müharibənin qadın olmayan üzü". Rus dilindən tərcümə edən: Əyyub Qiyas. Bakı, "Qanun Nəşriyyatı, 2016, 400 s.
4. Svetlana Aleksiyeviç "Sonuncu şahidlər". Rus dilindən tərcümə edən: Kifayət Haqverdiyeva. Bakı.TEAS. Press Nəşriyyat evi, 2016, 316 s.

YENİYETMƏLİK DÖVRÜNDƏ MEYDANA ÇIXAN SOSİAL-PSİXOLOJİ PROBLEMLƏR

Qənbərova Mehriban
Azərbaycan Universiteti
mehriban.ganbarova@student.au.edu.az

Çağdaş qloballaşan dünyada gedən iqtisadi, siyasi, sosial və mənəvi proseslər bəşər həyatının bütün sahələrində olduğu kimi, uşaq, yeniyetmə və gənclərin həyatında da ciddi dəyişikliklərlə müşaiyət olunur. Yad mədəniy-yətlərin doğmalaşması, onların təsirinin genişlənməsi, inteqrasiya proseslərinin sürətlənməsi cəmiyyətə dəyərlər sisteminin məzmununa əsaslı olaraq təsir edir, gənc nəslin tərbiyəsi və təlimi məsələlərinin həyata keçirilməsinə maneə törədən yeni problemlər yaranmış olur.

Yeniyetməlik dövründə hisslər güclü təzahür etmiş olur: bu yaşda adətən çılğınlıq, tündxasiyyətlilik, hövsələsizlik müşahidə olunur. Bəzi yeniyetmələrin özlərini cilovlaya bilməməsi, davranış və rəftarlarında kobudluq və qabalıq, habelə özünənəzarətin zəifliyi bununla əlaqədardır.

Yeniyetmədəki belə hallar çox vaxt ədalətsizlikdən, yorğunluqdan, kollektiv və yoldaşlarının mənfi rəftarından yaranır. Yeniyetmələrdəki belə neqativ halları çox zaman yaşın "böhranı" kimi də qeyd edirlər. Real olaraq isə bunu yaşın çətinlikləri kimi qiymətləndirmək daha düzgün olar.

Yeniyetmənin əxlaqi və mənlik şüurunda gedən dəyişikliklər onun psixi simasında yeni bir əlamətin – "yaşlılıq hissi və meylinin" əmələ gəlməsinə gətirib çıxarır. "Yaşlılıq hissi" yeniyetmə şəxsiyyətinin əsas cəhəti, əlamətidir. O, yeniyetmənin yeni sosial mövqeyini, dinləyici uşaq əxlaqından yaşlıların bərabər -hüquqlu əxlaqına keçidi, yaşlılar aləminə sürətlə və bərabərhüquqlu üzv kimi daxil olmağı əks etdirir. Yeniyetmədə şəxsi ləyaqət hissini qorumaq və təsdiq etmək cəhdləri güclənir.

Böyük Ukrayna pedaqoqu V.A.Suxomliniski yeniyetməlik yaşı dövrünü "vətəndaş doğulması" dövrü adlandırmışdır. O yazırdı: " Yeniyetməlik illərinə daxil olmaq elə bil insanın üçüncü dəfə doğulmasıdır" [3].

Professor Ə.Ə.Əlizadəyə görə, yeniyetməlik yaşı dövründə "yaşlılıq hissi" nin formalaşmasının başlıca mənbəyi birbaşa cinsi yetişkənliklə əlaqəli deyil. Hətta yaşlılıq hissi cinsi yetişmənin başlanmasına kimi də ortaya çıxa bilər, yəni mənşəcə tamamilə sosial mahiyyətli ola bilər [1].

Yaşlılıq hissi yeniyetmənin aktiv surətdə ətrafdakıların onu yaşlı adam, böyük kimi qəbul etmələrinə istiqamətlənmiş davamlı cəhdlərində, söz və rəftarlarında öz əksini tapır. Həqiqətən də 13-15 yaşlı yeniyetmələrin bu nəticəyə gəlməsi üçün müəyyən obyektiv əsasları olur: boy, cinsi yetişmə və çəki artımının nəticəsi olan ictimai həyata fəal müdaxilə, xarici dəyişkənliklər, əldə edilmiş müvəffəqiyyətlərə əsasən yaşlıların rəğbətinə malik olma onların davranışında başlıca meyara çevrilir.

Böyükləri təqlid etmə (yamsılama) yolu ilə yaşlılar aləminə daxil olmağa çalışan yeniyetmələr elə onlar kimi saç düzəltdirməyə, geyinməyə, dəbdə olan paltar almağa meyl edir, makiyaja, kosmetik vasitələrə maraq edir, əl çantası, güzgü, daraq gəzdirirlər. Həqiqətdə isə yaşlılığın bütün sirlərini ilk vaxtlar yeniyetmələr elə xarici görkəmin cizgilərində axtarırlar. Yeniyetmə qızlarda "qadın", oğlanlarda isə "kişi" etalonu potensial rolun nümunəsi kimi görünür. Onların rəftar və davranışında müvafiq rolun daşıyıcı xüsusiyyətləri, sərvət meylləri formalaşmağa başlayır [4].

Yeniyetmələrin düzgün tərbiyəsi ona ehtiyac duyur ki, yeniyetmələr ilə yaşlı-uşaq münasibəti deyil, yaşlı-yaşlı münasibəti kimi təşkil olunsun. Araşdırmalar sübut edir ki, yaşlılar yeniyetmələrlə öz əvvəlki münasibətlərini dəyişmirlərsə, bu vaxt böyük narazılıqlar yarana bilir. Bu münasibətlər aşağıdakı şəkildə ola bilər:

1.Valideyn yeniyetmə ilə öz münasibətini dəyişmir və bu vaxt yeniyetmə ilə arasında olan çətinliklər getdikcə artır, ziddiyyətlər dərinləşir. Bu da yeniyetmənin ciddi etirazlarına səbəb ola bilir. O, söz dinləmir, müqavimət göstərir və s.

2. Valideyn yeniyetmə təzyiqinin təsiri ilə spesifik görüşlərinə zidd olaraq əvvəllər icazə vermədiklərinə sonra icazə verir. Ancaq valideyn belə hərəkətlərində heç ardıcıllıq nümayiş etdirmir. Bu vaxt yeniyetmə və valideyn arasında ziddiyyətlərin sayı bir qədər azalsa da yenidən baş verdikdə valideynlər çıxılmaz vəziyyətdə qalır. Yeniyetmə bir neçə dəfə onun keçən dəfə verdiyi qərara əsasən təqsirləndirir və növbəti güzəştə nail olur.

3. Ən doğru davranış yolu. Valideynlər müəyyən vaxt keçdikdən sonra yeniyetməni daha uşaq hesab etmirlər. Bir dəfə onunla hesablaşır və davranış üslublarını uyğun şəkildə dəyişirlər. Nəyə icazə olar, nəyə icazə olmaz bunu planlaşdırırlar və sabit düşüncəli olaraq onu yerinə yetirirlər. Bu cür olduqda çətinliklər dəf edilir. Yeniyetmə və valideyn arasında olan ziddiyyətlərin olmamasına görə valideyn və müəllimlər yeniyetmə şəxsiyyətinə, onun sosial mövqeyinə, şəxsi ləyaqətinə, mənliyinə hörmət hissi ilə yanaşmağı bilməlidirlər. Deyilənləri nəzərə alaraq, belə fikrə gəlmək olar ki, valideynlər yeniyetməlik dövründə uşaqları ilə səmərəli vaxt keçirməli, onların problemlərini

dinləməli və onları başa düşməyə cəhd etməlidirlər, əks təqdirdə uşaqlarda deviant davranış, davranış pozuntusu meydana gələ bilər.

Açar sözlər: Yeniyetmə, problem, dəyişiklik, fərq, sosial.

Ədəbiyyat

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: 2003, 356 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Çinar-çap, 2003, 566 s.
3. Dönər Ə. Yeniyetməlik dövrünün yol xəritəsi. Bakı: Xəzər nəşriyyatı, 2009, 28 s.
4. Əzimli Q.E. Yaş və pedaqoji psixologiyanın müasir problemləri. Bakı: Elm və təhsil, 2006, 185s.

ALMAN DİLİ DƏRSLƏRİNDƏ OYUNLARIN TƏTBİQİ

Quliyeva Səadət
Azərbaycan Dillər Universiteti
b.rahima23@mail.ru

Hər dərsi maraqlı, əyləncəli və tələbənin yaradıcılıq fəallığını inkişaf etdirmək üçün nə etmək lazımdır? Məlum olduğu kimi, hal – hazırda xarici dilin tədrisi dilin praktiki mənimsənilməsini təmin etməyi nəzərdə tutur. Bu məsələ xarici dil müəllimindən tədrisin ilk addımlarından, hətta ibtidai səviyyə olsa belə, öyrənilən dildə ünsiyyət qurmaq bacarıqlarını öyrətməyi, tələbələrin sonrakı kommunikativ fəaliyyəti üçün əsas yaratmağı tələb edir. Ünsiyyət qurmaq təlimində effektiv üsullardan biri rollu oyunlar hesab edilir, çünki onlar nitq fəaliyyətini təbii normalara yaxınlaşdırır, ünsiyyət bacarıqlarını inkişaf etdirməyə köməklik edir, tədrisin praktiki istiqamətini təmin edir. Oyun tələbələrin öz aralarında əlaqəni inkişaf etdirməyə və möhkəmləndirməyə, həmçinin müəllim və tələbə arasında müəyyən edilmiş səthi keçməyə köməklik edir [3]. Rollu oyunlar rolların bölüşdürülməsi yolu ilə qərarsız tələbələrdə inamı artırmağa təşviq edir. Oyun yeni şəxsi keyfiyyətləri formalaşdırır, davranış qaydalarının mənimsənilməsinə təşviq edir, çünki oyun yalnız öyrətmir, həm də tərbiyələndirir, müəyyən dərəcədə tələbələri dəyişir.

Xarici dil dərsində müxtəlif oyunlardan istifadə olunması əhəmiyyətli formada dili yiyələnməyə imkan yaradır, yaddaşı, diqqəti, zəkanı inkişaf etdirir, xarici dilə marağı artırır. Dərsdə gərginliyi aradan qaldırmaq üçün oyunları ən yaxşısı dərsin ortasında və ya sonunda istifadə etmək lazımdır. Alman dili dərslərində oyunlardan istifadə müəllimə hər bir tələbənin şəxsi potensialını, onun müsbət şəxsi keyfiyyətlərini göstərməyə, tələbələrin alman dilinin tədrisinə olan motivasiyasını artırmağakömək edir.

Müəllimin oyun fəaliyyəti zamanı roluna nə aiddir? Bu zaman o yalnız tədris fəaliyyətini idarə etməməlidir, həm də bəzən özü də oyunda iştirak edə bilər. Bununla yanaşı onun rolu əsas olmamalıdır, əks halda oyun yenə müəllimin idarəçiliyi altında həyata keçəcək. Alman dili dərslərində rollu oyunlardan istifadə zamanı müəllimin diqqəti tələbənin nitq bilikləri, bacarıqları və vərdişlərinin inkişafında toplanır, bu zaman yalnız danışan deyil, həm də dinləyən maksimal dərəcədə aktivdir, çünki o, tərəfdaşın replikasını anlamalı və yadda saxlamalı, onu hadisə ilə əlaqələndirməlidir. Oyun tələbələrin idrak maraqlarının formalaşmasına müsbət təsir edir, xarici dilin şüurlu mənimsənilməsinə imkan verir. Alman dili dərslərində rollu oyunların keçirilməsini müasir həyatın reallıqları ilə əlaqələndirmək olar, deməli, oyun tələbələrixarici dil mühitində gündəlik ünsiyyətə hazırlayır. Oyunları keçirərkən tələbələrin mənimsəmiş olduqları tədris

materiallarını nəzərə almaq lazımdır. Bu oyunları keçirməklə tələbələrin biliklərinin möhkəmləndirilməsinə, fəallığına nair olursan. Alman dilinin tədrisində tələbələrdə kommunikativ vərdişləri inkişaf etdirmək məqsədilə "Kartenspiele", "Eingungsspiele", "Kombinationsspiele", "Verhandlungsspiele", "Würfelspiele", "Dialogspiele" kimioyun nümunələri təqdim olunur [4]. Məsələn:

Einigungsspiele (eyni fikrə gəlmə oyunu)

Yekdil bir fikrə gəlmə oyunu kiçik bir qrup üçündür. Bu oyunda məqsəd bütün tələbələr cümlələri yekdil bir fikrə gələrək tamamlamaqdan ibarətdir. Hər bir tələbə təklif verir və öz yoldaşından razı olub olmadiğını soruşur. Digər tələbə verilən təklifə görə öz fikrini əsaslandırmalı və ya özü yeni təklif verməlidir. Onlar müəyyən nəticəyə gəlirlər və ümumiləşdirilimiş təkliflə razılaşırlar. Məsələn:

A: İch mag Bücher sehr gern. Sie auch?

B: Ja, ich auch.

Nein, ich nicht, weil ... .

A: Wie finden Sie das Buch?

B: Das finde ich gut.

Das finde ich nicht sehr gut, weil ... .

Beləliklə, alman dili dərslərində istifadə olunan rollu oyunlar alman dilinin öyrənilməsi üçün tələbələrdə motivasiya yaratmalıdır ki, dərs tələbələr üçün maraqlı olsun və onlar tapşırıqları həvəslə yerinə yetirsinlər. Rollu oyunlar tələbələrin nitqini inkişaf etdirir, onların bir-biri ilə və müəllim ilə ünsiyyət qurmasını aktivləşdirir. Oyunların sadə və aydın olması tələbələri daha da həvəsləndirir. Tədrisin bütün mərhələlərində oyunlar kommunikativ məqsədin həllinə kömək etmək üçün tətbiq edilir. Alman dili dərslərində istifadə olunan oyunlar tələbələrdə nitq bacarıq və vərdişləri inkişaf etdirir və onların sərbəstliyinə şərait yaradır.

Açar sözlər: ünsiyyət, kommunikativ bacarıqlar, motivasiya.

Ədəbiyyat

1. Qədimova X.H. İnteraktiv təlim metodları və onların tətbiqi yolları. Metodik tövsiyə. Bakı, 2003, 30 s.
2. Veysova Z. Fəal/interaktiv təlim. Metodik vəsait. Bakı, 2007, 149 s.
3. Китайгородская Г.А. Интенсивное обучение иностранным языкам. Теория и практика. М.: Высшая школа, 1982, 250 с.
4. Prange, L. SprechSpiele. Max HueberVerlag, München, 2001, 104 s.
5. Rainer, B. Probleme der Wortschatzarbeit. München, Langenscheidt, 2003, 192 s.

DİSKURS VƏ MÜASİR DİLÇİLİKDƏ MƏTN

Quliyeva Səyyarə
Azərbaycan Dillər Universiteti
sayyarakuliyeva@yahoo.com

Dilçilik elmində bir çox dil termini və anlayışlarının aydın, ümumi qəbul edilmiş bir tərifi var və bu onların elmdə uzun müddət ərzində mözcudluğu ilə bağlıdır. Amma "diskurs" və "mətn" hələ bu obyektlərin mürəkkəbliliyi səbəbindən kifayət qədər uyğun şərh almamışdır. Bu iki anlayış kifayət qədər tutumlu və birmənalı deyil və buna görə də dilçi alimlərin bu sahəni araşdırmasını tələb edir.

1950-ci illərdə nitq nəzəriyyəsini inkişaf etdirən Emil Benvenist, Fransız dilçiliyi üçün ənənəvi olan diskurs terminini yeni bir mənada – "danışana aid nitq" kimi xarakterizə edir. Z. Harris 1952-ci ildə frazadan böyük vahidlərlə bağlı "Diskurs təhlili" adlı məqaləsinin nəşr etdirir. Beləliklə, bu iki nüfuzlu elm adamı fərqli tədqiqat obyektlərini müəyyənləşdirmək ənənəsini qoydular. E.Benvenist diskursu danışanın mövqeyinin açıqlanması kimi başa düşür [2, s.76], Harrisin təhlilində isə diskurs ifadələrin ardıcıllığı, cümlədən böyük mətn kimi izah edilir.

Professot T.A.van Deyk, diskursu geniş mənada (mürəkkəb ünsiyyət hadisəsi olaraq) müəyyənləşdirir. Diskurs özü özlüyündə danışan və dinləyən arasında müəyyən zaman və məkan çərçivəsində baş verən ünsiyyət hadisəsidir. Bu kommunikativ fəaliyyət şifahi, yazılı, verbal və qeyri verbal komponentlərə malik ola bilər. Buna bəsit nümunə olaraq iki dost arasında söhbət, həkimlə xəstə arasında olan dialoq, qəzet oxumaq göstərilə bilər.

Diskurs haqqında danışarkən T.A.va Deyk onu dar mənada kommunikativ fəaliyyətin yalnız şifahi komponenti kimi müəyyənləşdirir və bu barədə "mətn" və ya "söhbət" olaraq izah verir. Bu mənada, diskurs termini, nitqi ifadə edən adam tərəfindən şərh edilən bir ünsiyyət fəaliyətinin yazılı və ya şifahi nəticəsinin tamamlandığı və ya davam etdiyi "məhsulu" kimi ifadə oluna bilər, belə ki, ümumi mənada götürsək diskurs ünsiyyət failiyyətinin verbal və ya qeyri verbal məhsuludur.

Diskurs bir çox elm sahələrinin tədqiqat mövzusudur. Nəzəri dilçiliklə yanaşı, diskursun öyrənilməsi komputer dilçiliyi və süni intellekt, psixologiya, fəlsəfə və məntiq, sosiologiya, antropologiya və etnologiya, ədəbiyyatşünasliq, semiotika, tarixşünaslıq, ilahiyyat, hüquqşünaslıq, pedaqoqika, tərcümə nəzəriyyəsi və təcrübə, siyasətşünaslıq kimi elmləri və tədqiqat sahələrini əhatə edir. Bu sahələrin hər birisi diskurs tədqiqinə özünəməxsus şəkildə yanaşır.

Diskurs anlayışı nitq, mətn, dialoq, üslub və hətta dil haqqında ənənəvi fikirləri dəyişdirir. Diskurs haqqında üç fərqli sinfin nümayəndəsi münasibət bildirir. Birinci sinfin nümayəndələri diskurs terminini linqvistik tətbiq etmişlər, və bu termini ilk dəfə Z.Harris "Diskurs - analiz" məqaləsində işlənmişdir. Diskurs termininin linqvistik ifadəsi özü özlüyündə müxtəlifdir, lakin ümumilikdə nitq, mətn və dialoq anlayışlarına ənənəvi yanaşmanı aydınlaşdırmaq və inkişaf etdirmək cəhdləri var. Diskurs, kommunikativ situasiyaya aid nitq kimi düşünülür və buna görə şəxsin nitq fəaliyyəti ilə müqayisədə daha fərqli bir sosial məzmuna malik bir kateqoriya kimi düşünülür.

Diskurs terminə tərif verən ikinci qrupa daxil olan dilçilər ingilisdilli elmi ənənəyə malik olan alimlərdir. "Diskurs" termini işlədən ikinci sinfə,son illərdə elm dairəsindən kənara çıxan və publisistikada populyarlaşan strukturistlər və post strukturistlər, və ilk növbədə M.Fuko daxildir. Terminin bu kimi istifadələrin arxasında ənənəvi üslub ("üslub - bir insandır") və fərdi bir dil

anlayışlarının aydınlaşdırılması istəyi dayanır. Beləliklə, belə bir şəkildə başa düşülən "diskurs" termini (həmçinin bu anlayışın törəməsi olan və tez-tez Fuko tərəfindən işlədilən "diskursiv təcrübələr" termini) danışma tərzini təsvir edir və bu zaman - və "hansı" ya "kimin" diskursu məsələsinə fokuslanır, çünki tədqiqatçılar ümumiyyətlə diskursun özüilə maraqlanmırlar, əksinə, onu özünəməxsus növləri, geniş parametrləri ilə təyin edirlər. Bu mənada diskurs- üslubi xüsusiyyətləri və onun arxasında ideologiyanı özündə birləşdirir.

Diskurs termininin üçüncü istifadəçiləri var ki, ilk növbədə alman filosofu və sosioloqu Y.Habermasın adı ilə bağlıdır. İlk növbədə bu sinfin nümayəndələri ilə əvvəlkilərinin fikirləri ilə bənzər görünə bilər, amma diskursa yanaşmada öz fikirləri mövcuddur. Burada diskurs sosial reallıqdan, adət ənənələrdən, danışanın şəxsi nüfuzundan, kommunikativ rabitədən mümkün qədər asılı olmayan xüsusi ideal bir ünsiyyət növüdür.

Bu makro anlayışların hər üçü (eləcə də onların növləri) bir brirnə qarşılıqlı təsir bağışlayır. Aydındır ki, bu anlayışlar bir birini təkzib etmir, əksinə tamamlayır.

"Diskurs" və "mətn" arasındakı fərqdən bəhs edən T.A.van Deyk bildirir ki, diskurs aktual ifadə olunmuş mətndir, və mətn danışığın mücərrəd qrammatik quruluşudur. Beləliklə, "diskurs" aktual nitq aktı ilə qarşılıqlı əlaqəli bir anlayışdır, "mətn" isə dil sistemi və rəsmi dil biliyi, dil haqqında məlumat ilə əlaqəli bir anlayışdır.

Belə bir fikir də mövcuddur ki, "diskurs" və "mətn" anlayışlarına yazılı və şifahi olmalarına görə fərq qoyulur. Amma kommunikativ hadisə həm yazılı, həm şifahi ola bilər. Çünki, diskurs "mətn + situasiya"-dır.

Diskurs termini müasir dilçilikdə mətn terminə yaxındır, belə ki, onun ünsiyyət zamanı dinamiklik və dəyişkənlik xüsusiyyətləri vardır. Bunun əksi olaraq mətn ünsiyyət prosesinin nəticəsi olaraq statistik obyekt kimi qəbul olunur. Qeyd olunduğu kimi diskurs həyatdan götürülmüş nitq hadisəsidir. Buna görə də, diskurs termini, mətn anlayışından fərqli olaraq real, canlı həyat ilə əlaqəsi olmayan mətn yazılarına şamil edilmir [7, s.137].

E.S.Kubryakovanın fikrinə görə diskurs və mətn anlayışları koqnitivlik (idrak) və linqvistiklik nöqteyi nəzərindən səbəb-məqsəq əlaqəsi ilə bağlıdır. Mətn diskursda yaranır və onun törəməsi sayılır.

Mətn müəyyən proses zamanı yaransa da, mahiyyət etibari ilə bitmiş formada öyrənilir. Onu diskurdan fərqləndirən də məhz budur. Diskurs müəyyən zaman və məkan çərçivəsində yaranan və inkişaf edən anlamdır.

V.N.Yarsevanın redaktorluğu ilə nəşr olunan linqvistik ensklopedik lüğətdə diskurs – ekstralinqvistik, yəni praqmatik, sosial-mədəni, psixoloji və digər amillərlə əlaqəli mətn kimi verilib. Mətn - hadisə aspekti zamanı yaranan və inkişaf edən, nitq – məqsədli şəkildə ictimai fəaliyyət olaraq insanların və onların şüur mexanizmlərinin (idrak prosesləri) qarşılıqlı əlaqəsində iştirak edən bir xüsusi bir komponent kimi qəbul edilmişdir [8].

Diskurs bütün kommunikativ aktlar kimi iki komponentdən ibarətdir: danışan və adresat (müraciət olunan insan). Bura başqa şəxslər də əlavə oluna bilər – diskursun iştirakçıları. Bu artıq dialoq xarakteri sayılır. Əgər diskurs müddətində nitq bir nəfərin çıxışına aiddirsə, bu, monoloq adlanır, amma monoloqun bir insana aid olmasını demək düzgün düyil. Monoloqda da adresat vacibdir. Əslində monoloq dialoqun bir hissəli hissəsidir. Mətn və dialoq terminləri sərbəst şəkildə istifadə üçün bəzi çətinliklərlə qarşılaşmışdır, ona görə də "diskurs" termini dil istifadəsinin bütün növlərini özündə birləşdirən ümumi bir termin kimi əlverişlidir [1, 285].Mətn və diskurs anlayışlarını araşdıran müasir alimlər diskursdan fərqli olaraq mətnin bir dil materialı kimi həmişə

uyğun nitq ifadə etmədiyini vurğulayırlar. Hər mətn diskurs deyil, lakin diskurs həmişə mətndir və ya əksinə. Çünki istənilən diskurs özü özlüyündə mətndir və diskurs nəzəriyyəsi dilçilikdə mətnə aid olan bütün suallı bölüşür (mətn və diskurs bütövlük, əlaqəlilik, tamlıq kimi xüsusiyyətlərə malikdir).

Diskurs və mətn anlamına izah gətirərkən onun qeyd edək ki, diskurs nəzəriyyəsi hər zaman dilin aktiv, dinamik tərəfini vurğulamışdır: "diskurs" anlayışı mətndən fərqli olaraq dilin ünsiyyət aktında ekstralinqvistik amillərin təsirini nəzərə alan bir proses kimi təmsil olunmuşdur.

Açar sözlər: Diskurs nəzəriyyəsi, kommunikativ situasiya, mətn, koqnitiv proses, frazadanböyük vahidlər.

Ədəbiyyat

1. Abdullayev Ə.Ə. Mətni anlama modelləri. B., Səda nəşriyyatı, 1999.
2. Benveniste E. On Discourse. The Theoretical Essays. Linguistics. Manchester Univ. Press, 1985.
3. Teun van Dijk. Ideology: A Multidiscipliplinary Approach. London, Sage, 1998.
4. Тураева З.Я. Лингвистика текста. М., Просвещение, 1986.
5. Кубрякова Е.С. Текст и его понимание. М., Русский текст, 1994. № 2.
6. Гальперин И.Р. Текст как объект лингвистического исследования. Дом Книга, 2005.
7. Лингвистический энциклопедический словарь под ред В.Н.Янцевой. М., Большая Российская Энциклопедия, 2002.

I ŞAH TƏHMASİBİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ SƏFƏVİ-AVROPA DÖVLƏTLƏRİ ARASINDA MÜNASİBƏTLƏR

Qurbanova Sevinc
Azərbaycan Dillər Universiteti
seva_adu@yahoo.com

Azərbaycanın Avropa ölkələri ilə diplomatik, iqtisadi və siyasi əlaqələri tarixinin öyrənilməsi müasir dövrümüzdə xüsusi əhəmiyyət kəsb edir. Avropaxammal ehtiyatı ilə zəngin olan Asiya ölkələrində möhkəmlənmək ilə yanaşı, Osmanlı imperiyası kimi təhlükəni də aradan qaldırmaq istəyirdi. Bu səbəbdən Osmanlı imperiyası ilə mübarizədə əsas müttəfiq kimi Səfəvilər dövlətini görürdü. XVI əsrdə Səfəvi dövlətinin Avropa ölkələri ilə diplomatik əlaqələri daha da genişlənmişdi.

1524-cü ildə I Şah İsmayılın vəfatından sonra taxta çıxan I Şah Təhmasibin hakimiyyəti dövründə Osmanlı-Səfəvi münasibətlərində gərginlik müşahidə olunurdu. Bu gərginlik Səfəvilərin Avropa dövlətləri ilə münasibətlərinə də təsir etdi. Sultan Süleyman Avropada, xüsusilə də Macarıstan və Avstriyada geniş hərbi əməliyyatlar apardı. Bunun nəticəsində Qərbi Avropa dövlətləri əvvəllər olduğu kimi, bu dövrdə də Osmanlı imperiyasına qarşı Səfəvilər dövləti ilə diplomatik fəaliyyətlərini davam etdirirdilər [1].

I Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvi dövləti Avropa ölkələri ilə ticarət əlaqələrini sahmana salmağa çalışdı. Onun hakimiyyəti dövründə Səfəvilər ilə İngiltərə arasında iqtisadi əlaqələrin bünövrəsi qoyulmuşdu.İngiltərə Səfəvi ərazisində ticarət siyasətini izləmək üçün XVI əsrin 60-70-ci illərindəSəfəvi sarayına "Moskva şirkəti"nin agentləri olan Antoni Cenkinson, Riçard

Çini, Artur Eduards və digərlərini göndərmişdir [4, s.187-188]. Azərbaycana 6 ekspedisiya göndərən İngiltərəni Azərbaycanın xam ipəyi ilə yanaşı, buradan Hindistana gedən karvan yolları maraqlandırırdı. 1561-63-cü illərdə İngiltərənin "Moskva şirkəti"nin təmsilçisi Antoni Cenkinson Azərbaycana gələrək, I Təhmasib ilə danışıqlar aparmışdı. Danışıqlar əsasən ticarət əlaqələri yaratmaq ətrafında getmişdir. Lakin şah A.Cenkinsonun müqavilə təklifini qəbul etmədi [4, s.198-199]. Belə ki, I Təhmasib Amasya müqaviləsindən sonra Osmanlı dövləti ilə münasibətləri korlamaq istəmirdi.

XVI əsrdə Səfəvi dövlətinin daha çox siyasi və iqtisadi əlaqələr saxladığı Avropa ölkələrindən biri Venesiya Respublikası idi. I Şah Təhmasibin hakimiyyəti dövründə Səfəvilər dövlətinə bir çox Avropa tacirləri və dövlət elçiləri səfər etmişdir. Onlardan biri Venesiya elçisi Mikel Membre 1539-cu ildə Səfəvi sarayına gəlmiş və I Şah Təhmasib ilə görüşmüşdür [5, s.5]. Ondan sonra 1571-ci ildə Venesiya öz elçisi Vinçenso Alesandrinini Azərbaycana göndərmişdi. Məqsəd 1570-1573-cü illər Venesiya-Osmanlı müharibəsi zamanı Səfəvi dövlətini arxadan Osmanlıya qarşı müharibəyə qaldırmaq idi. Lakin Şah Təhmasib Venesiya diplomatını qəbul etmədi, beləki, Osmanlı imperiyası ilə yeni sülh münasibətlərini qurduğu üçün onu pozmaq istəmirdi [2, s.47]. Beləliklə, Venesiya respublikasının Səfəvi dövlətini Osmanlı imperiyasına qarşı qaldırmaq planı baş tutmadı. I Şah Təhmasib ilə görüşə bilməməsinə baxmayaraq, həm V.Alesandrini, həm də M.Membrenin qeydləri və hesabatları Səfəvi-Avropa əlaqələrini araşdırmaq üçün qiymətli mənbələr hesab olunur.

Hələ I Şah İsmayılın hakimiyyəti dövründə Səfəvi ilə Portuqaliya arasında İran körfəzinə görə münasibətlər gərgin idi.Lakin 1530-50-ci illərdə Osmanlı dövlətinə qarşı müttəfiq əldə etmək üçün Portuqaliya Səfəvi dövlətinə yaxınlıq göstərirdi. Şah Təhmasib də öz növbəsində Portuqaliya ilə ittifaqı davam etdirirdi. 1533-1535-ci və 1548-1549-cu illərdə Səfəvi-Osmanlı döyüşlərində portuqallar səfəvilərə top-tüfənglə kömək edirdilər [2, s.227]. Hətta 1551-ci ildə Portuqaliya Səfəvi dövlətinə elçilərini göndərmiş və onlar Qəzvində yaxşı qarşılanmışdı. Lakin İran körfəzində müsəlmanların portuqallar tərəfindən sıxışdırılması və Amasya sülh müqaviləsinin imzalanmasından sonra şah 1574-1575-ci illərdə Portuqaliyadan gələn elçiləri qəbul etməmişdi [3].

I Şah Təhmasibin hakimiyyətinin son dövrlərində bir sıra Avropa ölkələri Osmanlı əleyhinə ittifaqda birləşsələr belə, Səfəvilər bu ittifaqa qoşulmadı. V.Alesandrininin yazdığına görə, Səfəvi dövləti o zaman Konstantinopol yolu ilə Moldaviya, Polşa, Danimarka, İsveç və başqa ölkələrlə də ticarət əlaqələri saxlayırdı [2,258]. Avropa ölkələrinin cəhdinə baxmayaraq, Osmanlı imperiyası ilə Amasya sülh müqaviləsi imzalayan I Şah Təhmasib ömrünün sonunadək ona sadiq qaldı. Lakin bununla yanaşı onun hakimiyyəti dövründə Səfəvi dövləti Avropa ölkələri ilə ticarət əlaqələrini davam etdirirdi.

Açar sözlər: I Şah Təhmasib, münasibətlər, Səfəvi, Avropa dövlətləri, Osmanlı imperiyası.

Ədəbiyyat

1. Quliyev Əhməd. I Şah Təhmasib (1514-1576), http://tarixinstitutu.az/personalities/view/72
2. Mahmudov Yaqub. Azərbaycan Diplomatiyası: Ağqoyunlu və Səfəvi dövlətlərinin Avropa ölkələri ilə əlaqələri (XV-XVII yüzilliklər). B.:Təhsil, Bakı, 2006, 416 s.
3. Portugal I. Relations with Persia in the early modern age (1500-1750). http://www.iranicaonline.org/articles/portugal-i
4. Süleymanov N.M. Səfəvi dövlətinin təsərrüfatı həyatı.Bakı: Elm, 2012, 440 səh.
5. Venesiyalılar Şah I Təhmasibin sarayında (Mikele Membre və Vinçenso Alessandri). - Bakı, "Təhsil", 2005, 112 səh.

“ZADƏGANLIQ” KONSEPTİNİN SOSİAL İYERARXİYA ŞƏRTLƏNDİRMƏSİNƏ DAİR
(Böyük Britaniya linqvokulturoloji mühitinə nəzərən)

Rəhimli Aynurə
Bakı Avrasiya Universiteti
aynura.rahimova@gmail.com

“Zadəganlıq” konseptinin sosial faktorlardan asılı olaraq, habelə toplumun linqvokulturoloji şərtiliklərindən təsirindən qaynaqlanaraq bu və ya digər istiqamətli dəyişikliklərə məruz qalması heç kəsdə şübhə doğurmayan bir gerçəkliklir. Belə ki, leksik və frazeoloji yaruslar öz təbiətindən dolayı, dilin ən mütəhərrik səviyyəsini təcəssüm etdirir və dil-cəmiyyət qarşılıqlı əlaqəsindən törəyən ekstralinqvistik amillərin təsirinə əsaslı şəkildə məruz qalır. “Zadəganlıq” konseptinin cəmiyyətinin iyerarxik quruluşu ilə əlaqəli olması, bu şərtlənmə faktorunun təsir gücünü daha da artırmış olur.“Ali zadəganlıq” terminologiyasının təhlili onu deməyə əsas verir ki, bu istiqamətdə istənilən növ diaxronik analiz, əslində, ölkə tarixinin izlənilməsilə paralel şəkildə aparılan təhlilləri labüd edir(daha ətraflı bax: [1; 70-96]).Bu şərtlənməni əyani şəkildə təcəssüm etdirən verballaşma mexanizmləri sırasında isə Britaniya Kral ailəsi üzvlərinə xitabən istifadə edilən və qanunvericiliklə tənzimlənən müraciət formalarını qeyd etmək olar. Belə ki, konkret olaraq, Britaniya Monarxiya-sının hal-hazırkı başçısının titul və müraciət formaları onun hakimiyyətə gəlməsindən (1952-ci il) az müddət sonra (1953-cü il) müvafiq qanunla təsbit edilmişdir[2]. ***Elizabeth II***, *by the Grace of God of the United Kingdom of Great Britain and Northern Ireland and of Her other Realms and Territories* ***Queen***, ***Head of the Commonwealth***, ***Defender of the Faith***[3].

Elə həmin qanunda da bir daha təsbit edildiyi kimi, Britaniya kraliçasına xitabən **Her Majesty “Əlazhəzrət**” deyə xitab edilməsi labüddür. **Majesty** termini, etimoloji araşdırmalarda qeyd edildiyi kimi, latın mənşəli olub (**maiestatem** “alilik, yüksəklik, layaqət, üstünlük”) ilk olaraq, fransız dili tərəfindən mənimsənilmiş və daha sonra, XIV əsrin sonlarında, məhz fransız dilinin vasitəçiliyi ilə ingilis dilinə daxil olmuşdur [4]. Lakin bu leksik interferensiya faktının zadəganlıq termini statusunda işləklik qazanması yalnız təxminən bir əsr sonra mümkün olmuşdur. Belə ki, 1509-1547-ci ildə ingilis monarxiyasına rəhbərlik etmiş Kral VIII Henry Avropa “həmkarları”nın ardınca Majesty termini mənimsəsə də, həmin istilah I Ceymsin idarəçilik (1567-1625) dövrünədək digər “monarxik terminologiya” ilə paralel şəkildə işlənmişdir. Yalnız I Ceyms sayəsində **Her Majesty** ifadəsi yalnız Krala (/ Kraliçaya) xitabən işlənmə imtiyazı əldə etmişdir [2]. Göründüyü kimi, burada konkret fərdlərin (yəni, kral VIII Henri və kral I Ceymsin) siyasi iradəsinə əsaslanan subyektiv faktor həlledici rol oynamışdır. Və məhz, I Ceymsin kralın digər zadəgan titulları daşıyıcılarından fərqləndirilməsi və daha üstün tutulması ilə bağlı intensiyası **Majesty** terminin müstəsna funksionallığını labüd etmişdi. Təxminən həmin terminin işlənməyə başladığı dövrlərə aid olan (1610-cu il tarixli) sənəddə oxuyuruq: *Whereas the* ***King’s most Excellent Majesty*** *has continued this Parliament together, longer than hath been usual…* ***His Majesty*** *has now resolved,… Given at* ***His Majesty’s Palace*** *of Westminster the 31 day of December …* [5]. Nümunədən də göründüyü kimi, **Majesty** terminin **MostExcellent Majesty** terminoloji birləşməsinin tərkibində də işlənə bilir. Lakin **Majesty** variantından fərqli olaraq, bu tərkibi variant hal-hazırda öz işlənmə tezliyində reqressivlik nümayiş etdirməkdədir. Belə ki, müasir ingilis ədəbi dilində bu termin demək olar ki, yalnız parlament aktlarında [6] işlədilməkdədir. Yəni, **Most Excellent Majesty** termini məhdud funksionallığa malik olan ifadə kimi dəyərləndirilə bilər.

Bundan fərqli olaraq, irəlidə nəzərdən keçirəcəyimiz terminlər monarxa xitabən istifadə (tətbiq) funksionallığında arxaikləşmişdir. Belə ki, XII əsrdən XVəsrə qədər Fransada, Kastiliyada, Araqonda, Portuqaliyada olduğu kimi, İngiltərədə də Monarxa xitabən "Yüksəkllik, Alilik" anlamlı **Highness** etiket terminindən istifadə edilirdi [7]. Bundan başqa, XV əsrə qədər **His Grace // Her Grace** etiket istilahından da istifadə edilmişdir. Lakin zamanla Kral və ya Kraliçaya xitabən bu ifadənin işləkliyi aradan qalxdıqdan sonra, **His Grace // Her Gace** etiket termini öz tətbiq dairəsini dəyişərək yalnız Hersoq // Hersoginyaya xitabən, eləcə dəxristan kilsəsinin ən ali rütbələrindən sayılan arxiyepiskopa müraciətlə istifadə edilməkdədir. Məsələn: *A Letter to **His Grace the Archbishop of Canterbury** on the Present Wants of the Church*. ; *The Lord Chancellor then rose, and, pursuant to their lordships' orders, addressed **his Grace**:— "**My Lord Duke of Wellington**,—I have received the commands* .... Onu da qeyd edək ki, **His Majesty // Ner Majesty** ifadəsinin istisnasız olaraq, yalnız Monarxa xitabən istifadə imtiyazının təsbit edilməsilə əlaqədar olaraq, digər etiket termininin – **Highness** istilahının daha aşağı ranqlı ali zadəganlara (ali zadəganlar dediyildikdə, kral ailəsi üzvləri nəzərdə tutulur) xitabən istifadəsi mümkün olmuşdur: **His Royal Highness // Her Royal Highness**.

Göründüyü kimi, Britaniya linqvokulturoloji mühitinə nəzərən "Zadəganlıq" konseptinin verballaşma mexanizmlərinin təhlili onu deməyə əsas verir ki, bu konseptual sferanın reallaşma spesifikası cəmiyyət həyatından asılıdır və burada tarixi proseslərin obyektiv gedişatı ilə bərabər, eləcə də tarixi fiqurların subyektiv seçimləri də mühüm rol oynamışdır.

Açar sözlər: "Zadəganlıq" konsepti, Böyük Britaniya, linqvokulturologiya, sosial iyeyrarxiya, monarxiya quruluşu.

Ədəbiyyat

1. Judith Richards J. "His Nowe Majestie" and the English Monarchy: The Kingship of Charles I before 1640 // Past & Present No. 113 (Nov., 1986), pp. 70-96.
2. Royal Titles Act 1953 1953 CHAPTER 9 1 and 2 Eliz 2 http://www.legislation.gov.uk/ukpga/Eliz2/1-2/9
3. "No. 39458". The London Gazette (Supplement). 6 February 1952. p. 757. https://www.thegazette.co.uk/London/issue/39458/supplement/757
4. Majesty (etymology) https://www.etymonline.com/word/majesty
5. Proclamation 1610 https://www.nationalarchives.gov.uk/education/resources/james-i/proclamation-1610/
6. The Queen In Government https://www.themonarchists.com/the-queen-in-government/
7. Royal Styles and the uses of "Highness" https://www.heraldica.org/topics/royalty/highness.htm

ƏLİLLİK ANLAYIŞI VƏ FİZİKİ ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN CƏMİYYƏTDƏ QARŞILAŞDIĞI BƏZİ ÇƏTİNLİKLƏR

Rüstəmli Ülvi
Azərbaycan Universiteti
ulvi.r98@gmail.com

Fiziki və ya xəstəlikdən doğan qüsurlar nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan şəxs əlil sayılır.

Şəxsin həyat fəaliyyətinin məhdudlaşması onun özünəxidmət, hərəkət, səmtlənmək, ünsiyyət, öz davranışına nəzarət, habelə əmək fəaliyyəti ilə məşğul olmaq qabiliyyətini və ya imkanını tamamilə və ya qismən itirməsində təzahür edir [1].

Unudulmaması lazım olan bir məsələ isə əlilliyi olan uşaqların həyatında valideynlərin özünəməxsus rolu olmasıdır. Əlilliyi olan uşağa verilən reaksiyaların hər ailədə, hər ana-atada fərqli olduğudur. Bəzi ailələrdə bu müddət daha asan sovuşdurulub, ailə quruluşçu bəzi yanaşmaları planlama və həyatlarında lazımlı tənzimləmələri etməyə başlarkən, bəzi ailələr uzun davamlı üzüntü, yaşaya bilməkdədirlər. Valideynlərin uşaqlarının üzrlü, problemli olduğunu öyrəndikdən sonra verdikləri bu reaksiyaları yaşamaları təbii haldır və normaldır. Ancaq, bu hallar uşağın həyatına xüsusi təsir edir və onun inkişafını ləngidə bilir. Ona görə də valideynlər bu yolda daim diqqətli olmalı və uşağının təhsil və reabilitasiya xidmətləri həyata keçirməsində və mütəxəssislərin verdiyi tapşırıqları yerinə yetirməsində valideynlər övladlarına köməklik etməlidirlər.

Bütün əlillər müxtəlif əsaslarla bir neçə qrupa bölünür:

- yaşa görə-əlil uşaqlar, yaşlı əlillər;
- mənşəcə əlil olanlar-anadangəlmə əlillər, müharibə əlilləri, ümumi xəstəliklə bağlı olan əlillər;
- əmək qabiliyyətinin səviyyələrinə görə əlillər:

I qrup əlillər (əmək qabiliyyəti olmayanlar);

II qrup əlillər (müvəqqəti əmək qabiliyyəti olmayanlar və ya məhdud sayda əmək qabiliyyəti olanlar);

III qrup əlillər (dəyişkən əmək şəraitində əmək qabiliyyətləri olanlar).

-xəstəliyin xarakterinə görə-əlillər sürətlə hərəkət edən, az hərəkətli və ya hərəkətsiz qruplara bölünə bilirlər [2].

Əlilliyin reablitasiyası və əlilliyi olan şəxslərin adabtasiyanın təşkili üçün istər beynəxalq aləmdə istərsə də Azərbaycan Respublikasında əlilliyi olan şəxslərə xidmətlər göstərilir. İndiki ictimai elmlərdə mövzu ilə bağlı iki əsas perspektiv var. Bunlardan biri Tibbi Model, digəri isə Sosial Modeldir. Tibbi model əlilliyi əvvəldən problem kimi qəbul edir və əlilliyi düzəltməyə çalışır. Sosial Modeldə əlillik vəziyyəti ikinci plana atılır və deyilir ki, ətraf mühit, fiziki və məkan şəraiti fərdi münasibətləri əlil edir. Başqa sözlə, Sosial Model əlillik deyil, sosial və təhsil vəziyyətini problemlərini düzəltməyə çalışır. Bir mənada Sosial Model, Tibbi Modelin əksi kimidir.

Fərdin fiziki funksiyalarının pozulması və hərəkətliliyində çətinlik olması onu cəmiyyətdəki digər şəxslərdən fərqləndirir. Bu fərq əlillərin yaşadığı ayrıseçkiliyin əsas səbəbidir. Məlum olduğu kimi, hər cür ayrıseçkiliyin əsasları fərqli, yəni "qeyri-adi xüsusiyyətlərə" sahib olmaqdır. Fiziki funksiyaların pozulması və hərəkətliliyindəki məhdudiyyətlər insanı cəmiyyətdən uzaqlaşdırır.Bu cür halların baş verməsi əlilliyi olan şəxslərin sosial reablitasiyasında çətinliklərə gətirib çıxarır.

Məlum olduğu kimi, ailə uşaqların sağlam bir şəkildə böyüdülüb inkişaf etdiriləcəyi və

əhəmiyyətini heç vaxt itirməyəcəyi universal bir quruluşdur. Xüsusilə, gündəlik münasibətlərdə ailədə ictimai həyat, əsas vərdişlər, xoşbəxtlik, sevgi ilə əlaqəli ilk davranış qaydaları və rolları öyrənilir. Buna görə tipik və ya əlilliyi olan, problemli və ya problemsiz hər bir uşağın böyüyə və inkişaf edə biləcəyi ailəyə ehtiyacı var. Uşağın əlilliyi dəqiq müəyyən edildikdən sonra ailə üzvlərinin uşağı və əlilliyi qəbul edə bilməsi çox vacibdir. Bəzi hallarda ailə əlilliyi olan uşaqlarına qarşı laqeyd yanaşır, bunu qəbul etmir və ya onu ətraf mühitdən gizlətməyə çalışır. Bu cür halların baş verməsi də əlilliyi olan şəxslərin sosial reablitasiyasında çətinliklər yaradır.

Bunlardan başqa əlilliyi olan şəxslərin və ailələrinin cəmiyyətə inteqrasiyası prosesində də problemlər görünür. Yoxsulluq, təhsilsizlik, fiziki vəziyyətdə mənfilik, şəxsi həyatla bağlı problemlər, işsizlik, xüsusən sosial həyatda iştirak və təməl insan hüquqları olan iş hüququ kimi səbəblərin ən vacib göstəricisi əlilliyi vətəndaşlarımız üçün əsas problem olaraq qalır və hətta digər problemlərin də əsasını təşkil edir.

Əlilliyi olan şəxslərin qarşılaşdığı digər çətinlik isə təhsil problemidir. Əlilliyi olan şəxslərin təhsilə yiyələnməyi üçün inkluziv təhsil və evdə təhsil imkanları yaradılmışdır.

Əlilliyi olan şəxslər yaşadığı problemlərə diqqət çəkmək üçün BMT tərəfindən 1992 ildən 3 dekabr tarixi Beynəlxalq Əlillər günü olaraq qəbul edilmişdir [3].

İstər əlilliyi olan uşaq, istərsə də tipik uşaq bizim cəmiyyətimizin bir üzvüdür. Ona görə də hər bir uşağa sahib çıxmaq, onları anlamaq elə məhz bizlərdən asılıdır. Çünki, onlar sevgi, diqqət və qayğı göstərilməyə layiqdirlər.

Açar sözlər: Əlillik anlayışı, əlilliyin təsnifatı, göstərilən xidmət modelləri, əlilliyi olan şəxlslərin hayatında ailə rolu, təhsil problemi.

Ədəbiyyat

1. "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu.
2. Sosial işin əsasları. Bakı, 2014.
3. 1992 il 3 dekabr tarixli, BMT Baş Assambleyasının qətnaməsi.

CEFRİ YEVGENİDESİN "BAKİRƏ MÜNTƏHİRLƏR" ROMANINDA İDENTİKLİK AXTARIŞLARI

Rüstəmov Qismət
Azərbaycan Dillər Universiteti
qismet1986@gmail.com

Yunan əsilli çağdaş Amerika romançısı Cefri Yevgenidesin 1993-cü ildə çapdan çıxan debüt romanı "Bakirə müntəhirlər" 1970-ci illərdə şəhəryanı bir kənddə yaşayan Lizbon ailəsinin başına gələn tragik hadisələrdən bəhs edir. Müəllifin nəhsliyi, faciəni işarələmək üçün xüsusi simvolik vurğu saldığı 13 ay boyunca Lizbonlar ailəsinin beş yeniyetmə qızı dalbadal intihar edir. İntiharlar silsiləsi 13 yaşlı Sesiliya ilə başlayır. Sonra əvvəlcə üç bacı – Lyuks (14 yaş), Bonni (15 yaş), Meri (16 yaş) birlikdə, axırda isə 17 yaşlı Teresa intihar edir.

Roman birinci şəxsin cəmində – "biz təhkiyəçi" ilə yazılıb. Fərdiliyin yox olduğu, icma düşüncəsinin, kollektiv həyatın göylərə qaldırıldığı 70-ci illərin amerikan əyalətində Lizbon ailəsinin qızlarını daim uzaqdan müşahidə edən qonşu oğlanlar bu "korporativ təhkiyə"nin iştirakçılarıdır.

Əsər intihar hadisələrindən 20 il sonra o vaxtlar nələr baş verdiyini, qızların niyə özlərinə qəsd etdiklərini, kim olduqlarını başa düşməyə çalışan, artıq yaşlaşmış, keçəlləşmiş qonşu oğlanlarının xatirələri, araşdırmalarından ibarətdir.

Cefri Yevgenides "amerikan xəyalı"nın (american dream) qaranlıq, gözdən qaçan tərəflərini, periferiyanın illüzior dinamikasını, əmin-amanlıq, sabitlik mifinin çatlarından bəhs edən bu romanında öz fərdi kimliyini formalaşdırmaqdan imtina edərək planlı ətraf mühit, pastoral xarakterli sosial qaydalar, əyalət kodeksləri yaradaraq onlara inanmağın fəsadlarını göstərir. Lizbon ailəsində ata da, ana da riyazi qaydalarla yaşayan pedantlardır. Onlar üçün nə öz fərdiyyətləri, nə də övladlarının individual kimliyi önəmlidir; əsas sosial sırada, cəmiyyətin diqtə etdiyi kollektiv kimlik illüziyasını davam etdirməkdir, bunun üçün dətənqidçi Cudit Batlerin dediyi kimi, "etika üçün zorakılıq"ə baş vururlar.

Cefri Yevgenidesin üçüncü şəxsin cəmindəki "biz" təhkiyəçi ilə vurğuladığı kollektivliyin fərdilikdən ön planda olması yeniyetmə Lizbon qızlarının təsvirində də özünü göstərir. Belə ki, təhkiyəçilərin qızları təsvir etməsində limit, hədd hissi tez-tez gözə dəyir. Təhkiyəçilər çox olsalar da, qızların kimliyi haqqında hər dəfə xırda bir informasiya tapırlar, ondan artığına çatmaq mümkün olmur.

Yevgenidesin təsvir etdiyi şəhəryanı şəhər, əslində, qəsəbə uniform (bircür) evlərdən, yollardan, bir-birinin kopyası həyat tərzlərindən ibarətdir. Burada yaşayanların hamısı eyni şoulara baxır, eyni yarımfabrikat yeməklərdən yeyirlər. Müəllifin təsvir etdiyi yerdə məkanın, mühitin belə öz fərdi kimliyi yoxdur, burada hər şey bir-birini yamsılayır. Qəsəbənin, şəhər ətrafının, sub-urbanistik məkanın həqiqi problemlərdən qaçış olmasıyla bağlı məşhur şəhər tarixçisi Lyuis Mamford "Tarixdə şəhər" kitabında yazır:

"1896-cı ildə Redyar Kiplinq Vilyam Ceymsə belə yazmışdı: "Dərdsizlik Amerikanın lənətidir: saf, ümidsiz, yaxşı təşkil olunmuş can sıxıntısı; bir gün bu, bütün dünyanın lənəti olacaq." Kiplinq çox öncədən qəsəbə həyat tərzinin fəsadlarına diqqət ayırmışdı." [3, s.667].

Lizbon ailəsi qızlarını aşırı dərəcədə qoruması, onların öz kimliklərini formalaşdırmaq üçün özləriylə baş-başa buraxmamasını müəllif 13 yaşlı Sesiliyanın ilk intihar təşəbbüsündən sonra təşkil etdikləri parti vasitəsilə göstərir. Romanın təhkiyəçiləri olan qonşu oğlanlar bu səhnədə həmişə kənarda baxdıqları evə qonaq dəvət edilir, qızlarla birgə vaxt keçirməyə icazə alırlar. Amma bu icazəli azadlıq, nəzarət altındakı yumşalma daha tragik nəticə verir, "gözlənilən qətl" baş verir, elə həmin gecə Sesiliya pəncərədən özünü həyətdəki dəmir barmaqlıqların üstünə atır.

Romanda Sesiliya ilk intihardan cəhdindən əvvəl qonşulardan biriylə söhbətində özünü avtomobillərin üstünə basan, bir günlük ömrü olan efemer böcəklərlə eyniləşdirir, uğursuz intihar təşəbbüsündən sonra xəstəxanada həkim ona deyir: "Burda nə işin var sənin? Həyatın nə qədər pis olacağını təsəvvür edəcək yaşda deyilsən. Sesiliya yəqin ki, intihar məktubu sayıla biləcək yeganə sözü onda dedi, xilas edildiyi üçün önəmsiz olsa da, "Aydın olur ki, heç vaxt 13 yaşlı qız olmamısınız, doktor" [2, s.5]

Bu, onun bir növ intihar məktubu, sonradan yenidən öz canına qəsd edəcəyinin elanı, cəmiyyətdəki normallıq illüziyanın altında qaynayan problemlərin xəbərdarlığıdır. Romandakı böyüklər heç bir problemin olduğuna inanmırlar, hətta zarafatla deyirlər ki, "problem istəyənlər Banqladeşə getsinlər." Qəsəbə illüziyası, falş kollektiv maraqlar elə bir düşüncə stereotipi yaradır ki, problem həmişə uzaqlarda olan şeydir. Bu cür hazır, qəlib, bir-birinin bənzəyən cavablarla inşa edilmiş həyatların içində Sesiliyanın cavabı şəffaf, dürüstdür, başqa cavablardan fərqlənir, çünki problemin mövcudluğunu təsdiqləyir, hətta bu təsdiqini formalaşmasına icazə vermədikləri kimliyini beşikdəcə boğmaqla – intihar etməklə möhürləyir.

Böyüklərin özlərini uşaq yerinə qoyub problemdən qaçdıqları, yeniyetmələrin kimlik böhranını görməzdən gəldikləri bu yerdə, əslində, bir başqa hadisə çatlardan xəbər verir. Roman boyu yaxın planda göstərilən Lizbonların evində başqa uzaq planda da davam edən bir problem var: qəbristanlıq işçiləri maaş ucbatından dəfn işlərindən imtina edib tətil keçirirlər...

Cefri Yevgenides "Bakirə müntəhirlər" romanında yeniyetmələr kimlik axtarışlarını kollektiv narrator, məkanın uniformluğu, etika aşılamaq xatirinə zorakılıq həddinə çatan valideyn nəzarətini vasitəsilə ifadə edir və mahiyyətcə illüziya olan, içəridən çatlamağa başlayan amerikan xülyasının əmin-amanlıq, birgəyaşayış adı altında, əslində, zortətbiqetmə və təcrid mexanizmləri yaratdığını və bunun amerikan insanını uydurma konfort zonalarda saxlamaqdan başqa heç nəyə yaramadığını deyir.

Yevgenides demək istəyir ki, yeganə izahatın ənənə olduğu yerdə kimlik inşasında "qəza"lar qaçılmazdır.

Açar sözlər: identiklik, Amerika ədəbiyyatı, narratologiya

Ədəbiyyat

1. Butler J. Giving an Account Oneself. New York: Fordham University Press, 2005.
2. Eugenides J. Virgin Suicides (novel) USA: Farras Strasus and Giroux,1993
3. Mumford L.The City in History.London: Secker & Warburg, 1961.

DANIŞMA BACARIĞININ İNKİŞAFINDA İKT-dən İSTİFADƏ

Rzayeva Lalə
Azərbaycan Dillər Universiteti
rzayeva.lala@yahoo.com

İngilis dilini öyrənmək üçün tələbələr tərəfindən mənimsənilməli olan bacarıqlardan biri də danışmadır və bu, ünsiyyət üçün ən vacib vasitələrdəndir. Sinifdə şagirdlərin danışıq qabiliyyətini müxtəlif yollarla inkişaf etdirmək həmişə müzakirə mövzusu olmuşdur. Sürətlə inkişaf edən 21-ci əsrdə müxtəlif yeni texnologiyalar tətbiq olunmaqla siniflərdə danışma bacarığı daha səmərəli öyrədilə bilər. Beləliklə, texnologiya bu modernləşdirilmiş dünya ilə tanış olmaq üçün dərs prosesində də əsas vasitələrdən hesab olunur. İnternet, podkastlar, video konfranslar, videolar və nitq tanıma proqramları danışıq bacarığını öyrətmək üçün ən yaxşı vasitələr hesab olunur. Məqalədə müasir dövrdə İngilis dili müəllimləri üçün əlçatan olan texnologiyaların ikinci və ya xarici dildə danışanların danışıq bacarığını artırmaq üçün istifadə yolları müzakirə olunur.

Ur [5] qeyd edir ki, danışma digər dil bacarıqlarını da özündə cəmləşdirir. "Danışıq müxtəlif kontekstlərdə verbal və qeyri-verbal simvollardan istifadə etməklə mənanın qurulması və paylaşmasıdır" (Chaney [2]). Brown və Yule [1] görə, danışma tələbələrin real həyatda ən çox mühakimə ediləcəyi bir bacarıqdır. İnsanın səlis və hərtərəfli danışmaq bacarığı onun haqqında əsas təəssürat kimi götürülür. Məhz buna görə də, müəllimlərin əsas vəzifələrindən biri də reallıqda sinif otaqlarından kənarda ingilis dilində danışa bilmək üçün tələbələri mümkün qədər yaxşı hazırlamaqdır. Kifayət qədər əhəmiyyətli məsələ olmasına baxmayaraq, uzun illər boyu bəzi müəllimlər danışığı yalnız müəyyən strukturların təkrarı və dialoqların əzbərlənərək yadda saxlanılması kimi öyrədirdilər, ancaq müasir dünyada danışmağıöyrətməyin əsas məqsədinin

tələbələrin ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi və bu yolla, tələbələrin özlərini müxtəlif kommunikativ vəziyyətlərdə sosial və mədəni qaydalara necə əməl etməyi öyrətməli olduğunu vurğulayır.İnteqrasiya zamanın ehtiyacı olduğu üçün İngilis dilində də tədrisin səviyyəsini yüksəltmək üçün müasir texnologiyalardan istifadə edilməsi sinifdə canlı bir atmosferin yaranmasına şərait yaradır, tələbələrin öyrənmə vərdişlərini stimullaşdırır, şagirdlər daha böyük həvəslə və tam iştirakla mövzuya girmək üçün can atırlar. Bu gün təhsildə mövcud olan və danışma bacarığının inkişafına yönələn müasir texnologiyalar əsasən bunlardır:

- Communication laboratory (Ünsiyyət laboratoriyası)
- Speech recognition software (Nitq tanıma proqramı)
- Internet (internet)
- TELL (Technology Enhanced Language Learning)
- Pod casting (Podkastlar)
- Quick Link Pen
- Quicktionary

Communication laboratory (Ünsiyyət laboratoriyası)- danışıq bacarıqlarını inkişaf etdirmək üçün müəyyən proqram təminatları mövcuddur. Uyğun proqramı daxil etməklə şagirdlər kompüterlər vasitəsilə müasirləşən İT dünyasında öz maraqlarına uyğun mövzular üzərində təkrar-təkrar çalışacaqlar və ən vacibiisə danışıq qabiliyyətlərini inkişaf etdirmiş olacaqlar.

Speech recognition software (Nitq tanıma proqramı) -şagirdlərindanışarkən istifadə etdiyi sözləri proqram (maşın)oxuyur. Cihaz oxunanların düzgünlüyünü tanıyırvə sonra *"You sound great!"* kimi müsbət bir rəy verir və ya istifadəçiyə bir daha cəhd etmək imkanı yaradır ki, bu yolla da şagird yaxşı danışıbdanışmadığını anlaya bilir. İstifadəçinin səriştəsi artdıqca, maşın daha az material oxuyur ki, bu da öyrənənə daha çox oxumağa imkan yaradır. Buproqram həm də tələbə hər hansı bir sözü səhv tələffüz etdikdə onu düzgün qrammatika, tələffüz, anlama və s. üzrə qiymətləndirir, düzgün formalarla təmin edir. Bu cihaz distant təhsildə uzaq məsafədən öyrənənlərə də öz danışıqlarını düzəldən bir müəllim olmadığı üçün çox faydalı ola bilər.

İNTERNET- bütün dünyada insanlar tərəfindən tanınan və geniş istifadə olunan bir anlayışdır. Müasir dövrdə tələbələr İngilis dilini öyrənmək üçün internetə çıxışı olan sinif otaqlarında asanlıqlaondan istifadə edirlər. Onlayn tədris tələbələrə maraqlı görünür və onları uyğun materialları tapmağa məcbur edir. Məsələn, şagirdlərə internetdə mövcud olan qrammatik tapşırıqları yerinə yetirmək tapşırılıb. Bu həmçinin müəllimə imkan verir ki, şagirdlərə az vaxtda çox tapşırıq etdirsin.İnternet hər hansı bir təlimat üçün müxtəlif mənbələrdən məlumat toplaya bilmək baxımından da əlverişlidir.Danışma bacarığını inkişaf etdirmək üçün şagirdlər *Skype, MSM Messenger, Google talk*-dan istifadə etməklə digər ölkələrdən olan həmyaşıdları, müəllimlər və hətta xarici dil daşıyıcıları iləünsiyyət qura bilər, bilik və bacarıqlarla bərabər, mədəniyyətlərarası şüuru, motivasiya və qarşılıqlı ünsiyyəti yüksəldə bilərlər.İnternet vasitəsilə həmçinin tələbələr çox sayda təlim materialı (audio, video, radio və TV şouları, oyunlar, səs yazıları, viktorinalar, podkastlar və s.,) tapa bilər və bu da onların danışma qabiliyyətini inkişaf etdirməyə kömək edər.

TELL (Technology Enhanced Language Learning) - kompüter, proqram təminatı və internet də daxil olmaqla kompüter texnologiyalarından istifadə etməklədillərin tədrisini və öyrənilməsini artırmaq. Bu tələbələrə İngilis dilinin öyrənilməsinin inkişaf etdirilməsi üçün mövcud texnologiyalardan maksimum şəkildə istifadə etməyə imkan verir. Tələbələr onlayn lüğətlərdən istifadə, söhbət (chat) və dünyadakı müxtəlif hadisələri izləmək imkanına malik olurlar.

PODCASTING- podkastınq son zamanlar ingilis dilinin tədrisi zamanı danışma bacarığının inkişaf etdirilməsi üçün geniş istifadə edilən müasir texnoloji tədris vasitələrindən biri sayılır.

İngilis dilini tədris edən müəllimlər tədris prosesində podkastlara tez-tez müraciət edirlər. Podkast və ya canlı yayımlanmayan translyasiya, rəqəmsal media faylları (audio və ya video) epizodik olaraq təqdim olunur və tez-tez veb-sindikasiya vasitəsilə endirilir. Podkast sözü iki sözün birləşməsindən yaranmışdır: iPod sözündəki *Pod* hissəciyi və broadcast sözünün ikinci hissəsinin birləşməsindən əmələ gəlib. Podkastinq səs (mp3 və s.) və ya video kimi media formatında materialların hazırlanma və internetdə yayılma prosesidir.

Podkastların tədrisdə istifadəsinin bir sıra üstünlükləri vardır. İlk öncə qeyd etmək istərdim ki, MP3 pleyer və ya mobil telefonlar kimi müxtəlif elektron cihazlara yönləndirilə və yüklənə bilər və istənilən zaman və məkanda dinlənilə bilər. Bu vasitələrin istifadəsi asandır,dinləyən tərəfindən idarə edilə bilər və ən əsası onların yaradılması və istifadəsi üçün heç bir ödəniş edilmir. Bununla yanaşı, podkastların dərsdə istifadəsi zamanı müəllim ənənəvi tədris üsulundan uzaqlaşır, real həyat danışıqlarını tələbələrə təqdim edir. Beləliklə, tələbələr həm əylənir, həm də öyrənirlər. Dərs zamanı tələbələrin fəallığı artır, mövzuya qarşı idraki istifadə başa çatdıqdan sonra həmin məsələnin müzakirəsinə həvəs göstərirlər. Podkastların ingilis dilinin tədrisində digər üstün cəhəti də ondan ibarətdir ki, onlarin əksəriyyəti autentik və yarı-autentik olur. Autentik mətnlər ingilis dilini yüksək səviyyədə bilənlər üçün nəzərdə tutulduğu halda, yarı-autentik mətnlər xarici dil öyrənənlər üçün dəyişdirilmiş olur. Bundan əlavə, tələbələr bu podkastları dinləməklə dünyanın müxtəlif yerlərindən olan tələbələrin mədəniyyətləri ilə tanış ola bilər, onların yaşam tərzləri və maraq sahələri haqqında məlumat əldə edə bilərlər.

Podkastların bir sıra növləri vardır ki, onlar ingilis dilinin tədrisində geniş istifadə edilir.

- Müəllim podkastları. Bu podkastlar müəllimlər tərəfindən yaradılır və onların öz dərslərinə, dərs mövzularına uyğun hazırlanır. Onların istifadəsi dilin tədrisində yüksək rol oynayır. Belə ki, dərs kitabında olan mövzu ilə əlaqədar dinləmə və danışığı inkişaf etdirən heç bir tapşırıq olmadığı zaman müəllim podkastlar vasitəsi ilə bu yoxluğu aradan qaldıra bilər. Müəllim podkast yaradarkən ilk öncə tələbələrin maraqları, dil səviyyələri və yaşlarını nəzərə almalıdır. Podkastlar üç dəqiqədən artıq olmamalıdır. Məs: http://englishcaster.com/blogs müəllimlərin hazırladığı podkastlardan ibarət olan internet səhifəsidir.
- Tələbə podkastları. Əksər hallarda müəllim yardımı vasitəsi ilə yaradılan podkastlardır.

Tələbələr öz işlərini planlaşdırıb, hazırlayıb və səslərini yazmaqla məktəb daxili və xarici geniş auditoriyaya nümayiş etdirə bilərlər. Podkastların hazırlanması və hər kəs tərəfindən dinlənilə bilməsi tələbələrdə dilin öyrənilməsinə böyük maraq və həvəs yaradır və hər bir tələbə bu prosesin iştirakçısı olmaq istəyir. Eyni zamanda tələbələr qrammatikanın düzgün istifadə edilməsinə, sözlərin doğru seçilməsinə, dilin istifadəsində səlisliyə riayət edilməsinə də əməl edirlər və bu da dilin mükəmməl şəkildə qavranılmasına və tətbiq edilməsinə yardım edir. Podkastlar vasitəsi ilə tələbələrə düzgün tələffüz, danışıq qaydalarını aşılamaq mümkündür. Məs: Çin Respublikasında təhsil alan universitet tələbələrinin yaratdığı podkastlar buna bariz nümunə ola bilər (Fudan university – www.podcast.fdfz.cn).

QUICK LINK PEN-öyrənənlərə çap olunmuş mətni, İnternet linklərini kopyalayıb saxlamağa imkan verir. Bu, məlumatları kompüterə ötürməyə və oxucuya sözün mənasını hazır lüğətlərdə əldə etməyə imkan verir. Bu tip maşına giriş daha rahat bir üsul kimi görünür.Maşın tərcümələrindəki son inkişaf *GO Translator* və *Bablefish* kimi tərcümə motorlarını təqdim edir.

QUICKTIONARY- Qələm kimi bir cihazdır. Oxucuya öz LCD ekranında sözü asanlıqla taramaq, izahını və tərcüməsini əldə etmək imkanı verir. Enounce və Sound-Redaktor kimi texnologiya vasitəsi ilə öyrənənlərə tələffüzü inkişaf etdirmək üçünnitq dalğalarının spektri, ağız və

dil hərəkətlərini asanlaşdırmaq üçün vizual təsvirlər göstərir, dinləmə materiallarının nitq dərəcələrini tənzimləmələrinə kömək edir.

İkinci bir dil öyrənməkdə texnologiyadan istifadə bu gün əsl zərurətə çevrilmişdir.Bu məqalədə danışıq bacarığını inkişaf etdirmək üçün texnologiyadan istifadə üçün fərqli üsulların mövcud olduğu hərtərəfli müzakirə edildi. Yadda saxlamaq lazımdır ki, kompüter daha çox təlim fəaliyyətinin ayrılmaz hissəsi və bir vasitəsidir və danışma bacarığının effektiv öyrənilməsi və öyrədilməsi üçün bütün tədris müəssisələrində tədris prosesini dəstəkləyən avadanlıqlar və laboratoriyaların olması tələbələrə verilən materialı daha əyləncəli, səmərəli öyrənməyə şövq edir və onlarda muxtariyyətin inkişafına kömək edir.

Açar sözlər: danışma bacarığı, müasir texnologiyalar, kompüter.

Ədəbiyyat

1. Brown G., G. Yule. (1983). Teaching the Spoken Language. Cambridge: Cambridge University Press.
2. Chaney, A.L., T.L. Burk. (1998). Teaching Oral Communication in Grades K-8. Boston: Allyn&Bacon.
3. Chirag, P. (2003). Use of Multimedia Technology in Teaching and Learning communication skill. International journal of Research Academics, 17 (5), 473–495.
4. Chuang, Y. (1998).Modern teachers and multimedia instruction. Papers from the Second International Conference on Multimedia Language Education (pp.151-160).Taipei, Taiwan: Grane.
5. Ur, P. (1996). A course in language teaching, practice and theory. Cambridge University Press.
6. http://www.bbc.co.uk/learningenglish/
7. https://www.elllo.com/
8. www.breakingnewsenglish.com

MÜXTƏLİFSİSTEMLİ DİLLƏRDƏ “EMOSİYA” KONSEPTİNİN REALLAŞMASININ “BƏDƏN DİLİ” MEXANİZMLƏRİ İLƏ ƏLAQƏLİLİYİNƏ DAİR
(semantik universallıq kontekstində)

Rzayeva Samirə
Sumqayıt Dövlət Universiteti
samirarza_79@mail.ru

Emosiyaları refleksiyalardan və habelə digər növ koqnitiv proseslərdən fərqləndirən əsas cəhətlərdən biri emosiyaların “yaşanması” məqamında insanın mimik-muskulator reaksiyalar verməsilə bağlıdır (daha ətraflı bax: [1, s.63]). Başqa sözlə desək, təməl emosiyalar (qorxu, məmnunluq, təəccüb və s.) labüd şəkildə jestikulyator-mimik, prosemik və s. bu kimi əlaqəli reaksiyalarla müşayət edilir. Bu səbəb-nəticə əlaqəliliyinin insan fiziologiyası və konkret olaraq, təfəkkür və psixikası üçün xarakterik olması, həmin qarşılıqlı şərtlənmənin bütün inkişaf etmiş dünya dillərində müşahidə edilməsinə yol açmışdır. Bu səbəbdən də müxtəlif sistemli dillərdə bədən üzvlərinin metaforikləşməsi vasitəsilə emosiyaların fərqli semantik planlı səciyyələndirməsi müşahidə edilməkdədir [2, s.106-118]. Bu mənada L.Manerkonun da qeyd etdiyi kimi, bir çox idiomlar hətta müvafiq idiomaların “neyron xəritəsini” təsbit etməyə imkan verir [3, s.210]. Yəni bu

və ya digər emosiyanın təsviri və ya səciyyələndirməsi üçün istifadə edilən ifadələr burada yer alan bədən üzvlərindən çıxış etməklə, həmin emosiyanın yaranmasında hansı neyron "zəncirinin" işə cəlb olunduğunu söyləməyə əsas verir. Bu baxımdan, "emosiya metaforalarının" insanın emosional durumunu tam şəkildə ələ verdiyini vurğulamış C.M.Verspurun fikrilə də razılaşmamaq mümkün deyil [4, s.3].

Məsələn, Azərbaycan dilində "Təəccüb", "Qorxu" emosional mikrokonseptlərinə aid edilən "**gözü bərələ qalmaq**", "**gözü bərəlmək**" ifadəsi təəccüb yaradan obyektin görmə orqanı vasitəsilə təsbit edildiyini, həmin obyektin oyatdığı reaksiyanın beyinə verdiyi impuls vasitəsilə beyin tərəfindən daha "təfsilatlı görmək", fiksə etmək tələbinin gəldiyini və əks-cavab kimi gözü bəbəklərinin böyüdüyünü və ya gözün daha iri şəkildə açılmaq məcburiyyətində qaldığını qeyd edə bilərik. Məsələn: *Mirzə Əsgərin **gözü bərələ qaldı**."Onu götürməyə məndə can hanı" - deyə **həyəcanla** düşündü.* (Mir Cəlal); *Gördüyü bu mənzərədən yolçu elə **qorxdu** ki, **gözləri** bir anlığa **bərələ qaldı**.*

Analoji ifadələr ingilis dilində (*your eyes pop out of your head*), rusdilində (*делать глаза; глаза из орбит, глаза на лоб полезли*), Türkiyə türkcəsində (*gözleri yuvalarından fırlamak*) təsadüf edilir. Deməli, burada da emotiv metaforikləşmə bilavasitə bədən dili reaksiyasına istinad edir ki, bu da müvafiq emosional reaksiyanın neyron "xəritəsini" təsbit etməyə imkan verir. Digər ifadə timsalında da biz, limbik sistem reaksiyasının bədən dilindəki inikasını [5] izləmiş oluruq. Həmin nümunələrə diqqət edək: **Ağzı açıq qalmaq, Челюсть отвисла (отпала), someone's jaw dropped**. Bu nümunələrdə dilindən, dinindən, irqindən asılı olmayaraq, bəşər övladı üçün xarakterik olan donma reaksiyasının metaforik təsviri təqdim edilmişdir. Məhz, bu frazeoloji vahidin idiomatikləşmə mərhələlərinin, "yolunun" izlənilməsi limbik sistemin üç əsas reaksiyasından birinin səbəb-nəticə əlaqəliliyinə əsaslanan neyron "xəritəsini" təsbit etmək imkanı əldə etmiş oluruq. Belə ki, limbik sistem insanın hər hansı bir təhlükə ilə, qəfil hadisə, yeniliklə qarşılaşdığı zaman 1) donma; 2) qaçma; 3) savaş reaksiyalarını ortaya qoyur. Həmin reaksiyalar bilavasitə bədən dilində ifadə tapır ki, bu da son nəticəsində emosiyalarımızın verballaşması zamanı müvafiq xarakterli məcazlaşlaşmaları ortaya çıxarır.

Məsələn, "*Asta qaçan namərddir*" – cümlə formatlı frazeologizmi limbik sistemin məhz qaçma reaksiyasına istinadən meydana gəlmişdir və "Qorxu" konseptini əks etdirir. Analoji semantik tutum rus dilindəki "*бежать, роняя тапки*" ifadəsində də yer almışdır. Bu frazeologizm də "Qorxu" konseptinin reallaşmasında iştirak edə bilir. Bilavasitə **Ağzı açıq qalmaq, Челюсть отвисла (отпала), someone's jaw dropped**- ifadələrinin təhlilinə qayıdaraq qeyd edək ki, insan stress anında "donub qalarkən" onun tənəffüs sistemində "tıxanıqlıq" yaranır. Belə ki, stress anında artan ürək döyüntüsü, qan-damar sisteminin fəaliyyətinin intensivləşməsinə yol açır və nəticə etibarilə, tənəffəss aparatının işini dəintensivləşdirir və bu da ənənəvi tənəffüs yolllarının işini çətinə salır. Bu səbəbdən də, belə bir şəraitdə fərd orqanizmini hava ilə təmin etmək məqsədilə, qeyri-ixtiyari olaraq ağzını açmaq məcburiyyətində qalır və hava axının bu yolla qəbulunu təmin edir. Təəccüb və ya qorxu məqamında "ağızın açıq qalması" vəziyyəti məhz bununla şərtlənir. Həmin vəziyyətin saniyələrcə, dəqiqələrcə davam etməsi isə daha öncə qeyd edilən limbik sistem reaksiyası ilə şərtlənir. Belə ki, C.Meyersin də qeyd etdiyi kimi, insan donma reaksiyası zamanı özünün bu və ya digər stress faktoruna münasibətini müəyyənləşdirmək üçün vaxt qazanmış olur, yəni ətraf aləmdən qəbul edilən informasiyanın emalı üçün vaxt udmuş olur [6]. *Başımı qaldırdım və **heyrətdən ağzım açıq qaldı**.* ("Əli və Nino", Qurban Səid); *Изрыгнуть внезапно, чтоб у всех **отвисла челюсть** и попадали руки.* (Михаил Жванецкий); *Britney Spears displays her **jaw-***

dropping *physique as she frolics at the beach in turquoise bikini and cowboy hat*. (The Daily Mail, 28 January 2020). Nümunələrdən də aydın şəkildə göründüyü kimi, emosional reaksiya zamanı "bədən dili"ndə əksini tapan mimik-jestikulyartor hərəkətlər daha sonra hər üç dildə həmin hərəkətlərə yol açan emosiyanın səciyyələndirməsi üçün "istifadə edilmişdir".

Göründüyü kimi, müxtəlifsistemli dillərdə bədən dilindən qaynaqlanan metaforikləşmələr "Emosiya" konseptinin verballaşmasında mühüm rol oynamışdır.

Açar sözlər: müxtəlifsistemli dillər, "Emosiya" konsepti, bədən dili, frazeologiya.

Ədəbiyyat

1. Изард К. Э. Психология эмоций, СПб.: Издательство «Питер», 2000.
2. Lusekelo A., Kapufi D.İ. An Analysis of Metaphoric Use of Names of Body Parts in the Bantu Language Kifipa https://pdfs.semanticscholar.org/dd2f/d93a63f4a941abe1dfe2cf9ef78784bb0bd8.pdf
3. Manerko L. From human body parts to the embodiment of spatial conceptualization in English idioms // Selected Papers from the 4th UK Cognitive Linguistics Conference, 2014, Pages: 195 – 213 http://www.uk-cla.org.uk/files/proceedings/Manerko.pdf
4. Verspoor C. M. What are the Characteristics of Emotional Metaphors, May 1993, http://compbio.ucdenver.edu/Hunter_lab/Verspoor/Education_files/met-thesis.pdf
5. Лимбическая система // Физиология человека (Под ред. В. М. Покровского), М. : Медицина, 2003., 656 с. http://www.bibliotekar.ru/447/54.htm
6. Реакция замирания https://profailer.com/emotsii/zhesty-i-signaly/Reaktsiyazamiraniya/

MƏTN VƏ ONUN FORMALAŞMASI PRİNSİPLƏRİ

Rzazadə Gülnar
Azərbaycan Universiteti
gulnar.rzazadeh@mail.ru

Mətn linqvistik obyektdir.Müasir dövrümüzdə aktual dilçilik sahələrindən biri kimi çıxış edən mətn dilçiliyi XX əsrin 20-ci illərindən yaranmış, 50-80 ci illərdə formalaşmağa başlamışdır. Mətn dilçiliyinin əsas tədqiqat obyekti adından da göründüyü kimi mətnin özüdür.Mətn dilçiliyi ilə bağlı aparılan tədqiqatlar göstərir ki,mətn «müxtəlif leksik, qrammatik və məntiqi əlaqələrlə birləşmiş,müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiyanı ötürməyə xidmət göstərən cümlələrdən ibarətdir. Mətn struktur semantik vəhdətdə mövcud olan tamdır» [10, s.11]. Deməli buradan aydın olur ki, mətni adi söz yığımından fərqləndirən ən başlıca cəhət onun müəyyən şəkildə təşkil olunmuş və istiqamətlənmiş informasiya daşımasıdır.

Mətn anlayışına tədqiqatçıların baxışları bir-birindən fərqlənir.Məsələn,N.Enkvist mətnin həm özünəməxsus, həm də ümumi cəhətlərini nəzərə almış və onun aşağıdakı tərifləri vermişdir: a) mətn mənalı işarələrdən ibarət olan ardıcıllıqdır; b) mətn mənalı işarələrin ardıcıllığıdır; c) mətn təbii dildə mənalı işarələrdən ibarət olan ardıcıllıqdır; ç) mətn təbii dildə mənalı işarələrin ardıcıllığıdır [2, s.369-370].

M.A.K.Halliday və P.Heyzn isə mətnə belə tərif vermişlər: : «Mətn şifahi və yaxud yazılı, istənilən ölçüdə (uzunluqda) bir bütöv təşkil edən danışıq parçasıdır » [3, s.56].

A.Məmmədov mətni digər sintaktik kateqoriyalarla müqayisə etmiş və bu qərara gəlmişdir ki, sintaktik vahidlər ilə mətn arasında ayrı-ayrılıqda maraqlı bir qarşılıqlı münasibət sistemi formalaşır.Bu o deməkdir ki,cümlə öz-özlüyündə əəslində heç bir məna kəsb etmir və əgər digər elementlərdən təcrid edilmiş haldadırsa, başa düşülə bilməz.Başqa sözlə desək cümlə yalnız mətn çərçivəsində konkret hadisə ilə bağlı öz mənasını əldə edir və faktiki virtual olaraq burada aktuallaşma qabiliyyətinə malik ola bilir.Həmçinin mətn öz növbəsində açıq sinif təşkil edir.Bu sinfin də öz növbəsində müxtəlif variantları yaranır.Deməli invariant rolu oynayan mətn dil modelləri hesab edilən cümlələrin nitq prosesində aktuallaşmasına kömək edir. Bu nitq prosesinin ən real,praktik göstəricisi olan mətnin təsvir etdiyi variasiyaların və reallığın ən düzgün təsvirini verir və özündən əvvəlki sintaktik reallıqların (vahidlərin) əslində öz strukturundan çıxmasını təmin edir [1, s.24].

Mətn dilçiliyi sahəsində tədqiqatlar əsasən iki istiqamətdə aparılır.Bir tərəfdən mətnin formalaşmasının ümumi qanunauyğunluqlarının üzə çıxarılması baxımından tekstemanın aktual reallaşmasının öyrənilməsi sahəsində təhlil aparılır. Başqa sözlə desək, söhbət elmi,bədii və ya publusistik üslubda olan konkret bütöv dil parçasının müəyyən olunması istiqamətində aparılan tədqiqatdan gedir. Eyni zamanda mətnin sərhədlərinin müəyyən olunması üçün istifadə olunan meyarların,prinsiplərin, mətnin növlərinin və variant modellərinin fərqləndirilməsi barədə elmi mübahisələr aparılır.Əslində bu iki tədqiqat aspektlərini bir-birini tamamlayan iki yanaşma kimi nəzərdən keçirmək lazımdır [1, s.10].

Son illərdə mətn linqvistikası sürətlə inkişaf etmiş və müstəqil dilçilik sahəsinə çevrilmişdir.Onun isə özünəməxsus kateqoriyaları və anlayışları formalaşmışdır. Bu sahədə aparılan tədqiqatlar genişləndikcə mətn kateqoriyaları daha da dəqiqləşdirilmiş və onların bir-birinə qarşılıqlı təsiri tədqiqata obyektinə çevrilmişdir.Mətn kateqoriyalarının təhili haqqında danışmazdan əvvəl qrammatik kateqoriyanın nə olduğuna aydınlıq gətirək. «Qrammatik kateqoriya nədir? F.Berezinn bu sualın cavabını dolğun şəkildə verməyə çalışmışdır. Qrammatik kateqoriya-qrammatik vasitə və məna vahidi,onun formal və daxili ifadə göstəricisidir» [8, s.66].

Mətnin kateqoriyalarının dəqiqləşdirilməsi və müəyyənləşdirilməsi ilə ilk dəfə rus germanistikasında İ.R.Qalperin məşğul olmuşdur.İ.R.Qalperin mətn kateqoriyaları sırasına qapanma,inteqrasiya,informativlik,kontinium,birləşdiricilik,praqmatika dərinlik(mətnaltı),prospeksiya,retrospeksiya,aktual üzvlənmə anlayışlarını daxil etmişdir [7, s.124]. Sonrakı tədqiqatlarında İ.R.Qalperin bu kateqoriyalar sırasında dəqiqləşdirmələr apararaq onların ətraflı elmi şərhini vermişdir.Mətnin kateqoriyaları İ.R. Qalperin tərəfindən belə dəqiqləşdirilmişdir: informasiya, mətnin üzvlənməsi, prospeksiya, retroskepsiya, koheziya, kontinium, inteqrasiya, modallıq, mətn parçalarının avtosemantikası, mətnin qapanması. Deməli bu bölgüdə mətnin «dərinlik»kateqoriyası ayrıca göstərilməmişdir. Bu anlayış koheziyanın ayrıca bir növü –implisit koheziya adı altında şərh edilmişdir [7, s.135].

Tədqiqatçıların fikrincə, ilk dəfə mətnaltı problemi incəsənətdə üzə çıxmışdır.Sonra isə filologiyada bu məsələ ilə ciddi şəkildə məşğul olmağa başlamışlar [11, s.73-74]. İngilis dilində «mətnaltı» «implication» [4,s.215-217] intracontext [5, s.148] terminləri ilə ifadə olunur. V.Vinoqradov mətnaltını «replikaların potensial semantikası» [6, s.148] T.Silman isə «mətnin dərinliyi» [9,s.8-9] adlandırmışdır.

Fikrimizcə mətnaltını mətn komponentlərini bir-birinə bağlayan koheziyanın bir növü kimi qiymətləndirmək daha doğru hesab edilər.

Mətn kateqoriyaları müxtəlif janrlarda və üslublarda bir-birilə qarşılıqlı münasibətdə olur. Bu qarşılıqlı münasibətə əsasən mətn kateqoriyaları iki növə ayrılır:

a) Semantik kateqoriyalar: praqmatika,mətnin informativliyi,mətnaltı presuppozisiya
b) Formal-struktur kateqoriyalar:inteqrasiya,koheziya,retreskopsiya,kontinium,prospeksiya,aktual üzvlənmə və predikativlik.

Mətnin təşkili prosesi onun praqmativliyi ilə biləvasitə bağlıdır. Praqmativliyin əsas şərti mətnin oxucunun informasiya qəbuletmə qabiliyyətini nəzərə almasından ibarətdir. Oxucu mətndəki üzdə olan konkret informasiyada istifadə etdikdə,söhbətin nədən getdiyini dərk edə bilir. Hər bir cümlə sintaktik bütövün (mətnin) komponenti kimi, elecə də hər bir sintaktik bütöv mürəkkəb sintaktik bütövün komponenti kimi deyilməmiş fikrin birbaşa açılmasında əhəmiyyətli rol oynayır [7, s.126]. Bu mənada informativlik mətnin əsas kateqoriyası hesab olunur. Mətn informativ xüsusiyyətə malik olmalıdır. Əgər mətndə eyni mövzu dəfələrlə təkrar edilirsə,onun bütün parametrləri üst-üstə düşürsə ,abzaslar bir-birindən fərqlənmirsə bu abzaslar informativ deyil. İnformasiyanın alınması üçün azca da olsa fərqlilik vacibdir. Ayrı-ayrı cümlələr deyil bütövlükdə mətn informasiyanın oxucuya çatdırılmasına xidmət edir.

Açar sözlər: mətn, koherentlik, koherensiya, məna.

Ədəbiyyat

1. Məmmədov A. Mətnin yaranmasında formal əlaqə vasitələrinin sistemi. Bakı: Elm, 2001,144 s.
2. Enkvist N/E/ From Text to Interpretability: A Contribution to the Discussion of Basic Terms in Text linguistics. Connexity and Coherence: Analysis of Text and Discourse. Ed. By W.Heydrich. Berlin, New York: Mouron de Gruyter, 1989, s.369-382.
3. Halliday M.A.K., Hasan R. Cohesion in English. London: Longman, 1976.
4. Leed J. The Computer and Literary Style. Ohio, 1966.
5. Schaar C. Vertical Context Systems. Style an Text. Stockholm. 1975.
6. Виноградов В. Проблема русской стилистики. М., 1981.
7. Гальперин И.Р. Текст как объект лингвистического исследования. М.: Наука, 1981, 138 с.
8. Головин Б. Н., Березин Ф.М. Общее языкознание. М.- 1979.
9. Сильман Т. Проблемы синтаксической стилистики. Л., 1967, 101 с.
10. Тураева З.Я. Лингвистика текста. М.: Просвещение, 1986.
11. Унайбаева Р.А. К вопросу о понятии «подтекст». Линг.текста. Сб.науч.тр. Вып. 141, МПИИЯ им.М.Тореза. М., 1979, с.73-74.

İNGİLİS DİLİNDƏ İŞLƏNƏN REKLAM SLOQANLARININ ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ

Şabanova Aysel
Azərbaycan Dillər Universiteti
aysel.shabanova.02@gmail.com

Müasir dövrdə reklam insan həyatının ayrılmaz hissəsinə çevrilmişdir. Gündəlik həyatımızın müxtəlif sferalarında baş verən dəyişikliklər, yeni ideyalar, kəşflər reklam mətnlərində təsvir edilir. Reklamlar müxtəlif məqsədli (kommersiya, sosial, siyasi və s.) ola bilər. Bu və ya digər məqsədə nail olmaq üçün reklam ideyasının qısa və yaddaqalan ifadəsi reklam sloqanlarında öz əksini tapır.

Odur ki, reklam prosesində düzgün sloqanın seçilməsi çox vacibdir. Bu baxımdan, effektli reklam sloqanını bir sıra xüsusiyyətləri özündə birləşdirir: sloqan yaddaqalan və aydın olmalı, reklam etdiyi məhsulu xarakterizə etməli, məhsul haqqında məlumat verməli və eyni zamanda emosional və ekspressiv xarakterə malik olmalıdır. Bu da o deməkdir ki, sloqanlarda işlənən dil vahidlərinin mənasını gücləndirmək, onların təsir gücünü artıran vasitələrdən istifadə etmək və emosiaların effektiv linqvistik təsvirini vermək uğurlu sloqanı şərtləndirən amillərdəndir. İngilis dilində işlənən reklam sloqanlarını daha effektiv etmək üçün əsasən aşağıdakı üslubi vasitələrdən istifadə edilir:

1. Metafora (metaphor) – bizi əhatə edən aləmdəki hadisə və predmetlər arasındakı oxşarlığın, əlaqənin, daha dəqiq desək, assosiasiyaların tapılması, müəyyənləşdirilməsidir. Metaforikləşmə təfəkkür mexanizminə aid olduğundan insanların hadisə və predmetlərə yanaşma tərzini özündə əks etdirir və hədəf obyektlərin mahiyyətinə qədər nüfuz edir. İngilisdilli reklam sloqanlarının bir çoxunda metaforalar işlədilmişdir. Məsələn:

"Find your glow" (Starbucks kofesi);

"Live on the colorful side of life" (Coca-cola);

"Engineered to move the human spirit" (Mercedes-Benz maşını);

"Skoda. Simply clever" (Skoda maşını).

2. Metonimiya (metonomy) –bu və ya digər varlıq və hadisənin adının onunla məna bağlılığı olan başqa bir ad yaxud ifadə ilə əvəzlənməsi olub, koqnitiv proseslərin nəticəsi kimi özünü göstərən üslubi fiqurdur. İngilis dilli reklam sloqanlarında Məsələn:

"Open happiness" (Coca-cola);

"*Youth cannot be bought. But the sounds of youth can*" (Sony musiqiavadınlıqları).

3. Kalambur(pun) – Nitqə komik effekt vermək məqsədilə omonimlik və çoxmənalılıqdan istifadə edərək qəsdən söz oyunu qurmaq prosesidir. Reklam sloqanlarında da bu söz oyunundan kifayət qədər istifadə edirlər. Məsələn:

"Our models can beat up their models". (Levi's cinsləri);

"Life.Unlimited colours from Schwarzkopf ahead in beautiful hair" (Schwarzkopf şampunları).

4. Mübaliğə (hyperbola) – məcaz növlərindən biri olub, ifadə olunan fikrin təsir gücünü artırmaq, onu daha obrazlı təsvir etmək məqsədilə qəsdən şişirdilməsidir. Reklam prosesində bu məcaz ən çox istifadə olunan üslubi fiqurlardandır. Mübaliğə istifadə edilən bəzi reklam sloqanlarına nəzər salaq:

"The best built cars in the world." (Toyota maşını);

"A style for every story" (Levi's Cinsdükanı).

5. Allüziya (allusion) – mətndə hər hansı bir məşhur deyimə, məsələ, atalar sözünə yaxud qanadlı ifadəyə eyham vurulmasına deyilir. Reklam sloqanlarında xeyli sayda allüziya nümunələri vardır. Məsələn, "*A Mars a day helps you work rest and play"* (Marks şokoladı) sloqanı məşhur ingilis atalar sözünün (An apple a day keeps a doctor away) əsasında formalaşdırılmışdır. "Apple" şirkətinə məxsus*"iThink, Therefore iMac"*sloqanının original variant fransız filosofu Rene Dekart tərəfindən söylənilmiş "I think, therefore I am" deyimidir.

6. Leksik təkrar (repetition) – üslubi çalarlığı artırmaq məqsədilə bu və ya digər söz və ifadənin qəsdən təkrar edilməsinə deyilir.Leksik təkrarlar sloqan mətninin formalaşmasına, mənanın inkişafına kömək edir və mətnin elementlərini bir-birinə bağlayaraq fikrin daha emosional şəkildə

çatdırılmasında vasitəçilik edir. Bir sıra məşhur brendlərin reklam sloqanlarında da leksik təkrarlara rast gəlmək mümkündür.

Məsələn: *"Easy to buy….. Easy to own….. Easy as Dell"* (Dell kompüterləti);

"Look sharp…..Feel sharp"(Gillette);

"Share the moment….. Share life" (Kodak);

"Have a break. Have a Kit Kat" (KitKat şokoladı).

Göründüyü kimi, reklam prosesində bu və ya digər məhsula alıcının diqqətini cəlb etmək üçün linqvistik vasitələrdən istifadə edilir. Reklam sloqanlarında ustalıqla istifadə edilmiş dil vahidləri reklamın daha effekli olmasına xidmət edir.

Açar sözlər: ingilisdilli reklam, sloqan, üslubi xüsusiyyətlər.

Ədəbiyyat

1. Арнольд И.В. Лексикология современного английского языка – М: Высшая школа, 1986.
2. Винарская Л.С. Информативная структура рекламного текста. Автореферат диссертации на соискание ученой степени кандидата филологических наук. М: 1995.
3. Goddard Angela. The Language of Advertising. Written texts / Goddard Angela. London:Routledge, 2008.

YENİYETMƏLƏRDƏ DEVİANT DAVRANIŞ PROBLEMİ

Sadıqova Şəhanə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
sehane.sadiqova@bk.ru

Son zamanlar normadan kənar davranış kimi qiymətləndirilən deviant davranış qlobal bir problemə çevrilmişdir.Deviant sözü latın mənşəli söz olmuşdur və mənası "kənara çıxma" deməkdir.Deviant davranış sosial dezadaptasiya və cinayətkarlıq kimi ciddi problemlərlə nəticələnə bilər [4, s.133]. Bəzi məktəblilərin davranış göstəriciləri ailənin, məktəbin və cəmiyyətin tələblərinə,əxlaqi dəyərlərə, qaydalara uyğun olmur,normaları pozur. Belə özünüaparma formasına deviant davranış deyilir. Deviant davranışa meyilliyin ən çox rast gəlinən dövrü yeniyetməlikdir. Bundan əlavə, aşağı yaşlarda bəzi kiçik yaşlı məktəblilər də zərərli vərdişlərə meyl edirlər,məsələn: dırnaq yemək, saçları ilə oynamaq,əllərini burnuna və ya qulağına salma, stulda oturarkən ayaqları yelləmək və s. Belə hallar kiçik məktəblinin hər hansı daxili həyəcanından, tərbiyəsindəki səhvlərdən və s. kənara çıxma hallarından xəbər verir və ya sadəcə olaraq heç bir psixoloji, fizioloji problemlər səbəbindən deyil, adi dəcəllik halları kimi görünə bilər [3, s.137].

Cəmiyyəti narahat edən problemlərdən biri də insanların sağlamlığına zərər verən, vaxtsız ölüm, ruhi və somatik xəstəliklər yaradan, dünyaya gələn bir çox uşaqların xəstəliklərinə səbəb olan alkoqolizm,narkomaniya və toksikomaniyadır. Böhran yaş dövründə olan uşaqların belə zərərli maddələrdən istifadəsi onların həyatını məhv edərək, psixi və fiziki asılılıq vəziyyətinə salır [7, s.99]. Yeniyetməlik dövrü həm yeniyetmə, həm də onun ətrafındakılar üçün xüsusilə çətin bir dövr olduğunu göstərmək üçün fırtınalı və stresli dövr kimi səciyyələnir. Bu çətinlik yeniyetmənin həyatının müxtəlif sahələrində rast gəlinir. Məsələn, yeniyetmələr böyüklərin hökmlərinə qarşı çıxmağa və bu zaman daha çox üsyan etməyə başlayırlar. Onlar həm də uşaqlardan daha çox dəyişkən duyğular sərgiləməyə başlayırlar və əhval dəyişikliyi ilə seçilirlər. Önəmli məqamlardan

biri isə, yeniyetmələrdə istər uşaqlar, istərsə də böyüklər ilə müqayisədə diqqətsiz,norma pozan və antisosial davranış yüksəkdir [1,1].

Deviant davranışı şərtləndirən aşağıdakı amilləri fərqləndirmək mümkündür:

1. Sosial amillər: Uşağa həmyaşıdlarının, qrupların (qeyri – formal), küçənin, sosimun göstərdiyi xoşagəlməz təsirlər sistemi.

2. Pedaqoji psixoloji amillər: Uşaqların ailə tərbiyəsində yol verilən nöqsanlar, səhvlər, təlim-tərbiyə müəssisələrində uşaq,yeniyetmə və gənclərin tərbiyəsində meydana gələn uyğunsuzluqlar bura daxildir.

3. Fərdi psixoloji faktorlar: Qeyri-sosial davranışı yaradan ilkin təbii psixoloji göstəricilər, fərdin sosial normalara mənfi münasibətini inkişaf etdirən psixoloji xüsusiyyətlər [5, 3].

Deviant davranışın inkişafı üçün yeniyetməlik dövrü risk faktoru hesab edilir. Bu yaşda, deviant davranış aşağıdakı fərdi-psixoloji xüsusiyyətlərlə izah olunur:

- şəxsiyyətin formalaşması prosesinin tamamlanmaması;
- çətinliklərin öhdəsindən gəlmək üçün öz mexanizmlərinin olmaması;
- cinsi istəyin artması;
- özünü idarəetmənin aşağı olması;
- həyat təcrübəsi və praktik bacarıqların çatışmazlıqları.Yeniyetmələrdə bu dövrdə insanlara inamsızlıq,qarşıdurmalar,depressiyaya meyllilik,ətrafdakılara münasibətdə qəddar,aqressiv davranışlar özünü göstərir [2, s.101].

Normaların düzgün öyrənilməməsi,sosial institutların öz rollarını yerinə yetirməməsi də deviant davranışı yaradır. Deviant davranışın yaranma səbəbləri;

1.Dağılmış ailə və yalnış sosiallaşma: Ailə ictimai həyat normalarını öyrədən ilk institutdur. Valideynlər bu müddətdə mühüm rol oynayırlar.Valideynlərindən birini və ya hər ikisini itirmiş uşaqlar lazımi təhsil ala bilmirlər, ailə sevgisinə ehtiyac duyurlar,emosional olaraq narahat olur və ailədən kənarda başqalarının yanında qorunmaq istəyirlər. Onlar siqaret çəkməyə, qumar oynamağa, oğurluğa, yalan danışmağa və qeyri-formal qruplara meyl edirlər.Cinayətkarlıq onların sosial həyatına daxil olur və yetkinlik yaşına çatdıqda cinayətə çevrilir.

2. Dini təhsilin və əxlaqi dəyərlərin itirilməsi: Məscid, Qurani-Kərim və sünnənin dini təhsili şəxsiyyətdə əxlaqi dəyərlər yaradır. Bu qurumlarda ictimai münasibətlər zamanı yaxşı və pis, doğru və yanlış əsaslanan ictimai həyat tərzi inkişaf edir. Yaxşı davranış normaları insanı pis işlərdən çəkindirir. Dini və mənəvi dəyərlərin pozulması, deviant davranışın əsas səbəblərindən biridir.

3. Valideynlərini itirən uşaqlar: Valideynlərin olmaması uşaqlar üçün xaotikdir. Valideynləri olmayan uşaqlar həssasdırlar. Onların yemək,təhsil və s.kimi ehtiyacları lazımi səviyyədə qarşılanmır və buna görə də deviant davranışa meyl edirlər.

4. Kütləvi informasiya vasitələri: Kütləvi informasiya vasitələri ictimai rəy yaratmağın və insanları ictimailəşdirməyin əsas qüvvəsidir. Həyatın hər sahəsində onlardan istifadə edirik. Bunun mənfi istifadəsi gənclər və xüsusilə yeniyetmələr üçün zərərlidir. Adətən bundan sui-istifadə edən yeniyetmələr və gənclər narkomaniya, əxlaqsız və etik olmayan fəaliyyətlərə yönəlirlər. Yeniyetmələr yeni cinayət üsullarını filmlərdən və digər əlaqəli proqramlardan öyrənirlər [8].

Deviant davranış bioloji səbəblərə görə də qiymətləndirilmişdir. Lombrozonun nəzəriyyəsinə görə cinayətkarlıq irsən keçir və insanın bədən quruluşu onun cinayətkar olub-olmadığını göstərir. Lombrozo öz nəzəriyyəsini İtalyan məhbusların fiziki xüsusiyyətlərini müşahidə edərək sübut etmişdir və onları əsgərlərlə müqayisə etmişdi. Məhbuslar üzərində müşahidə apararkən onların

üzünün və başının assimetrik quruluşunu, böyük qulaq və dodaqlarının, uzun qollarının və dəri üzərində həddindən artıq qırışlarının olduğu qənaətə gəlmişdir. Şeldonun somatotip (bədən quruluşu) nəzəriyyəsində deyilir ki,insan bədəni üç qrupa bölünür:

- ektomorflar incə və zərifdir. Onların bədənləri düz qamətli, arıq, zəif əzələli və ensiz çiyinli olaraq qiymətləndirilmişdir;
- endomorfik bədənlər, başqalarına nisbətən artıq çəkili hesab edilir. Onlar az inkişaf etmiş əzələləri və şarabənzər bədən formaları ilə tanınır. Bu tip bədən quruluşuna sahib olanlar çox vaxt çəki problemi yaşayırlar;
- mezomorfik bədənlər, əsasən, əzələli və atletik olur. Bu qrupa daxil olan qadınların bədənləri qum saatı formasında, kişilərdə düzbucaqlı formasında təsvir edilmişdir. Bədən vəziyyəti dik, əzələli olurlar və onlar qalın dəriyə malikdirlər.Şeldonun nəzəriyyəsinə görə, mezomorflar digər qruplara nəzərən daha çox cinayətə meyilli olur [9].

Deviant davranışın təhlükəli hesab edilən bir neçə növünə nəzər yetirək:

- Cinayətkarlıq; Kriminoloqlar yetkinlik yaşına çatmayanların cinayət törətmələrinin səbəblərini müəyyənləşdirmişdir:
- yetkinlik yaşına çatmayanların sosial statusuna görə sosial diferensiallığı;
- ayrı-ayrı qrup yeniyetmələrin təhsilində,tərbiyəsində fərqlər;
- ailələrin dağılması;
- valideynlərin və yeniyetmələrin tərbiyəsi ilə məşğul olan şəxslərin alkoqolizmi,sinir-psixi və xroniki xəstəlikləri;
- yeniyetmələrin müstəqilliyə meyli ilə sosial institutların (ailə,məktəb) qoyduğu sədlər arasında ziddiyyət;
- hüquqi mədəniyyətin aşağı səviyyəsi;
- yeniyetmələrin tərbiyəsi üzrə ixtisaslaşan sahələrin ehtiyatla və kadrlarla lazımi qədər təmin olunmaması.

Kriminoloqlar yetkinlik yaşına çatmayanların cinayət törətmələrinin səbəblərindən biri kimi tərbiyə işində olan çatışmazlıqların öyrənilməsinə xüsusi diqqət yetirirlər [6, s.198].

-İntihar; Ümumdünya Səhiyyə Təşkilatı intiharın (suisidin) 800 səbəbini təyin etmişdir.İnsanların yaşına görə onların öz canlarına qəsd etmə səbəbləri müxtəlifdir. Məsələn, sevgisinə cavab almadıqda, və ya xəyanətlə üzləşəndə 16 və 16 yaşa qədər olan insanlar arasında bu səbəbə görə intihar halları daha çoxluq təşkil edir. Ancaq 25 yaşdan sonra bu səbəbdən intihar edən çox az insana rast gəlmək olar. İntihar edənlər arasında müxtəlif kateqoriyadan olan insanların statistikası da xeyli maraq doğurur.Öz canına qəsd edənlər içərisində yeniyetmə,məişət zorakılığının qurbanları (qadın, uşaq, hətta kişilər də), əlil, təqaüdçü, məhbus,ruhi xəstə və s. vardır. Təəssüflə qeyd etməliyik ki, Azərbaycanda da intihar hadisələrinə rast gəlinir.İntihar hallarının gəncləşməsi, belə ki,uşaqlar və gənclər arasında suisid hallarının çox olması narahatedici məsələlərdən hesab edilir.Uşaqlar arasında intiharın digər səbəbləri kimi ailələrin dağılması, fiziki və cinsi zorakılıq önəmli yer tutur. 14 yaşda intihara cəhdin səbəbləri də dəyişir. Bu yaş dövründə hətta ilk cavabsız sevgi ölümə yol açа bilər. Qarşı tərəfə öz hislərini bildirməyin bir yolunun da məhz öz canına qəsddən keçdiyini fikirləşən uşaqlar da az deyil. 16-20 yaş qrupunda intihara o zaman cəhd edilir ki,onlar üçün həyat mənasını itirmiş olsun [10].

-Narkomaniya; Narkomaniyanın yayılması insanların sağlamlığı üçün təhlükə törədir. Narkotik maddələrin qəbul edilməsi ilə insanın istər fiziki,istərsədə psixoloji cəhətdən məhvinə səbəb olur. Narkomaniya yaddaş və təfəkkürə zərər vurmaqla yanaşı,həyata qarşı biganəlik də yaradır. Narkomaniya orqanizmin zəifləməsinə,çəkinin itirilməsinə və insanın fiziki gücdən

düşməsinə səbəb olur.Narkotik maddədən istifadə daxili orqanların, o cümlədən qaraciyər və böyrəyin zəhərlənməsi ilə nəticələnir.Hepatit narkomanlar arasında ən geniş yayılmış xəstəlik kimi tanınır. Ən təhlükəli xəstəliklər orqanizmə qan vasitəsilə keçir. Narkomanlıq cəmiyyətin özəyi,bünövrəsi olan ailənin dağılmasına, qeyri-stabil şəraitin yaranmasına səbəb olur [11].

Beləliklə, biz yuxarıda yeniyetmələrdə deviant davranış formalarını, növlərini və onların yaranma səbəblərini nəzərdən keçirdik.Aydın oldu ki,yeniyetmələrdə deviant davranışın təzahür halları yalnız fərdin özünün quruluşundan deyil, ailə və mühit amillərindən də asılıdır.Buna görə də,təlim-tərbiyə prosesində onun gələcək nəticələri nəzərə alınmalı,yeniyetmələrdə deviant davranışı formalaşdıran təsirlərdən istifadə edilməməlidir.

Açar sözlər: deviant davranış, yeniyetmə, intihar, cinayətkarlıq, narkomaniya.

Ədəbiyyat

1. Damron-Bell J. The development of deviant behavior in adolescents: the influence of student characteristics and school climates. USA: University of Louisville, 2011, p. 309
1. Деветьярова И.Н. Девиантное поведение подростков: анализ понятий. Россия: Ижевск, 2011, с.99-101.
2. Əliyeva Ş. Ailədaxili zorakılığın kiçik məktəblinin psixikasına təsiri məsələləri. Azərbaycan Respublikasının Təhsil İnstitutu,Elmi əsərlər, Bakı, 2017, s.135-139.
3. Hanımoğlu E. Deviant Behavior in School Setting.Journal of Education and Training Studies.Turkey: Adana, 2018, pp. 133-141.
4. Namazova A. Deviant davranışın xüsusiyyətləri və tədqiqi istiqamətləri. XXl əsr mülahizələr və düşüncələr //Gənc Tədqiqatçıların Elmi-Praktik Konfransının materialları. Bakı, 2009, s.2-5.
5. Piriyev Ə.S. Kriminologiya. Bakı,1999, 239 s.
6. Şəfiyeva E.İ. Yeniyetmələrdə zərərli maddələrə aludəçiliyin psixoterapiyası,psixokorreksiyası və psixoprofilaktikası // Bakı Universitetinin Xəbərləri. Bakı,2014, ss. 99-111
7. http://studylecturenotes.com/causes-of-deviance-in-society/
8. https://azescience.org/deviant-davranislarin-bioloji-izahi/
9. http://scfwca.gov.az/store/media/Intihar.pdf
10. https://az.wikipedia.org/wiki/Narkomaniya

MULTİKULTURALİZMİN VƏ SİVİLİZASİYALARARASI DİALOQUN TƏŞVİQİNDƏ AZƏRBAYCANIN YERİ VƏ ROLU

Salmanzadə Toğrul
Azərbaycan Milli Elmlər Akademiyası
togrulsalmanzada@gmail.com

Multikulturalizm və sivilizasiyalararası dialoq terminlərinin elmi-siyasi ədəbiyyata daxil olması əsasən XX əsrin ikinci yarısına təsadüf edir və bu anlayışlarının konturları hələ tam olaraq müəyyənləşməyib. Ümumi olaraq nəzərdən keçirdikdə multikulturalizm müxtəlifliyin bütün formalarını – etnik, dini, irqi və s. qəbul edir və onların hər biri üçün bərabər imkanlar yaradır. Burada tolerantlıqla yanaşı mədəniyyətlərin birgə fəaliyyətinə önəm verilir və heç bir mədəniyyət digərindən üstün tutulmur, bununla da assimilyasiya prosesinin qarşısı alınır. Müxtəlif qruplar öz

mədəniyyətlərini qoruyur və eyni zamanda daha geniş miqyasda birlikdə fəaliyyət göstərərək ümumi rifahdan faydalanırlar.

Sivilizasiya isə S.Hantinqtona görə bir insanın özünü identifikasiya edə bildiyi, dil, tarix, din, adə və ənənələr kimi faktorlar əsasında formalaşan ən geniş qrupdur. Hantinqtonun qənaətincə, "soyuq müharibə"dən sonrakı dövrdə beynəlxalq münasibətlərdə daha əvvəlki kimi ideoloji münaqişələr deyil, sivilizasiyalararası münaqişələr, xüsusilə, Qərb və İslam, Qərb və Konfutsi sivilizasiyaları arasında olan münaqişələr hakim olacaq. O qeyd edir ki, sivilizasiyalararası münaqişələr müasir dünyada konfliktlərin son təkamül nöqtəsi olacaq [5, s.22-23; 25]. Müasir dövrdə sülhü təmin etmək dünyanın fərqli sivilizasiyalardan ibarət olduğunu qəbul etməklə və dünya siyasətini sivilizasiyalararası dialoq üzərində qurmaqla mümkündür. Müxtəlif mütəfəkkirlər tərəfindən sivilizasiyalararası dialoqa olan yanaşmalara nəzər saldıqda görünür ki, qloballaşma şəraitində sivilizasiyalar öz mədəni identikliklərini və həyat tərzlərini qorumaq üçün dialoqa yeganə çıxış yolu kimi baxırlar.

Zəngin tarixi irsə malik olan Azərbaycanda multikulturalizm hər zaman milli mədəniyyətin bir hissəsi olmuşdur. Hələ multikulturalizm ideyasının ortaya çıxmadığı, dünyanın bir çox yerlərində irqi ayrı-seçkiliyin hökm sürdüyü vaxtlarda Azərbaycanda olan müxtəlif xalqlar dinc və yanaşı yaşamışlar. Müasir dövrdə isə Azərbaycan bu tarixi ənənələrə və özünün beynəlxalq əlaqələrinə söykənərək ölkələr daxilində-lokal səviyyədə multikultarizmin təşviqi, qlobal səviyyədə isə sivilizasiyalararası dialoqun inkişafı ilə bağlı təşəbbüslər edir, beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Azərbaycan tarixi islam ölkəsi olaraq müstəqillik əldə etdiyi vaxtdan etibarən müsəlman ölkələri, eləcə də İslam Əməkdaşlıq Təşkilatı (2011-ci ilə qədər — İslam Konfransı Təşkilatı) ilə əlaqələrə xüsusi önəm verir və bu əlaqələr xarici siyasət kursunun prioritet istiqamətlərindən birini təşkil edir. Azərbaycan Respublikası ilə İƏT arasında olan əlaqələr təkcə siyasi sahə ilə yekunlaşmır, həmçinin təhsil, elm, mədəniyyət, turizm, humanitar, iqtisadi sahələri də əhatə edir. 2009-cu ildə Bakı şəhəri İslam mədəniyyətinin paytaxtı elan edilmiş və elə həmin il 13-15 oktyabr tarixlərində "Bakı-İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində Bakı şəhərində İKT-yə üzv dövlətlərin Mədəniyyət Nazirlərinin VI Konfransı keçirilmişdir.

2008-ci il dekabrın 2-3-də Bakıda keçirilmiş Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransında Prezident İlham Əliyev tərəfindən mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulmasını nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuş və bu, qlobal bir prosesə çevrilmişdir. [4, s. 230-231]. 2011-ci il 7-9 aprel tarixlərində Azərbaycan Respublikasında 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə 1-ci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilmişdir. Mədəniyyətlərarası dialoqun müxtəliflik və plüralizmlə səciyyələnən müasir cəmiyyətlərdə ayrı-ayrı aspektlərinin nəzərdən keçirilməsi və yerli, regional və qlobal səviyyələrdə gücləndirilməsinə təşviq edilməsi Forumun əsas məqsədi olmuşdur. Bundan sonra Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə qərara alınmışdır ki hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilsin [1]. Azərbaycanın irəli sürdüyü və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüs olan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu hər iki ildən bir olaraq daimi keçirilir. Beləliklə, bütün bu yüksək səviyyəli əlaqələrə əsaslanaraq Azərbaycan İslam və Qərb sivilizasiyaları arasında dialoqun inkişaf etdirilməsi üçün aktiv çıxış edir.

11 sentyabr hadisələrindən sonra Hantinqtonun "Sivilizasiyaların toqquşması" nəzəriyyəsi artıq daha real görülsə də, həm beynəlxalq təşkilatlar, həm də müsəlmanlar tərəfindən bunun əksini

ifadə edən çağırışlar oldu və bunun nəticəsində sivilizasiyalararası dialoqu təşviq etmək məqsədilə yeni institutlar təşkil olundu. Bu baxımdan, 2005-ci ildə keçmiş BMT Baş katibi Kofi Annanın təşəbbüsü, Türkiyə və İspaniyanın dəstəyi ilə Birləşmiş Millətlər Təşkilatı tərəfindən yaradılmış olan BMT-nin Sivilizasiyalar Alyansını qeyd etmək lazımdır. Bundan daha əvvəl isə sivilizasiyalararası dialoqun inkişaf etdirilməsi ilə bağlı, 1998-ci ildə o zaman İranın prezidenti olan Məhəmməd Xatəmi tərəfindən BMT-yə müraciət olmuş və bunun nəticəsində BMT Baş Məclisi tərəfindən 2001-ci il "Sivilizasiyalararası Dialoq ili" elan olunmuş, lakin 11 sentyabr hadisələrindən sonra bu ideya kölgə altında qalmışdır [3, s.56].

BMT SA 2008-ci ildən etibarən ən yüksək səviyyəli tədbir olaraq Qlobal Forumlar təşkil edir və bu forumlar Alyansın üzvü olan ölkələri, görkəmli şəxsləri və təşkilatla əməkdaşlıq digər qurumları bir araya gətirir. 2016-cı ildə isə SA-nın 7-ci Qlobal Forumu hər zaman xalqlar, sivilizasiyalar arasında sülhün və dialoqun tərəfdarı olan Azərbaycanda keçirilmişdir. Forumun açılışında prezident İlham Əliyev demişdir: "BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmək bizim üçün böyük fəxrdir. Biz bunu mədəniyyətlərarası dialoq və multikulturalizm dəyərlərinin təşviqi sahəsində fəaliyyətimizin yüksək qiymətləndirilməsi əlaməti kimi qəbul edirik" [2].

Yekun olaraq qeyd etmək lazımdır ki, nə Qərb-Xristian, nə də İslam dünyası sivilizasiyalararası dialoqu inkişaf etdirmək üçün xüsusi səy göstərməmişdir. Müasir dövrdə isə qloballaşma və beynəlxalq münasibətlərin mövcud inkişafı iki sivilizasiya arasında əlaqələrin qarşılıqlı hörmət və anlaşma şəraitində inkişafına əsas yaradır. 11 sentyabr hadisələrindən sonra proseslərin inkişafı da göstərdi ki, hər iki sivilizasiya və həmçinin beynəlxalq təşkilatlar, müxtəlif hökumət və qeyri-hökumət institutları sivilizasiyalararası dialoqun və dinc yanaşı yaşamanın bəşəriyyətin gələcək inkişafı üçün yeganə yol olduğu fikrindədirlər. Tarixən sivilizasiyaların qovuşduğu məkanda yerləşən Azərbaycan multikulturalizm sahəsində zəngin və qədim təcrübəyə malikdir. Müstəqil Azərbaycan dövlətinin qurulmasından sonra isə tarixi ənənələr dövlət siyasətinin tərkib hissəsinə çevrilmiş və mövcud multikulturalizm dəyərləri daha da zənginləşmişdir. Beləliklə, Azərbaycan Respublikası öz tarixi təcrübəsindən çıxış edərək yalnız ölkə daxilində deyil, qlobal miqyasda da multikulturalizmin və sivilizasiyalararası dialoqun inkişafı sahəsində səylərini davam etdirir və bütün dünya ölkələrini əməkdaşlığa çağırır.

Açar sözlər: Azərbaycan, Qərb, İslam, multikulturalizm, sivilizasiya, dialoq, Qərb, İslam.

Ədəbiyyat

1. Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. http://www.elibrary.az/docs/FERMAN/frm2011_46.pdf
2. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu, Bakı 2016. http://www.mfa.gov.az/content/967
3. Davide Orsi, The 'Clash of Civilizations' 25 Years On: A Multidisciplinary Appraisal. E-International Relations, Bristol, England, 174 pages.
4. Niyaz Niftiyev. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015. 408 səh.
5. Samuel P. Huntington, The Clash of Civilizations?. Foreign Affairs, Vol. 72, No. 3 (Summer, 1993). Published by: Council on Foreign Relations, pp. 22-49 (28 pages)

ЗНАЧЕНИЕ ЭКОНОМИЧЕСКОГО РОСТА ДЛЯ ПЕРСПЕКТИВНОГО НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ

Шамилов Фейруз
Азербайджанский Государственный Экономический Университет
feshamilov@mail.ru

Современная динамика экономического роста предопределяется особенностями его предыдущих этапов и зависит от внутренних и внешних, объективных и субъективных факторов, положительных и отрицательных тенденций, структурных сдвигов.

Экономический рост является одной из основных целей макроэкономической политики государства, т.к. развивающаяся экономика имеет большие возможности удовлетворять систему растущих потребностей.

Экономическая политика с социальной ориентацией должна направляться на достижение высокого благосостояния населения, что непосредственно связано с проблемами экономического роста и экономической безопасности в современный период.

В условиях открытости и возрастания взаимозависимости национальных экономик под влиянием глобализации мировой экономики и непредвиденности некоторых факторов экономического развития активизируется задача обеспечения экономического роста и безопасности. Повышающийся объем производства облегчает решение извечной проблемы ограниченности ресурсов и безграничности потребностей. Экономический рост нацелен на долгосрочное увеличение производственной отдачи. В основу роста ставится не только производственная деятельность, а способность осуществлять растущее производство в сложившихся условиях. Экономический рост, представляя собой, количественное изменение производственной деятельности, может происходить без качественных изменений. Экономический рост без развития, хотя и увеличивает количество товаров, но при отсутствии качественных изменений производства требует пропорционального увеличения расходов. В таком случае экономический рост не сопровождается повышением производительности труда.

Отметим, что экономический рост невозможен только при ориентации на внешний рынок. Достижение прогрессивного экономического развития требует реализации на мировом рынке не только экспорта минерального и энергетического сырья, но и конкурентоспособной продукции обрабатывающих отраслей.

Современный экономический рост характеризуется противоречиями между: потенциальными возможностями и опережающими потребностями, темпами экономического роста и уровнем благосостояния, количеством и качеством экономического роста, динамикой макро и микроэкономических показателей. Разумеется, рост не является самоцелью экономического прогресса.

Рост, и развитие представляют собой непрерывный поступательный процесс, протекающий в течение долгого и продолжительного периода.

Рост может быть целью, но не самоцелью экономической динамики. Поэтому закономерен вопрос об устойчивости экономического роста. Конечно, лучшим материальным фундаментам стабильности государства служит устойчивый экономический рост, который способен обеспечить внутреннюю и внешнюю безопасность [1].

В ближайшей и отдаленной перспективе нельзя ограничиваться возможностями развития топливно - сырьевых отраслей. Дальнейшее развитие экономики необходимо нацеливать на использование природных ресурсов для поддержания экономической стабильности, переходу к поступательному развитию и устойчивым тенденциям роста, выражающим национальный интерес. При этом неограниченный рост в силу объективных процессов не должен считаться показателем экономического прогресса [2].

Нужно отметить, что темпы ВВП вполне синхронно соотносятся с темпами роста промышленной, в том числе, добывающей промышленности и ценами на их продукцию. При этом по сравнению с другими странами, если в начале периода (2005г.) по Азербайджану наблюдались самые высокие темпы роста ВВП (126,4%), , то в конце периода они оказались самыми низкими (101,4%), Среди стран СНГ подобная динамика наблюдается в России, Туркмении, Белоруссии, Грузии и др.

Отметим, что, как правило, развитые страны по темпам экономического роста отстают от показателей развивающихся стран. Происходит это в основном в связи с отстающей исходной базой развития в развивающихся странах. Так, темпы роста ВВП (2017г. к 2010 году) составили в Азербайджане-109,2%, в Индии-159%, в Китае-167%, в Узбекистане-165%, тогда, как за то же время темпы роста ВВП составили, соответственно, в Англии-115%, в Германии-113%, в США-116%, во Франции-108%, в Японии-108%, хотя в отдельные периоды темпы экономического роста в республике значительно опережали темпы роста названных стран [3].

Государственная экономическая политика должна содействовать действию позитивных факторов экономического роста и устранять действие негативных факторов.

При этом приоритет должен отдаваться механизмам структурной, инвестиционной и инновационной, финансово-бюджетной политики.

Современный экономический рост носит спонтанный характер и в то же время он предполагает такое развитие, при котором долгосрочные темпы роста производства устойчиво превышают темпы роста населения. Разумеется, главным фактором современного экономического роста является научно-технический прогресс. В то же время особенностью современного экономического роста является то, что он имеет глобальный характер, распространяясь не только на многие экономические субъекты внутри страны, но и переходя национальные границы.

Экономический рост, наблюдаемый в республике показал, что сохраняются факторы неустойчивости развития. Положительная динамика, наблюдаемая в начале периода, сменяется отрицательной динамикой почти по всем показателям. Для достижения устойчивого экономического роста необходимо повышение роли внутреннего рынка, как посредством развития внутреннего предложения, так и внутреннего спроса, повышая доходы населения, а также создания предусмотренного государственными программами отраслевого разнообразия экономики республики.

Ключевые слова: экономический рост, развитие, устойчивый рост, национальная экономика.

Литература

1. Скрыль Т.В., Осипов В.С. «Устойчивое экономическое развитие: аспекты экономической политики» Ж-л «Экономика и предпринимательство» 2016,№1, с.720.

2. Акимова Т.А. «Экономика устойчивого развития» М. «Экономика», 2010, 430с.
3. Статистические показатели Азербайджана, Азгоскомстат, Баку-2019 г.

Perspektiv milli inkişafda iqtisadi inkişafın rolu

Məqalədə artım templəri, iqtisadi dinamika dövrləri, sahə quruluşu, xarici iqtisadi fəaliyyət ilə müəyyənləşdirilən milli iqtisadiyyatın inkişaf məsələləri araşdırılır. Burada davamlı iqtisadi artım perspektivi üçün iqtisadi proseslərin dövlət tənzimlənməsinin vacibliyinə xüsusi diqqət yetirilir.

ORTA ƏSRLƏR DÖVRÜNDƏ NAXÇIVANDA YETİŞMİŞ ELM, SƏNƏT VƏ MAARİF XADİMLƏRİ

Səfərli Nübar
"Naxçıvan" Universiteti
nigar.salmanova.84@mail.ru

Orta əsrlər dövründə Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda orta və ali təhsil verən tədris müəssisələri fəaliyyət göstərirdi. Bu dövrdə Naxçıvanda təhsil əsas etibarilə məktəb, mədrəsə və məzhər mərhələlərindən ibarət olmuşdur. Bu təhsil ocaqlarından ibtidai təhsil verənlər "məktəb"(məscid), orta təhsil verənlər isə "mədrəsə" adlanırdı. Məktəblər mədrəsələr üçün hazırlıq funksiyasını yerinə yetirir, orada şagirdlərə müxtəlif fənlər haqqında ilkin məlumatlar verilirdi. Mədrəsələr isə ibtidai və ali dərəcələrə bölünürdü. Uşaqlar 15 yaşınadək məktəbdə, 16 yaşdan sonra mədrəsədə təhsil alırdı. Lakin məktəblərdə xüsusi tədris proqramı olmadığından təhsil uzun müddət, bəzən 10 ildən 20 ilədək davam edirdi. Quran-i Kərimi öyrəndikdən sonra uşaqların əksəriyyəti məktəbi bitirmiş hesab olunurdular. İlahiyyat və fiqh adətən məscidlərdə tədris edilirdi. Lakin zaman keçdikcə ziddiyyətli fikirlər artdıqca "Allahın evi"ndə mübahisə açmaq istəməyən alimlər xüsusi dini təhsil müəssisəsinin- mədrəsənin əsasını qoydular. Mənbələrə istinad edərək demək olar ki, ilk mədrəsə X əsrin sonlarında Nişapurda açılmış və daha sonra müsəlman dünyasının böyük şəhərlərində olduğu kimi Naxçıvanda da təsis edilmişdir [4]. Məktəblərdə olduğu kimi, mədrəsələrdə də dini təlim əsas yer tutsa da orada eyni zamanda ərəb, fars, türk dilləri, fizika, ədəbiyyat, tarix, coğrafiya, fəlsəfə, nücum, məntiq, təbabət, riyaziyyat, dərsləri də keçirilirdi. Dərslər əsasən burada dərs deyən alim-ilahiyyatçılar tərəfindən tərtib edilmiş ədəbiyyat əsasında qurulurdu və həmin ədəbiyyatlar isə mədrəsənin nəzdində yaradılmış kitabxanalarda qorunurdu. Təhsil başa çatdıqda tələbələrə "icazə" adlanan "şəhadətnamə" verilirdi ki, bununla da onlar ilahiyyat və hüquq sahəsində müəyyən mənsəb tuta bilsinlər. Azərbaycanda məktəb tarixini öyrənmək üçün əhəmiyyətli qaynaq olan "Mənşur-i təqrir-i tədris-i mədrəsə-i Naxçıvan" fərmanı Naxçıvanda və bütövlükdə Azərbaycanda tədrisin vəziyyəti haqqında əsaslı fikir söyləməyə imkan verir [1]. Fərmanda mədrəsələrdə dərs deyən müəllimlər-müdərrislər və təhsil alan tələbələr qarşısında duran vəzifələr qeyd olunmuşdur. Fərmana görə müəllim şagirdləri sevməli, onların yaş və fərdi xüsusiyyətlərini nəzərə almalı, dərsi asan və anlaşılan şəkildə aparmalı, şagirdlərlə keçirilən dərsləri müzakirə etməli, ayda bir dəfə imtahan təşkil etməli, fərqlənən tələbələri başqalarına tanıtmalı idilər. Fərmana görə şagirdlər isə aşağıdakı vəzifələri yerinə yetirməli idilər: onlara dərs keçən məlimlərin birini digərindən üstün tutmamalıdırlar; tənbəllikdən uzaq olub keçilmiş dərsləri təkrar etməlidirlər; dərsdə diqqətli olub, mövzuya dair sual verməlidirlər; bir dərsi mənimsəmədən

başqasına keçməməlidirlər; təkcə elmə deyil əxlaq təmizliyinə də diqqət verməlidirlər. Mədrəsələrin mühüm elm mərkəzləri olmasını təsdiq edən faktlardan biri, onların yanında zəngin kitabxanaların olması idi. Bu kitabxanaları adətən dövrün görkəmli alimləri təsis edir, dünyanın bir çox ölkələrindən göndərilən və müəlliflər tərəfindən bağışlanan kitablar hesabına zənginləşdirilirdi. Qaynaqlar təsdiq edir ki, Naxçıvanda "Mədrəseyi-Bəhtaniyyə" və "Mədrəseyi İrşadiyyə" adı ilə fəaliyyət göstərən mədrəsələrdə təkcə dini dərslər deyil, dünyəvi dərslər də keçirilir, hətta burada təhsil almaq üçün Yaxın və Orta Şərqin bir sıra ölkələrindən də uşaqlar gəlirdilər. Qeyd etmək lazımdır ki, orta əsrlərdə mədrəsələr təkcə təhsil mərkəzləri kimi yox, həm də böyük elmi müəssisələr kimi fəaliyyət göstərirdilər. Burada elmi tədqiqatlar aparılır, tələbələr arasından da böyük alim və mütəfəkkirlər yetişirdi. Əbu Əbdüllah əl-Müfərric Nəşəvi, Əhməd ibn Hacəf Nəşəvi, Əkməleddin Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, İzzəddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Fəzullah Nəimi elm xəzinəsinə töhvələr vermiş və mədrəsələrdə yetişiş Naxçıvanlı dahilərdir [2]. Həmçinin Naxçıvan dünyaya XII əsrdə Əcəmi Naxçıvani kimi dahi memar bəxş etmişdir. Əcəmi Naxçıvani bir çox memarlıq əsərlərinin, o cümlədən dünya incilərindən olan Mömünə Xatun türbəsinin müəllifidir.

Açar sözlər: təlim, tərbiyə, mədrəsə, məktəb, müəllim, şagird.

Ədəbiyyat

1. Hüseynzadə Ə . Naxçıvan mədrəsələrinə dair Elxanı fərmanı. Azərbaycan SSR EA Məruzələri, c.XXI, 1960.
2. Naxçıvan ensiklopediyası, II cild. 2005.
3. Naxçıvan tarixi I cild. 2013.

AZƏRBAYCAN DİPLOMATLARININ PARİS SÜLH KONFRANSINA GEDƏN YOLDAKI MÜBARİZƏSİNDƏ BÖYÜK BRİTANİYANIN ROLU

Səfərov Sehran
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
sehran.safarov@mail.ru

Paris sülh konfransına aparan yolda Azərbaycan bir sıra çətinliklərlə üzləşmiş və demək olar ki, bu çətinliklərin öhdəsindən layiqincə gələ bilmişdir. Belə ki, Rusiyada bolşevik çevrilişindən sonra baş verən hadisələr zəminində və ingilislərin Bakıyagəldiyi illər arasında Azərbaycanda siyasi vəziyyət heç də sabit olmamışdır. Amma buna baxmayaraq Cümhuriyyət öz varlığını qorumağahər zaman çalışmışdır.

Hadisələrin gedişatı Birinci Dünya müharibəsinin nəticəsi kimi Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeni məsələ olaraq çıxmasına şərait yaratdı. Belə ki, Denstirvilin Bakıya gəlişi artıq dünya siyasi şəraitində Azərbaycan reallığının kəsb edilməsinə yol açmışdı. Avqustun 17-də Denstirvilin ekspedisiya korpusu Bakıya gəldi. Ancaq Denstirvilin Mərkəzi Xəzər Diktaturası ilə münasibətləri alınmadı. Çünki türklərlə mübarizədə Denstirvilə yerli hərbi dəstələrdən lazımi dəstək olmadığından Bakını tərk etməyi üstün tutdu. Nəticədə sentyabrın 14-də

Britaniya qoşunları İrana çəkildilər, Bakı isə Azərbaycan-Osmanlı birgə ordusu tərəfindən xilas edildi.Amma türk qoşunları Azərbaycan paytaxtında çox qala bilmədilər. Beləki 30 oktyabr 1918 ci ildə imzalanan Mudros sülh razılaşmasına əsasən Osmanlı dövləti öz qoşunlarını keçmiş Rus imperiyasının ərazisindən çıxarmalı idi [1, s.80].

Türklərin əvəzinə yenidən britaniyalılar bölgəyə gəldilər. Mudros sülh sazişi imzalandıqdan sonra Böyük Britaniyanın Müdafiə Nazirliyi Mesopotamiyadakı Britaniya komandanlığına Bakının işğalı haqqında əmr göndərdi və bu vəzifəni İranın şimal hissəsində yerləşən ingilis qoşunlarının komandanı general Uilyam Tomsonun üzərinə qoydu. Belə olan təqdirdə Azərbaycan Xalq Cumhuriyyəti, öz növbəsində Nəsib bəy Yusifbəyli, Musa Rəfiyev və Əhməd bəy Ağaoğlundan ibarət xüsusi nümayəndə heyətini general Tomsonla danışıqlar aparmaq üçün Ənzəliyə göndərdi. Razılaşmış danışıqlar əsasında Azərbaycana gələn Tomson özünü Bakının general-qubernatoru elan etdi və britaniyalılara şəhər polisinə başçılıq etmək əmrini verdi. Tomson Azərbaycan qoşunlarının paytaxtdan çıxmasından başqa o, AXC-nin bayrağını İngiltərə, Fransa, ABŞ cərgəsindən də çıxartdırdı, "türklərin fitnələri" ilə yaradılan "Azərbaycan" adlı hökuməti tanımadığını bildirdi.Lakin bir qədər sonra Tomsonbölgədə var olmaq üçün AXC hökumətinin dəstəyinə ehtiyac duyduğunu anladı. 1918-ci il dekabrın 28-də Tomson Xoyski hökumətinin Azərbaycanda yeganə qanuni hakimiyyət olduğunu bəyan etdi və müttəfiq komandanlığın bu hökumətə hərtərəfli yardım edəcəyini qeyd etdi [2, s.38].

Qeyd etmək lazımdır ki, Azərbaycanın işğalı müttəfiqlərin birgə işi ilə həyata keçirilirdi. Bu vəziyyət daha sonra Paris sülh konfransında həmin nümayəndələrin Bakıdakı hadisələri yaxından müşahidə edib öz mövqeylərini bildirmələri baxımından Azərbaycan üçün müsbət hal olmuşdur.

AXC-nin xarici siyasətinin əsas istiqamətlərindən biri gənc Respublikanın beynəlxalq cəmiyyətlər tərəfindən tanınması idi. Bu məsələ böyük dövlətlər tərəfindən, o cümlədən Böyük Britaniyada daxil olmaqla Paris sülh konfransında həll olunurdu. Konfransda iştirak etmək üçün AXC hökuməti parlamentin sədri Əli Mərdan bəy Topçubaşovun başçılığı altında diplomatik missiya təşkil etdi.

Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin əsas məqsədi hər-hansı bir idarəetmə üsulunun bərqərar olunmasından asılı olmayaraq Rusiya ilə birləşdirilməsinə yol verməmək və paytaxtı Bakı şəhəri olmaqla müstəqil AXC-nin rəsmi tanınması idi [3, s.25].

Paris konfransı Avropaya İstanbul üzərindən gedən AXC hökumətinə hələ yolda ikən 1919-cu ilin yanvarın 18-dən başladı. Burada AXC nümayəndələri Böyük Britaniya, ABŞ, İtaliya və Fransadan olan şəxslərlə Paris sülh konfransında iştirak etmək üçün danışıqlar aparırdılar. AXC nümayəndələrinin Parisə girişinə icazə verən ilk ölkə Böyük Britaniya oldu. 1919-cu il martın 6-da Topçubaşov İstanbuldakı ingilis komandanlığının nümayəndəsidən yazılı icazə aldı. Fransa öz razılığını yalnız aprelin 12-də verdi. Azərbaycan nümayəndələri isə yalnız mayın 9-da Parisə gələ bildilər [4, s.89].

Yeni müstəqil dövlət kimi AXC-nin güclü bir dövlət tərəfindən himayə olunmasına ehtiyacı vardı.AXC nümayəndələri öz ölkələri üçün arzu olunan himayədar və dəstəkçi kimi Böyük Britaniyanı hesab edirdilər.Böyük Britaniyanın siyasəti Azərbaycan hökumətinə hər şeydən qabaq ruslarla olan məsələsində çox vacib idi. Sovet Rusiyası ilə münasibətlərdə AXC Böyük Britaniyanın mövqeyini öyrənib ona üstünlük vermək və öz addımlarını onunla razılaşdırmaq idi.

Sovet Rusiyası ilə münasibətlər həm Azərbaycan, həm də Britaniya tərəfi üçün mürəkkəb idi. Qeyd etmək lazımdır ki, Böyük Britaniya vahid və bölünməz Rusiyanın tərəfdarı deyildi. AXC hökuməti bolşeviklərdən və ağqvardiyaçılardan müdafiə olunmaq üçün ən böyük köməyi Böyük Britaniyadan gözləyirdi. Bununla əlaqədar olaraq AXC ümid edirdi ki, Britaniya hökuməti Moskva

hökuməti tərəfindən Cənubi Qafqaz Respublikalarını tam tanıyacaq və xeyirxah qonşuluq əsasında iki xalq arasında normal iqtisadi əlaqələrin bərpa edilməsi zəmnində AXC ilə əlaqəyə girəcək [5, s.41].

Azərbaycan diplomatları can atırdılar ki,ölkənin müstəqilliyi mümkün qədər tez tanınsın.Ancaq yalnız 9 aydan sonra 1920-ci ilin yanvarın 10-da Antanta ölklərinin Ali Soveti AXC-nin müstəqilliyini de-fakto olaraq tanıdı. De-fakto tanınması İttifaq dövlətləri tərəfindən AXC-ə dəstək əlamətini bildirirdi.

Buna baxmayaraq ümumilikdə Azərbaycan-Britaniya əlaqələri pozitiv məcradagedirdi.19 yanvar 1920-ci ildə Antanta Ali Şurası Cənubi Qafqaz dövlətlərinə, o cümlədən Azərbaycana silah-sursat və ərzaq yardımı göndərməyi qərara aldı. Bundan başqa AXC hökuməti Böyük Britaniyanın dəstəyinə ümid edərək de-yure tanınmasına ümid bəsləyirdi. Bu məqsədlə fevralın 25-də Topçubaşov və nümayəndə heyətinin başqa üzvləri Londona gəldilər.“Azərbaycan” qəzetinin verdiyi məlumata görə nümayəndələrin Londona gəlişinin əsas məqsədi Azərbaycanın müstəqillyini tanıyan ölkələrin Azərbaycanın de-yure kimi tanınmasına nail olmaq,həmçinin Cənubi Qafqazda Azərbaycan,Gürcüstan və Ermənistandan ibarət üç respublikanın konfederasiyasını yaratmaq idi.Xarici siyasət yolunda atılan addımlardan biri aprelin 22-də AXC hökuməti tərəfindən Qərbi Avropa ölkələri, həmçinin Böyük Britaniya,ABŞ,Almaniya və Sovet Rusiyası ilə diplomatik missiyalar haqqında nəşr edilən qanun idi [6, s.230].

Ümumiyyətlə, Böyük Britaniya Azərbaycan Xalq Cumhuriyyətinin De-fakto tanınmasında mühüm rol oynamışdır. İttifaq dövlətləri tərəfindən Azərbaycan Xalq Cumhuriyyətinin De-yure tanınması Azərbaycan diplomatlarının gərgin mübarizəsinə baxmayaraq baş vermədi. Bu da öz növbəsində nəticə etibarı ilə Sovet işğalına yol açdı.

Hazırki şəraitdə Azərbaycan Respublikasının dövlət müstəqilliyini ilk tanıyanlardan (26 dekabr 1991) biri olan Böyük Britaniya ilə Azərbaycan Respublikası arasında münasibətlər yüksək səviyyədə inkişaf etmiş və etməkdədir.

Açar sözlər: Paris sülh konfransı, brinci dünya müharibəsi, Azərbaycan Xalq Cumhuriyyəti, Mudros sülh müqaviləsi, Böyük Britaniya, Azərbaycan diplomatları.

Ədəbiyyat

1. Azərbaycan tarixi, Bakı: Elm, 2001,V cild, 608 s.
2. Azərbaycan tarixi, Ə.Quliyev və Ə.Sumbatsazədnin red., Bakı: Azərbaycan SSR Elmlər akademiyası nəşriyatı 1967, II cild, 220 s.
3. Documents on Britsh Foreign Policy 1919-1939, First Series, volume III, London 1949, p. 95-97
4. Həsənli C., Azərbaycan Xalq Cumhuriyyətinin xarici siyasəti (1918-1920), Bakı 2009, 470 s.
5. Rəsulzadə M.Ə., Azərbaycan Cümhuriyyəti, Bakı 1990, 120 s.
6. Yusifzadə S.Z., Birinci Azərbaycan Respublikası: İngilis–Azərbaycan münasibətlərinin tarixi, hadisələr, faktlar, Bakı, Maarif, 1998, 270 s.

AZƏRBAYCANDA UĞURSUZ AİLƏLƏRDƏ BÖYÜYƏN UŞAQLARIN PSİXOLOJİ VƏZİYYƏTİ

Səfərova Şükürənə
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
seferovasukrane@gmail.com

Həyat şərtlərinin çətinləşdiyi müasir dövrdə uşaqların böyüdüyü ailə mühiti, valideyn-övlad münasibətləri və uşaq tərbiyəsi metodları, uşaqların psixi sağlamlıqlarına və şəxsiyyətlərinin inkişafına təsir edən amillər mühüm rol oynayır. Azərbaycan ailələri uzun ömürlülüyünə görə dünyada ən yaxşı modellerdən biridir. Lakin bir sıra sosial, psixoloji, iqtisadi və s. problemlər Azərbaycanda "uğursuz ailə" anlayışının yaranmasına səbəb olur.

Ailələrdə münaqişələrin yaranmasına səbəb olan əsas amillər gəlin-qayınana münasibətləri, kənar şəxslərin müdaxilələri, məişət zorakılığı, tərəflərin psixoloji cəhətdən evliliyə hazır olmaması, qısqanclıq, xəyanət, maddi sıxıntılar və s. misal göstərmək olar. Bu problemlər ailələrdə uşaqlara da təsirsiz ötüşmür.

Bütün dövrlərin ən aktual məsələlərindən biri ailələrdə uşaqların zorakılığa məruz qalmasıdır. Zorakılıq insana psixoloji, sosial, iqtisadi təzyiqin tətbiq olunması və ya fiziki zərbənin vurulmasından ibarət olan nəzarət və əziyyət vasitəsidir [1]. Zorakılığa məruz qalan uşaqlar adətən fiziki, psixoloji, mənəvi zorakılıqla üzləşirlər.

Fiziki zorakılıq, qarşı tərəfə fiziki cəhətdən zərərin toxunması deməkdir. Bura əsasən vurma, döymə, şilləmə, təpikləmə aiddir ki, bu da bədəndə müxtəlif xəsarətlərə yol aça bilər [1]. Uşağa şiddət göstərmək, xüsusilə də ağlayan uşağın döyərək sakitləşdirməyə çalışmaq Azərbaycan cəmiyyətində geniş yayılıb. Məişət zorakılığının şahidi olmaq belə uşaqlara və onların gələcəyinə ciddi təsir göstərir. Əksər valideynlər uşağın zorakılığa məruz qalmayacağını və ya uşağın yaşadıqlarını unudacağını düşünürlər. Ancaq uşaqlar unutmur. Şiddətlə böyüyən uşaqlar daha kinli və aqressiv olurlar. Fiziki cəza uşağın qəlbində vicdan və mərhəmət hissinin məhv edir. Döyülmək uşaqlarda valideynlərinə qarşı nifrət hissini formalaşdırır və onların öz valideynlərindən uzaqlaşmasına səbəb olur.

Zorakılıq uşaqlarda qorxu və narahatlıq, yuxu pozğunluğu davranış və inkişaf ləngimələri, özünə inamsızlıq, uyğunlaşma problemi, ünsiyyət problemi, dərs uğursuzluqları, asosial şəxsiyyətin inkişafı və depressiyaya səbəb olur. Məişət zorakılığına məruz qalan uşaqların digər uşaqlara nisbətən daha yüksək səviyyədə emosional və davranış problemləri olduğu məlumdur.

Psixoloji zorakılıq-insan psixikasının pozulmasına, hətta ölümə belə səbəb ola bilər [1]. Psixoloji zorakılıq uşaqların valideynləri tərəfindən lazımi qədər sevgi və diqqət görməməsidir. Uşaqları alçaldan sözlər söyləmək, qorxutmaq, dostlarını görməsinə mane olmaq, istəmədiklərini etməyə məcbur etmək, daim tənqid etmək, başqa uşaqlarla müqayisə etmək də psixoloji zorakılıq hesab olunur. Psixoloji zorakılığın təsiri fiziki zorakılığın təsirindən daha güclüdür.

Məişət zorakılığının uşaqlara ən böyük təsiri ondan ibarətdir ki, uşaqlar ailədə bütün problemlərin zorakılıq yolu ilə həll edilməsinə inanırlar. Bu uşaqların gələcəkdə insanlara şiddət göstərmək ehtimalı yüksəkdir. Atasının anasına zor tətbiq etdiyinin şahidi olan oğlan uşağı, qızlara şiddət tətbiq etməyin normal bir davranış olduğunu öyrənəcəkdir. Həmçinin, zorakılığın üstünlük təşkil etdiyi evlərdə böyüyən gənclərin narkotik maddələrə qurşanma, intihar və evdən qaçma riski yüksəkdir [2].

Məişət zorakılığı uşaqların təkcə sağlamlığına deyil, psixoloji inkişafına da mənfi təsir göstərir. Uşaqların sosial mühitə adaptasiya ola bilməmələri, başqalarına şiddət göstərmək, özünəinamın aşağı olması, diqqətsizlik, özünə zərərvermə, cinayət və s. ilə nəticələnir.

Ailələrdə yaşanan problemlərin həlli üçün ölkədə müəyyən qurumlar, məsələn, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi , Sosial işçilər və s. fəaliyyət göstərir. Həmçinin, zorakılığın və onun təsirinin azaldılması üçün qəbul edilmiş siyasətin icrası da müntəzəm obyektiv qiymətləndirilməlidir.

Açar sözlər: zorakılığın növləri, məişət zorakılığı, fiziki cəza, uşaq psixologiyası, ailə problemləri, uğursuz ailə.

Ədəbiyyat

1. N. İsmayılova, N. Babayeva Zorakılığa "Yox" deyək-ailəmizi qoruyaq! Bakı-2017.
2. N. Lök, C. Başıoğlu, S. Öncel Aile içi şiddetin çocuk üzerindeki etkileri ve psikososyal desteğin önemi, 2016.

MÜASİR FRANSIZ DİLİNDƏ FİTONİM TƏRKİBLİ ATALAR SÖZLƏRİ

Şəfiyeva Aynur
Azərbaycan Dillər Universiteti
ayka0289@gmail.com

Fitonim tərkibli frazeoloji birləşmələrin arasında çox sayda atalar sözləri vardır. Məhz bu ifadələrin öyrənilməsi hər bir xalqın milli-mədəni dəyərləri ilə yaxından tanış olmağa geniş imkanlar yaradır. "Xalqın müşahidələrini, təfəkkür tərzini, canlı məntiqini özündə əks etdirən atalar sözü sıxılmış yaydır: onun əsl enerjisi, təsir qüvvəsi nitq məqamında, konkret zaman, şərait daxilində bilinir" (Oğuznamə). "Atalar sözləri xalqın zehni inkişaf səviyyəsini, fitri istedadını, estetik duyumundakı zərifliyi büruzə verən əsas amildir" [1].

Fikrimizcə, yığcam struktura malik olan və bitkin fikir ifadə edən atalar sözləri hər bir dilin frazeologiyasını zənginləşdirən bir mənbədir.

Fransız mənşəli fitonim tərkibli atalar sözlərinəaid nümunələr verək:

C'est ***l'arbre*** *qui cache la forêt* – ağac meşəni gizlədər. Yəni xırda, əhəmiyyətsiz detallar arxasında böyük işlər gizlənir;

L'arbre *tombe toujours du côté où il penche* – ağac əyildiyi yerə düşər.Ekvivalent: incə yerdən süzülər;

Les grands ***arbre****s font plus d'ombre que de* ***fruit****s* – böyük ağaclar meyvədən çox kölgə verər. Yəni forma həmişə məzmunla eyni gəlmir. Görünüş aldadıcı olur.

Fransanın müxtəlif regionlarında və DOM-TOM ərazilərində (dəniz aşırı departament və torpaqlar) işlənən dillərdən alınmış atalar sözləri vardır:

Breton atalar sözləri:*Il faut casser la noix pour en avoir la chair (l'amande)*-qoz ləpəsini əldə etmək üçün, qozu sındırmaq lazımdır. Ekvivalent: cəfa çəkməyən səfa görməz.

Martinik atalar sözü: *le chien n'aime pas la banane et il ne veut pas que la poule en mange* – it bananı yemir, amma onu toyuğa da vermir. Ekvivalent: nə özü yeyir, nə başqasına verir.

Bildiyimiz kimi, dünyada genetik baxımdan yalnız özünə aid olan leksik vahidlərin işləkliyi hesabına mövcud olan dil yoxdur. “Bunun başlıca səbəbi dil daşıyıcısı toplumların daim dinamik inkişafda olması və proqressiv dəyişmələr zamanı digər dillərdən mənimsəmələrlə zənginləşməsi, habelə cəmiyyətdə baş verən proseslərin qaçılmaz verbal inikası kimi əlaqə, interferensiya və s. xarakterli müdaxilələri əks etdirə bilməsidir” [2].

Fransız dilində də vətəndaşlıq hüququnu qazanan, digər dillərdən alınanfitonim tərkibli atalar sözləri qeydə alınıb:

Afrika mənşəli atalar sözləri: - *Ceux qui ont une poêle à frire n'ont pas d'arachide, ceux qui ont des arachides n'ont pas de poêle à frire* – qovurmaq üçün tava olanda araxis olmur, araxis olanda – tava olmur. Ekvivalent : biri olanda, o biri olmur; biri var, biri yox.

Bolqarmənşəli atalar sözləri: *Si tu veux que la pomme tombe, secoue l'arbre* – almanın düşməsini istiyirsənsə, ağacı sirkələ. Ekvivalent : Zəhmətsiz iş olmaz; *Il n'y a point de forêt sans arbres tordus* – əyri ağacsız meşə olmaz. Ekvivalent: meşə çaqqalsız olmaz.

Çin mənşəli atalar sözü: - *Si le ciel vous jette une datte, ouvrez la bouche*- Allah verən paydan qaçmazlar.

Fars mənşəli atalar sözləri: - *Ne parle jamais d'un arbre avant d'avoir vu les fruits qu'il rapporte* – ağacın meyvəsini görmədən onun haqqında danışma. Ekvivalent: Bilmədən danışma!

Türk mənşəli atalar sözü: *Vieil arbre ne se redresse point* – qoca ağac heç vaxt düzəlməz.

Alman mənşəli atalar sözü: *Quand l'arbre est déraciné, chacun vient à la ramée* – ağac sınanda, onun budağına çoxları dırmaşar. Ekvivalent: Yıxılana qamçı vuran çox olar.

Frazeoloji birləşmələrin əksəriyyəti nitq prossesində yaranır. Bəzən insanlar nəzərdə tutduqları fikri daha da obrazlı ifadə edərək, təsadüfən yeni ifadələrin müəllifləri olurlar. Belə ifadələrin bəziləri dildə öz yerini taparaq geniş xalq kütləsinin istifadə etdiyi atalar sözlüfrazeologizmə çevrilir. Bu fitonim tərkibli frazeoloji birləşmələri, o cümlədən atalar sözləri milli xüsusiyyətləri ilə fərqlənir. Bu bir tərəfdən fransız cəmiyyətinin obrazlı-assosiativ düşüncəsi ilə, digər tərəfdən isə, onun maddi və mənəvi mədəniyyətinin xüsusiyyətləri ilə əlaqəlidir.

Açar sözlər: frazeologiya, atalar sözləri, fitonim, fitonimli frazeoloji birləşmə.

Ədəbiyyat

1. Bəydəlili C. (elmi red.Abbaslı İ.) Atalar sözləri. Bakı: Öndər, 2004, 264s.
2. Orucov M.A. Azərbaycan dilində fransız mənşəli terminlərin linqvopraqmatik xüsusiyyətləri: Fil.elm nam. ...diss. Gəncə, 2017
3. Sadıxova G.R. Fransızca-Azərbaycanca müxtəsər atalar sözləri lüğəti. Bakı : Respublika Xatirə Kitabı Nəşriyyatı, 1999, 87 s.
4. Гак В.Г., Ганшина К.А. Новый французско-русский словарь. Москва : издательство Русский язык, 2002, 1195с.
5. Гак В.Г., Рецкер Я.И. Французско-русский фразеологический словарь. М.: Государственное издательство иностранных и национальных словарей 1963, 1111с.
6. La Mésangère P.A. Dictionnaire des proverbes français, 3ème éd. Paris, 1823, 756 p.
7. Maloux M. Dictionnaire des proverbes, sentences et maximes. Paris: Larousse, 2014, 656 p.
8. Rey A. Chantreau S. Dictionnaire d’expressions et locutions. Paris: Le Robert, 2006, 1086p.

XX ƏSR AVROPADA YENİ ƏDƏBİ CƏRƏYANLARININ FRANSIZ POEZİYASINA TƏSİRİ

Şəmilova Şahnaz
Gəncə Dövlət Universiteti
shamilova_81@list.ru

Fransız poeziyası fransız dilinin mənşəyinin başlandığı Karolinqlər (VIII-X əsrlər) dövründən bu günə qədər fransız ədəbiyyatının önəlmli bir parçasını təşkil edir. Klassik fransız poeziyası sərt poetik qaydaları ilə seçilirdi. Rondo və sonet, oda və ballada, epiqram və elegiya - bu şeir növlərinin hər biri diqqətlə işlənərək inkişaf etmişdir. Bu növ şeirlərin yaranması duyğunun ağıl üzərində üstünlük təşkil etməsini subut edərək dünyayanın minlərlə gündəlik epizodlarını seiriyyətə çevirdi. Klassik fransız poeziyasının parlaq nümunələri olan bu seirlər bu gün də öz əhəmiyyətini itirməmiş, müasir seir formaları ilə birləşərək maraqlı bir mozaika yaratmışdır [5].

XIX əsrin sonuncu rübündən etibarən fransız poeziyası tədricən yaradılmış ənənəvi şeir sənətindən faydalanan böyuk forma və məzmun müxtəlifliyini nümayiş etdirməyə başlayır. Artıq XX əsrin əvvəllərindən başlayaraq Avropa avangardının son cərəyanı olan və dadaizm, simvolizm, ekspressionizm kimi cərəyanlarının təsiri altında formalaşan sürrüalizm təşəkkül tapmağa başlayır. Sürrealizmə qəribəlik, irrosionallıq, standartlara cavab verməmək xarakterikdir. Bu dövrdə şair və rəssamlar müharibənin dəhşətlərindən təsirlənib şüurdankənar arzular dünyasına yönəlmişdilər. Bu cərəyanın müxtəlif formalarının olmasına baxmayaraq, əsas məqsədi instiktin yaradıcı qüvvəsinin və şüurdan üstün olmasının azadlığıdır. Sürrealizmin banilərindən birinin fikrincə "ruhi xəstələr əsil sürrealistlərdir". "Sürrealizm" terminini ilk dəfə G.Appoliner işlətmişdir.[6]Əslində isə bu cərəyanın banisi fransız şairi, ixtisasca həkim-psixoloq olan Andre Breton olmuşdur. Onun bu xüsusdakı fikir və ideyaları sürrealizmin birinci və ikinci manifestində öz əksini taparaq 1924-cü ildən etibarən Fransada yayılmağa başladı. Sürrealizmin əsas məqsədi şüuraltının incəsənətdə əks olunmasıdır. Sürrealistlər məşhur psixoanalitik Z.Freydin psixoanaliz nəzəriyyəsinin prinsiplərinə əsaslanırdılar. Onlara görə rəssam və ya şair öz əsərində şüur altında olanları ifadə etməlidir. Ağıl və məntiq dəyərsizdir. Bu hərəkatın təsisçiləri bədii yaradıcılıqlarının ilk illərində dadaizmdən təsirləndilər. Sürrealistlər instinktləri, xəstə əhvali-ruhiyyəni, sayıqlama, dəhşətli qarabasma və eybəcər röyaları bədii yaradıcılığın başlıca mənbəyi və estetik prinsipi sayırdılar [4].

XX əsrin 20 ci illərində fransız poeziyasında sürrealizm cərəyanı daha geniş vüsət almağa başladı. Pol Eluar, Lüi Araqon, Filip Supo, Piyer Reverdi, Antonin Arto, Robert Desno, Giyyom Appoliner, Röne Şar Boris. Vian bu cərəyanın təsiri altında yazıb yaradırdılar. Sürrealistlər Parisdə, Monparnasda (Parisin cənubunda rayon) İv Tanqiye məxsus olan sarayda toplaşırdılar. Onların arsında Jak Prever və Marsel Duhamel də var idi. Sürrelizmin özünəməxsusluğu bu şairlərin də yaradıcılığında öz inikasını tapmışdır.

Fransız poeziyası yeni yaranan cərəyanların təsiri altında forma və məzmun, ideya və bədii estetik cəhətdən yeni inkşaf mərhələsinə qədəm qoydu. Bu dövr fransız poeziyası varis olması ilə bərabər, forma və məzmununa görə yeniliklərlə dolu idi. Sərbəst şeirə meyl aydın şəkildə artmaqda idi.XX əsr şeiri artıq qafiyələrin və durğu işarələrinin yoxa çıxması ilə səciyyələnirdi.

Hələ XIX əsrin sonu XX əsrin əvvəlində Avropa ədəbiyyatında digər bir cərəyan simvolizm də meydana gəlmişdir. Simvolizmin estetik əsasları P.Verlen, A.Rembo, Q.Hofmanstal, H.İbsen və A.Blok kimi şairlərin yaradıcılığına ciddi təsir göstərmişdir. Oxucunu dövrün mühüm ictimai-siyasi məsələlərindən uzaqlaşdıran ifrat fərdiyyətçilik və mistikanın təbliği, ədəbiyyatın ictimai vəzifələrinin inkarı, gerçəkliyin mücərrəd simvollarla şərti və təhrif olunmuş inikası, pessimizmin, həyata nifrət hissinin və ölümün (əsasən intihar yolu ilə) tərənnümü simvolizmin səciyyəvi cəhətləridir. Sürrealist şairlərin çoxunun şeirlərində simvolizmin xüsusiyyətlərinə rast gəlmək olur [5].

XX əsrin I yarısı I Dünya müharibəsi illərini əhatə edir. Müharibənin doğurduğu dəhşətlər yaradıcı insanların düşüncələrinə əhəmiyyətli dərəcədə təsir göstərirdi. Yeni yaranan cərəyanların-sürrealizm və simvolizmin təsiri altında yeni şeir formaları yaranırdı. Müharibə, azadlıq mövzusu da bu dövr şeiri üçün xarakterik idi. Jak Preverin, Pol Eluarın, Giyom Apolinerin, Lui Aragonun şeirlərində bu mövzular öz əksini tapırdı.[3] Eyni zamanda sadə mövzular, təbiət elementlərinin təsviri də onların şeirlərində geniş yer alırdı. Robert Desnoun "Muguet" (İnciçiçəyi), Jak Preverin "Beauté" (Gözəllik), Boris Vianin "Les chansons de charme" (Cazibə haqqında nəğmələr) və s.şeirlərini buna misal göstərmək olar [1; 2].

Ənənəvi sevgi mözusu yeni fransız poeziyası üçün də aktual idi. Bu dövrdə yaranan şeirlərin forma və məzmunu onların dünyanı dolaşan nəğmələrə çevrilməsinə imkan yaradırdı. Jak Preverin, Boris Vianın, Lui Aragonun yazdığı şeirlərə mahnılar bəstələnirdı [2].Həmçinin Giyom Apolinerin "Mirabo körpüsü", Pol Eluarın "Qüssə", Pol Valerinin "Addımlar" və s. kimi şeirləri həmin dövrdə sevgi mövzusunda yazılmış ən yaxşı mümunələrdəndir.

Beləliklə,XX əsrin əvvəllərindən başlayaraq fransız poeziyası romantizm cəryanının təsirindən çıxaraq, klassik şeir ənənələrini pozaraq yeni inkişaf məhələsinə qədəm qoyur. Sərbəst şeir növləri meydana çıxmağa başlayır. Durğu işarələri, qafiyə işlənmirdi. İnsanlar fikirlərini istədikləri kimi ifadə etməyə başladılar. Istər Jak Preverin 'Səhər yeməyi", istərsə də Giyom Appolinerin "Repas" (Nahar, Yemək)şeirində real həyat mənzərələri o qədər canlı təsvir olunur ki, onların təsirinə düşməmək qeyri mümkündür. Bu dövrdə yeni bir şeir növü də yaranır. Avanqard ideyaların təmsilçisi olan Giyom Apoliner "Kalliqram" şeir növünün əsasını qoyur. "Kalliqram" təqdim olunan əşya və ya şəxs formasında şeirdir [4]. Bu yalnız fransız poeziyasında deyil, bütün dünya poeziyası üçün bir yenilik idi.

Bu dövr poeziyasının novataorluğueyni zamanda Maks Jakob,Viktor Saqalen, Blez Sandrar,Piyer Reverdi, Sən Jon Pers kimi şairlərin gündəlik və müasir həyatın (kücə həyatı, səyahətlər, texnika) mövcudluğunda kəşf etdikləri yeni ruh axtarışları ilə, seir formalarında etdikləri partlayışla (qafiyələrin və duyğu işarələrinin yoxa çıxması),təsvirlərin ifadəsindən, ritm və tonun qaynaqlarından yararlanan üslub cəsarəti ilə xarakterik idi [5].

Açar sözlər: poeziya, şeir, ədəbi cərəyan, forma, məzmun.

Ədəbiyyat

1. À l'écoute des sons. Les Consonnes. T.Pagniez Delbart.CLE International. 1993.
2. 2.À l'écoute des sons. Les voyelles.T.Pagniez Delbart.CLE International. 1995.
3. Le Nouveau Sans Frontieres. C.ex.Michele Verdelhan, Jacky Girardet. 1997
4. Litterature Progressive du Français. Niveau debutant.Nicole Blondeau.2006
5. 5.https://www.ladissertation.com/Litt%C3%A9rature/Litt%C3%A9rature/PO%C3%8 9SIE-DU-xx-SIECLE-95600.html
6. 6.https://az.wikipedia.org/wiki/S%C3%BCrrealizm

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA DİQQƏTİN İNKİŞAF ETDİRİLMƏSİ

Şərifova Əsməd
Gəncə Dövlət Universiteti
serifova.73 @mail.ru

XXI əsrdə dünyada baş verən qlobal dəyişiliklər məktəbəqədər yaşlı uşaqların təfəkküründən də yan keçmədi.Tədricən yaddaş məktəbindən təfəkkür məktəbinə keçid başladı.Müasir dövrümüzdə məktəbəqədər təhsil müəssələri nə qədər güclü infrastruktur və maddi -texniki bazaya malik olsa da, təhsilə ayrılan maddi vəsaitlər nə qədər cox olsa da bu amillərin heç biri peşəkar tərbiyəçilər olmadan təhsilin düzgün inkişafını təmin edə bilmir.

Pedaqoq-tərbiyəçinin işi onun pedaqoji fəaliyyəti ilə, uşaqlara göstərdiyi diqqət və qayğı daha konkret desək, təqdim etdiyi məşğələlər əsasında qiymətləndirilir. Məşğələlərin səviyyəsinin daha da yaxşı –maraqlı olması üçün valideynlərin köməyi, pedaqoqlarla daha sıx əlaqələrin qurulması mütləqdir. Məktəbəqədər yaşlı uşaqlara həssas- eyni zamanda fərdi yanaşma, mühüm və vacib amillərdən biridir. Məktəbəqədər yaşlı uşaqlarda məşğələ prosesində diqqəti bütünlüklə bir məsələyə yönəltmək cox çətin və olduqca zəruridir. Bunun üçün bilmək lazımdır ki, diqqət müəyyən xassələrə malikdir. Bu deyilənlərə diqqətin tutumu,dayanıqlığı, konsentrə olması, iradi olması kimi xassələri aid etmək olar. Qeyd olunanlrın hər birinin öz əhəmiyyəti vardır.

Kiçik məktəb yaşlı uşaqlarda qeyri-ixtiyari diqqət ən cox uşağın marağı ilə əlaqədardır. Bu yaşlı uşaqlarda qeyri ixtiyari diqqəti ən dərin emosional təsir yaradan, parlaq cisim və hadisələr inkişaf etdirir. Ona görə də bu yaşda uşaqların diqqəti əsas cəhət deyil, onları həyacanlandıran xüsusiyyətlərə doğru daha cox yönəlir. Məktəbə yeni gələn uşaq bağça dövründən fərqli olaraq müntəzəm təlim fəaliyyətinə cəlb olunur [1].

Məktəbəqədər yaşlı uşaqlarda qeyd olunanlarla yanaşı olaraq nitqin, böyüklərlə və həmyaşıdları ilə ünsiyyətin və müxtəlif fəaliyyət növlərinə cəlb olunmanın təsiri altında uşaqda yeni keyfiyyət dəyişmələri baş verir. Bütün bunlar uşağın sosial şəraitə və həyatın tələblərinə uyğunlaşmasına imkan verir.

Məktəbəqədər yaşlı uşaqlarda qavrayışla yanaşı olaraq diqqətin təkmilləşməsi prosesi də baş verir. Bu yaş dövrünün əvvəlində uşaqlarda diqqəti zahirən diqqət cəkici cisimlər cəlb edir. Bu dövrdə hələ uşaqda qavradığı obyektə maraq üstünlük təşkil edir. Başqa sözlə, diqqət qeyri-ixtiyari xarakter daşıyır.

Məktəbəqədər yaş dövrünün aətən sonunda diqqət öz inkişafının daha yüksək səviyyəsinə çatır. Böyük məktəbəqədər yaşlı uşaqlarda diqqətin yarnması, inkişafı -yeni maraqların meydana gəlməsi, şəxsiyyətin formalaşması, dünyagörüşünün formalaşması, uşağın ailədə və bağçada yeni mühitə daxil olması, yeni fəaliyyət növlərinə yiyələnməsi ilə sıx bağlı olur. Böyük bağça yaşlı uşaq gerçəkliyin əvvəllər onu cəlb etməyən cəhətlərinə diqqət yetirməyə başlayır. Uşaqların ünsiyyət sahəsinin genişlənməsi, marağının zənginləşməsi ilk növbədə qeyri-ixtiyari diqqətin daha yüksək inkişaf səviyyəsinə qalxmasına səbəb olur.

Bu dövrdə qeyri-ixtiyari diqqət əsas yer tutsa da ixtiyari diqqətin meydana gəlməsi üçün də şərait yaranır. Burada qeyri-ixtiyari diqqətdən ixtiyariyə keçid üçün uşağın diqqətini idarə etmək vasitələri mühüm rol oynayır. Ona görə də uşağa onu əhatə edən cisim və hadisələrin xassələrini, fərqli xüsusiyyətlərini, əsas əlamətlərini görməyi öyrətmək lazım gəlir. Qavrayışda olduğu kimi, bağça yaşlı uşaqlarda ixtiyari diqqətin inkişafında da oyun mühüm əhəmiyyət kəsb edir. Oyun

qaydalarına əməl etmək uşaqdan öz diqqətini mərkəzləşdirməyi tələb edir. Bu yaş dövründə diqqətin ən yüksək davamlılığı oyun prosesində baş verir. Başqa fəaliyyət növləri də uşağın diqqəti olmadan səmərəli şəkildə həyata keçə bilməz. İxtiyari diqqətin meydana gəlməsində nitq də mühüm rol oynamağa başlayır.

Məktəbəqədər yaşın sonuna doğru uşaqlarda tədricən öz diqqətini idarə etmək imkanı, onu az və çox dərəcədə müstəqil təşkil etmək bacarığı özünü göstərir. Qeyd etdiklərimizin əsas sujet xəttində isə müasir dünyamızın İKT ilə silahlanmış tərbiyəçi –müəllimləri dayanır. Hər bir yaş dövründə uşaqlarda nəyi aşkarlasaq da "pedaqoji ünsiyyət zamanı müəllimin pedaqoji mərifəti onun şəxsiyyətinin ən dəyərli və pedaqoji fəaliyyət üçün zəruri olan keyfiyyəti hesab olunur" [2].

Acar sözlər: uşaq, məktəbəqədər, diqqət, münasibət, qarşılıqlı əlaqə.

Ədəbiyyat

1. Əliyev B. Əliyeva K. Cabbarov R. Pedaqoji psixologiya. Bakı," Təhsil" 2011.
2. R.Mursaqulova.N.Rüstəmova. Məktəbəqədər pedaqogika. Bakı, 2012.

AZƏRBAYCAN DÖVLƏTİNİN GƏNCLƏR SİYASƏTİNDƏ GƏNCLƏRİN PEŞƏ-İXTİSAS YÖNÜMÜNÜN İSTİQAMƏTLƏRİ

Şərifova Validə
Azərbaycan Universiteti
sharifovavalida@gmail.com

Bazar iqtisadiyyatı dövründə iqtisadi münasibətlərin qurulması üşün əmək bazarında müasir bilik və bacarıqlara malik gənc kadrlara tələbat yaranır. Bu səbəbdən gənclərin peşə-ixtisas yönümünün istiqamətləri gələcəkdə onların məşğulluğunun təmin olunmasına yönəldilməlidir. Gənclərin peşə-ixtisas yönümünün iqtisadi münasibətlərə uyğunlaşması üçün yeni iş yerləri açmaqla yanaşı dövlət və qeyri-dövlət tədris müəssisələrində əmək bazarın tələblərinə uyğun kadrlar yetişdirilməlidir. Nəzərə alsaq ki, gənclik dövrü 14-29 yaşları əhatə edir bu tədbirlərə orta təhsil müəssisələrinin yuxarı sinif şagirdlərini maarifləndirməklə başlamaq lazımdır. Azərbaycan Respublikasının Prezidentinin "2015-2025-ci illər Azərbaycan gənclər strategiyası" haqqında sərəncamı gənclərin ixtisas və peşə seçimində məlumatlandırılması, ixtisaslaşmış mütəxəsislərin inkişaf etdirilməsi, peşəkarlığı artıran tədbirlər görülməsi, gənc mütəxəssislərin bilik və bacarıqlarının işə götürənlərin tələblərinə uyğunlaşdırılması strategiyanın məqsəd və vəzifələrdəndir [5]. Strategiyanın məqsəd və vəzifələrindən irəli gələn tələblərə uyğun olaraq ölkədə bir neçə istiqamətdə iş aparılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 20 aprel 2016-cı il tarixli 869 nömrəli Fərmanına əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmış və həmin Agentliyin Əsasnaməsi təsdiq olunmuşdur [4]. Əsasnamədə müasir dövrün tələblərinə uyğun peşələr üzrə rəqabət qabiliyyətli, ixtisaslı məzunların hazırlanmasının təmin olunması, yeni bazar iqtisadiyyatına uyğun peşə təhsili və təliminin həyata keçirilməsini, peşə məktəblərində maliyyə vəziyyətinin yüksəldilməsi, xarici və yerli şirkətlərlə tərəfdaşlıq zəminində yeni layihələr həyata keçirilməsi və sair nəzərdə tutulur.

Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən respublikanın regionlarında on üç Peşə Təhsil Mərkəzi yaradımasına start verilib. Prezident İlham Əliyev tərəfindən "Peşə təhsili və təliminin inkişafı üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Peşə təhsilindəki çatışmamazlıqların həlli üşün 2020-ci ilə qədər strateji hədəflər muəyyən edilmişdir: 10 pilot peşə təhsili müəssisəsinin təşkil edilməsi, ümumtəhsil müəssisələrinin bitirənlərin peşə təhsili müəssisələrinə qəbulunun 25 faizə qaldırılması, pilot peşə təhsili müəssisələrinin məşğulluq səviyyəsinin 6 ay ərzində 50 faizə çatdırılması, pilot peşə təhsili müəssisələrində təhsil alanların 50 faiz artması, peşə təhsilinə cəlb edilmiş həssas əhali qruplarından olan uşaqların sayının peşə təhsili üzrə təhsilalanların ümumi sayında payının 5 faizdən çox olması, 264 nəfər mütəxəssisin və 176 nəfər ezam olunmuş ştatdankənar müəllimin peşə təhsilinə cəlb olunması nəticəsində ümumilikdə 195, bilavasitə peşə təhsili sektorunda isə 176 yeni iş yerinin yaradılması; ·pilot peşə təhsili müəssisələrinin müəllim-pedaqoji heyətinin əməkhaqlarının iki dəfəyədək artırılması, yaşlılar üçün kursların iştirakçılarının sayının illik artım tempinin 17faizə çatdırılması və sair.

Mən hesab edirəm ki, dövlət peşə hazırlığı müəssisələri müasir avadanlıqlarla, yeni tədris proqramları ilə, internet şəbəkəsi, kompyuter otaqları, yeni ixtisaslara uyğun müəllimlərlə təmin edilməlidir. Gənclərin bilik səviyyəsi ilə əmək bazarının tələblərin arasında tarazlıq olmalıdır. Buna görə də vaxtaşırı əmək bazarında peşə və ixtisaslarla bağlı sosioloji tədqiqatlar aparmaq, daha çox ehtiyyac olan sahələri müəyyən edib, gəncləri məlumatlandırmaq lazımdır. İş adamları, xarici və yerli şirkətlər gəncləri işə qəbul edərkən onların hazırlıq səviyyəsini yoxlamaqla yanaşı, vaxtaşırı bilik və bacarıqlarını artırmaq üçün gənc kadrları müvafiq kurslara, seminarlara göndərsələr gənclərin məşğulluğu müəyyən qədər həll edilmiş olar. Bunun müqabilində şirkətlər də müəyyən qədər vergidən azad edilməlidirlər. Bu qarşılıqlı anlaşma baş verərsə, gənclər işlədikləri şirkətdə, yaşadıqları dövlətdə daha müdafiə olunmuş, maddi problemləri həll edilmış olar. Bütün bu tədbirlər gənclərin əmək bazarına uyğun peşə və ixtisaslarda ixtisaslaşmasına, məşğulluq probleminin yaxın zamanlarda səmərəli həllinə və gənclərin yoxsulluq, sosial, iqtisadi problemlərinin həllinə təkan verər, müstəqil dövlətimizin gənclərinin məşğulluq probleminin həlli istiqamətində mühüm addımlardan olar.

Açar sözlər: məşğulluq, peşə-ixtisas seçimi, strategiya, bazar iqtisadiyyatı, əmək bazarı.

Ədəbiyyat

1. http://www.e-sosial.qov.az
2. http://www.e-qanun.qov.az
3. AR Dövlət Statistika Komitəsinin rəsmi məlumatları (https://www.stat.gov.az/).
4. "AR-də Peşə Təhsili və Təliminin İnkişafına dair Strateji Yol Xəritəsi", Bakı – 06.12. 2016-cı il. (http://www.e-qanun.az/framework/34254).
5. "2015- 2025-ci illərdəAzərbaycan Gənclərinin İnkişaf Strategiyası" Bakı- 26.01.2015. (https://www.president.az/articles/14132).
6. T. Ə. Quliyev, "Əməyin iqtisadiyyatı" dərsliyi, Bakı -2006.
7. Atakişiyev M., Süleymanov Q., "İnnovasiya menecmenti", Bakı, 2004.
8. İsmayılov İ.E., "Azərbaycanda iqtisadi artımım insan kapitalı vasitəsilə təmin olunması problemləri və perespektivləri". Əməkvə Sosial Problemlər" adlı AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzinin elmi əsərlər toplusu, II Buraxılış, BAKI – 2012.

MÜASİR TƏHSİ SİSTEMİNDƏ DİL HADİSƏLƏRİNİN MÜŞAHİDƏSİNİN ƏHƏMİYYƏTİ

Şeydayeva Aysel
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialı
turan.sheydayev@mail.ru

Hadisə və qanunlar ümumi inkişaf prosesi ilə, dildən istifadə edənlərin anlaşma tələbatı ilə əlaqədar olaraq hər bir dilin lüğət tərkibində, qrammatik quruluşunda, fonetik sistemində, morfologiya və sintaksisində baş verir. Bütün bu hadisə və qanunların öyrənlməsi tədqiqi və tətbiqi dilimizin inkişafının göstəricisidir . Məhz bu səbəbdən də istər ana dili proqramlarında, istərsə də ana dili fənn kurikulumlarında nitq inkiaşfı məsələsinə xüsusi yer verilmişdir.Dil dərslərində şagirdlərin söz ehtiyatı ətraf aləmdəki canlı və cansızəşyaların, hadisələrin adları hesabına zənginləşir. Şagirdlər qrammatik qanunlara, qaydalara uyğun olaraq həmin sözlərdən istifadə etməklə cümlələr qurur, fikirlərini rabitəli şəkildə ifadə edirlər. Onların sonralar cəmiyyətdəkilərinin fikrini anlamaları və öyrəndiklərini ifadə etmələri həmin söz ehtiyatının, həmin qrammatik konstruksiyaların köməyi ilə yerinə yetirilir. Bu səbəbdən də ibtidai siniflərdə oxu materialları üzərində işin aparılması, dil hadisələrinin müşahidəsi, lüğət ehtiyatının zənginləşdirilməsi vacibdir.

Müşahidə idrakın da, təlimin də tamhüquqlu metodudur. Onun didaktik imkanları kurikulum təhsilində daha da genişlənmişdir. Azərbaycan dili dərslərində, o cümlədən oxu materialları üzərində şagirdlərdə müstəqil müşahidə aparmaq qabiliyyəti formalaşdırmaq üçün qrup tapşırıqlarından səmərəli istifadə, fərdi planlı çalışmaların, standart səviyyəli, differensial növlərindən maksimum səmərəli tətbiq edilməlidir. Tədqiqat göstərir ki, kurikulum metodoloji anlamında və ya didaktika da oxu mətni üzrə müşahidə pedaqogikası xüsusi olaraq tədqiqatlara çevrilməmişdir, əhəmiyyəti haqqında belə danışılmamaışdır. Odur ki,həmin məsələ ilə əlaqədar xüsusi standartlar da yoxdur. Lakin didaktik əhəmiyyəti haqqında bəhs olunanlar oxu strategiyasına deyil, dil qaydaları məzmun xəttinə, başqa sözlə, dilçilik qaydalarının öyrədilməsinə həsr edilmişdir.

İbtidai sinif şagirdləri I-IV siniflər ərzində dil hadisələri ilə müxtəlif məqamlarda qarşılaşırlar. Onlar cümlələr üzərində qrammatik dəyişikliklərin baş verdiyini, fonetik yerdəyişmələrin, uyğunlaşma və fərqləşmələrin getdiyini, sözlərin düşdüyü vəziyyətdən asılı olaraq, müxtəlif mənalarda öyrənildiyini, habelə üslubi-leksik, üslubi-qrammatik mənaların yarandığını və s müşahidə edirlər. Bunlar ya məqsədli , ya da digər məqsədləri həyata keçirərkən qarşıya çıxır. Qeyd etmək lazımdır ki, ibtidai sinif müəllimlərindən bir çoxu adətən dil hadisələri haqqında məlumatlı olsalar da, bir çoxlarının terminlərdən tam məlumatı yoxdur. Ahəng qanunu haqqında ətraflı biliyə malik olan müəllim əslində onun fonetik hadisə (qanun) olduğundan xəbərsizdir. Ümumi qeydlərə əsasən onu da qeyd edə bilərik ki, müəllimlər dil hadisələri ilə bağlı nəzəri biliklərə sahib olsalar da, müşahidə prosesində çox da fəallıq göstərmirlər. Hər bir ibtidai sinif müəllimi bilməlidir ki, şagird nitqi dil hadisələri ilə zəngindir.

İbtidai siniflərdə oxu materialları üzərində fonetik, leksik və qrammatik vahidlərdən dil hadisələrinin müşahidəsinin təşkili ümumilikdə şagirdlərin düzgün oxu vərdişlərinin inkişafında mühüm rol oynayır. Düzgün ədəbi tələffüz və dil hadisələri haqqında ətraflı nəzəri məlumata sahib olan müəllim, təbii ki, şagirdlərin nitq və təfəkkürünün inkişafında müsbət təsir göstərə bilər.

Müəllim şagirdləri düzgün ədəbi tələffüzə yiyələndirmək məqsədilə mətni müşahidə, nümunəvi nitqi müşahidənin , rəngarəng üsul və vasitələrdən istifaə etmək yolu ilə optimal nəticələrə nail olmalıdır.

Oxu materiallarında və ya dinləmə materiallarında dil qaydaları əlavə məzmun xəttidir. Deməli, oxu materiallarında Azərbaycan dilində bütün məzmun xətlərinin müşahidəsini təşkil etmək olar.Bu mənada tədqiqatın obyekti daha genişdir.

Apardığımız tədqiqatda isə biz oxu materialı üzərində dil hadisələrini müşahidə metodundan bəhs edirik və bu zaman mətnin məzmunu üzrə etik, estetik, söz seçimi məsələlərinə deyil, dil hadisələrinin induksiyasını, yəni müşahidə olunmasını nəzərdə tutmuşuq.

Açar sözlər: təhsildə yeniliklər,təhsil, məktəb, oxu, dil hadisələri, oxu vərdişləri, təhsil siyasəti, keyfiyyət.

Ədəbiyyat

1. Azərbaycan Respublikası ümumi təhsilin Konsepsiyası-Milli Kurikulumu . Bakı 2006.
2. Azərbaycan dili və ədəbiyyat Metodika və təcrübə. Müəllimlər üçün vəsait Bakı 2005.
3. N. Abdullayev Z.Məmmədov. Müəllimin nitq mədəniyyəti Bakı 2001.
4. N. Abdullayev Z.Məmmədov.Azərbaycan dili təlimində ifadəli nitq üzrə aparılan işlər.Bakı 1996.
5. H. Hüseynov. Azərbaycan dili dərslərində rabitəli nitqin inkişafı.Bakı 2003.
6. Müəllim hazırlığının və orta təhsilin perspektivləri .Qərb təhsil sisteminin təcrübəsi əsasında. Bakı “ Adiloğlu ” nəşriyyatı. 2005.

M.TAĞIYEV FRAZEOLOGİYANIN TƏDQİQİNDƏ YENİ NƏZƏRİYYƏNİN YARADICISI KİMİ

Seyidova Səbinə
Azərbaycan Dillər Universiteti
nane.alili@mail.ru

Frazeologiyanın Azərbaycan tədqiqatçıları arasında M.T.Tağıyevin xidmətləri böyükdür. Onun tədqiqat işi rus dilinin frazeologiyasına həsr olunsa da ümumən frazeologiyanın nəzəri məsələlərinin öyrənilməsində müstəsna əhəmiyyət kəsb edir. O bu sahənin öyrənilməsində V.V.Vinoqradovun davamçılarından biri olmuş, öz müəllimindən irəli gedərək frazeologiya nəzəriyyəsini xeyli dərəcədə irəli aparmışdır. Təsadüfi deyil ki, onun bu xidmətlərini rus və qərb dilçiləri də dönə–dönə qeyd etmişlər. Ötən əsrin 60–cı illərində frazeologiya sahəsində tədqiqatlarda Azərbaycan frazeoloqu M.T.Tağıyevin adı ilə bağlı olan “frazeoloji əhatə nəzəriyyəsi” geniş tətbiq olunmuşdur. Əgər frazeoloqları əvvəllər frazeoloji vahidlərin semasioloji məsələləri, motivasiya, daxili formanın aktual məna ilə əlaqələri, həmçinin frazeoloji vahidin məzmun quruluşunda komponentlər arasında münasibətlər maraqlandırırdısa, M.T. Tağıyev tədqiqatçıların diqqətini frazeoloji vahidin mütləq əhatəsinə cəlb etmişdir. O, xüsusi əhatə ilə xarakterizə olunan birləşmələri frazeoloji vahid hesab etməyi təklif etmişdir. Xüsusi əhatə və ya frazeologizmlərin şəxsi struktur əlaqələri dedikdə, tədqiqatçı frazeologizmin ayrı–ayrı komponentlərinə yox, bütövlükdə frazeologizmə aid dil vahidlərini nəzərdə tutmuşdur [4, s.43]. M.T. Tağıyev sübut etmişdir ki,

əhatənin quruluşu əslində frazeologizmin quruluşunu əks etdirir. Xüsusilə qeyd edək ki, əhatə nəzəriyyəsi tamamilə oxşar olan frazeologizmləri ayırd etməyə imkan verir, deməli, bu nəzəriyyə frazeologiyada bütövlük və eyniyyət problemini də həll edir.

M.T.Tağıyevin frazeoloji konsepsiyası sovet məkanında, o cümlədən də Azərbaycanda, frazeoloji fikrin inkişafına ciddi təsir göstərdi. Əhatə metodu Bakı frazeologiya məktəbinin təmsilçilərinin əsas tədqiqat alətinə çevrildi. M. T. Tağıyev özündən sonra sanki bir məktəb və davamçılar hazırladı. Sovet dövrü Vinoqradov məktəbi üçün qeyri–ənənəvi olan yanaşma sistemi M.T. Tağıyevin davamçısı olan F. H. Hüseynov tərəfindən inkişaf etdirlir. Çox böyük faktiki material əsasında F. H. Hüseynov rus frazeologiyası tarixində mövcud olan diaxronik proseslərin məğzini açmağa müəssər olur [2, s. 35].

M.T. Tağıyevin yetirməsi olan A.M. Məmmədov frazeoloji vahidləri nüvə və onun əhatəsinin qarşılıqlı əlaqəsi nöqteyi–nəzərindən tədqiq edir. Aydın olur ki, frazeologizmin nüvəsi, frazeologizmin özü və onun əhatəsi bir–birlərini qarşılıqlı determinasiya edirlər. A.M. Məmmədovun namizədlik dissertasiyası ümumi mənası hərəkətin keyfiyyət xarakteristikasını ifadə edən frazeoloji vahidlərin nüvəsi ilə əhatəsinin qarşılıqlı əlaqəsinə həsr edilmişdir. Aparılmış təhlillərin nəticələri feili frazeologizmlərin zərf frazeologizmlərinə keçid almasının və, əksinə, zərf frazeologizmlərinin feili frazeologizmlərə keçidinin qanunauyğun olmasını təyin etməyə imkan verdi [3, s.18]. A.M. Məmmədov tərəfindən toplanmış və təhlil edilmiş faktlar F. H. Hüseynovun "Rus frazeologiyası" monoqrafiyasının bir çox müddəalarını isbat etdi. Bütövlükdə, Bakı frazeologiya məktəbinin təmsilçilərinin diqqəti frazeoloji konfiqurasiyanın struktur xüsusiyyətlərində cəmləşmişdi.

M.Tağıyev frazeoloji vahidi sistemdaxili hadisə kimi tədqiq edirdi. O, frazeoloji vahidi dil sistemindən kənarda təsəvvür etmirdi. Bu baxımdan elmə Azərbaycan alimi M.T.Tağıyevin tərəfindən gətirilmiş frazeoloji konfiqurasiya anlayışı dünya dilçiləri tərəfindən böyük maraqla qarşılandı. Bu nəzəriyyədə frazeologizm sistem konfiqurasiyasının bir hissəsi kimi təqdim olunur. Sistem konfiqurasiyası frazeologizmdən və onu əhatə edən struktur əlaqələrdən ibarətdir. Professor F.Veysəlli qeyd edir ki, hətta indiyə qədər Qərbi Avropada, xüsusən də Almaniyada M.T.Tağıyev tərəfindən yaradılmış frazeoloji əhatə nəzəriyyəsinə yüksək qiymət verilir [1].

Açar sözlər: frazeologiya, frazeoloji konsepsiya, motivasiya.

Ədəbiyyat

1. Veysəlli, F.Y. Azərbaycan tədqiqatçısı professor M.T.Tağıyevin dilçilik konsepsiyasına dair fikirlər, Bakı: Azərbaycanda xarici dillər, 2008, № 1–2(6), s.99–100.
2. Гусейнов, Ф.Г. Русская фразеология, Ф. Г. Гусейнов. –Баку: АГУ, 1977. 119 с.
3. Мамедов, А.М. Взаимодействие окружения и ядра наречных фразеологизмов с общим значением качественной характеристики действия в современном русском языке: диссертация кандидат филологических наук, Баку, 1987, 125 с.
4. Тагиев М.Т. Глагольная фразеология современного русского языка, Баку: Маариф, 1966. 251 с.

UŞAQLARIN UŞAQ MÜƏSSİSƏLƏRİNƏ DÜŞMƏ SƏBƏBLƏRİ: AZƏRBAYCAN VƏ DÜNYA TƏCRÜBƏSİ

Süleymanov Süleyman
Azərbaycan Universiteti
suleyman-suleymanov-1996@bk.ru

Azərbaycan Respublikasında mövcud olan müxtəlif uşaq müəssisələrində, internat evlərində, internat məktəblərində, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün nəzərdə tutulmuş internat evlərində bir çox müxtəlif yaş qruplarına aid olan uşaqlar dövlət himayəsində yaşayır və təhsil alırlar. Uşaqların uşaq müəssisələrinə düşməsi bir çox səbəblərdən baş verə bilər.Məsələn: valideyinlərin vəfatı, valideyinlərin valideyinlik hüququndan məhrum edilməsi, uşağa qarşı zorakılıq hallarının olması və s. Bu cür müəssisələrdə xüsusi qayğıya ehtiyacı olan və fiziki imkanları məhdud olan uşaqlar üçün adaptiv infrastruktur mövcuddur. Həmçinin, əqli baxımdan problemləri olan (serebral iflic, əqli fəaliyyətlərin pozulması və s.) və qayğıya ehtiyac duyan uşaqlar üçün də ayrıca müəssisələr fəaliyyət göstərir. Çox hallarda, uşağın müəssisəyə düşmə səbəbləri ailədə hökm sürən psixoloji basğı, imkansızlıq halları olur.Dövlət tərəfindən təşkil edilmiş müəssisələr bu uşaqların sosial müdafiəsini, təhsilini, təlim-tərbiyəsini, ehtiyaclarını təmin edir. Uşağın müəssisələrdə qalma müddəti 18 yaşadək, istisna hallarda 23 yaşadək olur. Azərbaycanda valideyinlərinin hər ikisini itirmiş uşaqların sayının artması, Ermənistanın təcavüzlərinin nəticəsində baş verdi. Bu dövr ərzində mövcud müəssisələrin sayı azlıq təşkil edirdi və dövlət infrastrukturu dağılmış vəziyətdə idi [1].

Uşaq müəssisələrinə düşmə səbələri müxtəlif ola bilər.Bunlar:

- Valideynlərdən birinin və ya hər ikisinin itirilməsi;
- Valideynlərin vəfat etməsi;
- Valideynlərin valideynlik huququndan məhrun olunması;
- Əgər valideyn tərəfindən uşağa zorakılıq göstərilirsə və s.[2].

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən isə 1991-ci ildən 2018-ci ilə qədər olan rəqəmlər göstərilir:

1991-ci il, uşaq evlərinin sayı 5, uşaqların sayı 397
2016-cı il, uşaq evlərinin sayı 8, uşaqların sayı 681
2017-ci il, uşaq evlərinin sayı 8, uşaqların sayı 729
2018-ci il, uşaq evlərinin sayı 8, uşaqların sayı 685 [5]

Azərbaycan və Russiya Federasiyası SSRİ-nin tərkibində mövcud olub, buna görə də bir çox baxımdan bənzərliklər vardır.Bu dövrlərdə həm Azərbaycanda həm də Russiyada müəssisədə olan uşaqların sayı çox idi. SSRİ dağıldıqdan sonra statistik göstəricilər dəyişmişdir və o dövrə nisbətən müəssisələrə düşən uşaqların sayında azalma müşəhidə olunur.1990-cı ildə 113.4 min uşaq müəssisələrdə qalırdı.Russiya Federasiyasında 2014-cü ilin əvvəllərinə qədərki dövrdə, uşaq müəssisələrinin sayı 1520 idi.2015-ci ilin məlumatlarına əsasən isə, müəssisəfə yaşayan azyaşlı uşaqların sayı 60.1 min təşkil edirdi.2017-ci ilin 30 iyununa qədər müəssisələrdə yaşayan uşaqların sayı 54.5 min nəfər təşkil edirdi.2018-ci ilin statistikasına əsasən bu rəqəm 50 mindən çox uşağı əhatə edir [4].

Rusiyada uşaq müəssisələrinə düşən uşaqların 80%-nin valideynləri var.Lakin buna baxmayaraq, bunun qarşısı çox az şəkildə alınır.Bunun səbəbləri müxtəlifdir:Valideynlərin imkansızlığı,uşağa qarşı laqeyid davranış,valideynlərin spirtli içki və ya narkotik maddələrdən asılılığı və s. [3].

Açar sözlər: Sağlamlıq imkanları məhdud uşaqlar, valideyn himayəsindən məhrum olma, uşaq müəssisələri, müəssisəyə düşmə səbəbləri.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı proqramı (2006-2015-ci illər)"
2. Сафонова Т.Я., Цымбал Е.И., Ярославцева Н.Д., Олиференко Л.А.Реабилитация детей в приюте. М., 2008г.
3. https://mhealth.ru/promotion/pochemu_deti_popadajut_v_detskije_doma_jesli_doma_u_nih_jest_mama_i_papa/
4. https://www.kommersant.ru/doc/3414174
5. https://www.stat.gov.az/source/demoqraphy/au/ (Dövlət Statistika Komitəsi, 2018, s.80)

YENİ MÜHİTƏ ADAPTASİYASINDA MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL STATUSUNUN ROLU

Tağıyeva Tərlan
Bakı Dövlət Universiteti
tterlan@yahoo.com

Yerdəyişmə insan həyatında yenilikdən başqa həm də ziddiyyətli vəziyyətin yaranması, bir sıra problemlərin həlli zərurəti deməkdir. Cəmiyyət tarixində miqrasiya insanların etnik, demoqrafik, irqi-antropoloji, iqtisadi, mədəni inkişafına güclü təsir göstərmişdir. Dünya xalqlarının indiki coğrafi məkan baxımından yerləşməsi uzun tarixi inkişaf proseslərinin nəticəsi və məhsuludur. Yerdəyişmə səbəbləri müxtəlif olduğu kimi, bunun nəticələri də müxtəlif olmuşdur. Yerdəyişmə prosesi yekun olaraq miqrantlarda bir çox problemlər yaradır. Dərhal yeni şəraitə uyğunlaşmaq mümkün olmur, insan dezadaptasiya və psixoloji gərginlik hallarını yaşayır. Elmi tədqiqatlar bu sahədə aparılsa da, hələ də kateeqorial aparat kişfayət qədər işlənilməyib və hazırlanmayıb [1, s.59].

Miqrantın sosial statusu yaşadığı yeni yerdə onun hal-əhvalına, vəziyyətə uyğunlaşıb qəbul etməsi prosesinə necə təsir edir? Məlumdur ki, bu gün miqrasiya, əslində bir şəhər hadisəsinə çevrilmişdir. Miqrantlar əsasən şəhərləri axtarırlar. Çünki öz həyati məqsədlərini həyata keçirmək üçün burada daha çox imkanlar var. Şəhər məkanında sürətli adaptasiya üçün miqrant fəaliyyətə başlayır, davranış strategiyasını və insanlarla qarşılıqlı münasibətləri qurur, bunun üçün də bütün uyğunlaşma imkanlarını toplayır [3, s.4]. Məcburi köçkün olan miqrantın yeni mühitə uyğunlaşması işində müxtəlf sosial qurumlar əhəmiyyətli rol oynayır. Azərbaycanda Dağlıq Qarabağ münaqişəsi zəminində yaranan bir milliona yaxın məcburi köçkün və qaçqınlar həsabına şəhər yaşayış məntəqələrində yaşayan miqrantların faizi əsaslı şəkildə artmışdır. Nəticədə şəhər icması ilə miqrantlar arasında yeni qarşılıqlı əlaqələr formalaşır. Əsas tədqiqat metodu olaraq ikincil

məlumatların təhlili istifadə olunur: statistik məlumatlar, dövlət orqanlarının məlumatları, bu mövzuda elmi ədəbiyyat.

Yüksək miqrasiya tempi əvvəlki kimi olmasa da şəhərə əhalinin axını kifayət qədər yüksəkdir. Bu da xüsusilə infrastruktur imkanlarını məhdudlaşdırır, digər tərəfdən şəhərin iqtisadi inkişaf səviyyəsini yüksəldir. Buna görə şəhər rəhbərliyi ayrı-ayrı bələdiyyələrdə tətbiq olunan müxtəlif sosial-iqtisadi alətlərdən istifadə edərək miqrantların sosial adaptasiyasının tənzimlənməsinə diqqət yetirməlidir. Hal-hazırda şəhərlərdə miqrantların sosial adaptasiyasına aid xüsusi tədbirlər planı yoxdur. Buna baxmayaraq dövlət qaçqınlar və məcburi köçkünlərlə bağlı bir sıra vacib tədbirləri həyata keçirmişdir. Ilk növbədə mənzil-məişət sahəsi, işlə təmin olunması, təhsil, səhiyyə ilə bağlı məsələlərin təmin olunması problemləri həll olunur.

Məlumdur ki, öz dədə-baba yurdlarını tərk etmiş əhalinin əksəriyyəti kənd əhalisi olmuşdur. Məcburi köçkünlərin adaptasiya prosesi, onların sosial statusundan aslı olaraq, bir neçə istiqamətə bölünə bilər:

- tam uyğunlaşma: köçkün və onun ailə üzvlərinin bütün uyğunlaşma istiqamətləri üzrə cəmiyyətə uyğunlaşma prosesinin tamamlanması;

- qismən uyğunlaşma: köçkün və onun ailə üzvlərinin vəziyyətin yeni şərtlərinə qismən uyğunlaşması: onlar qəbuledici cəmiyyətin mühitinə qismən uyğunlaşmışdır (ola bilsin, bəzi növləri üzrə uyğunlaşma bitmişdir).

Sosial statusla bağlı demək olar ki, köçkünlər yeni yaşayış şəraitinə, dolanışa, işlə təmin olunması və əməyin məzmunu və xarakterinə uzun müddət öyrənə bilmirdilər. Yəni burada böyük kompleks sosial-psixoloji, mənəvi məsələlər var idi ki, onların həlli üçün xüsusi tədbirlər hazırlanıb həyata keçirilməli idi.

Qeyd etmək lazımdır ki, hər bir xalqın öz yaşayış yeri, ərazisi, özünəməxsus tarixi, öz xüsusi mühiti var. Xalqların mənəvi mədəniyyətləri fərqidir. Mədəniyyət həmişə insanların təbii və sosial mühitə uyğunlaşdırılması üçün universal bir mexanizm olmuşdur. Mədəniyyət maddi və mənəvi dəyərlərin məcmusudur. İnsanlar işləyirlər, maddi nemətləri istehsal edirlər, öz yaşayışını təşkil edirlər, özlərini qida, mənzil və geyimlə təmin edirlər və s. Vaxt keçdikcə mədəniyyət coğrafi mühitə uyğunlaşır, lakin sonuncunun təsiri artıq mədəni inkişafın hərəkətverici qüvvəsi kimi qəbul edilmir. Hər bir məcburi miqrant mədəni, sosial, etnik amillərin müəyyən bir şəkildə əks olunduğu bir fərdiyyətdir. Mənəvi bir hadisə kimi mədəniyyət tarix, fəlsəfə, etika, estetika və digər elmlərlə əlaqələndirilir; maddi və sosial həyatın fenomeni kimi antropologiya, etnoqrafiya, sosiologiya, sosial psixologiya, etnopsixologiya, demoqrafiya ilə. İnsanların digər mədəniyyətlərdən ev sahibi ölkənin mədəniyyətinə uyğunlaşması problemi haqlı olaraq dünya elmində ən mürəkkəb, mübahisəli və fəal inkişaf edən problemlərdən biridir.

Köçürülmə, miqrantlara tanış olmayan yeni bir sosial-mədəni mühitdə yaşamaq məcburiyyəti məşğulluq və uyğunlaşma ilə əlaqəli bir çox problemə səbəb olur. Bu zaman onlardan yeni etnik-mədəni və sosial əlaqələr qurmağı və peşə fəaliyyətini reallaşdırmaq üçün yeni şəraitdə böyük səylər tələb olunur. Real münasibətlər sisteminə özünü yerləşdirmək məsələsi, böyük səyləri tələb edən və daxili motivasiyanı, dəyərlər və normalar sistemini, sərvət meyllərini yenidən qurmaq mürəkkəb və uzun bir prosesdir. Köçkünlər ilk növbədə mənzilə, yeməyə, ailə və məişətə olan yeni tələbləri nəzərə alaraq öz həyatını qurur, yeni şəraitə uyğunlaşma proseslərin rəvanlığını təmin etməyə çalışırlar.

Bu zaman artıq vərdiş etdiyi fəaliyyət sahələri, onları əhatə edən sosial mühit, insanlarda qurduğu əlaqələr (sosial kapital) dağılır, yeni ilə əvəzlənir. Burada hər bir insan böyük bir sınaq ilə

rastlaşır, dağıdılmış yurd, itirilmiş döğma məkan həsrəi ilə yaşayan hər bir köçkün özündə daxili səfərbərlik formalaşdırmalı, dünyaya yeni baxış, yeni münasibət formalaşdırmalıdır. Bunun üçün hər bir köçkündə yeni motivasiya formalaşdırılmalı, sosial yardım və dəstək göstərilməlidir. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Respublikası ərazisinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zəminində pənah gətirmiş məcburi köçkünlər əsasən kənd təsərrüfatı sahələrini təmsil edirdilər.

Məlumdur ki, daxili yerdəyişmə şəxsi, sosial və mədəni əlaqələrin kəsilməsi, həmçinin aralarındakı əlaqələrin kəsilməsi səbəbindən bir çox ailələrin üzvləri arasında fikir ayrılığının yaranmasına səbəb oldu. Xüsusilə uşaqlar, qadın başlı ev təsərrüfatları və yaşlı insanlar qeyd edilməlidir. Münaqişənin təsiri altında insanların mövqelərinin qütbləşməsi həm məcburi köçkünlər, həm də yerli icmalar arasında sosial birlik və ailə birliyinə mənfi təsir göstərdi. Ancaq ailə üzvləri və dostları ilə ayrılmaq, daxili köçkünlük səbəb olan sosial dəstək şəbəkələrinə məhdud giriş məcburi köçkünləri xüsusilə həssas edir. Bir çox məcburi köçkün, tanıdıqları cəmiyyətlərdən ayrı qaldıqlarını, eyni zamanda uzun müddət davam edən qeyri-müəyyənlik şəraitində yeni yerlərdə həyatın yaratdığı qeyri-sabitlik hissini yaşayırlar.

Azərbaycan Respublikası Qaçqınlar Komitəsinin verdiyi məlumata görə "1999-cu ildə 301359 nəfər və əmək qabiliyyətli qaçqın və məcburi köçkün olmuşdur, onların 196380 nəfəri yaxud ümumi əmək ehtiyatlarının 65,2% -i işsizdir. Məcburi köçkünlərin 74 min nəfəri lazımi şəraiti olmayan çadır şəhərciklərində, 99 min nəfəri quraşdırılmış evlərdən ibarət qəsəbələrdə, 17,5 min nəfəri ictimai binalarda, məktəblərdə, uşaq bağçalarında və yataqxanalarda, 20,2 min nəfəri qohum evlərində, qalanları zəbt olunmuş mənzillərdə, yarımçıq qalmış tikililərdə, fermalarda, yük vaqonlarında və sadəcə olaraq, yol kənarlarında məskunlaşmışlar (1999).

Heç bir normal istilik, elektrik enerji təchizatı, sanitar-gigiyena şəraiti olmayan belə qaçqın məskənlərində doğulan uşaqların, onların valideynlərinin sağlamlığı təhlükə altında qalır. Beləliklə, Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq nəfər qaçqın və köçkün əmələ gəldi, 20 min nəfər həlak oldu, 50 min nəfər əlil oldu, 5,1 min nəfər (1 iyun 1992-ci ilə qədər) əsir və itkin düşdü, işğal olunmuş rayonlarda əhalinin təbii artımı 22 - 26 nəfər arasında (hər 1000 nəfərə) aşağı düşdü [4, s.104].

Burada diqqətə layiq olan məsələlərdən biri də məcburi köçkünləri qəbul edən tərəfin mövqeyidir. Aydın məsələdir ki, yerli əhali müəyyən hallarda yaranmış vəziyyətdən həm də narazılığı bildirir. İşəgötürmə və məhdud mənzil imkanları kimi yerli icmaların və məcburi köçkünlərin üzləşdikləri ümumi problemlər cəmiyyətdəki gərginliyin səviyyəsini artıra biləcək və təkrar məcburi köçkünlüyə səbəb ola biləcək əsas amillər kimi müəyyən etmək mümkündür. Münaqişədən zərər çəkmiş insanlar arasındakı münasibətlərin gərginləşməsinin digər mümkün mənbəyi, gələcəkdə onların inteqrasiyasına maneə olmaqla, məcburi köçkünlərin mülki və siyasi hüquqlara, habelə sosial-iqtisadi imkanlara qeyri-bərabər münasibətlə bağlı spesifik ehtiyaclarını ödəmək üçün dövlətin fərqli davranışıdır. Söhbət dövlət tərəfindən verilən xüsusi imtiyazlardan gedir.

Bəzi məcburi köçkünlər yeni yaşayış yerlərində ixtisaslarına uyğun iş tapa bilmədilər. Bir çox məcburi köçkün əvvəlki iş yerində tutduqları vəzifədən daha az maaşla işləməyə və ya daha aşağı vəzifə tutmağa razılaşdı.

Bir sıra hallarda, məcburi köçkünlər ixtisas və peşə təcrübələrinə və ya əmək haqqı ilə bağlı gözləntilərinə uyğun gəlmədikdə təklif olunan işdən imtina etdilər. Ali təhsilli və peşə fəaliyyətində geniş təcrübəsi olan miqrantların az maaşlı işlərdən imtina etdiyi hallar da oldu. İş təhlükəsizliyinin olmaması, çətin iş, maaşların az olması və maaş gecikmələri kişi və qadınların insan alveri qurbanı

olma riskini artırır. Məcburi köçkünlərin sosial müdafiəsiz, qeyri-rəsmi işlərdə işləyəcəyi daha çox ehtimal olunur, bu, əmək qabiliyyətli insanların əksəriyyətini təşkil edən qadınlar üçün doğrudur.

Qeyd olunmalıdır ki, göstərilən problemlərin həllində beynəlxalq təşkilatların da rolu az olmamışdır. Məsələn, "məcburi köçkünlərin, xüsusilə uşaq və yeniyetmələrin psixoloji reabilitasiyası sahəsində də QHT-lərin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Keçən müddət ərzində Buta humanitar uşaq fondu, Azərbaycan Uşaqlar Birliyi, Təbib Tələbələr Asossasiyası, Təkamül İctimai Asossasiyası, Avropanın Gənc Azərbaycanlı Dostları və digər təşkilatlar tərəfindən minlərlə uşaqların psixoloci reabilitasiyası üçün çoxlu sayda layihə həyata keçirilmiş, bu məqsədlə müxtəlif yerlərdə uşaq yay məktəbləri və düşərgələri təşkil edilib" [5, s.10].

Beləliklə, məcburi köçkünlərin sosial statusu onların yeni yaşayış yerində qərar tutmaq, tammiqyaslı sosial uyğunluq mərhələsini yaşamaqla yeni həyata alışmaq prosesinə əsaslı şəkildə təsir göstərir. Bu amil onların reabilitasiya və inteqrasiya işlərində nəzərə alınmalıdır.

Açar sözlər: qaçqınlar, məcburi köçkünlər, miqrasiya, psixoloji, cəmiyyət, ailə, problem, sosial, status.

Ədəbiyyat

1. Проскурякова О.Л. Адартация мигрантов как социальный процесс. Вестник Оренбургского государственного университета, 2007, № 4, с.58-63
2. Копанева Т.Г. Вопросы адаптации мигрантов: глобальные проблемы современности. Современный ученый, 2017, № 8, с.13-16
3. Завьялов А.В. Адаптация мигрантов в городской среде: новые условия жизни в старых городах. Урбанистика. 2018, № 3, с. 1-11
4. Dağlıq Qarabağ münaqişəsi: Tammətnli elektron materiallar məcmuəsi. Bakı, 2005 http://files.preslib.az/site/karabakh/gl1.pdf
5. Pəşid P. Beynəlxalq humanitar təşkilatların Azərbaycanda fəaliyyəti. Ekspress. 2014, 25-27 oktyabr, s.10.

XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ PRAVOSLAV VƏ KATOLİK KİLSƏLƏRİ ARASINDA MÜNASİBƏTLƏR

Tajdehibonab Mehparə
Azərbaycan Dövlət Pedaqoji Universiteti
m.tajdehibonab@gmail.com

Tarixən Pravoslav və Katolik kilsələri arasında ziddiyyətlər mövcud olmuşdur və 2001-ci ilin 11 sentyabr hadisəsindən sonra iki kilsə arasında münasibətlərdə bir qədər yumşalma baş verdi: tərəflər mövcud olan fikir ayrılığına yeni tarixi şərait və reallıq nöqteyi-nəzərindən, başqa ölçüdəyanaşmağa başladılar. Mitropolit Kirillin Varşava görüşləri zamanı da tez-tez o fikir söylənildi ki, yeni təhlükələrə qarşı birgə mübarizəiki kilsə arasında mövcud olan çətinliklərin də aradan qaldırılmasına yardım edəcəkdir [6].

Mitropolit Kirill 2004-cü ildə, həmçinin Polşa prezidenti A.Kvasnevki ilə də görüşmüşdü. Bu Kirillin A.Kvasnevki ilə üçüncü görüşü idi. Əvvəllər onlar Smolenskdə və Varşavada görüşmüşdülər. Kirill A.Kvasnevski ilə görüşündə bildirmişdir ki, 40 milyon əhaliyə malik olan

Polşa Avropa İttifaqında təmsil olunan ən böyük slavyan ölkəsidir və Polşanın Avropa İttifaqında yeri vəəhəmiyyəti onun Rusiya ilə münasibətlərinin xarakterindən də asılı olacaqdır. Polşa rəhbərliyi də bildirdi ki, bu amili yaxşı başa düşür və Rusiya ilə iqtisadi, siyasi və mədəni əməkdaşlığa önəm verir [4]. Tərəflər razılığa gəldilər ki, əməkdaşlığın inkişafında katolik və pravoslav icmaları arasında münasibətlərdəndə çox şey asılıdır. Çünki, tarix sübut edir ki, Rusiya ilə Polşa arasında münasibətlərdə yaranan münaqişələrin böyük əksəriyyətinin kökündə katoliklərləpravoslavlar arasındakı dini münaqişələr durmuşdur. Bu nöqteyi-nəzərdən, Rusiya Pravoslav Kilsəsi ilə Polşadakı Katolik Kilsəsi arasında dialoq eyni zamanda Rusiya ilə Polşa arasında siyasi dialoqun daha da möhkəmlənməsinə şərait yaradacaq, "xalqlar arasında daha isti və dost münasibətlərin yaranmasına" kömək edəcəkdir [4].

Kirillə ilahiyyat üzrə fəxri doktor dərəcəsinin verilməsi Polşanın dini həyatında bir hadisə oldu, çünki təltifetmə mərasimində Polşada fəaliyyət göstərən bütün dini icmaların nümayəndələri, elm adamları iştirak edirdilər [4].

2004-cü ilin 3-8 oktyabr tarixində Moskvada Xilaskar Məsih Kilsəsində və Troitsa-Sergiyev Lavrasında Moskva və bütün Rusiyanın Patriarxı II Aleksiyin və 146 arxipastırın iştirakı ilə Arxierey Soboru keçirildi [1]. Soborda sekulyarizm probleminə xüsusi diqqət yetirildi. Göstərilirdi ki, sekulyarizm "dünya gücünə" çevrilmişdir və tədricən cəmiyyətin ictimai və siyasi həyatından kilsəni sıxışdırmağa çalışır. Soborda sekulyarizmə qarşı mübarizə aparmaq və kilsənin cəmiyyətin bütün sosial sferalarında rolunu artırmaq barədə qərar qəbul olundu.

Rus pravoslav kilsəsi və Roma-katolik kilsəsinın yaxınlaşmasını mümkün edən amillərdən biri də odur ki, hər iki kilsədə fundamentalistlər deyil, dialoq tərəfdarları üstünlük təşkil edirlər. Polşada kilsə isteblişmentinin fundamentalist qanadının lideri T.Rıdzık və "Radio Mariya"dır. Onlar dini və milli dəyərlərin birləşdirilərək eyniləşdirilməsini tələb edir, seçkilərdə seçiciləri bu və ya başqa namizədə səs verməyə çağırır, Kostyolun Polşanın həm daxili, həm də xarici siyasətinə aktiv müdaxilə etməyə çağırırlar. Dini fundamentalistlər, xüsusən 2005-ci ilin prezident və 2005, 2007-ci illərin parlament seçkilərində xüsusi fəallıq göstərmişdilər [2, s.124].

2001-ci ildən sonra Katolik və Pravoslav kilsələri arasında yaxınlaşma yalnız 11 sentyabr hadisələri ilə şərtlənməmişdir.Eyni zamanda, kilsə xadimlərinin nöqteyi-nəzərindən ən təhlükəli hallardan biri Rusiyada cəmiyyətin ateizmə sürüklənməsi,dini təməllərin inkar edilməsi, liberalizmin atrması, cəmiyyətdə xristian dininin əsaslarına, xristian mənəviyyatına zidd fikirlərin, adətlərin, davranış normalarının yayılması idi. Yeni yanaşma və qərarlar 2004-cü ildəMoskvada sekulyarizmə,ekstremizmə və terrorizməqarşı mübarizə şüarı altında keçirilən Kilsə soborunda təsdiqləndi. Soborda qeyd olundu ki, "insanları dəhşətə gətirən terror aktları dünyanı dəyişmişdir.....XXI əsrdə ekstremizmin və terrorizmin artmasının səbəbi xalqların həyatında mənəvi və əxlaqi vaakumun yaranmasıdır" [2].

2004-cü ildə II İoann Pavel Rus Pravoslav kilsəsinə "Kazan Boqaroditsası" ikonasını hədiyyə etdi və bununla da Rus Pravoslav Kilsəsinin başçısı II Aleksiylə görüşə ümid etdiyini bildirdi. Ancaq nəinki Vatikanla həm də Rusiyadakı katolik kilsəsi ilə konfessiyalararası münasibətlərdə konsensus əldə olunmadığından 2002-2007-ci illərdə Məsləhət Komissiyası fəaliyyətini dayandırdı və bir də 2007-ci ilin sonundan yenəfəaliyyətə başladı.

Katolik və Pravoslav kilsələri arasında ziddiyyətlərin aradan qaldırılmasında xristian birliyinə yardım üzrə Papa Şurasının sədri, kardinal Valter Kasperin 2007-ci ilin noyabrında Moskvaya səfərinin böyük əhəmiyyəti oldu [3]. 2001-ci ilədək Rusiya Pravoslav Kilsəsi ilə Vatikan və Polşadakı Katolik Kilsəsi arasında ziddiyətlər var idi və bu problemlər əsasən Ukraynada uniat kilsəsinə münasibətdə, Katolik kilsəsinin Rusiya və MDB ölkələri ərazisində missionerlik fəaliyyəti

ilə məşğul olmasında və katolik din xadimlərinin prozelitizm fəaliyyətində özünü büruzə verirdi vəiki kilsə arasında normal münasibətlərin qurulmasına maneçilik yaradan əsas məsələlər idi. Vatikan tərəfindən uzun müddət pravoslav və katolik kilsələri arasında problemlərin mövcudluğu qəbul olunmurdu. Vatikan hesab edirdi ki, bu problemlər virtual xarakter daşıyır və faktların səhv interpretasiya olunmasının nəticəsidir. 12 il ərzində, yəni 1990-cı illərin əvvəllərindən katolik kilsəsi bu problemlərin mövcudluğunu inkar edirdi. Nəhayət V.Kasperin Moskvaya səfəri zamanı bu problemlərin olduğu etiraf edildi [3]. Pravoslav kilsəsi üçün ilk növbədə qarşılıqlı münasibətlərdə ən ağrılı məsələ - katolik kilsəsinin Rusiya və MDB ölkələrində missionerlik fəaliyyətinin müzakirəyə çıxarılması daha vacib idi.

Beləliklə, 2000-ci illərin ikinci yarısından Polşa Kostyolu ilə Rus Pravoslav kilsəsi arasında yaxınlaşma başlandı. Rusiyada və Polşada bir-birinə bənzər sosial proseslərin baş verməsi iki kilsənin daha da yaxınlaşmasına və kilsələrarası dialoqun davam etdirilməsinətəkan verdi. Baxmayaraq ki, statistikaya əsasən Rusiyada ümumi əhalinin 75-80% pravoslavdır, ancaq həqiqi vəziyyət fərqlidir və əhalinin böyük əksəriyyətinin həyatında din marginal rol oynayır. "Вестник общественного мнения" jurnalının baş redaktoru B.Dubinin apardığı araşdırmalara görə Rusiyada özünü pravoslav adlandıranların 90%-i kilsənin həyatında heç bir rol oynamırlar, Rusiya əhalisinin 30%-i isə ümumiyyətlə Allahın varlığını inkar edir [5].

Açar sözlər: Rusiya, Polşa, kilsə, pravoslav, katolik.

Ədəbiyyat

1. Архиерейский Собор Русской Православной Церкви 2004 г. http://www.patriarchia.ru/db/text/418864.html. (Müraciət tarixi - 14.06.2018.)
2. Грецкий И. В. Российско-польские отношения на современном этапе. Вестник Санкт-Петербургского университета. Серия 6. Философия. Культурология. Политология. Право. Международные отношения. 2013, № 3,с. 121-128.
3. Заявление Архиерейского Собора Русской Православной Церкви о противодействии экстремизму и терроризму. http://www.patriarchia.ru/db/text/418910.html. (Müraciət tarixi-08.05.2019).
4. Кардинал Каспер считает, что равеннский документ открывает путь к признанию Православными церквами первенства Рима. http://www.interfax-religion.ru/?act=news&div=21460. (Müraciət tarixi-28.04. 2019).
5. Образ православного верующего в России. // https://carnegie.ru/2012/06/08/ru-event-372508.06.2012. ((Müraciət tarixi - 15.06.2018).
6. «Объединенная Европа должна утратить ценностного христианского измерения своего бытия» интервью председателя отдела внешних церковных связей московского патриархата митрополита смоленского и калининградского кирилла польской службе государственной радиокомпании «голос россии» http://www.mid.ru/foreign_policy/humanitarian_cooperation/-/asset_publisher/bB3NYd16mBFC/content/id/478276(Müraciət tarixi-09.12.2018).

NARKOMANİYA VƏ QİÇS-Ə YOLUXMUŞ GƏNCLƏRLƏ MÜASİR PSİXOSOSİAL İŞ

Uluxanlı Nəzrin
Azərbaycan Universiteti
ulkhanlnezrin@gmail.com

Narkomaniya müasir dövrün ən böyük təhlükəsi hesab olunur. Əbəs yerə deyil ki, ona "əsrin bəlası" deyirlər. Narkomaniyanın sürətlə yayılması bütün ölkələri narahat edən problemlərdəndir. Azərbaycan da narkomaniyaya qarşı mübarizə kompaniyasına qoşulan ölkələrdəndir. Buna rəvac verən əsas amil odur ki, gündən-günə narkoman bəlasına düçar olanların sayı getdikcə artmaqdadır. Xüsusilə də yeniyetmələr və gənclər arasında narkomaniya və toksikomaniyadan əziyyət çəkənlərin sayında artım müşahidə olunur. Artıq narkomaniyaya aludə olanların yaş həddində gəncləşmə özünü göstərir. Və buna görə də yeniyetmələr və gənclər arasında narkomaniyanın təsirindən doğan cinayətlərin sayı da artmaqdadır.

BMT Baş Assambleyası 1987-ci ildə narkomaniya dair problemi ictimaiyyətin və geniş kütlələrin diqqətinə çatdırmaq üçün 26 iyun tarixini Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə günü elan çıxıb. Bu məqsədlə ölkəmizdə də hər il çeşidli tədbirlər keçirilir və gənclər arasında narkomaniyaya qarşı mübarizənin genişləndirilməsi istiqamətində ardıcıl iş aparılır. 1996-cı ildən etibarən ölkəmizdə hüquq-mühafizə orqanları səviyyəsində narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı lazımi mübarizə aparılır [3]. Narkomaniya eyni zamanda yoluxucu xəstəliklər mənbəyidir, o HİV, QİÇS, hepatit kimi infeksion xəstəliklərin yaranmasına səbəb olur. Bununla yanaşı yeniyetmə və gənclərin narkomaniyaya aludə olması nəticəsində onlar təhsildən yayınır, ictimai həyatdan uzaqlaşır. Bu isə öz növbəsində şəxsiyyətin özgələşməsinə, onun deviant davranış sərgiləyərək sosial nəzarət prinsipinə əməl etməməsinə, müxtəlif cinayət hallarına yol verməsinə səbəb olur. Belə vəziyyətdə sosial tarazlıq pozulur və narkomaniyaya düçar olmuş şəxslər isə ətrafdakılara daha çox cinayətkar sima aşılamış olur.Bəs narkomaniyaya və onun törətdiyi infeksion xəstəliklərə qarşı necə mübarizə aparmaq olar? Bunun üçün hansı psixososial modellər mövcuddur?

1. Bunun üçün orta və ali təhsil müəsissələrində maarifləndirmə aksiyaları keçirmək, sosial-psixoloji yönümlü treyninqlər, təlimlər aparmaq lazımdır.Yeniyetmələrin davranışına müsbət təsir aşılayacaq seminarlar keçirilməli və bu işdə pedaqoq-psixoloqlar və sosial psixoloqlar bu işlərə cəlb olunmalıdırlar.Çünki ailədaxili münaqişələr, sosial çevrənin yaxşı olmaması, şəxsiyyətə sosial nəzarətin zəif olması narkomaniyaya səbəb olan amillərdəndir [2, 4].

2. Yeniyetmə və gənclərin narkomaniyaya aparan səbəblərdən biri də onların öz azadlıqlarını və özlərini isbat etmə cəhdi, asılı olmamaq meyli və tabe olmamaq, hürr yaşamaq istəyidir. Belə psixoloji durumu yaşayan gənclərin ilk öncə psixoloqlara müraciət etməsi tövsiyyə edilir. Bu yoldakı çözüm narkomaniyaya doğru getmək deyil.

3. Gənclərin, yeniyetmələrin sosial çevrəsini nəzərdən keçirmək, onlar üzərində sosial nəzarəti gücləndirmək lazımdır. Bunun üçün ilk öncə valideynlər övladlarının zaman keçirdiyi mühit ilə maraqlanmalı və onların problemlərinin həllində övladlarına kömək eməlidirlər.

4. Qeyd etdiyim kimi narkomaniyaya düçar olan gənclər, maddə bağımlısı olan şəxslər həyatının hər hansı bir dönəmində şiddət görən, cəzalandırma qorxusu ilə üzləşən, valideynin və ya etrafındakıların laqeydliyi ilə qarşılaşan insanlardır. Adını sadaladığımız faktorlar şəxsiyyətin özünü

və bacarığını,mənəvi gücünü,iradəsini zəiflədən amillərdir. Bu istiqamətdə sosial psixoloqların şəxsiyyətin deviant davranışı zamanı tətbiq etdikləri sosial-psixoloji modellərdən istifadə etmək lazımdır.

5.Narkomaniya kimi mənfi davranışların qarşısını almaq üçün terapiya, mənəvi dəstək, tibbi müalicə ilə yanaşı sağlam və güclü iradə də olmalıdır. Bu səbəblə də övladlarınızdan və ya yaxınlarınızdan kiminsə narkomaniyaya düçar olduğunu öyrəndikdə onun üzərinə sərt şəkildə gedilməməli, psixoloqların və bu sahənin mütəxəssislərinin köməyilə birlikdə tibbi yardım edilməlidir [1, 3].

6. Digər mühüm məsələ ondan ibarətdir ki, narkomaniyaya aludə olmuş gənclərdən əksər hallarda yaxın çevrəsi və ailəsi uzaqlaşır, hətta, imtina edir. Bu davranışın özü həmin şəxsləri daha da uçuruma sürükləyir. Belə insanlar şəxsiyyətin özgələşməsinə məruz qalır, nəticədə intiharların sayı artır. Narkomaniyaya düçar olmuş insanlarla daha nəzakətli rəftar etməli, onlari öz əhatəsindən uzaqlaşdırmamalı və əksinə belə şətin məqamda onlara dəstək olmaq lazımdır.

7. Narkomaniyanın doğurduğu fəsadlardan olan QİÇS xəstəliyi ilə mübarizədə də yalnız tibbi deyil, sosial-psixoloji yardım da vacibdir.Belə şəxslərin psixoloji durumunun yüksək tutulmasına çalışmaq və onları daha çox sevgi və şəfqətlə əhatə etmək lazımdır.

Unutmaq lazım deyil ki, hər bir çətin durumun, xəstəliyin əlacı vardır.Çarəsizlikdən çıxmaq istənilən düzgün davranışın özü də bir çarədir. Narkomaniya çarə deyil, xəstəlik və təhlükə mənbəyidir.Gələcək isə sağlam gənclərlə yüksələcək. Bu yolda hamımız mübariz olmalı, narkomaniya və onun yaratdığı təhlükəli xəstəliklərə qarşı inadlı mübarizə aparmalıyıq.

Açar sözlər: Narkomaniya, psixososial iş, QİÇS.

Ədəbiyyat

1. Başkurt İ. Gençlik, maddde bağımlığı və koruma yolları, İstanbul, 2003.
2. Demirçi A.,Y.Ö, Alkol ve madde kullanım bozuklukları, İstanbul, 2010.
3. www.sehiyye.gov.az

MİQRASİYANIN NƏZƏRİ ƏSASLARI VƏ TARİXİ İNKİŞAFI HAQQINDA

Vəliyeva Mehriban
Azərbaycan Universiteti
mehriban.valiyeva86@gmail.com

Miqrasiya insanların müvəqqəti və daimi yaşayış yerlərini dəyişmək məqsədilə müxtəlif səbəblərdən bu və ya digər inzibati-ərazi qurumunun (dövlətinin) sərhəddini keçməklə yerdəyişməsidir [4].

Ölkəyə daxil olan miqrant – gəlmə səbəblərindən asılı olmayaraq, ölkənin müvafiq strukturlarının və cəmiyyətin üzvünə çevrilir. Sanki, insan olaraq öz dəyərləri ilə digər üzvlərə qarışır, təmaslar meydana gəlir. Bu baxımdan da sosial, siyasi, mədəni tərkibi təşkil edir.

Yerdəyişmə bir ölkənin ərazisində (daxili miqrasiya) və ya bir ölkədən digərinə keçməklə (beynəlxalq miqrasiya) həyata keçə bilər. Ölkəyə gələn miqrantlar immiqrant, ölkədən gedənlər isə emiqrantlar, mühacirlər adlanırlar.

Miqrasiya prosesinin əsasında iqtisadi, sosial, siyasi, milli, dini və digər səbəblər dayanır. Miqrasiya prosesi qanuni (dövlətin qanunvericiliyinə riayət olunması ilə baş verən) və qeyri-qanuni (ərazisində miqrantların gəldiyi dövlətin qanunvericiliyini pozmaqla) xarakter daşıyır. Bir çox hallarda ölkədən Avropaya, ABŞ-a, Kanadaya leqal və ya qeyri – leqal keçmək üçün, sənədlərin hazırlanması üçün istifadə edirlər.

İmmiqrant ölkənin daxili siyasətində iştirak edir və cəmiyyətin üzvünə çevrilir. Tranzit və təyinat ölkədə miqrantın hüquqlarının təmin edilməsi baza tənzimləmə obyektini təşkil edir.

Miqrasiya iqtisadi, sosial, mədəni və siyasi mənalar kəsb edən geniş spektrli və konseptual məzmunu və əhəmiyyəti özündə əks etdirən şaxəli bir anlayışdır. Miqrasiya anlayışı həm onun tərkibindən, yəni miqrasiyanın özünü meydana gətirən komponentlərdən, həm də bölgüsündən, yəni miqrasiyanın tiplərindən: növləri və formalarından zənginləşir.

Bu iki baza istiqamət birlikdə geniş miqrasiya proseslərini əhatə edən anlayışları və anlayışları formalaşdıran ünsürləri, komponentləri əhatə edir. Miqrasiya mövzusu haqqında fikir irəli sürmək, araşdırma aparmaq, onun kökü, yaranmasının əsasları haqqında danışmaq üçün tarixə müraciət etmək ən başlıca hədəf olmalıdır. İnsanların miqrasiyası özü bir ictimai-sosial hal olaraq əsasən tarixdə baş vermiş hadisələr nəticəsində formalaşır. Bu hadisəyə öncə ideoloji, sonra isə materialist düşüncə tərzi ilə yanaşdıqda, yenə də sonda nəticə eynidir [2].

Miqrasiyanın əsasını texniki olaraq "hərəkət", sosial hadisə olaraq isə "köç" adlandıra bilərik. Yəni, insanların bu və ya digər səbəblərdən öz daimi yaşayış məskənlərini tərk edərək (hərəkət edərək), digər məkanlara köç etməsini miqrasiya adlandırmaq olar.

Əhali miqrasiyası hər bir ölkə ərazisində əhalinin və əmək ehtiyatlarının yenidən bölgüsünə, əmək məhsuldarlığının artırılmasına səbəb olan obyektiv sosial-iqtisadi prosesdir. Lakin bu proses bəzi hallarda kəskin fəsadlarla da müşaiyət olunur [3].

Öyrəndiyimiz və bildiyimiz bir çox böyük və kiçik miqrasiya halları olmuşdur ki, bu hadisələr dünya tarixini dəyişərək hazırkı hala gəlməni təmin etmişdir. Buna ən bariz nümunə kimi "xalqların böyük köçü"nü qeyd etmək olar (yəni şərqdə yerləşən xalqların qərbə doğru irəliləməsi). Digər bir misalda isə, orta əsrlərdə gəmiçiliyin inkişafı ilə ortaya çıxan yeni böyük miqrasiya axınını qeyd etmək olar (yəni qitələrin kəşf edilməsi və ora digər qitələrdən insanların köç etməsi).

İstərdim ki, qeyd olunan hər iki tarixi miqrasiya prosesində oxşar və xüsusi səbəblərə diqqət yetirək. Hər iki halda oxşar cəhət insanların kütləvi köçməsi halıdır. Xalqların böyük köçü tarixi miqrasiya hadisəsinin kökündə köçəri həyat tərzinə öyrəşmiş insanların öz ev heyvanları üçün daha rahat və münbit otlaq sahələri axtarışı olmuşdur. İkinci hadisədə isə var-dövlətini artırmağı düşünən Avropa monarxlarının yeni kəşf edilmiş torpaqlara işləmək üçün məcburi qul kimi köçürdüyü icmaları (Afrikadan) görə bilərik. Hər iki miqrasiya hadisəsinin sonunda isə şiddət, müharibə, işğal və qarşıdurmanın olması da tarixdən hamıya məlumdur. Yəni, yerli xalqların yeni gələnləri qəbul edib-etməməsi, yeni gələnin yerli xalqa əhəmiyyət verməyərək öz qayda və qanunlarını, hakimiyyətini tətbiq etmək istəyi və s.

Tarix yüzlərlə belə miqrasiya hallarının şahidi olmuşdur ki, müəyyən zaman kəsiyində böyük dövlətlərin və imperiyaların siyasi və işğalçı ambisiyaları nəticəsində insanların-xalqların bir yerdən başqa bir yerə köçməsinə səbəb olmuşdur. XX əsrədək miqrasiya hadisələrini araşdırdıqda ən çox miqrasiya hallarının baş verdiyini məhz münaqişələrlə əlaqələndirmək olar.

Ən dağıdıcı miqrasiya fövqəladə vəziyyətdə adamların həyatı üçün yaranan təhlükədir (kortəbii fəlakət, müharibə, etno ərazi münaqişələri). Bunlar psixoloji zədəsiz ötüşmür, sonradan reinteqrasiya çox ağrılı olur. XX əsrin 90-cı illərində bu cür miqrasiya Balkan ölkələri, Qafqaz və s. üçün əsl bəla olmuşdur. Eyni zamanda Əfqanıstanda olan müharibə, SSRİ-nin dağılması, sovet

ordusunun Şərqi Avropadan çıxarılması, Pribaltika hadisələri, Tacikistanda olan münaqişə və s. də buna təsir etmişdir. Qaçqın axını ölkələri bürümüşdür. Ermənilərin təcavüzü nəticəsində Qərbi Azərbaycanda olan soydaşlarımız, sonra isə Dağlıq Qarabağda yaşayan Azərbaycanlılar məcburi köçkünə çevrilmişdir [4].

XX əsrdən başlayaraq miqrasiya hadisələri kütləviliyinə görə özünün tarixi və ənənəvi məcrasından çıxaraq yeni dövrün tələblərinə uyğun şəkil almışdır. Qətiyyətlə qeyd edə bilərik ki, iqtisadi miqrasiya dövrümüzün ən böyük sosial-ictimai hadisəsinə çevrilə bilmişdir. Ölkələrdəki demokratikləşmə prosesi, insan hüquqlarının inkşafı, inkişaf və humanitar sahə ilə məşğul olan beynəlxalq institutların sayının artması və ən əsası müəyyən ölkələrdəki siyasi-iqtisadi durumun stabil və güclü olması iqtisadi miqrasiya məsələsini dövrün aktual hadisəsinə çevirə bilmişdir. Insanlar daha yaxşı həyat axtarışı üçün müxtəlif yollarla (xüsusilə də beynəlxalq institutların dəstəyi ilə) əsaslar gətirərək öz daimi yaşadıqları ölkələri tərk edərək, nisbətən daha komfortlu və rahat ölkələrə yollanırlar.

XXI əsrdə də, münaqişələr nəticəsində miqrasiya hallarını müşahidə edirik (öz ölkəsi daxilində məcburi köçkünlər, qaçqınlar və s.), amma iqtisadi miqrasiya kütləviliyinə görə artıq daha aydın şəkildə müşahidə edilə bilir.

Miqrasiya axınının idarə olunması – iqtisadi və sosial siyasətin mühüm ünsürüdür. Məsələn, Avropa İttifaqı inteqrasiyanın əsas dayağı kimi immiqrasiya siyasətinə xüsusi diqqət yetirir [1]. Ölkə üçün düşünülmüş miqrasiya siyasəti ağır demoqrafik vəziyyətin dəf edilməsi və iqtisadiyyatın yüksəldilməsi üçün əsas şərtlərdən biri ola bilər. İmmiqrasiyanın miqyasına görə aparıcı yerləri ABŞ, Almaniya və Rusiya tutur.

İqtisadi miqrasiya hadisəsini də öz növbəsində iki hissəyə ayırmaq olar. Ölkədaxili və ölkəxarici. Bəzən ölkə daxilində iqtisadi cəhətdən daha güclü olan bölgələrə nisbətən zəif inkişaf etmiş bölgələrdən də kütləvi axın olur. Urbanizasiya ilə nəticələnən kəndlərin ləğvi hallarını buna misal çəkmək olar.

Əgər miqrasiya prosesi genişmiqyaslı və kortəbiidirsə qəbul edən dövlətin sosial siyasətində ciddi problemlər yaradır (dövlət xərclərinin artması, miqrantlar və yerli əhalinin münasibətlərinin dəyişməsi və s.). Miqrasiya proseslərinin idarə olunması problemləri yaranır, miqrasiya xidməti, ərazi administrasiyası və sosial işçilər bunun öhdəsindən gəlməkdə çətinlik çəkirlər.

Beləliklə, qeyd edə bilərik ki, miqrasiya prosesləri dövrümüzün aktual hadisələrindən olmaqla, dünya dövlətlərinin milli təhlükəsizlik konsepsiyalarında prioritet məsələlərdən birinə çevrilmişdir. Dünyada etnik-milli münaqişələrin şiddətlənməsi, müəyyən regionlarda iqtisadi inkişaf sürətinin aşağı düşməsi, siyasi, sosial və mədəni proseslərin qlobal xarakter alması, bütövlükdə qloballaşma və inteqrasiya prosesləri, habelə qaçqın və məcburi köçkünlərin sayının artması planetimizdə əhalinin miqrasiyasının intensivləşməsinə gətirib çıxarmışdır. Hazırkı qloballaşma və inteqrasiya əsrində qeyri-qanuni miqrasiyanın obyektiv səbəblər nəticəsində genişlənməsi miqrantları qəbul edən ölkələrin ehtiyatlanmasına, miqrantları qəbul etməmək üçün daxili qaydada sərtləşdirmələrinə və öz qanunvericilik bazalarında dəyişikliklər etməsinə səbəb olmuşdur. Bütün bunlar miqrantların Avropaya üz tutmasını məhdudlaşdırmağa yönəlsə də, bütövlükdə miqrant probleminin qarşısını almağa qadir deyil [5].

Miqrasiya hadisəsi məhz yaradılışdan mövcud olan bir haldır və daim inkişafdadır. Yaradılış sözünü vurğulamağımızda da xüsusi bir məna vardir. Belə ki, bunu da bilməliyik ki, miqrasiya yalnız insanlara aid olan hadisə deyil, həmçinin yaradılmış əksər canlılara aid olan bir prosesdir.

Məqalənin məqsədi və hədəfi ümumi miqrasiyanı və onun əsasında nəyin və hansı hadisələrin durduğunu anlamaq, bildiyimiz tarixi hadisələrdə miqrasiyanın ayrıca ictimai-sosial hal olmasını dəyərləndirmək olmuşdur.

Açar sözlər: miqrasiya, immiqrant, emiqrant.

Ədəbiyyat

1. Nəbiyev B.E « Beynəlxalq münasibətlər tarixi (1918-1945-ci illər)» (Metodik vəsait / Bakalavr təhsil pilləsi üçün). Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti. Bakı, 2015.
2. Nəsibov Elşən « Miqrasiyanın əsasları » Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. 1-ci kitab Bakı, « Elm və təhsil » nəşriyyatı, 2014, 240 səh.
3. Sərdarov Məmmədağa « Qloballaşma və miqrasiya siyasəti ». Azərbaycan Milli Elmlər Akademiyası. Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu, Bakı Təknur, 2010.
4. Qəhrəmanov Eldar, Əhmədov Yaşar, Sosial işin əsasları. Dərs vəsaiti, Bakı, B-print, 2014.
5. http://www.elibrary.az/docs/JURNAL/jrn2017_43.pdf

ZAMANIN FÖVQÜNDƏ DURAN ALİM-AKADEMİK HƏMİD ARASLI

Vəliyeva Şüküfə
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
valiyevashukufa@gmail.com

Akademik Həmid Araslıədəbiyyattarixçisi kimiçoxsaylı araşdırmaları ilə milli ədəbiyyatşünaslığın inkişafına dəyərli töhfələr vermiş, Azərbaycan ədəbiyyatşünaslıq elminin formalaşması və inkişafı sahəsində mühüm xidmətlər göstərmişdir.

Universallıq akademik Həmid Araslının çoxcəhətli elmi fəaliyyətinin mahiyyətini ifadə edir. Həmid Araslının həyatında, taleyində, məşğuliyyətində elm həmişə ön mövqedə dayanmış, üstünlük qazanmışdır.

Böyük elm xadimi "Müxtəsər Azərbaycan ədəbiyyatı" ikicildliyinin ilk cildində Azərbaycan ədəbiyyatının ən qədim dövrlərindən başlayaraq XVII əsrə qədərki inkişaf mərhələlərinin ədəbi-mədəni şərhini vermiş, həmin dövrdə yaşamış sənətkarların yaradıcılığının təhlili zamanı onların sənətinin özünəməxsusluqlarından, poetikalarından mükəmməl şəkildə bəhs etmişdir. Həmid müəllim eyni zamanda, türkdilli Azərbaycan ədəbiyyatının formalaşmasında mühüm rol oynamış Qazi Bürhanəddin,İmadəddin Nəsimi, Nemətullah Kişvəri, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli kimi sənətkarların Azərbaycan ədəbiyyatı tarixindəki mövqeyini, xidmətini müəyyənləşdirərək onların bədii-ictimai fikir tarixinə təsirini müəyyənləşdirmişdir.

Akademik Həmid Araslı hər şeydən əvvəl böyük ədəbiyyat tarixçisi idi. Onun Azərbaycan ədəbiyyatı tarixi ilə bağlı mühüm xidmətlərindən biri "Azərbaycan ədəbiyyatı tarixi" kitabını 3 cild şəklində ərsəyə gətirməsidir. Sözügedən kitabda Həmid müəllimədəbiyyat tarixinə sadəcə olaraq ədəbiyyatın keçdiyi inkişaf yolunun xronologiyası kimi baxmamış, eyni zamanda, ədəbiyyat tarixçiliyində ədəbiyyata çoxəsrlik ədəbi prosesin vahid davamlı sistemi kimi yanaşmağın zəruriliyini və əhəmiyyətini elmi cəhətdən əsaslandırmışdır. Hər iki nəşr öz yüksək elmi qiymətini indi dəona görə qoruyub saxlamaqdadır ki, Həmid müəllim ədəbiyyat tariximizə fikir verərkən

ədəbi prosesə ciddi yanaşmış, ədəbi hadisələrə və şəxsiyyətlərə qiymət verərkən obyektiv-tarixi mövqedən çıxış etmişdir.

Böyük elm xadimi Həmid Araslının klassik irsin öyrənilməsi ilə bağlı fəaliyyətinin mühüm bir hissəsi Nizami Gəncəvi, İmadəddin Nəsimi və Məhəmməd Füzuli yaradıcılığının tədqiqi istiqamətində olmuşdur. Nizami Gəncəvi sənətinin milli ruhuna xüsusi həssaslıqla yanaşaraq, dahi şairimizbarədə ilk dəfə elmi araşdırma apararaq "Şairin həyatı", "Nizami Gəncəvi əsərləri" və ayrı-ayrı tədqiqatlarında şairin öz irsinə əsaslanaraq onun türkcə düşünüb farsca yazdığını elmi dəlillərlə ilk dəfə sübut edən alim məhz Həmid Araslı olmuşdur. Həmid müəllim, eyni zamanda,Nizami Gəncəvinin "Xəmsə"sində türk sözləri və atalar sözlərindən istifadə olunduğunu aşkara çıxarmış,bununla da Nizami Gəncəvinin fars olması, İranın Qum şəhərində yaşaması kimi əsassız iddiaları təkzib etmişdir.

Haqlı olaraq, akademik Həmid Araslı İmadəddin Nəsiminin də ilk tədqiqatçılarından hesab edilir. Belə ki, Həmid müəllim Nəsimi yaradıcılığını ədəbi təhlil süzgəcindən keçirərək "Fədakar şair" oçerkini, xeyli sayda elmi məqalələri və İmaməddin Nəsimi əsərlərinin nəşrlərinə müqəddimələr yazmışdır. Həmid müəllim İmaməddin Nəsiminin 600 illik yubileyi ərəfəsində nəşr olunan "İmadəddin Nəsimi" kitabçasında şairin həyatının bəzi qaranlıq məqamlarına aydınlıq gətirmiş, Nəsimi şeirinin dil və poetik ifadə gözəlliklərindən söz açmışdır. Yeri gəlmişkən,qeyd edək ki, 1973-cü ildə Bakıda ingilis dilində çap edilən "İmadəddin Nəsimi: həyat və yaradıcılıq fəaliyyəti" ("Hamid Araslı. İmadaddin Nasimi: life and creative activity") adlı tanışlıq kitabıdünya kitabxanalarında öz layiqli yerini tutmuşdur. İmadəddin Nəsiminin qəzəlləri Ənvər Rza tərəfindən ingilis dilinə tərcümə edilmişdir. Həmid Araslı tərəfindən ingilis dilində nəşr olunan kitab nəsimişünaslığın inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Həmid Araslı İmadəddin Nəsiminin qəzəllərini ingilis dilində nəşr etdirməklə Azərbaycan ədəbiyyatına, mədəniyyətinə, eləcə də bütün türkologiya elminə böyük xidmət göstərmişdir. Sevindirici haldır ki, "İmadəddin Nəsimi: həyat və yaradıcılıq fəaliyyəti" kitabı ingilisdilli alimlərin bu gün də müraciət etdikləri mötəbər mənbədir. Belə bir həqiqətin üstündən sükutla keçmək olmaz ki, akademik Həmid Araslının 70-cı illərdə nəşr etdirdiyi tanışlıq kitabından sonra İmadəddin Nəsimi əsərləri bu va xta qədər bütövlükdə toplanıb ingilis dilində mükəmməl şəkildə nəşr edilməmişdir.

Ümumiyyətlə, Həmid Araslı çoxillik elmi fəaliyyəti ərzində hər zaman dəyərli və orijinal əsərləri ilə ədəbiyyatşünaslıq elmində ədəbiyyatın daxili təkamülündən çıxış etməklə yeni modellər yaratmaq vəzifəsini böyük uğurla yerinə yetirmişdir.

Açar sözlər: irs, məfkurə, tərcümə, mənəvi dəyərlər.

Ədəbiyyat

1. Azərbaycan dastanları : 5 cilddə., H. Araslı, Bakı : Çıraq, 2005.
2. Həmid Maəmmaədtağı oğlu Araslı : biblioqrafiya , Amin Əfəndiyev, Zakirə Əliyeva.Bakı: Elm, 2009.
3. Imadaddin Nesimi : life and creative activity / Hamid Arasli ; [translated by Anvar Rza ; edited by Vagif Aslanov],1973.

ƏLİLLİYİ OLAN İNSANLARA SOSİAL XİDMƏT

Verdiyeva Tünzalə
Azərbaycan Universiteti
tunzala.verdiyeva@au.edu.az

Sosial həyatda əlilliyi olan insanlar üçün imkanların bərabərləşdirilməsi və onların iştirakının təmin edilməsi icma səviyyəsində təqdim edilən sosial xidmətlərin çeşidindən və keyfiyyətindən birbaşa asılıdır. Təhsil, səhiyyə, peşə hazırlığı xidmətlərindən istifadə imkanlarının olması bütün insanlar üçün sosial həyatda iştirak səviyyəsini müəyyən edir.

Sosial xidmət dedikdə əhalinin, xüsusilə də həssas qrupların həyat şəraitinin yaxşılaşdırılmasına yönələn müxtəlif yönümlü xidmətlər toplusu başa düşülür. Beləki, sosial xidmətlər hər bir ölkənin rifah sisteminin tərkib hissəsi olub, dövlətin sosial təminat, anti-diskirminasiya, yoxsulluqla mübarizə siyasətinin həyata keçirilməsi üçün istifadə edilən mühüm alətlərdir. Sosial xidmətlərin məqsədi fərdlərin cəmiyyətə tam inteqrasiya olunmasına dəstək olmaqdır. Sosial xidmətlər bazar münasibətləri ilə qarşılana bilməyən sosial ehtiyac və sosial çatışmazlıqlaracavab verirlər. Dövlət bütün vətəndaşlarının sosial xidmətlərdən istifadə imkanlarının yaradılmasına məsuliyyət daşımalıdır [1].

Avropada sosial xidmətlərə nəzər salanda görürük ki, Avropa Birliyi çərçivəsində sosial xidmətlər sektorunun müasirləşdirilməsi və onların bazar iqtisadiyyatındakı rolunun müəyyənedilməsi son zamanlar müzakirə obyektidir. Son 20 il ərzində bazar mexanizmlərinin təsiri nəticəsində xidmət və sosial xidmət sahələri ətrafında müzakirələr geniş vüsət almışdır. Sosial xidmətlərin rolunun yeni perspektivinin yaradılmasına olan ehtiyac ilk növbədə sosial xidmətlər sektorunun yeni tərifinin müəyyən edilməsini zəruri edir. Sosial xidmətlərin Avropa ölkələrində vahid şəkildə qəbul edilmiş tərifi yoxdur.

Sosial xidmətlər aşağıdakı kimi təyin edilə bilər:

- Dar mənada insanların sosial ehtiyaclarının (ev, uşaqlar, qocalar və xüsusi ehtiyacları olan insanlar üçün sosial qayğı sistemi, sosiallaşma, icma həyatında iştirak, sosial təminat və sosial müdafiə tədbirlərinin digər növləri və s.) ödənilməsi;
- Geniş mənada təhsil, səhiyyə və məşğulluq kimi daha geniş çeşiddə xidmətlər toplusu.

Avropada sosial xidmətlər müxtəlif təşkilatlar tərəfindən təqdim edilir. QHT-lər, xeyriyyə və həmrəylik təşkilatları, yerli və mərkəzi icra hakimiyyəti orqanları, könüllülər və bəzəndə qeyri-kommersiya təşkilatları müxtəlif Avropa ölkələrində sosial xidmətlərin müxtəlif maliyyələşmə və nəzarət mexanizmləri mövcuddur.

Sosial xidmətlərin keyfiyyəti aşağıdakı amillərdən asılıdır:

- əlçatanlıq
- davamlılıq
- məlumat və şəffaflıq
- xidmətlərin müəyyən edilməsində və qiymətləndirilməsində xidmət istifadəçilərinin iştirakı.

Bu tələblərə cavab vermək üçün üzv ölkələr sosial xidmətlərin təqdimedilməsi üçün keyfiyyət standartları, lisenziyalaşdırma, qiymətləndirmə prosedurları və s. kimi idarəetmə mexanizmləri hazırlayırlar. Beləliklə, resursların effektiv istifadəsinə nail olmaqla istifadəçilərin xidmətlərə əlçatanlığını və keyfiyyətini təmin edirlər [2].

Sosial xidmətlər sektorunun müasirləşədirilməsi üçün bir neçə alətdən istifadə edilə bilər:

1. Sosial xidmətlər sahəsində keyfiyyətin idarə edilməsi və keyfiyyətin indikatorları əsasında idarə etmə, klientə yönələn xidmətlər, xidmətlərin təqdim edilməsində xidmət istifadəçilərinin özlərinin iştirakı. Bu sahədə keyfiyyətə nəzarət etmək üçün etik və iqtisadi aspektlər nəzərə alınmaqla xidmət təminatçıları, xidmət istifadəçilərinin dəyişən ehtiyaclarını tez üzə çıxarıb qəbul edə bilməli, icra hakimiyyəti orqanları qarşısında şəffaflığı təmin edə bilməli, social xidmətlərin planlaşdırlması, monitorinqi və qiymətləndirilməsində xidmət istifadəçilərinin iştirakının mümkün olduğunu qəbul edə bilməlidirlər. Həmçinin xidmət təminatçıları digər təşkilatlarla əməkdaşlığa hazır olmalıdırlar;
2. Sosial xidmətlərin təqdim edilməsinin monitorinq edilməsi və qiymətləndirilməsi;
3. Sosial xidmətlərin təqdim edilməsi prosesinə xidmət istifadəçilərinin cəlb edilməsi.

Sosial xidmətlərin modernləşdirilməsi prosesinin əlillik sahəsinə təsiri böyükdür. Son onilliklərdə əsas transformasiya əlilliyə olan tibbi və mühafizəkar yanaşmadan insan haqlarının qorunmasına, bərabər imkanlara və icmanın sosial və iqtisadi həyatında tam iştiraka əsaslanan sosial və inkluziv modelə keçməsindən ibarətdir.

Sosial xidmətlər əlilliyi olan insanlar arasında yoxsulluğun və kənarda qalmanın azaldılması üçün vacib alətlərdən biridir. Əlilliyi olan insanlara təqdim edilən sosial xidmətlərin başlıca məqsədi onların sosial həyatda aktiv iştirakının təmin edilməsidir. Ona görə də bu xidmətlər adətən sosial avtonomluq, şəxsi inkişaf və individual rifahla əlaqəli fəaliyyətə yönəldilir.

Əlilliyi olan insanların inkluziyası üçün sosial xidmətlərə ikitəfli yanaşma:

- Əlillik xidmətləri sektorunun spesifik xüsusiyyəti ondan ibarətdir ki, burada əsas xidmətlərlə xüsusi xidmətlər arasında balanslaşdırılmış əlaqənin olması vacibdir.
- Əlilliyi olan insanların əsas xidmətlərdən istifadə edə bilmə imkanlarının olması istənilən digər ölkə vətəndaşının da fundamental hüquqlarından biridir. Bu prosesi asanlaşdırmaq üçün əlillik sahəsində social xidmətlərin xüsusi kateqoriyası "dəstək xidmətləri" inkişaf etdirilir ki, bunun da əsas məqsədi əlilliyi olan insanların öz müqəddəratlarnı özlərinin müəyyən etmələrinə yardım etmək və cəmiyyətdə olan xidmətlərdən istifadə etməyə dəstək olmaqdır [3].

Xüsusi xidmətlər isə sosial xidmətlərin daha geniş kateqoriyası olub, kəskin əlilliyi olan insanların mürəkkəb ehtiyaclarnın ödənilməsini təmin edir. Insana mərkəzləşmiş yanaşma əsasında bu xidmətlər bərabər paylanmalı, lakin, xidmət istifadəçilrinin və onların ailə üzvlərinin fikri nəzərə alınmaılıdır. Xüsusi reabilitasiya xidmətləri, ailə tipli müəssisələr, müvəqqəti qayğı mərkəzləri, kəskin əlilliyi olan insanlar üçün sığınacaqlar, mürəkkəb ehtiyacları olan və digərlərindən çox asılı olan əlilliyi olan insanlar üçün xüsusi qayğı mərkəzləri əlilliyi olan insanların ehtiyaclarnı qarşılamaq üçün yaradıla biləcək xidmətlərin bir hissəsidir.

Sosial xidmətlərin təqdim edilməsinin aspektləri:

- xidmətlər mövcuddur və ehtiyac olduqda istifadə etmək mümkündür.
- Ehtiyac olan hər kəsin xidmətlərə əli çatır və onlalrdan istifadə edə bilər.
- Sosial xidmətlərin qiymətləri bütün vətəndaşlar üçün qarşılana biləndir.
- Xidmətləri təqdim edən təşkilatlar şəffafdırlar.

Aşağıdakı iki kriteriya sosial xidmətlərin qiymətləndirilməsi zamanı istifadə edilir:

- Xidmətlərin keyfiyyəti
- Xidmətlərin davamlılığı.

Beləliklə,əlilliyi olan insanlara sosial xidmətlər sistemli, ardıcıl, davamlı və əlçatan olmalıdır.Hər bir dövlətin sosial siyasəti, xüsusilə də əlilliyi olan şəxslərə münasibəti ilə ölçülür.

Əlillik sahəsində olan qanunlar, qəbul olunmuş proqramlar və xidmətlər həssas qrupdan olan əhalinin mənafeyini müdafiə etməlidir.

Açar sözlər: sosial qayğı, sosial işçi, əlilliyi olan şəxs, social xidmətlər, ailə tipli müəssisələr.

Ədəbiyyat

1. Michael Oliver, Bob Sapey and Pam Thomas (2012) Social Work with Disabled People. Palgrave Macmillan. 4th Edition.
2. Sally French and John Swain (2012). Working with Disabled People in Policy and Practice: a social model. Palgrave Macmillan.
3. Colin Barnes and Geof Mercer (2010). Exploring Disability. Second Edition. Polity.

AİLƏ BÜTÖVLÜYÜNÜN UŞAQLARIN TƏHSİLİNƏ TƏSİRİ

Verdizadə Qabil
Azərbaycan Universiteti
verdizadeq@gmail.com

Məktəb mühiti, emosional, fiziki, əqli, psixi və psixoloji yüklənmələrdən ibarət olan elmi mühitin dərketmə prosesi olub, şəxsiyyətin inkişafı və bütövlüyü, sosial-psixoloji səviyyəsi və yeni mühitə adaptasiyası üçün yeni tələblər irəli sürür. Məktəbdə təhsil həmişə tanış mühitin, həyat tərzinin dəyişməsi ilə əlaqələndirilir və uyğunlaşma bacarıqlarının inkişaf etdirilməsini tələb edir.Həyatımızın hər mərhələsində bir bilik mənbəyi varvə əlbəttə ki, müəyyən məhdudiyyətlərlə ona çıxış əldə edə bilərik. Biliklərin həcmi insanın həyat qavraması, müasir cəmiyyət çərçivəsində rolu haqqında təsəvvürlərini tənzimləməyə qadirdir. Əldə edilmiş bacarıq və vərdişlərin dərəcəsi və səviyyəsi ailə tərbiyəsi ilə qoyulmuş dəyərlərdən, normalardan və ənənələrdən asılıdır.Müasir təhsil sistemində əsas diqqət uşağın şəxsiyyətinin inkişafına, şagirdin emosional və psixoloji vəziyyətinin dəyişməsinə, içindəki gender stereotiplərinin və normalarının formalaşmasına, məktəb təhsilinə hazırlıq səviyyəsinə və məktəbə uyğunlaşmasına yönəldilmişdir. Məktəbin ictimailəşmə mərhələsi müəyyən bir cəhətə, gələcəkdə şəxsiyyətin düzgün formalaşması üçün atılmalı olan bir addım halına gəlməklə uşağın gələcək həyatına böyük təsir göstərir. Tələbənin şəxsiyyətin formalaşması mərhələsində yaşayacağı düzgün duyğu və hisslər, cəmiyyətdə davranış və qarşılıqlı təsir bacarıqlarını inkişaf etdirməyə kömək edəcək və şəxsiyyətin yeni şərtlərə uyğunlaşma prosesini asanlaşdıracaq [2, s.102].

Məktəbə uyğunsuzluq prosesini nəzərə alaraq qeyd etmək lazımdır ki,bu, uşağın sosial-psixoloji və psixofizioloji statusunun pozulmasından, məktəb mühitində mövcud ailə vəziyyəti ilə əlaqədar mənimsənilməsi çətinləşən tələblərə və qurğulara uyğun gəlməməsindən xəbər verən əlamətlərin, rolların, dəyərlərin və normaların məcmusudur. Məktəb dezadaptasiyası dedikdə,mahiyyət etibarilə uşağın sosial, psixoloji və psixofizioloji vəziyyətinin pozulduğunu göstərən birləşmiş əlamətlər toplusu nəzərdə tutulur.Onlar tədris prosesində çətinliklərə gətirib çıxararaq, yeni məktəb mühitinə adaptasiya dövrünə təsir göstərirlər [1, s.221].

Bildiyimiz kimi, əsas sosial institutlardan biri də ailədir. O, fərdin və cəmiyyətin qarşılıqlı əlaqəsini təmin edir, şəxsiyyətin sosiallaşmasının səviyyəsini müəyyənləşdirir və şəxsiyyətin prioritetlərini və ehtiyaclarını müəyyən etməyə kömək edir. Ailə insana həyat dəyərlərinə və normalarına öz baxışını formalaşdırmağa kömək edir, özünü necə aparmaq lazım olduğu və nəyi

bilmək və bacarmaq lazım olduğu haqqında təsəvvür yaradır. Bir ailədə bir uşaq digər insanlarla qarşılıqlı əlaqədə praktik bacarıqlarını əldə edə bilir, gündəlik vəziyyətlərdə davranışa həlledici təsir göstərən normaları, dəyərləri öyrənir.

Ailə sosial bir institut olaraq ər-arvad və uşaqların bir-birlərinə qarşılıqlı məsuliyyətinə əsaslanır. Ailə üzvlərinin hər biri digərlərinə təsir edərək onun daxili strukturuna öz xüsusi töhfəsini verir.Ailənin daxili quruluşu, valideynlərin özləri və uşaqları ilə münasibətləri, onların vərdişləri və davranış xüsusiyyətləri – bütün bunlar uşaqlarda davranış xüsusiyyətlərini inkişaf etdirir və müsbət və mənfi, düzgün və ləyaqətsiz davranışın qiymətləndirilməsi meyarlarını formalaşdırır [4].

Müasir cəmiyyətdə natamam ailələrin sayının artması tendensiyası müşahidə olunur, deməli, bir valideynin tərbiyə etdiyi uşağın şəxsiyyətinin formalaşması spesifikasını, həmçinin məktəb təhsilinə adaptasiya mərhələsindən keçməyin xüsusiyyətlərini nəzərə almaq lazımdır.

Ailə tərbiyəsinin rolu özünü hərtərəfli çoxtərəfli proses kimi göstərir, bunun sayəsində sosial münasibətlərin iştirakçıları bir-birinə rəğbət və antipatiya ifadə edirlər. İsti münasibət, inam və hörməti qoruyan ailələr digər sosial institutların xarici təsirlərinə daha az həssasdırlar. Belə ailələrdə təlim-tərbiyə prosesi pərakəndə ailələrə nisbətən böyük uğurla davam edir. Sevgi və qayğı şəraitində uşaq daha tez uyğunlaşmağa, normaları, dəyərləri, rolları və yeni şəraitdə davranış modellərini qəbul etməyə qadirdir.Şəxsiyyətin formalaşdığı mühit çox vacibdir, çünki uşağın psixi sağlamlığı onun rifahından asılıdır.Tam bir ailənin olması, hər iki valideynin yalnız ailə tərbiyəsində olması uyğunlaşma amili olmağa qadir deyil [3, s.23].

Qeyd etmək lazımdır ki, ailənin "natamam" olması və harmonik vəziyyət və ailədaxili qarşılıqlı əlaqələrin olmaması uşağın məktəb həyatına uyğunlaşmasında çətinliklərə səbəb ola bilər. 2015–2016-cı illərdə Nijni Novqorod məktəblərinin bazasında bir uşağın məktəbə uyğunlaşma və sosiallaşma prosesində ailənin "tamlığına" təsir edən amillərin geniş hissəsini əldə etməyə imkan verən sosioloji bir araşdırma aparılmışdır.Tədqiqat məlumatları məktəb müəllimləri ilə(25 qadın müəllim) müsahibəyə əsaslanır. İştirakçıların hər biri uyğunlaşma mexanizmlərinin uşağın ailə vəziyyəti ilə sıx bağlı olduğunu qeyd etmişdir [2, s.106]. Müəllimlər tələbənin daxili rifahının birbaşa ailənin vəziyyətindən asılı olduğunu iddia edirlər.Hər iki valideynin və ya onlardan birinin olması bir şagirdin adaptasiya mərhələsini düzgün və müvəffəqiyyətlə keçməsi üçün bir təkan ola bilər və ya əksinə, maneə ola bilər. Ailədaxili vəziyyətin müsbət olması və valideynlərin savadlı davranışı uşağın şəxsiyyətinin formalaşması üçün mühüm amildir.

Açar sözlər: uyğunlaşma, ictimailəşmə, məktəb, tam ailə.

Ədəbiyyat

1. Овчарова Р.В. Психология родительства, М., 2005, 561 с.
2. Шлыкова Д.В.Полнота семьи как фактор адаптации детей к школе, Вестник Нижегородского университета им. Н.И. Лобачевского. Серия: Социальные науки, 2017, № 2 (46), с. 101–107.
3. Miller J. "Family and Community Integrity" The Journal of Sociology & Social Welfare: 2001, Vol. 28.
4. https://cyberleninka.ru/article/n/osobennosti-roditelskoy-pozitsii-v-semyah-raznogo-tipa/viewer

FRAZEOLOJİ VAHİDLƏRƏ SEMANTİK YANAŞMA

Xanlarova Aynurə
Azərbaycan Dillər Universiteti
aynure.kh@gmail.com

Frazeoloji ifadələr ayrı-ayrı leksik vahidlər əsasında yaranır. Müəlliflər bu ifadələri formalaşdırarkən sözləri dildəki adilikdən, nominativ mənalarından çıxararaq dilin mümkün imkanlarından istifadə edir, leksik səviyyəsinə məcazilik, çoxmənanılıq, sinonimlik və s. keyfiyyətləri gətirməklə obrazlı dilə çevirirlər. "Frazeoloji ifadələr ekspressivlik əlamətinə görə ekvivalent olan sözlərdən çox fərqlənir. Metaforiklik, çoxmənalılıq frazeoloji birləşmələrin yüksək obrazlılığı deməkdir" [2].

Frazeologiya leksik-semantik kateqoriyalarla sıx bağlıdır. Burada sinonimlər, antonimlər, omonimlər, frazeoloji ifadələrin çoxmənalılığı, frazeoloji kontaminasiya mühüm rol oynayır. Frazeoloji sinonimlik, antonimlər də əsasən dildə mövcud olan leksik sinonimlər, antonimlər əsasında yaranır. Müəlliflər dilin bu vahidlərindən öz məqsədləri üçün uğurla istifadə edir, bədii dilə həm semantik, həm də poetik cəhətdən gözəllik gətirirlər. Xüsusilə də üslubi sinonim cərgələri, frazeoloji vahidlərin yaranmasında dilin bütün vahidləri iştirak edə bilir. "Üslubi laylardan istər bədii, istərsə də canlı danışıq dilində bir üslubi variant kimi geniş şəkildə istifadə edilir. Obraz yaradıcılığında bu və ya digər obrazın daxili və xarici təsirinin əks edilməsində, həmin obrazın psixoloji vəziyyətinin, elmi və mədəni səviyyəsinin təsvirində, onun daxili keyfiyyətlərinin açılmasında üslubi laylardan bir üslubi vasitə kimi istifadə edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu olmadan bədii yaradıcılığı təsəvvür etmək mümkün deyildir" [4].

Hər bir frazeoloji sinonim müəyyən bir obrazın əsasında formalaşır ki, bu cəhət leksik sinonimlərdə yoxdur. Məsələn:

1) O da sənin öz ixtiyarındadır ki, barmaq qoymağa razı olmayasan ... onda qəmiş qoyacağam, nə sənə bir şey düşəcək, nə də mənə (Kirpi jur.).

2) Qorxma, o sizin işinizə pəl vurmayacaq (Ə. Abasov).

Sabit birləşmələrdən birincisi qəmiş, ikincisi pəl sözünün əsasında formalaşmış və bu əlamətə görə ifadə bir-birindən fərqli obrazlılığa malikdir,lakin leksik vahidlərdə belə xüsusiyyətlər yoxdur.

Azərbaycan dilinin frazeoloji sistemi antonim frazeoloji vahidlərə də malikdir. Bunları iki qrupa ayırmaq olar: 1) tək mənalı frazeoloji vahidlərin antonimliyi; 2) omonim frazeoloji vahidlərin mənalarından bir-birinə qarşı tək mənalı frazeoloji vahidin antonimliyi.Tək mənalı frazeoloji vahidlərin antonimliyinə aiddir:Acığı gəlmək – xoşu gəlmək, ağ gün – qara gün

Söz açır şairin azad ilhamı
Vətən torpağının ağ günlərindən (S. Vurğun)

İkinci qrupa misal olaraq aşağıdakı nümunəni göstərmək olar:Həm bir işi yerinə yetirmək haqqında razılıq vermək, həm də məclisdə danışmaq üçün birinə icazə vermək mənasında işlədilən söz vermək sabit birləşməsinin birinci mənasına antonim olan söz almaq sabit birləşməsidir.

Azərbaycan dilində omonim frazeoloji vahidlər olduqca məhduddur. Omonim frazeoloji mənaların yaranmasında üç cəhət qeyd etmək olar: 1)Tək mənalı frazeoloji vahid əvvəlki mənasından əlavə olaraq yeni bir məna da kəsb edir. Məsələn: üz vermək (bədbəxtlik üz vermək, fəlakət üz vermək, qocalıq üz vermək)

Üz vermə nadana, sirr vermə pisə,

Axır qəlbi ya inciyə ya küsə (Xəstə Qasım)

2) Çoxvariantlı frazeoloji vahidllərin variantlarından birinin omonimləşməsi. Məsələn: əl açmaq, əl qaldırmaq.Sənin ona əl qaldırmağa ixtiyarın yoxdur (S. Rəhman)

3) Bəzi frazeoloji vahidlərin omonim mənası rus dilindən kalka yolu ilə alınmış frazeoloji vahidlərin hesabına yaranmışdır.

Çoxmənalı frazeoloji vahidlər ilk baxışda omonim frazeoloji vahidlərə oxşayır. Lakin qeyd edilməlidir ki, çoxmənalı frazeoloji vahidlərin sonrakı mənaları onun ilk mənası ilə bu və ya digər şəkildə bağlı olur. Məsələn. Can almaq sabit birləşməsi tarixən birini öldürmək mənasında formalaşmışdır. Müasir dilimizdə bunun dörd əlavə mənası var: bir şəxsi təhdid edərək ağır cəzalandırmaq; həqiqi mənada öldürmək; müəyyən bir işi görüb qurtarmaq; cəzbedici əlamətləri ilə valeh etmək" [1].

Açar sözlər: məcazilik, çoxmənalılıq, sinonim, antonim, omonim.

Ədəbiyyat

1. Bayramov H.A Azərbaycan dili frazeologiyasının əsasları. Bakı: "Maarif", 1978, 156 s.
2. Kazımov Q. Ş. Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Aspoliqraf LTD, 2004, 493 s.
3. Vəliyeva N. Ç. Frazeoloji birləşmələrin müqayisəli linqvistik təhlili (ingilis, Azərbaycan və rus dillərinin materialları əsasında) // DDA, Bakı, 2004, 300 s.
4. Süleymanova İ. Frazeologiyanın üslubi imkanları. Bakı: "Elm", 2013, 300 s.

ƏLİL GƏNCLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASI SAHƏSİNDƏ MODERN XİDMƏTLƏR

Xəlilova Əsli
Azərbaycan Universiteti
khalilova.asli@gmail.com

Gənclik dövrü insan həyatının ən məhsuldar dövrüdür.Tədqiqatlar sübut edir ki, insanların böyük əksəriyyətinin qazandığı uğurlar məhz gənclik dövrünə təsadüf edir. Bununla yanaşı müasir psixoloji ədəbiyyatda gənclik yaşına münasibət birmənalı deyildir. Gənclik yaş dövrü fərqli ədəbiyyatlarda fərqli şəkildə qeyd olunur. Azərbaycan Respublikasının Gənclər Siyasəti Haqqında qanununu əsas tutaraq, eyni zamanda şəxsiyyətin formalaşmasını, diqqətin, hafizənin,idrak proseslərinin inkişafını və eləcə də ölkəmizdə gənclər üçün mövcud olan xidmətləri nəzərə alaraq gənclik yaşını 14-29 yaş aralığı olaraq qeyd etmək daha məqsədə uyğundur [4].14-29 yaş aralığında olan və müəyyən fiziki, psixi,əqli və ya hissiyat pozuntusu olan şəxslər əlilliyi olan gənclər hesab olunur [3].

Müasir dövrdə tez tez rast gəldiyimiz cəmiyyətə inteqrasiya olunma termini cəmiyyətlə qovuşmaq, cəmiyyətin bir parçası olmaq anlayışlarını özündə ehtiva edir. Hər bir kəs cəmiyyətin bir hissəsinə çevrilmək, özünü sosiumdan, insanlardan təcrid etməmək üçün bu və ya digər formada çalışır, səy göstərir. Aydın məsələdir ki, əlilliyi olan şəxslər cəmiyyətin müxtəlif sferalarında birbaşa və ya dolayı yolla stiqmaya, ayrıseçkiliyə məruz qalır.

İnkişaf edən sosial siyasətin bir parçası olaraq son dövrlərdə əlilliyi olan gənclərin cəmiyyətə inteqrasiyası sahəsində mühüm addımlar atılır, müxtəlif səpkili tədbirlərdə sağlamlıq imkanları

məhdud gənclərin də iştirakı təmin olunur. Əlilliyi olan gənclərin cəmiyyətə inteqrasiyasının ölkəmizin gənclər siyasətinin bir parçası olduğunu Azərbaycan Gəncliyi 2017-2021-ci illərdə dövlət proqramının məqsədləri arasına daxil edilmiş "xüsusi qayğıya ehtiyacı olan gənclərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi" adlı 2.1.15-ci bəndindən də görmək olar [2].

Məlum olduğu kimi məşğulluq, müəyyən bir peşəyə sahib olmaq sosiumun bir parçası olmağın vacib elementlərindəndir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində fəaliyyət göstərən 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya mərkəzi müxtəlif peşəyə yiyələnməkdə əlilliyi olan gənclərə dəstək olur. 2013-cü ildən fəaliyyət göstərən mərkəzdə əlilliyi olan gənclər həyata atılmaq üçün ilk addımlarını ataraq, bir peşəyə yiyələnirlər. Mərkəzdə toxuculuq, xalçaçılıq, aşpazlıq, ağac üzərində oyma, rəssamlıq, kompüter vəbərbər kursları fəaliyyət göstərir. 15-29 yaş aralığında olan gənclər üçün nəzərdə tutulmuş kurslar 3 və ya 6 ay davam edir və kursu bitirən, yekun imtahandan uğurla keçənlərə sertifikatlar təqdim olunur. 200 nəfər üçün nəzərdə tutulmuş mərkəzdə gənclərin kurs müddətində yaşaması da təmin olunur vəgənclər onlar üçün yaradılmış tibbi-sosial xidmətlərdən yararlanırlar [5].

2020-ci ilin "Könüllülər İli" elan olunmasından sonra daha da genişlənən könüllülük hərəkatı da bütövlükdə gənclərin cəmiyyətə inteqrasiyanın mühüm parçası olub, kollektivəuyğunlaşmaq, ünsiyyət, komanda işi kimi vacib keyfiyyətləri gənclərə aşılamağa imkan yaradır. Artıq bir Azərbaycan brendinə çevrilmiş ASAN Xidmət mərkəzləri Azərbaycanda könüllülük hərəkatının başlandığı məkan olaraq hazırda 22000-dən çox cari və məzun könüllüsü olan bir dövlət qurumudur. ASAN könüllülərinin uğuru olan,2013-cü ildən fəaliyyət göstərən ASAN Könüllülər Təşkilatının (AKT) tərkibində Sağlamlıq İmkanları Məhdud Gənclərlə İş Departamenti fəaliyyət göstərir və departamentin yaradılmasının təşəbbüskarı və rəhbəri sağlamlıq imkanları məhdud gənclərdir [1]. 2017-ci ildən fəaliyyət göstərən departament ASAN xidmət mərkəzlərində könüllü olan sağlamlıq imkanları məhdud gənclərlə işləyərək, onlara aktiv həyat tərzi keçirmələri üçün dəstək olur.Departamentin rəhbəri Sənan Ələsgərovun verdiyi məlumata görə, bu günə qədər Bakı və regional ASAN Xidmət mərkəzlərində51 nəfər əlilliyi olan gənc könüllü olub və onlardan10 nəfəri könüllülük fəaliyyətlərini başa vurduqdan sonra müxtəlif özəl təşkilatlarda işləməyə başlayıb. Əlilliyi olan gənclərin könüllülüyə cəlb olunması, cəmiyyətdən ayrı düşməməsi üçün departamentin əməkdaşları onların ailələri və sosial əhatələri ilə də görüşərək müxtəlif maarifləndirmə tədbirləri təşkil edirlər. Departamentin əsas məqsədi əlilliyi olan gənclərin cəmiyyətə inteqrasiyasını həyata keçirmək və bununla yanaşı olaraq əlilliyi olan şəxslərin cəmiyyət həyatında tipik şəxslərlə bərabər səviyyədə fəaliyyət göstərmələrini təmin etməkdir.

Əlilliyi olan gənclər üçün mövcud olan proqramlar daimi olaraq təkmilləşir, proqramların inkişafında sağlamlıq imkanları məhdud gənclərin də maraqları nəzərə alınır. 2019-cu ilin may ayından fəaliyyətə başlayan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin əlilliyi olan gənclərin könüllülük fəaliyyətinə cəlb olunması üçün xüsusi proqramı mövcuddur. Gənc DOST proqramının alt proqramı kimi fəaliyyətdə olan İnklüziv DOST proqramı 14-29yaş aralığında olan əlilliyi olan gənclərin könüllülük hərəkatına qoşulması, tipik gənclərlə əlilliyi olan gənclərin bir arada fəaliyyət göstərməsi üçün nəzərdə tutulub. 1 ildən az müddətdir fəaliyyət göstərməsinə baxmayaraq mərkəzin artıq 6 nəfər inklüziv könüllüsü olub və 2 aylıq könüllülük fəaliyyətini uğurla başa vuran inklüziv DOST-lardan 2-i artıq DOST mərkəzlərinin əməkdaşıdır [5].

Əlilliyi olan gənclər üçün mövcud olan modern xidmətləri gənc sosial işçilər olaraq bilməli, əlilliyi olan gənclərin cəmiyyət həyatında tipik gənclərlə bərabər səviyyədə fəaliyyət göstərməsi üçün xidmətləri təkmilləşdirməli, xidmətlərin hazırlanmasında əlilliyi olan gənclərin də iştirakını təmin etməliyik.

Açar sözlər: əlilliyi olan gənclər, inteqrasiya, könüllülük, sosial işçi.

Ədəbiyyat

1. asanyouth.az
2. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı / www.mys.gov.az
3. Əlilliyi olan şəxslərin hüquqları haqqında Azərbaycan Respublikasının qanunu / www.e-qanun.az
4. Gənclər Siyasəti Haqqında Azərbaycan Respublikasının Qanunu / www.eqanun.az
5. sosial.gov.az

XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ SİYASİ REPRESSİYALARI

Xəlilzadə Milanə
Azərbycan Universiteti
roza.mammadova@student.au.edu.az

XX əsrin 20-ci illərində Azərbaycan SSR-in elan edilməsi qonşu ölkə və xalqaların inqilabi,liberal-demokratik,ictimai-siyasitəşkilatları tərəfindən birmənalı qarşılanmadı. Qərb dövlətləri Yaxın və Orta Şərqin sərhədlərində Sovet respublikasının yaranmasına düşmənçilik bəsləyir,"sovet hakimiyyəti"nin möhkəmlənməsinə hər vəchlə mane olmağa çalışırdılar. Öz növbəsində Rusiyaya yenicə ələ keçirdiyi torpaqlarda uzunömürlü və güclü hakimiyyət üçün bir sıra tədbirlər görürdü.

1921-ci ildə Nəriman Nərimanovun sədrliyi iləAzərbaycan SSR Xalq Komissarları Soveti təşkil olunduqdan sonra, bolşeviklər düşmən hesab etdikləri rəqiblərini, ziyalıları, Azərbaycan ordusunun yüksək rütbəli hərbiçilərini həbs etməyə başladılar. 1920-ci ilin aprelin 28-dən – 1921-ci ilin avqusutunadək 48 min nəfər Azərbaycanda bolşevik terrorizimin qurbanı olmuşdu. Bu siyahıda Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Kabinetinin keçmiş sədrləri F.Xoyski və N.Yusifbəyli, parlamentin sədr müavini H.Ağayev, hökumət üzvləri X.Rəfibəyli, İ.Ziyadxanov və başqaları da var idi.

SSRİ-nin süqutundan sonra Rusiyada tətqiqatçıların aşkara çıxardığı faktlar 20-ci illərdə V.İ.Leninin sovet tarixşünaslığında göstərildiyi kimi , humanist deyil, qəddar bir siyasətçi olduğunu sübut edir. Sovet hökumətinə qarşı Azərbaycanın ayrı-ayrı yerlərində baş verən üsyanlar yatırıldıqdan sonra belə,V.İ.Leniin 19 mart 1923-cü ildə Siyasi Büroya, Baş Siyasi İdarəyə, Ədliyyə Xalq Komissarlığına və İnqilabi tribunalına göndərdiyi məktubunda qeyd edirdi: "Xüsusilə ən böyük monastr və kilsələrin qiymətli əşyaları ən qısa müddətə heç nəyə baxılmadan, amansız qətiyyətlə əllərindən alınmalıdır. Bu münasibətlə nə qədər çox irticaçı burjua və din nümayəndələrini güllələsək, daha da yaxşı olar Məhz elə indi əhalinin gözünü elə qorxutmaq lazımdır ki, onlar bir neçə on illər hansısa müqavimət haqqında fikirləşməyə cürət etməsinlər [3, s.296].

1920-ci ilin aprelindən həmin ilin sentyabrınadək Azərbaycan xüsusi xidmət orqanları 1308 nəfəri nəzarət altına aldılar [2, s.192.193]. Lakin onlara sonralar Nəriman Nərimanovun təkidi ilə "kütləvi amnistiya" verildi, hakimiyyət orqanları ilə razılaşmaq istəməyənlər isə ciddi şəkildə cəzalandırıldılar.

Stalinin dövründə isə siyasi repressiylar özünün ən pik nöqtəsinə çatdı. Belə ki, 1934-cü ildə ÜKP-nin Leninqrad diyar komitəsinin rəhbəri Sergey Kirov güllələndi. Onun qətli sonralar 1920-1930-cu illərin müxtəlif liderlərinin aradan götürülməsi üçün istifadə olundu.

Azərbaycan xalqının həqiqi faciəsi isə 1936-cı ildən başlandı . Xalq əleyhinə , xüsusilə ziyalılar əleyhinə cəza tədbirləri 1937-1938- ci illərdə daha da amansızlaşdı [1, s.4] 1937-1938-ci illərdə Azərbaycan SSR-də həyata keçirilmiş və əsası 1937-ci ildə Azərbaycan Kommunist Partiyasının VI mart Plenumu tərəfindən qoyulmuş və siyasi repressiyaların qurbanı ilk növbədə rəhbər kadrlar olmuşdu. 1920-ci ilin fevralında Azərbaycan Kommunist partiyasının Mərkəzi Komitəsinin üzvləri seçilmiş və aprel işğalından sonra ilk hökümətin tərkibinə daxil olmuş R.Axundov, Ə.Qarayev, S.M.Əfəndiyev, Q.Musabəyov, D.Bünyadzadə, M.D. Hüseynov və b. keçmiş partiya rəhbərləri 1937-ci ildə xalqa xəyanətdə, əksinqilabi, cəsusluq fəaliyyətində təqsirləndirildilər və güllələndilər. Repressiya qurbanları arasında ölkə iqtisadiyyatının aparıcı sahələrinə rəhbərlik etmiş A.Serebrovskiy, A.Barinov, İ.Zeynalov, P.Qulbis, A.Slutski var idi [4].

Keçmiş partiya elitasının məhvilə başlayan "Böyük təmizlik"siyasəti tezliklə yoxsul təbəqələri, ətrafda baş verən hadisələri hələ dərindən dərk edə bilməyən fəhlə və kəndliləri də öz məngənəsinə almağa başladı. Yüzlərlə fəhlə və kəndli, ziyalı millətçilikdə, xalqa xəyanətkarlıqda, Almaniya, Yaponiya kəşfiyyat orqanları ilə əlaqədə təqsirləndirilərək məhv edildi.

Kütləvi repressiyalar Azərbaycan ziyalılıarından da yan keçmədi. Repressiyaların ilk qurbanları içərisində H.Cavid, M.Müşviq, T.Şahbazi, Ə.Razi, S.Mumtaz, Y.V.Çəmənzəmənli, Ə.Cavad kimi istedadlı, savadlı ziyalılar da var idi. Repressiya qurbanları arasında Azərbaycan cəmiyyətinin elmi potensialına və mənəvi zənginləşməsinə öz böyük töhfələrini vermiş görkəmli alimlər B. Çobanzadə, Ə. Qubaydullin, B. Tixomirov, A. Bukşpan, Azərbaycan səhnəsinin aparıcı aktyorları Ülvi Rəcəb Şaşikaşvili və Abbas Mirzə Şərifzadə var idi. Cəzalandırılanlar hamısı müxtəlif ölkələrin xeyrinə casusluqda, pantürkizmdə, panislamizmdə, xalq işinə xəyanətdə ittiham olunmuşdular.

Şübhəsiz ki, repressiya maşını insanların sosial və milli mənsubiyyətindən asılı olmayaraq, hamını öz cənginə almışdır. Təkcə 1937-ci ildə Azərbaycanda 22 xalq komissarı, 49 rayon partiya komitəsinin katibləri, 29 rayon İcrayyə komitələrinin sədrləri, 57 zavod və mədən direktorları, 95 mühəndis, 110 hərbi qulluqçu, 207 sovet və həmkarlar ittifaqı işçiləri, 8 professor həbs edilmişdir. Demək olar ki, onların əksəriyyəti güllələnmişdir. Məlumdur ki, təkcə 1936-cı il oktyabrın 1-dən 1938-ci il iyulun 1-dək Azərbaycan SSR-də 25222 insan həbs olunmuşdur. Onların 13356 azərbaycanlı idi. Lakin repressiyaların miqyası əhəmiyyətli dərəcədə böyük idi. Repressiya qurbanlarının ailə üzvləri və digər yaxın qohumları da repressiyalara məruz qalaraq ölkənin şimal rayonlarına və Orta Asiyaya sürgün edilmişdilər. Bunlar nəzərə alınsa, təkcə 1937-1938-ci illərdə repressiya qurbanlarının ümumi sayı 80 min nəfərdən çox idi. Lakin repressiyalar sırf Azərbaycan daxili terror kampaniyası deyildi. Bu siyasət Ümumittifaq səviyyəsində həyata keçirilirdi və ayrı-ayrı respublikalarda öz miqyası, xarakteri və qəddarlıq dərəcəsi ilə fərqlənirdi.

Kütləvi repressiyalar xalqın qəlbində qorxu hissini birdəfəlik gücləndirib, Sovet quruluşuna etiraz etmək mümkünlüyünü heçə endirdi. Böyük təmizlik illərində partiyanın yaşlı üzvlərinin məhvindən sonra onun sıralarında yaranmış boşluğu Stalin sistemi yeni gənc nəslin hesabına doldurmağa çalışmışdı. Bu nəsil Azərbaycanda sovet hakimiyyətinin təcavüz yolu ilə qurulması həqiqətinə deyil, Stalinin utopik, yəni könüllü sürətdə qatılması ideyasına inanmış və bu ideyanı müdafiə edən nəsil idi. Yeni kadrlar xalqın keçmiş tarixi, milli azadlıq hərəkatı məlumatlarından kənarda qalırdı. Yaradılmış sistem gənc nəsli sosializmi dünyanın ən ədalətli sistem olmasına inandırmış və onun sadiq əsgərlərinə çevirməyi bacarmışdı.

Açar sözlər: “Böyük təmizləmə”, repressiya.

Ədəbiyyat

1. Bünyadov. Z . Qırmızı terror Bakı 1993
2. Əmrahov. M. XX əsrdə Azərbaycanda milli-azadlıq hərəkatı. Bakı 2009
3. Zülfüqarlı.M Repressiya dövrünün tarixşünaslığı 2012
4. http://tarixinstitutu.az/page/112/repression

ERKƏN NİKAHIN HÜQUQİ ASPEKTLƏRİ

Zeynalova Zeynəb
Azərbaycan Universiteti
zeynalova.z97@mail.ru

Nikah Azərbaycan Respublikasında müəyyən qanun çərçivəsində həyata keçirilən, kişi və qadın arasında razılığa gəlinərək bağlanılan ittifaqdır. Nikahın bağlanması üçün müəyyən tələblər qarşıya qoyulur. Bunlardan da biri qanunla müəyyən olunmuş nikah yaşıdır.

Son illərdə erkən nikaha qarşı mübarizə tədbirləri gücləndirilsə də, problem aktuallığını qoruyur. Bütün cəhdlərə baxmayaraq, bir çox valideynlər yetkinlik yaşına çatmayan qızlarının erkən nikaha girməsinə razıdırlar.

Azərbaycan RespublikasınınAilə Məcəlləsinin 10-cu maddəsinə görə, "Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur"(1). Bu zaman onu da qeyd edək ki, bu qanuna müəyyən dəyişikliklər edilmişdir. Belə ki, 2011-ci ilə qədər 18 yaş yalnız kişilər üçün minimum nikah yaşı hesab edilirdi. O zaman qadınlarda bu yaş 17 idi. "15 noyabr 2011-ci il tarixli 255-IVQD nömrəli Azərbaycan Respublikasının Qanunu (“Respublika” qəzeti, 24 dekabr 2011-ci il, № 279, “Azərbaycan” qəzeti, 29 dekabr 2011-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 12, maddə 1110**)** ilə 10.1-ci maddəsində “kişilər üçün 18 yaş, qadınlar üçün 17 yaş” sözləri “18 yaş” sözləri ilə əvəz edilmişdir" [1].

1989-cu il 20 noyabr tarixində BMT tərəfindən qəbul edilən Birləşmiş Millətlər Təşkilatının Uşaq Hüquqları Konvensiyasına görə, 18 yaşdan aşağı hər kəs uşaq hesab edilir və uşaqların evlənməsi isə qadağandır. Bu müddəa 255-IVQD nömrəli Azərbaycan Respublikasının Qanununa dəyişikliyi labüd etdi.

Psixoloji, fizioloji və sosial cəhətdən inkişaf etməyən, hələ öz həyatını belə nəzarətdə saxlaya, idarə edə bilməyən yüzlərcə (bu rəqəm daha çox ola bilər) yeniyetmə qız öz istəyi və ya ailələrin məcburiyyəti ilə evlənirlər.

Evlənmə yaşından aşağı müəyyən yaş həddi yeniyetməlikdə böyük rol oynayır. Xüsusilə, 12-18 yaş arası insanlarda, əsasən də qadınlarda fizioloji inkişaf, eləcə də, psixoloji dəyişikliklər baş verir. Bu səbəbdən də qanunla tənzimlənən yaş həddindən aşağı insanların evləndirilməsi uşaq istismarı hesab edilir.

Erkən nikahların səbəblərini də məhz ailə bağları, genetika, eləcə də adət-ənənələri ilə əlaqələndirə bilərik.

Belə ki, kiçik yaşlardan evləndirilən qadınların çoxu öz qızlarının da erkən yaşda evləndirilməsində maraqlıdır. Cəmiyyəti fərdlər formalaşdırır. İnsanların çoxunun erkən yaşda ailə

qurmayan qızları tənqid etməsi, onları ailə qurmağa sövq etməsi cəmiyyətdə erkən nikah hallarının artması üçün münbit mühit yaradır. Böyüklərdən tez evlənmə ilə bağlı məsləhətləri dinləyən, "Tez evlənənlə tez oyanan udar" kimi ata sözləri ilə yetişdirilən yeniyetmələr artıq bu halları doğru qəbul etməyə başlayır. Cəmiyyətdə mənfi halların doğru analizi üçün təhsil, dünyagörüşü, eləcə də müasir baxış əsasdır. Ənənələrə söykənən mənfiliklər virus, irsi xəstəliklər kimi nəsildən-nəslə ötürülür. Bunun üçün yeni nəslin təhsil və dünyagörüşünün artırılması vacib hal alır. Ona görə də təbliğat işləri gücləndirilməlidir.

Azərbaycanda erkən nikah çox zaman birbaşa qız qaçırılma ilə bağlı olur. Bəzi bölgələrdə qız qaçırılma ənənələrlə bağlı olduğu üçün erkən nikahın da qarşısı alına bilmir. Nə qaçırılan qız özündə güc tapıb geri qayıda bilir, nə də ailəsi onu qəbul edir. Göründüyü kimi, cəmiyyətdə qınanılan hədəflərin əslində doğru obyekt olmaması da erkən nikahların sayını artırır. Belə ki, qınanılan və tənqid hədəfinə çevrilən məcbur şəkildə qaçırılan qız və onun ailəsi deyil, evlənmə yaşına çatmayan qızı qaçıranlar olmalıdır. Hətta bəzən hüquq-mühafizə orqanları belə, bu halda cəmiyyətdə kök salmış ənənələrdən çıxa, qızı qaçırana oğru kimi baxa bilmir, daha humanist yanaşaraq onun bağışlanması və ya cəzasının yüngülləşməsinə səbəb olurlar.

Hər bir halda, qız qaçırılma Azərbaycan Respublikasının qanun məcəlləsində cinayət tərkibli hal hesab edilir.

"2000-ci il sentyabrın 1-dək qüvvədə olan Cinayət Məcəlləsində qadını evlənmək məqsədilə oğurlama (129-cu maddə) cinayəti 3 ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tuturdu. Eyni hərəkətlər yetkinlik yaşına çatmayan şəxs barəsində edilərsə, 5 ilədək müddətinə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur.Lakin 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmiş yeni Cinayət Məcəlləsində bu əməl adam oğurluğu kimi tanınır və 144-cü maddə ilə tövsif olunur. Həmin Məcəllə ilə bu əməl 5 ildən 12 ilədək, eyni əməllər yetkinlik yaşına çatmamış şəxs barəsində törədildikdə 10 ildən 15 ilədək azadlıqdan məhrumetmə cəzası nəzərdə tutur" [2].

Erkən nikahların daha kütləvi hal aldığı bölgələr arasında Cənub zonası, Bakının kəndləri, eləcə də Gürcüstanın azərbaycanlılar yaşadığı ərazilər var. Gürcüstan Respublikasının qanunlarına nəzər yetirsək, görərik ki, 1 fevral 2017-ci ildə "Gürcüstanda vətəndaşların erkən nikaha daxil olmasının aşağı yaş həddi dəyişdirilib və azyaşlı uşaqlarla cinsi əlaqəyə görə, cəzalar sərtləşdirilib. Cinayət Məcəlləsinə edilən dəyişiklikdə deyilir ki, 16 yaşlı və daha aşağı yaşlı insanla intim əlaqə cinayət məsuliyyəti yaradır. Belə hallara yol verənlər üçün 7 ildən 9 ilədək həbs qətimkan tədbiri nəzərdə tutulub (əvvəlki qanunda bu maddə daha yüngül idi)" [3].

Gürcüstanda son dövrlərdə erkən nikahlar, qız qaçırılma ilə bağlı kəskin cəzalar tədbiq edilir:

"Baş Prokurorluq 2018-ci ildə "16 yaşına çatmamış şəxslə cinsi əlaqə və yaxud ona qarşı seksual xarakterli davranış maddəsi" ilə 3 nəfərə qarşı cinayət təqibi başladıb. 2017-ci ildə bu rəqəm 13, 2016-cı ildə isə 22 olub."Azyaşlıya qarşı seksual xarakterli zorakı davranış"a görə isə 2019-cu ilin ilk 6 ayında 3 nəfər barəsində, 2018-ci ildə isə 5 nəfər barəsində cinayət təqibinə başlanılıb.Daxili İşlər Nazirliyi universitet və tədris qurumlarında maarifləndirici tədbirlər keçirdiyini bildirib. Qurumun İnsan Hüquqlarının Müdafiəsi və Regionların Polis departamentlərinin əməkdaşları qadına qarşı zorakılıqla 16 günlük mübarizə kampaniyası çərçivəsində Tbilisi, Kaxeti, Şida kartli və Kvemo-Kartlidə, Acarada və Sameqreloda 12 görüş keçiriblər" [4].

Erkən nikahların digər bir səbəbi isə valideynlərin islah edə bilmədiyi övladların "evlilikdə kəramət var" fikri ilə evləndirilməsidir.

Müəyyən yaş həddinə çatmış, həyat təcrübəsi olan şəxslərin tərbiyələndirə bilmədikləri gənclər ailə həyatlarında da problemlər yaradır, bəzən cinayət xarakterli əməllər törədirlər.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin internet portalında 2018-ci ildə ailə münaqişəsi zəminində baş verən cinayətlərin sayı 1175 olmuşdur.

İndi isə statistik göstəricilərə uyğun olaraq, fikirlərimiziəsaslandırmağa çalışacağıq. 2011-ci ildə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin internet portalında "Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair statistik müayinənin nəticələri" (Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 26 dekabr tarixli, 2583 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramı"□ na uyğun olaraq, Dövlət Statistika Komitəsi 2010-cu ilin oktyabr ayında ölkə ərazisində "Qızların erkən nikaha daxil olması və rəsmi nikahdan kənar doğum hallarının öyrənilməsinə dair" statistik müayinə) yer almışdır. Təəssüf ki, son dövrlərin bu statistikasına rast gəlmədik. Nəticələrə əsasən, erkən nikah yaşayan qadınların 39 faizi şəhər, 61 faizi kənd sakinləridir. Aydın olur ki, təhsilin, maariflənmənin az olduğu kəndlərdə erkən nikahların sayı yüksəkdir.

Onu da qeyd edək ki, " Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi BMT Uşaq Fondu ilə birgə 2009-cu uldə “Erkən nikahlar: uşaq hüquqlarının pozulması” ilə bağlı sosial araşdırma aparmışdır. Bakı, Abşeron, Quba, Lənkəran və Ağstafa bölgələrində tədqiqat aparılmış və Azərbaycanda erkən nikahın qarşısının alınması və ona qarşı tədbirlərlə bağlı qanunvericilikdə, siyasətdə və təcrübədə tələb olunan təkmilləşdirmə üzrə tövsiyələr təqdim olunmuşdur. Burada qızlar üçün nikah yaşı 1 yaş qaldırılaraq 17-dən 18-ə qaldırılmışdır" [5, 3].

Ən maraqlı hal isə ondan ibarətdir ki, statistik göstəricilərdən də aydın olur ki, qadınların 68%-nin, o cümlədən 18 yaşa qədər olanların 56 %-nin erkən nikahların qadınların sağlamlığına zərərli, eləcə də qanuna görə, erkən nikah yaşının 18 olmasından xəbərləri vardır.İnsanlar bilərəkdənhəmsağlamlıqlarına zərər dəyməyi gözə alır, həm də qanunları pozurlar.

Statistik göstəricilərə görə, erkən nikah bağlanması problemi ilə üzləşənlərin üçdə iki hissəsi hüquq-mühafizə orqanlarına müraciət etmişdir. Əslində, bu hal da sevindiricidir ki, Azərbaycanda hüquqlarını bilən və hər hansı qanun pozuntusuna görə hüquq-mühafizə orqanlarına üz tutan yeniyetmələr kifayət qədərdir.

Erkən nikahların qarşısının alınması üçün gənclərə hüquqi dərslərin verilməsi, azyaşlıların evləndirilməsində səbəbkar olanlarıncinayət məsuliyyətinə cəlb edilməsi və bundan başqa, bu məsələdə cəza tədbirlərinin gücləndirilməsi lazımdır.

Açar sözlər: erkən nikah, statistika, ailə, hüquq, qanun.

Ədəbiyyat

1. http://www.e-qanun.az/code/10
2. http://www.e-qanun.az/framework/3292
3. https://report.az/region/gurcustanda-erken-nikaha-daxil-olmagin-yas-heddi-deyisdirilib/
4. “İmza atmağı belə bilməyən” erkən evləndirilən qızlar https://www.bbc.com/azeri/azerbaijan-50205482
5. Veysəlova A. Erkən nikahlar (təhlil). http://scfwca.gov.az